Qəzənfər
PAŞAYEV

KƏRKÜK
FOLKLORUNUN JANRLARI

QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

III CİLD

BAKI–2012

Elm əvvəli görünən, sonu görünməyən bir aləmdir. Bu aləmdə hərə bir yolla gedir. Hərə bir nəticəyə gəlir. Yenilik görülmüş işlərin sayəsində yaranır.

QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

III CİLD

«TƏHSİL»
BAKI–2012

Redaktorlar: **Bəkir Nəbiyev,** *akademik*
Mahir Naqib, *professor, dr.*
Suphi Saatçı, *professor, dr.*

Rəyçilər: **Azad Nəbiyev,** *professor*
Nizaməddin Şəmsizadə, *professor*
Əbdüllətif Bəndəroğlu, *dr.*

Paşayev Qəzənfər
P 26 Seçilmiş əsərləri. III cild.
Bakı, «Təhsil», 2012, 496 səh.

Professor Qəzənfər Paşayevin «Seçilmiş əsərləri»nin III cildinə alimin «İraq–türkman folklorunun janrları (İstanbul, 1998; Bakı, 2003; Tehran 2008) monoqrafiyası və «Borcumuzdur bu ehtiram» (Bakı–2010) əsəri daxil edilmişdir. 1-ci əsərdə İraq–türkman folkloru ilk dəfə olaraq elmi-nəzəri cəhətdən araşdırılaraq elm aləminə təqdim edilmişdir. «Borcumuzdur bu ehtiram» əsərində isə dünyasını dəyişmiş, lakin qəlblərdə yaşayan tanınmış və xalq qarşısında əlahiddə xidmətləri olan görkəmli şəxsiyyətlərdən bəhs edilir.

P $\frac{4702060204}{053}$ 2012

© «Təhsil», 2012

QƏZƏNFƏR PAŞAYEV

KƏRKÜK folklorunun janrları

BAKI–«Elm»–2003

Elmi redaktorlar: **Bəkir Nəbiyev,** *akademik*
Mahir Naqib, *prof.*

Rəyçilər: **Azad Nəbiyev,** *AMEA-nın müxbir üzvü, prof.*

Əbdüllətif Bəndəroğlu, *dr.*

Paşayev Qəzənfər
Kərkük folklorunun janrları.
Bakı, «Elm», 2003. 320 s.

ISBN 5-8066-1556-1

Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin bu monoqrafiyasında Kərkük folkloru janr baxımından təsnif edilir, onun mərasim, epik, lirik növləri məzmun və poetik quruluşuna görə araşdırılır.

P **4604000000**
655(07)-2003

© Q.Paşayev, 2003
© «Elm» nəşriyyatı, 2003

ABİDƏ BİR ƏSƏR

Türkiyə xaricindəki türk xalqlarına mənsub elm və fikir adamlarının Türk dünyası ilə bağlı çalışmalarının həcmi və səviyyəsi danılmazdır.[1] Hətta bəzi sahələrdə aparılan tədqiqatların dərinliyinə nəzər salındıqda, onların Türkiyənin özündə belə bənzəri çətin tapılar. Ancaq 1990-cı ilə qədər siyasi azadlıqların olmamasını göz önünə gətirsək görərik ki, bu ölkələrdəki tədqiqatçıların çoxu əsərlərini içində yaşadığı siyasi rejimin ideologiyasına uyğun yaratmaq məcburiyyəti altında qalmışlar. Çünki burada Türk dünyasının mədəniyyət baxımından eyniliyini isbatlamaq belə suç hesab olunurdu. Ancaq bunun az istisnaları da olmuşdur. Bu istisnalardan biri, bəlkə də, ən önəmlisi dəyərli elm adamı Qəzənfər Paşayevin göstərdiyi xidmətlərdir. Q.Paşayev XX əsrin 60–70-ci illərində altı il İraqda bir rus firmasında ingilis dili üzrə mütərcim işlədiyi vaxt, gecəsini gündüzünə qataraq İraq türkləri barədə folklor materialları toplamış, İraq türklərinin şair, ədəbiyyatçı və araşdırmaçıları ilə tanış olmuş, yazılı və şifahi qaynaqlara nüfuz etmiş, çox zəngin bir kolleksiya[2] ilə məmləkəti Azərbaycana dönmüşdü. Həmin tarixdən sonra bir ipligə inci dənələri düzən kimi, qiymətli kitablarını sıralamağa başlamışdır:

1. Kərkük bayatıları (Rəsul Rza ilə birlikdə), 1968
2. «Arzu-Qəmbər» dastanı, 1971
3. Kərkük mahnıları, 1973
4. İraq–Kərkük atalar sözləri, 1978
5. İraq–Kərkük bayatıları, 1984
6. Kərkük tapmacaları, 1984
7. Altı il Dəclə-Fərat sahillərində, 1985

---

[1] Q.Paşayevin «İraq–Türkman folkloru» (İstanbul, 1998) kitabına yazdığı giriş məqaləsini ixtisar və düzəlişlərlə burada verməyə ehtiyac duydum (Mahir Naqib).

[2] Elmi, bədii və tarixi əhəmiyyəti olan materialların müəyyən sistem üzrə toplanması.

8. Kərkük folkloru antologiyası, 1987
9. İraq–türkman folkloru, 1992

Bu kitablar Quzey Azərbaycanda illər ərzində, həm də siyasi rejimin ən sıx olduğu dönəmdə ənənəyə çevrilən bir cığır açmışdır. Kitabların azəri ziyalılarına təsiri özlüyündə bir tədqiqat mövzusudur.

Hər oxumuş insanın kitabxanasında bu kitabların ən azı birinə rast gəlmək mümkündür. Bu kitablar haqqında yayınlanan tanıtma yazıları, təhlillər olduqca çoxdur. Ayrıca bu əsərlər, azəri türkcəsiylə və rusca yayınlanmış bir çox kitabda qaynaq olaraq göstərilmişdir. Qısası, XX yüzilin Azərbaycanı İraq türkünü Qəzənfər Paşayevlə yenidən kəşf etmişdir. Əslində, Azərbaycan ziyalısı İraq türklərini 1959-cu ildə bir təsadüf nəticəsində Kərkükü ziyarət edən azəri şair və ədəbiyyatçıları Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadə ilə tanımışdır.

Ayrıca XX əsrin 60-cı illərində Bakıda yaşayan kərküklü Sinan Səidin də bu tanışlıqda böyük rolu olmuşdur. Amma onların heç birinin Q.Paşayevin çalışmaları qədər dərin iz buraxmadığı aydındır.

Türkiyədə İraq türkləri barədə kitab yazanların hamısının kərküklü olduğuna baxılarsa, Qəzənfər Paşayevin iki məsələdə müstəsna bir araşdırmacı olduğu ortaya çıxır:

1. Qəzənfər Paşayev İraq xaricində, İraq türklərinin folkloru barədə kitab nəşr edən və iraqlı olmayan ilk elm adamıdır.

2. Qəzənfər Paşayev İraq xaricində, İraq türklərinin folkloru mövzusunda doqquz kitab nəşr edən ilk və tək elm adamıdır.

Azərbaycanlı araşdırmaçı prof. Əzizə Cəfərzadənin dediyi kimi, Qəzənfər Paşayev ömrünü tam olaraq İraq–türkman folkloruna həsr etmiş, ağır çalışmalar nəticəsində böyük başarılar qazanmışdır. Gerçəkdən də, Q.Paşayevi bu milli amala təhrik edən elə güclü bir milli hiss olmalıydı ki, az bir zamanda bu qədər əsər ortaya qoya bilsin. Hələ 1988-ci ildə Bəxtiyar Vahabzadə Q.Paşayevə üz tutaraq yazmışdı: «Sən İraqda 6 il

rəsmi vəzifədə işləyərkən, bu sahədə öz vəzifə borcunu yerinə yetirməklə də kifayətlənə bilərdin. Lakin içində qımıldanan vətəndaşlıq hissi səni daha başqa bir borca səslədi. Bu səs damarlarında axan qan yaddaşının səsi idi. Sənin damarlarında dillənən səs, kərküklü qardaşlarının əsrlərdən bəri qanlarında qoruyub saxladıqları əcdadın – kökün səsi ilə həmahəng səsləndi və səni mənəvi borcunu ödəməyə çağırdı. Sən bu mənəvi vəzifəni şərəflə yerinə yetirdin».[1]

Qəzənfər Paşayev İraq türklərinin folklorunu qələmə alaraq tədqiq etməklə kifayətlənməmişdir. O, ailəsi ilə birlikdə Kərkük folklorunu ömürlük yaşamaqda və yaşatmaqdadır.

1991-ci ilin mart ayında Azərbaycana birinci ziyarətimdə ilk işim Q.Paşayevi aramaq olmuşdu. İlk görüşdə bir-birimizə o qədər tez yaxınlaşdıq ki, sanki illər idi bir-birimizi tanıyırdıq. İlk diqqətimi çəkən xüsusiyyət Kərkük folklorunun Paşayevin ailəsində də yaşamasıydı. O zaman yeddi yaşında olan oğlu Muradın Kərkük tapmacalarını, sanamalar və çaşırtmalarını əzbər bildiyini görüncə sevincdən göz yaşlarımı saxlaya bilməmişdim. Heyrətlə öz-özümdən sormuşdum: «Əcəba, bu gün Kərkükdə neçə türk uşağı Murad kimi bu tapmacaları əzbər bilir?»

Q.Paşayev ayrıca olaraq maddi-mədəniyyət abidələrini yaşadan bir adamdır. O, sadəcə Kərkük folklorunu tədqiq etməklə kifayətlənməmiş, silinməyə üz tutan bu abidələri toplayaraq yaşatmağa da əzmli və qərarlı davranmışdır. Bakının folklor qoxuyan İçərişəhərində əski bir ev təmir etdirərək onu «İraq–Türkman Ocağı» adı altında muzeyə çevirmişdir. İçinə də bu günə qədər İraq türkləri haqqında İraqda, Türkiyədə və Azərbaycanda yayınlanmış bütün kitab və dərgiləri şüşəli vitrinlərdə sərgiləmişdir. Bu muzeyin bir otağını da prof. İhsan Doğramacıya ayıraraq, onun, Əta Tərzibaşının, Sinan Səidin və Əbdüllətif Bəndəroğlunun yağlı boya portretlərini

[1] Bəxtiyar Vahabzadə. O qədər uzaq, bu qədər yaxın. Bax: «Gəlin açıq danışaq» kitabı, Bakı, 1988, səh. 147–152.

asmışdır. Bu Ocağı 1995-ci ilin aprelində hörmətli İhsan Doğramacı açmışdır.[1]

Q.Paşayevin indi əlinizdə olan «İraq–türkman folkloru» monoqrafiyası barədə söz açarkən deməliyəm ki, folklorla bağlı çalışmalar bir-birini tamamlayan üç mərhələdən ibarət olur. Birinci mərhələ material toplamaq, ikinci mərhələ materialı təhlil süzgəcindən keçirmək, üçüncü mərhələ isə faktlarla bağlı müqayisələr aparmaqdır. Müqayisələr zamanı tədqiqatçının hökmlərinin dəqiqliyi, onun elmi qabiliyyəti və mövzuya nə səviyyədə vaqif olduğu da ortaya çıxır. «İraq–türkman folkloru» kitabı göstərir ki, bu baxımdan Q.Paşayevi alqışlamaq gərəkdir.

Rəhmətlik Abbas Zamanovun qeyd etdiyi kimi, bu əsərdə Q.Paşayev faktları sadəcə sadalamamış, dərin təhlilləriylə kitabında elmi və inkarolunmaz nəticələrə gəlmiş, qənaətlərini məntiqi cəhətdən təsbit etmişdir. Q.Paşayevin «İraq–türkman folkloru» kitabı səbətlər dolu meyvənin böyük bir vazada yığılmasına bənzər. Bu kitabda toplanan bilgi və örnəklər, müqayisəli təhlillər, Azad Nəbiyevin dediyi kimi, təkcə folklorşünaslar üçün deyil, eyni zamanda tarixçilər, etnoqraflar üçün də yeni və önəmlidir.

Burada oxucunun diqqətini bir cəhətə çəkmək zəruriyyəti də ortaya çıxır. Əsər oxunarkən görünəcək ki, hörmətli Q.Paşayev «türkmən»i «türkman»dan ayırmaqdadır. Hətta kitabın azəri çapında kitaba «İraq–türkman folkloru» adı vermişdir. Q.Paşayevin çeşidli qaynaqlara dayanaraq müdafiə etdiyi qənaəti dəstəkləmək gərəkdir. Ancaq Türkiyədə «türkman» kəlməsinin işlənməməsi və İraq türklərinin «türkmənlər» olaraq tanınması, bizi «türkman» yerinə «türkmən» kəlməsini işlət-

[1] Sonralar «İraq–Türkman Ocağı»nın eksponatları MEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə verildi. Q.Paşayevin İraqdan gətirdiyi yeni eksponatlarla zənginləşdirildi və 2001-ci il iyunun 20-də muzeydə 100 kv.m sahəsi olan zalda «İraq–türkman ədəbiyyatı və mədəniyyəti daimi ekspozisiyası» yaradıldı (elmi redaktordan).

məyə məcbur etmişdir. Tədqiqatçının əngin ürək genişliyinə arxalanaraq bizdən inciməyəcəyinə əminik.

Əsərin başqa bir xüsusiyyəti ondan ibarətdir ki, çox sayda ərəbcə, rusca, ingiliscə və türkcə qaynağın yanında tədqiqatçının bir çox folklor örnəklərini yazılı qaynaqdan almaması, Kərkük və yörəsini addım-addım, kənd-kənd dolaşması və yaşlıların söylədiklərini kağıza köçürərək şəxsi arxivə çevirməsidir.

Azərbaycanın müstəqilliyə qovuşmasından sonra bir çox azəri yazarı Türkiyədə dəyərli kitablar yayınlamışdır. Ancaq bu kitabların çoxu Azərbaycan haqqındadır. Q.Paşayevin əsəri bunlardan önəmli bir nöqtədə fərqlənir və bu fərq onun dəyərini artırmaqdadır. Ayrıca bu əsərin Türkiyədə İraq türklərinin mədəni məsələləri ilə əlaqədar bir vəqf tərəfindən yayınlanmasının mənalı ifadələri vardır. Azəri bir araşdırmacının İraq türkləri mövzusunda qələmə aldığı bir əsəri Türkiyədə yayınlanmaqdadır. Bu hadisə türk dünyasının müştərəkliyini, böyüklüyünü və zənginliyini göstərməkdədir. Siyasət və ideologiyalar iki qardaşı bir-birindən ayıra bilir. Amma milli-mədəni dəyərlər qaldıqca qardaşlığı yox etmək mümkün deyildir.

Bir zamanlar tək torpaq parçası halında olan Kərkük və Azərbaycan, XX yüzilin başlarında iki ayrı ada halına gəlmişdir. Bu gün iki adanı bir-birinə bağlayan körpünün memarı Q.Paşayevdir. Şübhə yoxdur ki, günümüzdə adacıqlar halına gələn Türk dünyasını bir-birinə bağlayan mədəni körpülərin ağırlığını Q.Paşayev kimi şüurlu elm adamları çiyinlərində daşıyacaq və gələcəkdə də yüksək tutacaqdır. Möhtərəm Qəzənfər Paşayevin məna və ciddiyyət dolu, əhatəli və birləşdirici çalışmalarını, sadəcə, Kərkük və Azərbaycanda deyil, bütün Türk dünyası minnətdarlıq və şükranlıqla anacaqdır.

Prof., dr. Mahir Naqib,
Türkiyə, Erciyes Universiteti, Kayseri

GİRİŞ

Xalqın ən böyük milli sərvəti onun folklorudur. Folklor sözün həqiqi mənasında xalqın ruhu, psixologiyası, tarixidir. Onun istək və arzularının, təsəvvür və təfəkkürünün, mənəvi aləminin güzgüsü, bitib-tükənməyən incilər xəzinəsidir. Hələ bu az imiş kimi, «folklor Şərq müdriklərinə öz sərrastlığı və dəqiqliyi ilə seçilən elə bir hikmət bəxş etmişdir ki, eşidənlər bu yandan mat qalır, digər tərəfdən də ona pərəstiş edirlər» (267, 13).*

Folkloru bilmədən xalqın psixologiyasını, onun əsl tarixini, bəşər tarixində məxsusi yerini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət-ənənəsini və s. dərk etmək, anlamaq çətin olur.

Əsatir və bayatıda, nağıl və dastanda əbədiləşən, canlı yaddaşa çevrilən, heç kəsin soyunu, əslini, zatını unutmağa qoymayan, onu parçalanmaqdan xilas edən, şüurda, düşüncədə, mənəviyyatda xalqın bütövlüyünü təmin edən də folklordur (70, 3–4).

Bu baxımdan, müəyyən ictimai-siyasi səbəblər üzündən soykökündən ayrı düşmüş, təcrid olunaraq ərəb və kürd xalqları əhatəsində, İraqın şimalında, əsasən Kərkük vilayətində toplu halda yaşayan, XX əsrin 60-cı illərində sayı 600 min (166, 60), indi isə iki milyon yarıma yaxın olan (358[a], 8, 362, 36, 53) elatın – azərbaycanca danışan xalqın folkloru xüsusi əhəmiyyət kəsb edir.

Biz «azərbaycanca danışan xalq» terminini təsadüfi işlətmirik. Başda «Böyük Sovet Ensiklopediyası» (178, 277), «Sovet Ensiklopediya lüğəti» (296, 26) olmaqla, keçmiş sovet və əcnəbi mənbələr İraqda azərbaycanlıların yaşadığını göstərirlər.

---

*Çıxarışlar əlifba sırası ilə əsərin sonunda «Qaynaqlar»da verilmişdir. Qaynaqlar bir-birindən nöqtəli vergüllə, səhifələrdən isə vergüllə ayrılmışdır.

Görkəmli türkoloq Karl Menqes «Türk dilləri və türk xalqları» kitabında yazır: «Azərbaycanlılar həmçinin İraqın şimalında da yaşayırlar. Sayları 100 mindən artıqdır» (351, 12–13).

Türkiyəli tədqiqatçı, prof. Cəlal Ərtuq isə bu münasibətlə yazmışdır: «Ərbil və Kərkük vilayətlərində bu gün iki milyon yarım türkmən – azəri yaşamaqdadır (358[a], 8). Demək lazımdır ki, onlar toplu halda, əsasən, Kərkük vilayətində: Kərkük şəhərində, Tuz Xurmatu (qəza), Altun Körpü (nahiyə), Təzə Xurmatu (nahiyə), Badava, Bəşir, Böyük Hasar, Bilava Qarabulaq, Qızılyar, Yaycı, Yarvəli, Yengicə, Kərküz, Kümbətlər, Leylan, Ömər Məndən, Tərcil, Gögtəppə, Tisin, Toxmaxlı, Türkalan, Çardaxlı və eləcə də «Bayat köyləri» sahəsi adlanan və 64 kəndi əhatə edən Kifri (qəza), Qərətəppə (nahiyə), Daquq (nahiyə), Abud, Cambur, Birauçılı, Bastamlı, Qalxanlı, Qaranaz, Əmirli, Əski Kifri, Zəngili, Yeşiltəpə, Kəhriz, Kingirban, Kötəburun, Laqum, Aştökən, Pirəhməd, Səyyad, Süleyman bəg (Muratlı), Tel Mənzil, Üştəpə, Xasadarlı, Hasarlı, Cabarlı kimi şəhər, rayon, qəsəbə və kəndlərdə yaşayır. Bundan əlavə, Diyala vilayətinin Xanaqin (qəza), Şahraban (qəza), Dəlli Abbas (nahiyə), Məndəli (nahiyə), Qarağan, Qızlarbat, Qızılca, Susuzbulaq kəndlərində, Ərbil vilayətinin mərkəzi Ərbil şəhərində, Mosul vilayətinin Tiləfər qəzasında, Mosul şəhərində və ölkənin paytaxtı Bağdad şəhərində yaşayırlar.

Demək lazımdır ki, vaxtaşırı ölkədə inzibati-ərazi bölgüsündə dəyişikliklər edilir. Məsələn, əvvəllər Kərkük vilayətinə daxil olan Tuz Xurmatu qəzası indi yeni təşkil edilmiş Salahəddin vilayətinə, Kifri qəzası isə Diyalə vilayətinə qatılmışdır. Bir qisim kəndlər isə ya ləğv olunub, ya da başqa kəndlərlə birləşdirilib.

Bəzi tədqiqatçılar türkmanlar yaşayan ərazilərin ərəblər yaşayan ərazilərə qatılmasının siyasi məqsəd güddüyünü qeyd edirlər (356[a], 17).

Keçmişdə olduğu kimi, onlar özlərini də, bizi də «türkman» adlandırırlar (73, 27; 74, 8; 211, 6).

Demək vacibdir ki, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə və sonralar da geniş mənada işlənən «türkman» etnonimi indiki mənadan fərqlənir. Məhz buna görədir ki, prof. Ə.Dəmirçizadə «Azəri ədəbi dili tarixi» kitabında yazmışdır: «O dövrlərdə «türkman» etnonimi indiki mənadan bir qədər fərqli işlənmiş, hətta indiki Bağdad ətrafındakı azərilərin türkman adlanmaları da bu sözün əvvəlki mənası ilə əlaqədardır» (89, 72).

Başqa məxəzlərə nəzər saldıqda professor Ə.Dəmirçizadənin bu fikrinin tamamilə doğru olduğu aşkara çıxır.

V.Bartold «Kitabi-Dədə Qorqud»un «Qafqaz türkmanları»na – azərbaycanlılara məxsus olduğundan söz açır (136, 6).

Tarixdən məlumdur ki, Şəmsəddin Eldəniz Azərbaycan və İraqın taxt-tacına sahib olduqdan sonra «bütün böyük hökmdarları əzdi və çoxlarını özünə tabe etdi. Türkmənlərin qiyamçı başçılarını tamamilə darmadağın etdi» (186, 17; 59, 45).

Şairlərimizdən Nəsimi və Xətainin yaradıcılığında da bu terminə təsadüf edilir:

Ərəbin nitqi bağlandı dilindən
Səni kimdir deyən kim, türkmansan?
(Nəsimi)

Getdikcə tükənir ərəbin kuhi-məskəni
Bağdad içrə hər necə kim türkman qonar.
(Xətai)

İngilis tarixçisi S.Lonqriq isə göstərir ki, Şah İsmayıl Şirvanı tutduqdan sonra Naxçıvan yaxınlığındakı vuruşda türkmanları birdəfəlik darmadağın etdi (349, 16).

Kərküklü tədqiqatçı Əta Tərzibaşının araşdırmalarında da «türkman» etnoniminə sıx-sıx rast gəlirik. Görkəmli folklorşünas alim yazır ki, xoyratın (bayatı) kökləri İraqda türkmanların yaşadığı bölgələrdə meydana çıxmış, Ağqoyunlu və Qaraqoyunlu Türkman dövlətləri zamanı inkişaf edərək son-

ralar İraqdan Türkiyəyə, İranın quzeyinə, xüsusən də əhalisi türkman olan Təbrizə və eləcə də Azəri və ya Azərbaycan deyə adlandırılan və türkmanlardan ibarət Azərbaycan torpaqlarına yayılmışdır (74, 8; 197, 203).

Ziya Bünyadovun «Azərbaycan Atabəylər dövləti» kitabında da «türkman» etnonimi ilə bağlı bir çox bilgilər vardır. Kitabda göstərilir ki, III Toğrul dayısı Qızıl Arslana qarşı çıxır. Qızıl Arslan III Toğrulun və İzzəddin Həsənin türkmanlardan ibarət ordusunu darmadağın edir. Onlar döyüş meydanından qaçır, İzzəddin Həsənin Kərkük yaxınlığındakı Kərxın qalasına gəlirlər (59, 84).

Kərküklü alim Hidayət Kamal Bayatlı da bu məsələyə öz münasibətini bildirir: «Əslən Azərbaycan türklərindən olan İraq türkmənlərinin bir qismi də miladi 1505–1524 tarixlərində Şah İsmayıl tərəfindən İraqa yerləşdirilmişdir» (356[a], 20).

Adı çəkilən tədqiqatçıların «türkman» adı altında azərbaycanlıları və İraq türkmanlarını nəzərdə tutduqları şübhə doğurmur. Təsadüfi deyildir ki, Azərbaycanın Prezidenti cənab Heydər Əliyev «Qardaşlıq» dərgisinə verdiyi müsahibədə bu məsələ ilə bağlı demişdir: «Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır» (77[a], 4).

Burada diqqəti cəlb edən bir məsələni xüsusi qeyd etmək zərurəti meydana çıxır. Məsələ burasındadır ki, bəzi tədqiqatçılar «türkman», bəziləri isə «türkmən» etnonimini işlətmişlər. Görkəmli İraq türkman tədqiqatçılarından Əta Tərzibaşı, Şakir Sabir Zabit, İbrahim Daquqi, Rza Dəmirçi, Sinan Səid, Mövlud Taha Qayaçı və bir çox başqaları da «türkman» etnonimini işlətdiyi halda, Ə.Bəndəroğlu son vaxtlar «türkmən» etnoniminə üstünlük vermişdir. Onun redaktor olduğu «Yurd» qəzeti və rəhbərlik etdiyi «Türkmən mədəniyyət müdirliyi» xətti ilə buraxılan kitablarda da bu söz «türkmən» şəklində yazılır. Əvvəllər, hətta «İraq–türkman ədəbiyyatı yolunda bir addım» (92) və «Türkmanlar inqilabi İraqda» (336) kitablarının adında

belə «türkman» etnonimini işlədən tədqiqatçı «İraq–Türkman folkloru» (180) adlı əsərimizi redaktə edərkən bildirdi ki, ərəblərin də bu sözü «türkman» kimi işlətdiklərinə görə fərqlənmək naminə, son vaxtlar «türkmən» etnoniminə üstünlük vermişdir. Həqiqətən də, ərəblərin də bu sözü «türkman» şəklində yazdığını qeyd etməklə, Ə.Bəndəroğlunun nöqteyi-nəzərinin yanlış və ziyanlı olduğunu göstərmək lazımdır. Çünki «Kitabi-Dədə Qorqud» dövründən formalaşan «türkman» etnonimini beləcə dəyişmək heç cür məqbul sayıla bilməz.

Təsadüfi deyildir ki, «Dədə Qorqud» tədqiqatçıları F.Zeynalov və S.Əlizadə yazmışlar: «Drezden nüsxəsində aydınaşkar əliflə yazılan sözün «türkman» oxunması xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, türkmanlar, İraqdakı azərbaycanlılar – kərküklülərdir» (136, 250).

Kərküklü tədqiqatçı Mahir Naqib Osmanlı türkcəsinə çevirdiyi və İstanbulda çıxan «İraq–türkman folkloru» kitabımıza yazdığı «Abidə bir əsər» adlı məqaləsində bu məsələyə xüsusi diqqət yetirmişdir: «Əsər oxunarkən görünəcək ki, hörmətli Q.Paşayev «türkmən»i «türkman»dan ayırmaqdadır. Hətta kitabın azəri çapında ona «İraq–türkman folkloru» adı vermişdir. Q.Paşayevin çeşidli qaynaqlara dayanaraq müdafiə etdiyi qənaəti dəstəkləmək gərəkdir. Ancaq Türkiyədə «türkman» kəlməsinin heç işlənməməsi və İraq türklərinin «türkmənlər» olaraq tanınması bizi «türkman» yerinə «türkmən» kəlməsini işlətmək zorunda qoydu» (180[a], 12).

Göründüyü kimi, prof. Mahir Naqib də «türkman» etnoniminin işlənməsini dəstəkləyir.

Xoşbəxtlikdən Ə.Bəndəroğlu qənaətində yanıldığını dərk edərək 2003-cü ildən «Yurd» qəzetində və başqa mətbu orqanlarda «türkman» etnonimini işlədir.

Onu da deyək ki, «türkman» etnoniminin etimologiyası barədə də tədqiqatçılar arasında fikir ayrılığı vardır. XI əsrdən başlayaraq bu söz fars mənbələrində «türk-manənd» biçi-

mində işlənmişdir ki, bu da türkcə «türk», farsca «manənd» bənzər, yəni «türkəbənzər» deməkdir (255, 176–177; 359, 24).

Başqa bir məxəzdə göstərilir ki, ərəb dilini bilməyən türklərlə ərəblər arasında tərcümanlıq etdiklərinə görə «tərcüman» adı verilmiş, vaxt keçdikcə «tərcüman» kəlməsi «türkman» kimi işlənmişdir (357, 9).

Bir qisim tədqiqatçılar isə qeyd edirlər ki, türk+man – türk+mən – «türk adamı», «türk əsgəri» mənasında işlənmişdir (83, 18–19).

Məlumdur ki, yarımköçəri həyat keçirən türkmanlar tərəkəmə adlanmışlar. «Oğuz» və «türkman» anlayışlarının bir etnik topluma daxil olduğundan, «Dədə Qorqud» boylarından ilk söz açanlardan biri – Əbülqazi Xan Xivəli «Şəcərəyi-tərakəmə» – Tərəkəmələrin şəcərəsi – soykökü əsərində bu məsələyə də toxunmuşdur (136, 5).

«Türkman» etnoniminin «tərəkəmə» sözünün cəmi «tərakəmun»dan olması və «türkman» şəklinə düşərək sabitləşməsini də düşünmək olar.

Lakin biz «man» sözünün əzəmət, ululuq, xalis, əsl, böyük, qüdrətli mənasında işləndiyini bildirən tədqiqatçılara (357, 10) haqq qazandırırıq. Türkman sözünün lap qədim zamanlardan məlum olduğunu nəzərə alsaq, onun «ulu türk», «əzəmətli türk», «qüdrətli türk», «xalis türk», «əsl türk» anlamlarında işlənməsi şübhə doğurmur.

Azərbaycan dilində və Kərkük dialektində indi də işlənən qocaman, azman, ataman, keçəman (böyük kərtənkələ), şişman və s. kimi sözlərdə «man»ın böyük, ulu, əzəmətli mənasında işlənməsi deyilənlərə dayaq olur.

Onu da deyək ki, İraq-türkman ləhcəsi ilə Orta Asiya türkmənlərinin dili arasında əsaslı fərqlər vardır. Türkmən dilində ilkin uzanan saitlər geniş yayılaraq sözün mənasını dəyişir. Məsələn: baş – baş; baaş – yara; qör – gör; qöör – gor və s. Bu xüsusiyyət nə Azərbaycan dilində, nə də Kərkük dialektində özünü göstərir. Ərəb və ingilis dillərində yer alan dişarası

s, z səslərinə eynilə türkmən dilində də rast gəlinir. Bu səslər də nə Azərbaycan dilində, nə də ərəb dili əhatəsində olan İraq türkmanlarının dialektində müşahidə olunur.

Azərbaycan dilində də, İraq türkmanları arasında da geniş yayılan g səsinə də türkmən dilində təsadüf edilmir. Bir çox başqa xüsusiyyətlərdə də türkmən dili tamamilə fərqləndiyi halda, İraq–türkman ləhcəsinin fonetik quruluşu Azərbaycan dilinin fonetik quruluşu ilə üst-üstə düşür (174, 14–16; 115, 355).

Təsadüfi deyildir ki, iraqlı tədqiqatçı Ə.Bəndəroğlu yazmışdır: «İraq türkmanlarının ləhcəsi Azərbaycan dilindən fərqlənmir. Lakin İraq türkmanlarının ləhcəsində bəzi xırda fərqlər nəzərə çarpır. Onlar çox cüzidir və qeyri-adi bir şey kimi sayılmamalıdır» (338, 14).

Maraqlıdır ki, əslən Ərbildən olan dünya şöhrətli alim, professor İhsan Doğramacı 1995-ci ildə Azərbaycan Elmlər Akademiyasında davamlı olaraq Ərbil ləhcəsində, daha doğrusu, azərbaycanca danışanda Türkiyədən gələn qonaqların onu yaxşı anlamadığını hiss etdi və birdən Akademiyanın prezidentinə tərəf çevrilərək dedi: «İcazə versəniz, Akademiyanızın fəaliyyətini Türkiyədən gələn qonaqlarımıza onların öz ləhcələri ilə anladaram» (358[a], 149).

Televiziya müxbirinin: «İkinci vətəniniz Azərbaycanda 80 illik doğum gününüzün bayram edilməsini necə qarşılayırsınız?» – sualına Doğramacı çoxmənalı və düşündürücü cavab verdi: «Azərbaycan mənim ikinci vətənim deyildir. O mənim iki vətənimdən biridir. Öz vətənimdə doğum ilimi keçirmək qədər də real və təbii bir şey ola bilməz» (358[a], 153).

Göründüyü kimi, İhsan Doğramacı haqlı olaraq Azərbaycanı doğma vətəni, Azərbaycan dilini öz doğma dili hesab edir. Heç şübhəsiz, bir bütövün parçaları olduğumuzdandır ki, onlar haqlı olaraq Nəsimi və Füzulini İraq-türkman şairi, biz isə Azərbaycan şairi kimi tanıyır, buna təbii baxır, bir-birimizə etiraz səsimizi ucaltmırıq.

Bəlkə, elə buna görədir ki, XX əsrin I yarısında Nizaminin Tehranda farsca çap olunan və Nizami Gəncəvi adına Azər-

baycan Ədəbiyyatı Muzeyinin Nizami daimi ekspozisiyasını bəzəyən «Xosrov və Şirin» (1934), «Sirlər xəzinəsi» (1934), «Yeddi gözəl» (1937), «İqbalnamə» (1939) kitablarının üzərində Nizami İraq şairi kimi təqdim olunmuş, yalnız «Leyli və Məcnun» (1939) əsərinin üzərində İraqi-əcəm şairi kimi göstərilmişdir.

Bütün bunlar o deməkdir ki, söhbət tarixin burulğanlarında parçalanmağa məruz qalmış bir xalqdan gedir. Kərküklü tədqiqatçılardan Fazil Hüseyn və Sinan Səid qeyd edirlər ki, bu elatın türkman olması və azərbaycanca danışması məsələsi XX əsrin birinci rübündə İraqda Osmanlı hakimiyyətinə son verildiyi, İraqın İngiltərənin müstəmləkəsinə çevrildiyi vaxt Mosul vilayətinin müqəddəratı həll olunanda ortaya çıxdı. Türkiyə hökuməti onları türk sayır, İngiltərə hökuməti isə türkman olduqlarını göstərirdi. İngiltərə hökuməti onların Osmanlı olmadıqlarını, dillərinin İstanbul ləhcəsinə deyil, Azərbaycan ləhcəsinə oxşar olduğunu, onların, əslində, türkman olub, Osmanlı İmperatorluğu quruluşundan çox-çox əvvəl İrandan köçürülərək burada məskən salmalarını sübut edirdi (356, 93–99; 197, 35).

Bu baxımdan «Şərqi-Hind» şirkətinin nümayəndəsi Edmondzun 1820-ci ildə türkmanların yaşadığı əraziyə səyahəti də maraq doğurur: «Saat 8.20-də Quruçaya çatdıq. Burada Bayat türkmanlarının çadırları vardı. Əşirətin başçısı, bəzən «Qaraquş bəy» adlanan Həsən bəy gəlib məni yeməyə dəvət etdi. O, Xorasanda Böyük Bayat əşirətinin mövcudiyyətindən yaxşı xəbərdar idi. Lakin əşirət qollarının ilk dəfə olaraq nə vaxt bu ölkəyə gəldikləri tarixi müəyyənləşdirə bilmədi» (343, 267).

İraq türkmanlarının nə zaman və haradan köçərək burada məskən salmaları barədə müxtəlif tarixi faktlara rast gəlirik. Əksər tədqiqatçılar onların, əsasən, Azərbaycandan köçüb getdiklərini qeyd edirlər.

Biz o fikirdəyik ki, erkən orta əsrlərdən başlamış XVI əsrin ortalarına qədər və sonralar da müəyyən dövrlərdə İraq türkmanları ilə bütöv bir ərazidə, bir bayraq altında yaşamış, son-

ralar müəyyən ictimai-siyasi səbəblər üzündən parçalanmağa məruz qalmışıq. Son zamanlar İraq-türkman və Azərbaycan tarixinə dair sanballı tədqiqatlar işıq üzü gördükcə bu qənaətimiz daha da möhkəmlənmişdir (27; 59; 141; 305; 357).

Bununla belə, qanlı müharibələr, siyasi məqsədlər və başqa səbəblər üzündən müəyyən axınların olduğunu da inkar etmirik.

Ərəb tarixçisi Təbəri və prof. Sübhi Saatçı türklərin İraqa ilk gəlişinin hicri 54-cü ilinə təsadüf etdiyini göstərirlər (356, 167; 201[a], 20).

Türk alimi, professor S.Buluç da bu məsələyə öz münasibətini bildirir: «Hicrətin ilk yüzillərində Azərbaycan türkləri Təbriz-Sultaniyyədən keçib Kərkük yörəsinə yerləşirlər» (353, 109).

Kərküklü tədqiqatçı Şakir Sabir bu xalqın İraqda məskən salmasının VII əsrdə başladığını və miladi 745-ci ildə Bağdadda artıq onların məhəllələrinin yarandığını göstərir (360, 37, 39).

XII–XIII əsrlərdə yaşamış ərəb tarixçisi İbn-əl-Əsir yazmışdır: «1045-ci ildə çoxlu Azərbaycan türkləri Əbu Mənsur Bəktaş və Əbu Əli ibn Dəhqanın rəhbərliyi ilə İraqa köçərək Tiləfər, Mosul və ona bitişik bölgələrdə məskən salmışlar» (345, 136).

Tanınmış iraqlı tədqiqatçı Mustafa Cavad «İraqda türklərin tarixi» adlı əsərində türklərin İraqa axınının başlanğıcını hicri 32-ci ilə aid edir və bu axınları yeddi mərhələyə bölür. Əməvilər, xüsusən də Abbasilər dövründə İraqda türklərin nüfuzunun artdığını, mövqelərinin möhkəmləndiyini qeyd edərək onların atıcılıqda məharətli, müharibədə cəsarətli, çətinliklərdə səbirli olduqlarına görə orduda əsas qüvvəyə çevrildiklərini göstərir. Mustafa Cavad dördüncü mərhələ hesab etdiyi Səlcuqlar dövründə İraqa minlərcə oğuz türklərinin daxil olduğunu, İraqda köklü halda yerləşərək Türkman xanlıqlarını, o cümlədən Mardin ətrafında Artıqlılar, Mosul Atabəyləri, Ərbildə Zeynalabdinlilər, Kərkükdə Qıpçaqlar, Diyar-

bəkrdə Qara Aslanlılar – Dağıstan və Azərbaycan xanlıqları qurduqlarını qeyd edir. Tədqiqatçının fikrincə, Qara Təpə və Daquq tərəflərdə məskən salan Bayatlar İraqa dördüncü mərhələdə daxil olmuşlar. Cəlairilər və Teymurilər zamanındakı axın beşinci mərhələyə aid edilir. Mustafa Cavad Qaraqoyunlular və Ağqoyunlular dövrünü altıncı mərhələyə daxil edir. Yeddinci mərhələ isə Səfəvilər dövrü hesab olunur (352, 59–61, 279–282).

Prof. Sübhi Saatçı bu axınları səkkiz mərhələyə bölür və sonuncu mərhələni «Osmanlı dönəmi» adlandırır (201[a], 31–106).

Kərküklü tədqiqatçı Erşad Hürmüzlünün göstərdiyinə görə ən böyük türkman dalğaları İraqa Toğrul bəyin vaxtında (1040–1063) girmişdir. Miladi 1055-ci ildə onların sayı lap çox idi. Bu vaxt və sonralar türkmanların İraqa davam edən köçləri ölkənin quzey bölgəsini türk vətəni halına gətirmişdi (357, 25).

Onu da inkar etmək olmaz ki, 1136-cı ildə Şəmsəddin Eldəniz Azərbaycanda hakimiyyəti ələ aldıqdan sonra və sonralar onun oğulları Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın hakimiyyəti dövründə İraqla əlaqə çox qüvvətləndi (256, 53, 58; 59, 51).

Şəmsəddin Eldənizin vaxtında İraq və Azərbaycan ordusu da, dövlət də bir bayraq altında birləşmiş, xalq əmin-amanlıqla yaşamağa başlamışdı (27, 127). O, vaxtaşırı gah İraqda, gah da Azərbaycanda olurdu. 1175-ci ildə İraqdan Azərbaycana gələn və az sonra Naxçıvanda vəfat edən (27, 127, 133) Eldənizin oğlanları Cahan Pəhləvan da, Qızıl Arslan da İraqın, Azərbaycanın, Arranın, Reyin, İsfahanın, Həmədanın və başqa vilayətlərin mütləq hakimi idilər (59, 74). İndi türkmanlar yaşayan Daquq, Ərbil, Kərkük və s. daxil olmaqla Atabəylər dövründə Gəncə, Naxçıvan, Təbriz və başqa şəhərlər də bir bayraq altında birləşirdi (59, 234, 238; 27, 134).

Son Abbasi xəlifəsinin 1258-ci ildə edam edilməsindən sonra Bağdad başda olmaqla bütün ətraf şəhər və kəndlər

Azərbaycanın əyalətinə çevrilərək onun tabeliyinə keçmişdi (38, 73). O vaxtdan Bağdad ətrafında Kərkük, Mosul, Ərbil və s. şəhər və qəsəbələrdə yaşayan azərbaycanlılarla Güney və Quzey azərbaycanlıları arasında əlaqə daha da genişlənir. Bu əlaqə XIV əsrdə Cəlairilər, XV əsrdə Qaraqoyunlular və Ağqoyunluların dövründə daha da qüvvətlənmişdi. Qaraqoyunlu dövləti Azərbaycan, Ermənistan, Qərbi İran, İraq, Kürdüstan və s. əraziləri əhatə edirdi. Paytaxtı Təbriz idi. Əsas şəhərləri Təbriz, Marağa, Ərdəbil, Naxçıvan, Gəncə, Bağdad, Ərzincan və s. idi (24, 54). Ağqoyunlular, xüsusən də Uzun Həsənin hakimiyyəti dövründə Azərbaycanın Kür çayına qədər bütün torpaqları, Qarabağ mahalı, Ərəb İraqı, Əcəm İraqı, Fars və Xorasan sərhədlərinə qədər bütün torpaqlar, Ərzincan və s. daxil olmaqla ona tabe idi (15, 221; 120, 81; 121, 62; 350, 3; 141, 97, 172).

Təsadüfi deyildir ki, Uzun Həsən Avropa dövlət başçılarına göndərdiyi məktubda xüsusi qeyd edirdi: «...İraq, Hindistanın qapılarına qədər bütün Fars, ... Mazandaran, Gilan, ... Azərbaycan, Bağdad – hamısı mənim torpaqlarımdır. Mən bu yerlərin hökmdarıyam» (141, 103).

Maraqlıdır ki, ingilis tədqiqatçısı S.Lonqriq Uzun Həsənin vaxtında ölkənin paytaxtının yayda Təbriz, qışda Bağdad olduğunu göstərir (349, 20).

Babası Uzun Həsənin vaxtında olduğu kimi, Şah İsmayıl Xətai dövründə də İraqla Azərbaycanın bir bayraq altında birləşməsi və vahid Azərbaycan yaratmaq məqsədilə 1506-cı ildə Şah İsmayılın Bağdadı tutması Osmanlı sultanlığını çox narahat edirdi. Osmanlı sultanlığı Səfəvi dövlətinin qüvvətlənməsindən çəkinirdi. Odur ki, böyük qüvvə toplayıb Səfəvilərə qarşı müharibəyə girişdi və tarixdə məşhur olan Çaldıran vuruşunda qalib gəldi (305, 143). Məğlubiyyət Səfəvi dövlətini böyük itkilər vermək məcburiyyətində qoydu. Həmin itkilərdən biri də Bağdadın əldən getməsi idi.

Bundan sonra da Azərbaycan hakimləri hər vasitə ilə Bağdadı geri almağa çalışırlar (305, 143; 260, 11). Bu baxımdan, kərküklü tədqiqatçı Şakir Sabir və Azərbaycan alimi Ə.Məmmədovun göstərdiyi faktlar diqqəti cəlb edir. Şahzadə Bayəzid atası Sultan Süleyman və qardaşı II Səlimə qarşı qiyamda iştirak edir. Qiyam uğursuzluqla nəticələnir. Bayəzid Səfəvilərə pənah gətirir. Sultan Süleyman Səfəvilərə böyük miqdarda hədiyyələr vəd edərək oğlunu edam etmək üçün geri tələb edir. Şah Təhmasib Sultan Süleymanın təklifini bir şərtlə qəbul etməyə hazır olduğunu bildirir ki, Bağdad yenidən Azərbaycana ilhaq edilsin (145, 78). Lakin Sultan Süleyman bu şərti qəbul etmir.

Azərbaycanla Türkiyə arasında baş verən 1533–1535-ci illər müharibəsində Azərbaycan Bağdad da daxil olmaqla bütün İraqı itirdi (305, 161, 162).

Lakin Şah Abbasın vaxtından başlayaraq 1623–1638-ci illər arası Bağdad, Kərkük və s. yenidən Səfəvi idarəsinə bağlanmış, 1638-ci ildən bir daha Osmanlı idarəsində olmuş (255, 85; 350, 3; 357, 30), 1732-ci ildən 1743-cü ilə qədər yenidən gah osmanlıların, gah azərbaycanlıların təbəəliyində olmuş, 1743–1746-cı illərdə tamamilə Azərbaycanın əlində olsa da, 1746-cı ildən, ingilis tarixçisi Stefan Lonqriqin təbirincə desək, Bağdad, Mosul, Kərkük və s. şəhərlər birdəfəlik xan itirib paşa qazandı (349, 20).

Bundan sonra İraqla olan əlaqələrimiz kəsilmək dərəcəsinə qədər gəlib çatdı. Məhz buna görə də Azərbaycan hakimləri İraqda məskən tutmuş qəbilələri geri qaytarmağa təşəbbüs göstərdilər. Mirzə Camal Cavanşir bu münasibətlə yazır: «1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ ellərini qarşılamaq üçün İraq və Azərbaycan sərhədlərinə qədər getdi... Onların bu səfəri bir nəticə verməsi» (247, 14–15).

Demək lazımdır ki, burada təkcə Qarabağ elləri deyil, güneyli-quzeyli bütün Azərbaycandan qəbilələr məskən salmışdılar.

Ara kəsildikdən sonra həsrət çəkən, kəsilən yollardan şikayətlənən xalq ürək sızıltısını, ələmini izhar etdiyi:

Əslim qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən
Demə yollar bağlıdı.

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən irağam,
Bu sevda ölüncədi.

və s. kimi onlarca xoyrat (bayatı) meydana gəlmişdir.

Lakin nə kəsilən yollar, nə də ayrılığa gətirib çıxaran illər bu elatın dilinə və folkloruna təsir edə bilməmişdir. O vaxtdan yazı dili Osmanlı türkcəsi kimi qəbul olunsa da, danışıq dili və folkloru Azərbaycan türkcəsini təmsil etmişdir (201, 14; 356[a], 329).

Biz türk dilləri ailəsində bir-birinə çox yaxın olan dilləri qarşı-qarşıya qoymaq fikrindən uzağıq. Bununla belə, etiraf etməliyik ki, Kərkük dialektinə, onun folkloruna və xalq havalarına bələd olan, bu sahədə tədqiqat aparan türk, Azərbaycan və eləcə də iraqlı alimlər bu elatın ləhcəsinin Azərbaycan dili ilə üst-üstə düşdüyünü, eyni kökdən olduğunu, folklor və xalq havalarının fərqlənmədiyini qeyd edirlər (60, 147–152; 73, 26; 131, 56–66; 149, 6; 150, 86–96; 178, 64–68; 178, 3–26; 201, 11–14; 215, 203; 338, 14; 350,11; 356[a]–329).

«İraq türkmanları, yəni oğuzcanın azəri ləhcəsini qonuşan türklər» – deyə türk alimi Fuad Köprülü qəti qənaətə gəlir.

Türk Dil Qurumu başqanı Əmir Asim Kərküklü tədqiqatçı Molla Sabirin 1951-ci ildə Bağdadda çap olunmuş «Kərkük müntəxəb xoryatları» kitabını (I hissə) oxuyaraq, həmin kitabın 1953-cü ildə çıxan II hissəsinə yazdığı müqəddimədə göstərir: «Azəri ləhcəsində gözəl örnəkləri olan bu

xalq şeirlərində bizim dərləmələrə sıqısıqıya bağlı olan kəlmələr, təbirlər vardır» (131, 57).

Türk alimi Vahabi Aşqun Molla Sabirin II kitabına yazdığı müqəddimədə haqlı olaraq qeyd edir ki, «ilk kitabda olduğu kimi, bu kitabdakılar da azəri ləhcəsindədir» (131, 147).

Türkiyənin Belqraddakı səfirliyinin müşaviri Mir oğlu Cəmil də Molla Sabirin kitabını oxuyaraq yazmışdır: «Sabir bəg əfəndinin «Kərkük müntəxəb xoyratları» kitabından görünür ki, dil, Türkiyə, yəni qərb türkcəsinə ən yaxın türk ləhcəsi olan azəri ləhcəsindən həmən-həmən fərqsizdir» (131, 140).

Bu baxımdan, kərküklü tədqiqatçı Əta Tərzibaşının da fikri böyük əhəmiyyət kəsb edir: «Bizim türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın, bəlkə də, əkiz qardaşlar olmaqla bərabər, bütün bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə bir-birindən xəbərsiz olaraq gəlişdikləri halda aralarında görkəmli fərqlər bilinməmişdir» (210, 26).

Prof. Hidayət Kamal Bayatlı da «İraq türkman türkcəsi» adlı kitabında çox doğru qənaətə gəlmişdir: «İraq türkmanlarının qonuşduğu ağız, türkcənin azəri ağzı sahəsi içinə girməkdədir. Azəri ağzı dil coğrafiyası baxımından: Doğu Anadolu, Güney Qafqaziya, Qafqaz Azərbaycanı, İran Azərbaycanı, Kərkük (İraq) və Suriya türkləri bölgələrini qapsar. Folklor dəgəri baxımından da türkcənin çox zəngin və çeşitli məlzəməsini daşıyan yenə də azəri ağızlarıdır» (356[a], 329).

Azərbaycan dili tarixi üzrə görkəmli mütəxəssis H.Mirzəzadə də «İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr» adlı sanballı məqaləsində bu fikri təsdiq edir (150, 86, 96).

Maraqlıdır ki, Azərbaycan ədəbi dili tarixindən danışarkən XV–XVI əsr ədəbi dilimizdə Cənubi Azərbaycan və Bağdad (Kərkük) şivə xüsusiyyətlərinin üstünlük təşkil etdiyi göstərilmiş, Kərkük dialekti Azərbaycan dilinin Cənub qrupu dialekt və şivələri sırasına daxil edilmişdir (87, 37; 88, 43; 187, 17; 150, 85).

Yeri gəlmişkən, qeyd edək ki, dili fonetik və leksik göstəricilərinə görə, Azərbaycan dilinin Cənub və Şərq qrupu dialekt və şivələrinin xüsusiyyətləri ilə səsləşdiyinə görə «Kitabi-Dədə Qorqud» tədqiqatçılarından V.Bartold, F.Köprülü, A.Dilaçar, M.Ergin onun azərbaycanlılara, V.Bartoldun təbirincə desək, «Qafqaz türkmanlarına» məxsus olduğunu (136, 6, 10, 13), O.Gögyay, M.Ergin, Y.Yakubovski, H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə, Ş.Cəmşidov, X.Koroğlu və başqaları isə əsərin Drezden nüsxəsinin, ümumiyyətlə, Azərbaycanda qələmə alındığını təsdiq edirlər (136, 10, 19).

Çəkinmədən demək olar ki, əsrlərlə başqa xalqlar əhatəsində qalan, məhz buna görə də qədim leksik və fonetik xüsusiyyətlərini daha çox saxlayan İraq türkmanlarının dili «Kitabi-Dədə Qorqud»un dil özəlliklərini tamamilə əks etdirir. «Kitabi-Dədə Qorqud»da yer alan onlarca sözün indinin özündə belə Kərkük dolaylarında işlək olması, daha doğrusu, yalnız həmin sözlərin və həmin mənada işlənməsi buna tutarlı dəlil-sübutdur. Məsələn: kəpənək (yapınçı), xerxız (oğru), əkmək (çörək), ənsə (arxa), qalavuz (bələdçi), qısraq (at, madyan), yayan (piyada), nəsnə (əşya, alət), səmiz (kök), sığır (buğa, cöngə), mavlamaq (huşunu itirmək), qanara (çarmıx), borı çalmaq (şeypur çalmaq), davul dögmək (təbil çalmaq), ismarlamaq (tapşırmaq), yarın (sabah), ög (ön), xoyrad (qaba, kobud, nadan), yağmalamaq (talamaq), qavat (alçaq, əskik adam), oda (otaq), imdi (indi), baş üzərinə (baş üstə!), qaum-qardaş (qohum-qardaş), kəlisa (kilsə), eyi (gözəl), kəndi (özü) və s.

Təsadüfi deyildir ki, azərbaycanlı tədqiqatçılar «Kitabi-Dədə Qorqud»u «Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası» (136, 5), kərküklü tədqiqatçı Əta Tərzibaşı isə onu İraq türkmanlarının «ana kitabı» adlandırmışdır.

Deyilənlərə onu da əlavə etmək olar ki, dilçilərdən P.Melioranski (307, 16, 18), M.Şirəliyev (334, 11), N.Baskakov (272, 9, 56), A.Şerbak (337, 27), H.Mirzəzadə (151, 20),

E.Nəcip (312, 30), Ə.Orucov (169, 9), Y.Şirvani (257, 16) və başqaları təxminən XIII əsrin sonu, XIV əsrin əvvəllərində yazılmış «İbn-Mühənna lüğəti»ndən danışarkən, əsər qədim Azərbaycan dilində olduğuna görə, onun ya İraq ərazisində, ya da Azərbaycanda yazıldığını qeyd edirlər.

İraq türkman tədqiqatçısı Mahir Naqib isə «Kərkük türk xalq musiqisinin təsnif və təhlili» adlı kitabında musiqi baxımından da kök birliyini təsdiqləyir: «Sinirlərin (sərhəd) birbirindən uzaqlığı Kərkük türk xalq musiqisi ilə Azərbaycan türk musiqisi arasındakı kök bərabərligini yox edəməmişdir» (350, 11).

Bu doğmalıq, bu yaxınlıq təbii olaraq toponimlərdə də öz əksini qabarıq şəkildə tapmışdır: Ağdam, Ağdaş, Ağsu, Billava, Boyat, Quruçay, Qarabulaq, Qaraqoyunlu, Qaradağ, Qarabağlı, Əmirli, Yəyçi, Yengicə, Mandılı, Mərdinli, Üçtəpə, Xasa, Xəsədərli, Çardaqlı və s. adlara eynilə Kərkük dolaylarında da, Şimali Azərbaycanda da təsadüf edilir. Bakıda olduğu kimi, Kifri yaxınlığında da «Şirvan qalası» vardır. «Şirvan qalası» İraq türkmanlarının tarixi abidəsi kimi İraq Respublikasının 1961-ci ildə Bağdadda çap olunan xəritəsində öz əksini tapmışdır. Kərkükdə «Qarabağlı» məhəlləsi indi də qalır. İraqlı alimlər İraq türkmanları arasında məşhur olan «Qarabağlı» və ya «Qarabağı» havasının Azərbaycandan – Qarabağ ellərindən gətirildiyini qeyd edirlər. Bütün əsər boyu görəcəyimiz kimi, belə faktlar folklorda daha çoxdur.

Kərküklü alim Sinan Səid İraq türkmanları arasında şöhrət tapmış «Arzu-Qəmbər» dastanı üzərində tədqiqat apararaq göstərir ki, bu dastan İraq türkmanlarının ləhcələrini öyrənmək üçün istinad ediləcək bir sənəd, onların kimliyini aydınlaşdıran əhəmiyyətli bir abidədir. Tədqiqatçı

Arzum əndi bulağa,
Səsi gəldi qulağa.
Arzıya peşkəş olsun,
Şirvan, Təbriz, Marağa –

bəndini misal gətirərək yazır: «Bu misralar dastanın harada və kimin tərəfindən yarandığını aydın surətdə göstərməyə kifayət edəcək dəlildir» (197[a]).

Dastanın Tuz Xurmatu variantında isə hadisələr Araz çayı sahillərində cərəyan edir:

Quruyasan, ey Araz,
Əlimizdən düşdü saz.
Qəmbəri çay apardı,
Yetiş, ey Xızır İlyaz. (28[a], 376)

Bu bənd özü də birliyimizi göstərən tutarlı faktdır.

İraq türkman mənəvi dəyərlərinin tədqiqi və təbliği yolunda böyük işlər görən prof. Sübhi Saatçı da bu tarixi məsələyə öz vətəndaş münasibətini bildirmişdir: «Kərkükdə qarşımıza çıxan çoxrəngli folklor və xalq ədəbiyyatı incələnərsə, Kərkük ağzının azəri türkcəsinin motivlərini daşıdığı qolaylıqla anlaşılır. İstər Quzey Azərbaycan, istər Güney Azərbaycan olsun, bu bölgələrdəki azərilərin kultur veriləri incələnərsə, Kərkükdəki sözlü ədəbiyyat ürünlərinin (məhsul) də eyni qaynaqdan bəslənmiş olduqları kəndilərindən anlaşılır. Laylalardan tutub ta tapmaca və matallara qədər bu birlik və bərabərliyi görmək mümkündür» (201, 11, 13–14).

Yuxarıda deyildiyi kimi, bir çox türk, Azərbaycan və İraq türkman alim və yazarları da eyni fikirdədirlər. Belə olan halda İraq–türkman folklorunu ayrıca tədqiq etməyə ehtiyac varmı? XVI əsrin birinci rübünün sonuna qədər Kərkükün Azərbaycanın təbəəliyində olduğunu və bu səbəbdən də iraqlı tədqiqatçı Sübhi Saatçının göstərdiyi kimi, «İraqda XVI yüzilə qədər ortaya çıxan türkcə ədəbi ürünlərin azəri türkcəsində olduğunu» (201, 14) nəzərə alsaq, görərik ki, əsrlərlə öz soykökündən ayrı düşmüş bu elatın folklorunun hərtərəfli öyrənilməsinə zərurət böyükdür.

Yeri gəlmişkən, qeyd edək ki, Kərkük dolaylarında həm Kərkük folkloru, həm də İraq–türkman folkloru terminləri iş-

lənir. İraq–türkman folkloru və ya Kərkük folkloru dedikdə toplu halda yaşayan bütün İraq türkmanlarının şifahi xalq ədəbiyyatı nəzərdə tutulur. Bu, təbii sayılmalıdır. Dərbənd və ya Naxçıvan folkloru dedikdə Dərbənd və Naxçıvan şəhərləri ilə bərabər, ətraf kəndlərdə yaşayan bütün azərbaycanlıların folkloru, Kərkük folkloru dedikdə İraq türkmanlarının toplu halda yaşadığı Kərkük vilayətinin mərkəzi Kərkük şəhəri ilə bərabər, bütün ətraf kənd və rayonlarının əhalisinin folkloru göz önünə gəlir. Buna görədir ki, oxucular əsər boyu müxtəlif məqamlarda hər iki terminə rast gələcəklər.

İraq–Türkman folklorunun toplanması, nəşri və qismən də tədqiqinə XX əsrin ortalarından başlanılmışdır. Xalqın əsrlərlə yaradıb nəsildən-nəslə töhfə etdiyi bu mənəvi inciləri toplayaraq bəşəriyyətin ən böyük kəşfi olan kitablarda yaşadanlardan danışarkən göz önünə ilk olaraq Əta Tərzibaşı, Molla Sabir, Şakir Sabir Zabit, Məhəmməd Xurşid, Əbdüllətif Bəndəroğlu, İbrahim Daquqi, İhsan Vəsfi, Sübhi Saatçı, Mahir Naqib və başqaları gəlirlər. Onların min cür əzab-əziyyətə qatlaşaraq toplayıb əsasən öz hesablarına çap etdirdikləri kitabları vərəqlədikcə V.Belinskinin sözləri yada düşür: «Böyük zəhmət və fədakarlıqla xalq ədəbiyyatının qiymətli gövhərlərini toplayan və onları unudulub tələf olmaqdan qoruyan təvazökar və qərəzsiz adamların zəhməti hər cür təqdir və təşəkkürə layiqdir» (57, 109).

Onların topladığı şifahi xalq yaradıcılığı nümunələri ilk vaxtlar «Kərkük», «Afaq», «Bəşir», «İraq», «Yurd» qəzetləri, «Qardaşlıq» və «Yeni İraq» dərgilərində çap olunmuş və indi hər hansı bir tədqiqat işində etimad edə biləcəyimiz zəngin material əldə edilmişdir. Atalar sözləri və məsəllər, xoyrat və manilər, xalq mahnıları, mərasim və nəğmələr, lətifələr, inanclar, dualar, bəddualar və s. nümunələr sonralar Molla Sabirin «Kərkük müntəxəb xoyratları» (131), Həbib Sevimlinin «Kərkük xoyratları və maniləri» (134), Şakir Sabirin «Kərkükdə ictimai həyat» (255), «İraq türkmanları ağzında atalar sözü»

(122), Əta Tərzibaşının «Kərkük xoyratları və maniləri» (205; 206; 207), «Kərkük havaları» (208), «Kərkük əskilər sözü» (209), İbrahim Daquqinin «İraq türkmanları, dilləri, tarixləri və ədəbiyyatları» (117), Əbdüllətif Bəndəroğlunun «İraq-türkman ədəbiyyatı yolunda bir addım» (92) və «Ata sözlərimiz» (93), Sübhi Saatçının «Kərkük çocuq folkloru» (201), «Kərkükdən dərlənən olay türküləri» (20lb), İhsan Vəsfinin «İraq türkmanlarında deyimlər və ata sözləri» (128), Məhəmməd Xurşidin «Əski sözlər bağçası» (149), Mahir Naqibin «Kərkük xalq musiqisinin təsnif və təhlili» (350) və s. kitablarda toplanmışdır. Görülən işlər folklor nümunələrini toplama və nəşretmə çərçivəsində qalmamış, eyni zamanda İraq-türkman folklorunun bəzi janrlarının elmi əsaslar üzrə tədqiqi yolunda da müəyyən addımlar atılmışdır. Bu baxımdan Əta Tərzibaşının xoyratlar, manilər və xalq havalarına dair araşdırmaları xüsusilə əhəmiyyətlidir.

Bununla belə, İraq–türkman şifahi xalq yaradıcılığı hərtərəfli öyrənilməmiş, onun sistemli təhlilinə ilk olaraq bizim tərəfimizdən təşəbbüs göstərilmişdir. «İraq-türkman folkloru» adlı monoqrafiyamıza ön söz yazan iraqlı tədqiqatçı Ə.Bəndəroğlunun fikri deyilənlərə dayaq olur: «Bu günə qədər bizdə – İraq türkmanlarında, Türkiyədə, Azərbaycanda folklorumuzun bu biçimdə tədqiqi, incələnməsi və araşdırılması olmamışdır» (180, 4).

Həqiqətən də, İraq–türkman folklorunun əksər növ və janrları ilk dəfədir tədqiqat obyektinə çevrilir. Tədqiqat üçün İraq-türkman folkloruna dair kitablar, yuxarıda söhbət açdığımız qəzet və dərgilər, eləcə də 1962–1966, 1972–1975-ci illər arası İraqa uzunmüddətli ezamiyyətlərimiz zamanı hər biri bir saat yarım davam edən beş lentdə və min səhifədən artıq olan bir neçə böyük dəftərxana dəftərində topladığımız nümunələr əsas mənbə kimi götürülmüşdür.

İlkin janrlar, xalq mərasim və nəğmələri, bayatı-tapmacalar, beşik nəğmələri, nağıllar, lətifələr, tapmacalar, atalar söz-

ləri və s. demək olar ki, İraq–türkman folklorunda elmi- nəzəri cəhətdən ilk dəfədir tədqiq olunur. Bu janrlardan bayatı-tapmacalar bütövlükdə, beşik nəğmələri isə qismən, ümumiyyətlə, folklorşünaslığımızda indiyə qədər müstəqil janr kimi tədqiq olunmamışdır.

Monoqrafiyada İraq–türkman folklorunun Azərbaycan folkloru ilə bağlılığı, eyni soykökün yaradıcılıq məhsulu olduğu müqayisələr, paralellər, tutuşdurmalar yolu ilə üzə çıxarılmış, mövcud janrların təsnifatı müasir folklorşünaslığın nailiyyətləri fonunda aparılmışdır (61; 162; 273; 299; 300; 317; 318).

Tədqiqatın əhəmiyyətindən danışarkən demək lazımdır ki, İraq–türkman folklorunun hərtərəfli tədqiqi tarixi keçmişimiz, dil tariximiz, dialektologiyamız, xalq poeziyamız, estetik fikir tariximiz və s. kimi zəruri məsələlərin tam və əhatəli öyrənilməsi baxımından böyük dəyər kəsb edir.

Xalq dilini bütün incəlikləri ilə özündə yaşadan İraq–türkman folkloru elə bir xəzinədir ki, burada xalqını sevən hər kəs əvəzsiz incilər tapar. Bu xalq müdrikliyi xəzinəsinin hər qatında Azərbaycan folkloruna bir doğmalıq, əkizlik vardır. Nə yaxşı ki, şüurda, düşüncədə, mənəviyyatda xalq parçalanmayıb! Axı daşlar ovula-ovula, qayalar sökülə-sökülə, bulaqlar quruya-quruya, çaylar çəkilə-çəkilə məhv olur. Millət isə unuda-unuda (70, 4).

Lakin insana təsəlli olan gün kimi aydın bir həqiqət də vardır. Kərküklü İrmağın doğru olaraq qeyd etdiyi kimi, «Vətən torpağı kiçilib-genişlənə bilər, sərhədləri tükənə bilər, tarixi təhrif edilə bilər, hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər. Lakin bir şey dəyişmir. Qalan bu tək varlıq ana dilidir» (74).

Göründüyü kimi, dil və folklor adlandırılan iki ümdə varlıq vardır ki, həyat yaşadıqca yaşayır, xalqın keçmişi haqqında danışa bilən təkzibolunmaz tarixi sənədə çevrilir. İraq–türkman folklorunun ədəbi-tarixi qiyməti, bizcə, hər şeydən əvvəl, bundadır.

I FƏSİL

MƏRASİM FOLKLORU

İnsanın həyatını mərasimsiz təsəvvür etmək mümkün deyil. Odur ki, xalqın qədim yaradıcılıq məhsulu kimi, cəmiyyətin gərdişində öz yeri, sanbalı olan mərasim folkloru xalqın düşüncə tərzini, həyata baxış və münasibətini, etik, estetik, etnoqrafik görüşlərini – adət-ənənəsini, mərasimlərini sistemli tərzdə izləmək baxımından böyük dəyər və əhəmiyyət kəsb edir.

Mərasim folklorunu iki yerə bölmək olar:

– ilkin janrlar;

– xalq mərasim və nəğmələri.

İLKİN JANRLAR

İlkin janrlara, əsasən, inanclar, yemindlər (andlar), dualar (alqışlar), bəddualar (qarğışlar), fallar daxildir. İnsanın real həyat hadisələrinə inam və etiqadlarının bir növ bədii əksi bu janrların əsas səciyyəvi xüsusiyyətlərini təşkil edir. Bunlar müşahidə, inam nəticəsində sınaq və təcrübədən keçirilərək qətiləşmiş, xalq yaradıcılığının ilkin janrlarına çevrilmişlər. Nəticədə həyata ömürlük vəsiqə qazanmış, xalqın hafizəsində, gündəlik məişətində, dilində əbədiləşmiş, zəmanəmizə qədər gəlib çıxmışlar (164, 6).

Qeyd etmək lazımdır ki, İraq–Türkman folklorunda ilkin janr örnəkləri toplanıb çap olunsalar da (71; 256; 133; 92) tədqiq olunmamışlar.

İNANCLAR. Azərbaycanda xalq arasında sınama, yozum, yozma, inanc, inam adları ilə tanınan bu janr İraq-türkman folklorunda inanc kimi tanınır (149, 96; 197, 191).

Professor A.Nəbiyev inanclara İraq-türkman folkloru üçün də məqbul sayıla biləcək tərif vermişdir:

«İnanclar sınamalar nəticəsində qətiləşən hökmlərin bədii ifadəsidir» (162, 49, 162[a], 312).

İnancları İraq-türkman folklorunda aşağıdakı kimi qruplaşdırmaq olar: Məişət və mərasimlərlə, təbiət hadisələri, bitki və heyvanat aləmi ilə bağlı inanclar, astral təsəvvürlər və əsatiri görüşlərlə bağlı inanclar.

Astral təsəvvürlər və əsatiri görüşlərlə əlaqədar olan inanclar, əsasən, Ay, ulduz, digər səma cisimlərinə inamın nəticəsində yaranmışdır. Məsələn, bir ulduz axanda yer üzündə kiminsə ömrünün sona yetdiyini düşünürlər. Çünki insan ruhlarının ulduzlarla bağlı olduğuna inanırlar. İraq-türkman folklorunda geniş yayılan «Leyli və Məcnun» əfsanəsi də bu mətləbdən xəbər verir. Əfsanədə deyilir ki, Leyli və Məcnun öldükdən sonra onların ruhları uçur və səmada iki parlaq ulduza çevrilir. Bu ulduzlara xalq arasında «Leyli və Məcnun» deyirlər. Etiqada görə bu ulduzlar ildə bir dəfə bir-birinə yaxınlaşır və qovuşurlar. Kim onların qovuşmasının şahidi ola bilsə mal, dövlət, mənsəb sahibi olar, arzusuna qovuşar (117, 81–82).

Maraqlıdır ki, buna bənzər əfsanəyə Azərbaycan folklorunda da təsadüf edilir. Əfsanədə göstərilir ki, bir-birini dərin məhəbbətlə sevən iki gənc – Venera ilə Mars ulduza dönmüş, taleyin qisməti ilə ayrı düşmüşlər. Klassik ədəbiyyatımızda Zöhrə və Müştəri kimi tanınan bu əfsanə qəhrəmanları ildə bir dəfə Novruz bayramında, gecə saat 12-də görüşürlər. Yaradana itaət edən, ona sidq-qəlblə qulluq göstərən mömin bəndələrdən kim onların görüşdüyünün şahidi olsa, bütün arzularına çatır (271; 61, 122[b]).

Ayla bağlı inanclar da maraq doğurur. Məsələn, əgər bir şəxs əvvəl hilal, sonra gözəl sifət görərsə, bütün ay boyu xeyir-bərəkət tapacağına inanırlar. Ayın hilal vaxtı dua oxuyur və deyirlər: «Səni gördük, xeyir-bərəkət tapacağıq». Əgər hilal açıq-aydın olsa, o ayın bütün insanlar üçün xeyirli olacağına inanırlar.

İraq-türkman folklorunda suyun müqəddəsliyinə inam da geniş yayılıbdır. Onlar da suya and içirlər. Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da su kultu ilə əlaqədar yaranmış inam və etiqadlar çoxdur. Səfərə çıxanın arxasınca su

atırlar ki, yolu uğurlu olsun. Burada da su aydınlıq rəmzi sayılır. Eləcə də birinin günahını yumaq üçün başına qırx çanaq su tökürlər. Onda günahından keçiləcəyinə inanılır (72). Qırxı çıxan körpə və ana da su ilə pak edilir. Bu adətə «qırx çıxarmaq» deyilir. Sudan qırx ovuc götürülür, ana və körpənin başından tökülür və bununla da onların pak olduğuna inanılır.

Məişət və mərasimlərlə bağlı inanclar daha çoxdur.

Səfərə çıxarkən və ya görülməsi düşünülən bir iş barədə danışarkən birisi bir kərə asqırarsa, «Səbir gəldi, gözlənilsin, səbir edilsin», iki kərə asqırılarsa: «Cağat gəldi, xeyirlidir» – deyə yola çıxarlar. Sevmədikləri adam yola çıxanda arxasınca daş atarlar. Belə olan halda onun bir daha dönməyəcəyinə inanırlar. Yəqin ki, «Arxasınca sapand daşı» və ya «Arxasınca qara daş» ifadəsi də elə bu inancla əlaqədar yaranmışdır.

Maraqlıdır ki, göz səyriyəndə bir fənalıq baş verəcəyinə inam da qədimdən qalmadır. Buna hələ «Kitabi-Dədə Qorqud»da təsadüf edilir. Burada Dirsə xanın arvadı, oğlu Buğacın ovda başına bir hadisə gəldiyini, daha doğrusu, ölümcül yaralandığını duyaraq deyir:

İki vardın, bir gəlürsən, yavrum qanı?
Qara gərdunda bulduğum oğul qanı?
Çıxsın bənim kor gözüm, a Dirsə xan, yaman səgrir
(136, 36).

Kərkük dolaylarında məişət və mərasimlərlə bağlı yaranan inancların bir qismi nikah, ev-eşik, səfərdən dönmə və s. ilə əlaqədar meydana gəlmişdir.

Burada insanların ilkin təsəvvürlərində uğur və uğursuzluq anlayışları ilə bağlı inamlar da geniş yayılmışdır: salı (şənbə) günü taraş olmaq (bu gün yəhudilərin günü hesab edilir), uşağın beşiyini boş yırğalamaq (uşağın başı və ya qarnı ağrıyar), qırxlı uşağın yanında ağlamaq (fəna iş baş verər), birinin libasının düymələrini əynində olarkən tikmək (böhtan atarlar), gecə güzgüyə baxmaq (qəribliyə düşər), gecə vaxtı ev süpürmək və s. uğursuz sayılır.

Eləcə də axşam vaxtı qonşudan qazan gətirmək uğursuz hesab edilərmiş. Bu inancın yaranması, qədimdən gecə vaxtı qazanın, əksər hallarda ölü yumağa lazım olan suyu qızdırmaq üçün gətirildiyi adətilə əlaqələndirilir (197,191).

Ümumiyyətlə, qədimdən bəri qara rəng şər qüvvələrlə bağlı hesab edilmişdir. Nağıllarda qara qoç, qara ilan, Qara vəzir, dastanlarda Qara keşiş, qara sevda (axın ölümlə nəticələnən məhəbbət) və s. Qara rənglə bağlı məsələ öz əksini «Kitabi-Dədə Qorqud»da da tapmışdır. Ziyafət vaxtı oğlu olanı ağ otaqda, qızı olanı qızıl otaqda, uşağı olmayanı isə Allahın qarğışına tuş olmuş, şər işlərinə görə cəza almağa layiq adamlar hesab edərək qara otaqda əyləşdirib, altına qara keçə salıblar (136, 34, 132).

Maraqlıdır ki, Kərkük dolaylarında axşamlar qonşuya ağ rəngli bir nəsnə verilməzdi. Bu, şər qüvvələri sevindirmək demək olardı. Odur ki, ağ nəsnə göndərən evin fənalığa uğrayacağına inanırdılar. Bu səbəbdəndir ki, qonşuya verilən südün içinə bir parça kömür atılar, yumurta azacıq qaralanıb sonra verilərmiş (255, 14).

Doğuşla bağlı «Al aparmaq» inamı da Kərkük dolaylarında çox güclü olmuşdur.

Azərbaycanda Al, Hal, Al arvadı, Hal arvadı, Al anası, Al qarısı, başqa türkdilli xalqlarda Al, Albıs, Almıs, Albas, Albus, Alas, Almız, Albassı, Albarstı və s. adlarla tanınan (273, 107) bu mifik obraza Kərkük dolaylarında Al, Al nənəsi deyirlər (255, 55, 197, 190).

Kərkük dolaylarında xalqın bu qədim inam və etiqadının izinə atalar sözündə də düşürük: «Talesiz uşağın nənəsini Al aparar».

Xalqın bu qədim inamı ilə bağlı folklorşünas İ.İbrahimovun gəldiyi nəticə də diqqəti cəlb edir: «Tədqiqat göstərir ki, ibtidai azərbaycanlının təsəvvüründə kainat gözəgörünməz xeyir və şər qüvvələrlə dolu imiş. Guya ki, bu qüvvələr arasında daimi bir mübarizə gedirmiş. Belə şər qüvvələrdən biri də guya ki, «Hal», yaxud «Hal arvadı» imiş. Etiqada görə

«Hal» insan nəslinin artmasına mane olur, yeni doğmuş zahı qadınların ürəyini, ciyərini çıxarıb suya atır, bununla da qadının və yeni doğulmuş uşağın ölümünə səbəb olurmuş... Xalq içərisində yaşayan adətlərdən anlaşılır ki, «Hal» ilə mübarizədə metaldan bir vasitə kimi istifadə edilir. Doğuş zamanı qadının ətrafında icra edilən mərasimə bənzər adətlər, «Hal»ları qovmaq və bununla da doğumu asanlaşdırmaq məqsədi ilə mis qabları bir-birinə döymək, suyu qılınclamaq, qadının yanına metal alətlər qoymaq və sairədən ibarət olur. Şübhəsiz, bunlar yeni kəşf edilmiş metalın qüdrətinə sığınmağın və ona ehtiramın nəticəsidir. Hətta rəvayətə görə, «Hal»ı ram etmək üçün onun paltarına bir iynə sancmaq kifayət edərmiş» (119, 134).

Bu sözlərə qüvvət kimi onu da qeyd etmək olar ki, həmin etiqad başqa yerlərdə olduğu kimi, Azərbaycanın qərb zonasında yerləşən Tovuz rayonunun Düzqırıxlı kəndində də XX əsrin 40-cı illərində çox güclü idi. Qonum-qonşuda hamilə qadının doğuşu başlayanda biz uşaqlar əlimizdə iynə-sancaq, dəmir parçaları o həndəvərdə olan çay, göl və hovuzun yanına toplaşar, hərdən suyu dəmirlə döyəcləyərək iynə-sancağı hazır tutardıq ki, «Hal» zahı qadının ürək və ya ciyərini çıxarıb suda yuya və yeyə bilməsin. Bununla inanırdıq ki, zahı qadının ölümdən qurtarmasında bizim də «əməyimiz» vardır. Bir çoxları kimi, biz də «əlbəttə patoloji proseslə bağlı olan bu məsələnin tibbi mahiyyətini dərk edə bilmədiyimizdən doğan qadının çoxlu qan itirməklə halsızlaşmasına, huşunu itirməsinə Alın səbəb olduğuna inanardıq» (2, 78).

Kərkük dolaylarında doğuş zamanı halsızlaşan, huşunu itirməkdə olan qadının ağzına dəmir qaşıq soxardılar ki, Al nənəsi dəmir nəsnədən qorxub yaxın gəlməsin. Bundan əlavə onun saçını dartışdırar, kürəklərinin arxasına bərk əşyalar qoyardılar. Al nənəsi qadının ciyərini yuyub yeməsin deyə evdə olan üç ocaq daşından birini su quyusuna və ya hovuza atar, qadının ərinin və övladlarının adını çəkərdilər. Filankəs gəldi – deyə qışqırardılar. İnanardılar ki, Al nənəsi bunu eşi-

dib suya yaxınlaşmaqdan qorxacaq və ananın ciyərini qaytaracaq (255, 56).

Maraqlıdır ki, şər qüvvələrin dəmir və ondan düzəldilmiş nəsnələrdən qorxması inamı o qədər güclü olmuşdur ki, indinin özündə belə bir çoxları uşaq yatanda balıncın altına bıçaq, xəncər qoyur ki, şər qüvvələr qorxub nə uşağa yaxın gələ bilsin, nə də ona xətər yetirsin (197, 191).

Bundan başqa, uşağı bədnəzərdən qorumaq və gözdəyənin qarşısını almaq üçün boynuna gözmuncuğu asardılar. Bununla belə, uşaq narahat yatsa, tez-tez səksənib yuxudan ayılsa, ağlasa, xəstələnsə, uşağı göz nəfsinin vurduğuna inanar, üzərliklə bağlı mərasim keçirərdilər. İraq-türkman folklorunda da ovsun kimi tanınan bu mərasimi yerinə yetirmək üçün bir dəstə üzərlik götürülür, uşağın başına dolandırılır, sonra yandırılırdı. Üzərliyin tüstüsü uşağa dəydikcə üzərliklə bağlı ayin-mahnı oxuyar və uşağın sağalacağına inanarlar:

Üzərliksən, havasan
Yeddi dərdə davasan.
Allahdan istəmişəm
Bu dərdi sən qovasan.

Üzərliksən, məzəsən,
Damar-damar gözə sən.
O günə qurban olum
Evimizdə gəzəsən.

Folklorşünas M.Hatəmi qeyd edir ki, üzərliyi uşağın başına dolandırıb oda atmaq, uşağı onun tüstüsünə tutmaq və zərərli ruhu uşaqdan qovmaq üçün Azərbaycanda təkcə üzərliyin deyil, həm də odun gücünə inanılardı (229, 39). Bu inam İraq–türkman folklorunda da eynilə belədir.

Professor M.Seyidov isə göstərir ki, inama görə üzərlik yalnız gözdəymənin qarşısını almaqla qalmır, ümumiyyətlə, qada-balanı qovur (190, 95).

Üzərliklə bağlı İraq–türkman folklorundan verdiyimiz nümunələr də alimin fikrini təsdiqləyir.

Onu da demək lazımdır ki, yeni doğulmuş uşağa qırx gün ərzində şər qüvvələrin xətər toxundura biləcəyinə inanır və uşağı ciddi nəzarət altında saxlayırlar. Bütün ailənin qayğısı dünyaya yeni gələn körpənin salamatlığıdır. Bəzən elə də olur ki, müəyyən bir ailədə uşaqlar doğulduqdan sonra çox yaşamırlar. Bu dərdin əlacını xalq arasında geniş yayılmış inancda görürlər. Belə ailədə uşaq dünyaya gələndən sonra bir qara toyuq kəsərək kəfənə bükür və qəbiristanda basdırırlar.

Buna bənzər inanca Azərbaycanın bəzi bölgələrində də təsadüf edilir. Belə ki, uşağı yaşamayan ailə bu dərdə çarə qılmaq üçün onun başına bir erkək quzu dolandırıb kəsir, soyduqdan sonra parçalamadan bütöv şəkildə qazanda o qədər qaynadır ki, ət öz-özünə sümükdən ayrılır. Əti yeyir, sümükləri isə ağa büküb qəbiristanlıqda basdırırlar (2, 82).

O da maraqlıdır ki, ay başında doğulan uşağı ay basmasın deyə gün batmazdan əvvəl dam başına bir çıraq, bir güzgü, bir sürmədan, bir daraq qoyar və gün batana qədər saxlardılar (255, 45).

Ta qədim zamandan nəsil artırmaq, övlad sahibi olmaq, soykökü davam etdirmək, ata-ananın ona çəkdiyi əvəzsiz zəhmətin müqabilində övladların zəhmət çəkərək həyata borcunu qaytarmaq arzusu daimi və nəhayətsiz olmuşdur.

Əbədi və əzəli olan sonsuzluq-soysuzluq dərdi bəşəridir. «Kitabi-Dədə Qorqud»da övladsızlıqla bağlı qəlb parçalayan bir hadisənin şahidi oluruq: «Xanlar xanı xan Bayandır yildə bir kərə toy edib, Oğuz bəglərin qonaqlardı. Genə toy edib, atdan ayqır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdırmışdı. «Kimün ki, oğlu-qızı yoq, qara otağa qondurın, qara keçə altına döşən, qara qoyun yəxnisindən öginə götürün, yersə yesün, yeməzsə tursun-getsün», – demişdi. «Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa qondurun. Oğlı-qızı olmıyanı Allah-təala qarqayıbdır, biz dəxi qarqarız, bəllü, bilsün» – demiş idi» (136, 34).

Şübhəsiz, oğul-uşaq sahibi olmaq arzusu insanları qədim zamanlardan müəyyən çarələrə əl atmağa məcbur etmişdir ki, bunların bəziləri inanclarda zəmanəmizə qədər gəlib çıxmışdır. Hələ «Kitabi-Dədə Qorqud»dan görünür ki, oğlu olmayan Dirsə xan qurban kəsmiş, acları doydurmuş, yetim-yesiri geydirmiş, əl tutmuş, borcu olanları borcdan qurtarmış, hamıya yaxşılıq etmiş, bir ağzı dualının alqışı ilə Allah-taala ona bir övlad vermişdir (136, 35).

Demək olar ki, bu ənənə Kərkük dolaylarında övladı olmayan kişilər arasında indi də yaşayır. Övladı olmayan qadınlar isə indinin özündə belə müqəddəs hesab edilən qəbirləri ziyarət edir, dərviş və seyidlərə nəzirlər verirlər. Dilək tuturlar, əhd edirlər: «Bir oğlum və ya qızım olsun, yeddi qapı dilənərəm» və ya «Bir oğlum olsun, yeddi yaşına qədər əlbəsə almıyım» (133, 55).

Təbiət hadisələri, bitki və heyvanat aləmi ilə bağlı inam və etiqadlar da çoxdur. Dolu yağanda onun bir dənəsini bıçaqla iki yerə bölsən, dolunun kəsəcəyinə inanırlar.

Bu eynilə Azərbaycan folklorunda da belədir: «Uşağın dolu dənələrini dişləməsi, yaralayanda isə «mən kəsdim, sən də kəs!» – söyləməsi dediklərimizə dayaq olur (2, 134).

Evlərdə qapının astanasında divara ceyran kəlləsi vururlar. Bununla o evi göz nəfsinin vurmayacağına etiqad bəsləyirlər.

Kərkük dolaylarında üzərliyin gözdəyməni götürən, dağdağanın gözdəymənin qarşısını alan, çinarın müqəddəs sayılan bitki və ağaclar hesab olunması da bu inam və etiqada tapınmanın nəticəsidir.

Maraqlıdır ki, «xeyir xəbər» adlanan sağsağan evin üzərindən uçanda qarıldasa, yeni xəbər eşidəcəklərinə inanırlar. Bu xəbərin xeyirli olması üçün üç dəfə «xeyirli xəbər» – deyə təkrar edir və deyirlər:

Xeyir isən gəl bəri,
Şər isən dön geri (149, 96).

Qeyd etmək lazımdır ki, qədim dövrlərdən bu yana insanın həyatı, əmək fəaliyyəti, real və mifik təsəvvürləri, astral görüşləri İraq–türkman folklorunda da inam və etiqadların yaranmasında mühüm rol oynamışdır. Çünki «insanlar ilkin təfəkkür çağlarında əhatə edildikləri mühitdə əksər mövcud məsələlərin mahiyyətinə dair cavab tapmaqda, nəticə çıxarmaqda çətinlik çəkmişlər. Onlar həyatda üzləşdikləri maneələrin səbəbini təbiətdə axtarmış, müxtəlif hadisə, nəsnələr arasında, hətta azacıq, cüzi bənzəyişə müəyyən daxili əlaqənin, bağlılığın əlaməti kimi baxmışlar. Bunun üçün də mürəkkəb təbiət aləminə təsir etmək cəhdi, bununla da arzu, istəyə qovuşmaq meyili sınamaların yaranıb yayılmasına, bir janr kimi formalaşmasına səbəb olmuşdur» (2, 4).

İlkin mərhələdə real həyat gerçəkliyi və şəraiti ilə bağlı olan inanclar böyük mətləblərdən söz açır, yuxarıda göstərdiyimiz kimi, xalqın düşüncə tərzini, həyata baxış və münasibətini sistemli tərzdə izləmək baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycan folklorunda da özünü göstərən bir çox inanclar dediklərimizə dayaq olur. Məsələn, İraq–türkman folklorunda sağ əlin içi qaşınarsa, para gələcəyinə inanar, əli üç dəfə öpər və başlarına qoyarlar. Eləcə də hamilə qadının bətnində uşaq sağ tərəfə meyil etsə oğlan, sol tərəfə meyil etsə qız olacağına inanılarmış.

Maraqlıdır ki, Azərbaycan folklorşünaslığında «sağ» və «sol»la bağlı gəlinən qənaət də İraq-türkman folklorundakı inancla səsləşir. İraq–türkman nağıllarından məlum olur ki, padşahın, adətən, iki vəziri olarmış. Onlara sağ vəzir, sol vəzir deyərdilər. Padşahın sağ tərəfində oturan vəzir baş vəzir olarmış (133, 312). Bu vəzirə, «Ərsalan» nağılından göründüyü kimi, Xeyir vəziri və ya xeyir-bərəkət gətirən, günəşin simvolu kimi Şəms (Günəş) vəziri, sol tərəfdə əyləşən vəzirə şər vəziri və ya Qəmər (Ay) vəziri də deyərdilər. İraq–türkman folklorunda təsadüf edilən bu hadisə «Kitabi-Dədə Qorqud»da da öz əksini tapmışdır. Əsatiri inamlara görə Bozoklar Oğuz xanın səmavi qadınından olan Gün xan, Ay xan, Ulduz xanın

nəslindən, Uçoklar isə Oğuz xanın ağacın oyuğunda görüb evləndiyi qadından olan Göy xan, Dağ xan, Dəniz xanın nəslindəndir. Səmavi qadından olan övladlar daha çox hörmətli, nüfuzlu sayılmışlar. Odur ki, Oğuz xan onları bir qayda olaraq sağ tərəfdə, o birilərini isə sol tərəfdə əyləşdirərmiş. Beləliklə, «sağ» və «sol»la bağlı məsələnin mahiyyəti aydın olur (296, 163).

İraq–Türkman və eləcə də Azərbaycan folkloru üçün səciyyəvi olan və xoruzla bağlı inanc da çox qədim dövrlərdən xəbər verir.

Firdovsinin «Şahnamə»sində göstərilir ki, hökmdar Kəyumərsin oğlu Səyaməki divlər öldürür. Kəyumərs oğlunun intiqamını almağa gedərkən bir xoruzla ilanın vuruşduğunun və xoruzun tez-tez banladığının şahidi olur. Xoruzun banlamasını uğurlu hesab edir və ilanı öldürür. Xoruzu iqamətgahına gətirir. Xoruz sübh çağı banlayıb səhərin açılmasını xəbər verir. Səhərin açılması günəşin, işığın qaranlıq üzərində – xeyirin şər üzərində qələbəsi demək idi. Qələbəni xalqa çatdıran xoruz müqəddəs hesab olunurdu. Lakin bir gün Kəyumərs xəstələnir. Onun xəstə yatdığı axşamların birində xoruz banlayır. Xoruzun vaxtsız banlaması hamını mat qoyur. Gəlib görürlər ki, Kəyumərs ölüb. O vaxtdan xoruzun axşam banlaması fəna hesab olunmuş və belə bir inancın meydana gəlməsinə səbəb olmuşdur (5, 38).

Kərkük dolaylarında indinin özündə belə axşamçağı xoruz banlasa, «O, baş yeyər» və ya «Bu şumdar baş yeyər» – deyir və xoruzun başını kəsirlər.

Demək lazımdır ki, İraq–türkman folklorunda atəşpərəstliklə bağlı bir çox başqa inanclar da yaşamaqdadır. Zərdüşt fəlsəfəsinə görə kainatın işıq və zülmətin mübarizəsindən ibarət olduğu məlumdur. Xalq işığın toran düşən vaxt qaranlıqla mübarizədə məğlub olmasını şər kimi qəbul etmişdir. Odur ki, şər qüvvələri sevindirməmək üçün gecə vaxtı güzgüyə baxmaq, gün sarıda (qürubçağı) işləmək, məğribdə (şər vaxtı) ev süpürmək, yerə qaynar su tökmək və s. uğursuz hesab olunarmış.

Eləcə də odla bağlı inam və etiqadlar, həmçinin oda sitayiş zərdüştiliklə əlaqədar yaranmışdır. Oda xoşbəxtlik, uğur bağışlayan hami kimi baxmış, ona and içmişlər. Xristian dininə etiqad edən ingilislərdə də od-ocağı xoşbəxtlik bəxş edən hami kimi tanıyır, evin, ailənin şər qüvvələrdən qorunması üçün hər evdə buxarı olmasını vacib hesab edirlər. Buxarı – ocaq ailə xoşbəxtliyinin rəmzi kimi qəbul edilir.

Kərkük dolaylarında ocağa inamla əlaqədar mərasimlər də yaranmışdır. Uşaqlar bayram vaxtı tonqal qalayırlar ki, ətraf işığa qərq olsun, şər qüvvələr qorxaraq evə yaxınlaşıb bir fənalıq törətməsinlər. Eyni zamanda mahnı oxuyurlar:

Oğlan, oğlan od gəti,
Oda salavat (etiqad) gəti.
Nənən plov edibdi,
Yoldaşların yığ gəti (133, 302).

Xalq arasında oda, ocağa inam Azərbaycanda da çox güclü olmuş və bu gün də qalır.

Demək lazımdır ki, od bütün türk xalqlarında yamanı qovan, məhv edən sayılırmış (192, 13).

Bununla belə xüsusi qeyd etməyə dəyər ki, atəşpərəstliyin, o cümlədən də zərdüştiliyin geniş yayıldığı ölkələrdən Azərbaycan və Kərkük dolayları onunla fərqlənir ki, bu ölkələrdə neft və yanan qaz oda, günəşə sitayiş kultunun başqa yerlərlə müqayisədə daha böyük vüsət almasına gətirib çıxarmışdır.

Atəşpərəstlik bu gün də xalq arasında yaşayır.

Hələ də, hələ də bizim yerlərdə
Sadə insanların andı çıraqdır.
Xalqın arasında, kənddə, şəhərdə
Müqəddəs yerlərin adı ocaqdır.

deyən Cənubi Azərbaycan şairi Səhənd bunu bir daha təsdiq etmişdir.

Od, işıq, güzgü, parıltı və s. ilə əlaqədar inancların atəşpərəstliklə bağlı yarandığı göz qabağındadır. Atəşpərəstlik dininə görə dünya, guya, iki qüvvə tərəfindən idarə olunur. Onlardan biri xeyir, digəri şər qüvvələrdir. Guya, Hörmüzd işığın, Günəşin, Ayın, odun, həqiqətin, xeyirxahlığın, Əhriman isə şər qüvvələrin, yəni zülmətin, şərin bədbəxt hadisələrin tanrısı imiş. Elə, əslində, atəşpərəstlik bir din kimi öz başlanğıcını buradan alır. Deməli, dünya xeyir və şər qüvvələrin mübarizəsi üzərində bərqərar olmuşdur. Şübhəsiz, buna görədir ki, Kərkük dolaylarında da, Azərbaycanda olduğu kimi, Ay və Gün tutulanda müəyyən mərasimlər keçirilir. Ay və Gün tutulanda fəlakət olacağına, müharibə baş verəcəyinə, bahalıq və aclıq olacağına inanırlar. Odur ki, «Div Ay nənəni tutub», «Div Gün nənəni tutub» – deyər, haray-həşir salar, evlərdə, həyətlərdə, məhəllələrdə tənəkə çalar, güllə atar, səsküy salarlar (255, 13). Bununla şər qüvvələri qorxudub qaçıracaqlarına inanarlar.

Saçla bağlı inam da maraq doğurur. «Kəsilmiş saçı tapdayanın başı ağrıyar». Eləcə də kəsilən saç və dırnaqlar gömülməsə günah hesab olunur və qiyamətdə cavab verməli olacaqları inancı xalq arasında geniş yayılmışdır. Tədqiqatçıların göstərdiyinə görə, bir çox xalqlarda belə bir etiqad özünü göstərir ki, guya bütün bədxah qüvvələrin sehr etmək bacarığı saçları ilə bağlıdır. Deməli, saçlara toxunmaq, saçları kəsmək, onlara ziyan vurmaq, sehr qüvvəsindən məhrum etmək deməkdir.

Başağrısı da, guya, saçları ayaq altına atıb tapdalamağa, yastığın üstünə tayaq basıldığına görə bədxah ruhların narahatlığı ilə əlaqədar yaranır. Odur ki, kəsilmiş saçların gömülməməsi böyük günah hesab olunur, başağrısı bir yana, hətta buna yol verən adamın qiyamətdə cavab verməli olacağı inamı meydana gəlmişdir. Hətta körpənin bir yaşı tamam olana qədər, bir az böyüyüb, ətə-qana gələnə qədər onun ilk saçının qırxılmaması da bununla əlaqədardır. O da maraqlıdır ki, ilk saç qırxılarkən onu tapdamağa, yerə tökülməyinə

imkan vermir, hətta körpənin ilk saçını qoruyub saxlayırlar. Güman edirlər ki, belə olmasa saç ruhları acıqlana və körpəni incidə bilərlər. Eləcə də dırnaqlar. İnanca görə uşağın dırnaqları da bir yaşı tamam olanda kəsilərmiş. Dırnaqları da atmaz, təmiz bir şeyə büküb evin divarlarındakı yarıqlara və s. qoyarlarmış. Azərbaycanda olduğu kimi, İraq-türkman folklorunda da, guya, adamın sağlamlığı, gücü, zehni və s. saç və dırnaqları, xüsusən də ilk saç və dırnaqlarla əlaqədardır. Xalq arasında belə bir inam var ki, körpənin ilk saçı və dırnaqları atılsa, o tez-tez xəstələnər, huşsuz, zəif və gücsüz olar.

Ümumiyyətlə, bütün bu deyilənlər bir daha sübut edir ki, xalqın keçmişini, adət-ənənələrini, həyat tərzini öyrənməkdə inam və etiqadların əhəmiyyəti az deyil.

YEMİNDLƏR. Kərkük folklorunda bu qədim janr gah «and», gah «yemind», gah da «qəsəm» kimi tanınır. Bunu «Arzu–Qəmbər» dastanından da görmək olur: «Yox, vallah nənə, bunca and, bunca yemind tez gəlləm» (133, 164).

Tədqiqatlardan belə qənaətə gəlmək olur ki, «and» sözü «qan qardaşı» mənasında işlənən monqolca «anda» sözündəndir. Məsələ burasındadır ki, qədim türk və monqollarda adətə görə başqa-başqa qəbilədən olan kişi və gənclər dostlaşmaq və qardaşlaşmaq üçün damarlarını kəsib axan qanı bir qaba yığar, südə qatıb yarıbayarı içərlərmiş. Beləliklə, qardaş olarlarmış. «And» sözü, əslində, buradan yaranıbdır (5, 26).

Bununla belə, İraq–türkman folklorunda mənşəcə ərəb kəlməsi «yəmin»dən olan «yemind»lər daha çox işlənir. Maraqlıdır ki, bu sözə Azərbaycan ədəbiyyatında da təsadüf edilir: «Oxları sındırmaq yəmin etmək deməkdir: hər kəs özünü xaqanın yolunda qurban edəcəyinə and içirdi» (245, 94).

Qeyd etmək lazımdır ki, andlar ilk dövrlərdən indiyə kimi müqəddəs sayılmış, andı pozan adama alçaq nəzərlə baxmış, yalançı kimi tanımış, belə adamların xalq arasında hörməti olmamışdır. Buna görədir ki, andı namus, qeyrət, şərəflə bərabər tutmuş, onu pozmaqdansa ölümü üstün saymışlar. Aşağıdakı misallar dediklərimizi təsdiqləyir: «Ölümüm görəsən», «İki gö-

züm kor olsun», «Toppuğum yerə dəymiş olsun» – yəni yalan desəm, ölüm, «Əsgər qaçağı olum» – yəni yalan desəm, çöllərə düşüm, ömrüm boyu qorxu, əzab-əziyyət içində yaşayım.

Hətta əziz və müqəddəslərin də canına, məzarına and içirlər ki, andımı pozsam, qoy mənə qənim olsunlar.

Professor A.Nəbiyev andlardan danışarkən haqlı olaraq göstərmişdir: «Şifahi nitqdə yaşamaqda olan hər bir andın özünəməxsus tarixi, etimoloji kökü, əsası vardır. Onların hər birinin arxasında xalqımızın müəyyən tarixi inkişaf mərhələsindəki həyatı, məişəti, əxlaq və təfəkkür tərzi dayanır. Böyük yüzilliklər arxasından süzülüb gələn bu şölələrin, şəfəqlərin hər birində bir əsrin, bir qərinənin sirləri gizlənməkdədir...» (165, 22, 23).

Azərbaycan folklorunun çox zəngin və qüdrətli qolu olan İraq–türkan folklorunda da bu belədir. Demək lazımdır ki, İraq–türkman folklorunda da andların ilkin olanları zərdüştilik və insanın hələ dərindən dərk edə bilmədiyi təsəvvürlərlə bağlı yarananlardır. İnsan Aya, Günəşə, oda, suya, göyə, yerə müqəddəs varlıqlar kimi baxmış və nəticədə andlar meydana gəlmişdir: «Bu Günəş haqqiyçi», «Bu Günəşə kor baxım», «Ocaq haqqiyçi», «Pirə yemind edirəm» və s.

İkinci qisim yemindlər islam dini ilə əlaqədar yaranmışlar: «Allah haqqiyçi», «Peyğəmbərin başıyçi», «Quran haqqıyçi», «İmam haqqıyçi», «Dinimdə», «İmanımda» və s.

Sonrakı qisim yemindlər Azərbaycan folklorunda olduğu kimi, bərəkət və qüdsiyyətlə bağlı yaranmışlar: «Duz-əkmək haqqiyçi», «Nemət haqqiyçi», «Bərəkət haqqiyçi».

Nisbətən sonralar isə insan təsəvvürləri dəyişdikcə köhnə andlarla bərabər yeniləri də meydana gəlməyə başladı. Bunların arasında ata-ana, qardaş-bacı, övlad, əmi, dayı, xala, bibi və bu kimi əziz və yaxın adamlarla, namus, qeyrət, şərəf və s. ilə bağlı andlar daha çoxdur: «Mərd başıyçin», «Namusumda», «Şərəfimdə», «Canıva yemind olsun», «Adına qəsəm olsun», «Babamın canıyçin», «Qardaşımın canıyçin» və s.

Göründüyü kimi, İraq–türkman folklorunda xalq ədəbiyyatının ilkin janrlarından olan yemindlər qədim zamanlardan

müqəddəs, sonralar isə qismən də əziz saydıqları insan və varlıqlarla əlaqəli yaranmışlar.

DUALAR VƏ BƏDDUALAR

Dualar və bəddualar İraq–Türkman folklorunda ən geniş yayılan qədim janrlardandır. İndinin özündə belə onları hər an xalq arasında danışıq əsnasında eşitmək olur. Ta qədim zamanlardan dua (alqış) və bəddualar (qarğış) xalqın həyatında mühüm rol oynamış, onların mənası böyük olmuşdur. Şübhəsiz, buna görədir ki, dua və bəddualar folklorun bayatı, nağıl, dastan, oxşama, ağı və s. kimi janrlarında geniş yer almışdır. İnsanlarda belə bir inam yaranmışdır ki, qarğış adamı tutur, onun başına pis hadisə gəlməsinə səbəb olur. Bu baxımdan hal-hazırda da qarğışlardan çəkinərək pis əməllərə yol verməməyə çalışırlar. Xeyirxah işlərə can atırlar ki, onlara dua etsinlər.

Kərkük dolaylarında xalq pisə nifrətini, yaxşıya rəğbətini ifadə etmək üçün alqış və qarğışlardan geniş istifadə edir. Başqa sözlə desək, insanlar alqış və qarğışlarda sözün əfsunkar qüvvəsinin təsiri ilə istəklərinə nail olmağa can atırlar.

Bir çox türkdilli xalqlarda arxaik hesab edilən, lakin Kərkük dialektində bu gün də işlədilən sözləri mühafizə edib saxlayan «Kitabi-Dədə Qorqud»dan məlum olur ki, dua və bəddualar lap qədimdən mövcud imiş və onlara inam da möhkəm olmuşdur. Məsələn, Basatın Təpəgözü öldürdüyü boydan görünür ki, Təpəgözün Pəri anası Oğuz elinə bədbəxtlik, bəla gətirmək üçün onun barmağına bir üzük keçirib: «Oğul, sana ox batmasun, tənüni qılıc kəsməsün» – deyə xeyir-dua etdiyindən onun bədəninə nə ox batır, nə qılınc kəsir. Basat Təpəgözün bədənindəki «Axilles dabanı»nın yeganə gözü ilə əlaqədar olduğunu aydınlaşdırır və eli bəladan qurtarmaq üçün onun gözünə odda qızdırılmış süngü soxur.

Təpəgöz yeganə gözünü itirdikdə bunu elədiyi pis əməllərin nəticəsində ona edilən qarğışda görür və inanır ki, onu qarğış tutub. Öz-özünə deyir:

Ağsaqqallı qocalan çoq ağlatmışam,
Ağsaqqallı qarğışı tıutdu ola, gözüm, səni?
Ağbirçəkli qarıçuqları çoq ağlatmışam,
Gözi yaşı tutdı ola, gözüm, səni?
Bığcığı qararmış yigitcikləri çoq yemişəm
Yigitlikləri tutdı ola, gözüm, səni?

Sonra isə Təpəgöz Basata qarğış edir:

Ala gözdən ayırdın yigit, məni!!
Tatlu candan ayırsun qadir səni! –

deyir və Basatı aldatmaq istəyir: «Mağarada iki qılınc var, biri qınlu, biri qınsuz. Ol qınsuz kəsər mənim başımı. Var, götür, mənim başımu kəs» (136, 102).

Basat qılıncın sehrini öyrəndikdən sonra onu əldə edir. Təpəgöz inanır ki, qarğışı Basatı ona görə tutmadı ki, öz günahları böyük olub.

DUALAR. Dualar xeyir-dua vermək, alqışlamaq, uğur arzulamaq məramı ilə bağlı yaranmış, ayrı-ayrı erkən inamları ifadə etmişdir. Duanın əsasında dayanan alqışda başlıca cəhət yaxşılıq və uğur diləməkdir (164, 79).

Dualar İraq–türkman folklorunda da eynilə bu amala xidmət edir. Eyni zamanda onu da qeyd edək ki, insana yaxşı keyfiyyətlər aşılamaq, onu xeyirxah işlərə sövq etmək, pis əməllərdən çəkindirməkdə alqış və qarğışların əhəmiyyəti böyükdür. İndinin özündə belə, insan ağır bir işdən, bəladan, faciədən qurtaranda inanır ki, hər hansı bir xeyirxah əməlinə görəsə bu bəladan qurtardı. Odur ki, kiminsə duasının müstəcab olduğunu göz önünə gətirir. Bundan başqa xeyir-dua insanlar arasında müəyyən münasibətlərin yaranmasında və eləcə də onların əhvallarının yaxşı olmasında müsbət rol oynayır. Xeyir-dua, demək olar ki, İraq türkmanlarının danışıqlarının bəzəyidir. Hər hansı iş üçün birinin yanına gedən qadının danışığında təqribən aşağıdakı sözləri eşitmək olar:

Qurbanın olum, başına dolanım.
Gözünə heyran, boyuna qurban.
Allah sağ olasan, dünya durduqca durasan.
Qadanı alım, önündə ölüm.
Sözünü şəkərnən kəsim.
Qan etdim, qapına gəldim.
Böyüyümsən, ağamsan.
Məni əliboş qaytarma.

İlk baxışda adi görünən «Qurbanın olum», «Başına dolanım», «Önündə ölüm», «Böyüyümsən, ağamsan» və eləcə də «Sənə fəda olum», «Ayağının altında ölüm, ağamsan» ifadələrinin hər birinin arxasında bir dünya məna durur.

Xalqın keçmişinin çox dərin qatları ilə sıx bağlı olan bu ifadələrin məna tutumu adamı heyrətə gətirir. «Qurbanın olum» ifadəsi xəstələnən adamın, xüsusən də uşağın başına qurbanlıq heyvan dolandırıb kəsməklə, bununla da şər qüvvəyə əvəz verdiklərinə, uşağın sağalacağına, qada-bəlanın, ağrı-acının qurban deyilən heyvana keçməsinə inamla əlaqədar yaranmışdır. İndinin özündə belə Azərbaycanda olduğu kimi, övlad-uşaqla bağlı müəyyən arzu-diləyin yerinə yetirilməsi ilə əlaqədar qurban deyilmiş toğlu və ya qoçu kəsərkən mütləq onu uşağın başına dolandırıb kəsirlər. İraqlı tədqiqatçı İbrahim Daquqi bu münasibətlə yazmışdır: «Türkmanlar çocuq xəstələndiyi zaman və ya başına bir hadisə gəldiyi zaman ortaya əti yeyilən bir heyvan qoyurlar. Uşağın ətrafında dolandırıb kəsirlər. Sonra ətini fəqir-füqəraya, qonşulara paylayırlar. Beləliklə, xəstə şəfa tapır» (117, 81).

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da bir adam xəstənin başına dolansa, xəstənin sağalacağına, onun isə öləcəyinə, kiməsə qurban və ya fəda olacağına inanırlarmış. Beləliklə, «başına dolanım», «qurbanın olum», «sənə fəda olum» kimi ifadələrin ilkin mənasının müəyyən inanc və etiqadlarla əlaqədar yarandığı aydın olur.

Hətta kiçik uşaqlardan kimsə oturan bir şəxsin ətrafında oynayarkən, onun dövrəsinə fırlansa, uşağın başına bir hadisə

gələcəyini zənn edərək, onun hərəkəti əks istiqamətdə yerinə yetirməsini məsləhət görərdilər. Beləliklə, uşağın xəta-bəladan sovuşduğuna inanardılar.

O ki qaldı «Ayağının altında ölüm, ağamsan», «Önündə ölüm, böyüyümsən, ağamsan» dualarına, qeyd etmək lazımdır ki, onlar daha qədim zamanlarda özünü göstərən mərasimlə əlaqədar yaranmışdır. Təəssüf ki, son əsrdə müəyyən tarixi, ictimai-siyasi səbəblər üzündən Azərbaycanda bu dualara xüsusi məna verən «ağamsan», «böyüyümsən» sözləri dualardan atılmış, nəticədə duaların ilkin yaranışının araşdırılmasında müəyyən çətinliklərə gətirib çıxarmışdır. Məsələ burasındadır ki, dua mənasında işlənən bu ifadələr «ağa», «böyük», «başçı» sözləri ilə sıx əlaqədə yaranmışdır.

Şifahi və yazılı ədəbiyyatdan görünür ki, qədimlərdə əşirət başçısı və ya çox mötəbər bir şəxs vəfat etdikdə qul və xidmətçilərindən öldürüb onun ayaq ucunda basdırarlarmış.

Azərbaycan yazıçısı Y.V.Çəmənzəminlinin «Keçmişlə bağlı olan adət və ayinlərin təsvirini... keçmişimizə aid müəyyən fikirləri bədiiliklə və yəqinliklə verən» (244, 7) «Qızlar bulağı» romanında belə bir mənzərənin şahidi oluruq:

«O biri gün şahzadənin dəfn mərasimini keçirdik. Qullar iyirmi addım uzunu və iyirmi addım enliyində iki adam boyu bir yer qazdılar. Dibinə söyüd yarpaqları döşəndi. Şahzadənin çadırı bütün müxəlləfatı ilə buraya yerləşdirildi. Meyidi geyindirib, silahlarla bərabər yatağına uzatdılar, çadıra gətirdilər. İrəliki gün diz çökən on səkkiz qız Aliatay adlı çopur bir cəllad tərəfindən bir-bir boğulub öldürülmüşdü. Bunları da şahzadənin ətrafına düzdülər» (245, 90).

Əsərin başqa bir yerində oxuyuruq: «Vəliəhd xüsusi bır təntənə ilə dəfn olundu və doqquz bakirə qız boğulub qəbirə qoyuldu» (245, 99).

Demək lazımdır ki, «bunlar ölən adamın yenidən dirilməsi etiqadına inamın nəticəsidir və bu səbəbdən öldürülüb basdırılanlar guya dirilib öz ağalarının qulluğunda duracaq, ona xidmət edəcəklər» (2, 59).

Bu inam qədim misirlilərdə də mövcud olmuşdur (245, 27).

Qeyd edək ki, dua və bəddualar xeyir və şər təsəvvürlərlə, inamlarla əlaqədar meydana gəlmişdir. İnsanlar inanmışlar ki, dua uğura, bəddua isə uğursuzluğa səbəb olur. Bu gün belə işlənən dualaların əksəriyyəti insanların arzu və istəklərini əks etdirmək baxımından maraq doğurur:

Evindən ev törəsin! (Oğul-qız toyu görəsən!)
Yeddi oğlan babası olasan!
Cigərin yanmasın! (Övlad dağı görməyəsən!)
Ömründən doyasan! (Ürəyincə, doyunca yaşayasan!)

Dualar bir çox hallarda bir neçə duanın birləşməsindən ibarət olur. Arzu-dilək ifadə edən, anaların qız və oğluna müraciətlə söylədiyi dualar bu baxımdan səciyyəvidir:

Ağ baxt,
Altın taxt;
Şəri şeytannan,
Quru böhtannan;
Qara xəlayiq,
Bayaz əkməkçi;
Siyah kölə
Dilərəm qızıma.
Həyasız arvaddan,
At şərinnən;
Od şərinnən,
Ərz və asiman şərinnən;
Yıxılmış divardan,
Qudurmuş köpəkdən;
Bəkliyəsən, saxlıyasan
Oğlumu, ay Allah! (201, 16)

İraq–türkman folklorunda xoyrat və manilərin böyük bir qismi dualarla bağlı yaranmışdır:

Qurbanam qaşına yar!
Qoy dönüm, başına yar!
Məni bu qəmdən qurtar,
Dolandır başına yar!

Ocağın;
Daim yansın, ocağın;
Övladın qeydinə qal,
Kor olmasın ocağın və s.

Təkcə elə bu fakt duaların xalq arasında nə qədər geniş yayıldığına dəlalət edir.

BƏDDUALAR. Bəddualar da inanc və dualar kimi İraq-türkman folklorunda möhkəm yer alan janrlardandır. Xalqın keçmiş həyat tərzini, adət-ənənəsini, etik və estetik görüşlərini tədqiq etmək baxımından bəddualar xüsusi əhəmiyyət kəsb edir.

Professor A.Nəbiyev Azərbaycan folklorunda qarğışlardan danışarkən onları üç qrupa bölmüşdür: mərasimlərlə, məişətlə, mifoloji və dini təsəvvürlərlə bağlı yaranan qarğışlar (162, 58).

Demək olar ki, Kərkük dolaylarında təsadüf edilən bədduaları da təxminən üç qrupa bölmək olar:

1. Dini təsəvvürlərin təsiri ilə yaranan bəddualar.
2. Mərasimlərlə bağlı yaranan bəddualar.
3. Məişətlə bağlı yaranan bəddualar.

İraq-türkman folklorunda məişətlə bağlı yaranan bəddualar daha çoxdur (133, 63–65).

Bəddualaların bir çoxu keçmişdə mövcud olmuş, yavaş-yavaş yaddan çıxmaqda olan xəstəlikləri xalqın hafizəsində saxlamaq baxımından maraq doğurur. Belsarma olasan! (Belin sınsın); Qırran qırsın (Taun tutsun!); Yaman sancı tutasan; Gözünə qara su ensin; Gözünə mil çəkilsin; Qudurasan; Ələt süpürsün! (Taun aparsın); Pərkəm tutasan! (Partlamaya düşəsən!); Yaman yara çıxarasan! və s.

Təbii ki, İraq–türkman folklorunda rast gəlinən bədduaların əksəriyyətinə bu və ya başqa deyim tərzində Azərbaycanda da təsadüf edilir. Lakin elə bəddualar da var ki, yalnız İraq-türkman folkloruna aiddir. Məsələn:

«Səni Soğançı Əhməd tükanı önündə görrəm, inşallah!» – dedikdə «Səni dar ağacından asılmış görrəm» anlamı göz önünə gəlir. Məsələ burasındadır ki, Kərkük şəhərinin bazar meydanında Soğançı Əhmədin dükanı önündə günahı olanları dar ağacından asarlarmış. İfadə bununla əlaqədar yaranmışdır.

Altunuvuz yez (mis) olsun, kətanuvuz bez olsun! – qarğışı isə Kərkükdə Qala və Qorya məhəllələri arasında yarı hənək, yarı gerçək narazılıqlardan ortaya çıxan söyüş, istehza və s. anlamını verən aşağıdakı misradan yaranmışdır:

Sığır əti yeyən, atlası bez, qalalılar,
Quyu suyu içən, altunu yez, qalalılar (133, 71).

İraq–türkman folklorunda bəddualarla – qarğışlarla bağlı yaranmış çoxlu xoyrat və manilər də vardır (133, 66–69).

Məsələn:

Bağçada sərdim kilim,
Gəl əyləş mənim gülüm.
Nə dedim, küsdün yenə,
Lal olsun mənim dilim.

Yaman yara;
Yaman dərd, yaman yara.
Yamanlar yaxşı oldu
Biz olduq yaman, yara.
Məni yardan edəni
Çıxartsın yaman yara və s.

Demək lazımdır ki, təbiətdə baş verən hadisələrdən bir çox hallarda insanların baş açа bilmədiklərindən, onlarda sözün gücünə, sehrinə inam qarğışlarla bağlı güclü olmuşdur.

«Kitabi-Dədə Qorqud»dan gəlmə «O zəmanda bəglərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcab olardı» (136, 52) inam və etiqadı İraq–türkman folklorunda da dərin izlər buraxmışdır. Bunu biz astral görüşlərlə dolu olan «Arzu-Qəmbər» dastanında aydınca görürük. Xalq həyata keçirmək istədiyi arzu və diləyini qarğışlar vasitəsilə vermiş, beləliklə, qəhrəmanın məqsədinə çatacağına inanmışdır:

«Gəldilər tatkili qızın diləkçiliginə. Al etdilər, ver etdilər. Qız verildi. Yolu gəldi, kəbini kəsildi. Qızın cehizi alındı, xınalandı, qız getmək üstə oldu. Arzunun nənəsi dedi: «Getsin boynumnan olsun, Qəmbər qalsın hə belə yana-yana».

Toyun tədarükü bitənnən sonra gəldilər qızı bəzətməğə. Qız ağlayır, oğlan ağlayır. Sağ aşiq olduqlarınnan gözlərinnən qan gəlir. Oğlan da qapıda durub boynun burur. Bir dənə gəldi qızın əsbabın geydirsin, bəzətsin. Oğlan dedi:

Həy hökülsün, hökülsün,
Qatlı dağlar sökülsün.
Arzunu bəzədənin
On barmağı sökülsün.

Arvadın on barmağı yuvı-yuvından düşdü. Sağ aşığın duası keçdi. O dedi: «Bu gəlini kim bəzəsin?» Bu dedi: «Bu gəlini kim bəzəsin?» Bir dənə qalxdı: «Yaalla, yaalla, mən bəzədərəm. Qəmbər nədi, sözü belə keçsin?» Qalxdı gəlini bəzətsin. Döndü Qəmbər dedi:

Mən Qəmbərəm dağ kimin,
Titrərəm yarpaq kimin.
Arzunu bəzədəni
Qərə geysin zağ kimin.

Xəbər gəldi. Dedilər: «Qalx, damun düşüb, dörd oğlun və kişin altında qalıbdı. Əli belli, dəli belli leş çıxardırı». Arvad gəlini yerində qoydu hurbi basdı, qoydu qaçdı» (40, 19–20; 41, 23).

Təəccüblü olsa da xalq arasında bəddualaların gücünə əvvəllər olduğu kimi, indi də inananlar çoxdur. Onu da demək vacibdir ki, bəddualara daha dərindən nəzər saldıqda onların bir çoxunun lap qədim dövrlərlə, açıq-aydın özünü büruzə verən adət-ənənələrlə bağlı olduğunun şahidi oluruq. Məsələn, «Saçı kəsilmiş», «Saçın kəsilsin» qarğışları qədim inam və adətlərlə əlaqədar yaranmışdır. Keçmişdə Kərkük dolaylarında böyük günah işlətmiş adamların saçını qırxmaqla onu xalq arasında bədnam edərdilər. Məsələn, Azərbaycanda olduğu kimi, bakirə çıxmayan gəlinin saçını kəsib atası evinə qaytarmaq adəti Kərkük dolaylarında da olmuşdur (225, 42).

Tədqiqatçı İbrahim Daquqi bu münasibətlə yazır: «Əskidən toplumun dilinə düşən, lənətinə uğrayan hər gənc qızın aləmə ibrət olması için saçı kəsilirdi» (117, 147).

İndinin özündə belə, ana qızına qəzəblənəndə, acığını soyutmaq üçün «Saçın kəsilsin», «Saçı kəsilmiş» qarğışını edir ki, bu da qədimdən qalma həmin adətlə bağlıdır.

«Kitabi-Dədə Qorqud»da məsəl vardır: «Toy gecəsi bakirə ol!» (136, 153). Göründüyü kimi, Oğuzlar dövründə də bu məsələ çox ciddi qoyulmuşdu.

Bundan əlavə, burada günahı və suçu olan adamın başını qırxar üzünə qatıq sürtər, eşşəyə tərsinə mindirib küçələrdə gəzdirər biabır edərlərmiş. Xalq arasında indi də işlənən «Görürəm eşşəyə tərsinə mindirilmək istəyirsən» deyimi həmin adətlə əlaqədar yaranmışdır.

Tədqiqatçılar belə bir fikrə gəlmişlər ki, saçın qırxılması, yaxud kəsilməsi guya ömrün azalması deməkdir. Məhz buna görədir ki, folklorşünas B.Abdullayev «Dilimizdə qarğış mahiyyətli «Saçı kəsilmiş», «Saçın kəsilsin» ifadələri də bu baxımdan şərh olunmalıdır» (2, 7) qənaətinə gəlmişdir.

Yeri gəlmişkən, qeyd edək ki, İraq–türkman folklorunda yer alan saçın ələk olsun» bədduası – qarğışı tədqiqatçı B.Abdullayevin fikrinə dayaq olur. Məlumdur ki, vaxtilə ələk düzəldərkən at quyruğundan, əsasən də, ölmüş atın quyruğundan istifadə edərmişlər. Çünki sağlam atın quyruğunu onun

sahibindən intiqam almaq, onu xalq arasında rüsvay etmək, hörmətdən salmaq, ona sataşmaq üçün qırxardılar.

Professor B.Abdullayev xalq şairi S.Vurğun yaradıcılığına folklorun dərin təsirindən söz açarkən bu məsələyə xüsusi diqqət yetirmiş, atalar sözünün poetik konkretliyindən istifadə ilə qəhrəmanın keçirdiyi psixoloji anı, sarsıntıları şairin böyük məharətlə verdiyini qeyd etmişdir (4, 318).

S.Vurğun oxucuya müraciətlə yazmışdı:

Oxucu, bəlkə, sən
Özün bilirsən
Ki, bizim yerlərdə bir papaq, bir at,
Bir də hər kişinin aldığı arvad
Namusdan sayılır…

Bunu İ.Şıxlının tarixi faktlar əsasında yazılmış «Dəli Kür» romanında da aydın şəkildə görmək olur. Belə ki, Cahandar ağadan qisas almaq üçün düşmənləri onun atının quyruğunu qırxırlar. Bu hadisə heç vaxt dəyanətini itirməyən bəyi sarsıdır (258, 333).

Odur ki Cahandar ağa sirdaşı hesab etdiyi dar gününün harayçısı Qəməri qayanın başına çəkib güllə ilə vurur ki, camaatın bu biabırçılıqdan xəbəri olmasın. Elə bilsinlər ki, at qayadan uçub Kürə düşüb, Kür atı aparıb.

Burada diqqəti cəlb edən bir cəhəti – «Xalq yaradıcılığı nümunələrinin müasir ədəbi prosesdə çox fəal iştirak etdiyini» (85, 1) göstərmək də yerində olardı.

O da məlumdur ki, hələ qədim zamanlardan mötəbər bir şəxs, adlı-sanlı cəngavər, əziz övladı öləndə, zəmanəmizdə olduğu kimi, saçını yolmaq adəti olmuşdur ki, əslində, onun özü də «özünə ölüm istəmək» məqsədilə edilirmiş. Məsələn, Homerin «İliada» əsərində göstərilir ki, əziz dostu Patrokl öləndə Axilles və başqa cəngavərlər saçlarını yolur, cənazənin üstünə atırdılar (242, 484, 487). Eyni hadisəyə «Şahnamə»də İrəcin ölümü səhnəsində də təsadüf edilir (223, 78).

Bu adətin izlərinə İraq–türkman sazlamaqlarında (ağı) da rast gəlinir. Məsələn:

Al vala, yaşıl vala
Salacam düşdü yola.
Nə anam var, nə bacım
Ənsəmcə saçın yola (212, 226).

Qarğış mahiyyətli «Başına daş yağsın» ifadəsi isə Azərbaycanda olduğu kimi, böyük günah işlətmiş bir şəxsin daşqalaq edilməsi adətindən yaranmışsa, «Başına daş» bədduası qəbrə başdaşı qoymaq adəti ilə bağlıdır. «Başına daş» dedikdə kiməsə qarğış olunur ki, ya özü, ya da əzizi ölsün. «Başıma haranın daşını töküm» ifadəsi də bu adətlə əlaqədar yaranmışdır. Hələ lap qədim zamanlardan əzizi ölən adam öz əli ilə başına daş yağdırarmış. Firdovsinin «Şahnamə»sində nəql edilir ki, qədim dünya padşahlarından Kəyumərsin oğlu Səyaməkin ölüm xəbəri atasına çatanda onun qəlbi parçalandı, ciyərinə dağ çəkildi, göz yaşı tökdü:

Oğul dərdi düşsə dağa, dağ çəkər
Edib tərk təxti, töküb göz yaşı
Vurub başına öz əliylə daşı və s. (223, 26).

Qarğış mənalı «başına kül» ifadəsi də qədim inam və adətlə əlaqədar yaranmışdır. İt dişləmiş adamda qırx gün ərzində müəyyən əlamətlər özünü göstərsə (məsələn: su görəndə qorxsa) onun qudurduğunu, sağalmağa güman olmadığını, başqaları üçün təhlükəli olduğunu zənn edərək qaranlıq bir daxmaya salar, bacadan başına kül tökərlərmiş ki, ölsün (255, 74).

Mötəbər və əziz adamların ölümü zamanı başına kül töküb, saç yolmaq adətinin qədimdən mövcud olduğunu Azərbaycan və İraq–türkman şifahi ədəbiyyat nümunələri bir daha təsdiq edir:

Belə bağlar;
Dost başın belə bağlar.
Bülbül ağlar, gül açmaz
Verandı belə bağlar.

Can çıxma dost gəlincə
Görək nə deyib ağlar.
Kül o adam başına
Bedasıla bel bağlar.
Çək ayrılıq dərdini,
Gör ürək necə dağlar (123, 88).

Azərbaycan folklorunda nağıllarda, ağılarda, aşıq yaradıcılığında bu qədim adətin izlərinə hər an təsadüf edilir:

Bağça-bağda gül ağlar,
Bülbül ağlar, gül ağlar.
Oğlu ölən analar
Başa tökər kül ağlar.

Adam var dəstinə verəsən güllər,
Adam var, gözünə çəkəsən millər;
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalıbsan, qarı bəyənməz.

Qarğış xarakterli «Çamur başuva», «Çamura batasan» ifadələri də çox qədim adətlə əlaqədar yaranmışdır. Hörmətli və əziz bir şəxs öləndə hüzr sahibi, eləcə də yas yerinə gələnlər başlarına, paltarlarına palçıq sürtər, özlərinə ölüm dilərmişlər. Bu adət Kərkük bayatılarında da yer almışdır:

Kabab köziylə ağlar,
Sürmə göziylə ağlar.
Çamur onun başına
Xırxız öziylə ağlar (123, 229).

Kərkük dolaylarında yas mərasimi ilə bağlı bu adət indi də qalmaqdadır. Kərküklü folklorşünas Şakir Sabir bu münasibətlə yazır: «Ölüyə sayğı və sevgi dolayısilə qadınlar acı fəryad qoparır, başlarına çamur sürtür, dırnaqları ilə üzlərini cırmaqlayır, qanlar axıdır, saçlarını yolurlar» (255, 53).

Bu adətə Azərbaycan ədəbiyyatında da təsadüf edilir. Y.V.Çəmənzəminlinin «Qızlar bulağı» adlı tarixi əsərində göstərilir ki, şərbaf (toxucu) Kazım Ərdəbildə yağışlı bir gündə bir nəfərlə sözləşir. Paltarı və yerə düşən papağı palçıq olur. Kazım kişi sonra başına gələni belə təsvir edir: «Papağımı başıma qoyub gedəndə gördüm bir həyətə adamlar girib çıxır. Birindən soruşdum ki, burada nə var, dedi ki, adam ölüb. Fikirləşdim ki, elə yaxşı oldu. Gedib həm başsağlığı verərəm, həm də ehsan plovundan yeyib qarnımı doyduraram. İçəri girib oturdum. Bir də gördüm ki, məclisdən durub gedənlər yanıma gəlib mənə başsağlığı verirlər. Lap məəttəl qaldım. Dedim, ya bu şəhərin əhli dəli olub, ya mən... Demə, bu şəhərdə adamı ölənin papağına palçıq sürtərmişlər ki, təziyədar olduğu bilinsin. Papağım palçıqlı olduğundan məni təziyədar biliblər» (245, 237).

Qəribədir ki, İraqın cənubunda yaşayan göl ərəbləri arasında hörmətli və əziz bir adam öləndə başlarına və papaqlarına palçıq yaxmaq adəti indi də qalır: «Çox hörmətli bir adam, deyək ki, şeyx, ya onun oğlu, qardaşı vəfat edəndə bütün tayfalara xəbər göndərirlər. Hər tayfa dəstə-dəstə gəlir. Qabaqda əlində tayfanın bayrağını tutmuş bayraqdar durur. Başlarına və paltarlarına palçıq yaxırlar» (177, 200).

Misallardan göründüyü kimi, məişətdə geniş yer alan dua və bəddualar insan təfəkkürünün hələ kifayət qədər formalaşmadığı qədim zamanlardan qalma ibtidai təsəvvürlərlə, inam və etiqadlarla bağlı adət-ənənələrdə, mərasimlərdə mühafizə olunmuş, dövrümüzə qədər gəlib çıxmışlar.

FALLAR. İraq–türkman folklorunda fallar da geniş yayılmışdır. Demək olar ki, xalq arasında mövcud olan inamlarla, su ilə, ulduzlarla, kitabla və s. fala baxmağa Kərkük

dolaylarında da rast gəlinir. Bununla belə, İraq–Türkman folklorunda ən çox özünü göstərən inamlarla bağlı fala baxmadır. Əlimizdə olan folklor materiallarından çıxış edərək, burada yalnız inamlarla bağlı fala baxmadan söz açacağıq. Bu cür fala baxmanın başlıca xüsusiyyəti ondan ibarətdir ki, burada inamlar əsas götürülür.

Professor M.H.Təhmasib qeyd edir ki, Azərbaycanda fallar, əsasən, iki şəkildə olmuşdur. Bunlardan daha çox ibtidaisi «göz falı», buna nisbətən daha sonrakı dövrlərə aid olan isə «qulaq falı»dır (214, 8).

Bu, İraq-türkman folklorunda da belədir. Folklorşünas B.Abdullayev qeyd edir ki, «Fal qabaqcadan tutulmuş niyyətin, müəyyən ayinin icrası ilə həyata keçib-keçməməsinə inam aktıdır» (2, 42).

İraq-türkman folklorunda fallarla bağlı materiallar da bu fikri təsdiqləyir. Burada da falların əksəriyyətini arzu və niyyət tutmaqla bağlı inam və etiqadlar təşkil edir. Məsələn, əski çağlarda bir ailə başçısı başqa bir məmləkətə səfərə çıxsa və dönüşü geciksə, arxasınca qara tüklü toyuq uçurmaqla niyyət tutulardı. Toyuq evin damından uçurulurdu. Əgər toyuq evin həyətinə və ya lap yaxınına düşərsə, qürbətdə olan şəxsin yaxın zamanda evinə dönəcəyinə, şayəd uzağa uçsa, səfərin uzanacağına inanırdılar.

Göz falı nümunəsi olan bu inam xoyrat və manilərdə də öz əksini tapmışdır:

Uçurtdum qara tavuq,
Qondu Ərbilə yavuq.
Hamı gedənlər döndü,
Dönmədi başı savuq (212, 88).

Göründüyü kimi, göz falının əsas məğzi gözlə görülənə inamla bağlıdır. Göz falları içərisində lap qədim dövrlərlə, atəşpərəstliklə bağlı yarananları da vardır. Məsələn, Kərkükdə «Baba Gur-Gur» adlı məşhur yer vardır. Buradan daimi

olaraq alov çıxdığına görə müqəddəs hesab edilir və buraya niyyət tutmağa, murad diləməyə gəlirlər. Bir ağac və ya əlləri ilə yeri eşələyirlər. Az sonra alov gəlib buraya çıxsa niyyətlərinin yerinə yetiriləcəyinə inanırlar.

Yeri gəlmişkən, deyək ki, burada «Neft dərəsi» adlanan yer vardır. Qaşıntısı, qoturu olan adamlar neft vannası qəbul edəndə çox vaxt göstərilən fəsadlar yoxa çıxır. «Baba Gur-Gur»un müqəddəsliyinə inamın bir sirri də «Neft dərə»si ilə bağlıdır.

Göz falından fərqli olaraq qulaq falında tutulmuş niyyətin yerinə yetirilib-yetirilməyəcəyi eşidilən sözlə, onun təsir gücü ilə əlaqələndirilir.

Bu cəhətdən «Cümə daşı atmaq» qulaq falına ən yaxşı nümunə kimi səciyyəvidir.

Hər hansı bir qadın səfərə çıxmış bir yaxını barədə və ya bir xəstənin şəfa tapması barədə niyyət tutaraq cümə namazının azanı oxunarkən bir yol başında yolun hər iki tərəfinə daş atır və namaza gedənlərin danışdığı sözlərdən asılı olaraq tutduğu niyyətin yaxşı və ya pis olacağı barədə nəticə çıxarırdı.

Professor A.Nəbiyevin göstərdiyi: «xalq arasında inamlarla əlaqədar yaranan fallarda inam izi daha çox mühafizə edilmişdir. Onlarda fala çevrilmə prosesi elə bil tam başa çatmamışdır» (162, 71) fikri eyni ilə İraq-türkman folkloruna da aid edilə bilər. Məhz buna görə də inanclarla ikili xarakter daşıyan falları «inanclar» bölməsində verdik.

XALQ MƏRASİM VƏ NƏĞMƏLƏRİ

İraq-türkman folklorunda çox geniş yayılan qədim janrlardan biri də xalq mərasim və nəğmələridir. Biz «nəğmələr» termini altında xalq musiqi folklorunu deyil, daha çox nəğmələrin poetik mətnlərini nəzərdə tuturuq. Mərasim nəğmələrindən, eləcə də xalq mahnılarından danışarkən onu da qeyd etmək zəruridir ki, qədim nəğmələrin musiqisi zaman-zaman itdiyi halda (331, 6), onların poetik mətnləri, demək olar ki,

zəmanəmizə qədər gəlib çıxıb. Bununla belə, ümumiyyətlə, unutmaq olmaz ki, «mərasimdən kənarda nəğmə məna kəsb etmədiyi kimi, mərasim də nəğməsiz ənənəvi mahiyyətindən məhrum olur» (322, 167).

İraq-türkman folklorunda mərasim və nəğmələr üç yerə bölünür: Mövsüm mərasim və nəğmələri; Dini mərasim və nəğmələr; Məişət mərasim və nəğmələri. Demək lazımdır ki, mərasim və nəğmələr insanı beşikdən qəbrədək müşayiət edir. İnsan doğulur, nəsil artırır, nəhayət, həyatdan köçür. Bu da folklorda doğum, toy, yas mərasimləri, onlarda oxunulan nəğmələrlə nəsillərin yaddaşında əbədiləşir. Təbii ki, məqamına görə bir qisim mərasim nəğmələri qəm, qüssə, kədər, hüznlə bağlı yaranır. Başqa bir qisim nəğmələr arzu-dilək, şadlıq, sevinc, gözəl əhval-ruhiyyəni əks etdirir. Mövsüm mərasim və nəğmələrində isə ayrı-ayrı təbiət hadisələrinə inam və etiqadlar öz əksini tapır. Burada yağışın yağması, küləyin əsməsi, ümumiyyətlə, oda, suya, küləyə və s. inam və etiqadlarla əlaqədar yaranan mərasim və nəğmələr üstünlük təşkil edir. Bu nəğmələrdə, hər şeydən əvvəl, diqqəti cəlb edən onların qədimliyidir. Məsələn, küləklə bağlı nəğmədə antropomorfik təsəvvürün izinə düşürük:

Heydər, Heydər, asa gəl,
Xırmanları basa gəl.
Əmin qızı ölübdü
Durmagınan yasa gəl
(76; 133, 336; 149, 95).

Göründüyü kimi, taxılı xırmanda sovurulmamış qalan insan küləyi köməyə çağırır, onu insaniləşdirir və həm də deyərdik ki, Azərbaycan folklorunda olduğu kimi, ilahiləşdirir (162, 32; 10, 6). Eyni zamanda sözün gücü ilə təbii hadisələrə təsir göstərmək istəyir.

Mövsüm mərasim və nəğmələri arasında daha çox yayılanı yağışın yağması ilə əlaqədar olanlardır. Demək olar ki,

Kərkük dolaylarında yağış çox yağmır. Lakin bəzən elə yağışlar olardı ki, çaylar və arxlar daşar, küçələri, evləri su basar, körpülər yıxılar, əkinlər məhv olardı. Belə olanda camaat «Allah afətdən saxlasın!», «Ya Səttar, yardım et!» – deyərdilər.

Kərkük dolaylarında belə adətlər heç yaddan çıxarılmazdı. Bununla belə, burada, əsasən, quraqlıq keçərdi. Yayda və payızda quruyub bağrı çat-çat olmuş torpaq payızın sonu və qışın əvvəlində ilk yağışı səbirsizliklə gözləyər, kəndlilər gözlərini səmadan çəkməzdilər. Burada vaxtına görə bahar yağışı, çisə, sis, pələ, çiləmə, qoca börkü, qəri muncuğu, at quyruğu, nəmnəm yağışları olur. Bunların arasında yavaş-yavaş yağaraq torpağın canına hopan pələ ən xeyirli yağış hesab olunur. Gözəl bir pələ düşsə üzlər gülər. «Pələ bərəkətli bir ilin elçisidi, pələ yağdiysə çörək bol olacaq» – deyərdilər. Yağmur gecikərsə, keçmiş qıtlıq illərini göz önünə gətirərdilər. Əkin-biçinlə əlaqəsi olmayanlar belə, yağmurdan, əkindən söz salardılar. Torpaqdan ağaclara, quşlara, insanlara qədər yağış üçün böyük bir intizar olardı. Səmada görünən hər topa bulud yalvaran baxışları özünə çəkərdi. Bəzən günlərlə topa buludlar Kərkükün üstündən çəkilməz, yenə də yağmazdı. Gözlərdə parlayan işıq, ürəklərdə doğan ümid sönərdi. «Yox, yox, bu il də bildirki kimin əkin-biçin olmaz» deyərdilər. Fəqir-füqəra pərişan olar, məmləkətin üstünə bir ümidsizlik çökərdi. Su ağzında bağçası olanlar arasında qovğa düşər, qanlar tökülərdi. Qıtlıq və aclıq olardı.

Bir yağış arzusu ilə «Kosa gəldi», «Qodu» və eləcə də «Çəmçələ qız» mərasimlərinə hazırlıq görülər, yağmur duaları oxunardı (255, 113–114; 117, 153). Bu mərasimlərdə, demək olar ki, bütün məmləkət iştirak edərdi. Əhali üç gün oruc olardı və hətta üçüncü gün bazar belə bağlanardı. Məmləkət əhli bəlli yerdə yığışardı. Qurbanlar kəsilərdi. Böyük qazanlar qurub «Yağmur aşı» bişirərdilər. Dua mərasimi yenidən başlanardı. Molla və qazı əbasını tərsinə geyərdi. Namaza durduqdan sonra oruclarını «Yağmur aşı» ilə iftar edərdilər. Hər

kəs əvvəlcədən topladığı yüz xırda daşı bir-bir arxa və ya çaya atar, hər daşı atdıqdan sonra ayə oxuyar və axşama yaxın salavat çevirib evə dönərdi (255, 113).

Axşam isə Ulu Tanrıya üz tutaraq «Kosa gəldi», «Qodu», yaxud da «Çəmçələ qız» mərasimi keçirilərdi.

Ərbil şəhəri və ətraflarda yağmurla bağlı keçirilən bu mərasimə xalq «Kosa baba» deyir (149, 95).

Kosa, demək olar ki, Azərbaycanda olduğu kimi, üzünü qaralar, çılğı (keçi dərisi) geyər, keçədən papaq, qulaq, buynuz, quyruq düzəldər, boynuna qanqavur (zınqırov) taxar, özünü tanınmaz və əcaib bir hala salardı. Kosa ev-ev gəzər, qapıları döyər, atlanıb-düşər, cürbəcür oyunlar çıxarar, arxasınca gedənlər onu Azərbaycanda «Kos-Kosa» və «Yağışı çağır» mərasimlərində olduğu kimi (126, 66) ənənəvi mərasim nəğmələri ilə müşayiət edərdilər:

Allah bir yağış elə,
Dam-divarı yaş elə;

və ya:

Allah bir yağış elə,
Dam-divarı yaş elə.
Paşa qızı keçəndə
Babucunu yaş elə.
Əmim oğlu keçəndə
Əlbəsəsin yaş elə.
Açın anbar ağzını,
Verin yağış payını;
Veräni xatın olsun,
Verməyən qatır olsun.
(76, 38; 255, 114)

Kosaya qapı açılar, ona yağ, düyü, pendir və digər nəsnələr verərdilər. Açılan qapılardan və ya damlardan Kosanın başına bol-bol su tökərdilər. Açılmayan qapını döyər: «Kosa gəldi, qapını qırdı» – deyər və oxuyardılar:

Ha dura-dura yorulduq,
Tütünüvüzdən boğulduq.
Verəni xanım olsun
Verməyən qatır olsun.

Kosaya pul və hər cür ərzaq verərdilər. Bəzən toplanan ərzaq o qədər çox olardı ki, onu at və ya uzunqulaq üzərində daşıyardılar.

Maraqlıdır ki, «İraq-türkman folkloru» (180) adlı monoqrafiyamızı redaktə edərkən iraqlı tədqiqatçı Ə.Bəndəroğlu dedi ki, yağış-yağmurla bağlı yaranan bu mərasimə Kərkük dolaylarının bəzi bölgələrində «Qodu» və ya «Qoduq» adı verilməsi yığılmış ərzağın uzunqulaq üzərində daşınması ilə əlaqədar yaranmışdır.

Professor M.H.Təhmasib isə qeyd edir ki, «Hodu» və ya «Qodu» sözünün etimologiyasını qədim əsatirdə günəş ilahəsi olan «Hindra», yaxud «İndra»da axtarmaq lazımdır (214, 80). Folklorşünas alimin fikrincə, bəzədilmiş gəlinə (kuklaya) Qodu deyirlər (194, 61).

Bəzi başqa məxəzlərdə isə göstərilir ki, «Qodu» bütpərəstlərin hansısa Allahıdır: kukla isə bu Allahı göstərən bütdür. Qodu yox olunca Günəş də batır (82, 20).

Demək lazımdır ki, yığılan pula bir toğlu və ya erkək alıb Allah rizası üçün qurban kəsər, bişirər və yoxsullara, kimsəsizlərə paylayardılar (117, 153). Yığılmış ərzağa gəlincə qeyd etmək vacibdir ki, sabahısı gün məhəllədə böyük qazan qurular, yığılmış nəsnələrdən «Yağış aşı» bişirilərdi. Yoldan keçənlər, fəqir-füqəra «Yağış aşı»ndan yeyib dua oxuyardılar. Dualar məscidlərdə də oxunardı.

«Kosa gəldi» və «Qodu» ilə bərabər, «Çəmçələ qız» mərasimi də keçirilərdi. Bu mərasimdə xaçşəkilli bir ağaca libas geydirib qapı-qapı gəzdirər və mahnı oxuyardılar:

Çəmçələ qızım aş istər,
Allahdan yağış istər.
Açın anbar ağzını,
Verin yağış payını.
Hey Çəmçələ, Çəmçələ,
Çəmçələm yağış istər,
Hüseyni yağlamağa,
Beşigi bağlamağa.
Verənə Allah versin,
Vermiyənə nə versin.
Oğlu kürəkən dursun,
Qızı həlhələ versin.
Ver Allahım, ver, –
Yağmurunnan sel; –
Köpəkli xırman,
Qoç-qoyun qurban.

Hey Çəmçələ, Çəmçələ!
Çəmçələm yağış istər,
Dam-divarı yaş istər.

Ənənəvi mövsüm mərasimləri və onlarla əlaqədar yaranan mərasim nəğmələrinin bir çoxu bu gün də xalq arasında qalmaqdadır.

Onu da deyək ki, «Çəmçələ qız» termininin etimologiyası barədə professor M.H.Təhmasibin qeydləri xüsusi maraq doğurur: «...kənd cavanları bir çömçəni müxtəlif şeylərlə bəzəyərək ev-ev gəzdirir, nəğmələr oxuyurlar» (214, 60).

Sonralar bu məsələyə professor V.Vəliyev də toxunmuşdur: «Hodu qırmızı parça ilə bəzənmiş kuklaya (adi ağac parçası, ya da çömçəyə qırmızı parça dolayar, başına qırmızı yaylıq örtərdilər) deyilir» (61, 122[b]).

Qeyd etməyə dəyər ki, «Çəmçələ qız» bəzən müqəvva əvəzinə canlı insan olardı. Onun başını bezlə sarıyar, boynunun ardında ağız, burun, qaş, göz düzəldərdilər. Boynuna bir ip salıb «Çəmçələ qız»ı oynadar və nəğmə oxuyardılar:

Çəmçələ qızım yağışdır,
Hər gələnə bağışdır.
Açın xəznə (anbar) qapısın,
Verin Allah borcunu.
Verənlər xatın olsun,
Vermiyən qatır olsun və s.

və ya:

Çəmçələ gəldi eşigə,
Oğlanı qoydu beşigə;
Tanrı bir rəhmət versin,
Qoyunlara süt versin.

Ha dura-dura yoruldum,
Tütünüvüzdən boğuldum;
Açın anbar ağzını,
Verin Allah borcunu (149, 95).

Sonra bir qab buğda, bir qab un, düyü, yumurta, çörək, xurma və s. Allah verən nəsnələr istərdilər.

«Çəmçələ qız» və ətrafındakıların başına evlərdən su tökərdilər. Dilənilən nəsnələrdən «Yağmur aşı» – lətkə (ərik qurusu ilə bişirilən plov) bişirilər, fəqirlərə, imkansızlara paylardılar ki, yeyib dua oxusunlar. Yeri gəlmişkən, qeyd edək ki, Kərkükdə son böyük «Yağmur duası» 1952-ci ildə olub (255, 113,114).

Göründüyü kimi, «Kosa gəldi», «Qodu» və «Çəmçələ qız» tamaşaları iki məqsədlə yerinə yetirilərmiş. Bir tərəfdən intizar keçirən, qəm, qüssə, kədərə qərq olan xalq kütləsinin fikrini dağıtmaq, kefini açmaq, başqa bir tərəfdən də imkanlı ailələrdən ərzaq toplayıb ağır vəziyyətə düşmüş kasıblara kömək etmək.

Yağmur mərasimlərini həyata keçirərkən xalq dram və tamaşalarından istifadə edilməsi təbiidir. Çünki onlar mərasimlərin özündən doğub inkişaf etmişlər. Professor Paşa Əfəndiyevin qeyd etdiyi kimi, mövsüm və məişət mərasimlə-

rinin hər birində bu və ya digər dərəcədə dram ünsürləri görə bilərik (112, 100).

Yağış-yağmurla bağlı keçirilən mərasimlər bir tərəfdən Kərkük dolaylarında qədimdən bəri insanların həyatı, məişəti, dünyagörüşü, etiqadları barədə əvəzsiz məlumat verirsə, digər tərəfdən də İraq-türkman folklorunun Azərbaycan folkloru ilə qırılmaz tellərlə bağlı olduğunu bariz şəkildə əks etdirir. Təkcə onu demək kifayətdir ki, yağış-yağmurla bağlı qapı-qapı gəzib ərzaq məhsulları toplamaq, onu bişirib camaata paylamaq, «Kosa gəldi» ilə bərabər, «Çəmçələ qız»ın müqabilində bir gəlinciyi bəzəyib qapı-qapı gəzdirmək, qurban kəsmək, dua mərasimlərindən sonra yağmur aşı yemək, çaya daş atmaq ənənəsi və s. dediklərimizə dayaq olur (111, 80–81; 162, 30–33, 2, 123–130).

Qeyd etməyə dəyər ki, daşın köməyi ilə yağış yağdırılacağına inam təkcə Azərbaycanda və İraq-türkman folklorunda deyil, bəzi başqa xalqlarda da vardır. Yakutlarda «sata», altaylılarda «yada», qıpçaq qrupuna daxil olan bəzi xalqlarda isə «çada» adlı yağış daşı vardır (192, 44).

Yağış daşı türk xalqlarında mifik keyfiyyətli olmuşdur. İnama görə ilkin keyfiyyəti yağış yağdırmaq olan bu daş at, öküz, keçi, inək, ayı, qoyun və qurdun qarnında olurmuş. «Bu deyilənlər içərisində ən qüdrətli yağış daşının qurdun qarnında olması faktı şübhəsiz, bizi daha çox maraqlandırır. Məlum olduğu üzrə qurd tək bizdə yox, əksər dünya xalqlarında sayılan, seçilən müqəddəs heyvanlar cərgəsində olmuşdur» (2, 129; 192, 44). Qurdun müqəddəsləşdirilməsi, ona bu münasibət, təbii ki, keçmişdə insanların daş vasitəsilə yağış yağdırmaq inamını artırmışdır. İbtidai insanlar arasında belə bir inam hökm sürmüşdür ki, canavar balalayanda susuzluğunu yatırmaq üçün qarnındakı daşın köməyi ilə yağış yağdırır. Bu münasibətlə tədqiqatçı B.Abdullayevin gəldiyi nəticə maraq doğurur: «Etiqada görə, canavar balalayanda çox təşnə olur və bu vaxt, guya o, daşın köməyi ilə yağış yağdırıb, susuzluğunu söndürür. Məlumdur ki, canavarın balalama çağı aprelin

sonu və may ayıdır. Həmin vaxtlarda arabir, həm də olduqca qısamüddətli, hətta bir anlıq yağışlar olur. Azərbaycanın əksər yerlərində buna «qurd balalayır» deyir və bəzən bu yağışı doğrudan-doğruya «Qurd yağışı» adlandırırlar» (2, 130–131).

Heç şübhəsiz, Kərkük dolaylarında dua mərasimlərindən sonra oruclarını «Yağmur aşı» ilə iftar edən adamların hər birinin arxa yüz daş atması və yağış yağanda Altun Köprü və başqa yerlərdə uşaqların birağızdan təkrar-təkrar:

Yağış yağırı,
Qurd doğuru
Oğlan (çaqqal) nənəsin boğuru
Qıq, qıq, qıq –

oxumaları da bununla əlaqədar yaranmışdır (133, 53, 55, 301; 255, 21).

Göründüyü kimi, «Mövsüm nəğmələri ibtidai insanların təbiət hadisələrinə və təbii qüvvələrə etiqadından doğmuş, sonrakı mərhələlərdə insanlar təbiət hadisələrini dərk edib öyrəndikcə bu nəğmələr də öz əvvəlki mahiyyətini itirmiş, uşaqların əyləncə nəğmələrinə çevrilmişlər» (159, 22). Yağış yağdırmaq məqsədilə Kərkük dolaylarında keçirilən «Çəmçələ qız» mərasiminə bənzər mərasimə serblər və türklərdə də rast gəlinir (2, 124). Serblər yağış yağdırmaq məqsədilə balaca qız uşağını soyundurub bədənini ot, bitki və güllərlə bəzəyir, həyətbəhəyət gəzdirərdilər. Dadol adı verdikləri uşağı hər qapıda dayandırardılar. Qızlar onun ətrafında rəqs edərək, yağış mərasim nəğmələri oxuyardılar.

Türklərdə isə uzun çəkən quraqlıqdan cana gələn kəndlilər bir adama tərsinə çevrilmiş don geydirib, başının üstünə örtük tutarlarmış. «Yağmır gəlini» adlandırılan bu şəxsi həyətbəhəyət gəzdirər, evlərin üstündən onun başına su tökərlərmiş. Sonra hamılıqla bulaq üstünə gedib yağmur duası oxuyarlarmış.

Maraqlıdır ki, türklərdə özünü göstərən bu mərasimə bənzər səhnə bahar bayramı zamanı Kərkük dolaylarında da

özünü göstərir. Keçi dərisi geyərək quyruq, buynuz, qulaq düzəltmiş bir şəxs özünü camaatın arasına verir, atlanıb-düşür, gülməli hərəkətlər edərək adamları güldürür. Onun quyruğundan, qulağından dartır, şənlənir, sonra isə üstünə su tökürlər (117, 152).

Kərkük dolaylarında da bahar mərasimləri Azərbaycanda olduğu kimi, silsiləvari xətt təşkil edən, bir-birini tamamlayan zəncirvari nəğmələr və oyunlardır. Bunların arasında «Atlı qarınca» və «Bakla» diqqəti cəlb edir. Bu mərasimlər əsrimizin 40–50-ci illərində Azərbaycanın başqa səmtlərində olduğu kimi, Tovuz rayonunda bahar bayramı ilə bağlı çərşənbə axşamları icra edilən «Keçə papaq» mərasimindən o qədər də fərqlənmir. «Keçə papaq» mərasimində də, «Bakla» və «Atlı qarınca»da da gənc oğlanlar qız paltarı geyərək bəzənər-düzənər, zurna və nağaranın sədaları altında oynayaraq adamları əyləndirərdilər (117, 151–152).

Bununla belə, qeyd etmək vacibdir ki, «Kosa gəldi» və ya «Qodu» xüsusilə fərqlənir. Bu mərasim, hər şeydən əvvəl, qışla yazın qarşılaşmasının rəmzi olmaq baxımından diqqəti cəlb edir. İnam və etiqada görə qışın qoruyucusu olan şər qüvvələri qovmaq üçün türk xalqları və onların qamları keçinin dərisindən, buynuzundan yaranmışlar. Belə ki, «Bayram və mərasimlərdə qamlar – şamanlar üzərlərinə keçi dərisi atar, papağına keçi buynuzu bərkidərmiş. Onlar özlərini keçiyə oxşatmaqla Günəşlə mifik ilişgə yaradır və guya, bununla da insanları yamandan, şər qüvvələrdən qoruyurlarmış» (192, 65).

Kosa da, Qodu da mifoloji görüşlər, baxışlar dünyasında boya-başa çatdıqlarından onların mifoloji təfəkkürlə səsləşməsi təəccüb doğurmur. Bolluq simvolu olan keçi (310, 663), bir çox xalqların mifik görüşləri ilə səsləşən obrazdır.

Onu da demək yerində olardı ki, Fransa, İtaliya, Hollandiya, Belçika və s. kimi ölkələrdə yazın gəlməsini türkdilli xalqlarda olduğu kimi bayram edir, şənlənirlər (293; 174, 26).

Azərbaycan folklorunda «Qodu-qodu» törəni də, hər şeydən əvvəl, yazın gəlməsinə həsr edilir. Burada Qodu Günəşin

rəmzi, onun bəlgəsidir. Günəşin rənginə uyğun qırmızı parçadan düzəldilən gəlincik Qodu adlanır. O da maraqlıdır ki, Qodu ikili səciyyə daşıyır, Günəşi çağırmaq, aramsız yağışı kəsmək, başqa bir tərəfdən də yağışı çağırmaq. Professor M.Seyidov bu münasibətlə yazır:

«Qodu» əksliklərlə, istiliklə, nəmişliklə ilişgəli olduğundan o, güləndə gün çıxır, ağlayanda yağış yağır, soyuq olur. Buradan apaydın görünür ki, Qodu iki əksliyin başlanğıcıdır. Axı bir də Günəş hər iki təbiət hadisəsinin, istinin də, soyuğun da, quraqlığın da, yağışın da yaradıcısıdır» (192, 18).

Bu, Kərkük folklorunda da elə belədir. Yazın gəlməsini arzulayanda da, yağışın yağmasını istəyəndə də «Kosa gəldi», «Qodu» və ya «Çəmçələ qız»a müraciət edilir. Lakin Kərkük dolaylarında vaxtilə əkin daha çox dəmyə yetişdiyinə görə, yəni su qıtlığından yağış-yağmura böyük ehtiyac olduğundan, yağmur mövsüm mərasimi daha qabarıq şəkildə özünü göstərir. Odur ki, yağmur mərasim nəğmələri həm keyfiyyət, həm də kəmiyyətcə fərqlənirlər.

İraq-türkman folklorunda özünü göstərən mövsüm mərasimlərindən biri də hər il sentyabr ayının 14-ü gecəsi qeyd edilən «Saya» mərasimidir. Bu şənlik vaxtı köhnə cürdək, küpə və s. saxsı qablar damdan atılıb sındırılarmış, fişəng atılar, tonqal qalanarmış. Bununla da damda yatmaq vaxtının, bir sözlə, yayın qurtardığını göstərirlərmiş. Uşaqlar arasında indi də qalan «Sayadan, ilan çıxmaz qayadan» bununla əlaqədar yaranmışdır (255, 18; 133, 56).

Azərbaycan folklorunda geniş yayılan sayalar – sayaçı sözlər isə müxtəlif mərasimlərlə, məsələn, döl, qırxın, yaylağa köçmə, arana dönmə və s. vaxtlarda özünü göstərmişdir (111, 76). F.Köçərli qeyd edir ki, bu sözü nemət, yaxşılıq, xeyirxahlıq mənasında işlədirlər. Buradan da sayaçı nemət gətirən, bolluq gətirən mənasına gəlib çıxır (137, 1–10).

Kərkük dolaylarında keçirilən «Saya» mərasimi bir çox cəhətdən Azərbaycan folklorunda yer alan «Saya» mərasim və nəğmələri ilə səsləşir. Kərkük dolaylarında da payızın əv-

vəli nemətin bolluğu dövrüdür. Burada da sentyabrın ortaları qırxım dövrüdür. İraqda, ümumiyyətlə, havalar çox isti keçdiyindən yazda və yayda qoyunları qırxmaq olmaz. Əksinə, yayda qoyunları tüklü saxlayırlar ki, qızmar günəş onları məhv etməsin.

Qeyd etmək lazımdır ki, Kərkük dolaylarında Novruz bayramı az keçirilir. Bunu Novruzla bağlı nəğmələrin, demək olar ki, olmaması da təsdiqləyir. Ə.Bəndəroğlu qeyd edir ki, Novruz bayramının əvəzinə indi «İyd-əş-Şəcərə» – Ağac əkmə bayramı keçirilir (180, 40). Bununla belə bir çox bölgələrdə indi də qeyri-rəsmi şəkildə Novruz qeyd edilir.

Bəllidir, Azərbaycan, Tacikistan, İran, Əfqanıstan və s. ölkələrdə bahar bayramı mart ayının 21-də keçirilir. Bu vaxt təbiət oyanmağa, ağaclar puçurlamağa, ot göyərməyə başlayır. Kərkük dolaylarında isə bu vaxt artıq yazın qızğın çağı olur. Hərarət bəzən 30–35 dərəcəyə qalxır. Folklorşünas Şakir Sabir Zabit Kərkük dolaylarında baharın gəlməsini fevralın ortalarından hesablayır və yazır: «1957-ci ildə gözəl bir bahar günü yüz metrə qədər az bir parça yerdə rəngləri ayrı, qoxulu-qoxusuz, 25 çeşid gül və çiçəyi mən saymışdım» (255, 23).

Tədqiqatçı sözünə dayaq olsun deyə məşhur kərküklü şair Abdulla Safinin bahara həsr etdiyi və fevral ayının 16-da Kərkük dolaylarında gül gülü, çiçək çiçəyi çağırdığını göstərən şeirindən bir parçanı nümunə vermişdir (255, 23).

DİNİ BAYRAM VƏ NƏĞMƏLƏR. Dini mərasimlərdən danışarkən, ilk növbədə göz önünə Qurban bayramı, Aşura, Peyğəmbərin ad günü və Ramazan bayramı gəlir. Bunların arasında ən çox yayılanı Ramazan bayramıdır. Ramazan bayramını uşaqlar böyük səbirsizliklə gözləyir və nəğmələr oxuyurlar:

Gənə gəldi Ramazan,
Mollalar oxur azan,
Barmaqların tökülsün
Yarı əsgərə yazan.

eləcə də:

Ramazan, qarnı bir qazan, –
Əlində kəfgir, qapılar gəzən.

və ya:

Gənə gəldi Ramazan,
Əlində kəfgir-qazan,
Hər gecə bir ev gəzər,
Hanı nemətim yazan.

Demək lazımdır ki, Kərkükdə dini bayramların yaddaşlarda qalması üçün bir sıra tədbirlərə əl atılır. Təkcə onu demək kifayətdir ki, Ramazan və Qurban bayramlarının hər biri dövlət tərəfindən üç-dörd gün istirahət günü elan edilib.

Azərbaycanda Novruz bayramında olduğu kimi, Kərkük dolaylarında da, xüsusən adları çəkilən bayramlara böyük hazırlıq işləri aparılır. Evlərdə şərbətlər hazırlanır, xurmalı, şəkərli, cövüzlü, badamlı külçə bişirilir. Azərbaycanda Novruz bayramı zamanı bişirilən halvaya qara istiot, darçın, mixək, razyana, cövüz, zəncəfil, hil və s. qatıldığı kimi, Kərkük dolaylarında da bişirilən yeməklərə, xüsusən də külçəyə müxtəlif ədviyyələr qatılır. Bunu uşaqların oxuduqları nəğmələrdən də görmək olur:

Bayrama qaldı bir həftə, –
Hilli, bibərli küftə.

Bayramda növbənöv yeməklər hazırlanır. Süfrənin şahı hesab edilən, ərik qurusu ilə hazırlanan lətkə aşının (plov) süfrədə olması isə mütləqdir.

Maraqlıdır ki, bütün İraqda olduğu kimi, Kərkük dolaylarında da adamlar bayram ərəfəsində deyil, bayram sabahı bir-birlərini təbrik edirlər. Qadınlar bəzənir, düzənir, daha gözəl görünməyə çalışırlar. Bayram vaxtı böyüklər uşaqları öpür, onlara hədiyyələr verirlər; uşaqlar onlara alınan təzə

paltarı geyir və böyüklərin əllərini öpürlər. Uşaq-böyük üç gün seyrana çıxır, bir-birləri ilə bayramlaşırlar.

Kərkükdə keçmişdə Cıdır meydanına yığışıb yarışa baxar, zurna və nağaraların sədaları altında seyrəngahlarda rəqs edərlərmiş. Hər yan buğda və qarğıdalı qovurğası, qovurulmuş qabaq, qovun və qarpız çərdəkləri ilə dolu olardı.

Bayram axşamı indinin özündə belə, qadınlar qəbiristanlığı və müqəddəs yerləri ziyarət edirlər. Qurban bayramında ikinci və üçüncü gün qoç və cöngələri qurban kəsər, ətini qonşu və kasıblara paylarlarmış. Bayram xeyirli və şən olsun deyə mövludlar keçirərmişlər. Ən yaxşı müğənnilər gecədən xeyli keçənə qədər oxuyardılar. Axırda xoyrat və mahnılar da oxuyardılar. Bir sözlə, dini bayramların yaddaqalan səviyyədə keçirilməsi Kərkük dolaylarında ənənəvi xarakter almışdır.

MƏİŞƏT MƏRASİM VƏ NƏĞMƏLƏRİ. İraq–türkman folklorunda məişətlə bağlı mərasim və nəğmələr xalqın mənəvi həyatının ayrılmaz hissəsi olmaq baxımından böyük əhəmiyyət kəsb edir. Burada da məişət mərasim və nəğmələri «xalqın məişət həyatında mühüm yer tutmuş, onlarda xalqın çoxəsrlik adət-ənənəsi, dünyabaxışı ifadə olunmuşdur» (162, 48).

Xalqın həyat təcrübəsi, adət-ənənəsi, inam və etiqadları əsasında yaranan, insan həyatının hər bir mərhələsini özünəməxsus bir tərzdə əks etdirən məişət mərasim və nəğmələri, hər şeydən əvvəl, qədimliyi ilə seçilir. İraq–türkman folklorunda da məişət mərasim və nəğmələri xalqın keçdiyi tarixi yolu, onun poetik təfəkkür tərzini, irəliləyişinin səmtini aydınlaşdırmaqda böyük əhəmiyyət daşıyır (2, 66).

Bununla belə, M.H.Təhmasibin göstərdiyi kimi, toy və yas adətləri, eləcə də onlarla əlaqədar olan məişət nəğmələri mərasim və mövsüm nəğmələrinə nisbətən daha sonrakı dövrə aid olan bir növdür.

Məişət mərasim və nəğmələrindən danışarkən göz önünə ilk olaraq yas və toy mərasim və nəğmələri gəlir.

YAS MƏRASİM VƏ NƏĞMƏLƏRİ. Kərkük dolaylarında kimsə vəfat edəndə təziyə qurulur və ölünün üçünə qədər davam edir. Məclisi tərk edərkən təziyə sahibinə «Başın sağ olsun», «Qalanlar sağ olsun», «Allah əfv etsin» kimi sözlərlə təsəlli verirlər.

Kişilər kimi qadınlar da üç gün ərzində yas saxlayır. Azərbaycanda olduğu kimi, qadınlar avaz ilə mərhuma münasib ağı deyir və acı-acı ağlayırlar. Azərbaycanda ağı, Türkiyədə ağıt adlanan bu mərasimə Kərkük dolaylarında sazlamaq deyirlər ki, bu da sızlamaq sözündən yaranmışdır (212, 90).

Əzizi, çox yaxını ölmüş qadınlar sifətlərini cırmaqlayır, sinə yırtır, saçlarını yolur, başlarına çamur sürtürlər (255, 53). Saçını yolmaq, başına çamur yaxmaq adətlərinin çox qədim inam və etiqadlarla əlaqədar olduğu barədə yuxarıda ətraflı danışdığımızdan, burada onların üzərində xüsusi dayanmağa lüzum görmürük. Lakin onu da qeyd etmək yerində olar ki, başa döymək, sinə yırtmaq, dizlərini döymək, sifəti cırmaq, saç yolmaq və s. adətlər Azərbaycanda da özünü göstərir (221, 23).

Onu da demək vacibdir ki, yas məclislərinə Azərbaycanda ağıçı (111, 82), Kərkük dolaylarında sazlayan (205, 90) adlanan peşəkar qadınlar dəvət olunurlar. Çoxlu ağı və sazlamaq bilən bu qadınlar yanıqlı səslə məclisdə əyləşənlərin qəlbinə od salır, fəryadla xalqın təskinlik tapdığı nəğmələri oxuyurlar. Yeri gəlmişkən, deyək ki, əziz bir şəxs öləndə yas məclisinə peşəkar «yuğçu» – «yığçı»ların dəvət olunması, onların dedikləri ağıların təsiri altında göz yaşı töküb ağlamaq qədimdənqalma adətdir (228, 392).

Bununla əlaqədar qeyd etmək əhəmiyyətlidir ki, İraq-türkman folklorunda indinin özündə belə, «ağlamaq» sözünün yalnız qədim «yığlamaq» forması özünü göstərir ki, «yuğçu» və ya «yığçı» da həmin sözdən yaranmışdır.

Əslində, «ağı» sözü də «yuğ» sözündən yaranmışdır (228, 392; 304, 391).

Demək lazımdır ki, sızlamaq sözündən yaranan sazlamaqlar (212, 90) ailənin məruz qaldığı fəlakəti, az öncə sönən həyatı, ailənin çəkdiyi ələm və acıları canlandırır.

Qadınlar ailəyə baş vermiş kədərlə bağlı sinələrini yırtır, saçlarını yolur, üzlərini cırır, «Vay balam, vay» deyərək sazlamaya başlayırlar. Sazlamaqdan əvvəl rəhmətə gedənin yaşına, peşəsinə, həyatda tutduğu mövqeyinə, mənsəbinə, əxlaq və gözəlliyinə, boy-buxununa, qəhrəmanlığına, səxavətinə, şan-şöhrətinə və s. uyğun sözlər sadalanır, sonra sazlamaqlara keçilir.

Məhz buna görədir ki, sazlamaqlar İraq-türkman folklorunda həm nəsr, həm də nəzm şəklində olur. Nəzm şəklində olanlar əksəriyyət təşkil edir.

Demək lazımdır ki, rəhmətə gedənin məziyyətlərini sadalayıb ağı demək adəti Azərbaycanda və başqa xalqlarda (319, 272–273) da olmuş və indi də qalır. Məsələn, «Açılmayan tüfəngin, siyrilməyən xəncərin öz canına qurban. Ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın, saydığına salam verdin, saymadığına yan verdin, düşməninə dirsək göstərdin, qəniminə qan uddurdun. Altının bədöv atına, çiyninin süzən tüfənginə, tərkinin dolu xurcununa, ağzının kəsərli sözünə anan qurban ay...» (39, 3; 18, 17).

Kərkük dolaylarında da buna bənzər təsirli sözlərdən sonra zəmanədən, gərdişdən, fələkdən, ictimai həyatdan, ayrılıqdan və s. bəhs edən, qəm üstə qəm gətirən, yasa yığılan qadınları haldan-hala salan, ürəklərinə od salıb dil-dil ağladan sazlamaqları avazla söyləyirlər.

Burda ölüb bir cavan,
Gəlsin cavanı yuyan,
Necə kəfən tikərlər?
Necə qəbrə qoyarlar?
Barmaqların tökülsün,
Cavan gözünü yuman.

Bundan sonra mütləq bir neçə yanıqlı xoyrat deyilir:

Bala, vay,
Bal yemədim, bala, vay,
Çöp yığdım, yuva qurdum,
Uçurtmadım, bala, vay.
Verən sən,
Alan sənsən, verən sən.
Gah evlər bəzədirsən,
Gah edirsən veran sən.

Sazlamaq davam edir. Dünyadan köçmüş övladın anasının dilindən təqribən belə söylənilir:

Musallanın (məzar) cim daşı,
Yandı ürəgim başı.
Bir yoldaşın görəndə
Tökərəm gözüm yaşı.

Qənşərdə bütxana var,
Ləli, yaqutxana var.
Gedirsən işıq apar, –
Orda zülmətxana var.

Yenə xoyratlar deyilir və dünyasını dəyişmiş gəncin arvadının adından sazlamaqlar deyilir:

Mən ölürəm bir cavan,
Gəlsin cavanı yuyan.
Yetim balası qalan,
Doğluşu heyrət olan:
Xanası bərbad olan,
Barmaqların tökülsün
Cavan gözünü yuman.

Çiriq qura bilmədim,
Qurub bura bilmədim.
Ayrılıq çox güclüymüş,
Qarşı dura bilmədim.

Vəfat etmiş gənc gəlinin anasının dilindən söylənilən sazlamalar əsasən belədir:

Dəvələr düzdə qaldı
Yükü Təbrizdə qaldı.
Balam baş aldı getdi,
Balası bizdə qaldı.
Düzülü yataqları,
Cehiz dolıı boğçası,
Qiymətli əlbəsəsi,
Tərk etdi, bizdə qaldı.

Gül üzüvə:
Səpərəm gül üzüvə
Yalvarram qarıncaya
O gözəl gözlərivə,
O uzun kiprigivə,
O qaytan dodağıva,
Uzun çinar boyuva,
Düşməsin gül üzüvə (331, 23).

Bəzən də sazlamaqlar həm ananın, həm də Azərbaycanda olduğu kimi mərhumun dilindən deyilir. İnsanın gözü qarşısında onun yetim qalan körpəsi, həyat yoldaşı, onun ağrısı-acısı canlanır:

Bağçamız heyva verdi,
Nar verdi, heyva verdi.
Sən mənnən itap etmə
Balanı yetim edən,
Gənc ömrüvü kəm edən

Fələkdən itap elə
Bəlaları o verdi.
Bağçada barım qaldı,
Heyvayla narım qaldı.
Ey zalım, qəddar fələk,
Mən sənə nə etmişdim?
Beşikdə körpə balam,
Yataqda yarım qaldı (117, 141).

Evlənməmiş gənc dünyadan köçəndə onun taleyinə uyğun sazlamaqlar seçilir:

Öz nənəm;
Qarnı dolu köz nənəm.
El ağlar, yalan ağlar,
Qoy ağlasın öz nənəm (197, 226).

Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan xeyir gördüm,
Nə bir nişanam qaldı (133, 8) və s.

Göründüyü kimi, sazlamaqlar yas mərasimlərində ağrı, qəm, qüssə, kədəri ifadə etmək üçün istifadə olunan, yalnız qadınların yaradıcılığının məhsulu olan bir janrdır.

Kərkük dolaylarında geniş yayılan bu janr təəssüf ki, sovet həyat tərzinin nöqsanları üzündən Azərbaycanda və keçmiş Sovet İttifaqının başqa xalqları arasında yavaş-yavaş aradan çıxırdı (270, 429).

Professor P.Əfəndiyev Azərbaycanda yas və dəfn mərasimlərindən danışarkən mərasim nəğmələrinin sayca çox, məzmunca rəngarəng olduğunu qeyd edir və bunu yas mərasimlərinin bütün ölülər üçün keçirildiyi ilə əlaqələndirir (111, 82).

İraq-türkman folklorunda da sazlamaqlar sayca çox, məzmunca rəngarəngdir. Məhz buna görə də yuxarıda verdiyimiz nümunələr təqribi xarakter daşıyır.

Etiraf etmək lazım gəlir ki, öz poetik tutumuna görə sazlamaqlar xoyrat və manilərlə müqayisədə bir az sönük görünsələr də, qəm, qüssə, kədər, göz yaşı, dərin həsrət motivləri, bədbinlik əhvali-ruhiyyəsi bu janrda məqamına görə çox təsirli olur. Məhz buna görə də sazlamaqlar Kərkük dolaylarında da bayatılar, laylalar, oxşamalar qədər geniş yayılmışdır.

Onu da qeyd etmək lazımdır ki, bir çox sazlamaqlar formaca xoyrat və manilərə oxşasalar da məzmununa, icra yerinə, oxunuş tərzinə görə onlardan fərqlənirlər. Kərkük folklorunda sazlamaqlar «Segah» muğamından yaranıb.[1]

Müxalif xoyrat havasına da oxşayır (208, 38; 212, 90, 226). Çünki müxalif xoyrat üsulu öz qəmgin və həzin havacatına görə sazlamaqları andırır. Odur ki, qadınlar yas məclislərində sazlamaqları «Segah» və «Müxalif» üstə oxuyurlar. Bu, musiqişünasların göstərdiyinə görə elə Azərbaycanda da belədir. Azərbaycanda ağılar «Şikəstə» kimi, «Segah» muğamı pərdələrində improvizə olunduğu halda, bayatılar «Qatar» muğamı üstə, «Rast» ladında improvizə edilir, axırıncı kəlməsi uzadılır. Ağı isə reçitativ deklamasiya üslubunda oxunur (126, 58).

Yeri gəlmişkən, deyək ki, bəzən yas mərasimlərində kədər ifadə edən layla və oxşamalardan da istifadə olunur. Bununla belə, layla və oxşamalar, eləcə də xoyrat və manilər formaca sazlamaqlara bənzəsələr də bu bənzəyiş zahiridir. Məzmunca oxşama və laylalarda sevinc, şadlıq, arzu-dilək, ümid üstünlük təşkil etdiyi halda, sazlamaqlarda qəm, qüssə, kədər, həsrət motivləri güclü olur.

---

[1] Tuz Xurmatuda sazlamaqlar Ə.Bəndəroğlunun anlatdığına görə, əsasən, «Qarabağı» muğamı üstündə oxunur.

TOY MƏRASİM VƏ NƏĞMƏLƏRİ. İraq-türkman folklorunda qədim ənənəvi mərasimlər arasında ən geniş yayılan, rəngarəngliyi ilə seçilən, böyük intizarla gözlənilən, xalqa ən çox nəşə verən toy mərasim və nəğmələridir. Onun rəngarəngliyi qədimliyi ilə izah olunmur. İctimai formasiyalar, ailə münasibətləri, iqtisadi münasibətlər və s. dəyişdikcə toyla bağlı mərasim və nəğmələrdə də dəyişikliklər olmuş, yeni-yeni nəğmələr və onların poetik mətnləri meydana gəlmişdir.

Toy mərasimi Kərkük dolaylarında da «nişan»la başlayır. Lakin nişana qədər «qızgörmə», «elçilik», «şərbət içmə» və bir həftə sonra «nişan» olur. Bundan sonra «nikah» kəsilir. Əvvəllər nikah çox vaxt gizli keçirilərdi. Bu, qədim inam və etiqadlarla bağlıdır. Məsələ burasındadır ki, nikah mərasimi vaxtı kimsə düşmənçiliklə bıçaq, qaşıq və ya qayçı sındırsa, toy gecəsi bəyin hərəkətdən düşəcəyinə, yəni bağlanacağına inanırdılar. Eləcə də kəbin kəsilərkən kiminsə barmaqları çarpazlaşmış olsa, toy gecəsi bəyin bağlana biləcəyi düşünülərmiş. Odur ki, hamının barmaqlarının açıq, qollarının yanında olması gözlənilərmiş. Bundan başqa, inanılarmış ki, bədxahları üstələmək üçün nikah vaxtı, hər ehtimala qarşı, bəyin yaxın qohumlarından biri sap və ya ipdən düyün salsa, toy gecəsi həmin düyün açılsa, bəy hərəkətdən düşməz və bununla da sehr batil olar.

Bəzən də gənclər bağlanmasın deyə nikahı bir həftə əvvəl gizli keçirir, bundan sonra nikah mərasiminin icrasını aşkar elan edirdilər (97, 189–190).

Nikahdan sonra toya hazırlıq görülür. Gəlinin cehizi bəy evinə gətirilir. Toydan iki gün əvvəl «Xına günü»dür. «Xına günü»ndən başlamış toyun bütün mərhələləri münasib nəğmələrlə müşayiət olunardı.

Toy mərasimi ilə əlaqədar nəğmələri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) toyun müxtəlif anlarında gəlinin tərifinə həsr olunmuş nəğmələr;

b) müxtəlif mərasimlər zamanı, məsələn, hamama gedilən zaman və ya xınayaxdı keçirilərkən oxunan mahnılar;

c) halay vaxtı iki qrup tərəfindən icra olunan mahnılar;

ç) toy ərəfəsində gəlinə müraciətlə oxunan nəsihətvari nəğmələr.

«Xınayaxdı» mərasimi hamamla başlayır. Gəlinlə rəfiqələri Azərbaycanda olduğu kimi hamama gedər, gəlinin sabunuyla yuyunar, meyvə, şirniyyat və s. yeyər, əylənər, mahnılar oxuyardılar (217, 62). Onlar mahnıları ya birgə oxuyar, ya da hərə bir mahnıdan istədiyi bəndi seçib oxuyardı:

Evlərində ipəkdən bir xalı var,
Şəkərlənmiş dodağında balı var.
Hər kəsin də münasib bir yarı var,
Qönçə gülün xərmanısan, xərmanı,
Bu könlümün dərmanısan, dərmanı.

Döndərmə:

Öldürün məni
Sevmişəm səni
Bülbül dilinə qurban
İncə belinə qurban.

Hər gözəldən yar olmaz
Sevən bəxtiyar olmaz.
Yarı gözəl olanın
Könlü ixtiyar olmaz.

Su saldım bağa neynim
Dəyməz yarpağa neynim.
Yarım ceyran olubdu
Gəlməz yatağa neynim və s.

O da maraqlıdır ki, üzündə xal olmayan qız gəlin gedəndə üzünə xal döydürər və ona münasib mahnılar oxuyardılar.

Məsələn:

Yanağın xalı gözəl,
Dodağın alı gözəl
Sənnən ayrı düşənin
Nolacaq halı, gözəl?!

Bu xal nə xaldı?
Xanım, nə xaldı?
Gözüm, nə xaldı?
Canım, nə xaldı?
Yanaqda döydürübsən
Aləmi yandırıbsan.

Hamamdan sonra gəlin süslənərdi. Əskidə gəlin çatmaqaş edilib, üzünə kirşan sürtülərdi. Bu işi çox oğlan doğmuş, yaxşı günlər, xoşbəxtliklər görmüş bir qadın icra edərdi. Gəlini əynində «xınalıq əlbəsəsi» bir ağac üstündə oturdardılar. Ayaqları altına bir teşt su qoyardılar, üzünə güzgü tutardılar. Bu da aydınlıq demək idi. Qızın bir ovcuna şəkər qoyulardı. Bu da şirinlik demək idi. Onun əlinin içi, əl və ayaq barmaqları xınalanardı. Gəlini xınalayandan sonra hamı barmağını xınaya basardı. Bu da murad üçün idi. Sonra gəlin ayağa qalxıb hamının əlini öpərdi.

Gəlinin əl və ayaq barmaqlarının xınalanması, belini qırmızı bağla sarıması, ayağının altında qoç kəsilməsi, qoçun qanından bir damla onun alnına sürtmək, gəlinin cehizinin qırmızı lentlə bağlanması, yorğan-döşəyinin üzünün qırmızı ipəkdən olması, gərdəyinin qırmızı qumaşla bəzədilməsi və s. qədim inam və etiqadla bağlıdır.

Bu, xeyir-bərəkət gətirən Günəşə işarə idi. İnanardılar ki, beləliklə, şər qüvvələrin qarşısı alınır. Gecəyarısına qədər qız evində musiqi çalınar, gəlin rəfiqələri ilə əylənər, nəşələnərdi. Evdə şamlar yandırılardı. Bu da gəlinin həyatı ər evində işıqlı olsun deyə edilərdi. Toyun əvvəlki günü axşam qız evində «həsrət gecəsi» deyilən şənlik keçirilərdi. Qızın rəfiqələri «həsrət gecəsi»ndə gəlinlə bağlı nəğmələr oxuyar, halay təpərdilər:

Həlhələ verin gəlinə,
Dəstə gül verin əlinə.
Altun kəmər bağlasın
Gəlin incə belinə.

Bir tabur gögərçinim,
Xərmandadı, xərmanda.
Hər kimin yarı yoxdu,
Dərd ondadı, qəm onda və s.

Qızlar iki yerə bölünər, şən yumorlu, dialoq şəkilli «Ay havar dəyirmançı», «Hacı Fərəcin qızı, boyun görməli», «Oğlan yaylığın hanı», «Çayır-çəmənnən gəlir», «O yana döndər məni», «Həlhələ verin gəlinə», «Söyləyin seyid qızına», «Gözələ bax, gözələ», «Gedib gəlin gətirməyə oğlan anası» və s. kimi «Halay» silsiləsindən olan mahnılar oxuyur, rəqs edirlər. İki qrupa bölünən qızlar nəğməni çox vaxt döndərmə ilə – nəqarətlə başlayırlar. Yəqin, bu ona görə edilir ki, oyuna girənlər eyni ritmlə oxumağa başlasınlar. Sonra isə bir qrup döndərməni oxuyur, o biri qrup isə mahnının özünü. Məsələn, «O yana döndər məni» mahnısından verdiyimiz nümunədə olduğu kimi:

Döndərmə:

O yana döndər məni,
Bu yana döndər məni.
Sağ yanım yaralıdı,
Sol yana döndər məni.
Ürəgimdə yara var,
Təbibə göndər məni.

Mahnıdan bir bənd:

Çayır qısa biçilməz,
Su dərindi keçilməz.
Mənə derlər: yardan keç!
Yar şirindi keçilməz.

«Həsrət gecəsi»ndə nəsihətvari nəğmələr də oxunardı:

Bu gəlin mayalıdı,
Yük-yükə dayalıdı.
Böylə dur, böylə otu,
Desinlər həyalıdı və s.

Bu gəlin, mama gəlin,
Gedər hamama gəlin.
Qayınbaban önündə
Dişin ağartma, gəlin,
Qonşudan ət gələndə
Ətin çıxartma, gəlin.
Al-yaşıl tapmayanda
Göy, qara yama, gəlin və s.

Azərbaycanda qızın ata evində qaldığı son gecə ilə bağlı «Bu gecə» mahnısındakı kimi (126, 60), bu mahnılarda qızın ata evində qonaq olmasından, səhərisi gün gəlin gedəcəyindən və ona verilən xeyir-duadan söhbət açılır.

Kərkük dolaylarında toyda zurna, nağara sədaları altında halay təpir, bəzən at çapır, qurşaq tutur, tüfəng, tapança atır, nişan qurur, yarış keçirirlər. Bunlar bir tərəfdən toyu yaddan-çıxmaz və maraqlı edir, digər tərəfdən də qədim inam və etiqadlar gözlənilir. Məsələ burasındadır ki, Azərbaycanda olduğu kimi, İraq-türkman folklorunda da atəşpərəstliklə bağlı inanclar gərəyincədir. Təkcə onu demək kifayətdir ki, Aya, Günə, ocağa, çırağa and içirlər. Toy vaxtı zurna, nağara çalınır, sevinclə «lulululu» deyə qışqırır, səs-küy salır, gəlinin ətrafında oynayır, yuxarıda qeyd etdiyimiz kimi, tapança və tüfəngdən atəş açırlar ki, şər qüvvələr gəlinə yaxın düşüb bir fənalıq törətməsinlər. Şübhəsiz, toy vaxtı «sərrast nişan alma» yarışlarının keçirilməsi də öz ilkin başlanğıcını elə bu etiqaddan almışdır.

Kərkük dolaylarında da toy ərəfəsində və eləcə də toy vaxtı gəlinin yanında güzgü, yanar çıraq və ya şam olur. Gəlin bəy evində də güzgü və şamlarla qarşılanır (133, 42).

Bütün bunlar ona görə edilir ki, gənclərin həyatları həm nurlu, işıqlı olsun, həm də şər qüvvələr oddan, parıltıdan, işıqdan, işığı əks etdirən vasitələrdən, silah və onun səsindən qorxub gəlinə yaxın düşməsin, ona xətər yetirə bilməsin. Yeri gəlmişkən, deyək ki, indinin özündə belə «toy güzgüsü» göz bəbəyi kimi qorunur, sonralar da bu güzgü sınsa, evdə bədbəxtlik olacağına, kiminsə başına bir hadisə gələcəyinə inanılır. Bu, təxminən Azərbaycanda da belədir. «Güzgü sınsa, evdə ölən olar» – deyirlər.

Demək lazımdır ki, bəy evində toy olanda gəlin evində də boş durmazlar. Axşama doğru gəlin evi dəvət olunmuş qadınlarla dolar. Gəlinə «toy paltarı» geydirilər və bəzədilər. Halaylar qurular, şərbətlər içilər. Gəlinin üzünə «duvaq» salınarkən, yəni «Duvaq çəkmə» mərasimi başlayarkən «Kilavoğlu» gələr və gəlinə nəsihətlər verərmiş. Bu nəsihətli nəğmələrin məğzini, aşağıdakı nümunədən göründüyü kimi, gəlinin ər evində özünü necə aparmalı olduğu təşkil edir:

Ey gözəl mama, gəlin,
Gedək imama, gəlin.
Əsbabın yırtılanda
Sən özün yama, gəlin.
Qonşudan aş gələndə
Öncə sən yemə, gəlin.
Qayınbaban önündə
Uzanıb yatma, gəlin.
Qayınnənənin sözünə
Sən heç söz qatma, gəlin.
Kişivin sözlərinə
İnadlıq etmə, gəlin.
Kişindən də xəbərsiz,
Evdən şey satma, gəlin.
Kişin səni vurduysa,
Nənənə getmə, gəlin.
Evinin sirlərini

Kimsəyə satma, gəlin.
İki qonşu döyüşsə,
Duvardan baxma, gəlin.
Heç kimsədən izinsiz,
Nənəvə getmə, gəlin.
Evinin işlərində
Tənbəllik etmə, gəlin.
Qərib qonaq önündə
Yüngüllük etmə, gəlin.
Soqaqda səs gəldiysə,
Qapıya getmə, gəlin.
Fitnə qonşu sözünə
Heç qulaq tutma, gəlin və s.

«Kilavoğlu»nun nəsihətlərindən sonra bəyin adamları gəlini aparmağa hazırlaşırlar. Bu vaxt ağ gün görmüş, oğulluqızlı, xətirli-hörmətli bir qadın gəlinə xeyir-dua verər, ona ağ baxt, altun taxt, qara xalayiq, bəyaz əkməkçi, siyah kölə diləyərdi. Bundan sonra gəlini yola salardılar. Bəyin yaxın qohum və dostları gəlini apararkən qız evi tərəfdən, Azərbaycanda olduğu kimi, «yengə» də gedərdi. Gəlinin önüncə güzgü ilə bərabər, Quran da aparmaq adət imiş.

Əskidən gəlini bəy evinə at üstündə apararmışlar. Gəlinin arxasınca bir oğlan uşağını ağ ata mindirib cilovunu tutaraq çəkə-çəkə gedərdilər.

Buna bənzər hadisəyə Azərbaycanda da təsadüf edilir. Bu baxımdan tədqiqatçı B.Abdullayevin məlumatı maraq doğurur: «Ekspedisiya zamanı Göyçənin Ağbulaq kəndində toy mərasimində iştirak etdik. Burada gəlinin oğlan evinə aparılması məqamı xüsusilə diqqəti cəlb etdi. Mərasim iştirakçılarından öndə kənd cavanlarından iki nəfər ağ və qırmızı rəngli at çapırdılar. Məlum oldu ki, burada at səadət, xoşbəxtlik rəmzidir. Qırmızı rəngli at Günəşə işarədir. Yəni gəlinin yolu aydın, işıqlı, parlaq olsun. Ağ rəngli at isə uğur simvolu olub, gəlinə yeni həyatda ağ gün arzulamaq deməkdir» (2, 42).

O da maraqlıdır ki, gəlin bəy evinə gələndə bəy və arxadaşları onun başına, Azərbaycanda olduğu kimi (217, 87), şirniyyat və dəmir pul səpərdilər. Bu da gəlinin ömrünün şirin və parlaq keçməsi üçün edilirdi.

Gəlini onun üçün ayrılmış otağa apardıqdan bir az sonra bəy dostlarının müşayiəti ilə otağa daxil olur.

Yengə gəlinin əlini bəyin əlinə verir. «Al amanatı» – deyir.

Toy, zurna və davul-meytərlə (nağara, təbil, dəf) aparılardı. Zurna və nağaranın sədaları altında halay təpərdilər. Davulçu toya gələnləri şabaş verməyə təhrik etmək məqsədilə müxtəlif şeir parçaları oxuyardı. Məsələn:

Bostanın su basmasın,
Yarın sənnən küsməsin.
Di qoy əlin cibinə
Haqq kisənnən kəsməsin (149, 92–93).

Onu da deməyi əhəmiyyətli sayırıq ki, toy məclislərində «Qılınc-qalxan» və «Atlı qarınca» səhnəcikləri də göstərilir. «Qılınc-qalxan» iki gənc və ya kişi tərəfindən ifa olunur. Hər ikisi əlinə qılınc və qalxan alır və oyun davul və zurnanın çaldığı ritmə uyğun keçirilir. Tamaşa beş hissədən ibarət olur. Hər hissədə musiqi də, vuruş da fərqlənir. Bu oyun bayramlarda da, şənliklərdə də, mərasimlərdə də yerinə yetirilir. «Qılınc-qalxan» halay başlanmazdan əvvəl başlayır və iyirmi dəqiqəyə qədər davam edir (149, 182).

«Atlı qarınca» isə yalnız toylarda özünü göstərir. Bu tamaşa da iki gənc və ya kişi tərəfindən icra olunur. Onlardan biri qırmızı bir kəmər bağlayır. Allı-pullu paltar geyir. Buna Qarınca xanım deyirlər. Xalq arasında «Bu iş təmiz və namuslu qadınların işi deyildir» inamı qəbul olunduğuna görə Kərkük dolaylarında xalq tamaşaları göstərilərkən qadın rolunu da kişilər oynayırlar. Qarınca xanımın tərəf-müqabili başına böyük bir papaq qoyur. Uzun bığ və pambıqdan böyük saqqal düzəldir. Yekə şalvarını boğazına qədər çəkib bağlayır.

Kiçik uşaqlar kimi uzun qamış ağac iki paçası arasında əlindəki qamçı ilə tamaşaçıları hədələyir ki, Qarınca xanımın sərbəst oynaması üçün yer versinlər. Qarınca xanım nağara-zurnanın müşayiəti ilə müxtəlif rəqslər ifa edir. Rəqsin şirin yerində özünü incimiş kimi göstərib oynamır, nazlanır. Pambıq saqqallı camaatdan pul yığır ki, Qarınca xanım oyunu davam etdirsin.

Göründüyü kimi, Kərkük dolaylarında da «toy adi evlənmə mərasimi çərçivəsindən çıxaraq, xüsusilə kənd yerlərində ictimai-mədəni bir əyləncəyə çevrilir» (39, 4).

Keçmişdə gəlin evə girərkən qayınana bir əlinə çömçə, bir əlinə kəfgir alıb:

Ev sənin, eşik sənin,
Dördəki beşik sənin.

deyərək gəlinin önündə oynayarmış. Səhərisi gün isə gəlin ehtiram və itaətini bildirmək üçün qayınata və qayınnənəsinin əlini öpərmiş. Bəy də, öz növbəsində gedib qayınatasının və qayınnənəsinin əlini öpərmiş.

Əskidə toydan sonra üç gün qız evindən yeməklərlə dolu «sini» göndərilərdi. Birinci gün gələn yeməklər arasında duzlu yeməklər olmazdı. Toyun yeddinci günü qohum-əqrəba qadınları hədiyyələrlə gəlini görməyə gələrdilər. Ortaya cecim salınardı. Bir tərəfdə oğlan anası, üzbəüzdə qız anası oturardı. İlk olaraq öz hədiyyəsini oğlan anası cecim üzərinə qoyardı, sonra qız anası. Sonra isə qıza hədiyyə vermək istəyənlər qız anasının hədiyyəsinin üstünə öz hədiyyələrini, oğlana hədiyyə vermək istəyənlər oğlanın anasının hədiyyəsinin üstünə hədiyyə qoyardılar. Verilən hədiyyələr adbaad dəftərə yazılardı. Qız üçün toplananlar qıza verilir, oğlan üçün toplanan hədiyyələr borca sərf edilərdi.

Kərkük dolaylarında da gəlin ata evinə, Azərbaycandakı kimi bir il sonra gedərmiş. Orada da buna «ayaqaçdı» və ya «ayağı açıldı» deyərdilər.

Əgər qismətində varsa, bir il sonra gəlin beşik sallamağa başlar. Laylalar oxunar:

Leyla edim yatınca,
Gözlərəm ay batınca;
Gözümə şiş batırram
Sən hasilə yetincə.
Leyla, balam, leyla,
Leyla, quzum, leyla.

Leyla edim yatasan,
Qönçə gülə batasan.
Qönçə gül daldan olsun,
Kənarında yatasan.
Leyla, gülüm, leyla,
Leyla, ömrüm, leyla.

Laylalar bəzən kədərli olurlar:

Qız idim, sultan idim,
Adaxlandım, budaxlandım;
Gəlin oldum, məlum oldum,
Beşik qurdum, zəlil oldum.

Deməli, gəlin qara günə düşmüş, aradığını tapmamış, qayınanası ilə dolana bilməmişdir. Bu məsələyə cüzi fərqlə Azərbaycan folklorunda da təsadüf edilir:

Qız idim, sultan idim,
Nişanlandım, xan oldum,
Ərə getdim, qul oldum
Tazılara çul oldum (43, 76).

və ya:

Qız idim, geydirdilər əhdü vəfa köynəyini,
Nişanlandım, geydirdilər zövqü səfa köynəyini;
Gəlin oldum, geydirdilər cövrü cəfa köynəyini
(110, 30).

Demək lazımdır ki, İraq-türkman folklorunda qayınana-gəlin münasibətləri özünü qəribə bir tərzdə göstərir. Burada həm dərin yumor, həm də gözəl şeriyyət vardır. Gəlin evə təzə gələndə:

Ev sənin, eşik sənin,
Dördəki beşik sənin –

deyən qayınana aradan bir müddət keçəndən sonra söz-söhbətə, dedi-qoduya başlar. Gəlin də tərbiyədən kasadsa, ondan geri qalmaz. Bununla belə, qayınnənə nəvəsini hamıdan çox istər. Uşağı əzizlər və öz-özünə oxuyar:

Sarımsağım, soğanım,
Yad qızınnan doğanım,
Babana canım qurban,
Nənən olsun qurbanım.

və ya:

Yarısı balam balası,
Yarısı ilan balası və s.

Gəlin də öz növbəsində:

Qayınnənə ilandı,
Hər nə desə yalandı.
Gəlin çöldə çiçəkdi,
Hər dediyi gerçəkdi –

deyə ağız qovğasına girişər. Qayınana həddini aşmış gəlini təhnizlər:

Afərin, nazlı gəlin,
Gərdəni sazlı, gəlin.
Top-tüfəngin doludu,
Barıdın azdı, gəlin.

Gəlin darılar, yanıb-yaxılar:

Damdan düşəsən, qayınnənə
Təpəyəcən şişəsən, qayınnənə.
Oğlun gələnə qədər
Dildən düşəsən, qayınnənə.

Lakin qayınnənə nə dildən düşər, nə də dili şişərdi. Qayınbaba gəlinin tərəfini saxlar, qarısını təhnizlər:

Kirli, pasak, pis pinti,
Arvadların qəhəti –

sözləri ilə «ömrümdən bir gün də qalıbsa, vallah gərək üstünə arvad alıb, səni yandırıb-yaxam» – deyər.

Qayınnənənin dili şah arşını tək uzanar, kişisinə deyər:

Boyun boylardan uzun,
Nə dadın var, nə duzun
Üzün döndər bir baxım
Əzrayıl yumsun gözün və s.

Qız və oğlan tərəfin adamları məsələdən halı olarlar. Qızın zavallı, qayınnənənin günahkar və ya əksinə, olduğunu göstərmək üçün «nə gəlində dil var, nə də qayınnənədə iman», «Qayınnənə pambıq iplik olsa, rəfdən düşsə, gəlinin başını yarar», «Sarımsağı gəlin ediblər, qırx gün qoxusu çıxmayıb» və s. kimi deyimlər ortaya çıxır.

İraq-türkman folklorunda qayınnənə-gəlin münasibətlərindən bəhs edən «Can, oğul» və «Bibi su» kimi əfsanələr də vardır ki, onlara eyni ilə Azərbaycan folklorunda da təsadüf edilir.

Təbii ki, söhbət açdığımız qayınnənə-gəlin deyişmələri daha çox xalq yumoru xarakteri daşıyır. Kərkük dolaylarında nikahın pozulmasına, demək olar ki, rast gəlinmir. Burada

kişi arvadını sevər, qadın ərinə bağlı olar, qayınnənə-gəlin arasında pərdə götürülməz. Qayınnənə gözəl rəftarı, gəlin isə oturuşu-duruşu ilə özünü saydırar.

Nəhayət, onu da qeyd etmək yerində olardı ki, toy mərasimlərinin müxtəlif anları ilə bağlı bir çox başqa mahnılar da vardır. Toy mərasiminin müxtəlif anlarına, psixoloji və səciyyəvi cəhətlərinə həsr olunan nəğmələr, onların poetik mətnləri İraq-türkman folklorunu yaradıb-yaşadan xalqın bədii təfəkkürünü və rəngarəng adət-ənənələrini əhatəli şəkildə əks etdirir. Toy mərasimlərini rövnəqləndirən mahnılar İraq-türkman folklorunun və eləcə də onun folklor musiqisinin tədqiqində əvəzsiz xəzinəyə çevrilir.

Göründüyü kimi, mərasim folkloru xalqın düşüncə tərzini, həyata baxış və münasibətini, etik, estetik, etnoqrafik görüşlərini, adət-ənənəsini, mərasimlərini sistemli tərzdə izləmək və qədim adət-ənənələrin yaranışı və keçdiyi qatlarda nə kimi keyfiyyət dəyişikliyinə uğradığını aydınlaşdırmaq baxımından misilsiz dəyər və elmi əhəmiyyət kəsb edir.

II FƏSİL

LİRİK NÖV

XOYRATLAR VƏ MANİLƏR. Heyrətamiz poetik gücü və zənginliyi ilə seçilən xoyratlar və manilər İraq-türkman folklorunun lirik növünün ən geniş yayılmış və bədii cəhətdən ən kamil janrıdır. Təsadüfi deyildir ki, kərküklü folklorşünas Əta Tərzibaşı yazmışdır: «Kərkük anıldığı zaman xatirə ilk olaraq xoyrat gəlir və xoyrat adını duyduğumuz vaxt xəyalımızda Kərkük eli canlanır» (212, 42).

XX əsrin əvvəllərində İraqı ziyarət etmiş türkiyəli tədqiqatçı Haşım Nahid xoyratların İraq-türkman folklorunda geniş yayıldığının şahidi olmuşdur: «Dörd misradan ibarət olan bu şeirlər o qədər boldur ki, əgər toplatdırıb bir araya gətirsələr, cildlər təşkil edər» (234, 65).

Demək lazımdır ki, əsrin əvvəlində olduğu kimi, xoyrat və manilər öz mövqeyini bu gün də möhkəm saxlamışdır. Bunun səbəbini, hər şeydən əvvəl, onların xəlqiliyində, xalq dilindən cövhərlənərək ürəklərə asanlıqla yol tapmasında, fikir zənginliyində, yığcamlığında, təbiiliyində, mövzu rəngarəngliyində və s. axtarmaq lazımdır.

Bu baxımdan, Rejioğlunun fikri maraq doğurur: «Xalqımızın vicdanı və dilinə dayandığı və güvəndiyi üçün xoyratlarımız sonsuzluğadək eyni sevgi haləsi içində yaşayacaqdır. Çünki onlar ulusal varlığımızın bir simvolu, xalqımızın və yurdumuzun ta kəndisidir» (182, 38).

Ölməz sənət əsərləri səviyyəsinə yüksələn, xalqın dünənini, bu gününü, adət-ənənəsini, həyat tərzini öyrənməkdə əvəzsiz xəzinə olan xoyrat və manilər cinaslı və adi qafiyəli olmaqla iki yerə bölünür. Cinaslılar xoyrat, cinassızlar isə mani və ya maani adlanır. Xalq arasında «sağ sikkə», «xalis altun» kimi tanınan, Əta Tərzibaşının «könüllərdən fışqıran içli duyğuları min bir sədaqətlə əks etdirən parlaq güzgü» adlandırdığı xoyratlar da tam və naqis cinaslı olmaqla iki yerə bölünür. Tam cinaslı xoyratlarda cinaslar hərfi-hərfinə uyğun gəlir:

Necə dağlar;
Qarşıda neçə dağlar,
Yetim yanağı bilir
Göz yaşı necə dağlar.

Naqis cinaslı xoyratlarda isə bəzən cinas əmələ gətirən sözə bir-iki hərf əlavə olunur, bəzən hərf düşür, bəzən hərf dəyişir, bəzən də hərf özündən əvvəlki sözün sonuna və ya özündən sonrakı sözün əvvəlinə əlavə edilir:

Durdu qəm;
Açdı yaram, durdu qəm,
Mən miskin olduğumçün
Üstümə qudurdu qəm.

Qanad ağlar;
Ox titrər, qanad ağlar,
Ovum yaralı getdi,
Boyandı qana dağlar.

Yüz yol var;
Yüz təpə var, yüz yol var.
Xudam bildigin eylər, –
Sən fələkə yüz yalvar.

Doğrudur, Əta Tərzibaşı tam cinaslı xoyratları bəsit və mürəkkəb deyə iki yerə bölür və nümunələr verir:

Yaz belə;
Bahar belə, yaz belə.
Katibin nə suçu var, –
Xudam demiş yaz belə.

Yara məni;
Dərd məni, yara məni.
Ya al, yaradan, canım,
Ya yetir yara məni.

Tədqiqatçı birinci xoyratı bəsit tam cinaslı, ikinci xoyratı isə «yar» sözü yönlük halda verildiyinə görə mürəkkəb tam cinaslı xoyrat kimi göstərmişdir (205, 34; 212, 66–67).

Bizcə, hər iki nümunə tam cinaslı xoyrat sayıla bilər.

Xoyratlarda 1, 2, 4-cü misralar həmqafiyə, 3-cü misra isə sərbəst olur. Göründüyü kimi, qafiyə quruluşu cəhətdən xoyrat və bayatılar fərqlənmirlər. Hecaların sayı cəhətdən isə əksər xoyratların 1-ci misrası 3, 4 və ya 5 hecalı olduğuna görə Kərkük xoyratları Bakıda ilk dəfə çap olunanda onların Azərbaycanda işlənmədiyi və bu cəhətdən bayatıların xoyratlardan fərqləndiyi qeyd edilmişdi (183, 18). Lakin sonrakı tədqiqatlar göstərdi ki, Azərbaycanın müxtəlif guşələrində folklorşünaslarımızın xoyratvarı və ya kəsik bayatılar adlandırdıqları xoyratlar istənilən qədərdir (53; 62; 224; 236; 31; 54; 55). Hətta indinin özündə belə aşıqlarımız xoyrat yazırlar (46, 170).

Heç şübhəsiz, buna görədir ki, folklorşünas İ.Abbasov «Azərbaycan bayatıları» kitabına yazdığı əhatəli giriş məqaləsində qeyd etmişdir: «Kəsik bayatıların – xoyratların ayrıca bölmədə verilməsi isə təsdiq edir ki, İraq türkmanları arasında geniş yayılan bu forma Azərbaycanda da şöhrət qazanmışdır» (31, 12).

Belə olmasaydı, professor B.Vahabzadə «Bayatı-xoyrat janrının eyniliyi yalnız bizimlə kərküklülərə xasdır» (60, 151) hökmünü verməzdi.

Xoyrat və bayatılara geniş məqalə həsr edən A.Vəfalı da bu məsələyə öz münasibətini bildirir: «Xoyrat və manilərin böyük bir qismi azacıq fərqlə bizdə də yaşayır. Bu son dərəcə səmimi, ahəngdar parçalar sadəliyi, zərifliyi və eyni zamanda güclü təsiri ilə oxucunu sarsıdır» (69, 161). Bu baxımdan professor V.Vəliyevin fikri də maraq doğurur: «İndiyə qədər Azərbaycanda çap olunan bayatılar kitabında xoyratvari bayatılardan nümunə verilməmişdir. Lakin xalq arasında bu şəkilli nümunələrə tez-tez təsadüf olunur. İyirmi il ərzində dəfələrlə folklor ekspedisiyasında olduğumuz zaman Azərbaycanın bir neçə rayonunda xoyratvari bayatı söyləyənlərin şahidi olmuşuq. Bu nümunələrin mövcud olduğunu təsdiq et-

dikdən sonra bu nəticəyə gəlmişik ki, bayatı toplayanlar birinci misrada yalnız qafiyənin verilməsini həmin bayatının «kəsiri» hesab etmiş və ona «əziziyəm», «eləmi», «mən aşiq» sözləri əlavə etmişlər» (64, 127).

Həqiqət naminə demək lazımdır ki, tədqiqatçı ilk yazılarında özünün də yanlış yolla getdiyini göstərərək «Vaxtilə bu sətirlərin müəllifi də Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbələrilə folklor ekspedisiyasında olarkən, həmin səhvə yol vermiş, birinci misralarda buraxılan sözləri «islah» etmişdir» (63, 19) – deyir.

Həmin yanlışlıqdan imtina edən V.Vəliyev sonralar «Bayatılar» kitabında 187 ədəd bayatını «xoyratvari bayatıları» başlığı altında ayrıca bölmədə vermişdir (54, 185–198).

Xoyratların bizdə olmasını folklorşünas M.H.Təhmasib də etiraf edir: «Kərkük xoyratları üçün səciyyəvi olan, bizdə də vaxtilə olub, sonra unudulmuş kəm sətirlərini, kəm yerlərini təxəllüslə doldurmaq ənənəsi əmələ gəlmişdir. Bunu biz Xətaidə, Sarı Aşıqda, Əzizidə, Əmanidə və onlarca başqalarında görürük. Lakin bu, kəm misralardan istifadə təcrübəsində yeganə yol olmamışdır. Bayatını deyən əgər uşağını yatırmağa çalışan anadırsa – bu kəm yeri «balam» və ya «laylay», xodaqdırsa «qara kəl», ağı deyəndirsə «haray» sözləri ilə doldurmuşdur. Beləliklə də, kəm sətir ənənəsi getdikcə pozulmuş, yerini dolu misralı bayatılara tərk etmişdir» (215, 201).

Eyni fikrə başqa folklorşünaslarımızın tədqiqatlarında da rast gəlinir. P.Əfəndiyev göstərir ki, bütün «aşıq» sözü ilə başlayan bayatıları təkcə Sarı Aşığa aid etmək doğru deyil. Onlar xalq içərisindən çıxmış ayrı-ayrı sənətkarlar tərəfindən yaradılmışdır. Deməli, «mən aşıq», «aşıq» bayatının birinci misrasına sonradan əlavə olunub (111, 62).

Xoyratlarla bağlı professor M.Həkimovun gəldiyi nəticə həm inandırıcı, həm də maraqlıdır: «Bayatıların əvvəlində işlənən «Əzizinəm», «Mən aşiq», «Eləmi» sözlərinə istinadən həmin bayatıları Əzizinin, Sarı Aşığın ünvanına təsdiq şəkildə vermək də düzgün deyil. Hələ bu bir yana, «Eləmi» adlı aşıq-şairin nə yazılı və nə də şifahi ədəbiyyatda olması heç bir

yerdə, heç bir tədqiqatçı tərəfindən yazılmadığı halda, belə bir sənətkarın olmasından danışmaq olmaz» (238, 17).

Azərbaycanda və Kərkük dolaylarında hərfi-hərfinə eyni olan xoyratların əvvəlinə Azərbaycanda bir çox hallarda «Əziziyəm», «mən aşiq», «eləmi» sözlərini artıraraq bir-iki nəfərin adına çıxmaqla bütöv bir xalqın ağıl və zəkasının məhsulu olan bu ümmana bənzər xalq yaradıcılığının dəyərini istəsək də, istəməsək də azaltmış oluruq. Sadəcə olaraq unuduruq ki, bu, xoyratların forma xüsusiyyətidir. Ən acınacaqlısı isə odur ki, bunu başqa xalqlara da beləcə çatdırmağa çalışmışıq. Bütün bu deyilənlər, folklorşünaslarımızın son illərdə gəldiyi qənaət – bayatıya əvvəllər verilən tərifə başqa münasibət tələb edir. Bizcə, bayatı və xoyratlara: «Hər misrası yeddi hecadan ibarət olan, a a b a şəklində qafiyələnən dördlüklərə bayatı, birinci misrası üç-beş arası, qalan misraları yeddi hecalı olan cinaslı dördlüklərə xoyratlar deyilir» – tərifini vermək doğru olardı.

Bayatıların tədqiqinə başlanan ilk vaxtlardan xoyrat və bayatılar arasında formaca fərq olduğu göstərildiyi halda, bu çox ciddi məsələyə sonralar lazımi diqqət yetirilməmişdir. S.Mümtaz hələ 1927-ci ildə yazırdı: «Bəzi mühərrirlər bayatıları tanınmayan tək bir məchul şairin malı, əsəri hesab edirlər. Onlar oxuyanda, yazanda «əziziyəm» və ya dərk etmədən «mən aşiq» deyə başlayırlar. Bu, səhvdir» (188, 8).

Doğrudur, elə oradaca tədqiqatçı: «Bayatıları çağıran şəxsin təxəllüsü və yainki adı olmalıdır» hökmünü verməklə həqiqətdən uzaqlaşır. Məhz buna görədir ki, 1930-cu ildə folklorşünas Əmin Abid «Türk xalqları ədəbiyyatında mani növü və Azərbaycan bayatılarının xüsusiyyəti» adlı sanballı məqaləsində Salman Mümtazı və Kərkük xoyratlarına məqalə həsr edən türkiyəli tədqiqatçı Haşim Nahidi «birinci misranın qısa olması manini çağıran adamın adını söyləmək üçündür» fikrinə görə haqlı tənqid etmiş, «mən aşiq», «əzizim ey», «eləmi» kimi kəlmələrin oyandırma xarakterində olduğunu göstərmişdir (12, 10–11, 25).

Əta Tərzibaşı isə «mən aşiq», «aşiqəm» və sairəyə «doldurma sözlər» adı verir və xoyratlarla mahnı oxunarkən xoyratlarda müəyyən sözlərin işləndiyini qeyd edir: «...boşluqlar isə xoyratın nəğməylə söylənişi əsnasında «baba, baba, bu gün», «ağam-ağam», «dədəm-dədəm», «gözüm» və başqa bir taqım basmaqəlib sözlərlə doldurulmaqdadır» (212, 115).

Əmin Abid və Əta Tərzibaşı göstərirlər ki, Türkiyədə də birinci misrası kəmhecalı olan xoyratlarla – kəsik bayatılarla nəğmə oxunarkən «keç könül», «könül çağlar», «çağlar sular», «ötər bülbül», «gəl aman» və s. işlənir (108, 25; 212, 115).

Maraqlıdır ki, Əta Tərzibaşı altı, səkkiz, on və daha artıq misralı xoyratlardan da söz açır və onların Kərkük dolaylarında geniş yayıldığını qeyd edir (212, 61).

Demək lazımdır ki, 8, 10, 12, 14 misralı şeir parçaları sayca çox az, eyni zamanda cinassız olur. Deməli, onları xoyrat adlandırmaq da doğru olmazdı.

Əta Tərzibaşı cəmisi 6 ədəd 8 misralı, 5 ədəd 10 misralı, 2 ədəd 12 misralı, 3 ədəd 14 misralı şeir parçası üzə çıxara bilmişdir. Bizcə, burada türk folklorunun təsirini axtarmaq lazımdır. Bu baxımdan Əmin Abidin fikri maraq doğurur. Tədqiqatçı türk manilərinin Azərbaycan və eləcə də Kərkük cinaslı xoyratlarından fərqləndiyini göstərərək qeyd edir: «Türk maniləri istər qafiyəcə, istərsə də misraların ədədicə, bizim cinaslı manilərdən çox fərqlidir. Bu parçalar dörd misradan səkkiz misraya qədər böyüklükdə mənzuməciklərdən ibarətdir» (108, 27).

Onu da qeyd edək ki, səkkiz, on və s. misralı bayatılara Cənubi Azərbaycanda da təsadüf edilmir (52; 27).

Bizə qalırsa, Əta Tərzibaşının söhbət açdığı səkkiz, on, on iki, on dörd misralı şeir parçaları İraq-türkman folkloru üçün səciyyəvi deyildir. Tədqiqatçı özü yazır ki, xoyratın başlıca xüsusiyyətlərindən biri də maninin əksinə olaraq, hər zaman cinasın olmasıdır (212, 66). Belə olan halda tədqiqatçının «Kərkük xoyratları və maniləri» kitabının 320, 324, 336, 337, 338, 353, 369, 370, 385, 402, 406 və s. səhifələrində gedən 8,

10, 12, 14 misralı maniləri xoyrat adı altında verməsi doğru deyildir. Doğrudur, onların bəzilərində əvvəlki dörd misrada cinas özünü göstərir, lakin qalan misralar yalnız qafiyələndiklərinə görə, nümunələrdən göründüyü kimi, onları xoyrat hesab etmək olmaz:

Gözə dəyər;
Gümüş mil gözə dəyər.
Zülfün Əcəm ipəyi
Telin Təbrizə dəyər.
Yanağın lalə dağı
Xalın nərgizə dəyər,
Dostum, müxənnət olma, –
Labüd üz-üzə dəyər.

Belə bağlar;
Dost başın belə bağlar.
Bülbül ağlar, gül açmaz,
Verandı belə bağlar.

Can, çıxma dost gəlincə
Görək nə deyər ağlar.
Çamur onun başına
Bedasıla bel bağlar
Gəl, çək bu ayrılığı
Gör ürək necə dağlar.

Naşı gül;
Naşı bülbül, naşı gül.
Bir güldün ağlım aldın,
Bir də belə naşı gül.

Sən gülsən aləm gülər,
Ömrümün yoldaşı gül.
Oturub gül qoxuyur,
Kirpiyi gül, qaşı gül.
Otuz iki çiçəyin
Hamısının başı gül.

Demək lazımdır ki, 8, 10 misralı manilər xoyrat üsulunda oxunur. On iki və on dörd misralı manilər isə həm xoyrat üsulunda, həm də mani kimi oxunur. On dörd misralı manidə 1, 2 və 14-cü misralar cinas təşkil edirlər. Nümunədən göründüyü kimi, başqa misralar yalnız həmqafiyə olur:

Ya sinnən;
Mim əlifnən, ya sinnən.
Yaqut Yəmənnən gəlir,
Dür Nəcəf dəryasınnan.
Bu gün bir şərbət içdim
Ərənlərin tasınnan;
Yarım libasa girib
Cənnətin libasınnan.
Məmələr seyran edər,
Çıxıbdı yaxasınnan;
Dünya mənim deyənin
İndi gəldim yasınnan.

Gözə yar;
Sürmə çəkib gözə yar.
Ceyran quzusu təkin
Yayılaydıq düzə yar.
Ərəb atlısı təkin
Qonaq olaq sizə, yar.
Hələb kirşəni təkin
Üz sürtəydiğ üzə, yar.
Küsmüşəm, incimişəm, –
Daha gəlməm sizə yar.
Bir toy olsun, bir bayram, –
Bəlkə, gələ bizə yar.
Oturağın dizbədiz
Göz tikəğin gözə yar.

Altı misralı şeir parçaları isə xoyratlardan ibarət olmaqla sayca çoxdur. İraq türkmanları arasında yayılan 6 misralı xoyratlar, son tədqiqatlar göstərir ki, Azərbaycanda da yox deyildir (37, 46).

Təkcə onu demək kifayətdir ki, uzun illər Azərbaycan MEA-nın Əlyazmalar İnstitutunda axtarış aparan tədqiqatçı A.Məmmədova ağızdan-ağıza, nəsildən-nəslə keçərək 92 cüng, əlyazma və şəxsi arxiv materiallarına yol tapan və zəmanəmizə qədər gəlib çıxan bayatılarımızın bir çox qədim nümunələrini aşkar etmişdir. Kərkük dolaylarında – İraq türkmanları arasında indi də məşhur olan həmin bayatıların bir çoxuna çap olunmuş kitablarınızda rast gəlinmir. Bundan əlavə, tədqiqatçı cüng və əlyazmalarda 21 ədəd altı misralı bayatı üzə çıxarmışdır. Maraqlıdır ki, istər xoyratlarda, istərsə də bayatılarda axırıncı iki misra başqa məna çaları yaradır və əvvəlki misralarda verilmiş fikri daha da qüvvətləndirir:

Oda yandı;
Ürəgim oda yandı.
Ahım dəryaya düşdü,
Balıqlar suda yandı.
Su səpdim oda sönsün
Səpdiyim su da yandı.
(Kərkük)

Əziziyəm xan gərək,
Can oda yaxan gərək.
Açıldı köksün bəndi
Göründü yaxan gərək.
Sənin bu sallanışın
Ya sultan, ya xan gərək.
(Azərbaycan)

Onu da deyək ki, XVI əsrin sonu və XVII əsrin əvvəllərində yaşayıb-yaradan Azərbaycan şairlərindən Məhəmməd Əmani və Əzizi altı misralı bayatılar da yazmışlar (35, 229; 36, 169–170; 107[a], 331).

Təəssüf ki, tədqiqatçılar bu məlum həqiqətin fərqinə varmamış, hətta folklorşünas H.Qasımov Əmaninin:

Bağça barın arzular,
Aşiq, yarın arzular.
Hər nə kim dünyada var
Öz miqdarın arzular.
Məhəbbət meydanında
Mənsur darın arzular.

Cananım tək can az var,
Aramızda min raz var.
Onda ərkü naz varsa,
Məndə iczü niyaz var.
Həzər et, könlüm quşu
Kəmində şahbaz var –

kimi bayatılarını H.Araslının «XIII–XVI əsrlərdə Azərbaycan ədəbiyyatı» kitabından götürmüş, hər iki bayatıdan son iki misranı ataraq tədqiq etmişdir (81, 82–83).

Maraqlıdır ki, Salman Mümtaz vaxtilə Əzizi ilə Şili Aşıq arasında altı misralı bayatılarla deyişmə olduğunu göstərmiş və hətta nümunə də vermişdir (189, 166).

Yuxarıda deyilənlərə onu da əlavə etmək olar ki, Miskin Bürcünün İrəvanda Ədəbiyyat və İncəsənət Muzeyində saxlanılan 1832-ci il tarixli əlyazma nüsxəsində xeyli miqdarda altı misralı bayatılar vardır (116, 25–27).

Maraqlıdır ki, indinin özündə belə İraq ərazisində yaşayan və azərbaycanca danışan İraq-türkman şairləri altı misralı xoyratlar yazırlar ki, bu nümunələrdə də axırıncı iki misra başqa məna çaları yaradır və əvvəlki misralarda verilmiş fikri rövnəqləndirir:

Gülünü;
Yalan sözə gülünü.
Əsli bağban olmayan
Yada verər gülünü.
Bülbül fəğan eyləyir,
Qoparıblar gülünü.
(Musa Bəkdaş)

Yaş qurudu;
Gün doğar, yaş qurudu,
Bu sinəm köz-köz oldu,
İçində yaş qurudu.
Gerçəyi inkar edən
Ha deyər yaş qurudu.
(Ə.Bəndəroğlu)

Altı misralı xoyratlar a a b a b a şəklində qafiyələnir və cinas qafiyəli olur.

Göründüyü kimi, dördlük xoyrat və mani janrı üç son hədd deyildir. Sənətkar sözün məna tutumundan, sinonimik mənasından gərəyincə istifadə etmək, fikrini tam vermək üçün altılıqlara da müraciət edir.

Əta Tərzibaşı Kərkük xoyratları arasında bəzən beş misralı olanlarına da rast gəlindiyini göstərir:

Bağın ərənə qalsın,
Gülün dərənə qalsın
Mən çıxdım bağbanlıqdan
(İstər avadan olsun)
İstər verana qalsın (212, 61–62).

Demək lazımdır ki, beş misralı xoyratlara nə xalq arasında, nə də İraq–türkman xoyratlarına həsr olunmuş başqa kitablarda təsadüf etmədik.

Əta Tərzibaşının «Kərkük xoyratları və maniləri» kitabında verdiyi 2490 xoyrat və mani arasında isə yuxarıdakı nümunədən başqa yalnız aşağıdakı iki xoyrat və maniyə rast gəlinir:

Yüz istə məni:
Gəlməm, yüz istə məni.
Mən o yar köləsiyəm
(Öpər, qoxlar, qucaqlar)
Qoyar diz üstə məni.

Ay çıxdı bata qaldı;
Cütkarlar yata qaldı
Bir evlikli sağımda
(Bir evlikli solumda)
Bir Kərkük mata qaldı.

Beş misralı şeir parçaları İraq–türkman xoyrat və maniləri üçün səciyyəvi deyildir. Çox güman ki, onlar xoyrat çağıranlar oxuyan vaxt əlavə ediblər.

Azərbaycan bayatıları arasında da beş misralı nümunəyə rast gəlinir. Əmin Abid aşağıdakı bayatını misal göstərərək yazır: «Ümumiyyətlə, 4-cü misralar vəzncə «yeddi» hecalı olduğu halda, bəzən bunlarda bir vəzn daşqınlığına təsadüf edilir. Bunun da musiqi sayəsində meydana gəldiyinə qane olmaq olar» (108, 31).

Əzizinəm yaxşı dur,
Yaxşı danış, yaxşı dur.
Yaxşı igid yurdunda
Pis oğul qaldığından
Qalmadığı yaxşıdır.

Şair R.Rza «Qızılgül olmayaydı» poemasında dörd misralıq bayatıya bir misra artırmaqla öz daxili hislərini daha dolğun verə bilmişdir:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Bir də yaralı könlüm,
Heç biri olmayaydı (184, 271).

Onu da qeyd etmək vacibdir ki, Kərkük dolaylarında da manilərin ən çox təsadüf edilənləri dörd misradan ibarət olanlardır. Ümumiyyətlə, dörd sətirlik şeir formasına dünyanın bir çox xalqlarının, xüsusən də Şərq xalqlarının folklorunda rast gəlirik.

Tədqiqatçıların fikrincə, öz quruluşuna, simmetriyasına və böyük imkanlarına görə ən münasib şeir forması dörd sətirlik bədii parçalardır (335, 275; 329, 446).

Bayatıların bədii xüsusiyyətlərinə dair tədqiqat aparan A.Əliyev 3, 4, 5, 6, 7, 8, hətta 9 hecalı bayatıların olduğunu da göstərir və misal olaraq tapmacalar verir ki, onların bayatılara heç bir dəxli yoxdur (264, 176–177).

Doğrudur, xoyratlar arasında da, bayatılarımızda da Əmin Abid və Əta Tərzibaşıdan gətirdiyimiz misallardan göründüyü kimi bəzən müəyyən misrada heca artıqlığına təsadüf edilir:

O yaram:
Köz-köz olub o yaram
Bir göz bir gözə xain baxsa
Barmaq sallam oyaram (212, 63).

Əzizinəm, gözü yandı,
Kababın közü yandı,
Oğul öldü, göz çıxdı
Qız öldü, elin bir üzü yandı (108, 31).

Əta Tərzibaşı bunu oxuyanın naşılığının nəticəsi kimi qiymətləndirir və əslində, üçüncü misra «Bir göz yara xor baxsa» şəklində olmalıdır – deyir.

Bizcə, burada oxuyanın naşılığından daha çox ifa məqamında musiqi qəlibinin əsas poetik qəlibin hüdudlarını pozaraq mətni öz qəlibinə tabe etməsindən danışmaq yerində olardı.

Əmin Abid maraqlı bir məsələdən də söhbət açır və göstərir ki, dördüncü misranın əvvəlinə «ay bivəfa» artırılır:

Sən gedəli il oldu,
Yandı bağrım kül oldu.
Sən ilən uçan quşlar
Ay bivəfa, oxudu bülbül oldu (108, 31).

Görkəmli bəstəkar Ü.Hacıbəyovun fikri Əmin Abidin sözlərini təsdiqləyir: «Aşıqlar dəxi şikəstə və bayatının başında «əzizim, a balam» və axırında da «ay nənəm qurban», «ay ölürəm» və qeyri kimi sözlər artırırlar» (230, 188).

Bu xüsusiyyətə mətni xoyrat və mani olan İraq–türkman xalq mahnılarında da təsadüf edilir.

İraq–türkman xoyratlarından söz düşəndə ən çox mübahisəyə səbəb olan məsələlərdən biri, bəlkə də, birincisi xoyrat sözünün etimologiyasıdır. Türkdilli xalqlardan azərbaycanlılarda – bayatı; qaqauzlarda – mani; özbəklərdə – aşulə, kuşik; türklərdə – hoyrat, ayaqlı mani, kəsik mani və s. adlarla tanınan xoyratlar (108, 12; 205, 22; 212, 38–39; 160, 92) İraq–türkman folklorunda dörd cür tələffüz edilir; xoyrat–xoryat; qoyrat–qoryat. Əta Tərzibaşının yazdığına görə bunlardan xalq arasında ən çox tutulanı «xoyratdır» (205, 20; 212, 47). Xoyrat sözünün etimologiyasından danışarkən qeyd edilməlidir ki, Osman Məzlum 1951-ci ildə Bağdadda çap etdirdiyi «Kərkük xoyratları» adlı kitabının girişində qocaman Kərkük şairi Hicri Dədədən eşitdiyi məlumatı çap etmişdir. Hicri Dədənin də keçmiş ağsaqqallardan eşitdiyinə görə nə vaxtsa bəzi gənclər Kərkük küçələrində boş-boşuna gəzib mahnı oxuyarlarmış. Onlara pis nəzərlə baxar, «xor » adlandırarmışlar. Bu gün belə İraq türkləri arasında boş-boşuna, avara, sərsəri gəzən adama «xori» deyirlər. Xoryat və xoyrat sözləri də bununla əlaqədar yaranmışdır (135, 3–4).

Tədqiqatçı İbrahim Daquqlu da bu fikrə tərəfdar çıxır: «Xoryat ləfzi isə qərib, fəqir, başıboş mənalarına gələn türkmanca «xori – xor» kəlməsindən alınmışdır. Zira sərxoşlar və əyyaşlar gecə məhəllələrində bu rübailəri oxuyar və gecənin gec saatlarında insanları rahatsız edərlərdi» (117, 97).

Bir qisim yazarlar isə bu sözün Kərkükün Qorya (Koriya) məhəlləsinin adı ilə əlaqədar yarandığını isbata çalışırlar. Əta Tərzibaşı göstərir ki, İraqın tanınmış dilçi alimi Tofiq Vəhbi «Altun köprü» məqaləsində «xoryat» (qoryat) sözünə toxunur və bu sözün uyğurca «kor», başqa türk ləhcələrində «xor» –

aşağı, alçaq, dəyərsiz mənasına gəldiyini yazır ki, buradan da «xor baxmaq» – aşağı nəzərlə baxmaq və «xoryat» sözləri meydana gəlmişdir (212, 50).

İraqlı yazarlardan Siddiq əl-Qadiri göstərir ki, uyğurlar karvan gedərkən xoyrata bənzər «xiravat» – mahnı oxuyurlar. Qazan tatarları və başqırdlarda da rübai biçimində «xor» adlı mahnının olduğunu qeyd edir (131, 154–155).

Türkiyə Etnoqrafiya Muzeyinin direktoru Həmid Zubeyr Qoşa Ay Molla Sabirin «Kərkük müntəxəb xoyratları» kitabına yazdığı «Ön söz»də V.Radlovun «xoryad-xoyrad»ın «köylü» və «qaba» mənasında işlənərək, əslində, yunanca «xoyratus» sözündən olduğu fikrinə qarşı çıxır və xoryad sözünün türk mənşəli olduğu fikrini irəli sürür (131, 61).

Həmid Zubeyr Qoşa Ayın bu fikri ilə əlaqədar demək lazımdır ki, qədim kitabəmiz «Dədə Qorqud»un Drezden nüsxəsində xoyrad, Vatikan nüsxəsində – xoryad kimi işlənən (212, 53) və qaba, namərd, tərbiyəsiz mənasını verən bu söz bütün türk dillərində özünü göstərir. O da maraqlıdır ki, V.Radlov xoryad sözünü Osmanlı türklərinə, xoyrat sözünü isə ümumiyyətlə, türkdilli xalqlara aid etdiyi halda (323, 1705), Kərkük folklorunda olduğu kimi, Azərbaycan folklorunda da bu sözün hər iki variantına təsadüf edilir:

Qızıl üzük qınanmaz,
Bu qədər yar sınanmaz.
Əhdimə vəfadaram,
Xoyrat ona inanmaz.
(Azərbaycan bayatısı)

Tərk eyləyib zimistanı,
Çıxıbsan bahara, bülbül.
Nə yanırsan, ay biçarə,
Nə ölkəyə səs salırsan.
Gül gəzir xoryad qolunda,
Bu hicranda sən qalırsan (155, 158).

Folklorşünas Əta Tərzibaşı «xoyrat» sözünün etimologiyasından danışarkən bu sözün bayatılara sonradan verilən ad kimi işləndiyini göstərir (212, 54).

Bizcə, Əta Tərzibaşının bu fikrinə və «xoyrat» sözünün İraq–türkman folklorunda etimologiyası barədə Hicri Dədə, Osman Məzlum və İbrahim Daquqinin gəldiyi qənaətə haqq qazandırmaq doğru olardı. Məlumdur ki, feodal-patriarxal din xadimləri insanları şeir, nəğmə, rəqs kimi mənəvi qidadan məhrum etməyə çalışmış, mahnını, rəqsi, şeiri, o cümlədən də xoyrat və bayatıları günah saymış, bunların tərcümanı olan el sənətkarlarını təqib etmişlər. Şübhə yoxdur ki, neçə-neçə yüzilliklər boyu ən kiçik daşına, uzaq ulduzuna qədər dinlə bağlı olan İraqda və eləcə də Kərkük dolaylarında da bu belə olmuşdur. Burada mahnı oxuyan, xoyrat çağıran adama keçmişdə bizdə olduğu kimi (227, 11), aşağı nəzərlə baxmış, özlərini «xori» – avara, sərsəri adlandırmış, oxuduqları xoryat mahnılarına «xoryat» adı vermiş, özlərini günahlandırmışlar ki, o dünyada onları ağır cəza gözləyir. Məhz bu səbəbdən çoxları bu sənətə qədəm qoymağa cəsarət etməmiş, bəziləri isə bu sənət aləmindən ayrılmışlar. Əta Tərzibaşı Muçala, Yolçu və Müxalif xoyrat üsullarını oxumaqda şöhrət qazanan məşhur kərküklü müğənni Məhəmməd Gülboydan söz açır. O, 1964-cü ildə Həccə gedərək tövbə edir ki, bir daha xoyrat və mahnı oxumayacaq. Beləliklə, Kərkükün məşhur müğənnisi sənətdən ayrılır. 1965-ci ildə isə Bəşiri, Yetimi, Nobatçı, Dəllihəsəni xoyrat üsullarının və azəri mənşəli «Qarabağı» havasının ən usta oxuyucusu Rəşid Kölə Raza Həccə gedərək bir daha xoyrat və mahnı oxumayacağı barədə tövbə edir ki, günahından keçilsin. Beləliklə, o da bu gözəl sənət aləmindən ayrılır (212, 61–62).

Üzeyir bəy Hacıbəyovun yazdığına görə keçmişdə Azərbaycanda da «xanəndə və sazəndələr belə «haram» bir əməli özlərinə peşə etdiklərinə görə, kəffareyi-günah üçün məhərrəmlik zamanı məscidlərdə növhə və mərsiyə oxuyarlar, yaxud ziyarətə gedib hacı və məşədi olarlardı ki, günahlarından keçilsin» (230, 185).

Əta Tərzibaşının «Kərkük xoyratları və maniləri» kitabında tədqiqatçının özünün nədənsə dərinliyinə varmadığı, lakin nəzəri cəlb edən vacib bir cəhət də vardır ki, «xoyrat» sözünün etimologiyasının dəqiqləşdirilməsində müəyyən qənaətə gəlməkdə gərəkli ola bilər. Tədqiqatçı göstərir ki, əski şairlər xoyrat və mani yazarkən az-çox təxəllüslərini göstərmişlər. Lakin sonralar xoyrat və mani yazmaq ayıb hesab olunduğuna, istehza və təhqirə məruz qaldıqlarına görə təxəllüslərini göstərməkdən çəkinmişlər. Çünki onlara da, mani oxuyan, xoyrat çağıranlar kimi alçaq nəzərlə baxır, onları düşük bir zümrə sayır, xori – deyərək təhqir və istehzaya məruz qoyurdular (212, 13).

XX əsrin ikinci yarısında xoyrat oxuyanlar tövbə edirsə, nədənsə, kimdənsə çəkinirsə, qaranlıq əsrlərdə gözəl səsi və fitri istedadı olan adamlar ürəklərinin səsi ilə hərəkət edərək tutduqları yoldan dönməyəndə, bəzi din xadimlərinin onlara qarşı necə amansız mübarizə aparmalarını, onlara alçaq nəzərlə baxmalarını, onlara hər cür damğa vuraraq xalqın gözündən salmağa çalışmalarını təsəvvür etmək çətin deyil. Bütün bunlar Hicri Dədə kimi müdrik və mütəfəkkirin dediklərini təsdiq edən, təkzibolunmaz tutarlı dəlillərdir.

Xoyrat-xoryat sözünün «xori» sözündən yaranması və yeni məna çaları kəsb etməsi, yəni bayatı mənasında işlənməsi həm mümkün, həm də ağlabatandır.

Dilçilik elmindən məlumdur ki, hər hansı bir dildə məxsusi mənanı ifadə etmək üçün yaranan söz vaxt keçdikcə başqa mənalar da kəsb edir.

Kərkük dolaylarında xoyrat yerinə «qoşma» və ya «beyt-beyit» termini də işlənir. Əta Tərzibaşı bu münasibətlə yazır:

«Bəzi yazma məcmuələrdə (cüng) xoyrat və mani qarşılığında «həqiqət» sözü keçdiyi kimi, bəzi şairlərimiz bunun yerinə «qoşma» terminini qullanmışdır. Ayrıca, xalq arasında əskidən bəzən «beyt» sözü keçirdi. Bunu, xalqın, ümumiyyətlə, şeir qarşılığında hələ də qullandığını bilməkdəyiz» (212, 40).

Bu, alimlərimizin fikrini doğruldur. Onlar iddia edirlər ki, qoşma, gəraylı, təcnis bayatıdan yaranmışdır. İlk vaxtlar ba-

yatı kimi bir bənd olan bu şeir formaları təkamül yolu keçərək sonralar üç bənd olmuşlar (158, 40).

Elə bunu təcnislərin eyni ilə xoyratlar kimi cinas qafiyəli olması da təsdiq edir.

Mani sözünün etimologiyasına gəlincə, hər şeydən əvvəl demək lazımdır ki, bu söz həm mani, həm də maani kimi tələffüz edilir.

Bir çox tədqiqatçılar maninin ərəbcə «mana» sözünün cəmi «məani»dən alındığını söyləmişlər (212, 55).

Əmin Abid türk və qaqauzlarda da bayatı əvəzinə «mani» işləndiyini və ərəb sözü «məani»dən alındığını qeyd edir (108, 12, 13).

Maraqlıdır ki, «mani» termini vaxtilə bizdə də işlənmişdir. 1925-ci ildə Bakıda çap olunan «Bayatılar» kitabındakı fikirlər dediklərimizi təsdiq edir: «Toplamış olduğumuz nümunələrin «bayatı və mani» qismindən sadə material olaraq bu kitabçanı nəşrinə qərar verdik... Kitabçada bulunan bayatı və manilər mərhum Mirzə Məhəmməd, şair Abdulla Şaiq və müəllimə Şəfiqə xanım Əfəndizadə yoldaşların toplamış olduğu materiallardan götürülmüşdür (50, 3-4).

Tədqiqatçı Salman Mümtaz «mani» sözünün etimologiyasını müəyyən bir ulusla, ellə bağlayır: «Şeirlərin xüsusi adlarına gəldikdə, onlar da, mani, varsağı, türkmanı, gəraylı, ovşarı, bayatı və başqalarından ibarətdir. Türki – türk, mani – mahan, varsağı – varsaq, türkmani – türkman, gəraylı – gəray, ovşari –afşar, bayatı – bayat. Bu adlar ulusların, ellərin hünərləri, bacarıqları sayəsində yaradılmış şeirlərə, mənzumələrə verilən adlardır ki, bunların vasitəsilə hansı şeirin hansı ulusa, elə nisbəti olduğu meydana çıxır... Gəray elinin yaratdığı mənzuməyə «gəraylı» deyildiyi kimi, əfşarların qoşqularına əfşarı deyilir. Yalnız mani təhrif olunmuşdur ki, o da mahan elinin düzdüyü düzmədir» (188, 7).

Professor M.Seyidov da «Manilər əski türkdilli qəbilələrdən olmuşlar» hökmünü verir (190, 312).

Manilər bir çox xüsusiyyətlərinə görə xoyratlardan fərqlənirlər. Əsas fərqləndirici cəhət odur ki, xoyrat və manilər

həm forma, həm də məzmunca fərqlənirlər. Forma baxımından manilərin bütün misraları yeddi hecalı olduğu halda, xoyratların birinci misrası kəmhecalı, yəni üç, dörd və ya beş hecalı olur.

Yeri gəlmişkən, deyək ki, iraqlı tədqiqatçısı Əbdüllətif Bəndəroğlu «Xoyrat-bayatı» məqaləsində xoyratların birinci sətrinin ancaq üç və ya dörd hecadan ibarət olduğu fikrini irəli sürmüşdür (96[a]). Həqiqət naminə demək lazımdır ki, İraq-türkman folklorunda birinci sətri üç və ya dörd hecadan ibarət olan xoyratlar əksəriyyət təşkil edir. Bununla belə, Kərkük dolaylarında birinci sətri beş hecadan ibarət olan xoyratlar da gərəyincədir. Məsələn:

Yüz aya dəgər,
Hüsnüv yüz aya dəgər.
Ay var, bir günə dəgməz,
Gün var yüz aya dəgər (212, 406).

Təkcə onu demək kifayətdir ki, Əta Tərzibaşının kitabına daxil edilən 950 cinaslı xoyratın 60-dan çoxunun birinci sətri beş hecalıdır (212, 297–410).

Birinci sətri beş hecadan ibarət olan cinaslı xoyratlara İzzəddin Əbdül Bayatlı, Mustafa Kəmqaya, Rəşid Əli Daquqlu və s. kimi müasir şairlərin də yaradıcılığında təsadüf edilir (212, 414–420).

Yeri gəlmişkən, qeyd etmək olar ki, Ə.Bəndəroğlunu siyasi lirikanın yaradıcısı kimi tanıdan (95, 136), onun məşhur:

Oyanan istər,
Millət oyanan istər.
Bu çağ atom çağıdı,
Gücə dayanan istər.

xoyratının birinci misrası da beş hecadan ibarətdir.

Xoyrat və manilər məzmuna görə də fərqlənirlər. Bu baxımdan Əta Tərzibaşının fikri maraq doğurur: «Gəncliyin ehtiraslarını tərənnüm edən bəsit dördlüklərə mani, sənət qavramı olqun və üstün olanlara da xoyrat adı vermək yerində olur» (212, 60).

Xoyratlardan fərqli olaraq manilərə musiqi bəstələnir və onlar müəyyən döndərmələrlə – nəqarətlə birlikdə xorla oxuna bilir.

Xoyratla manini fərqləndirən başlıca amillərdən biri də xoyratların həmişə cinaslı, manilərin isə adi qafiyəli olmasıdır. Lakin bu o demək deyildir ki, manilər arasında cinaslılara təsadüf edilmir. Az da olsa cinaslı manilərə də rast gəlinir:

Sona göldə bir üzdü,
Bir çalxandı, bir üzdü,
Üzün qoy üzüm üstə
Görən desin bir üzdü.

Manilər vəzn etibarilə də xoyratlardan fərqlənirlər. Əmin Abidin göstərdiyinə görə Tadeuş Kovalski «Mani» növünün vəznində dörd tip ayırd etmişdir. Misrası 4+3; 3+4; 2+5; 2+3+2 hecalı olanlar. Bu bölgüyə əsaslanan Əmin Abid vəzn etibarilə Azərbaycan bayatılarının on dörd şəklini üzə çıxartdığını qeyd edərək misallar versə də, misal gətirdiyi üç, dörd və on ikinci nümunələr tədqiqatçının irəli sürdüyü bölgüyə cavab vermir (108, 28–29).

Bayatıların 1, 2 və 4-cü misralarının heca bölgüsünə görə qruplaşdırılmasına sonralar da cəhd edilmiş (81, 199; 103, 62), hətta tədqiqatçı H.Qasımov bayatıların misralar üzrə heca bölgüsünə görə 17 növdə olduğunu qeyd etmişdir (81, 199).

Kərkük manilərində hecaları misralar üzrə daxili bölgü, ritm və ölçü baxımından nəzərdən keçirərək on üç şəklini üzə çıxartdıq.

Misraları 3+2+2; 2+2+3; 2+3+2; 3+1+3; 3+4; 1+2+2+2; 2+2+1+2; 2+1+4; 1+2+4; 2+1+2+2; 4+2+l; 2+2+2+l;

1+2+3+1 olanlar. Əvvəlki yeddi bölgüyə aid manilər lap çoxdur. Misralarda hecaların bölgüsü 1+2+3+1 olan isə təkcə aşağıdakı manidir:

Sən mənim mürşüdüm, yar,
Aç qoynun, üşüdüm, yar.
Dərd söylə, can deyim mən,
Bir səsin eşidim, yar.

Burada hecaların bölgüsü, daha doğrusu, qruplaşması etibarı ilə fərqlənən hər bir maniyə aid bir misal verməklə kifayətlənəcəyik.

Misraları 3+2+2 və 2+2+3 şəklində olanlar:

Bağçayam, baram sənə,
Heyvayam, naram sənə.
Könlün fikir çəkməsin,
Ölüncə yaram sənə.

Yağış yağar göllərə,
Bülbül qonar güllərə.
Mənim vəfasız yarım,
Salıb məni çöllərə.

Misraları 3+1+3 və 3+4 şəklində olanlar:

Divara daş qoymuşam,
Uğrunda baş qoymuşam.
Gözlərimdən qan gəlir,
Adını yaş qoymuşam.

Əkinim əkiliri,
Sünbülüm tökülürü.
Zülfündən bir tel göndər,
Kəfənim tikiliri.

Misraları 1+2+2+2 və 2+2+1+2 şəklində olanlar:

Ay çıxdı bədir Allah,
Can dosta nəzir, Allah.
Ya canım cana yetir,
Ya cana səbir, Allah.

Qaşın-gözün zil kimin,
Titrər qızılgül kimin.
Qapında abdal oldum,
Alıb-satma qul kimin.

Misraları 2+1+4 və 1+2+4 şəklində olanlar:

Bağça bar üstünədi
Heyva nar üstünədi.
Bu zamanın xoyratı
Hansı yar üstünədi.

Çöl yerin seyranıyam
Yar boyun heyranıyam.
Hansı yoldan gəlibsən
O yolun qurbanıyam.

Misraları 2+3+2 və 4+2+1 şəklində olanlar:

Oğlan yaylığın hanı?
Durmaz barmağım qanı.
Mənim sevdigim sənsən
Sənin sevdigin hanı?

Bülbülümün bağı yox,
Kəkligimin dağı yox.
O günnən sən gedibsən
Ürəgimin yağı yox.

Misraları 2+2+2+1 və 2+1+2+2 şəklində olanlar:

Dağlar duman oldu, gəl,
Halım yaman oldu, gəl.
Aylara vədə verdin,
İllər tamam oldu, gəl.

Kabab köz evin yıxar,
Sürmə göz evin yıxar.
Bir can, bir canı sevsə,
Axır öz evin yıxar.

Əta Tərzibaşı da bu məsələyə öz münasibətini bildirmişdir: «Xoyrat və manilərin vəzni, ümumiyyətlə, 4+3=7 və 3+4=7 düzülüşünə girməklə bərabər, bəzən 2+5=7 və 5+2=7 biçimində də bilinməkdədir» (212, 63).

Tədqiqatçının birinci misrası kəmhecalı olan xoyratları misralar üzrə heca bölgüsünə görə qruplaşdırmağa təşəbbüs göstərməsinin yanlış olduğunu qeyd etməklə bərabər, manilər üzrə yuxarıda verdiyimiz bölgünü musiqiyə yatımlılıq, musiqi ahənginə uyğunluq baxımından nəzərdən keçirsək, manilərdəki bu daxili bölgü, ritm və ölçünün mahnı yaradıcılığında böyük əhəmiyyəti olduğunu görmək o qədər də çətin olmaz. Çünki əksər türkdilli xalqların şifahi xalq poeziyasında olduğu kimi (103, 16), İraq-türkman şifahi xalq poeziyasında da şeir misralarının bölgülərə ayrılması, alliterasiya, qafiyə və musiqili vurğu ritm yaradan əsas vasitədir.

Azərbaycan, o cümlədən də İraq-türkman xalq poeziyasında işlənən heca bölgüləri zəngin və rəngarəngdir.

Tədqiqatçı A.Əliyev namizədlik dissertasiyasında bu məsələyə xüsusi diqqət yetirmiş və doğru nəticəyə gəlmişdir: «Bayatılardakı daxili bölgü, ritm, ölçü və s. fərqlənir: 3+4; 4+3; 5+2 və s. olur ki, onlara müxtəlif musiqi yazmaq çox asan olur» (264, 162).

Bundan əlavə, Azərbaycan ədəbiyyatı ilə bağlı M.Adilovun göstərdiyi kimi (6, 53), bayatı və manilərin birinci beyti-

nin hər iki misrasında paralel tərkiblərin, bölüşdürücü bağlayıcıların və ya bağlayıcı funksiyasında işlənən say və əvəzliklərin çox mühüm ritmik rolu və emosional təsirindən də söz açmaq olar:

Bağçayam, baram sənə,
Heyvayam, naram sənə.

Nə qardaş ol, nə sirdaş,
Özün ögənə könül.

Bu günün adamınnan,
Nə küs, nə inci, baba.

Həyatın sonu ölüm,
İstər ağla, istər gül.

Həm təbibdi, həm məlhəm,
Şirin əhbab, şirin dil.

Bir sabah gəl, bir axşam,
Bir də günorta çağı.

Nə balda, nə şəkərdə,
Bulunmaz bala dadı.

Bülbül gülün itirib,
Gah çağırar, gah ağlar.

Kim əkdi, kim becərdi,
Kim oldu bağ sahibi və s.

Heç şübhəsiz, bu səbəbdəndir ki, Azərbaycanda da, Kərkük dolaylarında da bəstəkarlar böyük məmnuniyyətlə bayatılara musiqi bəstələyir, müğənnilər onları böyük həvəslə ifa edirlər. O da maraqlıdır ki, hər hansı bir xalq mahnısını nəzərdən keçirsək, Azərbaycanda olduğu kimi, o mahnının ya özünün, ya da döndərməsinin ancaq manidən – bayatıdan

ibarət olduğunu görəcəyik. Beləliklə, bayatılar bir yandan milli musiqinin, poeziyanın inkişafına təkan verir, digər tərəfdən də musiqi bayatının sözləri ilə birləşərək onun təsir gücünü artırır. Musiqi qoşularaq oxunan bayatılar xalq poeziya xəzinəsinin ən qiymətli incilərinə çevrilirlər.

Hamı tərəfindən sevilən xalq arasında geniş yayılan manilər İraq-türkman folklorunda dastan yaradıcılığına da təkan vermişdir. Manilər üzərində qurulan «Arzu-Qəmbər» dastanı dediklərimizə sübutdur.

Bununla belə qeyd etmək lazımdır ki, xoyratlar və manilər Kərkük dolaylarında yalnız XX əsrin ortalarından toplanıb sistematik çap olunmağa başlanmışdır (134; 135; 131; 205; 206; 207; 212).

Son vaxtlar İraq–türkman xoyrat və maniləri Azərbaycanda da dönə-dönə çap olunmuş, onların tədqiqinə meyil artmışdır (129; 123; 133; 183; 215; 68).

Xoyrat və manilər üzərində tədqiqat apararkən bir yandan bu kamil sənət abidəsinin, onu yaradanların adət-ənənəsini, dünənini, bu gününü məişətini etnoqrafiyasını, dünyagörüşünü, bədii təfəkkürünü öyrənmək yolunda əvəzsiz xəzinə olduğu qənaətinə gəlirsən, digər tərəfdən də M.H.Təhmasibin «Xoyratlar bizim bayatılarla tamamilə eyniyyət təşkil edir, onlardan heç nə ilə fərqlənmir... bunların hamısı eyni təxəyyülün eyni təfəkkürün məhsuludur» fikrinə şərik çıxırsan (214, 201–202). Folklorşünas Əmin Abidin bayatı və xoyratların müəyyən tarixi, siyasi-ictimai səbəblər üzündən ayrı düşmüş eyni xalqın yaradıcılıq məhsulu olduğu barədə fikrini göz önünə gətirirsən: «İraq türkü nümunələri Azərbaycan bayatılarının bütün xüsusiyyətləri ilə oralarda yaşadıqlarını göstərir» (108, 24).

Bu baxımdan folklorşünas İ.Abbasovun gəldiyi nəticə də maraq doğurur: «İraq-türkman qadınının dilində səsləşən layla Azərbaycan qadını üçün də doğma və əzizdir… Bu həm də o deməkdir ki, bayatı-mani-xoyrat xəzinəsinə malik olan xalqlar doğma olmuş, eyni çeşmədən su içmiş, eyni qaynaqdan barınmışlar» (31, 7).

Tədqiqatçıların təkzibolunmaz fikirlərini nəzərdən keçirdikcə istər-istəməz «Nə yaxşı ki, xalqın ellikcə yaratdığı mənəvi sərvət üçün bağlı yollar yoxdur» (90) – deyə fikirləşir və təskinlik tapırsan. Həqiqətən də, nə bağlı yollar, nə illər mənəvi ayrılığa gətirib çıxara bilməmiş, cismani ayrılıqla kifayətlənməli olmuşlar. İndinin özündə belə bu yaxınlıq, bu doğmalıq yaddaşlardan silinməyib. M.Həkimovun Azərbaycanın Qazax rayon sakinləri, ərəb dilini yaxşı bilən yüz on yaşlı Bəhmən baba və yüz beş yaşlı Ayişə nənədən topladığı bayatılar dediyimizə dayaq olur:

Ta İraqa,
Yol gedir ta İraqa.
Dost dostun qədrin bilməz,
Düşməsə ta iraqa (235, 23).

Rum mənəm, İraq mənəm,
Bu yanan çıraq mənəm.
Qul tək əllərə düşdüm,
Vətəndən iraq mənəm (236, 167).

İraq türkmanlarının yaşadığı Məndəli qəsəbəsi ilə bağlı bayatı və xoyratların səsləşməsi də bu doğmalıqdan söz açır:

Əzizim Məndəlidən,
Mən Məcnun, Məndəlidən.
Ay ellər, Leylimə bax,
Küsübdü mən dəlidən (235, 23).

Məndəlidən,
Gül gələr Məndəlidən.
Bu vəfasız yara bax,
Küsübdü mən dəlidən (212, 365).

Bir çox xoyrat və bayatılar eyni dastanlardan, eyni qəhrəmanlardan, eyni toponimlərdən söhbət açır:

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən irağam,
Bu sevda ölüncədi (212, 453).

Gənc Əlidi,
Bir qolu qönçəlidi.
Harda bir qərib görsən,
Elə bil gəncəlidi (212, 114).

Saysız-hesabsız bayatılarda Bağdad, Fərat, İraq, Məndəli, xoyratlarda isə Qarabağ, Gəncə, Şəki, Şirvan və s. kimi coğrafi adlara rast gəldikcə yazıçı Elçinin sözləri göz önünə gəlir: «Bu coğrafi adlar bu gün xalq ədəbiyyatında rəmzi məna daşımağa başlayıb. Nisgillə dolu olan bu sözlərdə əlçatmazlıq, ünyetməzlik var. Ayrılığın ağrısı, acısı var» (90).

Kərküklü folklorşünas Əta Tərzibaşı da bu məsələyə öz münasibətini bildirmişdir: «Bizim xoyrat və manilərimizin ilgisi, ən yaxın olanı mühəqqəq ki, azəri olanlarıdır» (205, 140; 212, 40).

Professor M.Quluzadə İraqda yazıb-yaradan dahi şairimizin yaradıcılığı ilə məşğul olarkən, təbii ki, Füzulini yetirən, ona qol-qanad verən xalqın, İraqda yaşayan azərbaycanlıların – türkmanların folklorunu da izləmiş və yazmışdır:

«Xoyratlar öz dil xüsusiyyətləri, üslub və ifadə tərzləri, obraz və bədii təfəkkürün xarakteri etibarilə Azərbaycan bayatılarının ayrılmaz bir hissəsi, müəyyən variantlarıdır» (86, 9).

Uzun müddət Azərbaycanda tədqiqat aparan kərküklü alim Sinan Səid də xoyrat və bayatıların bir xalqa mənsub olduğunu, fərqlənmədiyini qeyd edir: «Xoyrat və bayatıların kökü və əsli birdir, daha dəqiq desək, bunlar iki ayrı isim daşıyan bir ədəbi vahiddir» (197, 209). Xoyratlar üzrə tədqiqat aparan Məhəmməd Mehdi Bayat da, təbii ki, bu məsələyə öz münasibətini bildirmiş, haqlı olaraq onların eyni xalqın ədəbi məhsulu olduğunu göstərmişdir: «Əcəba, xoyratlar azəri və

ya bizimdir? ... iştə hər iki ölkədə xoyratlar baba malı kimi ortaqlı bulunur» (80, 189).

Bu baxımdan Mustafa Ziya ilə birgə xoyratlarla bayatıları müqayisəli şəkildə 382 səhifədən ibarət kitab halında çap edən, vaxtilə Azərbaycanda aspiranturanı qurtararaq elmlər namizədi adına layiq görülən iraqlı tədqiqatçı Əli Bəndəroğlunun gəldiyi nəticə də maraq doğurur: «Görünür ki, bayatı, xoyrat və mani elliklə yapı və mövzu baxımından ortaqdır, hətta eynidir» (56, 7).

Xoyratlar və manilər, ümumiyyətlə, İraq–türkman folkloru və eləcə də dialekti barədə türk alimlərinin də rəyi maraq doğurur. Kərküklü folklorşünas Molla Sabirin üç hissədən ibarət «Kərkük müntəxəb xoyratları» kitabının əlyazması ilə tanış olan türk alimləri Kərkük dialektinin Azərbaycan dialekti olduğunu, xoyratların isə bayatılardan heç cür fərqlənmədiyini göstərmişlər (129, 176–178).

Mir oğlu Cəmil yazır: «Molla Sabirin «Kərkük müntəxəb xoyratları»ndan görünür ki, dilləri Türkiyə, yəni qərb türkcəsinə ən yaxın türk ləhcəsi olan azəri ləhcəsindən həmən-həmən fərqsizdir» (131, 140).

Türkiyənin Əskişəhər institutunda müəllim işləyən Vahabi Aşqun Molla Sabirin kitabının II və III qismini oxuyaraq, İstanbulda çıxan «Dünya» qəzetinin 1954-cü il 5 mart tarixli nömrəsində və kitabda yazırdı: «İlk kitabda olduğu kimi, bu kitabdakılar da azəri ləhcəsindədir» (131,67).

Vahabi:

Axşam arada qaldı
Xəncər yarada qaldı
Mənim bedasıl yarım
Bilməm harada qaldı –

bayatısını göstərir və «Şu deyişlər azəri ləhcəsinin özlügünü taşımaqdadır» (131, 67) hökmünü verir.

Türkiyə Dil Qurumunun direktoru Ömər Asimin fikri də xoyratlar barədə gəldiyimiz qənaətə dayaq olur: «Böyük bir

diqqət və uzun bir səbir və əmək məhsulu olan kitabını bən və arqadaşlarım zövq və istifadə ilə oxuduq. Azəri ləhcəsində gözəl örnəkləri olan bu xalq şeirlərində bizim dövrləmələrə sıqı-sıqıya bağlı kəlimələr, təbirlər vardır» (131, 57).

Doğrudur, Əta Tərzibaşı xoyratın Qaraqoyunlu və Ağqoyunlu türkman dövlətləri zamanı İraqın türkman bölgələrində yaranıb Türkiyə və İranın şimalında əhalisi türkman olan Təbriz və Rusiyada əhalisinin əksəriyyəti türkman olub, azəri və ya azərbaycanlı adlanan Azərbaycana yayıldığını qeyd edir (74, 8).

Kərküklü tədqiqatçı Sinan Səid və folklorşünas Ayaz Vəfalı Əta bəyin bu qənaətinə etiraz edirlər (197, 206; 68, 12–13).

Həqiqət naminə demək lazımdır ki, Əta Tərzibaşı da, Sinan Səid, Əli Bəndəroğlu, Məhəmməd Mehdi Bayat və başqa İraq-türkman tədqiqatçıları kimi, xoyrat, bayatı və maniləri ortaqlı sayır. Məhz buna görə də Azərbaycan bayatılarına dair təsnifatı bütövlükdə xoyrat və manilərə də aid etməyi məqbul hesab etdik. Mövzuya görə xoyrat və maniləri: təbiət və təbiət gözəlliklərini tərənnüm edən, əmək-zəhmət, sevgi-məhəbbət, ictimai məzmunlu və məişət xoyrat və maniləri ümumi başlıqları altında qruplaşdırmaq olar.

Xalqın ictimai həyatının bütün sahələrinə sirayət edən, onun mənəviyyatını, dünyagörüşünü, bəşəri duyğularını göstərən, hiss və həyəcanını, sevinc və möhnətini, gərdişə münasibətini, sevgi-məhəbbət və nifrətini, həyat və mühitə münasibətini, arzu və istəyini, həyat eşqi – yaşamaq həvəsini, intizar və həsrətini, daxili aləmini, mübarizə və dözümünü, xoşbəxtlik və ləyaqətini, inam və etiqadını, ar-namus və qeyrətini, hünər və şücaətini, saf əməl və vicdanını, təmiz adını, zülm-zorakılıq və haqsızlığa qarşı mübarizəsini, ah-nalə, üzüntü-nigarançılıq və iztirabını, vəfa-sədaqət və etibarını, əzab-əziyyətini, vətənə, xalqa bağlılığını, vətən torpağının toxunulmazlığı, müqəddəsliyini, vətən həsrətini, ayrılıq-hicran və fərağını, yad el – qürbət hislərini, mərdlik və igidliyini, insanpərvərliyini, insana münasibətini, şikayət və narazılığını, qəzəb və hiddətini, ümid və ar-

zularını, əməyə-zəhmətə münasibətini, sayıb-sayılmağını, güngüzəranını, bəxt-tale, yoxsulluq və ehtiyacdan umu-küsü və giley-güzarını, iftixar, məğrurluq, dostluq, iradə, nikbinlik hislərini, təsəlli və nisgilini, ağrı-acılarını, sıxıntısını, tənə-qaxac, məzəmmət və töhmətini, öyüd-nəsihət və hikmətini, həyat təcrübəsini, ailə-məişət münasibətlərini və s. poeziyanın sehrkar dililə ifadə edən ölümsüz xoyrat və manilər İraq-türkman folklorunun çələngidir.

Göründüyü kimi, həyatın elə bir sahəsi yoxdur ki, xoyratlarda öz əksini tapmasın. Bu təbiidir. Təsadüfi deyildir ki, V.Q.Belinski yazırdı: «Poeziya həyatın təcəssümüdür, daha doğrusu, həyatın özüdür. Hələ bu harasıdır. Poeziyada həyat həqiqətdə olduğundan daha həyatidir» (274, 169).

Demək lazımdır ki, epik növdə xalqın dilək və arzuları müəyyən əfsanəvi ünsürlərlə qarışdığı halda, lirik növdə, xüsusən də bayatı, xoyrat və manilərdə bu dilək və arzular tamamilə real ünsürlərdən ibarət olur. Buradakı sevgi də, nifrət də, kədər və ələm də həyatiliyi ilə seçilir (51, 14).

Xoyratları fərqləndirən ən başlıca cəhət hər birində bir dünya fikir olan, hər misrasına bir dünya ürək döyüntüsü sığan, hər biri ayrı-ayrılıqda bitkin bədii əsər olan bu kiçik parçalarda məna ilə bərabər, fəlsəfi fikrin yığcamlığı, əxlaqi və ictimai anlamların dərinliyidir. Hələ bu az imiş kimi, xalq yeri gəldikcə öz ürək sözünü daha dəqiq, daha tutarlı, daha inandırıcı demək üçün xoyratlarda çoxlu atalar sözündən də istifadə edir. Bu da təbiidir. Xoyrat və manilər, eləcə də bayatılar şifahi xalq ədəbiyyatının başqa növ və janrları, xüsusən də qafiyələnmənin ilk baş verdiyi janrlardan olan atalar sözü və məsəllərlə sıx bağlıdır.

Bəzi tədqiqatçıların fikrincə, bayatı ilə işlənən atalar sözləri və məsəlləri qədim bayatılarda axtarmaq lazımdır (264, 170).

Rus folklorşünaslığında da bəzi atalar sözlərinin xalq mahnılarından yarandığını göstərənlər vardır (296, 220; 301, 161). Bunun əksinə olaraq M.Ştokmar qeyd edir ki, «Ənənəvi

mahnılardan yaranan bir dənə də atalar sözü yoxdur...» Atalar sözləri qafiyələnən xalq yaradıcılığının ilk poetik janrıdır (336, 151, 163).

Göründüyü kimi, tədqiqatçı atalar sözlərinin daha qədim olması fikrini ortaya atır.

Buraya onu da əlavə edək ki, Kərkük dolaylarında təzə yazmağa başlayan gənc şairlər də, orta və yaşlı nəsil də xoyratlarda hər addımbaşı atalar sözü və məsəllərdən istifadə edirlər. Ümumiyyətlə, xoyratlarla işlənən atalar sözləri çoxdur: Əyri ağac düz olmaz, rəndə vursan yüz yerdən; Dəyirman işin görər, çaqçağı baş ağrıdar; Qılınc kəsməyən əri bir quru söz öldürər; Divarı nəm yıxar, insanı qəm; Dəryaca ağlın olsa, yoxsul olsan gülərlər; Düşənin dostu olmaz; Bilənə bir söz yetər, bilməyənə yüz oxu; Tərəzin əyiləndə, hər gələn bir daş atar; Ayağını yorğanına görə uzat və s. kimi onlarca atalar sözü göstərmək olar. Atalar sözləri xoyratlarda böyük ustalıqla işlədilir. Məsələn:

Bir daş atar;
Bir lərəc, bir daş atar.
Tərəzin əyiləndə
Hər gələn bir daş atar.

Arzular gedər;
Qəmbər-arzular gedər
Bəsləmə yad ördəgin
Vətən arzular gedər.

Göründüyü kimi, bir tərəfdən atalar sözləri və məsəllərdə müdrikliklə, yığcam şəkildə deyilmiş ifadələr xoyratların bədii dəyərini artırır, digər tərəfdən də xoyratlar atalar sözü və məsəllər kimi bədii söz xəzinəsini zənginləşdirir, onların daha geniş yayılmasına kömək edir.

İraq–türkman xoyratlarının səciyyəvi xüsusiyyətlərindən biri də əksər xoyratlarda misralar arasında məna bağlılığının

olmasıdır. Əta Tərzibaşı bu münasibətlə yazır: «Xoyrat və manilərimizin başlıca vəzifələrindən biri də bunların ən çox qanadları arasında məna bağlılığının mövcudluğudur» (212, 41).

Tədqiqatçının müqayisə üçün verdiyi xoyrat və manilərdə misralar arasındakı bağlılıq göz qabağındadır:

Dolandı gün;
Döndü gün, dolandı gün.
Mən sənə daldalandım
Sənə də dolandı gün.

Avçılar av tutmasın
Çaxmağı qav tutmasın.
Səni vuran avçının
Qolları yay tutmasın.

Əta Tərzibaşı xoyrat, mani və bayatıları misralararası məna bağlılığı baxımından müqayisə edərək başqa bir münasibətlə yazmışdır: «Xoyrat qanadları arasında məna bağlılığının mövcudiyyəti haqqında ilk dəfə olaraq tərəfimizdən irəli sürülən görüşü doğru bulan azərbaycanlı professor M,H.Təhmasib azəri bayatıları üçün də bunu eynən qəbul etməkdədir ki, bu baxımdan Kərkük xoyratları Azərbaycan bayatılarının bir-birindən ayrılmadığını önə sürür» (212, 74).

Həqiqət naminə demək lazımdır ki, bayatılarda sətirlər arasında məna bağlılığının olduğuna biz hələ 1943-cü ildə M.H.Təhmasibin çapına müvəffəq olduğu «Bayatılar» kitabına yazıçı M.Hüseynin yazdığı sanballı giriş məqaləsində təsadüf edirik: «Elə bayatılar var ki, yaradıcının məharətindən asılı olaraq sətirlər arasındakı əlaqə son dərəcə sənətkaranə gözlənilmişdir:

Əzizim, aydın olsun,
Ay doğsun, aydın olsun.
Gəl yardan xəbər verim,
Gözlərin aydın olsun –

deyərkən, Ayın doğması ilə şad xəbər arasındakı əlaqə olduqca üzvi və təbiidir. Lakin hər vaxt belə olmur:

Mən aşiqəm, ya xannan,
Ya sultannan, ya xannan.
Bir dəstə gül olaydım,
Asılaydım yaxannan.

Burada birinci hissə ilə ikinci hissə arasındakı əlaqə çox uzaqdır. Lakin ən yaxşı bayatılar üçün birinci təsadüf daha xarakterikdir» (51, 16).

Doğrudur, Əta Tərzibaşı da bütün xoyrat və manilərin misraları arasında məna bağlılığı olduğunu təsdiq etmir. Əksinə, tədqiqatçı «bununla bərabər qanadları arasında məna bağlılığı bulunmayan xoyrat və manilərimiz də yox deyildir» (212, 41) qənaətinə gəlir.

Təəssüflə qeyd etməli oluruq ki, son vaxtlara qədər əksər tədqiqatçılarımız bayatı-xoyrat və manilərin birinci və ikinci misralarının, ümumiyyətlə, formal xarakter daşıdığını və sonrakı iki misradakı fikir üçün bir növ zəmin hazırladığını qeyd edirdilər.

Tədqiqatçı Ayaz Vəfalı bunun çox zərərli olmasını ürək ağrısı ilə qeyd edir: «Bu səyin az qala ümumi bir şəkil alması bununla nəticələnmişdir ki, bayatılarımız ciddi zəhmət bahasına ümumittifaq miqyasına çıxarılarkən kitabın müqəddiməsində elə o cür də təqdim edilmişdir. Beləliklə, xalq şeirinin bu əvəzsiz nümunələri, folklorumuzu orijinaldan öyrənmək imkanı olmayan oxuculara istəsək də, istəməsək də, bədii cəhətdən qeyri-mükəmməl kimi nişan verilmişdir. İndi bu «ənənəvi» fikrin əleyhinə çıxanların səsi daha ucadan eşidilməkdədir» (69, 173).

Elə buradaca göstərmək lazımdır ki, bəzi bayatıların çap variantında misralar arasında məna bağlılığının olmamasında, onların qeyri-mükəmməl səviyyəyə endirilməsində tədqiqatçıların diqqətsizliyi və eləcə də bəzilərinin naşılığı az rol

oynamamışdır. Təcnislərlə cinaslı bayatıları qarışdırmışlar. Bayatılarda işlənən cinas qafiyələr şeirə xüsusi gözəllik, oynaqlıq və musiqi ahəngi verir (78, 27). Odur ki, bayatılardan cığalı təcnislərdə də istifadə edilmiş, yəni təcnis yaradan sənətkar qoşmanın, müxəmməsin və s. arasına dörd və hətta altı misralı bayatı şəklində incilər – cığalar daxil etmişdir (250, 83). Bu, həm melodiyanı, həm də poetik tutumu gücləndirmişdir.

Bayatılarda olduğu kimi, təcnislərdə də cinas qafiyələr işlənir. Məsələn:

Lazım olur yoxsul üçün bircə mal,
Leyli isən göstər mənə bir camal.
Laf eyləmə, var saqidən bir cam al,
Leysan çeşmim məni eylər sənə mal.

Lakin göründüyü kimi, bütün misralarda cinaslar mürəkkəb formadadır. Təcnislərdən fərqli olaraq xoyratlarda birinci misra ilə ikinci misradakı cinas sözlərdə daxili bölgü hərfi-hərfinə uyğun gəlməlidir.

Professor Musa Adilov və iraqlı tədqiqatçı Qasım Sarı Kəhiyənin haqlı olaraq göstərdikləri kimi, birinci misradakı qafiyə əmələ gətirən söz ikinci misrada mütləq təkrar olunur (6, 52–53; 80, 27). Bu bir yandan qafiyə ilə əlaqədar olub, eyni zamanda ritmi saxlamağa, daha doğrusu, misralara müəyyən ritm verməyə kömək edir. Həmin tip təkrarların bir cəhəti də ondan ibarətdir ki, birinci misrada ümumi şəkildə işlənmiş və müxtəlif mənalarda anlaşıla bilən söz, ikinci misrada təkrarlanarkən dəqiqləşdirilir, konkret mənada üzə çıxır.

Təəssüf ki, tədqiqatçılarımız bəzən bu həqiqətdən yan keçirlər:

Əzizi, gör dügünü,
Sinəmdə gör dügünü.
Könül sevdigin istər
Göz istər gördügünü.
Namərddə söz əglənməz,
Mərd deməz gördügünü –

altılığının ilk iki misrasını

Əzizi gördü günü
Sinəmdə gör dügünü –

kimi vermişlər (53, 33: 56, 42) ki, bu da əslində müəllifin: «Əzizi, düyünə bax, sinəmdəki düyünə bax» fikrinin təhrif edilməsinə, misralar arasında məna bağlılığının pozulmasına gətirib çıxarmışdır.

Maraqlıdır ki, Məhəmməd Əmani, Əzizi və s. kimi bayatı ustalarının yaradıcılığında belə təhriflərə təsadüf edilmir.

Demək lazımdır ki, əvvəllər bayatılarda misralar arasında məna bağlılığından danışarkən «çox hallarda birinci və ikinci misralarda fikir bəsit olur, sanki sonra gələn üçüncü və dördüncü misralar üçün hazırlıq rolu oynayır» (61, 160) deyən professor V.Vəliyev sonralar bu fikrindən dönür və qeyd edir ki, sonuncu misraları bayatıdan ayrıca götürərək əvvəlki misralara qarşı qoymaq düzgün deyildir. Əgər əvvəlki misra olmasa, sonuncu misraların özlüyündə mənası o qədər də təsirli olmaz. Bayatının üçüncü və dördüncü misralarının məna kəsəri və siqləti birinci və ikinci misradan asılıdır (64, 129).

Bu, xoyrat və manilərdə də belədir. Bu kamil sənət əsərlərinin bir çoxunda ilk iki misra, sonrakı iki misrada veriləcək poetik fikri fəlsəfi və məna cəhətdən qüvvətləndirmək üçün zəmin yaradırsa da, misralar arasında bağlılıq aydınca hiss edilir:

Qanad ağlar;
Ox titrər, qanad ağlar.
Ovum yaralı getdi
Boyandı qana dağlar.

Fələyin işi düşsün,
Yaydan kirişi düşsün
Fələyin də bizim tək
Namərdə işi düşsün.

Başqa qisim xoyrat və manilərdə isə bütün misralar ayrıca məzmuna malik olur. Üçüncü manidən göründüyü kimi, hətta birinci və ikinci misralar sonrakı misralardan daha dərin fəlsəfi əhəmiyyət kəsb edir:

Əkmə bitmiyən yerə,
Can ver itmiyən yerə.
Ayaqlar necə varsın,
Könül getmiyən yerə.

Səhərin vaxtı keşdi
Bir ulduz axdı keşdi.
Dünya bir pəncərədi
Hər gələn baxdı, keşdi.

Çox geniş əhatə qüvvəsinə malik olan dördüncü nümunədə isə xalqın əsrlərlə topladığı həyat təcrübəsinin nəticəsi «Bir ulduz axdı, keşdi», yəni ulduzun axması ilə «dünyadan bir nəfər köçdü» inamı və dərin fəlsəfi məna – «Dünya bir pəncərədi, hər gələn baxdı, keşdi» çulğaşır. Burada misralar bir-biri ilə sıx vəhdət təşkil edir ki, onu yaradan sənətkarın ecazkar qüdrəti sayəsində kamil sənət nümunəsi səviyyəsinə qalxır.

Misralar arasında məna əlaqəsi məsələsində folklorşünas Q.Namazovun fikri də maraq doğurur. Onun fikrincə, xoyrat və bayatıda hər misranın öz vəzifəsi, öz adı vardır. Tədqiqatçı

Belə bax;
Kəmər düşdü, belə bax.
Qocaldım, günüm keşdi
Pünhan oldum, belə bax –

kəsik bayatını misal göstərir və qeyd edir ki, bayatının ilk başlanğıc misrası imla, ona həmqafiyə qurulan ikinci misra inşa, mətləbi-ideyanı ifadə edən üçüncü misra – məlum, şeiri tamamlayan dördüncü misra məxrəc adlanır (158, 40–41).

Maraqlıdır ki, professor Cəfər Xəndan misralar arasında qarşılıqlı əlaqə məsələsinə tamam başqa cəhətdən yanaşmışdır. Görkəmli ədəbiyyatşünasın fikrincə, «iki əvvəlinci misrada çox zaman həyat, təbiət və yaşayış haqqında təsəvvür verilir. Son misralarda isə lirika, hiss, həyəcan, bir şəxsiyyətin daxili vəziyyəti verilir» (254, 165).

Demək olar ki, eyni fikrə professor Musa Adilovda da təsadüf edilir. Tədqiqatçının fikrincə, hər bir bitkin, kamil bayatı iki paralel hissədən ibarətdir. Birinci hissə əvvəlki iki misranı əhatə edir və burada cansız aləmdən söhbət gedir, ikinci hissə isə iki son misranı əhatə edir və burada canlı aləmdən söhbət gedir (260, 617).

Tədqiqatçı sonralar bu fikrini daha da inkişaf etdirərək yazır: «Müstəqil və bütöv bir əsər olan hər hansı bayatı iki paralel hissədən təşkil edilir. Həmin paralel tərkiblərin biri cansızlardır, ikincisi isə canlılardan bəhs edir, cansızlara aid hissə ilə sonra gələn canlılara aid hissə bayatıda ardıcıl gəlir, yanaşı yaşayır, paralel şəkildə mövcud olur. Hər hansı bir bayatıda bu ümumi cəhəti görmək mümkündür» – deyir və doğru olaraq: «İkinci misralar əsas fikri məna və ritmik cəhətdən qiymətləndirməyə xidmət edir» qənaətinə gəlir (6, 51, 52).

Həcmcə kiçik, mənaca böyük olan, xalqın yaradıcı dühasından xəbər verən, əsl sənət nümunələri olan xoyrat və manilər qonşu xalqlar arasında da geniş yayılmışdır.

Bu baxımdan da xoyratlar və bayatılar fərqlənmirlər. Doğrudan da, «hər birində bir mənzumədəki qədər fikir və duyğu ifadə edilən» Azərbaycan bayatılarının da sehri qonşu xalqları ram etmişdir (70, 6; 67, 65–84). Bayatıları istər yaşlı, istərsə də cavanlar olsun, hamı sevir. Adamlar qəm, qüssə, kədər, hüzn, sevgi-məhəbbət, istək, dilək, arzu, həsrət, narazılıq və s. hislərini bayatılar vasitəsilə bildirirlər. Matəm mərasimində onlardan istifadə edirlər. Nəhayət, fikir və duyğularını bayatılarla izhar edirlər. Təsadüfi deyildir ki, Azərbaycan dili Qafqazda ümumi folklor dili olub (70, 6).

Azərbaycan folklorundan qidalanan, onu «zəngin xəzinə» adlandıran qonşu xalqların ədəbiyyat klassiklərinin xoyrat və manilərə müraciət etməsi də deyilənləri təsdiqləyir. Məsələn:

Keşdi ömrüm;
Gör necə keşdi ömrüm.
Harayladım dönmədi,
Elə bil heşdi ömrüm. (69, 175)

Oda düşən mənmişəm,
Yanıb oda dönmüşəm.
Od olub işıq verdim
İşıq verib sönmüşəm.

İraq–türkman folklorunda, sözün həqiqi mənasında, xalq poeziyasının zirvəsi, onun şah əsəri hesab olunan xoyrat və manilər xalqın bədii-estetik tərbiyəsində müstəsna rol oynayır, mənəvi qidaya çevrilir. Təkcə onu demək lazımdır ki, əsl ilham məhsulu olan bu incilərə münasibət əsrlər öncə olduğu kimi qalır. Şeir yazmağa başlayan gəncin ilk qələm təcrübəsi xoyrat və mani olduğu kimi, yaşlı şairlər də fəlsəfi fikirlərini izhar etmək üçün bu janra müraciət edirlər. Zəngin şifahi xalq ədəbiyyatına bu mövqedən yanaşma onların əsl sənətkar olmalarına dəlalət edir. Bunu biz Şeyx Əbdülqadir Tələbanidə də, Abdulla Safidə də, Hicri Dədədə, Məhəmməd Sadiq, Mustafa Gögqaya, Osman Məzlum və başqa şairlərdə də görürük.

Osman Məzlumun yazdığı 359 xoyratın ayrıca kitab şəklində buraxılması dediklərimizi təsdiqləyir (171).

Bu baxımdan tədqiqatçı Əta Tərzibaşının sözləri də yerinə düşür: «Bu tərzdə şeirlər yazan əski xalq şairləri bulunduğu kimi, bu gün daha xoyrat və mani dördlükləri biçimində şeir yazan çoxdur. Hətta yeni nəsil – gənc türkman şairlərinin şeirə mani yazmaqla başladıqlarını söyləmək yerində olur» (212, 14).

Bizcə, xoyrat və manilər şairlər üçün gözəl sənət məktəbinə çevrilir. Xalq yazıçısı Mehdi Hüseynin yarım əsr əvvəl bu münasibətlə dediyi sözlər bu gün də öz aktuallığını itirməmişdir: «Yalnız məzmun dərinliyi və fikir zənginliyi cəhətdən

deyil, söz sənətkarlığı, obrazlar, müqayisələr və bədii ustalığın bütün başqa ifadə vasitələri cəhətindən də bayatılarda öyrəniləcək xüsusiyyətlər az deyildir. Təqlid və təkrar üçün yox, yeni şeirin bədii qüdrətini artırmaq üçün, zəngin fikirləri belə aydın və parlaq ifadə etmək üçün» (51, 14).

Demək lazımdır ki, gənc şairi əsl və geniş poeziya aləminə aparan yeganə yol «xoyrat və mani» yoludur. Bu yoldan yan keçib poeziya aləminə gələn, demək olar ki, yoxdur. İndinin özündə belə İraq–türkmanlarının həftəlik «Yurd» qəzetində hər nömrənin iki səhifəsi şairlərin xoyrat və manilərinə ayrılır. Adlı-sanlı şairlər belə fəlsəfi və siyasi məzmunlu şeirlər yazır, bununla fəxr edirlər. Maraqlıdır ki,

Gülə naz;
Bülbül eylər gülə naz.
Girdim dost bağçasına
Ağlayan çox, gülən az –

bayatısını Azərbaycan şairi dahi Füzuliyə aid edirlər (212, 112).

Əta Tərzibaşı Nəsimi, Füzuli, Xətai, Yunis Əmrə, Abdul Qadir Marağayi və başqa klassik şairlərin də bayatı yazdıqlarını və onların bu baxımdan da özlərindən sonra gələn bir çox şair və el sənətkarlarına qüvvətli təsirindən söz açır (212, 78–81).

Hələ Nəsimidən də əvvəl yazıb-yaratmış Cəlaləddin Ruminin:

Keçginən oğlan, hey bizə gəlgil,
Dağdan en, dağdan hey, düzə gəlgil.
Ay bəgi sənsən, Gün bəgi sənsən
Biməzə gəlmə, bamәzə gəlgil –

şeir parçasının Kərkük dolaylarında məşhur olan:

Səhər olsun bizə gə,
Qırmızı gey, gözə gə.
Bir əlin dolu badə,
Bir əlində məzə gə –

dördlüyü ilə yaxınlığından da danışmaq olar. Kim bilir, bəlkə də, şairin yuxarıda göstərdiyimiz unudulmaz şeir parçasının yaranmasına bu gözəl bayatı təsir etmişdir. Unutmaq olmaz ki, dünyanın bütün qüdrətli sənətkarlarının əbədi yaşamaq hüququ qazanmış elə bir əsəri tapılmaz ki, qidasını xalq yaradıcılığının qaynar çeşməsindən almasın (1, 1).

M.C.Cəfərov təsadüfi yazmamışdır ki, istər klassik, istərsə də müasir şeirimizin ən yaxşı nümunələrinin sənətkarlıq baxımından hansı xəzinədən gəldiyini araşdırdıqda yenə gedib müdrik xalq yaradıcılığı xəzinəsinə çıxırıq (251, 145).

Kərkük dolaylarında müasir şairlərin yaradıcılığında da xoyratların təsiri açıq-aydın görünməkdədir. Hətta cəsarətli axtarışlar yolu ilə gedən şairlər belə, xoyratlara laqeyd və biganə qalmamışlar; ondan Azərbaycanda olduğu kimi, faydalanmışlar. Lakin yaşlı şairlər ictimai-siyasi məzmunlu xoyratlara üstünlük verdikləri halda, gənclər eşq-məhəbbəti tərənnüm edən xoyratlara daha çox meyil edirlər. Demək lazımdır ki, ictimai-siyasi məzmunlu xoyratlar poetik baxımdan ədəbi nümunələr səviyyəsinə yüksələ bilmiş, onların çoxu siyasi lirika adını qazanmışdır. Siyasi lirikanın səfərbəredici imkanlarından məharətlə istifadə edən Ə.Bəndəroğlu bu janrın ilk yaradıcısı hesab olunur (95, 136).

Kərkük dolaylarında şairlərin ellikcə xoyrat və mani yazdığını nəzərə alaraq onları müəllifi məlum və naməlum olması baxımından iki yerə bölmək olar. Əta Tərzibaşı onların «Anonim cinaslı xoyratlar», yəni müəllifi naməlum cinaslı xoyratlar, «Çağdaş cinaslı xoyratlar», yəni müəllifi məlum müasir cinaslı xoyratlar və eləcə də «Anonim cinassız manilər» və «Çağdaş cinassız manilər» adı altında qruplaşdırmışdır. Xoyrat və manilər arasında ən geniş yayılanları eşq-məhəbbətlə bağlı olanlardır. Divan ədəbiyyatında olduğu kimi, xoyrat və manilərdə də gözəlin boyu, gərdəni, köksü, qaşı, gözü, kirpiyi, üzü, beli, biləyi, yanağı, zülfü, dodağı və s. təşbih və bənzətmələrlə vəsf olunur. Xoyrat və manilərdə gözəl aşağıdakı sözlərlə vəsf olunur: ağa, paşa, bəy, bəylər-

bəyi, pəri, sənəm, ceyran, gül, açılmış nar gülü, könül quşu, qönçə ay, maral, qumru, göyərçin, cəllad, dini tərsə, gözəllər xəzinədarı, gözəllər sultanı, baba dövləti, ocaqda bir dənə.

Aşiq isə özünü «miskin, məcnun, abdal, dərviş, qul, yetim, xəstə, yoxsul, düşkün, əsas (gecə qarovulçusu), boynu buruq qaz, bağbançı, bağgir, xidmətkar, bütpərəst» və s. sözlərlə təqdim edir. Gözlərini «bahar buludu»na bənzədir, könlünü «fənar», şüşə, kabab, illər xəstəsi, yetimlər əyləncəsi, miskinlər yurdu və s. adlandırır.

Gözəlin əzaları xoyrat və manilərdə belə təsvir edilir:

Boy – çinar, səlh ağacı (sərv), dal (budaq), əlif (qamətli) və s.
Üz (hüsn və camal da beləcə) – Ay, Gün, gül, güzgü və s.
Göz – şahin, ceyran, xumar, qaneedən, cadugər və s.
Qaş – qələm, xəncər, cəllad, yay, kaman, mil və s.
Kirpik – ox, neştər, qiyamət qoparan və s.
Yanaq – alma, gül şərabı, lalə, lalə dağı, qaymaq və s.
Sinə – cənnət bağı, bostan, qar, nişan (hədəf), taxt və s.
Zülf – kəmənd, şahmar, üz hasarı, əcəm ipəyi, sünbül və s.
Məmə – turunc, narınc, şamama, şəftəli, cənnət narı və s.
Ağız – bal, gül, gül şərabı.
Dil – xurma, nabat şəkəri, badam içi və s.

Gözəlin qəmzə və baxışı: maxmur, can alan, eşq qırğısı, yerişi də bəstə-asta qaz, yaltana-yaltana, yayxana-yayxana (sallana-sallana) gedən kimi sözlərlə vəsf edilir (212, 83–84).

Çəkinmədən demək olar ki, xoyrat və manilər canlı poetik salnamə olmaq baxımından İraq–türkman folklorunu yaradıb-yaşadanların dünəni, bu günü, sabahıdır. Xalqın əbədi arzusunu ifadə edən lirik növün bu heyrətamiz inciləri bələkdən ömrünün sonuna qədər İraq türkmanlarının həmdəmi olur. Şübhəsiz buna görədir ki, vaxtilə Azərbaycanda olduğu kimi (230, 188), Kərkük dolaylarında da hər münasibətdə, xüsusən də əyləncələrdə, toylarda, çöllərdə, xırmanlarda, yollarda, bazarda mal satarkən, dini bayramlarda, çayxanalarda, sini-zərf

oyununda, yaslarda, uşağa layla çalarkən, sənət işlərini yerinə yetirərkən xoyrat və mani oxunur. Burada görkəmli xoyrat ustaları yetişirlər. Xoyrat çağıranlar tez-tez xoyrat mərəkələrində qarşılaşırlar. Belə qarşılaşma «qənşərbəqənşər çağırma» və ya «qənşərin vermək» adlanır (212, 197). Bu cür məclislərə çox vaxt çalğılı və içkili xoyrat məclisləri deyirlər. Məclislər saatlarla, bəzən də axşamdan səhərə kimi davam edir. «Qənşərbəqənşər çağırma» məclislərində çox vaxt bir neçə xoyrat çağıran müğənni iştirak edir. Müğənnilərin belə məclislərdə iştirak etməsi üçün bir neçə şərt vardır. Birinci şərt odur ki, müğənni deyişmə üçün şərt olan müxalif, kürdü, bəşiri, muçala, yetimi, yolçu, nobatçı, dəllihəsəni və s. xoyrat üsullarını bilsin. İkinci şərt odur ki, külli miqdarda xoyrat bilsin ki, rəqibin çağırdığı xoyrata müqabil xoyrat oxuya bilsin və tez məğlub olmasın. Elə xoyratlar seçə bilsin ki, təhqiranə olmasın. Hətta namərd, alçaq, düşkün və s. sözlər işlənən xoyratları oxumamağa çalışmalıdır ki, rəqib ondan da təhqiramiz xoyrat seçməsin. Doğrudur, hərdən dava düşür, təhqiredici xoyratlar çağırılır və hətta qarşısındakını tam susdurmaq üçün bədahətən xoyratlar da deyirlər. Bununla belə, məclisin başlaması, gedişi və nəhayəti, adətən, eyni olur. Məclisə toplaşanlar ondan mənəvi zövq alırlar. Məclis təqribən belə başlayır. Müğənnilərdən kimsə bu xoyratla özünə rəqib axtarır:

Kabab yandı, köz istər,
Sürmə yandı, göz istər.
Göz gözə, gözüm gözə,
Usta durub söz istər.

Müğənnilərdən biri onun cavabını verir:

Kabab yandı, közün seç,
Sürmə yandı, gözün seç.
Göz gözə, gözüm gözə,
Ustan gəldi, özün seç.

Ara get-gedə qızışır. Xoyrat çağıranlar arasında pərtləşmə – bir-birini bərkə-boşa salma dövrü yaxınlaşır. Bu vaxt məclisdə iştirak edən başqa xoyrat çağıranlar hamısı birdən nəşəli bir bəstə – mahnı oxumağa başlayırlar. Xeyli beləcə davam edir, ayrı-ayrı müğənnilər qəlbə yatan bəstələr oxuyurlar. Sonra müğənnilərdən biri əlini qulağının dibinə qoyub uca səslə:

Ağır-ağır:
Addım at ağır-ağır.
Bəstəydən gecə bitməz,
İgid ol xoyrat çağır –

oxuyur və yenidən məclisin ahəngi dəyişir. Xoyratlaşma zamanı əməl olunması zəruri olan bir şərt də vardır. Məna bir yana, gərək cinaslar da bir-birinə uyğun gəlsin, məsələn:

Günahımı:
Bağışla günahımı.
Deyirlər gün tutulub,
Eşidib gün ahımı.

Günahımnan:
Xudam, keç günahımnan.
Cigərdən bir ah çəksəm
Tutular gün ahımnan.

Təəssüf ki, xoyrat və manilərin xalq arasında daha geniş yayılmasına kömək edən bu adət yavaş-yavaş unudulmağa və əvəzində səhnə və ya radiodan xoyrat söyləmək adətinə keçilməkdədir.

Kəsik bayatılarla – xoyratlarla belə deyişmə məclislərinin vaxtilə Azərbaycanda da geniş yayıldığından söz açmaq olar. «Kəmmisralı (kəmhecalı – Q.P.) bayatı ənənəsi, bizcə təkcə bayatılarla deyişmə məclislərində uzun müddət yaşamışdır ki, bundan da məqsəd öz qafiyəsini – mövzusunu rəqibinə xəbər

verməkdən, deyəcəyi bağlama bayatıları hansı qafiyə, hansı cinas üzərində quracağı barədə xəbərdarlıq etməkdən ibarət olmuşdur» (215, 201).

Xalq kütləsinin bədii zövqünü oxşayan, təşbih və məcazlarla zəngin olan, nəsildən nəslə keçən, yaşayan, onu yaradan xalqı əbədi yaşadan, xalq istedadının bu yığcam və müdrik nümunələri elə sənət abidəsi, elə təfəkkür məhsuludur ki, zaman keçdikcə dəyər-qiyməti daha da artacaq, «həssas qulaq onlarda qəlbimizə munis olan çox şey duyacaq, həssas ürək bu nadir inciləri yaradan xalqın dühasına dərin minnətdarlıq hissilə çırpınacaqdır» (129, 24).

Məlumdur ki, xalq poeziyasının məzmunu xalq həyatının məzmunu ilə müəyyən olunur. Harada ki, xalq poeziyasının məzmunu yoxsuldur, deməli, orada xalq həyatının özü də yoxsuldur. Və əksinə, xalq poeziyası ürəyi yaşamaq eşqilə döyünən, nəcib hislərlə yaşayan, səmimiyyəti, alicənablığı, ləyaqəti ilə seçilən xalqlarda daha güclü olur (332, 52). Ümumiyyətlə, hər bir xalqın şifahi ədəbiyyatının zənginliyi, onun ifadə etdiyi fəlsəfi dərinlik, müdriklik, həmin xalqın mənəvi dühasını, yüksək düşüncə qabiliyyətini, təfəkkür və təxəyyülünün inkişaf səviyyəsini göstərən ən ümdə amillərdəndir (3, 44).

İraq–türkman folklorunun çələngi hesab olunan mani və xoyratlar öz zənginliyi ilə seçilir. Bu, təsadüfi deyildir. Lirik növün ən geniş yayılan bu janrı üzərində xalq yaradıcılığı can qoymuş, «bu əsərlərin üzərində əsrlər boyunca müştərək olaraq bir el çalışmışdır» (116, 7).

Xoyrat və manilərin sənətkarlıq və üslub xüsusiyyətlərini, dilinin səlisliyini, dərin mənasını dərk etdikcə onların əsl ilhamın, yüksək bədii təfəkkürün məhsulu olduğunu duymaq asanlaşır... Buradakı zəriflik, incəlik onu yaradanların nə qədər incə və zərif zövqə, bəşəri hislərə, duyğulara malik olduğunu əyani şəkildə göstərir.

Əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə yadigar qalan, əmanət olan, musiqi ilə xalq poeziyasının vəhdətindən yaranan, lirik növün aparıcı janrlarından olan xalq havaları İraq–türk-

man folklorunda xalqın mənəvi mədəniyyəti, həyat tərzi, məişəti, keçmişi, bu günü və eləcə də xalq dilinin qorunub saxlanması, zənginləşməsi, gözəlləşməsi yolunda əvəzsiz xəzinədir.

Təəssüf ki, İraq–türkman xalq havaları forma, şəkil, mövzu, məzmun və ideya cəhətdən, konkret xüsusiyyətləri baxımından tədqiq olunmamış, xalq musiqi ənənələrinin rolu və mövqeyi aydınlaşdırılmamışdır. Xalq musiqi folklorunun - xalq havalarının ədəbi, etnoqrafik tarixi, psixoloji təhlili, elmi analizi bir yana, toplanıb yazılması da arzu olunan səviyyədə deyildir.

Hələ XX əsrin əvvəlində Ü.Hacıbəyovun dediyi «El mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir. Fəqət biz hələ bu sərvət və mənbədən layiqincə istifadə edə bilməmişik» (230, 201) sözlərini bu gün bütövlükdə İraq–türkman xalq mahnıları və musiqi folkloruna da aid etmək olar. Yeri gəlmişkən, qeyd edək ki, aşıq havaları istisna olmaqla, Azərbaycanda xalq mahnıları nədənsə musiqi folklorunun sahəsi hesab edilmiş, folklorşünaslarımız tərəfindən gərəyincə tədqiq olunmamışdır. Nəticədə folklorşünas P.Əfəndiyev ürək ağrısı ilə yazmışdır: «Ancaq təəssüf ki, indiyə qədər xalq mahnılarına nəinki dissertasiya, monoqrafiya, hətta sanballı bir məqalə belə həsr edilməmiş, geniş tədqiq olunmamışdır» (111, 156).

Halbuki, həm musiqidə, həm də poeziyada ritmin olması onların güclü vəhdətinə gətirib çıxarmışdır ki, bu da bir daha təsdiq edir ki, mahnı özlüyündə poeziya və musiqinin birləşməsinin məhsuludur (299, 105; 146, 23). «Kim bilir, bəlkə də, mahnı mətnini yaradan qüdrətli bir bəstəkar, yaxud musiqi bəstələyən, eyni zamanda istedadlı bir şair imiş» (252, 196).

Belə olan halda xalq mahnı mətnlərinin tədqiqini folklorşünaslığın ümumi sahəsindən çıxarıb dar çərçivəyə salmağı məqbul saymaq olmaz.

Kərkük dolaylarında xalq mahnılarının toplanması və onların poetik mətnlərinin çapı və tədqiqi yolunda az-çox işlər görülmüşdür (208; 91; 350). Folklorşünas Əta Tərzibaşı

«Kərkük havaları» adlı qiymətli kitabının giriş məqaləsində Kərkük havalarını qırıq və ya qısa havalar və uzun havalar adı altında qruplaşdırmışdır.

Tədqiqatçı qısa havalar sırasına bəstə (xalq türküsü), tənzilə (dini türkü və şərqi), şərqi (marş və bənzəri); halay və oyun havalarını daxil etmişdir. Uzun havalar sırasına isə muğamlar; xoyrat havaları; divan-urfa; qəzəl; aşıq havaları; Kərəm havası; sazlamaq; laylalar daxil edilmişdir (208).

Göründüyü kimi, yuxarıda göstərilənlərin hamısını xalq havası kimi qəbul etmək doğru olmazdı. Bundan əlavə, Əta Tərzibaşının toxunmadığı, ümumiyyətlə, Kərkük folklorunda tədqiq olunmamış xalq mərasim nəğmələri də Kərkük dolaylarında çoxdur. Lakin bunları «Mərasim folkloru» fəslində tədqiq etdiyimizdən «Xalq mahnıları və onların poetik mətnləri» bölməsində yalnız xoyrat üsulları və xalq türkülərini nəzərdən keçirəcəyik.

XOYRAT ÜSULLARI. Xoyratlarla oxunduğuna görə xoyrat havaları və ya xoyrat üsulu adı ilə tanınan, yüngül, sadə və yığcam olan, musiqi ahənginə uyğun gələn, hamı tərəfindən sevilən, xalq arasında geniş yayılan lirik janrdır.

Kərkük dolaylarında iyirmidən artıq xoyrat üsulu vardır: Bəşiri, Nobatçı, Müxalif, Muçala, Yetimi, Ömərqələ, Malalla, Şərifə, Yolçu, Əhməd dayı, Kəsük, Ağam-ağam, Qarabağı və ya Qarabağlı, Əydələ, İskəndəri, Bayat, Kürdü, Qızıl, Misgini, Dəllihəsəni, Mazan, Matar, Kəsük Matar, Atıcı və s.

Xalqın musiqi mədəniyyəti ilə sıx bağlı olan xoyrat havalarında bir və ya bir neçə xoyratdan və miyan adlanan əlavə söz, ifadə və misralardan istifadə edilir. Miyanlar xoyratın əvvəlində, ortasında və eləcə də axırında gələ bilər. Miyanlar xoyrat havasının nəğməsinə uyğun olaraq müəyyən tərzdə oxunurlar. Bundan əlavə hər xoyrat üsulunun özünə məxsus başda, ortada və axırda gələn üç çeşid miyanı vardır. Çox zaman onlar vəznli olurlar.

Xoyrat havalarının ən mahir ustalarından biri Əbdül Vahid Kuzəçi oğlunun vala yazdırdığı xoyrat havaları ara-

sında xüsusilə seçilən üsullardan verdiyimiz poetik mətn nümunələri yuxarıda deyilənləri daha da aydınlaşdırır. Dırnağa düşməyən misralar xoyrat havasının mətni, dırnaqda verilən söz, ifadə və misralar isə miyandır.

«Bəşiri» xoyrat üsulu:

«Baba, bu gün»
Oyan yeri:
Səhərdən oyan yeri.
«Dönüm, dininə dönüm»
«Hə bəs mən özüm»
«Ey, ey, ey, öz anam oğlu»
Yüz il sel gəlsə oymaz
«Vallah»
Bir gün qəm oyan yeri,
«Ey yar... ey yar əlindən»
«Aman, aman, aman, yar əlindən»
«Heç bilməm hara gedim».

«Ağam, ağam» xoyrat üsulu:

«Ağam, ağam, ağam, ağam»
Oyağam;
Yatmamışam oyağam.
Aləm şirin yuxuda
Mən eşqindən sayığam.
«Di gəl, ağam, di gəl paşam, di gəl».
«Mən özüm ziyləmirəm,
Dərd dərdə dəyər ziylər»
«Ağam ziylər, paşam ziylər,
Di gəl gözəlim».
Çağırdım çağlar oldu,
Didəm qan ağlar oldu.
Hansı yarın eşqinnən
Məskənim dağlar oldu.

«Di gəl, ağam, gəl,
Mən qəribəm, yol tanımam».
«Özün bəzən, özün düzən, özün gəl»
«Mənə zülm edən öz ağam oldu»
Öz ağam:
Qəlbin saf et, gəz, ağam,
Məhəbbət ölüncədi,
Demə gözdən uzağam.

Maraqlıdır ki, miyanlar bəzən hər misranın əvvəlində, bəzən isə eyni bayatıda, gah misranın ortasında və ya axırında da gələ bilər.

Aşağıdakı parçalar dediyimizə əyani misaldır.

«Əydənə» üsulu:

«Gözüm»
«Gənə» bağçayam, baram sənə,
«Mina boylum», heyvayam, naram sənə.
«Evi yanmış», könlün fikir etməsin
«Öz ağam oğlu», ölüncə yaram sənə.
«Hə neynim, gənə evi xarab» və s.

Göründüyü kimi, miyanlar xoyratın hər bir misrasından əvvəl işlənmişdir.

«Matar» üsulu:

Bağlamadı, «bağlamadı, qurban»,
Yaramı bağlamadı.
«Dədə mənə», yar məni yaraladı, «hey havar»,
Bir dönüb bağlamadı.
«Oy... oy... oy... oy neynim.
«Billah mənə», hər kəsçin yaş tökən yar
Mənimçin ağlamadı.
«Yara yar», «ay yar» «ay, yar ay»
«Yar əlindən hara gedim».

Bu parçada isə miyan misranın həm əvvəlində, həm ortasında, həm də axırında özünü göstərir.

Başda keçən miyanlar ən çox «Kürdü», «Dəllihəsəni» və «Malalla» üsullarında «A...x», «Kəsük» üsulunda «Da...d», «Müxalif», «Yetimi», «Bəşiri» və «Mataru» üsullarında, «Baba, bu gün», «Dədə, bu gün»; «Şərifə» üsulunda «Dədəm, dədəm, dədəm», «Yolçu» üsulunda «Ağam, ağam, ağam»; «Muçala»da «Zalım Zalım»; «Nobatçı»da «Ulan, ulan, ulan»; «Ömərqələ»də «A belə gənə» və «La billa neynim» işlənir.

Bəzi üsullarda isə xoyrat miyansız, yəni elə belə xoyratın sözləri ilə başlayır.

Ortada isə «Kürdü» üsulunda «Qadan mən alım», «Fədan mən olum»; «İskəndəri» üsulunda «Ay, ay dədəm oğlu», «Mina boylum», «Evi yanmış»; «Bəşiri»də «Musulmanlar», «Gözlərim», «Mənim ağam», «Özünnən bixəbər», «Yeri dininə dönüm», «Dönüm, dininə dönüm», «Bəs mən özüm»; «Muçala»da «Mina boylum, sənəm gözlüm»; «Müxalif»də «Gözlərim ağam, gözlərim paşam», «Mina boylum»; «Dollihəsəni»də «Da...d, ey, da...d, ey, kafir ey», «Yeri dədə, yeri, yıxılsın öz baban evi»; «Kəsük»də «Yuvan dağılsın» kimi söz, ifadə və cümlələr işlənir.

Bəzi görkəmli xoyrat çağıranlar yuxarıda göstərilən sözləri miyan saymamışlar. Onlara görə əsl miyan xoyratın sonunda gələn nəğməli sözlərdir ki, xoyrat üsulu onunla bitir (212, 162).

Onu da demək lazımdır ki, bəzi xoyrat üsulları elə xoyratın özü ilə bitir.

Bu baxımdan musiqişünas alim Ə.İsazadənin fikri maraq doğurur: «Xanəndələr mahnıların bir qismində bayatılarda olduğu kimi, digər qismində isə onların mətninə kiçik bir əlavə ilə istifadə etmişlər. Mətni bayatı olan xalq mahnılarının əvvəlinə və ya sonuna artırılan, «bala neynim», «ay aman», «gülüm ey», «ay balam», «ay gözəl» və s. sözlər, nəqarətlər, şübhəsiz ki, mətnə ifaçıların motivə uyğun etdikləri əlavələrdir» (125, 6).

Burada maraqlı bir məsələ də üzə çıxır. Məlumdur ki, xoyratların birinci misrası üç-beş hecadan ibarət olur. Əta Tərzibaşı buna öz münasibətini belə bildirmişdir:

«...boşluqlar isə xoryatın nəğməylə söyləniş əsnasında «baba, bu gün», «ağam-ağam», «dədəm-dədəm», «gözüm» və başqa bir taqım basmaqəlib sözlərlə doldurulmaqdadır» (212, 115).

Göründüyü kimi, bu məsələdə Əta Tərzibaşı ilə mübahisə etmək olar. Əvvəla, əgər müəyyən sözlər xoyratlarda yalnız boşluğun doldurulması xatirinə işlədilirsə, bəs kəm misrası olmayan bayatı və manilərdə bu sözlər niyə işlənir?

Digər bir tərəfdən də aşıq sənətindən az-çox məlumatı olanlar yaxşı bilirlər ki, aşıqlar qoşma, təcnis və s. havalar oxuyarkən xoyratlar da oxuyurlar. Burada birinci misra kəm hecalı olduğu halda, boşluğu doldurmaq üçün heç bir əlavə sözdən istifadə edilmir. Deməli, bu məsələdə Azərbaycan alimlərinin fikri ilə razılaşmaq olar.

Musiqişünas alim, professor M.İsmayılovun fikrincə, bu sözlərin mahnıların daxili inkişafında böyük əhəmiyyəti olmaqla yanaşı, onların mahnının orta hissəsində və yaxud sonunda tamamlayıcı xarakter daşıyan melodik ifadələr də həmin sözlər vasitəsilə əmələ gəlir (127, 31).

İraq–türkman folklorunda miyan adlanan belə sözlərə Azərbaycanda lirik xalq mahnılarında təsadüf edildiyi halda, Kərkük dolaylarında xoyrat havalarında işlənir, lirik xalq havalarında isə əsasən bütöv misralar təşkil edən döndərmələr (nəqarətlər) yer alır (133, 251–296).

Xoyrat havalarının sonunda gələn miyanlar lap çoxdur. Onlardan aşağıdakıları göstərmək olar:

Bəşiri:

«Ey yar, ey yar, ey yar, ey yar
Gözün şirindi neynim».

Muçala və Yetimi:

«Ax mən, yox sən,
Ölürəm bu gündə mən».
Yetimi:

«Yengi canbaz olubsan,
Dədənin evi xarab».
Yıxma dədəm evini,
Dədənin evi xarab.
Dədəm nedim, ömrüm nedim
Uçubdu könlüm quşu.
Neynən könlüm şad edim
Cümlə canım xarabdı
Dərmana kimə gedim.

Matarı:

Gəhdə bir, həftədə bir
Gözündən öpsəm nə var.
İldə qurban bir olar
Hər gün qurbanın olsam, nə var.

Atıcı:

Güvənmə budağa bülbül
Yel gələr yuvan yıxar.
Görsən nə bərbad eylər
Eylər gözün, eylər.

Nobatçı:

Hə dedin bağımnan gül dərmək olmaz,
Çamur başına bülbül,
Mən bağından gül dərdim.

Malalla və Yolçu:

Di gəl, ağam, di gəl, paşam
Di gəl, öz bəyim, ağam oğlu.

Qızıl:

Mən özüm, özüm, özüm
Dağı əridər sözüm.
Od sənnən, odun mənnən
Yandırım özüm, özüm.

Dəllihəsən:

Bağbanım olsun bülbül

Malalla:

Gəl getmə yad bağına

Müxalif:

Hə dolan, bizim bağa gəl

Şərifə:

Aman əlindən, cavan əlindən

Müxalif:

Aman... aman... aman.
Ağam, Ağam:
Aman, aman əlindən

Müxalif və başqaları:

Heç bilməm hara gedim.
Mən özüm ziyləmirəm
Dərd dərdə dəyər ziylər.
Qoy ölsün əcələ borclu canım
Qurtulsun vah demədən.
Di gəl o bəlalı başına dönüm
Di gəl, ağam, ey yar, yar, yar...
Di gəl, heyran olum,
O boya dönüm.
Hə dedin səninəm, sənin

Qoynunda bu yad nədi?
Hə dedin bəy mənəm, adil mənəm
Köyündə bu dad nədi?
Hə dedin «malım, mülküm, əmlakım»
Heç demədin ölüm var.
Mən sənə bəyim deyərəm
Bəyim daim bəy olar.
Aman, aman, aman, aman
Qoy dolaşım bir zaman.
Ağa neynim, paşa neynim
A belə neynim.

Kürdü:

Bax bu mürvətsiz yara,
Al geyib nə sallanır.
Nə bəzənir, nə düzənir,
Mənə deyir gəl getmə.
Bu gündə qal,
Bu dəmdə qal,
Di gəl ağam, di gəl paşam,
Mən qəribəm yol tanımam.
Özün bəzən, özün düzən, özün gəl,
Mənə zülm edən öz ağam oldu.

Göründüyü kimi, hər hansı bir miyanın istənilən üsulda oxunması çox vaxt xoyrat çağıranın arzusundan asılı isə, bəzi miyanlar müəyyən xoyrat üsullarına mənsub olub, yalnız o üsulla oxunur.

Demək lazımdır ki, əski xoyrat çağıranlar «Kürdü» xoyrat üsulunu xoyrat havası deyil, təcnis sayırlar (208, 34).

Kərkük dolaylarında xoyrat üsullarının hər birinin müəyyən bəstələri var ki, üsulun sonunda oxunur. Hər mani-nin kəsb etdiyi mənasına uyğun nəqarəti – döndərməsi olur. Bəstələrdə döndərmə (nəqarət) xoyrat tərzinin əksinə olaraq, xor tərəfindən yerinə yetirilir. Mani-dördlük isə solo halında

tək bir şəxs tərəfindən – bəstə deyən oxucu tərəfindən söylənir. Döndərmə, yuxarıda göstərdiyimiz kimi, bu qrup tərəfindən təkrarlanır. «Bu xal nə xaldı, gözəl, nə xaldı, yanaqda dögdürübsən. Canım nə xaldı, gözüm nə xaldı, aləmi yandırıbsan» bəstəsində olduğu kimi. Bu döndərmə hər dördlükdən sonra təkrarlanır. Məsələn:

Evlərində xalı var,
Dodağında balı var.
Mən öz yarım tanıram
Yanağında xalı var.

Sonra isə xorla yenidən döndərmə oxunur. Azərbaycanda da bir çox xalq mahnılarında bayatı mahnının əsasını təşkil edir. Hər bayatıdan sonra döndərmə təkrar olunur. Məs.:

Bu dağda maral gəzər
Telini darar gəzər –

və s. oxunur və bayatı bitən kimi döndərməyə keçilir:

Dağlarda çiçək, ay Güləbatın,
Hamıdan göyçək, ay Güləbatın
Doldur ver içək, ay Güləbatın –

gəlir və mahnının ritmi dəyişir, rəngarənglik yaranır, dinləyicinin qəlbini oxşayır.

Xalq havaları və onların döndərmələrinin hansı məqamda, necə işlənməsi və s. barədə «Xalq türküləri» bölməsində ətraflı danışılır. Burada isə onu demək yerində olardı ki, xoyrat üsullarını və eləcə də xalq türkülərini oxuyarkən müğənniləri: zurna, zurnaba, meytər (davul), dümbələk, qaşuq, çarpara, dəf, zilli dəf, zil, dumbulbas, ney, bəlul, saz, santur, ud, kaman və s. kimi xalq musiqi alətləri ilə müşayiət edirlər.

XALQ TÜRKÜLƏRİ

Kərkük xalq mahnıları da xoyrat havaları kimi şifahi xalq ədəbiyyatının həm musiqi, həm də ədəbi janr olmaq baxımından, bədii-estetik gücünə və tez qavranılmasına görə çox geniş yayılmış lirik növüdür. Xalq mahnıları son dərəcə rəngarəng və ürək oxşayandır. Bəziləri oynaq, şux, digərləri melodik və axıcıdırlar.

Təsadüfi deyildir ki, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev xalq mahnılarından söz salaraq yazırdı: «Sadə lirik mahnıların məlahəti, muğam strukturunun qəşəngliyi arxasında yalnız estetik yox, həm də məntiqi mahiyyətli həssas bir sistem və gözəllik vardır» (295, 11).

Xalqın ümid və arzularını, keçmişini, bu gününü, məhəbbətini, yaşamaq eşqi və adət-ənənələrini orijinal surətdə əks etdirən, kütlələrin ideya-estetik tərbiyəsində əvəzsiz rol oynayan (29, 3) xalq mahnıları Azərbaycanda olduğu kimi (227, 11), şəriət tərəfindən vaxtilə günah hesab edilsə də, xalq tərəfindən həmişə sevilmiş, Kərkük dolaylarında geniş yayılmışdır. Xalq arasında «bəstə», «mahnı», «xalq türküsü» kimi tanınan havaların həm sözü, həm də havası xalqa mənsubdur. Odur ki, xalq mahnılarının və bəstələrin əksəriyyətinin mətninin bayatılardan ibarət olması təəccüb doğurmur.

Demək olar ki, bayatıların mayası musiqidən yoğrulmuşdur. Xalq mahnıları ilə məşğul olan tədqiqatçılar bunun Azərbaycanda da belə olduğunu qeyd edirlər: «Xalq mahnı mətnlərinin əksəriyyəti bayatılardan ibarətdir. Bu da təbiidir. Musiqi ahənginə uyğun gəldiyindən və onun yığcamlığı musiqiyə daha münasib olduğundan xalq öz mahnılarındakı mətnin, demək olar ki, əksəriyyətini bayatılardan almış və ya yaratdığı hər bir yeni mətndə bayatı formasına əsaslanmışdır» (125, 6).

Bizcə «mani» dedikdə göz önünə həm bayatı, həm də mahnının gəlməsi də bununla əlaqədardır. XVIII əsrin ortalarında yaşayan, Kərkük dolaylarında böyük Füzulinin davamçılarından olan Şeyx oğlunun:

«Lam» – ləbində limim var,
Sən yox de, mən deyim var.
Mütrib qanun üzrə gəl
Həm mani, həm neyim var –

dördlüyündə də, indinin özündə də xalq arasında ağızlarda gəzən:

M*ahnı mahnını açar*
Mahnı bilməyən qaçar.
Mahnı bir belə şeydi
Qərib yerdə dərd açar.

Mani maniyə tuşdu
Mani bilməyən heşdi.
Mani bir belə şeydi
Qəriblikdə yoldaşdı –

manilərində (212, 57, 548) də hər şeydən əvvəl diqqəti cəlb edən bu cəhətdir.

Eyni motivə Azərbaycan bayatılarında da rast gəlirik:

Mahnı mahnının başı
Mahnı bilməyən naşı.
Mahnı bilmək yaxşıdı
(Və ya: Gəl bura mahnı deyək)
*Qərib yerin yoldaşı (*108, 12; 53, 166).

M.Qorkinin xalq mahnıları haqqında dediyi: «Nəğmə yaradıcılığı xalqa çox qədimlərdən bəri dayanmadan və özünəməxsus yoldaşlıq edir» (84, 703) kəlamı eyni ilə yuxarıdakı parçalarla səsləşir.

Həm Azərbaycanda, həm də İraq–türkman folklorunda şifahi poeziya janrının bayatı forması xalq mahnı yaradıcılığında müstəsna rol oynamış və bu funksiyanı indi də yerinə yetirməkdədir.

Mətni bayatı olan mahnılardan başqa, 8, 11, 13, 14 və s. hecalı, poetik fikir, intonasiya və bölgü baxımından müəyyən simmetriya daxilində olan, bir-birindən fərqlənən bir çox şeir şəkillərinə də təsadüf edilir ki, mahnılarda ürək oxşayan, məftunedici bir rəngarənglik yaradır. Bundan əlavə, M.İsmayılovun göstərdiyi kimi, xalq musiqisi əsas etibarilə birsəsli olduğuna, yəni bir nəfər tərəfindən ifa edildiyinə görə melodiyası çox ifadəli və təsirlidir (127, 26).

Lirik mahnıların ən çox özünü göstərəni məhəbbət mahnılarıdır. Onlar məzmunca yumorlu, şən və qəmli olurlar. Yumorlu mahnılar, Azərbaycan xalq mahnılarında olduğu kimi, gənc oğlan və qızın deyişməsindən ibarət olur. «Hacı Fərəcin qızı, boyun görməli», «Oğlan yaylığın hanı», «Ay havar dəgirmançı» və s. belə mahnılardandır.

Şən əhvali-ruhiyyəli və ehtiraslı melodiyası olan mahnılarda oğlanla qızın zərif sevgi hislərinin həyata keçməsi, vüsala çatmaq üzrə olması göstərilir, bir-birinə olan saf duyğuları tərənnüm edilir. Bəzi sevgi lövhələri təbiət mənzərələri fonunda verilir. Belə hallarda sevgi təbiət obrazları vasitəsilə tərənnüm edilir. Sevgililər bir-birini ceyrana, gülə, bülbülə, ahuya və s. bənzədirlər, sevgili qızın zahiri gözəlliyi – qaşı, gözü, dişləri, dodaqları, yanaqları, qədd-qaməti, baxışı, saçları, yerişi, danışığı və s. tərif olunur. Və əksinə, məhəbbəti daşa dəyən, ümidləri puça çıxan gəncin qəm, qüssə, kədərini göstərən mahnılar «ah», «vay» və s. nidalarla səciyyələnir (133, 251–294).

Onu da demək lazımdır ki, mahnı mətnlərində rast gəlinən «ah», «vay», «ay baba», «aman», «ölləm», «öz ağam», «ay nənəm», «mina boylum, evi yanmış» və s. kimi əlavə sözlərin işlədilməsi mahnıların daxili intizarında böyük əhəmiyyəti olmaqla bərabər, mahnının ortasında və yaxud sonunda tamamlayıcı səciyyə daşıyır.

Mahnıdan asılı olaraq misralardakı sözlərdən biri təkrar oluna bilər. Bu zaman həmin sözlərin əvvəlinə «ah yaman», «vah şirin», «vah gözəl» və s. sözlər artırmaqla yeni misra meydana çıxır. Bəzən yaranan misra ortada olur, məsələn:

Evlərində şəkərdən bir xalı var,
Şəkərlənmiş dodağında balı var.
Ay yaman balı var, vah şirin balı var,
Hər kəsin də münasib bir yarı var.[1]

Bəzən təkrar vasitəsilə yaranan misra axırda olur. Məsələn:

Evlərinin önü arpa,
Arpa biçir qırpa-qırpa,
İki bacı, biri körpə,
Nə şirin göyün gözəli,
Ah nə yaman göyün gözəli.

Bəzi mətni bayatı olan mahnılarda hər misranın birinci sözü təkrar olunmaqla qoşma formada mahnı yaranır. Məsələn:

Gecələr... gecələr zar ağlaram mən,
Heç bilməz... heç bilməz yar, ağlaram mən.
Şahsənəm, Şahsənəm bağ-bağçasında,
Çaldı bir, çaldı bir mar, ağlaram mən.

Elə mahnılar da vardır ki, döndərmələrində bir neçə söz işlədilir. Bu halda həmin sözlər müstəqil nəqarətə çevrilir. Məsələn:

Boyun boylardan kölə, ağam Süleyman
Bənzisən qönçə gülə, mən sənə qurban,
Yıxıbsan babam evin, ağam Süleyman
Üzümə gülə-gülə, doldur ver fincan.

---

[1] Burada və bundan sonra xalq mahnıları ilə bağlı verəcəyimiz misallara aşağıdakı kitablarda rast gəlinir: Əta Tərzibaşı. Kərkük havaları, Bağdad, 1961; Kərkük mahnıları, Bakı, Gənclik, 1973; Kərkük folkloru antologiyası, Bakı, Azərnəşr, 1987; Təkrar nəşr, 1990; Mahir Naqib. Kərkük türk xalq musiqisinin təsnif və təhlili. Ankara, 1991.

Döndərmə:

Ağam Süleyman, paşam Süleyman,
Evləri köprü başında, boyuva qurban.

Təsadüfi deyildir ki, R.İ.Qruber döndərmələrin – çoxdəfəli təkrarların şən mahnılarda şənliyin, xoş əhval-ruhiyyənin, oynaqlığın daha da artmasına kömək etdiyini qeyd edir (287, 12–13).

Göründüyü kimi, Kərkük dolaylarında mahnılar döndərmə – yəni nəqarətlə oxunur. Bu, mahnını daha da oynaq edir. Mahnını tək bir şəxs oxuduğu halda, döndərməni xorla oxuyurlar. Adətən, hər beytdən sonra oxunan döndərmə başqa məqamlarda da özünü göstərə bilər.

Mətni bayatı olan bəzi mahnıların hər misrasından sonra dörd misralıq döndərmənin bir misrası oxunur. Məsələn:

Səhərdən oyat məni – Sən söylə bağa gəlirəm,
Sinəvə dayat məni – Boyun görməğə gəlirəm.
Səhər yuxusu şirindi – Sən söylə bağa gəlirəm,
Öpüşdən oyat məni – Səhər yatmağa gəlirəm.

Bəzən də mahnı mətninin hər misrasından sonra döndərmənin 1-ci misrasının yarısı gəlir, beyt bitəndən sonra bütöv oxunur:

Ay çıxdı, batar indi – Ay dolanaydı,
Yar oxun atar indi – Gün dolanaydı.
Leyli xəstə düşübdü – Ay dolanaydı.
Məcnun can satar indi – Gün dolanaydı.
Ay dolanaydı, Gün dolanaydı,
Yarın tək-tək yerişi məndə olaydı.

Mətni bayatı olan mahnıların bəzisində hər misradan sonra iki misralıq döndərmənin bir misrası təkrar olunur, bayatı bitdikdən sonra döndərmənin yalnız ikinci misrası təkrar olunur. Məsələn:

Qara çadır xaraldan – Ölləm, ölləm, mən ölləm necə,
Boyun seçdim maraldan – Başuva dolannam mən bu gecə
Nə dərdim var, nə bəlam – Ölləm, ölləm, mən ölləm necə
Sənsən məni saraldan – Başuva dolannam mən bu gecə,
Başuva dolannam bu gecə, yar, bu gecə.

Mətni bayatı olan mahnılardan başqa yerdə qalan mahnıların hər bəndi əsasən üç misradan ibarət olur. Döndərmə isə mütləq iki və ya dörd misralı olur. Belə mahnıların hər misrasında hecaların sayı adətən 8, 11, 13 və ya 14 olur. İki misralı döndərməsi olan mahnılara daha çox rast gəlinir. Döndərmədə hecaların sayı fərqlənir. Hər misrası səkkiz hecadan ibarət olan mahnıya nümunə:

Evlərinin önü yonca,
Yonca qalxıb dam boyunca.
Boyu uzun, beli incə

Döndərmə:

Ninnə yavrum, ninnə –
Əsmər yavrum, ninnə.

Hər misrası on bir hecalı olan mahnıya nümunə:

Qalanın dibində üç ağac incir,
Əlimdə biləkcə, qolumda zincir.
Zinciri boş bağla hər yanım incir,
Atma bu daşları mən yaralıyam,
El-aləm al geyib mən qaralıyam.

Az da olsa hər misrası on üç hecadan ibarət mahnılara da təsadüf edilir. Belə mahnılarda döndərmə olmur. Məsələn:

Mənim əlvan güllərim var, görməyə gəlin
Gözəllərə mən sataram, almağa gəlin və s.

Bəzi mahnılarda isə mahnının mətni bir şəkildə, döndərmə isə başqa şəkildə olur. Məsələn:

Rəhm eylə mənə, yarı əlimdən əcəl aldı,
Cananım ilə vəslətimiz məhşərə qaldı,
Yarın firqəti yaxdı, məni dərdlərə saldı.

Döndərmə:

Yazıq-yazıq kölgədən düşdüm günə,
Yazıq-yazıq qocaldım gündən-günə.

Göründüyü kimi, mətnin hər misrası 14 hecalı, döndərmə isə 11 hecalıdır.

Azərbaycan xalq mahnılarında da istər əsas misralarda, istərsə də nəqarət misralarında müxtəlif şeir şəkillərindən və heca bölgüsündən istifadə edilir (103, 95).

Elə mahnılar da var ki, döndərmə hər beytin ikinci və dördüncü misrasının təkrarı ilə yaranır:

Əndim yarın bağçasına, güldən keçilməz,
Suları savuqdı, baba, bir diş içilməz.
Sudan keçdim gəldim, baba, yardan keçilməz
Acıdı eşqin şərabı, susuz içilməz,
Suları savuğdı, baba, bir diş içilməz.

Onu da demək lazımdır ki, mahnılarla döndərmələr məzmunca bir-birini tamamlayır. Bu ən çox da hər misrası səkkiz hecadan ibarət olan mahnı və döndərmələrə aiddir:

Fələk açdı dalda yara,
Kimsəm yoxdu yaram sara.
Xəbər verin nazlı yara,
Dərdim çoxdu, dərmanım yox.

Döndərmə:

Mən ölürsəm qürbət eldə,
Ağlayacaq bir kimsəm yox.
Aman-aman, halım yaman,
Heç gülərmi dərdli olan?

Kərkük dolaylarında xalq mahnıları ilə bağlı maraqlı bir cəhət də özünü göstərir. Bayatıya heç vaxt başqa şeir formasının döndərməsi kimi təsadüf edilmir. Ancaq bütün başqa şeir formaları bayatının döndərməsi kimi çıxış edə bilir. Bayatı isə yalnız mətni bayatı olan mahnının döndərməsi kimi özünü göstərir. Məsələn:

Evlərində süsəni,
Barışdırın küsəni.
Göz açdım, səni gördüm,
Mən istəməm kimsəni.

Döndərmə:

Pəncərədən daş gələr,
Xumar gözdən yaş gələr,
Səni mənə versələr,
Allaha da xoş gələr.

Göründüyü kimi, İraq–türkman xalq havalarında diqqəti cəlb edən cəhətlər çoxdur. Biz hələ onu demirik ki, İraq–türkman xalq mahnılarının musiqişünaslarımız tərəfindən tədqiqi bir çox oxşar və fərqli cəhətləri üzə çıxarmaqla, bəzi mahnılarımızın da mətnlərinin dəqiqləşməsinə kömək edərdi. Kərkük dolaylarında Azərbaycan mahnısı kimi tanınan bir çox mahnılar var ki, xalqın yaddaşında olduğu kimi qalıb.

Azərbaycanda isə görkəmli bəstəkar Tofiq Quliyevin göstərdiyi kimi, bəzi ifaçıların mətnə yersiz müdaxiləsi onların süjetində ya məntiqsizlik yaratmış, ya da musiqinin ifadə etdiyi bədii-estetik məzmuna xələl gətirmişdir (32, 5).

Azərbaycanda «Xumar oldum», İraq–türkman folklorunda isə «Yar bizə qonaq gələcək» kimi tanınan mahnı mətninə diqqət yetirsək, dediklərimiz aydınlaşar.

Getdim gördüm bağda yatıb,
Ceyran, mənə bax, bax!
Maral mənə bax, bax!
Ay qız, mənə bax, bax!
Qara tellər gülə batıb
Gözəl, mənə bax, bax! (32, 88)

Kərkük dolaylarında bu mahnının döndərməsi aşağıdakı kimi olur:

Döndərmə:

Yar bizə qonaq gələcəğ
Bilmirəm nə vaxt gələcəğ
Söz verib sabah gələcəğ.

Sonra isə mahnı mətni belə davam edir:

Getdim gördüm bağda yatır,
Ay qız, mənə bax, bax!
Siyah zülfü gülə batır,
Ceyran, mənə bax, bax!
Məni görüb qaş-göz atır,
Maral, mənə bax, bax!

Son misra:

Getdim gördüm bulaxdadı,
Əl-üzünü yumaxdadı və s.

Göründüyü kimi, mahnının mətnindən Azərbaycan variantında bir misra düşmüşdür. Üçlüyün o biri misralarında da beləcə.

Ü.Hacıbəyov və M.Maqomayevin 1927-ci ildə buraxdıqları və sonralar təkrar nəşr olunan «Azərbaycan el nəğmələri» kitabında da bu mahnının hər bəndi İraq–türkman musiqi folklorunda olduğu kimi üç misradan ibarətdir (231, 58).

Bu mahnını Azərbaycan bəstəkarı S.Rüstəmov da Kərkük dolaylarında olduğu kimi «Yar bizə qonaq gələcək» adı ilə vermişdir (231, 67).

Onu da deyək ki, Kərkük dolaylarında da, Azərbaycanda da eyni olan bir çox mahnılar vardır. Döndərməsi və ya bir-iki bəndi eyni olanlar da çoxdur. Bu mahnılardan: «O yana döndər məni», «Yar bizə qonaq gələcək», «Pəri», «Ay qara xal yar», «Ay qız heyranın ollam», «Niyə gəlməz oldu», «Dam üstədir damımız», «Qalanın dibində bir daş olaydım», «Nərgizi dəstə bağladım», «Kətan köynək dizdən yar», «Evlərinin önü yonca», «Bu gələn yar olaydı», «Yeri, yeri, yeri küsmüşəm sənnən», «Bu xal nə xaldı», «Gözəllərdən üç gözəl var sevməli», «Samavar almışam silənim yoxdur» və başqalarını göstərmək olar (231, 63; 208; 80; 119; 130; 32). Bu, təbiidir. Bu baxımdan Kərkük xoyrat və mahnıları üzərində tədqiqat aparan Əta Tərzibaşının fikri maraq doğurur: «Əskidən bəri azərilərlə dolu olan Təbriz, Marağa, Qarabağ və daha başqa şəhər və səmtlərdə musiqi həyatı yüksək bir səviyyəyə alınmışdır. O zaman İraq türkləri ilə bu ölkələrdə yaşayan türklər arasında dil, ədəbiyyat və musiqi baxımından bulunan yaqın bağlılıq qolaylıqla düşünülə bilər. Bu bağlılıq azərilərlə İraqda yaşayan türkmanlar arasında bir dərəcəyə dəgin qüvvətli bir qaynaşma hasilə gətirmişdi. Bununla bərabər, türkmanlar kəndi şivə və musiqilərini az-çox olduğu kimi qoruya bilmişlərdir. Bununla bərabər, bir qisim havaların dəyişikliklə bir-birindən alındığını, böyləcə saysız türkülərin meydana gəldigini düşünmək qabildir» (208, 8–9).

Bu baxımdan, yuxarıda qeyd edildiyi kimi, İraq–türkman tədqiqatçısı Mahir Naqibin gəldiyi nəticə də maraq doğurur: «Sinirlərin (sərhəd) bir-birindən uzaqlığı Kərkük türk xalq musiqisi ilə Azərbaycan türk musiqisi arasındakı kök bərabərliyini yox edəməmişdir» (350, 11).

Yeri gəlmişkən, deyək ki, İraq–türkman xalq mahnıları İran, Türkiyə və Azərbaycanda da sevilə-sevilə oxunur və mahnı yaradıcılığına öz müsbət təsirini göstərir.

Azərbaycanda İraq-türkman mahnılarına, eləcə də İraq-türkman folklorunun başqa janrlarına açıq doğmalıq müna-

sibəti özünü göstərir. Bu, təbiidir. Öz doğmasını sevməmək mümkün deyil. Azərbaycanda bəstəkarlar İraq–türkman xoyratlarına musiqi bəstələyir, müğənnilər onları və İraq–türkman mahnılarını böyük məhəbbətlə oxuyurlar: «Bayatılar», «Evlərinin önü yonca», «Xalidə», «O yana döndər məni», «Kətan köynək dizdən yar», «Altun üzük, yaşıl qaş», «Mənim ipək yaylığım var, almağa gəlin» və s. Azərbaycan radio və televiziyasında tez-tez səslənir.

Kərkük dolaylarında da Azərbaycan mahnıları oxunur. Şairlərimizin sözlərinə musiqi bəstələyib oxuyur və kitablara daxil edirlər. Məsələn: Əbdül Vahid Kuzəçi oğlu Səməd Vurğunun «Gülə-gülə» və Rəsul Rzanın «Beşik nəğməsi» şeirinə musiqi bəstələyib kitabına daxil etmişdir (91, 47, 52).

Kərküklü müğənni Siddiq Bəndə Qafur isə azərbaycanlı şair Əhməd Cavadın «Çırpınırdı Qara dəniz» şeirinə bəstələnmiş mahnını ümumi bir münasibətdə oxuduğuna görə başı bəlalar çəkmişdir (212, 264).

Şairin musiqi bəstələnmiş şeirinin İraq türkmanları arasında oxunması və eləcə də Əhməd Cavadın onlara şeir qoşması (344, 49), iraqlı tədqiqatçıların «Bu gələn yar olaydı», «Samavar almışam silənim yoxdur», «Layla balam, a layla», «Ay qız, mənə bax, bax», «Vəfasız», «Bu xal nə xaldı», «Qarabağı», «Altun üzük yaşıl qaş» və s. Azərbaycan mahnıları olduğunu qeyd etməsi (208, 80; 350, 11) bu sahədə də müştərək olduğumuza dəlalət edir.

Xalqın milli xarakterini, sevinc və kədərini, ən gizli hislərini özündə əks etdirən İraq–türkman xalq mahnıları sonsuz rəngləri, çalarları olan bir aləmdir.

Bununla belə, İraq–türkman xalq mahnılarına yaxşı bələd olmayanlara ilk baxışda elə gələ bilər ki, bu havalarda nəsə bir yeknəsəqlik və monotonluq vardır. Belə mahnılar başqa xalqın nümayəndələrinə bəzən mənasız və anlaşılmaz kimi görünə bilər. Lakin ana dilsiz-ağızsız körpəsini anladığı kimi, xalq da özü yaratdığı mahnıları dərindən duyur və gərəyincə qiymətləndirir.

BEŞİK NƏĞMƏLƏRİ

Beşik nəğmələri İraq–türkman folklorunda lirik növün geniş yayılan janrlarındandır. Buraya layla və oxşamalar daxildir. Onlar formaca xoyrat və manilərə, ağılara oxşasalar da, bu oxşayış zahiridir, məzmun və oxunuş tərzinə və eləcə də icra yerinə görə fərqlənirlər. Deyək ki, ağılar hüznlə əlaqədar yaranıb, dərdli-ələmli günlərdə oxunduğu, daim kədərli olduğu halda, beşik nəğmələri zərifliklə, istəklə, məhəbbətlə əlaqədar yaranır, beşik başında oxunur.

Demək olar ki, ana ilə körpə arasında ədəbi məhəbbətin təməli layla və oxşamalarla qoyulur. Bizə qalarsa, uşaq ən incə, ən saf, ən ülvi, müqəddəs duyğular aşılayan ana laylalarını eşitməzsə, onun qəlbinə pis əməllər, şər qüvvələr daha tez nüfuz edər, onun qəlbində mərhəmət, şəfqət, məhəbbət, xeyirxahlıq hisləri zəif olar. «Kim bilir, bəlkə də, uşağın tərbiyəsində hələ ki, sirri açılmamış bir çox uğursuzluqlar elə buradan başlayır» (226). Axı layla deyə bilən anaları indi barmaqla saymaq olar.

Türkiyədə «ninni» kimi tanınan laylalar, İraq–türkman folklorunda «leyla» və «layla» kimi məlumdur (149, 129). Formaca xoyrat və manilərə oxşayan laylaların axırında «layla balam, layla» ilə bərabər, «leyla, balam, leyla», «leyla, gözüm, leyla», «leyla, ömrüm, leyla» və ya «üllə, balam, üllə», «üllə, ruhum, üllə» kimi iki misralı döndərmələr (nəqarətlər) yer alır (201, 25).

Məsələn:

Oyaq qallam yatınca,
Bəklərəm ay batınca.
Qolum yastıq edərəm,
Sən hasilə çatınca.
Leyla, balam, leyla,
Leyla, gülüm, leyla.

Leyla dilər,
Yatıpdı, leyla dilər.
Vurğun yuxu salıpdı,
Mənnən bir leyla dilər.
Üllə balam, üllə,
Üllə ruhum, üllə.

Bu xüsusiyyətlər Azərbaycan folklorunda da eynilə belədir (61, 177). Bununla belə, tədqiqatçılarımızın çoxu nədənsə buna əhəmiyyət verməmiş, onları ağılar, oxşamalar, hətta holavar və sayaçı sözlər kimi bayatı adı altında vermişlər. Halbuki, ağılar, oxşamalar, laylalar, holavarlar və s. məzmun etibarilə bayatılardan fərqlənirlər (111, 146; 103, 87).

İraqlı tədqiqatçı Sübhi Saatçı da layla və oxşamalardan danışarkən bu qənaətə gəlmişdir (201, 19–20).

Beşik nəğmələri musiqi baxımından da fərqlənirlər. Poetik vəzni, musiqi dili aydın və çox sadə olan beşik nəğmələri özünəməxsus bir üslubda ifa olunur: «Ana beşik başında otura-raq onu yırğalayır, onun ritminə uyğun halda bəmdən yarı oxuma, yarı deklamasiya halında, bir sözlə, reçitativ deklamasiya üslubunda oxuyur» (126, 67).

Layla və oxşamaları uşaq folkloru ilə qarışdırıb tədqiq edənlər də olmuşdur (303, 93; 82, 66, 89). Hətta O.Kapitsa bu münasibətlə yazmışdır: «Uşaq folkloru deyəndə biz həm böyüklərin uşaqlar üçün yaratdığı folklor nümunələrini, həm də ənənəvi uşaq folklorunu nəzərdə tuturuq» (294, 5).

Bununla belə, demək lazımdır ki, hələ vaxtilə Q.Vinoqradov yazırdı ki, böyüklərin yaratdığı folklor uşaq folkloruna daxil edilmir (278, 29).

Bu, belə də olmalıdır. Biz uşaq folkloru dedikdə o xalq yaradıcılığını nəzərdə tuturuq ki, burada uşaqlar fəal iştirak edərək onun həm yaradıcısı, həm yaşadıcısı, həm də yayıcısı olur; halbuki, uşaqların qeyri-fəal iştirak etdikləri layla və oxşamalar onlara müraciətlə yaransa da böyüklər tərəfindən və böyüklərin ifası üçün yaradılır. Həm də ana qəlbinin dərinlik-

lərindən gələn içli duyğuları, arzu, istək və niyyəti bəyan etmək üçün söz kifayət etmir. Müqəddəs ana hisləri, arzuları musiqiyə çevrilir. Sözün həqiqi mənasında, laylaları qoşanlar da, musiqisini bəstələyənlər də, oxuyanlar da analar özləri olmuşlar. Təsadüfi deyildir ki, Azərbaycanın xalq şairi Hüseyn Arif bunu dərindən duymuş və qabarıq şəkildə vermişdir:

Elə ki, balalar gəlir dünyaya,
O gündən hey ölçüb, biçir analar.
Mahnı da oxuyur, şeir də deyir,
Bəstəkar analar, şair analar (243, 126).

O da bəllidir ki, xoyrat və maniləri hər adam yazıb-oxuya bildiyi halda, layla və oxşamaları yalnız qadınlar düzür və oxuyurlar. Laylaların əsas qayəsi körpəni uyutmaq, sakitləşdirmək və yatırtmaqdır:

Leyla edim mən dayim,
Yuxun olsun mülayim.
Xudama çox yalvarram,
Olasan mənim payım.
Leyla, balam, leyla,
Leyla, ömrüm, leyla.

Yağış yağar, göl olar,
Karvan keçər, yol olar.
Sənin axır-şər (talesiz) nənən,
Yatmaz, yatmaz, kor olar,
Leyla, balam, leyla,
Leyla, gözüm, leyla.

Kərkük folklorunda arzu-diləк, dua, xəstəlikdən xilas olma, nəzərdən saqınma və s. kimi mövzulardan bəhs edən laylalar daha çoxdur. Məsələn:

Leyla edərəm naçar,
Leyla dərd önün açar.
Xudama çox yalvarram,
Bəlkə, dərdindən keçər.
Leyla, balam, leyla,
Leyla, ömrüm, leyla.

Leyla, leyla elərəm,
Leyla haqdan dilərəm.
Səni verən xudadan,
Cansağlığı dilərəm.
Üllə balam, üllə,
Üllə ruhum, üllə.

Ailədə müəyyən bir sıxıntı baş vermişsə, uşağın atası qürbətdədirsə, oxunan layla qəmli olur. Ana təsəllisini laylalarda tapır.

Gögərçin havadadı,
Əlyetməz yuvadadı.
Bir əlim başın altda,
Bir əlim duadadı.
Leyla, gülüm, leyla,
Leyla, ömrüm, leyla.

Leyla dedim ucadan,
Səsi gəldi bacadan.
Baban səfərə gedib,
Ağlama can acıdan.
Leyla, balam, leyla,
Leyla, ömrüm, leyla.

Professor V.Vəliyevin göstərdiyi kimi, bəzən elə də olur ki, ananın şəxsi həyatı, iqtisadi vəziyyəti, ailə səadəti onu xəyala daldırır, fikrini qanadlandırır, uyumuş körpənin beşiyi

üstündə ana öz həyat kitabını vərəqləyir. Laylalarda ictimai məsələlərə toxunulur. Bu zaman qüvvətli kədər hissi layla ilə ağı arasında mövcud olan sərhədi pozur (61, 177). Məhz buna görədir ki, bəzən yas mərasimlərində də laylalar oxunur. Bu vaxt onlar qəm, qüssə, kədər bildirir, sazlamaqlardan (ağılar) fərqlənmirlər. Məsələn:

Bala vay;
Bal yemədim, bala vay.
Çox beşigin bəzədim,
Bir demədim, bala, vay.
Leyla, balam, leyla,
Leyla, ömrüm, leyla.

Leylanın adı nədi?
Şəkərdən dadı, nədi?
Çağırıram səs verməz,
Bilmirəm dərdi nədi?
Leyla, gülüm, leyla,
Leyla, ömrüm, leyla.

Burada beşik nəğmələri ilə bağlı vacib bir məsələdən də söz açmaq zəruridir. Rus folklorşünaslığında beşik nəğmələrinin mənşəyi barədə tədqiqat aparan V.Anikinə görə ən qədim beşik nəğmələri ovsun, tilsim, cadu və s. inamla əlaqədar yaranmışlar. Tədqiqatçı indinin özündə belə bu nəğmələrdə əfsun və tilsimin izlərinin qaldığını qeyd edir (268, 89).

İraq–türkman folklorunda müşahidə edilən beşik nəğmələri nümunələri tədqiqatçının doğru qənaətə gəldiyini təsdiq edir. Doğrudan da, layla və oxşamalarda ilkin janrlardan bolbol istifadə edilir. Bu, təbii ki, ananın inam və etiqadının, arzu və istəyinin nəticəsində meydana gəlir. Beşik nəğmələrində ovsun, tilsim, cadu, alqış, qarğış və s. tez-tez rast gəlinir.

«İlkin janrlar» fəslində üzərliklə bağlı ovsun-mərasim deyilənlərə dayaq olur. Ana leyla və oxşamalarda özünü övladı

yolunda qurban verməyə hazır olduğunu səmimiyyətlə bəyan edir. Ana övladını gülə, bülbülə, göyərçinə, bənövşəyə, Aya, Günə və s. bənzədir. Ay, Gün göyərçinlə bağlı xalqın inam və etiqadları barədə «İlkin janrlar»da ətraflı danışdığımızdan burada qızılgül və bənövşə ilə bağlı bir məsələni açıqlamaqla kifayətlənəcəyik. Qədim türk mifologiyasında qızılgül və bənövşə bitki ilahəsi, canlıların havadarı kimi göstərilir (82, 82).

Göründüyü kimi, ta qədim zamanlardan xalqın məişəti bütövlükdə ilkin janrlarla bağlı olmuşdur.

OXŞAMALAR. Uşağa müraciətlə söylənilən oxşamalar da İraq–türkman folklorunda geniş yayılmışdır. Türkiyədə «sevmələr», Cənubi Azərbaycanda «nazlamalar» kimi tanınan bu şeir parçaları Quzey Azərbaycanda da, Kərkük dolaylarında da «oxşamalar» adlanır (201, 29).

Oxşamalar yalnız analar tərəfindən deyil, nənələr, bibi və xalalar, başqa yaşlı qadınlar tərəfindən də deyilir. Körpəsiz ev təsəvvür edilmədiyi kimi, oxşamasız da ev yoxdur. Oxşamaların geniş yayılmasının başlıca səbəbini, hər şeydən əvvəl, burada axtarmaq lazımdır. Oxşamaların çoxu laylalara bənzəsələr də, onlara çox yaxın olsalar da, bu bənzəyiş, bu yaxınlıq zahiridir. Onlar müxtəlif məqamlarda işlənir və müxtəlif funksiyalar daşıyırlar.

Oxşamalar formal əlamətlərinə görə də laylalardan fərqlənirlər. Sübhi Saatçı bu münasibətlə yazmışdır: «Bəzən laylalar arasına da qarışan oxşamaları, əslində, ayrı bir qrup halında düşünmək gərəkdir. Zira oxşamalar funksiyon etibarı ilə ninnilərdən ayrılırlar» (201, 19).

Doğrudan da, oxşamalarda məqsəd əyləndirmə, əzizləmə, oxşama olduğu halda, əsasən uşaq yuxudan ayılandan sonra incə yumorla bağlı şən əhval-ruhiyyə əmələ gətirmək üçün oxunduğu halda, beşik başında oxunan laylalarda başlıca məqsəd körpəni sakitləşdirmək, uyutmaq və yatırtmaqdır. Layla və oxşamalar məzmunca o qədər fərqlənməsələr də, oxşamaların poetik mətni vəzn cəhətdən, bəzən də heca cəhətdən özünəməxsusdur. Musiqi baxımından da bu fərq özünü göstərir. Laylalar melodiya və lad kökü etibarilə inkişaf et-

mişdir. Melodiya diapazon cəhətdən bir qədər qısa olsa da, daha ahəngdar, daha səmimi və emosional olurlar (126, 67).

Tədqiqatçı R.Qafarov layla və oxşamaları bir-birinə qarışdırmış, eyni zamanda «oxşamalardakı incə yumor anaların şən əhval-ruhiyyəsindən (balası ilə ona dünyanın ən böyük sevinci bağışlanır) doğmuşdur» desə də, onlarda olan incə yumoru, doğrudan da, duya bilməmişdir. O göstərir ki, oxşamalarda ana qızına ikili münasibət bəsləyir. Birincisi, qızını marala bənzədir, ikincisi isə ana qızına gözə ox batıran, dərd-sər gətirən bəla kimi baxır, hətta gərəksiz bir şey tək onun atılmasını istəyir:

Qız gözə oxdur,
Dərd-səri çoxdur.
Götürün tullayın,
Bir xeyri yoxdur.

Sonra isə müəllif aşağıdakı oxşamaları misal göstərərək qəribə bir nəticəyə gəlir:

Dağda inəklər
Balam iməklər.
Xonçalı bəylər
Bu balama qurban.

Çaydakı qazlar,
Tükün tarazlar.
Nişanlı qızlar
Bu balama qurban.

«Bu oxşamaları düzüb-qoşan qadınlar, yəqin ki, həyatda hər şeyə laqeyd olmuşlar, yoxsa imələyən uşağa hələ muradına çatmamış xonçalı bəylərin, nişanlı qızların qurban verilməsini istəməzdi. Sözsüz, elələri «gözə ox hesab etdikləri» doğma qızlarının da «götürülüb atılması»na göz yumurlar (82, 86–87).

Bununla belə, R.Qafarov Azərbaycan və İraq–türkman folklorunun müştərəkliyini təsdiq edə biləcək bir məsələdən söz açır və göstərir ki, rus, ukrayna, belarus, eston, ispan və s. xalqlarda beşik nəğmələri arasında ana övladına ölüm dilədiyi nümunələrə də rast gəlinir.

Demək lazımdır ki, ağır güzəranın nəticəsində meydana gələn belə laylalara nə Azərbaycan, nə də İraq–türkman folklorunda təsadüf edilir. Əksinə, burada qadınların həyatları nə qədər faciəli, güzəranları nə qədər ağır keçsə də, belə nümunələr yoxdur. Lakin kədərli, dərdli, üzüntülü nəğmələrin yuxarıdakı nümunələrdən göründüyü kimi, bununla əlaqədar yarandığını qeyd etmək doğru olardı.

Oxşamalar İraq–türkman folklorunda da iki və dörd misralı olmaqla iki yerə bölünür və arzu-dilək, əzizləmə, əylən-dirmə, oxşama məqamlarında işlənir. Məsələn:

Dama dirəkdi oğlum,
Xırmana kürəkdi oğlum.

Vay nişi-nişi,
Çıxıbdı iki dişi.

və ya:

Ataram-tutaram səni,
Şəkərə qataram səni.
Baban evə gələndə,
Qucuna ataram səni.

Qızım qızlar içində,
Altun hicil qıçında.
Qızıma diləkçi gələr,
Bu gün, yarın içində.

Oxşamalar böyük həsrət və intizarı ifadə etmək baxımından da diqqəti cəlb edir:

Gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olar,
Qurbanınam gündə mən.

Qurbanam özüm sənə,
Həkətim, sözüm sənə.
İşıqlı ulduz kimin,
Tikmişəm gözüm sənə.

Layla və oxşamalarda bir yandan körpənin gələcək taleyi üçün ananın keçirdiyi hiss-həyəcanı, narahatlığı, qorxu və təşvişi, başqa bir tərəfdən də körpənin tez boya-başa çatması, sağlam böyüməsi, xəta-bəladan uzaq olması barədə ananın arzu-diləyi, istəyi, sevinci təkrarolunmaz boyalarla təsvir edilir.

Bayatı və sazlamaqlarda olduğu kimi, layla və oxşamaların dili aydın, sadə, yığcam və zəngindir. Burada da ən dərin fikirlər qısa və obrazlı şəkildə ifadə olunur.

İstər Azərbaycan, istərsə də İraq–türkman folklorunda lirik növün «Beşlik nəğmələri» janrı həyatımızın, tariximizin, şüur və təfəkkürümüzün ayrılmaz hissəsi kimi diqqəti cəlb edir.

BAYATI-TAPMACALAR*

İraq–türkman folklorunda lirik növün «bayatı-tapmaca» janrına təsadüf edilir. Təbiət və cəmiyyət hadisələrinin, real varlıqların və s. şairanə təsvirini əks etdirən, formaca bayatı və qıfılbəndlərə oxşayan, lakin icra yeri və icra tərzinə, «üslubu, şeriyyəti, ifadə etdiyi məcazi mənasına» görə onlardan fərqlənən «bayatı-tapmaca»lar nə Azərbaycan folklorunda, nə də onun qüdrətli qolu olan İraq–türkman folklorunda lirik növün ayrıca janrı kimi tədqiq olunmamışdır.

* Bakı Dövlət Universitetində elmi konfransda edilən məruzə,1993-cü il.

Onlar gah tapmaca (139, 69; 188, 71; 202, 61; 12, 199; 203, 104; 248, 541; 140, 62), gah bayatı (49, 155), gah da cinaslı tapmacalar (48, 240-241) adı altında verilmişlər.

Azərbaycan bayatılarının bədii xüsusiyyətləri barədə tədqiqat aparan A.Əliyev isə:

Çağırdım bərkdən,
Səs verdi kənddən,
Ağzı sümükdən,
Saqqalı ətdən.

Salam, ay qəssabbaşı,
Məni göndərib yüzbaşı.
İki girvənkə ət istərəm,
Nə yazı olsun, nə qışı –

kimi tapmacaları bayatı adı altında tədqiq edərək, Azərbaycan bayatıları arasında, guya, hər misrası 3, 4, 5, 7, 8, 9 hecadan ibarət bayatılar olduğu fikrini irəli sürmüşdür (264, 176).

Onu da qeyd etmək vacibdir ki, folklorşünaslarımızın «bağlama-bayatı» (63, 129), «qıfılbənd-bayatı» (230, 47), «tapmaca-bağlama» (32, 11) adlandırdıqları qıfılbənd və bağlamalar da «bayatı-tapmaca»lardan fərqlənirlər.

Folklorşünas N.Seyidov haqlı olaraq bir çox tapmacaların bayatı biçimində düzəldildiyini göstərsə də, doğru olaraq tapmacalara yaxın olan janrlardan biri də «bağlamalar»dır qənaətinə gəlsə də, elə oradaca «bağlamalar da tapmacaların bir növüdür» (203, 35) hökmünü verməklə həqiqətdən uzaqlaşmışdır. Doğrudur, sonralar folklorşünas V.Vəliyev «bağlama-bayatı» və tapmacalardan danışarkən:

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Aşıq bir şey görübdü,
Dizi beldən yuxarı.
(Çəyirtkə)

Buz bağlar;
Qışda çaylar buz bağlar.
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar.
(Bişmiş südün qaymağı)

«bayatı-tapmaca»ları misal gətirərək yazmışdır: «Bizə belə gəlir ki, tapmacaları bağlama-bayatı adlandırmaq olmaz. Çünki onların cavabı şeirlə, bayatı şəklində yoxdur» (63, 144).

Bu, eyni İraq–türkman tapmacalarında da belədir. Şübhəsiz, qıfılbənd və bağlamaları «bayatı-tapmaca»lardan fərqləndirən başlıca fərq qıfılbəndlərin hər misrasının ayrıca cavabı olmasıdır. Eyni zamanda qıfılbəndin hər misrasının cavabının şeirlə, eyni qafiyədə olması tələb edilir.

Xəstə Qasımla Ləzgi Əhməd arasında yer alan qıfılbənddən verdiyimiz nümunə deyilənlərə əyani sübutdur:

Ləzgi Əhməd:

O nədir ki, dayanıbdı dayaqsız?
O nədir ki, boyanıbdı boyaqsız?
O nədir ki, doğar əlsiz-ayaqsız?
Üç ay keçər, ayağı var, əli var?

Xəstə Qasım:

Göy bir çadır, dayanıbdı dayaqsız,
Ayla Gündür, boyanıbdı boyaqsız.
Qurbağadı, doğar əlsiz-ayaqsız,
Üç ay keçər, ayağı var, əli var?

«Bayatı-tapmaca»larda isə tamamilə başqa bir mənzərənin şahidi oluruq. Burada dördlüyün cavabı yalnız bir sözlə ifadə edilir. Məsələn:

Ya qanı;
Ver muradım, ya qanı.
Dəryadan bir quş uçdu,
Nə əti var, nə qanı.
(Gəmi)

Bir qutum var alamat,
İçi yanar qiyamat.
Yaş vurdum, quru çıxdı,
Məhəmmədə salavat.
(Təndir)

Folklorşünas V.Vəliyev doğru olaraq «indi tapmacalar sırasında öz varlığını saxlayan elə bayatılar vardır ki, onlar üslubu, şeriyyəti, ifadə etdiyi məcazi mənası ilə tapmacalardan fərqlənirlər…» fikrinə gəlsə də elə oradaca «…olsa-olsa onlar cavab hissəsini itirmiş «bağlama bayatılardır» (63, 145) deməklə uzaqlaşır.

Tədqiqatçı İ.Abbasov isə bağlama və qıfılbəndləri «tapmaca-bağlama» adı altında nəzərdən keçirərək, onların bir qisminin bayatı biçimində yarandığını nəzərə alaraq, onları bayatılar sırasında verməyi məqsədəuyğun saymışdır (31, 11, 206–212).

Maraqlıdır ki, İ.Abbasovun verdiyi nümunələrin iyirmiyə qədərinə İraq–türkman «bayatı-tapmaca»ları arasında da rast gəlinir (25, 206–212).

Yeri gəlmişkən, deyək ki, Kərkük xoyrat və manilərinin araşdırıcısı Əta Tərzibaşı «bayatı-tapmaca»ların xoyrat və manilərdən fərqləndiyini duyaraq onları kitabına daxil etmişdir.

Tədqiqatçı bu münasibətlə yazmışdır: «Tapmacaya gəlincə bunu xalq ədəbiyyatının daha çox folklor araşdırmalarının ümumi sahəsində mütaliə etmək gərəkdir» (212, 91).

İraqlı tədqiqatçı Sübhi Saatçı isə doğru olaraq «Mənzum tapmacaların bir qismi mani və xoyrat şəklində olurlar» (182, 56–57) desə də, Əta Tərzibaşının yolu ilə gedərək bunların müəyyən bir janr – «bayatı-tapmaca» janrını əmələ gətirdiyini görməmiş, onları adi tapmacalar arasında vermişdir. Bununla

belə, tədqiqatçının bu cür tapmacalarla əlaqədar dediyi «şeriyyət güclü olan tapmacaların uzun illər hafizələrdə yaşaması da bundandır» (201, 57) fikri həqiqətlə səsləşir.

İraq–türkman folklorunda təsadüf edilən «bayatı-tapmaca»lar nə forma, nə də məzmunca Azərbaycan «bayatı-tapmaca»larından fərqlənirlər.

Onların əksəriyyəti bir-birinin eynidir:

Dağdan enir dağ kimin,
Qolları budaq kimin.
Enir bulaq başına,
Bağırır oğlaq kimin.
(İldırım)

Azara gedər;
Azar-bezara gedər.
Babası bir yaşında,
Oğlu bazara gedər.
(Qovun, qarpız)

Bəzi «bayatı-tapmaca»ların isə ilk iki misrasında az-çox fərqə təsadüf edilsə də, son iki misra hərfi-hərfinə uyğun gəlir. Məsələn:

Bir əcaib quş gördüm
Dizi beldən yuxarı.
(Çəyirtkə)

O qədər oynamışlar
Xurd-xəşil (xəmir) olmuşlar.
(Yağış)

Aşağıdan su içər
Yuxarıdan balalar.
(Buğda, xurma)

Dimdiyi sümükdən
Saqqalı ətdən.
(Xoruz)

Gecə-gündüz yol gedər
Yenə durub yerində.
(Dəyirman daşı) və s.

Bir çox «bayatı-tapmaca»ları fərqləndirən yeganə cəhət Kərkük dolaylarında onların «Lələm deyər» ifadəsi ilə işlənməsidir. Başqa misralar və «bayatı-tapmaca»nın açması eyni olur. Məsələn:

Lələm deyər, qus uşdu,
Uşdu dəryahı keşdi.
Bir ağacda beş alma,
İkisinə gün düşdü.
(Beş vaxt namaz)

Lələm deyər, yağ gəti,
Gətirirsən sağ gəti.
Sağılmamış inəkdən,
Ərinməmiş yağ gəti.
(Bal)

Azərbaycanda folklorşünaslığa dair son vaxtlar çap olunan kitablarda «bayatı-tapmaca»ların açmasını verməmək meyili özünü göstərir. Hətta Aşıq Şəmşir kimi müasirlərimizin belə «bayatı-tapmaca»larının açmasının verilməməsi təəssüf doğurur. Məsələn:

Ayağı-əli qandı,
Dodağı-dili qandı.
Möcüzə dərya gördüm,
Suyu duz, gülü qandı.
İki at var uzaqda,
Bərqərardı hər vaxtda.
Qarası adam yıxar,
Ağı gəzər qucaqda (47, 240–241).

Halbuki, «bayatı-tapmaca»ların açmasının verilməsi həm insanı düşünüb-daşınmağa sövq etmək baxımından, həm də ona təbiət və cəmiyyət hadisələri, xalqın həyat tərzi, məşğuliyyəti, fikri-düşüncəsi barədə məlumat vermək baxımından maraq doğurur, tədqiqatçılar üçün əvəzsiz xəzinəyə çevrilir. Digər tərəfdən də vəzn və qafiyəsi yerli-yerində olan bu qiymətli poetik parçaların açması məlum olduqda dillər əzbərinə çevrilir, daha geniş yayılırlar. Bəzən sadə, bəzən də yüksək poetik dillə yazılan, xalq təfəkkürünün məhsulu olan, təşbih və təsvirlərlə, obrazlı ifadələrlə dolu olan bu dördlüklər ağlı, zəkanı, düşüncə və mühakiməni inkişaf etdirmək baxımından xüsusi qiymət kəsb edirlər:

Lələm elin aşına,
El toplaşar başına.
Nə əli, nə ayağı,
(Və ya: Əli yox, ayağı yox)
Gedər əkin başına.
(Su)

Gözəl mənnən nar istər,
Bağım yoxdu, bar istər.
Əkilməmiş bostannan,
Toxumsuz xiyar istər.

İctimai həyatın bütün sahələrini əhatə edən «bayatı-tapmaca»larda xalq, düşüncə və mühakiməsini, ictimai varlığa münasibətini bədii şəkildə əks etdirən, dil səlisliyi, məna kəsəri ilə seçilən forma axtarıb tapmağa çalışmış və beləliklə, şifahi xalq ədəbiyyatının lirik növünün «bayatı-tapmaca» janrı meydana gəlmişdir. Bu, daha təkmil sənətə meyilin təbii nəticəsidir.

Xalq yaradıcılığı prosesində özünü göstərən, bir janrdan başqa janrın meydana gəlməsinə qeyri xalqların folklorunda da təsadüf edilməsi (272, 87), nağıllardan dastanların, bayatılardan layla, oxşama, ağı-sazlamaq və s. janrlarının yaranması da deyilənlərə dayaq olur.

III FƏSİL

EPİK NÖV

İraq–türkman folklorunda ən geniş yayılan janrlar epik növə aiddir. Buraya nağıllar, atalar sözü və məsəllər, tapmacalar, lətifələr və dastanlar daxildir. Bu janrlar istər uşaq, istərsə də yaşlı olsun, hamı tərəfindən eyni dərəcədə sevilir və təbliğ edilir. Hər janrın özünəməxsus səciyyəvi xüsusiyyətləri və böyük elmi əhəmiyyəti vardır. Təsadüfi deyildir ki, tədqiqatçılar yorulmadan bu mənəvi incilərə istinad edir, onların vasitəsi ilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Adı keçən janrlar nəinki xalqın dünyagörüşü və təfəkkürünü ifadə etmək baxımından, həm də xalqın keçmişi barədə bir növ tarixi sənədə çevrilmək baxımından əhəmiyyət kəsb edir.

NAĞILLAR

Nağıllar İraq–türkman folklorunda epik növün ən sevimli janrlarındandır. Evdən evə, eldən elə, dildən dilə gəzən, xalqın həyata münasibətini, istək və arzularını, bəxt, tale, xoşbəxt həyat barədə dünyagörüşünü əks etdirən, xeyrin şər, haqqın haqsızlıq üzərində qələbəsini, ədalətin təntənəsini göstərən bu əvəzsiz incilər, təəssüf ki, elm və texnikanın sürətlə inkişaf etdiyi, xalq təxəyyülünün məhsulu olan «uçan xalçalar»ı təyyarələrin, kosmik gəmilərin əvəz etdiyi zəmanəmizdə öz mövqeyini əldən verməyə, unudulmağa yan almışlar. Nağılçılıq, nağıl söyləmək bir çox xalqlarda söylənіş tərzini dəyişərək səhnə, radio və televiziyaya ayaq açdığı, maraqlı nağıl filmləri yaradıldığı halda, İraq–türkman folklorunda bir sənət kimi aradan çıxır.

Nağılların folklorşünaslıqda arxa plana keçməsinə təbii proses kimi baxılmalıdır. Bəzi janrlar təbii olaraq get-gedə aradan çıxır, bəziləri isə çiçəklənmə dövrü keçirir. Folklorşünasların fikrincə, xalq mahnıları, atalar sözləri, lətifələr, uşaq nağılları və s. janrlar əbədi olaraq yaşayacaqlar (316, 4). Demək lazımdır ki, son illərə qədər Kərkük dolaylarında

uzun qış gecələri bir evə toplaşar, xalı və palazlar üzərinə buraxılan sinilərdə samovardan çay içər, kömür közü ilə dolu manqal ətrafında qızınar və nağılları dinləyərdilər. Başqa xalqlarda və Azərbaycanda olduğu kimi (198, 141), onları əsasən peşəkar nağılçılar danışardılar.

Kərkük dolaylarında gündüz nağıl söyləmək məsləhət görülmür. Uşaqlara belə bir inam təlqin edilib ki, kim gündüz nağıl danışsa, nağıl bitəndə çoqu çıxar, yəni başında buynuz bitər. Böyüklər arasında isə belə bir inam var ki, kim gündüz nağıl danışsa parası pul (qəpik-quruş) olar, yəni müflisləşər (255, 153; 117, 61).

Müəyyən qismi toplanaraq çap edilən İraq–türkman nağılları (255, 154–164; 168; 201, 100–131; 133, 145–162, 303–315), bir qayda olaraq, nağılın məzmunu ilə əlaqəsi olmayan pişrovla başlayır. Pişrovdan sonra giriş – başlanğıc gəlir. Lakin realist nağılların əksəriyyəti pişrovsuz-filansız «Var idi, yox idi, bir avçı vardı», «Biri var idi, biri yox idi, darın dünyasında bir padşah var idi» və s. kimi başlayır.

Kərkük nağılları aşağıdakı pişrovlarla başlayır:

«Biri var idi, biri yox idi, yalan gerçəkdən çox idi. Yalanı doldurdular çuvala, dayadılar duvara. Gerçəyi qoydular meydan başına. Matal gəldi qapıya, hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərlik edir, əski hamam içində. Hamamın tası yox, peştamalın ortası yox. Göyümüzə tazi gəlib, onun da xaltası yox...»

Yaxud:

«Var idi, yox idi, yalan gerçəkdən çox idi. Yalanı doldurdular çuvala, dayadılar duvara. Gerçəyi qoydular qaba, asdılar qazuğa. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərlik edir, əski hamam içində. Hamamçının tası yox, peştamalın ortası yox. Birəyə vurdular palanı. Otuz iki yerdən çəkdilər kolanı».

Və ya:

«Yalan bir yalanıydı, sərçə pəhlivanıydı. Sərçəyə yüklədilər palanı, qırx yerdən çəkdilər kolanı.

Dedi:

– Eşq olsun! və ya Afərin! Necə uydurdun bu yalanı...» (135, 105).

Və ya:

«Matal, matal mat atar, bir kişi xurma satar. Xurmanı gəti mən yeyim, görək kim borca batar. Hartdan-hurtdan, sıxması qarpız qabuğu, dügməsi turpdan...»

Və ya:

«Matal, matal, matına, şeytan mindi atına. Əlində qamçısını və ya quyruğunu dolandırdı, çaldı filankəsin (nağıl danışan məclisdə əyləşən bir dostunun və ya uşağın adını çəkir) suratına. Qamçıya qüvvət, Məhəmmədə salavat. Beləcə nağıl gəldi buraya...»

Demək lazımdır ki, pişrovda sözlərin axıcılığı, ahəngdarlığı əsas şərtdir. Pişrovlara başqa türkdilli və eləcə də qeyri xalqların nağıllarında da təsadüf edilir. Məsələn, rus dilində «Присказка» adı ilə tanınan pişrovlar vardır. Lakin Azərbaycan və İraq–türkman nağıllarında olduğu kimi, onların nağılın məzmunu ilə heç bir əlaqəsi yoxdur.

«Присказка» da pişrov kimi, oxucunun diqqətini nağıllar aləminə yönəltmək üçün istifadə edilən maraqlı yaradıcılıq örnəyidir. Məsələn:

«На море-Океане, на острове Буяне, стоит дерево-золотые маковки; по этому дереву ходит кот-баюн, вверх идет-песню поет, вниз идет сказки рассказывает. Это еще не сказка, а только присказка, сказка впереди будет» və s.

Pişrovdan sonra isə nağılın başlanğıcı gəlir. Məsələn:

«Hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərlik edir, əski hamam içində. Var idi, yox idi, iki qardaş var idi» və s. Başlanğıcda qəhrəmanın mənşəyi, hadisənin cərəyan etdiyi yer və s. qısa şəkildə nəql edilir:

«Biri var idi, biri yox idi, darın dünyasında bir padşah var idi», «Var idi, yox idi, bir avçı vardı», «Var idi, yox idi, Həsən adında bir odunçu var idi», «Biri var idi, biri yox idi, bir yə-

hərçi var idi», «Bir gün-günnərdə su çox axdı. Su axınca dünyanı fəyazan etdi. Əldə qaldı bir dağ. O dağda bir tülkü, bir aslan, bir qatır qaldı». «Var idi, yox idi, bir keçəl var idi». «Var idi, yox idi, darın dünyasında bir keçiynən bir qoyun var iydi», «Var idi, yox idi, darın dünyasında bir inad xoruz var idi». «Var iydi, yox iydi, darın dünyasında bir keçiynən bir qurt varıydı» və s.

Nağılın ortasında Azərbaycanda olduğu kimi, Kərkük folklorunda da nağılçı uzun bir məsafənin qısa keçildiyini göstərmək üçün:

Dedi: «Ya Əli, sənə mədəd. Yel kimin dərə, təpə, düz bilmədi, keçdi. Az getdi, üz getdi, dərə, təpə, düz getdi...» Və ya: «Az gedər, üz gedər, dərə, təpə, düz gedər...»

Və ya: «Dərələrdən sel kimin, təpələrdən yel kimin keşdi» və s. kimi ifadələr işlədir.

Mətləbin üstünə gəlmək üçün uzun sözün qısası mənasına gələn «Nə başınızı ağrıdım» – deyərək nağılda söhbət gedən qızın gözəlliyini uzun-uzadı tərifləmək əvəzinə «Gəl məni gör, dərdimnən öl» və ya «Aya deyir sən bat, mən çıxım» və ya «Elə gözəl, elə gözəl, Şam şamaması, Əcəm alması» kimi ifadələrdən istifadə edilir. Əlçatmaz, ünyetməz, çox qorxulu bir yeri təsvir edərkən nağılçının: «Quş getsə qanad tökər, qatır getsə dırnaq tökər»; acıqlı bir məxluqu göstərmək üçün «Bir dodağı yer süpürür, bir dodağı göy» deməsi kifayət edir.

Dinləyicilər hərdənbir «şəkər ye, şəkər ye» – yəni gözəl danışırsan, davam et – deyə nağılçını ruhlandırırlar. Nağılın maraqlı yerinə, kulminasiya nöqtəsinə çatanda, müsbət qəhrəman dardan qurtaranda, istəyinə çatanda dinləyicilər deyirlər: «Darı başımıza» – yəni bizim də işimiz belə uğurlu olsun, biz də istəyimizə çataq, murada yetək.

Qeyd etmək lazımdır ki, Kərkük folklorunda nağılların sonluğu çox rəngarəng və maraqlı olur. Məsələn: «Mən də getdim, əlimə bir şey düşmədi», «Mən də getdim, mənə bir şey vermədilər. Bəlkə, siz verəsiniz» – deyə nağılçı üzünü nağıla qulaq asanlara çevirir. Və ya: «Matal bitdi, ağzımı kimsə şirin

etmədi. Bəlkə, siz edəsiniz». Və ya: «Fitnə-fəsaddan xilas oldular. Əvvəlki kimi şad-xürrəm yaşadılar. Siz də şad olasız. Mənim bir nəsnəm yoxdu, mən şad olmam. Bəlkə, siz bir nəsnə verib məni şad edəsiz».

Və ya: «Qırx gün qırx gecə toy etdilər. Şadlıqla yaşadılar. Siz də şad olasız. Darı başınıza. Toya mən də getmişdim. Başları qarışmışdı. Ağzımı şirin edən olmadı. Bəlkə, siz edəsiniz». Və ya: «Qırx gün qırx gecə toy etdilər. Şəkərlər paylandı, sevinclər oldu. Mən də getmişdim, mənə bir şey düşmədi».

Və ya: «Havadan üç alma düşdü. Biri matala, biri matal deyənə, biri də Qədriyyəyə».

Və ya: «Göydən üç alma düşdü. Biri mənim, biri Əlinin, biri də nağıl söyləyənin».

Maraqlıdır ki, Qədriyyə də, Əli də elə nağıl söyləyən özüdür (201, 99). Nağılçı öz adını nağılın bu məqamında, bu formada çəkməklə, bir yandan nağılın gedişində yaranmış gərginliyi azaldır, dinləyiciləri güldürür, digər tərəfdən də gözlədiyi təmənnaya işarə edir.

Əgər nəzərə alsaq ki, bir çox xalqlarda indinin özündə belə müəyyən bir peşəni özünə sənət etmiş adamlar, istər müğənni, istər rəqqasə, istər musiqiçi, istər masabəyi, istər pəhlivan, istər kəndirbaz, istər gözbağlayıcı və ya başqa sənət sahibləri olsun, mütləq zəhmətləri müqabilində əməkhaqqı təmənnasında olurlar. Belə olan halda, keçmişdə xüsusi nağılçıların zəhmət haqqı diləməsi təəccüb doğurmur.

Bizcə, nağılları bəzəyən, onların bədii və emosional təsirini artıran, onları rövnəqləndirən belə ifadə vasitələrinin çoxu, nağıl bitəndə nağılçılara müəyyən hədiyyələrin verilməsi ilə bağlıdır.

Demək lazımdır ki, Kərkük nağılları nə pişrov, nə başlanğıc, nə nağılın ortasında, nə sonunda işlənən, Yusif Vəzir Çəmənzəminlinin «nağılın zinəti» adlandırdığı (11, 37) belə obrazlı ifadə və oynaq cümlələrə görə Azərbaycan nağıllarından fərqlənmirlər (194, 37–49; 111, 127–128). Hətta gündüz vaxtı «Nağıl söylə» deyə anasını təngə gətirən uşağa anası Azərbaycanda olduğu kimi cavab verir və başından edir:

– Əli, Vəli, Pirvəli – dördü də ondan irəli, damda yatan, pambuq atan, bez satan, bir də sənin rəhmətlik atan. Oğlum, əlim xamırdadı, ha buncası yadımdadı.

Kərkük folklorunda «royat» adlanan bu deyimin (75) tədqiqatçılar uşaqların bir-birini acıqlandırmaq, cırnatmaq üçün «Yeri hey, on bir kişiyə varan nənəli» sözləri ilə əlaqədar yarandığını göstərir. Sübhi Saatçı və Məhəmməd Xurşid qeyd edir ki, bəzən uşaqlar deyilənlərə inanır və analarının yanına qaçırlar. Anaları isə zarafatla yuxarıda sadaladığımızı söyləyir (201, 45–46; 149, 92).

Mövzu, ideya, məzmun, təsvir vasitələri və üsullarına görə müxtəlif və rəngarəng olan İraq–türkman nağıllarını aşağıdakı kimi qruplaşdırmaq olar: heyvanlar haqqında nağıllar, sehrli nağıllar, tarixi nağıllar, ailə-məişət nağılları.

Qeyd etmək lazımdır ki, təxəyyül və fantaziya İraq–türkman folklorunda da bu və ya digər dərəcədə bu qruplara daxil olan nağılların, demək olar ki, hamısını əhatə edir.

HEYVANLAR HAQQINDA NAĞILLAR. Heyvanlar haqqında olan nağıllar İraq–türkman folklorunda çox geniş yayılmışdır. Bunların arasında uşaqların yaş xüsusiyyətinə, psixologiyasına uyğun yaradılmış nağıllar daha çoxdur. Süjeti çox sadə, yığcam, dili anlaşıqlı olan bu nağıllarda insana məxsus cəhətlər heyvanların üzərinə köçürülür. Bu nağılların əksəriyyətində heyvanlar insan kimi danışırlar.

Başqa növ nağıllarda olduğu kimi, alleqorik nağıllarda da əsas məqsəd uşaqlarda və gənclərdə qorxaqlıq, paxıllıq, xəyanət, kələk, hiylə, tənbəllik, acgözlük və s. kimi mənfi keyfiyyətlərə qarşı ikrah hissi oyatmaq, onlarda dostluq, mərdlik, qorxmazlıq, dəyanət, səxavət, əməyə məhəbbət, böyüklərə hörmət, onların məsləhətlərinə qulaq asmaq, danışanı dinləmək qabiliyyəti, danışanın sözünü kəsməmək, rəvan və şirin danışmağı bacarmaq və s. kimi müsbət keyfiyyətlər aşılamaqdır.

Bu nağıllarda aslan, qurd, qoyun, keçi, xoruz, tülkü, dovşan, tısbağa, at, çaqqal, toyuq və s. heyvan surətlərinə tez-tez rast gəlinir. Onların süjet xəttində əsas yeri yemək uğrunda

mübarizə tutur. Bu mübarizə müxtəlif gülməli üsullarla verilmişdir.

Alleqorik nağılların bir çoxu Azərbaycan nağıllarından seçilmir. Məsələn, «Şəngülüm, Şüngülüm, Məngülüm» nağılı Kərkük dolaylarında «Titlə-Bitlə», «Xoruzla padşah» – «İnad Xoruz», «Dovşan» – «Keçəl oğlan», «Davzanqurdu və siçan Solub bəy» – «Davzanqurtağı», «Yının nağılı» – «Qurdla qoyun» nağıllarından demək olar ki, fərqlənmir. «Tülkü və leylək» nağılı isə eynidir. Az-çox seçilən «Qurdla qoyun» nağılındakı şeirlərdə – qoyuna-keçiyə aldanan qoca qurd ata da aldanır. At qurda ölümcül zərbə endirir. Qurd yıxılıb can verməyə və zarıltı ilə oxumağa başlayır:

Getdin gördün bir qoyun,
Ye qalsın quru boyun.
Neynirsən oyun-moyun,
Pəhlivanlıq edəcəydin?

Getdin gördün bir keçi,
Ye qalsın quru qıçı.
Neynirdin iki-üçi,
Çobanlıq edəcəkdin?

Getdin gördün bir at,
Ye, yanaşasında yat.
Neynirdin barat-marat,
İstanbula gedəcəkdin?

Göründüyü kimi, misra və beytlər dərin mənası və nağılın məzmunu ilə uzlaşmasına görə fərqlənirlər. Belə parçalar nağılların daha təsirli, daha maraqlı olmasına kömək edir.

Heyvanlar haqqında nağıllarda, başqa xalqlarda olduğu kimi (319, 268) ən çox rast gəlinən, hiyləgərlik rəmzi olan tülküdür. Tülkü İraq–türkman folklorunda da müxtəlif fəndlərə, hiylələrə əl ataraq ən çətin vəziyyətdən belə çıxır. Bu ba-

xımdan «Tülkünün hiyləbazlığı» və «Mənim ömrüm nalımın içində yazılıb» nağılları maraq doğurur. Azərbaycan nağılları arasında təsadüf edilməyən hər iki nağılda tülkü dondan-dona girir, yeri gəldikcə məkr işlədir, nəinki vəziyyətdən çıxır, eləcə də başqalarını çıxılmaz və ya gülməli vəziyyətdə qoyur.

Təbii ki, bu nağılın əsas qayəsi yalnız tülkünün hiyləbazlığını göstərmək deyil, eyni zamanda heyvanlar haqqında, onların yaşayışı, xasiyyəti barədə məlumat vermək, hansı heyvanın hansı bitkini daha çox sevdiyi, hansı yeməklərə meyil etdiyi, hansı heyvanın daha güclü olduğu barədə uşaqlara məlumat vermək, onların dünyagörüşünü inkişaf etdirməkdir.

«Mənim ömrüm nalımın içində yazılıb» nağılı da öz səciyyəvi xüsusiyyətləri ilə seçilir (133, 159).

Nağılda bir yandan keçmiş haqqında təsəvvür yaranır, heyvanlar haqqında uşaqların təəssüratı dəqiqləşir, başqa bir tərəfdən də onlara ibrət dərsi verilir.

Burada heyvanlar haqqında İraq–türkman nağıllarını Azərbaycan nağılları ilə doğmalaşdıran bir mühüm cəhətdən danışmamaq mümkün deyil. Kərkük dolaylarında da, Azərbaycanda da heyvanlar haqqında olan bütün nağıllarda heyvanlar bir-biri ilə danışır, vuruşur, küsüşür, dostluq və düşmənçilik edirlər. Bunlar müəyyən boyalarla, heyvanlara məxsus bir əda ilə yerinə yetirilir ki, bu da nağılın maraqlı olmasına, bədiiliyinin artmasına xidmət edir (194, 31).

Bu nağılların bir çoxu dialoq şəklində qurulmuşdur. «Qurdla qoyun», «Titlə-Bitlə», «Keçəl oğlan», «Keçəl oğlan matalı», «Davzanqurtağı», «İki keçəl», «Tülkünün hiyləbazlığı» belələrindəndir. Nağılların dialoq şəklində qurulması nağılın daha maraqlı olmasına kömək edir.

Bu nağıllar kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulduğundan onların dilinə, məzmununa, fikir aydınlığına xüsusi fikir verilmişdir. Onlar çox sadə və anlaşıqlı dildə yaradılmışlar.

SEHRLİ NAĞILLAR. Məlumdur ki, müəyyən ictimai mərhələdə təbiət hadisələrinə və eləcə də əhatəsində olan mühitə münasibətində xeyirlə şərin daimi mübarizəsi insanın

diqqət mərkəzində olmuşdur. Demək lazımdır ki, ümumbəşəri olan bu mübarizə İraq–türkman sehrli nağıllarında bariz şəkildə özünü göstərir. Xalqın bədii-fəlsəfi təfəkküründün məhsulu olan bu nağıllarda fitnə-fəsad, xəyanətkarlıq, paxıllıq, yalan, kələk, pislik və s-dən ilham alan qara qüvvələr, əsas qayəsi xeyirxahlıq, yaxşılıq, doğruçuluq olan xeyirxah qüvvələrə qarşı durur. Əsasını xariqüladə qüvvələr təşkil edən bu nağıllarda çox uzaq keçmişlərlə bağlı olan adət və ənənələrin izlərinə belə rast gəlmək olur. Qədim təsəvvürlərə görə sehrli nağıllarda heyvanlar istədikləri vaxt dönüb insan ola bilirmişlər. İraq–türkman nağıllarında eyni zamanda heyvanlar da başqa heyvan və quş şəklinə düşə bilirlər. Kərkük sehrli nağıllarında bir çox başqa xalqların nağıllarında olduğu kimi (301, 25) insanların da quş və ya heyvan cildinə girdiyini müşahidə etmək olar. Bu təsəvvürün qalıqlarına «Xayın vəzir», «Sas tavuğun təlnəgi», «Odunçu qızı», «Div Hənfiş və gözəl Gülbahar», «Ərsalan», «Əhməd və sehrkar sahibi» kimi sehrli nağıllarda təsadüf edilir. «Əhməd və sehrkar sahibi» nağılı «Oxxayın nağılı» adlı Azərbaycan sehrli nağılından fərqlənmir. Nağılın həm Kərkük, həm də Azərbaycan variantlarında sehrbaz Əhmədə tilsim və sehrləri öyrədir. Sehrbazın qızı Əhmədi sevir, Əhməd də onu sevir. Qız Əhmədi başa salır ki, əgər sehr və tilsimləri yaxşı bildiyini sehrbaza nümayiş etdirsə, sehrbaz onu məhv edəcək. Odur ki, Əhməd özünü avamlığa vurur, heç nə yadında qalmadığını deyir. Sehrbaz ona inanır və sağ-salamat buraxır. Lakin tezliklə aldandığını başa düşür. At donuna girmiş Əhmədi atası bazarda satarkən alır. Əhmədin atası yadından çıxararaq atı yüyənlə satdığına görə Əhmədin tilsimi gücdən düşür. Çünki sehrbaz yüyəni əlindən bir an belə buraxmır. Atı sarayına gətirir ki, öldürsün. Sehrbazın qızı məsələnin nə yerdə olduğunu anlayır. Sehrkar balta dalınca evə gedəndə qızı atın yüyənini boşaldır və sərbəstlik əldə edən Əhmədin gücü özünə qayıdır. Usta–şagird arasında mübarizə başlayır. Hər cür heyvan, quş və s. şəkillərinə düşürlər. Axırda Əhməd qalib gəlir və sevgilisi ilə qovuşur.

Bizim qənaətimizə görə bu nağılda insan gücünün onun müstəqilliyində, azadlığında olduğu ideyası da irəli sürülür. Başqa sözlə desək, istər hər hansı bir şəxs və ya xalq olsun, onun üçün həyatda ən ümdə şərtlərdən biri, bəlkə də, başlıcası onun azadlığı, müstəqilliyidir.

«Xayın vəzir» nağılı isə Azərbaycan folklorunda önəmli yer tutan «Sehrkar padşahla sehrkar vəzir» nağılına çox yaxındır (20, 277–279; 133, 145–147).

Bu nağılda ən çox diqqəti cəlb edən rəmz məsələsidir. Azərbaycan nağıllarında göyərçin məhəbbət, xeyirxah, xoş xəbər rəmzi (194, 32) olduğu kimi, Kərkük folklorunda da bədii obraz olan göyərçin məhəbbət və xoş xəbər rəmzidir. «Xayın vəzir» nağılının başlıca qayəsi ondan ibarətdir ki, nağılda gənclərə dostluqda sədaqətli, vəfalı olmaq kimi nəcib hislər aşılanır, şöhrətpərəstlik, xəyanət və s. pislənir.

«Odunçu qızı» və «Sas tavuğun təlnəgi»nə çap olunmuş Azərbaycan nağılları arasında təsadüf edilmir.

«Odunçu qızı» nağılında odunçu Həsənin gözəl qızı Gülşən tilsimə düşmüş gənc ərini öz vəfası ilə xilas edir. Hər cür cəfaya dözür, mətanət göstərir. Nağıldan belə məlum olur ki, on il müddətinə bir gün belə Gülşən ərini yada salmasa, göz yaşı tökməsə əri məhv olacaqmış.

Tilsimdən xilas olan Baznadan həmin əvvəlki məlahətli səslə Gülşənə deyir: «Sənin məhəbbətin məni tilsimdən xilas etdi. Əgər on ildə bircə gün də mənim haqqımda düşünməsəydin mən məhv olmalı idim» (133, 154).

Bəzi Azərbaycan nağıllarında olduğu kimi «Odunçu qızı» nağılında da cadu, tilsim vasitəsilə bir anda xariqüladə hadisələr baş verə bilir. Bir anda odunçu Həsənin kasıb daxmasının yerində padşahların həsəd aparacağı bir imarət qurulur, xidmətçilər əmr gözləyirlər.

Lakin bu nağıldakı və eləcə də başqa sehrli nağıllardakı tilsim və sehr heç də dini, mistik xarakter daşımır. Bu tilsim və cadular xalqın arzu və istəklərini ifadə edir.

Sehrli nağıllar əsasən real həyatı əks etdirir. Elə «Odunçu qızı» nağılında da, hər şeydən əvvəl, diqqəti cəlb edən cəhət budur.

Gülşən nə qədər qənirsiz gözəlliyə malik olsa da, «Altun saçlı, qara qaşlı, xumar gözlü Gülşən», «Aya deyir sən bat, mən çıxım» – gözəl olsa da, elə bil onu görən yox idi (133, 151). Çünki yoxsul bir kişinin qızı idi.

Nağılda diqqəti cəlb edən ənənəvi bir xüsusiyyət də vardır. Gülşən oğlanı nə qədər çox sevsə də, oğlanın təklifinə «Mən qarışmam. Babam kimə versə, ona varram» – deyə cavab verir (133, 151).

Göründüyü kimi, «Odunçu qızı» nağılında da başqa sehrli nağıllarda olduğu kimi fantaziya arxasında həqiqi real həyat durur. Doğrudan da, «bütün sehrli nağıllarda real həyat ünsürləri özünü büruzə verir» (325, 42; 301, 27). Bu nağıl bir daha göstərir ki, nağıllar nə qədər qədim olsalar da, bu gün belə öz əhəmiyyətini itirmir, həyatla səsləşirlər.

«Sas tavuğun təlnəgi» (lələk) İraq–türkman folklorunda sehrli nağılların ən yaxşı nümunəsi hesab edilə bilər (133, 147–150).

Xalq fantaziyasının gözəl bədii nümunəsi olan bu nağılda haqqın-ədalətin təntənəsi parlaq şəkildə öz ifadəsini tapmışdır.

Bu nağıl bir çox motivlərinə, xüsusiyyətlərinə görə Azərbaycan nağılları ilə səsləşir.

«Dünya gözəllik kraliçası» İraq–türkman nağıllarında kor olmuş atasının gözlərinin əlacı olan torpaq və ceyran südü dalınca ölüm vadisinə kiçik qardaşın gedərək istəyinə nail olduğu kimi (117, 74) bu nağılda da (133, 147–156) kiçik qardaş müvəffəqiyyət qazanır, tale onun üzünə gülür.

Bir çox Azərbaycan sehrli nağıllarında olduğu kimi İraq–türkman folklorunda məşhur olan «Sas tavuğun təlnəgi» nağılında da əsas surətlərdən biri divdir. Nağılda baş qəhrəman əfsanəvi köməkçiləri ilə birgə çox güclü olan divlə mübarizə aparır, qırılmaz tilsimi açır, divi aldadır.

Azərbaycan sehrli nağılları üçün səciyyəvi olan bir xüsusiyyətə də bu nağılda təsadüf edilir. Gözəl qız Gülnaz divlər tərəfindən oğurlanıb tilsimə salınır.

Bu nağılda da baş qəhrəman xeyirxahlığı ilə seçilir. Tələyə düşmüş tülkünü xilas edir, heyvan və quşları ovlamır, onları incitmir.

Nağılda uşaqlar və gənclərə xeyirxahlıq, iradə, sədaqət, mərdlik, dəyanət, səxavət, böyüklərə hörmət, onların məsləhətlərinə qulaq asmaq və s. kimi müsbət keyfiyyətlər aşılanır. Paxıllıq, haqsızlıq, yalançılıq, namərdlik və s. kimi mənfi xüsusiyyətlər pislənir.

Azərbaycan, rus və başqa xalqların sehrli nağılları üçün ənənəvi priyom olan hadisələrin üç dəfə təkrar olunmasına (301, 24) da bu nağılda təsadüf edilir.

Məlumdur ki, Azərbaycan fantastik nağıllarında hadisələri daha təsirli, daha qüvvətli etmək üçün işlədilən üçləmələr aşağıdakı şəkildə olur: üç qardaş, üç sual, üç şərt və s. (194, 47).

Qəhrəman üç dəfə gedər-gəlməzə, yaxud sehrli əşyalar gətirməyə göndərilir. Bu üçləmələr həm Azərbaycan, həm də İraq–türkman folklorunda elə qurulmuşdur ki, üçüncü rəqəm əvvəlki iki rəqəmdən fərqlənir. «Sas tavuğun təlnəgi»ndən göründüyü kimi, üçüncü qardaş – kiçik qardaş daha ağıllı, qorxmaz, şücaətli və qəhrəman olur. Şahzadənin Sas tavuğu əldə etmək üçün üçüncü cəhdində məsələ həll olunur.

Azərbaycan sehrli nağıllarında rast gəlinən hadisələrin şaxələndirilməsinə, haşiyəyə çıxmaq, hadisələrin bir-birinə bağlanması kimi bədii vasitələrə də «Sas tavuğun təlnəgi» nağılında təsadüf edilir. Şahzadə Sas tavuğu əldə etmək üçün Günçıxan padşahın yanına gedir. Padşah onun qarşısında şərt qoyur ki, onun üçün Kor Kosranın atını gətirsə, istəyinə nail olacaq. Şahzadə Kor Kosranın dalınca gedir. Kor Kosra onun qarşısında şərt qoyur ki, əgər düşmən divlərin əsirliyində olan gözəl Gülnazı azad edib gətirə bilsə, istəyinə nail olacaq.

Göründüyü kimi, hadisələr qəribə bir tərzdə inkişaf edərək, biri digərindən asılı və daha çətin olmaq şərtilə üç dəfə

təkrar edilir. Dinləyici intizarla nağılın necə qurtaracağını gözləyir. Bu bədii priyom dinləyicini ram edir. Nağılın zənginləşməsinə kömək edir.

İraq–türkman folklorunda yeddi və qırx rəqəmləri də özünü göstərir. Məsələn:

«Simurq-Anqa onu yeddi qat göyə çıxartdı».

Və ya: «Qara qoç üstünə minən kimsəni yeddi qat yerin dibinə endirir. Bəyaz qoç isə üstünə minən kimsəni yerin dibindən yeddi qat göyə çıxarır» (117, 66).

Və ya: «Qırx gün, qırx gecə toy etdilər. Şəkərlər paylandı. Sevinclər oldu. Şadlıqla yaşadılar» və s.

Nağılda diqqəti cəlb edən məsələlərdən biri də tülkü obrazıdır. Kərkük nağıllarında da tülkü adi bir heyvan olmaqdan başqa, həm də «hiyləgərlik» rəmzidir, Doğrudur, «Sas tavuğun təlnəgi» nağılında da tülkü müxtəlif hiylələrə, kələklərə, fəndlərə əl atır, dondan-dona girir, bununla belə, onun hiylələri xeyirxahlıq məqsədilə edildiyinə görə tülkü bu nağılda xeyirxahlıq rəmzinə çevrilir.

Bu nağılı Azərbaycan nağılları ilə birləşdirən bir vacib məsələ də vardır. Pəri tülkü Gülzarın donuna girərək Şahzadə ilə Kor Kosranın yanına gedəndə dönə-dönə şahzadəyə tapşırır ki, onu Kor Kosranın atına dəyişəndə atın qantarğa və cilovunu almamış sövdəyə razı olmasın (133, 149). Əks təqdirdə at qaçıb Kor Kosranın yanına qayıdacaq. Deməli, yüyəni, noxtanı və s. əldən verdikdə sehr öz gücünü itirir. Eyni məsələyə İraq–türkman folklorunda «Əhmədlə Sehrbaz sahibi», Azərbaycanda «Oxxayla Əhməd» adlanan nağılda da təsadüf edilir. Əhməd atasına deyir ki, bir tilsim oxuyub at olacaq. Aparıb onu bazarda satsın. Ancaq yüyəni əlindən verməsin (33, 69).

«Keçəllə qazı» Azərbaycan nağılında isə şeytan keçələ deyir ki, bir dua oxuyum, olum qatır, apar məni qazıya sat. Amma noxtamı əlindən vermə, yəni məni satanda noxtanı özündə saxla (14, 304).

Göründüyü kimi, bu məsələdə də Kərkük nağılları ilə Azərbaycan nağılları arasında bir doğmalıq vardır.

İraq–türkman folklorunda da at murad rəmzidir. Şahzadə Kor Kosranın atını əldə etdikdən sonra murada çatır.

Həm İraq–türkman, həm də Azərbaycan folklorunda at eyni zamanda vəfalı heyvan rəmzidir. Böyük qardaşları Şahzadəni quyuya atandan sonra Kor Kosranın atının qaçaraq gəlib quyunun başında kişnəməsi, onu oyatması bu baxımdan maraq doğurur.

Onu da qeyd etmək lazımdır ki, bir çox Azərbaycan nağıllarında olduğu kimi, İraq–türkman sehrli nağıllarında məişət motivləri özünü qabarıq şəkildə büruzə verir.

Bəzən o qədər qaynayıb qarışırlar ki, onları ayırmaq çətin olur. Tədqiqatçıların göstərdiyi kimi, adi məişət motivləri ətrafında cərəyan edən bu nağıllarda ceyran, yaşılbaş sona, Simurq, göyərçin, xoruz, pəri, div və s. qeyri-adi obrazlar olsalar da, mətnin tərkib hissəsinə çevrilirlər.

TARİXİ NAĞILLAR. İraq–türkman folklorunda tarixi nağıllar o qədər də geniş yayılmamışdır. Onlar həm məişət, həm də tarixi nağıllara aid edilə bilərlər. «Şah Abbas və Pinəduz» və «Palançı qızı» belələrindəndir. Bu nağıllarda Şah zalım, zülmkar kimi göstərilmir, əksinə, onun hərəkətləri dinləyicini ona hüsn-rəğbət bəsləməyə vadar edir. Bununla belə, Kərkük nağıllarında müsbət qəhrəmanlar əsasən kütlə içindən çıxan, zəhmətlə dolanan adamlar olurlar.

«Şah Abbas və Pinəduz» nağılı «Pinəçi Murad və Şah» və «Pinəçi» Azərbaycan nağıllarına çox yaxındır. Süjetdə yeganə fərq nağılın Azərbaycan variantında pinəçi Muradın evli olması, hər axşam qonaq qəbul etməsi, musiqiçilər dəvət etməsidir (157, 107; 21, 167). Nağılın Kərkük variantında isə pinəçinin kimsəsi yoxdur. Gündüzlər qazandığı qəpik-quruşa bir az yemək, bir az da içki alır, axşamlar içir və tənhalığın ağrı-acılarını unutmağa çalışır.

Nağılın həm Kərkük, həm də Azərbaycan variantlarında Şah Abbasla Pinəçinin rastlaşması da elə buradan başlayır. Şah Abbas rəiyyətinin onun əmrlərinə necə əməl etdiyini yoxlamaq üçün əmr vermişdi ki, həmin axşam heç kim çıraq yan-

dırmasın. Özü də axşam dərviş paltarı geyib şəhəri gəzməyə başlamışdı. Bir evdə işıq yandığını görərək gəlib pinəçinin evinə çıxmışdı. Məlum olur ki, pinəçi hər axşam içki içməklə tənhalıqla mübarizə aparır. Şah Abbas pinəçini imtahana çəkir. Lakin bu ağır imtahanda zəhmətkeş xalqın nümayəndəsi öz ağlı, dərrakəsi, fəndgirliyi ilə şahı məğlub edir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bəzi nağıllardan çıxış edərək Şah Abbası ciddi dövlət işlərini başlı-başına buraxıb, mənasız əyləncələrlə gün keçirən, maraqlı, məzəli hadisələrlə vaxtını xoş keçirməyə can atan bir hökmdar kimi göstərmək həqiqətdən uzaqdır. Bu, təbii ki, öz mütərəqqi ideyaları ilə bir çox padşahlardan qat-qat üstün olan Şah Abbasın dövrünü yaxşı bilməmək və eləcə də Şah Abbas barədə özündən sonra yaranmış bir çox nağılların təsiri altında formalaşan qənaətin nəticəsidir. Doğrudur, bütün Azərbaycan nağıllarında şahlar mənfi təsvir edilirlər (193, 89). Rus nağıllarında isə çarlar axmaq, səfeh təsvir edilirlər. Bundan çıxış edərək bütün rus çarları barədə hökm vermək nə qədər doğru olardı?

Eləcə də Şah Abbasın zalım, ağılsız, ədalətsiz şah kimi təsvir edildiyi nağıllara böyük diqqət yetirərək, onun ədalətli, ağıllı, qayğıkeş bir hökmdar kimi tərifləndiyi nağılları hakim sinfin yaratdığı barədə hökm də doğru deyildir. Şah Abbasın quruculuq işləri sayəsində karvansaralar, körpülər tikilir, yollar, kanallar çəkilir, məscidlər, mədrəsələr təsis edilirdi. Bu xeyirxah quruculuq işləri onun müsbət, ağıllı, uzaqgörən şah olduğunu düşünməyə əsas verir. Şah Abbasın vaxtında güclü ordu yaradılmış, Azərbaycanın əvvəllər itirilmiş torpaqları, o cümlədən də İraq geri qaytarılmışdı (357, 30; 255, 85). Bütün bunlardan əlavə onu da unutmaq olmaz ki, Şah Abbas sadə xalq içərisindən çıxmış Allahverdinin ağlını, dərrakəsini yüksək qiymətləndirərək, onu özünə vəzir götürmüş, onun ağıllı məsləhətləri ilə oturub-durmuşdur. Tarixdən məlumdur ki, Şah Abbas abadlıq işləri aparır, xalqa güzəştlər edir, camaata qayğı ilə yanaşır, ləyaqətli və layiqli adamlara yüksək qiymət verirdi. İ.P.Petruşevski bu münasibətlə yazmışdır: «Şah yaxşı

xidmət göstərən ən aşağı təbəqəyə mənsub kölələrdən əmirlər təyin etməyə başladı. Belə kölələrdən biri də Şah Abbasın ən yaxşı sərkərdələrindən olan Allahverdi xan idi» (315, 118).

Deyilənlərə onu da əlavə etmək yerində olar ki, Kərkük nağıllarında olduğu kimi bir çox Azərbaycan nağıllarında da Şah Abbas müsbət qəhrəman kimi göstərilmişdir (193, 87; 111, 122).

Tarixi nağıllarla bağlı bir cəhət də diqqəti cəlb edir. Görkəmli Azərbaycan folklorşünası M.H.Təhmasib tarixi nağıllardan danışarkən göstərir ki, Azərbaycan nağılları öz qəhrəmanları bəzən Yəmən, Hindistan, Misir, Çin və başqa yerlərdən gətirir. Lakin buna baxmayaraq onların hamısı Azərbaycanın öz ictimai-siyasi, təbii varlığı içərisində yaranmışdır (213, 135).

Buna biz «Palançı qızı» adlı Kərkük nağılında da rast gəlirik. Bu nağılda da padşah Çinə, Maçinə, Gül ölkəsinə səyahət edir. Bu, təbii sayılmalıdır. Çin və Maçində yaşayan çoxsaylı türkdilli xalqla – uyğurlarla, şübhəsiz, gediş-gəliş olmuş və bu öz əksini nağıllarda da tapmışdır. Bundan əlavə, «Palançı qızı» nağılında diqqəti cəlb edən bir neçə cəhət vardır. Hər şeydən əvvəl, bir çox Azərbaycan nağıllarında təsadüf edilən ağıllı, bacarıqlı qadın surəti bütün müsbət keyfiyyətləri ilə bu nağılda da özünü göstərir. Palançı qızı öz ağlı, zəkası, dərrakəsi, cəsarəti, təmkini, dözümü ilə padşahı məğlub edir.

«Palançı qızı» nağılında diqqəti cəlb edən ikinci cəhət «İlyasın nağılı», «Üç şahzadə», «Dərzi şagirdi Əhməd» və s. Azərbaycan nağıllarında olduğu kimi tapmacalardan istifadə edilməsidir. Bu cəhətə ailə-məişət nağıllarının ən gözəl nümunəsi olan «Yola nərdivan ataq» və s. kimi İraq–türkman nağıllarında da təsadüf edilir.

«Palançı qızı» nağılında diqqəti cəlb edən cəhətlərdən biri də sehrli nağıllarda olduğu kimi ənənəvi priyoma sadiq qalınaraq hadisələrin üç dəfə təkrar olunmasıdır. Nağılda üç bacıdan, padşahın üç səfərindən, Palançı qızının üç dəfə onun arxasınca səfərə çıxmasından, onunla üç dəfə şahmat oyna-

masından, üç gecə padşaha mehman olmasından, padşahdan üç əşya – xəncər, təsbeh, yaylıq almağından, padşaha üç uşaq bəxş etməyindən və s. söhbət gedir.

Göründüyü kimi, bu nağılda da məsələ üçüncü səfərdən sonra müsbət həll olunur, mətləbə çatılır.

Sehrli nağıllarda olduğu kimi, bu nağılda da sonbeşik – kiçik bacı ən ağıllı, ən dərrakəli olur. Öz ağlı, dərrakəsi ilə padşahı məğlub edir.

Son övladın daha ağıllı, daha dərrakəli təsvir olunması bir daha göstərir ki, nağıllar real həyatla bağlıdır. Məlumdur ki, bütün xalqların folklorunda son övlad böyük qardaş və bacılarına nisbətən daha ağıllı olur. Bizcə, bunun real həyatdan götürülmüş əsası vardır. Buna yalnız təxəyyül məhsulu kimi baxmaq doğru olmazdı. Məsələ burasındadır ki, altı ilə qədər Qafqaz xalqlarının həyat tərzini, adət-ənənəsini, yaşayışını öyrənən, uzunömürlülər üzərində müşahidə və tədqiqat aparan amerikalı professor Sula Benet bu qənaətə gəlmişdir ki, insan yaşa dolduqdan sonra ondan dünyaya gələn övladlar daha ağıllı, daha bacarıqlı olurlar (200).

Deməli, hələ qədim zamanlardan insanlar öz həyat təcrübəsində bu həqiqətdən xəbərdar olmuş və insan təxəyyülünün məhsulu olan nağıllarda bu real həyat həqiqəti öz əksini tapmışdır.

AİLƏ-MƏİŞƏT NAĞILLARI. İraq–türkman folklorunda məişət nağılları başqa qrup nağıllara nisbətən daha çoxdur. Həcm etibarilə nisbətən kiçik olsalar da, bu nağıllar xalqın həyat tərzini, yaşayışını, güzəranını, adət-ənənəsini, mübarizəsini, arzu, istək və ümidlərini yığcam bədii boyalarla əks etdirir. «Yola nərdivan ataq», «Keçəl oğlan», «Tənbəl Əhməd», «Usta Nəzər», «İki keçəl» belə nağıllardandır.

Onu da qeyd etmək vacibdir ki, əksər İraq–türkman məişət nağılları Azərbaycan nağıllarından fərqlənmirlər. «İnad xoruz» – «Xoruzla padşah» nağılına, «Keçəl oğlan matalı» – «Cik-cikxanım» nağılına, «Keçəl oğlan» – «Dovşan» nağılına bənzəyir (17, 43, 48, 56; 133, 305, 307, 308).

Xalqın həyatı, güzəranı, məişəti, adət-ənənəsinə dair maraqlı səhifələr olan bu nağıllarda hökmdar, vəzir, molla, tacir və başqaları ilə zəhmətkeş xalq nümayəndələrinin qarşılaşmasından, ictimai haqsızlıq, ədalətsizlik, özbaşınalıq, dərəbəylik, yoxsulluq, ehtiyac və s-dən danışılır. Bu nağılların baş qəhrəmanları ağıl, zəka, tədbir, ədalət, insaf, vicdan, doğruçuluq hesabına istəklərinə nail olur, mənəvi keyfiyyətləri ilə qələbə qazanırlar.

Bu qəhrəmanların şəxsində xalq öz istək və arzularını təcəssüm etdirir. Ailə-məişət nağıllarında real həyat həqiqətləri, ictimai-siyasi fikirlər daha qabarıq şəkildə özünü göstərir. Həyat realist boyalarla verilir. Məhz buna görədir ki, V.Y.Propp yazır: «Məhz nağıllar, xüsusən də məişət nağılları yazılı realist nəsr ədəbiyyatının soykökü, təkanverici mənbəyi olmuşdur» (320, 88).

Maksim Qorki isə məişət nağıllarının qəhrəmanlarından danışarkən göstərirdi ki, bu qəhrəmanlar çox qüdrətli olmasalar da, öz inadları sayəsində hər şeyə qalib gəlirlər (84, 18).

«Yola nərdivan ataq» nağılı az-çox «Padşah və pinəçi» nağılı ilə səsləşsə də, müasir olmaqla, tamamilə tapmacalar üzərində qurulub (133, 160; 21, 158).

Başqa xalqlarda olduğu kimi, dialoq şəklində olan və tapmacalar üzərində qurulan məişət nağıllarının məğzini təzadlar təşkil edir. Bir tərəf tapmacalarla başqa tərəfi sınaqdan keçirir, o biri tərəf baş sındırır, cavab hazırlayır. Biri ağıllı, dərrakəli olur, gözəl cavab verir, o biri axmaq cavab verməklə həm özünü gülünc vəziyyətə salır, həm də sınaqdan çıxa bilmir. Arzusuna çata bilmir. Eyni vəziyyətə «Yola nərdivan ataq» nağılında da təsadüf edilir.

Müasir həyatdan bəhs edən bu real, inandırıcı nağılda Azərbaycan məişət nağıllarına xas olan bir çox xüsusiyyətlərə təsadüf edilir. Burada da qız sevdiyi oğlanın ağlını, düşüncəsini tapmacalar vasitəsilə yoxlayır. Oğlan kasıb olsa da, qız onun ağlını hər şeydən üstün tutur. «Ağlı varsa, var-dövlət qazanacaq, ağlı yoxsa, olanı da dağıdacaq», – deyərək onu

imtahana çəkir. Burada da oğlan qızın suallarına doğru cavab verərək onun məhəbbətini qazanır.

Bu nağılda xalq qadını sədaqəti, təmkini, tədbiri ilə seçilən vəfalı yoldaş, insanları valeh edən gözəl bir varlıq kimi tərənnüm edir.

Ümumiyyətlə, «Odunçu qızı», «Xayın vəzir», «Palançı qızı» və s. İraq–türkman nağıllarından da göründüyü kimi, patriarxal dünyagörüşündən fərqli olaraq, xalqın qadına münasibəti həmişə müsbət olmuşdur (133, 145, 150, 155). Burada qadınlar ağıllı, cəsarətli, iradəli, mətin, vəfalı, sədaqətli, namus və şərəfini hər şeydən üstün tutan varlıq kimi göstərilirlər ki, bu xüsusiyyətlər onları Azərbaycan nağılları ilə doğmalaşdırır.

Demək lazımdır ki, qadına müsbət münasibət İraq– türkman folklorunda təkcə nağıllarda deyil, atalar sözü və bayatılarda və eləcə də «Arzu-Qəmbər» və başqa dastanlarda da özünü bariz şəkildə göstərir.

M.Qorkinin qeyd etdiyi kimi, çox qədim zamanlardan bəri yorulmadan öz xüsusi yolu ilə tarixə yoldaşlıq edən folklorun epik növünün nağıl janrında müxtəlif təbəqələrin mübarizəsi qəribə bir tərzdə öz əksini tapmışdır. Bu baxımdan, igidlik nağılları «Məhəmməd Çələbi», «Sığır oğlu» və xüsusən də Keçəllə bağlı İraq–türkman nağılları fərqlənirlər. M.H.Təhmasib baş qəhrəmanı Keçəl olan nağıllardan danışarkən göstərmişdir: «Nağıllar öz təması, öz qəhrəmanı və bu qəhrəmanın təqib etdiyi məqsəd, daşıdığı ideologiya etibarı ilə müəyyən bir təbəqə ilə bağlıdır. Bu qəhrəmanlardan birisi muzdur–nökərdir. Qəhrəmanı muzdur-nökər olan nağıllar Azərbaycan nağılları içərisində ən xarakterik nağıllardır. Bu qəhrəmanlar Keçəl adlanırlar. Keçəl Azərbaycan nağılının mübariz qəhrəmanıdır (213, 137).

Bu, İraq–türkman folklorunda da eynilə belədir. İraq-türkman məişət nağılları arasında geniş yayılan və xalq tərəfindən çox sevilən nağıllar keçəllə bağlı olanlardır. Keçəl İraq–türkman nağıllarında da, Azərbaycan və bəzi türk xalq-

larının nağıllarında olduğu kimi əzmindən dönməyən, haqsızlığa dözməyən, ağlı, zəkası ilə nahaqqı damğalayan, çətinliklərdən çəkinməyən qoçaq, qorxusuz mübarizdir. Ona girişmək, onu hiylə ilə aldatmaq mümkün deyil. Ona yalnız oğuzların «kiçik ölüm» adlandırdığı yuxuda olarkən qalib gəlmək, onu tələyə salmaq olar. Odur ki, xalq arasında keçəllə bağlı deyirlər:

Qaçsa tutulmaz,
Oynasa udulmaz.
Günnən əvvəl, bəlkə, aldanar,
Gün çıxsa aldanmaz (149, 98).

Keçəllə bağlı iraqlı tədqiqatçı Məhəmməd Xurşidin fikri də maraq doğurur: «Keçəl oğlan bəzi masallarda keçən tanınmış bir şəxsiyyətdir. İlkin sönük olaraq önəmsiz bir rolu olur. Masal irəlilədikcə doğruluğu və igitliyini göstərməyə başlar. Paşa və padşah qızını alar. Xoşbəxt yaşarlar» (149, 135).

Dünya xalqlarının folklorunda keçələ bənzər qəhrəmanlar çoxdur. Məsələn, ruslarda ağıldankəm İvan, hindlərdə pinti yetim, Skandinaviya ölkələrində peçin üstündə yatan və s. belələrindəndir (306, 213–255). Lakin həmin qəhrəmanlar istəklərinə başlıca olaraq sehr vasitəsilə nail olurlarsa, keçəl göstərdiyimiz kimi, istəyinə ağlı, zəkası ilə çatır.

Keçəllə bağlı Kərkük nağıllarında, Keçəlin Azərbaycan nağıllarında olduğu kimi (193, 105) həmişə müsbət planda verilməsi bizcə, hər şeydən əvvəl, bununla bağlıdır. Keçəl mübarizdir. Onun mübarizəsi ictimai həyatın hər bir sahəsində özünü göstərir. Bu mübarizə bəzən sadəcə olaraq mübarizə xatirinə edilirsə, çox vaxt ictimai-iqtisadi ziddiyyətlərin zəruri nəticəsi kimi meydana çıxır.

Ümumiyyətlə, Keçəllə bağlı nağıllarda öyüd-nəsihət, həyat təcrübəsi və s. qabarıq şəkildə özünü göstərir.

İraq–türkman folklorunda Keçəllə bağlı nağıllar arasında uşaqların yaş xüsusiyyəti, psixologiyası nəzərdə tutularaq ya-

radılan nağıllar da yox deyildir. Bunların ən yaxşı nümunəsi «Keçəl oğlan» nağılıdır.

Bu kiçik həcmli nağılda uşaqlara insanlar, sənət və sənətkar, heyvanlar, təbiət və təbiət hadisələri, bitkilər, meyvələr və s. haqqında məlumat verilir. Nağıl onların dünya görüşünün inkişafına, nitqlərinin rəvanlaşmasına, təkrarlar hesabına uşaqların yaddaşlarının möhkəmlənməsinə kömək edir.

Bütün İraq–türkman və eləcə də Azərbaycan nağıllarında irəli sürülən ideya xeyrə rəğbət, şərə nifrət aşılamaqdadır. Bu baxımdan, «İki keçəl» nağılı xüsusilə fərqlənir. Bu nağılda ağıl, zəka, düşüncə, yumor, hazırcavablıq və s. təqdir edilir. Paxıllıq, acgözlük, tamahkarlıq və s. kimi sifətlər isə pislənir.

İraq–türkman ağız ədəbiyyatında da Azərbaycan nağıllarında olduğu kimi keçəllər yazıq, çirkin olur, həmişə gülməli vəziyyətə düşürlər. Onlar uçuq-sökük daxması, bircə anası və ya nənəsi, var-dövlətdən vur-tut bircə danası, cöngəsi və ya xoruzu olan kimsəsiz yoxsullar kimi təsvir edilirlər.

Lakin hadisələrin gedişində onun əsl siması üzə çıxır. Xalqın arzu və istəyini ifadə edən keçəllər, ağlı, zəkası, hazırcavablığına görə xalqın sevimlisinə çevrilmişlər.

Azərbaycan nağıllarına xas olan baş qəhrəmanların ümumiyyətlə, ideallaşdırılması – ilahi gözəlliklərə, yüksək insani keyfiyyətlərə malik olmaq, ağıl, kamal, rəftarda tayı-bərabəri olmamaq və s. xüsusiyyətlər eyni ilə İraq–türkman nağılları üçün də səciyyəvidir.

Epik növün çox geniş yayılmış janrı olan nağılların bədiilik cəhətdən böyük əhəmiyyəti vardır. Süjetli olmaları və başqa janrlara bu istiqamətdə təsiri, onları başqa janrlardan müsbət mənada fərqləndirir.

Xalq təfəkküründün əvəzsiz xəzinəsi, «xalqın psixologiyasını öyrənmək üçün vacib və lazım olan əsl xalq yaradıcılığı nümunələri» (302, 610) sayılan nağıllar, o cümlədən də İraq–türkman nağılları xalqın milli xüsusiyyətlərini, adət-ənənəsini, məişət tərzini, ümumiyyətlə, mədəniyyətini öyrənmək baxımından nə qədər uzaq keçmişlərlə bağlı olsa da, bu gün də öz əhəmiyyətini itirmir.

ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

Atalar sözləri və məsəllər başqa janrlarla bərabər, onu yaradan xalqın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət və ənənəsini və s. əks etdirən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, adət-ənənələrə, hətta unudulub getmiş, hafizələrdən silinmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf edilir. Odur ki, tədqiqatçılar bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözü və məsəlləri unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi dəyərlər mənbəyi baxımından qiymətləndirir. Filosof atalar sözü və məsəllər vasitəsi ilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etmək işində əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır (287, 7). Deməli, atalar sözləri və məsəllər «yalnız xalqın dünyagörüşünü, təfəkkürünü ifadə edən nümunələr olmayıb, həm də bir növ tarixi sənədlərdir» (111, 98).

Bu baxımdan, əsrlərlə müəyyən tarixi, ictimai-siyasi səbəblər üzündən təcrid olunaraq başqa xalqlar əhatəsində qalan, İraq ərazisində yaşayan, azərbaycanca danışan İraq türkmanlarının atalar sözləri və məsəlləri xüsusi əhəmiyyət kəsb edir.

Müxtəlif xalqlarda «ibrətamiz söz», «qanadlı söz», «qızıl söz», «dilin gülzarı», «xalq məktəbi», «xalq hikməti», «ruhun təbibi», «ağlın gözü» və s. adlarla tanınan, bədii söz sənətinin bu təkrarsız inciləri Azərbaycanda olduğu kimi İraq–türkman folklorunda da «atalar sözü» və ya «əskilər sözü» adlanır (122; 209).

Atalar sözləri xalq arasında «böyüklər sözü», «dədələrdən qalma söz», «ululardan qalma söz» kimi də tanınır ki, bununla da ən qiymətli irs olduğuna işarə edilir. Bu baxımdan «Sabit söz birləşmələri» kitabından gətirdiyimiz sitat maraq

doğurur: «Oğuznamə» məcmuəsindəki atalar sözlərinin birində deyilir: «Atalar sözləri «Quran»a daxil deyildir, lakin Quran ilə yan-yana yayılır» (7, 30).

Təsadüfi deyildir ki, akademik V.A.Qordlevski yazmışdır: «Osmanlı üçün və ya ümumiyyətlə, hər hansı bir türk üçün atalar sözü babalardan qalma ən qiymətli irsdir. Bunlara atalar sözləri («slova otüov») deməklə türklər bu sözlərə həm də öz münasibətlərini bildirmiş olurlar. Bu hələ azdır: türklərin nəzərində din necə müqəddəsdirsə, atalar sözü də eləcə müqəddəsdir» (282, 26, 77).

Açığını deyək ki, bu elə Kərkük dolaylarında da belədir. Sağlam düşüncə, iti ağıl və müdriklik məhsulu olan, hədəf nöqtəsinə sərrast tuşlanmış atalar sözləri və məsəllər Kərkük dolaylarında çox geniş yayılmışdır. Mənaca zəngin, məzmunca rəngarəng olan atalar sözü və məsəllər hər addımbaşı adamın köməyinə çatır, bütün xalq kütləsi onlardan məmnuniyyətlə istifadə edir. Atalar sözləri elə bir dirilik bulağıdır ki, onun suyundan dadan sənətkarların da xalqla əlaqəsi daha möhkəm olur (233, 7). Xalq isə ağıla, kamala, müdrikliyə həmişə yüksək qiymət vermişdir. Yerində deyilmiş atalar sözü fikrin dəyərini, gücünü birə-on artırır, xalq ağıl və mərifət sahibini layiqincə qiymətləndirir. Bu, başqa xalqlarda da belədir. Amxarlara görə atalar sözü və məsəllərdən məhrum nitq duzsuz yeməyə bənzəyir. Qaraqalpaqların hikmətli kəlamında isə deyilir ki, ağıllı adamın nitqini atalar sözü bəzəyir (321, 49, 259).

Təsadüfi deyildir ki, xalq ədəbiyyatının bütün qollarında, xüsusən də atalar sözləri və məsəllərdə hikmətli öyüdlər, nəsihətlər özünə geniş və möhkəm yer tutmuşdur. Tədqiqatçı T.Xalisbəylinin göstərdiyi kimi, ən yaxşı insani keyfiyyətlər aşılamaq üçün böyüklərin öyüdləri, nəsihətləri xalq ədəbiyyatı və xalqın müdrikləri qarşısında duran ən gərəkli iş olmuşdur. Xüsusilə, bu ədəbi yol atalar sözü və məsəllərdə daha işlək, daha canlı və daha qabarıq şəkildə olmuşdur. Şübhəsiz, atalar sözü və məsəllərin əksəriyyəti elə bu məqsədlə yaradılmışdır. Ona görə də onları uzun yüzilliklər boyu «xalq hikməti» ad-

landırmışlar (225, 420). Burada həm xalqın məntiqi, psixologiyası, pedaqogikası, birgəyaşayış qaydaları, həm də əmək fəaliyyəti, cəmiyyətdə davranış qayda-qanunları öz əksini tapmışdır. Bütün bunlar İraq–türkman atalar sözü və məsəllərinin əsasını təşkil edir.

Xalq kütləsinin təfəkküründü ibrətamiz bir tamlıqla ifadə edən, hamı tərəfindən danışıq əsnasında hər an, hər münasibətlə işlədilən, Şərq milli koloritini əks etdirən İraq–türkman atalar sözləri və məsəllərində, hər şeydən əvvəl, nəzərə çarpan cəhət dərin məna ilə bərabər, axıcılıqdır. Bunların əksəriyyəti rədifi, qafiyəsi yerində olan gözəl şeir parçasını andırır. Məsələn:

Yoldaş tanı, yola var, yolda yüz min bəla var.
Acıq gələr üz saralar, acıq gedər üz qaralar.
Xarab qardaş, qara daş.
Nənəli qız bəlli qız, nənəsiz qız dəlli qız.
Səbirnən çiylər bişər, səbrsiz mələk çaşar.
Tamah etdilər mala, qızı verdilər lala.
Göyü köpəksiz gördü, əli ağacsız girdi.
Nə duzlu ol – atıl, nə duzsuz ol – satıl.
Nə belə et – öyül, nə elə et – söyül.
Alışdın yağlı dolmaya, əcəb bir gün olmaya.
Qalıbdı öz başına, örtübdü bez başına.
Bir çulum var ataram, harda gəlmiş yataram.
Astarına bax – bezini al, nənəsinə bax – qızını al.
Uzun yaşlı, ağır (ağıllı) başlı.
Gah babası adına, gah ləbi dadına.
Nə vaxt yağış, o vaxt qış.
Aləmə dəf-dümbələk, bizə xəlbir-ələk və s.

Hər biri bir inci olan bu hikmətli sözlərin əksəriyyəti Azərbaycan atalar sözü və məsəllərindən fərqlənmir. Görkəmli Azərbaycan alimi, folklorşünas M.H.Təhmasib bu münasibətlə yazmışdır: «Kərkük əskilər sözü» kitabından 700 atalar

sözünün çox kiçik bir hissəsi bugünkü azərbaycanlı üçün «yeni»dir, yəni naməlumdur. Bu da ancaq və ancaq sırf yerli Kərkük mühiti ilə bağlı olanlara və bizdə işlənməyən sözlərdən ibarət olan nümunələrə aiddir. Əksəriyyət isə bizdə də bu gün işlənən atalar sözü və məsəllərdir» (216). İlk baxışda burada qeyri-adi bir şey yoxdur. Məlumdur ki, bir-birindən çox-çox uzaqlarda yaşayan dünya xalqlarının az-çox fərqlərlə eyni tarixi mərhələ keçirməsi nəticəsində atalar sözləri və məsəllərin bir-birinə çox yaxın nümunələrinə təsadüf edilir. Məsələn:

Gözdən uzaq, könüldən uzaq.
Yaxşı dost yaman gündə məlum olar.
Gül tikansız olmaz.
Cücəni payızda sayarlar və s.

Lakin biz eyni həyat tərzini, eyni dünyagörüşü, eyni inam və etiqadları, adət-ənənələri əks etdirən, hərfi-hərfinə eyni olan, eyni qatdan qidalanan atalar sözlərindən söhbət açırıq. Təkcə onu demək kifayətdir ki, Ə.Hüseynzadənin 1956-cı ildə çap etdirdiyi, həcmcə çox da böyük olmayan «Atalar sözü» kitabında İraq–türkman ata sözləri ilə hərfi-hərfinə eyni olan üç yüzdən artıq atalar sözünə təsadüf etdik (175, 204–207).

Təbii ki, sırf Kərkük mühiti ilə bağlı olan, yalnız İraq–türkman folkloruna xas olan atalar sözləri və məsəllər də yox deyildir. Məsələn:

Əvvəl Fərəc bəzirganıydı, indi ignə-saqqız satır.
Molla Nəsrəddin hekayəti oldu.
Nə Leyli xəstə düşsün, nə Məcnun can versin.
Təvəkkülün gəmisi batmaz.
Ustadımın adı Xıdır, əlimdən gələn budur.
Xəndandan xəta çıxmaz.
Şirağanın Marağada bağı var, üzümü yox, yarpağı çox.
Bağdad kimin şəhər, qardaş kimin yar olmaz.
Balı olanın çibini Şamdan gələr.
Bir köyün ağası Salman olsun, o köydə nə xırman olsun.

və s. bu qəbildəndir.

Lakin bir çox atalar sözləri və məsəllərdə özünü göstərən cəhətsə bu və ya digər sözün variantının işlənməsidir. Məsələn:

Saxla samanı, gələr zamanı (Azərbaycan).
Qaldır samanı, gələr zamanı (Kərkük).
Yanlış hesab Bağdaddan qayıdar (Azərbaycan).
Yanlış hesab Bağdaddan dönər (Kərkük).
Sən ağa, mən ağa, inəkləri kim sağa (Azərbaycan).
Sən ağa, mən ağa, sığırları kim sağa (Kərkük) və s.

Bir çox atalar sözü və məsəllərdə isə ya cüzi fərqə rast gəlinir, ya da bir-birinin variantı olur. Məsələn:

Zaman sənə saz olmasa, sən zamana saz ol (Azərbaycan).
Zaman sənə uymazsa, sən zamana uy (Kərkük).
Tutdu qatıq, tutmadı ayran (Azərbaycan).
Düz oldu ox, əgri oldu yay (Kərkük).
İmam evindən aş, ölü gözündən yaş (Azərbaycan).
Molla evindən aş, kor gözündən yaş (Kərkük).
Oğrudan qalanı falçı apardı (Azərbaycan).
Xerxızdan (oğru) qalanı falçıya verdi (Kərkük).
Çaqqallar gödən çıxarır, qurdun adı bədnamdı (Azərbaycan).
Çaqqal var baş qoparır, qurdun adı yamandı (Kərkük). –

kimi işlənir.

Bununla belə, epik növün çox sanballı bir janr kimi, İraq–türkman atalar sözləri və məsəllərinin özünə xas olan səciyyəvi xüsusiyyətləri də vardır. Kərkük atalar sözü və məsəllərinin bir çoxu iki hissədən ibarət olur. İkinci hissə birinci hissədə verilmiş fikri daha da qüvvətləndirir, mənalandırır, tamamlayır. Azərbaycan folklorunda çox işlənən «Utananın oğlu olmaz», «Bu günün işini sabaha qoyma», «Ağıl yaşda deyil, başdadı», «Əski pambıq bez olmaz» və s. atalar sözləri Kərkük folklorunda «Utananın oğlu olmaz, olsa da xeyrin görməz», «Bu günün işini yarına (sabaha) qoyma, bəlkə, yarın sənə yar ol-

madı»; «Ağıl yaşda deyil, başdadı. Amma ağlı başa gətirən yaşdı», «Əski pambıq bez olmaz, əski düşmən düz olmaz» kimi işlənir və istər-istəməz fikir bütövlüyü, fikir bitkinliyi ilə adamı heyrətə salır.

İraq–türkman atalar sözü və məsəlləri toplanaraq ya zahiri mənaya istinad edilməklə, ya da əlifba sırası əsasında giriş məqalələri ilə çap edilmişdir (209; 122; 124; 128; 93). Hətta «Afaq» qəzeti atalar sözünü silsilə şəklində nəşr edərkən onlardakı zahiri adları bölgü üçün əsas götürmüşdür. Məsələn: dəvə, at, eşşək, qurd, qoyun, it, pişik, toyuq, xoruz və s. haqqında atalar sözləri başlıqları altında qruplaşdırılaraq oxucular a təqdim edilmişdir (197,179).

Lakin hələ vaxtilə tədqiqatçı Sinan Səid «xalq yaradıcılığının mühüm janrlarını təşkil edən atalar sözü, zərb məsəllər və ifadələr İraq türkmanları arasında geniş yayılmış, haqqında ciddi tədqiqat aparılması lazım olan böyük bir sərvət halındadır» desə də (197, 182), bu günə kimi İraq türkman atalar sözü və məsəlləri nəzəri cəhətdən tədqiq olunmamışdır. Hər halda bu məqalələr atalar sözü və məsəllərin tədqiqi yolunda atılan ilk addımlar olmaq baxımından maraq doğurur. Təkcə onu demək kifayətdir ki, Əta Tərzibaşı atalar sözünə tərif vermişdir: «Atalar sözü xalqa gözəl yol göstərən, çeşidli görüş və düşüncələri təmsili olaraq anladan, basına qəlib biçimində qısa, fəqət geniş, həm də toplu anlamlı hikmət ifadə edən kinayəli, çəkici və yararlı söz ki, xalqın lisan halı olmuşdur» (209, 8).

Elə buradaca Əta Tərzibaşı göstərir ki, bu tərifdən kənarda qalan təbirlər, deyişlər, vəsflər, bəddualar (qarğışlar), söyüşlər, təşbihlər və s. atalar sözləri sırasına keçmir. Bununla belə, «Doğruluq dost qapısıdır», «Qılı yağdan ayırır», «Yorğan getdi, qovğa bitdi», «Allah dəvəyə qanad versəydi, bütün damları yıxardı», «Bir dərdlinin dərmanın o dərdə düşəndən al», «Əyri ağac düz olmaz, rəndə vursan yüz yerdən», «Yatan aslan olursa, fürsət hə oyağındı» və eləcə də ayrı-ayrı tanınmış şəxslərin məşhur kəlamlarını da Əta Tərzibaşı təəssüf ki, atalar sözləri sırasına daxil etməkdən çəkinib (209, 6–7).

Əta Tərzibaşı, eyni zamanda atalar sözləri ilə məsəlləri ayırmağın çətinliyindən söz açaraq xüsusi qeyd edir ki, kitabda verdiyi kəlamlar arasında atalar sözləri olmayanlara da təsadüf edilə bilər. Lakin onların sayı çox olmamalıdır (209, 8).

Doğrudan da, kitabda atalar sözü olmayan məsəl və ifadələr də yer almışdır. Məhz buna görə də tədqiqatçı bu ifadələrin yaranması və mənasından söz açmalı olmuşdur. Məsələn: «Ağa bağından gül bağışlayır»; «Sığır başı küpdə asılıb», «Əhməd ağaya anlat», «Türkman oğlu köç eylədi, seyran bunun sonundadı», «Həmavinin kor bəgiri kimin axır gətirib», «Saqqalını təraş etdi, əlinə güzgü verdi», «Qaçanı tut, qalan malımızdı», «Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın», «Nənəniz dərd yesin, hər biriniz yarım verin, dörd yesin», «Kifr Əhməd kifr oxur, yerin görər oxur», «Həm satar, həm su qatar, həm də bərabər atar», «Yem borusu çalır» və s. belələrindəndir.

Tədqiqatçı Şakir Sabir də atalar sözü və məsəlləri ayırd edə bilməmiş, hətta kitabına adi ifadələri belə daxil etmişdir (122).

Göründüyü kimi, quruluş və məzmun etibarilə biri-birinə çox bənzəyən, hətta ilk baxışda aralarında heç bir fərq olmadığı zənn edilən atalar sözləri və məsəlləri ayırmaqda tədqiqatçı çətinlik çəkmişdir. Həqiqət naminə demək lazımdır ki, «Atalar sözü və məsəllər arasında kəskin həddçəkmək qətiyyən mümkün deyildir» (313, 22). Təsadüfi deyildir ki, Azərbaycan atalar sözlərinin yaranması, təkamülü və dil xüsusiyyətlərinə dair sanballı əsərində dilçi alim Z.Əlizadə haqlı olaraq qeyd edir ki, nəinki Azərbaycan və ya sovet alimləri, eləcə də əcnəbi alimlər atalar sözü və məsəllərin fərqini göstərə bilməmişlər (101, 50, 51).

Professor M.Adilov və G.Yusifov bu vəziyyətin səbəbini obyektin özünün mürəkkəbliyində, aralarında hüdudun çox da dəqiq və aydın olmamasında, problemin hələ də ətraflı tədqiq edilməməsində görürlər (7, 45). Bizcə, bunun əsas səbəbi atalar sözü və məsəllərin biri-birinə bənzəməsi, aralarında elə

bir həddin görünməməsidir. Yeganə fərq tədqiqatçıların göstərdiyi kimi, atalar sözlərinin tamamilə aydın və bitkin bir fikir, hökm ifadə etməsində, məsəllərin isə el arasında kiminsə başına gəlmiş bir hadisə, söhbət və s. ilə əlaqədar yaranan qısa və oynaq bir ifadə olmasındadır (119, 19; 185, 5; 254, 162; 253, 115; 326, 17; 327, 378).

Böyük rus alimi V.İ.Dal hələ vaxtilə göstərmişdir ki, «Məsəl xalq arasında gəzən, ancaq hələ tamam atalar sözü təşkil etməyən səlis, qısa danışıqdır» (288, 395).

Tədqiqatçı B.Tahirbəyov isə bu incə məsələdən danışarkən qeyd edir ki, atalar sözləri və məsəlləri səciyyələndirmək üçün vahid, özü də sadə meyar vardır: bunları, bir qayda olaraq «Məsəl var, deyərlər…» söyləmi ilə başlamaq olar (204, 7).

Maraqlıdır ki, Ə.Hüseynzadənin kitabı «Atalar sözü» adlansa da, B.Tahirbəyovun göstərdiyi kimi, əsasən məsəllərdən ibarətdir (204, 11).

Deməli, atalar sözü və məsəlləri ayrı-ayrılıqda toplayıb tədqiq etmək həm çətin, həm də məqsədəuyğun deyildir. Çünki tək bircə sözü artırıb-əskiltməklə biri digərinə keçə bilmir (289, 20). Maraqlıdır ki, İ.İbrahimov «Adam ağzından söz, qazan altından köz» məsəlini misal göstərir və qeyd edir ki, bu məsələdən atalar sözü düzəltmək üçün ona «çıxar» sözünü artırmaq kifayətdir (119, 123).

Demək lazımdır ki, bu xüsusiyyət İraq–türkman atalar sözü və məsəllərində də belədir. Məsələn, «Nə söyüd ağacınnan bar, nə arsızdan ar», «Nə beşdə alacağım, nə onda verəcəyim», «Əkmək eldən, su göldən» məsəllərinə «gözlə», «var», «gələr» sözlərini artırmaqla atalar sözü alınır:

Nə söyüd ağacınnan bar gözlə, nə də arsızdan ar.
Nə beşdə alacağım var, nə onda verəcəyim.
Əkmək əldən gedər, su göldən.

Göründüyü kimi, bircə sözün artırılması və ya çıxarılması ilə məsəllər atalar sözünə və əksinə çevrilir. Belə olan halda,

onları ayrı-ayrı janrlar kimi tədqiq etmək, bizə qalırsa, məqsədəuyğun deyildir. Bəlkə də, dilçilik baxımından atalar sözü və məsəlləri ayrılıqda tədqiq etməyə lüzum vardır. Bizcə, folklorşünaslıq baxımından «müəyyən münasibətlərlə, yalnız nitqi qüvvətləndirmək, fikri əlavə məna yükü ilə şərh etmək üçün cümləni müşayiət edən» (101, 56) atalar sözü və məsəlləri ayrılıqda tədqiq etməyə elə bir ehtiyac yoxdur.

Bununla belə, bəzi tədqiqatçılar «atalar sözünü məsəllərdən ayırmaq və folklorun müstəqil janrı kimi tədqiq etmək lazımdır» (311, 24) qənaətinə gəlmişlər.

Maraqlıdır ki, iraqlı tədqiqatçı İhsan Vəsfi atalar sözü və məsəlləri toplayıb çap edərkən bu yolla gedərək məsəlləri atalar sözlərindən ayırmış və onları ayrı-ayrı bölmələrdə vermişdir. Lakin kitabın 260 səhifəsini əhatə edən «Deyimlər» bölməsində məsəllərdən əlavə frazeoloji birləşmələr, vəsflər, qarğışlar, təşbihlər, qoşa sözlər, hətta adicə ifadələr belə yer almaqdadır (128). Məsələn: Zəhmət olmazsa, zərrə qədər, yuxu görmək, yuxudan olmaq, yolüstü, yol kəsmək, yerli-yersiz, bir sürü, birnəfəsə, acığı gəlmək, adı batsın, arvad-kişi, aşağı-yuxarı, alın təri, ara-sıra, birdən-birə və s. və i.a.

Tədqiqatçı bir çox atalar sözünü məsəllər bölməsində verməklə də dolaşıqlığa yol vermişdir. Məsələn:

Bu xamır çox su götürər.
Bu ölü, bu şivənə dəyməz.
Əkmədik bostan, yemədik qarpız,
Evdəki hesab bazarda çıxmaz.
İldən-aydan bir namaz, o da haqqa yaramaz.
Qarnı quruldar, üstü parıldar.
Qazan yuvarlanar, öz qapağını tapar.
Qızım, sənə deyirəm, gəlinim, sən eşit –

və onlarca başqaları.

Ə.Bəndəroğlunun kitabında isə atalar sözləri ərəb, kürd, alman, əfqan, İndoneziya, ispan, rus, portuqal, yapon, fransız, bolqar, benqal, hind, gürcü, Vyetnam, ingilis, Koreya və

fin atalar sözləri ilə müqayisəli şəkildə verilir. Məsələn: At almazdan axur yapır; kürdcə: Atı yoxdur, axur yapır.

Tədqiqatçı eyni zamanda hər bir atalar sözünün mənasını öz sözləri ilə açır. Təəssüf ki, Ə.Bəndəroğlunun kitabında da atalar sözü və məsəllərin mənşəyi və yaranma yolları baxımından təhlilinə heç bir təşəbbüs göstərilmir. İraqlı tədqiqatçı Məhəmməd Xurşid «Əski sözlər bağçası» kitabında xeyli atalar sözü və məsəllər çap etdirmişdir. Lakin o da atalar sözü və məsəlləri qarışdırmışdır (149).

Atalar sözü və məsəllərin mənşəyini xronoloji şəkildə tədqiq etmək asan olmasa da, şifahi xalq ədəbiyyatının başqa janrları kimi «öz xüsusi yolu ilə tarixə yoldaşlıq edən», «xalqın bir növ açıq kitabı olan», hər nəslin ortaya öz istək və arzularını, ictimai-tarixi həyat mübarizəsindən doğan nəticələri qeyd edib getdiyi... bu zəngin xəzinə içərisində tədqiqat üçün böyük əhəmiyyətə malik olan, öz keçmişimizi öyrənməkdə bizə bir növ bələdçilik edən (19, 128) atalar sözləri və məsəllərin bir çoxunun uzaq keçmişlərlə bağlı olduğunu görmək o qədər də çətin deyil.

Məsələn:

Əkən öküz, biçən öküz, xırmana gələndə ho... ho.
Ev buzovu cütdə olmaz.
Adı biçindədi, orağı qırıxdı.
Quş var əti yeyilir, quş var ət yedirdilir.
Talesiz uşağın anasını al aparar.

və s. kimi atalar sözləri xalqın uzaq keçmişi, adət-ənənələri ilə bağlı maraqlı məsəllərdən söz açır. Burada əvvəlinci üç atalar sözü cütçülük dövründən bəhs edirsə, dördüncü atalar sözü ovçuluqla əlaqədar meydana gəlmişdir. «Talesiz uşağın nənəsini al aparar» atalar sözündə isə Azərbaycan folklorunda olduğu kimi Kərkük dolaylarında da ilkin janrlardan göründüyü kimi, xalqın qədim inam və etiqadının izinə düşürük.

Rəvayət və əfsanələr atalar sözlərinin yaranmasında müəyyən rol oynamışdır. Bunu biz Şərqdə məşhur olan «Leyli və Məcnun» əfsanəsi ilə bağlı yaranmış atalar sözündə də görürük: «Nə Leyli xəstə düşsün, nə Məcnun can versin».

Atalar sözləri və məsəllər müxtəlif yollarla: ayrı-ayrı mərasimlərdə, iş başında zəhmətlə əlaqədar, şifahi və yazılı ədəbiyyat və s. ilə bağlı yaranırlar. Folklorun həm epik, həm də lirik janrlarından nağıl, tapmaca, dastan, lətifə, bayatı və laylalarla əlaqədar yaranmış xeyli atalar sözü və məsəllər vardır. Bu janrlar atalar sözü və məsəllərin yaranma və zənginləşmə mənbəyi kimi diqqəti cəlb edir. «Yuxu ölümün qardaşıdı» – nağıllarla əlaqədar yaranmışdır. «Gələn gedər, gedən dönməz», «Yeyər öz budu ətin, çəkməz qəssabın minnətin» atalar sözləri tapmacalarla bağlı yaranmışdır. Kərkük dolaylarında qəribə, gülməli, adamı mat qoyan bir hadisə baş verəndə «Molla Nəsrəddin hekayəti oldu» – deyirlər. Burada Molla Nəsrəddin lətifələri ilə bağlı olan atalar sözləri və məsəllər də geniş yayılmışdır: «Hər gözəlin bir eybi olar», «Paranı verən düdüyü çalar», «Yorğan getdi, qovğa bitdi», «Əlinin xəmiri ilə kişi işinə qarışma», «Kişinin sözü bir olar», «Allah dəvəyə qanad versəydi, bütün damları yıxardı», «Molla diri olaydı, eşşəyini qurd yeyəydi» və s. belələrindəndir.

İraq–türkman folklorunda məşhur olan «Arzu-Qəmbər» dastanı ilə bağlı atalar sözləri də yaranmışdır:

«Qəmbərsiz düyün olmaz», «Bəsləmə yad ördəgin, vətən arzular gedər». İkinci atalar sözü bayatının tərkib hissəsi kimi daha yaxşı təsir bağışlayır:

Arzular gedər,
Qəmbər–Arzular gedər.
Bəsləmə yad ördəgin,
Vətən arzular gedər.

«Qəmbərsiz düyün olmaz» Azərbaycan folklorunda da öz əksini tapmışdır:

Bayraməlisiz toy olmaz, Qəmbərsiz düyün.

İraq–türkman folklorunda bayatı və laylalarla işlənən onlarca atalar sözü və məsəllər vardır. Burada bayatı və laylaların atalar sözünü təşkil etdiyi misralardan bəzi nümunələr verməklə kifayətlənəcəyik: «Keçmə namərd körpüsündən, qoy aparsın su səni», «Tərəzin əyiləndə hər gələn bir daş atar», «Qanana bir söz yetər, qanmayana yüz oxu», «Əgri ağac düz olmaz, rəndə vursan yüz yerdən», «Gedən gün geri dönməz, günü günə calasan», «Can hər şeydən şirindi, ondan da bala şirin», «Bir dərdlinin dərmanın, o dərdə düşəndən al», «Övladın qeydinə qal, kor olmasın ocağın» və s.

Maraqlıdır ki, İraq–türkman folklorunda bütün misraları ayrılıqda atalar sözündən ibarət bayatılara da təsadüf edilir. Məsələn:

Əkmə bitmiyən yerə
Can ver itmiyən yerə.
Ayaqlar necə varsın,
Könül getmiyən yerə.

Klassik və müasir İraq–türkman şair və yazıçıları da yaradıcılıqlarında çoxlu atalar sözü və məsəllərdən istifadə etmiş, onların xalq arasında yayılmasına xidmət göstərmişlər. Bu baxımdan, Azərbaycan şairi İmadəddin Nəsimi xüsusilə fərqlənir. Şair, demək olar ki, bütün şeirlərində atalar sözü və məsəllərdən məharətlə istifadə edib, ölməz əsərlər yaratmışdır:

Çün hər nə kim əkərsən, axır biçərsən anı.
Söz bilənə yetər bu söz, özgə sualə düşməsin.
Ey Nəsimi, aqibət verər yelə,
Bivəfa ilə yeyən nanü nəmək –

və s. atalar sözləri bu qəbildəndir (166).

İraq-türkman atalar sözləri və məsəllərinin folklorun başqa janrlarında və eləcə də bədii ədəbiyyatda gen-bol işlə-

dilməsi, onların başqa janrlar arasında tutduğu yeri dərk etmək üçün müəyyən təsəvvür yaradır.

Kərkük dolaylarında Molla Nəsrəddindən əlavə, başqa tarixi şəxsiyyətlər və hadisələrlə bağlı yaranmış çoxlu atalar sözü və məsəllər də vardır. Məsələn: «Altunu yez (mis), atlası bez qoyralılar», «Cümə daşı atmaq», «Həmavinin kor bəgiri kimi axır gətirmək», «Həsən-Hüseyn üçün deyil, hələm üçün şivən edir», «Qaçanı tut, qalan malımızdı», «Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın», «Lolo, lolo, mənə də lolo!», «Əhməd ağaya anlat», «Türkman oğlu köç eylədi, seyran bunun sonundadı», «Saqqalını təraş etdi, əlinə güzgü verdi», «Həm satar, həm su qatar, həm də bərabər atar» və s. bu qəbildəndir.

Bu atalar sözü və məsəllərin yaranma yolu, yeri və münasibəti Əta Tərzibaşı və İhsan Vəsfinin kitablarında az-çox öz əksini tapmışdır (209, 80).

Bununla belə, demək lazımdır ki, atalar sözləri və məsəllərin mənşəyini xronoloji şəkildə müəyyən etmək mümkün deyildir. Bunun əsas səbəbi xalq ədəbiyyatının başqa növləri kimi, atalar sözlərinin də dəyişkən olmasıdır (118, 36). Ona görə ki, müxtəlif inkişaf mərhələlərində onlar müxtəlif forma və məzmun kəsb edirlər. Lakin bu o demək deyildir ki, hər yeni inkişaf mərhələsində atalar sözləri başdan-başa dəyişir. Əksinə, atalar sözləri arasında uzaq keçmişlərlə bağlı saysız-hesabsız nümunələr vardır. Belə olmasa idi atalar sözlərinin qədimliyi və yaranma yolları barədə söz açmaq, nəticə çıxarmaq mümkün olmazdı. Bu və ya digər xalqın fikir tarixini, keçdiyi yolu, inkişaf mərhələlərini aydınlaşdırmaqda atalar sözləri və məsəllər tədqiqatçının köməyinə çatır, ona bir növ bələdçilik edir. Məsələn:

«Altunu yez, atlası bez» – ələ salmaq, başa qaxmaq anlamında işlənən bir məsəldir. Xasa çayı Kərkükü iki yerə bölür. Şəhərin Qala hissəsində yaşayanlara qalalılar, qarşıyaxada yaşayanlara qoyralılar deyirlər. Belə nəql edirlər ki, keçmişdə bu iki yaxada yaşayan sakinlər arasında tez-tez mübahisə,

söz-söhbət olarmış. Qoyralıların yarı hənək, yarı gerçək, bir az da istehza ilə qalalıların ünvanına dedikləri yuxarıdakı ifadə xalq arasında bir məsəl kimi qalmışdır.

«Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın».

Bu atalar sözü bir şəxs həm özünə, həm də başqalarına ziyan gətirən bir hərəkətə yol verəndə işlənir. Belə nəql edirlər ki, Osmanlılar dövründə türk polisləri Kərkükə yaxın Bayat köylərindən olan Bəşir kəndinə bitişik bir tarlada gəzərkən birdən qarşılarından bir dovşan qalxır. Dovşanı ovlayır və kəndin muxtarı Nurulla Qayanın evinə gətirərək qovurmalarını arzu edirlər. Səfəvi türklərindən olan kənd xalqı şiə olduğundan və dovşan şiələrə görə haram buyrulduğundan Nurulla kişi odla su arasında qalır. Türk polislərinin sözünü yerə salmaq xatalı iş idi. Odur ki, naçar qalan ev sahibi dovşanın qulağından yapışıb mətbəxə tərəf sürükləyərkən «Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın» – demiş ki, bu kəlam indi də xalq arasında məşhurdur.

Sırf yerli mühitlə bağlı yaranmış, ölkəşünaslıq elmi baxımından böyük əhəmiyyət kəsb edən atalar sözləri və məsəllərə də İraq–türkman folklorunda bol-bol təsadüf edilir:

Hələb ordasa, arşını burdadı.

Kərkükü yalan, Ərbili siçan, Bağdadı seylan apardı.

Kərkükün qalası var, yerlisinə bəlası var.

Yuxarı Zivədə dilənər, Aşağı Zivədə paylar (Kərkükdə məhəllə adları).

Balı olanın çibini Şamdan gələr.

Bağdad kimin şəhər, qardaş kimin yar olmaz.

Bağdada girən peşman, çıxan peşman.

və s. atalar sözləri və məsəllər nəinki coğrafi, tarixi yerləri və s. öyrənmək baxımından, eləcə də tarixi həqiqətləri bilmək, dərk etmək yolunda əvəzsiz xəzinəyə çevrilir.

Bəzi atalar sözləri və məsəllər insanın qüdrəti, iradəsi xaricində olan məntiqi davamiyyət, labüd həqiqətlərin nəticəsi kimi yaranmışdır:

Əgər xoruz bannamasa da sabah olur.
Yaş yetmiş, iş bitmiş.
Səksən, doxsan, aqibət bir gün yoxsan.
Gənclik bir quşdu, uçdı tuta bilməzsən.
Dünya bir pəncərədi, hər gələn baxar gedər və s.

Bir çox atalar sözləri və məsəllər müəyyən adət-ənənələrlə əlaqədar yaranmış, zaman keçdikcə öz əvvəlki mənasını dəyişmiş, yeni məzmun kəsb etmişdir. Məsələn:

Mən bismillah deyincə, o əlhəmdüllah dedi.
Naxırçılıq edir, əkmək yığmaq eybinə gəlir və s.

İraq–türkman atalar sözlərinin məzmun xüsusiyyətlərindən danışarkən, hər şeydən əvvəl, qeyd edilməlidir ki, Azərbaycan folklorunda olduğu kimi, burada da «atalar sözləri bir yaradıcılıq məhsulu olmaq etibarı ilə heç bir bağlı həqiqəti açmır, əksinə, kəşf edilmiş həqiqətləri ifadə edir. Bilavasitə mövcud olan həqiqətlərin hər hansı şəkildə ifadə edilməsi isə həyatın müşahidə və sınaqlarından doğur. Başqa cür desək, atalar sözü müşahidə və sınaq yolu ilə dərk edilmiş bu və ya digər gerçəkliyin ifadə vasitələrindən biridir» (119, 152).

Saqqalını dəgirmanda ağardıb; Gül tikansız olmaz; Dolmada bir şey yoxsa, nişin sarınır?; Dəvəquşu kimi gizlənmək istəsə, başını quma soxar; Lalın dilini nənəsi bilər; Sel önündən kötük tutulmaz; Sözü ya uşaqdan, ya dəlidən al.

Doğrudan da atalar sözü və məsəllərin məna və məzmununa fikir verdikdə onların müşahidə və ya sınaq yolu ilə yaranmış olduğunu açıqca görmək olur. Məsələn:

Ağacdan maşa olmaz, çingənədən (qaraçı) paşa.
Qudurmuş köpəyin ömrü qırx gündü və s.

Birinci atalar sözü öz mənşəyini sınaqdan, ikincisi isə müşahidədən almışdır. İkinci misalda maraq doğuran cəhətlərdən

biri də «qırx» sayı ilə bağlıdır. Kərkük folklorunda bu ədədin işləndiyi başqa atalar sözlərinə də təsadüf edilir. Məsələn:

Qırxınnan sora saz alışır.
Ver qırxı, çəkmə qorxu.
Gözəllikdən qırx gündə doyulur,
Gözəl xoydan qırx ildə doyulmaz və s.

«Qırx» ədədi ilə bağlı olan atalar sözlərinin məcazi mənasını bir yana qoyaraq, onların həqiqi mənasından çıxış etsək, qəribə bir mənzərənin şahidi oluruq.

Qudurmuş köpəyin qırx gündə ölməsi, it dişləyən adama hər gün bir iynə hesabı ilə qırx gün ərzində iynə vurulması, xəstələnmə təhlükəsinin qırx gün davam etməsi, ölünün qırxının ənənəvi mərasim kimi qeyd edilməsi, zahı qadının və uşağın qırxı çıxana qədər kənar şəxs təmasda olmasının təhlükəsi və s. kimi məsələlərin, bizə belə gəlir ki, təkcə təbiət hadisələri ilə əlaqələndirilməsi doğru deyildir. Burada təbabətlə bağlı məsələlər göz qabağındadır.

Qeyd etmək lazımdır ki, atalar sözləri və məsəllər ictimai həyatı əks etdirmək baxımından da maraq doğurur, həm də onu sadəcə olaraq əks etdirmir, özünəməxsus bir tərzdə təhlil edir, özü də bəhs etdiyi hadisələrin baş verməsi səbəbini göstərir. Məsələn:

Bir dağ yıxılmazsa, bir dərə dolmaz.
Çayır öz kökü üzərində bitər.
Divar yıxılanda tozu çıxar və s.

Kərkük atalar sözləri məzmun və mənasına görə rəngarəngdir. Onları Azərbaycan folklorunda olduğu kimi, mövzular üzrə qruplaşdırmaq olar. Onları həm H.Zeynallının (42), həm H.Qasımovun (241) və həm də Ə.Hüseynzadənin aşağıda verilmiş bölgüsünə əsasən təsnif etmək olar. Məsələn:

Vətən-qürbət; Yazı-kəlam; Kamil-cahü; Doğru-yalan; Gözəl-çirkin; Arzu-tale; Ailə; Böyük-kiçik; Dost-düşmən;

Mərd-namərd; Yaxşı-yaman; Dərd-dərman; Kədər-sevinc; Səbəb-nəticə; Əməl-qanun; Səyli-avara; İnsan; Yemək-içmək; Ev-eşik; Kəndli; Təsərrüfat; Xərc-qazanc; Varlı-yoxsul; Dirilik-axirət; Məqam-dövran; Kainat; Şəhər-kənd; Bitkilər; Heyvanlar; Quşlar; Gəmiricilər; Balıqlar; İlan-qurbağa; Qurd-quş-həşərat (44) və s.

Bizə qalırsa, atalar sözləri və məsəlləri mövzular üzrə deyil, məcazi mənası və məzmununa görə təsnif edərək tədqiq etmək daha məqsədəuyğundur. Onları mövzular üzrə təsnif etdikdə ortaya bir çox çətinliklər çıxır. Məsələn:

«Atnan eşşək nallandı, qurbağa qıçın qaldırdı» (209, 11; 122, 7) atalar sözünü «heyvanlar» və ya «ilan-qurbağa» bölməsində vermək məsələsində ortaya çətinliklər çıxır. Başqa bir tərəfdən də məcazi mənada işlənərək «kimsəsiz», «köməksiz» mənasını verən «Biz çobansız qoyuna bənzəyirik» və s. kimi atalar sözü və məsəlləri, ümumiyyətlə, hansı bölmədə vermək müşkül məsələyə çevrilir. Məhz buna görə də atalar sözləri və məsəllərin təsnifində mövzu ilə bərabər, ideya, məzmun, çoxmənalılıq və məcazi mənaya xüsusi fikir verilməsi həm elmi, həm də təcrübi cəhətdən məqbul sayıla bilər. Bəzi tədqiqatçıların çoxmənalı və çoxvariantlı atalar sözlərinin ən qabarıq mənalarına üstünlük verərək, qalanlarını hesaba almamaq fikri ilə razılaşmaq olmaz (119, 167).

Aqil babaların ikicə sözlə bir dastan yaratdığı, hər birində «tam kitablar dolusu ağıl və hislər olan» (283, 114) formaca kiçik, mənaca dərin, xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq, müşahidə, bilik və təcrübələri ümumiləşdirən atalar sözü və məsəllərin Kərkük folklorunda da bütöv xalq yaradıcılığı olduğundan əhatə dairəsi çox genişdir. Onların belə geniş yayılmasına gətirib çıxaran amillərdən biri bu örnəklərin çoxmənalılığıdır. Bu kimi atalar sözlərində istər dil, istər etnoqrafiya, tarixilik və s. baxımından əvəzsiz material vardır. Onları nəzərə almamaq doğru olmazdı. Başqa bir tərəfdən də, əsrlərdən bəri qranit daşlardan süzülüb gələn saf suya bənzəyən, nəsildən-nəslə keçən, sabitləşən, xalq təfəkkürünün güzgüsü

olan atalar sözləri və məsəlləri saf-çürük etmək nə qədər məqsədəuyğun olardı? Misal üçün «Ot kökü üstə bitər» və «Çayır öz kökü üzərində bitər» atalar sözlərinin bir-birinə yaxın olması zənn edilsə də, ayrı-ayrı mənalarda işlənirlər. Daha doğrusu, «Ot kökü üstə bitər» müsbət, «Çayır öz kökü üzərində bitər» mənfi mənada işlənir.

İraq–türkman atalar sözü və məsəllərini tədqiq və təsis edərkən diqqət yetirilməli məsələlərdən biri də iki hissədən ibarət atalar sözünün hansı tərəfinə üstünlük vermək məsələsidir. Məna, məzmun və asılılığına görə atalar sözü və məsəllərdə üstünlüyü birinci tərəfə, bəzilərində isə üstünlüyü ikinci tərəfə vermək lazım gəlir.

Məsələn:

Fəqirin parası kimin dostu da az olar.
Can paranı gətirər, para canı gətirməz.
Dəgirman işin görər, çaq-çaqa baş ağrıdar –

kimi atalar sözlərində üstünlük birinci tərəfə verilmişdir. Çünki mənaya görə ikinci tərəfdəki iş, hal-hərəkət və s. birinci tərəfdən asılı olur.

Şıq-şıq edən nalçadı, iş bitirən axçadı.
Həsən-Hüseyn üçün deyil, həlim üçün şivən edir –

və s. kimi atalar sözü və məsəllərdə isə üstünlük ikinci tərəfə verilməlidir.

İraq–türkman folklorunda hər iki tərəfi eyni dərəcədə bərabər mənaya malik olan atalar sözləri və məsəllərə də təsadüf edilir. Məsələn:

Çox söz yalansız olmaz, çox mal haramsız.
Hərənin bir dərdi var, dəgirmançının da su dərdi.
Nə söyüd ağacınnan bar, nə arsızdan ar.
Divarı nəm yıxar, insanı qəm və s.

Məlumdur ki, atalar sözü və məsəllər hər hansı bir fikri və ya müddəanı əsaslandırmaq üçün ən yaxşı vasitədir. Bu vasitəçilik atalar sözünə xas olan yolla aparılır. «Bu yol oxşar hadisələrdən ikincisini, birincidən alınmış əqli nəticələr vasitəsi ilə təsbit etmək yoludur. Çox zaman atalar sözlərini müstəqim mənada, yəni özünün ilk mənasında götürdükdə, onu heç bir başqa hadisəyə bağlamadıqda mənasız görünür. Məsələn, «Yanan yerdən tüstü çıxar». İlk baxışda bu ifadə çox yüngül və adi görünür. Lakin bu ifadə məcazi mənada işləndikdə «səbəb olmasa, nəticə olmaz» kimi dərin bir məzmun kəsb edir (119, 154).

İraq–türkman atalar sözü və məsəllərində zehni tərbiyə, əmək tərbiyəsi, estetik tərbiyə, nəcib sifətlərin, mənəvi-əxlaqi təmizliyin tərənnümü, eləcə də bəşər övladına xas olan mənfi sifətlərin tənqidi və islah olunması üçün çıxış yolları qırmızı xətt kimi keçir.

Burada da xalq ağlı, kamalı, hikməti, müdrikliyi yüksək qiymətləndirir. Xalq təcrübəsi olduğundan hikmətli söz hədəfə sərrast dəyir:

«Əql insanın yarıdır», «Əql cəvahir daşıdır, o da başda», «Əql harda, dövlət orda», «Əqlsiz başın zəhmətini ayaq çəkər» və s. Məhz buna görə də «Oxumaq iynəynən gor qazmaq qədər zor» olsa da, xalq biliklərə yiyələnməyə, zəhmət çəkməyə səsləyir. Kərkük atalar sözləri və məsəllərində insanın ləyaqəti, qabiliyyəti zəhmətlə ölçülür. Əmək, zəhmət insanı ucaldan, ona səadət və rifah gətirən, onu nəcibləşdirən bir nemət kimi yüksək qiymətləndirilir. Əmək sağlamlıq, gümrahlıq mənbəyi kimi göstərilir, canın cövhəri hesab olunur. Hətta istedad özü də əməyin nəticəsində parıldayır, səadət gətirir: «Dünya yaz ikən, qış tədbirinə bax», «Bağ dayə yox, belçə istər», «İşləyən dəmir pas tutmaz», «Halva deməklə ağız şirin olmaz», «Hərəkət olmazsa, bərəkət olmaz», «Cəfa çəkməyən səfanın qədrini bilməz» və s.

Zəhmətə, əməyə yüksək qiymət verən xalq atalar sözü və məsəllərdə tənbəlliyi bir bəla kimi pisləyir, zəhmətdən qaçanları kəskin tənqid edir:

«Ver yeyim, ört yatım, bəklə ölməyim», «Dil ustası, iş xəstəsi», «Çox yatan ixtiyarlıq xəstəsidir» və s.

Atalar sözləri və məsəllərdə peşə və sənətə yiyələnmək tələqin edilir. Müdriklər insanları öz əməklərinə arxa çıxmağa çağırır:

«Sənət əldə altun bilərzikdir», «Hər şeyi ustasından al», «Sənəti ustasından öyrənməyən, öyrənməz», «Əkməgi əkməkçidən, altunu altunçudan sor», «Əkməgi əkməkçiyə ver, əgər yarısın yeyərsə də» – qənaətinə gəlir.

Atalar «Əldə altun bilərzik olan sənəti» öyrədənə qarşı münasibətdə laqeyd və etinasız olmamağı, ustadın əməyini itirməməyi, onun qədir və qiymətini bilməyi, adını hörmət və ehtiramla yad etməyi tələqin və tövsiyə edirlər.

Atalar sözləri və məsəllərdə insanlara qeyri-adi dəqiqliklə qiymətli məsləhətlər, öyüd-nəsihətlər verilir. Dərk edənə onların bəhrəsinin əvəzsiz olduğundan söz açılır. Məsələn:

«Qarıncadan ibrət al, yazkən qışı düşün», «Körpüdən keçməyincə ayıya dayı deyərlər», «Həyasızdan üz-göz olma», «Ağac qabalığından qırılar», «Özünü başqasına nərdivan etmə», «Zərərin yarısından dönmək kardı», «Balıq sudaykən bazarlıq olmaz», «Fitnəlik fənalıq köynəyidir» və s.

Xalq insanları işgüzar olmağa, işi vaxtında görməyə səsləyir: «Qalana qar yağar», «İlk atılan daş uzağa düşər», «Ağac yaş ikən əyilməzsə əyilməz», «Bu günün işini yarına (sabaha) qoyma, bəlkə, yarın sənə yar olmadı» kimi hikmətli sözlərlə hökmünü qətiləşdirir. Vaxtsız, yersiz, mənasız işdən kənar durmağı məsləhət görür:

«Qaranlıq yerə tüfəng sıxır», «Əlin boşsa şahid ol, paran çoxsa kəfil (zamin) ol», «Bığdan kəsir, saqqala qoyur», «Balığı bulanlıq suda ovlayır» və s.

Ataların rəyincə xoşbəxt o adamdır ki, müdrik sözləri, xoş rəftarı, şirin danışığı, mədəni davranışı ilə başqalarına nümunə olur, dilini saxlamağı bacarır:

«Gözəl ona deyərlər, gözəl qonuşsun», «Xoş sözlə ilan yuvasından çıxar», «Bişmiş boğazdan çıxan söz kimsəni incit-

məz», «Can nə çəkərsə, dil üzündən çəkər», «Söz var xalq içində, söz var xülq içində», «Söz var şahid istər, söz var ahidi özündədi», «Heyvan ayağından, insan dilindən» və s.

Kərkük dolaylarında başqalarına qarşı münasibətdə özünə qarşı tələbkar olmağı, başqalarına xor baxmamağı tövsiyə edən hikmətli kəlamlar da çoxdur: «Gülmə qonşuna, gələr başına», «Nə şaşqın ol – basıl, nə daşqın ol – asıl» «Nə qorxulu röya gör, nə minbərə möhtac ol», «Nə gələnnən üz çevir, nə gedəni qovan ol», «Nə şeytan gör, nə qulvallahı oxu» və s.

Atalar onu da təkidlə tövsiyə edib ki, «Bişmiş aşa su tökən», «Əski yara üstünə yengi fitil qoyan», «Əski xarmanı sovuran» araqatan, paxıl adamlardan kənar gəzmək lazımdır. «Doğru ol, aslan yolunnan get» – deyən atalar, onu da agah edir ki, «Eşşəyi öldürənə sürüklədərlər», «Nə əkərsən, onu biçərsən», «Günahından saqınmayan öz suçuna giriftar olar», «Zalımın xanəsi viran olar».

Atalar, eyni zamanda tədbirli, ehtiyatlı, siyasətcil olmağı, bir iş tutanda sonunu düşünməyi məsləhət görür. Çünki «Qarıncanın da düşməni var», «Divarın da qulağı var», «Düşmən kiçik də olsa, böyük iş görər», «Dünya tükənər, düşmən tükənməz», «Qurdun dəvətinə gedən köpəgini bərabər almalıdır».

Bununla belə, atalar həddən artıq ehtiyatlı, qısqanc olmağı da məsləhət görmür. Çünki «Qısqanan gözə çöp düşər», «Qorxu başa bəladı», «Donuzdan qorxan darı əkməz», «Qılınc – qurşananın, at – minənin, körpü keçənindir».

Atalar böyük uzaqgörənliklə tövsiyə edir: ətrafda baş verən haqsızlıqlara göz yumma, laqeyd olma, heç vaxt demə:

«Nə beşdə alacağım, nə onda verəcəyim», «Qurd bizdən uzaq olsun, yediyi quyruq olsun», «Nə dağda bağım var, nə çaqqalnan davam var». Belə olsa, xalqın gözündən düşərsən.

Atalar sözləri və məsəllərdə şeylərin və hadisələrin səbəbiyyətlə dəyişdirildiyi, hərəkətdə və inkişafda olduğu göstərilməklə, onların daxili ziddiyyətdə olduqları da öz əksini tapmışdır.

Adam hər düşəndə bir əql qazanır.
Atdan düşməyən (yıxılmayan) atlı olmaz.
Düşənin dostu olmaz, inanmırsan düş də gör.

İraq–türkman atalar sözü və məsəllərinin böyük bir qismi mal-dövlətlə bağlı yaranmışdır. Ataların qənaətincə çox mal-dövlət toplamaq mənasızdır: «Mal ya qərəz, ya mərəz gətirər», «Para əl kiridir», «Zənginlik könüldədi, malda deyil», «Hey dedi: malım-mülküm var, bir demədi ölüm var», «Mal sahibi, mülk sahibi, hanı bunun ilk sahibi», «Parası əziz olanın, özü zəlil olar» və s. kimi hər birində bir dünya hikmət olan bu atalar sözləri böyük mətləblərdən söz açsa da, xalq arasında «Çibin dərisi soyanlar», «Malını it, canını bit yeyənlər» hələ də çoxdur. Uşaq aşıq toplayan kimi mal-dövlət toplayan, «Toppuzu dəyirman dolandıran», «Yetim əlində arpa çörəyini görüb ona tamah salan», «Malı ya babası ölmüşdən, ya kefi gəlmişdən alan» belə kimsələr «Paralıya «əfəndim» deyərlər», «Para paranı qazanar», «Para mollanı camedən çıxarar», «Əgər dərviş, əgər hənfiş, ağca ilə bitər hər iş» fikri ilə yaşayırlar.

Atalar var-dövlətlə bağlı, xalq arasında geniş yayılan bir çox başqa hikmətli kəlamlar da yaratmışlar:

Malı gedənin imanı da gedər.
Malın mal olmasın, bazarın bazar olsun.
Mal da şirin, can da şirin və s.

Atalar sözləri və məsəllərdə göz toxluğundan, eyni zamanda tamahkarlıq və acgözlüyün bəlasından da söhbət açılır, insanlara nəfslərini qorumaq təlqin edilir. Çünki göz toxluğu xoşbəxtlik, acgözlük, tamahkarlıq isə bədbəxtlik gətirir:

«Çox aş ya qarın ağrıdar, ya baş», «Az tamah, az ziyan gətirər», «Azacıq aşım, ağrımaz başım», «Alışmış qudurmuşdan betərdi», «Tamahkarın canı sağ olsun, müflis acınnan ölməz», «Ən böyük varlıq – sağlamlıqdır», «Saman sizin deyilsə, samannıq sizindi» və s. bu qəbildəndi.

Atalar sözü və məsəllərdə insanlar qənaətcil olmağa dəvət olunurlar. Burada qənaətcilliyin nəfindən, qənaətcil olmamağın ziyanından bəhs edən neçə-neçə qızıl qiymətli atalar sözü və məsəllər vardır:

«Qənaət ən böyük səadətdir», «Varlıqdan yoxluğa var, gənclikdən ixtiyarlığa can saxla», «Var gününün yarmasının dar gününə nəfi var», «Saman deyər qaldır məni, yaramasam yandır məni», «Yığdı qırpa-qırpa, verdi acı turpa», «Kömürün irisini, yağın durusunu karuva saxla», «Hər varlığın bir darlığı var» və s.

Xalq atalar sözü və məsəllərdə ehtiyac, yoxsulluq, borc və s. kimi, həyatda özünü göstərən məsələlərə də öz münasibətini bildirir:

«Allah bu əli o ələ möhtac eləməsin», «Yay fəqirin yorğan-döşəyidi», «Yoxsulluq atəşdən köynəkdi», «Borc isidər, öldürməz», «Fəqirin altununa yez (mis), zənginin yezinə altun deyəllər», «Yol yeriməklə, borc verməklə bitər», «Bir igid yoxsul olsa, ona əl-ayaq gülər» və s.

Xalq təkidlə hörmətin hörmətə bağlı olduğunu qeyd edir: «Göz yaşı da borcnandı», «Ə1 əli yuyar, əl də dönər üzü yuyar», «Əyiliyə qarşı əyilik bəslənir» və s.

Eyni zamanda yalnız öz xeyri üçün çalışanları, öz xeyrini güdənləri xalq kəskin tənqid edir:

«Kərki kimi öz önüvə çəkirsən», «Kərki öz sapını kəsməz», «Qoca gedər asılmağa, qan xına istər», «Keçi Can vayında, qəssab piy vayında» və s.

İraq–türkman atalar sözləri və məsəllərində səxavətlilik xeyirxahlıq, əliaçıqlıq kimi müsbət xüsusiyyətlər də layiqli yer tutmuşdur:

«Verən əl dərd görməz», «Verən əli hər kəs sevər», «Vursan öldür, yedirtsən doydur», «Qıy ağcaya, gir bağçaya», «Loxma qarın doydurmaz, məhəbbət artırar», «Öz düşmənini şəkərlə boğur», «Xeyirsevərlik zənginlikdən daha fəzlə dost yığar», «Xeyir istə qonşuva, xeyir gəlsin başuva» və s.

Xalq eləcə də haqsızlıq, ədalətsizlik, ictimai bərabərsizlik olan yerdə mütləq narazılıqlar baş qaldıracağını bəyan edir:

«Biri yeyər, biri baxar, qiyamət onda qopar», «Qoyun da keçi ayağına gedərmiş», «Kimi su tapmaz içməyə, kimi yol tapmaz keçməyə», «Davaçı qazı olsa, imanıvu Allaha ismarla» və s.

Odur ki, atalar xalqı insaflı olmağa, yaxşı münasibətdə olmağa, dost olmağa çağırır. Xalq «Qərib – dostu olmayandır» – deyir. Dostluğun, yoldaşlığın yolu, əhatə dairəsi, qiyməti və s. atalar sözləri və məsəllərdə öz əksini layiqincə tapmışdır:

«Alış-veriş misqalnandı, dostluq qan-tərlə», «Doğruluq dost qapısıdı», «Dost şəkər də olsa, hamısını birdən yemə», «Dost məni bir qozla ansın, o da pük (çürük) olsun», «Əsl dost yəhərli ata bənzər», «Yoldaş yolda sınanar», «Sirrinə yetik olmadığın dost, dost deyil», «Sirkənin, hamamın və dostun əskisi əyidi» və s.

Xalq bəzən müəyyən münasibətlə dostluq edənləri tənqid edir. Belələri haqqında deyilir: «Daşın böyüyü «dostdan» gələr. Etibarsız adamlar haqqında da hədəfə sərrast dəyən: «Bağında gül var ikən gül gözüvə, bağından gül tükəndi, kül gözüvə» kimi dərin mənalı atalar sözü bu qəbildəndir.

Xalq etibarsız, vəfasız adamları namərd adlandırır və qəti hökmünü verir: «Namərdə bel bağlama, qırar belivü», «Namərd arxadan söz deyər», «Namərd əlinnən su içmə, ab-həyat da olsa», «Dənizə qərq ol, namərdə boyun əymə», «Köpəyə yaltanma, qoy aslan yesin səni», «İnsan olan bir dəfə ölər», «Ya mərd ol meydana gir, ya bir mərdə xidmət et» və s.

Hər yerə özünü soxan, «Harda aş, orda baş» olan kimsələr haqqında İraq–türkman atalar sözü və məsəllərində deyilir:

Nə bahardı, nə də güz, hardan gəldi bu nərgiz?
Məsciddə minbər yapılmadan kor əsasın dayadı və s.

Xalqın məsxərəsinə layiq kimsələr barədə atalar deyiblər:

Eşşəklə getdilər, qatırla döndülər,
Attan endi, eşşəyə mindi və s.

Başqasına görə əzab-əziyyətə düşən adamlar barədə xalq gözəl hikmətli sözlər yaradıb:

Qonşunun dili şişib, qovğası bizə düşüb.
Naxırda inəgim yox, naxırçıdan hesabım çox və s.

Xalq bədxahlara, paxıl və xudbinlərə qarşı çıxır, heç vaxt özünə arzu etmədiyini başqasına rəva görmür:

«Allah heç kimin evinə nə molla, nə də sazlayan (ağıçı qadın) göndərməsin», «Allah nə həkimə, nə də hakimə işini salmasın», «Gor gor içində olsun, ev ev içində olmasın» – deyə hamıya yaxşılıq diləyir. İnsanları haqq-ədalətə, qayda-qanuna dəvət edir: «Yolunu bil, ondan ayrılma», «Sağ baş yastıq istəməz», «Qanun dağları hifz edər», «Hökumət yatsa, adam adamı yeyər», «Hakim və həkimsiz köydən köç» – deyir. Birliyin bəhrəsindən, təkliyin ziyanından söz açır: «Baş-başa verməyincə daş yerindən çıxmaz», «Bir əlin nəsi var, iki əlin səsi var», «Bir əllə çapqun çalınmaz», «Fənalar birləşsə, eyilər də əl-ələ verməlidir» və s.

Müdriklər insanları şər işlərdən çəkinməyə, pislikdən əl çəkməyə, xeyirxah olmağa çağırır. Hətta pisliyə qarşı yaxşılıq etməyi tövsiyə edir. «Qərəzdən mərəz hasil olar» – deyən müdriklər düşmənçilik, xəbislik, pisliyin heç vaxt xeyir vermədiyini göstərirlər:

«Eyilikdən fənalıq çıxmaz», «Eyilik etdin, başa vur», «Qonşusu üçün quyu qazan öz boyuna görə qazmalıdır», «Eyilik edərkən qarşılığını düşünmə», «Eyiliyə eyilik hər igidin karıdı, kötülüyə eyilik mərd igidin karıdı» və s.

Bununla belə, atalar yaxşılıq bilməyənə əmək çəkməyin hədər olduğunu da göstərməkdən çəkinməmişlər: «Bədəsil minnət bilməz, barmağını mum etsən ona», «Bəslədim, axırda əməgim heç, maya heç oldu», «Bivəfaya əmək çəkənin əməgi heç olar axırda», «Qarğa bəslədim gözüm çıxartdı», «Köpəyi səmiz etmə ki, səni yesin», «Əməgimiz sağdıc əməyinə döndü», «Əqrəb balası nənəsini yeyər» və s.

Atalar sözlərində, eyni zamanda bic, hiyləgər adamlardan kənar olmaq məsləhət görülür: «Quş uçurdan kimi gözü hey dam-divardadı», «Darı quşu kimin yeri məlum deyil», «Sudan keçər, topuğu islanmaz» və s. Atalar özü haqqında, ona layiq olmadan böyük fikirdə olan, lovğa, şöhrətpərəst, yekəxana, boşboğaz, anlamaz adamları kəskin satira atəşinə tutur: «Birə dəyməz, mini bəyənməz», «Biz razı olduq qaza, qaz özün qoydu naza», «Boşboğazlıq qarın doydurmaz», «Yumurtadan çıxıb, qabığını bəyənməz», «Qarğa qazı təqlid etdi, qarıltısın unutdu», «Evdə soğan-əkmək yeyər, yazıda (çöldə) dişini pəklər», «Gözü böyüklükdədi, aclıq belini qırıb» və s.

Yüngüllük, arsızlıq, qeyrətsizlik və s. kimi mənfi sifətlər də atalar sözləri və məsəllərdə öz əksini gözəl tapmışdır: «Bir şalı var qırmızı, həm qızı geyir, həm özü», «Arsız nədən arlanır, çul da geysə sallanır», «Buldu aşina, qaldı başına», «Qeyrət paylananda hazır deyildi», «Əqli topuğundadı», «Özləri çalıb, özləri oynayırlar», «Gəlin yüz il yaşadı, yengi belin qurşadı» və s.

Kərkük dolaylarında atalar əsli-nəsli olmayan, pis əməl sahiblərindən kənar olmağı, onlarla oturub-durmamağı, onlarla təmasda olarkən ehtiyatlı olmağı tövsiyə edir:

«Qətrannan olmaz şəkər, olsa da cinsinə çəkər», «Yumurta çalan, toyuq da çalar», «Gavur əkməgi yeyən, gavur qılıncı çalar», «Siçandan olan dağarcıq dibi dələr» və s.

Atalar sözləri və məsəllərdə nadanlıq, cahillik, paxıllıq, bədxahlıq, ikiüzlülük, satqınlıq, xainlik, yalançılıq və s. pislənir:

«Qurdla yeyər, qoyunla şivən edər», «Rəzilin imanı olmaz», «Xain qorxaq olar», «Xaindən bir şey sorma», «Həm nala vurur, həm mıxa», «Çalıda gül bitməz, cahilə söz yetməz», «Yalançının evi yandı, kimsə ona inanmadı», «Yalandan yapılan ev tez yıxılar», «Yalançıyla yola varma», «Yalançının şamı yasıya qədər yanar», «Araqda şəfa, hizdə vəfa olmaz».

Xalq ədəb-ərkan, namus-qeyrət, abır-həya kimi nəcib əxlaqi sifətləri yüksək qiymətləndirir və atalar sözləri və məsəllər vasitəsilə bu gözəl keyfiyyətləri insanlara təlqin edir: «Eybini

bilən xalqı eyibləməz», «Ədəb əqlin yazıdan görünüşüdü», «Namusunu sevən aləmin namusuna qarışmaz», «Həya üzdə bir qətrə sudu», «Su hər şeyi paklar, yalnız üz qarasını paklamaz», «Şərəf şüşədi, qırıldısa düzəlməz» və s. Eləcə də ziyan gətirən bir hadisə baş verdikdə «Son peşmançılıq əl verməz» – deyən atalar xalqı ruhdan düşməməyə, mənasız yerə özünü oda-közə atmamağa, təmkinli olmağa, tale ilə barışmağa səsləyir. Doğrudan da: «Bir daş qopanda daha yerini tutmaz», «Araba qırılandan sonra yol göstərən çox olar», «Qırılan qol əyri bitər», «Qırılan qab yerini tutmaz».

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da Yaradanla, inamla bağlı motivlər də yox deyildir. Doğrudur, bu motivlərdə Yaradanın mövcudluğu inkar edilmir, narazılıq və inamsızlıq öz əksini tapır:

«Allah dağına görə qar yağdırar», «Bəndəyə xor baxan bəlaya düçar olar», «Bu günü ye, yarınçin Allah kərimdi», «Miskinin ahı, taxtından endirər şahı», «Qapı çalanın qapısı çalınar», «Verirsə el gətirir, sel gətirir, yel gətirir, Alırsa el aparır, sel aparır, yel aparır». «Allah kərimdi, quyusu dərindi», «Allah qozu verib dişsizə, plovu iştahsıza» və s.

Atalar sözü və məsəllərin çoxu bəşəri fikir və ideyaların tərənnümünə həsr olunduğundan insana səbir, təmkin, həqiqətin gözünə düz baxmaq, ürək sakitliyi və s. kimi hislər təlqin edir:

«Amanat ata minən tez düşər», «Bağ baqqalsız, çəm (meşə) çaqqalsız olmaz», «Haqq söz danışanın börkü yırtıq olar», «Yeri olmayana hər yer vətəndi», «Yağnan yarma qovuşur, arada soğan bürüşür», «Dövlətlinin düşkünü, yaylıq (yay paltarı) geyər qış günü», «Əqrabaynan ye-iç, alış-veriş etmə», «Quru dirsəknən sarımsaq dögülməz» və s.

İraq–türkman atalar sözləri və məsəllərində təlim-tərbiyə motivləri də geniş yer almaqdadır».

«Əxlaq paradan əvvəldir», «Qız öz başına qalsa, ya davulçuya varar, ya zurnaçıya», «Əyi ilə qalxıb-oturan əyi şey öğrənər, xarabnan xarab», «Əkməgin arpa olsun, xoyun buğda» və s.

Demək lazımdır ki, Kərkük dolaylarında məşhur olan «Kiçikdən xəta, böyükdən əta» kimi atalar sözündən çıxış edərək demək olmaz ki, tərbiyə işində qorxu və cəza üsullarına əl atılmır. Yuxarıdakı atalar sözlərindən göründüyü kimi, Kərkük dolaylarında tərbiyə işində böyük tələbkarlıq vardır.

Yeri gəlmişkən, deyək ki, bu, əksər dünya xalqlarına xas olan xüsusiyyətdir. Məsələn: ingilislərdə «Çubuğa qənaət etsən, uşağı korlayarsan» atalar sözü bu mənada işlənir.

Ev-eşik, ailə, qadın-kişi münasibətləri də öz əksini İraq-türkman atalar sözü və məsəllərində hərtərəfli tapmışdır. Dinlə möhkəm bağlı olan İraqda, bu hikmətli söz arasında, demək olar ki, qadınlara qarşı ədalətsizlik nəticəsində yarananlar yoxdur. Əksinə, ailənin ağırlığını çiynində daşıyan qadınların ailədə, uşaqların tərbiyəsində, ailə səadəti, ailə xoşbəxtliyi yolunda böyük rolundan, onların kişiyə dayaq olmağından söhbət gedir. Məsələn:

«Tərbiyə dirəgi nənə tərbiyəsidi», «Ev dərdi, dev dərdi», «Əyi övlada göz yağı yedirtsən azdı», «Əsil ilə evlən, həsirdə yat», «İxtiyara varan quyruq yeyər, cahilə varan yumruq», «Yuva yapan dişi quşdu», «Xerxız övlad babasının ocağında pencər əkər», «Hər kəs öz evinin xidmətçisidir», «Ya yanağının alına, ya babasının malına bax, qız al».

Xalqın estetik tərbiyəsində də, başqa janrlar kimi, atalar sözləri və məsəllər müsbət rol oynamışlar. Atalar sözləri təlqin edir ki, insan həm mənəvi, həm də zahiri cəhətdən gözəl olsun. Zahiri forma ilə daxili məzmunun vəhdəti arzu olunur. Bununla belə, xalq mənəvi gözəlliyə üstünlük verir:

«Camala baxma, kamala bax», «Özü gözəl olmasın, əqli gözəl olsun», «Hər parlayan altun olmaz», «Naxışa baxma, nəqqaşa bax» və s.

İraq–türkman atalar sözü və məsəllərinin bədii xüsusiyyətlərindən danışarkən qeyd etmək lazımdır ki, cinas, kinayə, mübaliğə, müqayisə, alleqoriya, ritorik suallar və s. kimi bədii dil vasitələrindən xalq bol-bol və məharətlə istifadə etmişdir. Atalar sözlərinin məcazi bədii vasitələrlə ifadə edilməsi onla-

rın təsir qüvvəsini qat-qat artırmışdır. Cinaslar ən çox xoyratlarla işlənən atalar sözlərində özünü göstərir. Məsələn:

Bir daş atar;
Bir kirəc, bir daş atar.
Tərəzin əyiləndə
Hər gələn bir daş atar.

Oyan yeri;
Qalx, silkin, oyan yeri.
Yüz il sel gəlsə dolmaz,
Bir gün qəm oyan yeri və s.

Alleqorik şəkildə olan atalar sözlərinə də istənilən qədər təsadüf edilir. Məsələn: «Çaqqal var baş qopardır, qurdun adı yamandı», «Sürüdən ayrılan qoyunu qurd yeyər», «Ac ayı oynamaz» və s.

Mübaliğə yolu ilə düzələn atalar sözləri və məsəllər xalq müdrikliyinin inciləri kimi xüsusilə seçilir. Məsələn:

«Haqqa qarşı boynum qıldan incədi», «İnsanın gözü, yerin qulağı var», «Su yatar, düşmən yatmaz», «Bir toyuğun ayağını açа bilməz», «Dünya tükənər, düşmən tükənməz», «Oxumaq iynəynən gor qazmaq qədər zordu», «Saqqalının hər teli altında min şeytan yatır» və s.

Müqayisə yolu ilə yaranan atalar sözləri də dərin mənası, hədəfə sərrast dəyməsi baxımından diqqəti cəlb edirlər:

Badamça badam olmaz, yetimçə adam olmaz.
Ağacdan maşa olmaz, çingənədən paşa olmaz.

Adam var bir əkməklə min it aldadar,
Adam var min əkməklə bir it aldadammaz və s.

Bənzətmələr də bədii dil vasitələrindən biri kimi, Kərkük atalar sözləri və məsəllərinin təsir gücünü artırır:

Bic paxla kimi atılıb düşür.
Qarğa qazı təqlid etdi, qarıltısın unutdu.
Sac əknəgi kimi, üz-astarı yoxdu.
İnsan insandı, olmasa da pulu,
Eşşək eşşəkdi, olsa da çulu.
Mən billəm hansı inəyin buzovusan və s.

Bədii dil vasitələrindən kinayə də atalar sözü və məsəllərdə bol-bol işlənir və onların təsir gücünü daha da artırır.

Məsələn:

Üzünü örtər, dizini açar.
Topalla gəzən axsaq öyrənər.

Evdə öz başını bağlaya bilməz,
Toyda gəlin başı bağlar və s.

Bədii suallar da Kərkük atalar sözü və məsəllərini bəzəyir. Məsələn:

Lolo, lolo, mənə də lolo?
Dünya kiminlə başa gedib?
Dolmada bir şey yoxsa nişin sarılır?
Əyriyə zaval, doğruya nə var?
Qarpız yeyənsən, yoxsa bostan yolan?
Layla bilirsən, neşin yatmırsan? və s.

Ritorik suallarla işlənən atalar sözlərindən başqa, mükalimə şəklində düzələn atalar sözləri də çoxdur. Burada dramatik və təhkiyə ünsürlərinin mövcud olması nəzəri cəlb edir. Məsələn:

Arnavuda (arsız) dedilər: «Cənnətə gedərsən?» – Dedi: «Aylıq nə qartadı?»
Qurda dedilər: «Çoban ol» – Dedi: «Ayağım yalındı».
Qatıra: «Baban kimdi?» – dedilər. «Dayım atdı» – dedi.
Dedilər: «Abdal, qış gəldi». – Dedi: «Durmuşam titrəməyə».

Dedilər: «Əzrayıl uşaq paylayır». – Dedi: «Özünkü ozüyçün, bizimkinə dəyməsin».

Tülküyə dedilər: «Şahidin kimdi?» – Quyruğunu göstərdi. Dəvədən sordular: «Boynun niçin əyridi?» – Dedi: «Haram düzdü?» və s.

Demək vacibdir ki, İraq–türkman atalar sözü və məsəlləri mənzum və mənsur olmaqla iki yerə bölünür. Mənzum atalar sözləri çox olsa da, biz ümumiyyətlə, atalar sözü və məsəlləri folklorun epik növünün bir janrı hesab edirik. Doğrudur, folklorşünas İ.İbrahimov mənzum atalar sözlərindən danışarkən onların hər misrasının iki hecalıdan başlamış on üç hecalılara qədər nümunələrinin olduğunu göstərir. Məsələn:

İki hecalı:

Yüz ölç
Bir biç.

Üç hecalı:

Qız yükü
Duz yükü və s.

Tədqiqatçı beş hecalılara nümunə olaraq «Dövlətdə dəvə, övladda nəvə» atalar sözünü:

Dövlətdə dəvə,
Övladda nəvə.

və altı hecalılara misal olaraq «At görəndə axsar, su görəndə susar» atalar sözünü:

At görəndə axsar,
Su görəndə susar –

şəklində verərək tədqiq etmişdir (119, 174).

Belə atalar sözlərinə Kərkük folklorunda da çox təsadüf edilir. Lakin biz onları ayrı-ayrı misralar şəklində tədqiq etməkdən çəkinərək İraq–türkman folklorunda olduğu kimi saxlamağı məqsədəuyğun saydıq. Məsələn:

Qaldır samanı, gələr zamanı.
Davul görər oynar, mehrab görər ağlar.

Tədqiqatçı İ.İbrahimov eləcə də:

Sən ağa, mən ağa, inəkləri kim sağa.
Var evi kərəm evi, yox evi vərəm evi –

kimi eynilə İraq–türkman folklorunda da rast gəlinən atalar sözlərini misralara bölərək:

Sən ağa, mən ağa,
İnəkləri kim sağa –

kimi vermiş və bu qəbildən olan atalar sözlərində rədif, qafiyə və s. şeir şəkilləri axtarmışdır (119, 175–176).

Bizcə, yuxarıdakı nümunələrdən də göründüyü kimi, atalar sözlərini misralara bölüb, onlarda qafiyə, rədif və s. axtarmaq da ağlabatan deyildir.

Atalar sözü və məsəllərin tərtibi və çapı zamanı folklorşünaslarımızın İ.İbrahimovun göstərdiyi bölgüyə riayət etməmələri də dediklərimizə dayaq olur.

Maraqlıdır ki, İ.İbrahimovun bu bölgüsündən söz açan professor P.Əfəndiyev elə oradaca həmin bölgüyə riayət etməmiş, Azərbaycanda da, Kərkük dolaylarında da məşhur olan atalar sözünü doğru olaraq «Saxla samanı, gələr zamanı» şəklində vermişdir (112, 120).

Atalar sözlərindən danışarkən yuxarıda qeyd etdiyimiz kimi, xalq dilinin zəngin leksikasını, keçmiş işlək forma və şəkillərini qoruyub saxlayan bu incilərin dilçilik baxımından da

böyük əhəmiyyəti olduğunu unutmaq olmaz. Təkcə onu demək kifayətdir ki, İraq–türkman atalar sözü və məsəllərində «Kitabi-Dədə Qorqud» da daxil olmaqla, Azərbaycan dilinin dərin qatlarında işlənmiş bir sözlər mühafizə olunub saxlanmışdır. Şübhəsiz, onlar Azərbaycan dili tarixinin bəzi qaranlıq qalmış məsələləri dürüstləşdirilməsində tədqiqatçıların köməyinə gələ bilər. Məsələn:

Qısrağı (at) gənc gözüynən, qızı ahıl gözüynən al.
Özü yayan (piyada), əkməgi atlı.
Qallavuzu (bələdçi) qarğa olan leş iylər.
Köpək səmiz (kök) olsa da, əti yeyilməz.
Sığır (inək) qəssabxanaya ulaşdıqdan sonra bıçaq hazırdı.
Gecə müştərisi ya xersız (oğru) olar, ya xeyirsiz və s.

«Əski pambıq bez olmaz, əski düşmən düz olmaz», «Arvad var ev dayağıdı, arvad var incana (paltar yumaq üçün gildən düzəldilən qab) boyağıdı» və s. kimi atalar sözlərinə «Kitabi-Dədə Qorqud»da olduğu kimi (136, 31, 33), İraq–türkman folklorunda da təsadüf edilir (149, 48).

Ot kökü üstündə bitdiyi kimi, insan da öz kökündən ayrılmır, bütövlükdə həyatı boyu xalqın adət-ənənəsini, dilini, inam və etiqadını, milli qürurunu saxlayır. Bütün bunlar ana südü ilə İraq türkmanlarının qanına keçən atalar sözü və məsəllərdə də öz əksini bariz şəkildə tapmışdır. Xalqın dünyagörüşünün, ağıl, zəka və əməlinin, həyat təcrübəsinin qısa, dolğun, yığcam ifadəsi, «az sözlə ən geniş məna ifadə edən şah əsərlər» (246, 149) – atalar sözləri və məsəllər insanı düşünməyə, axtarmağa, müqayisə etməyə, nəticə çıxarmağa sövq və vadar edir. Çünki «o elə bir hikmət xəzinəsidir ki, hər dəfə ora baş vurub qayıdanlar neçə-neçə inci, sədəf tapıb gətirirlər» (107,142).

Atalar sözləri və məsəllər, eləcə də insanlara yığcam, müdrik danışmaq vərdişləri aşılayır. Təsadüfi deyildir ki, prof. M.Şaxnoviçin «kökləri xalq yaradıcılığından qida alan əzəmətli ağac» adlandırdığı (333, 104), bir çox elmlərin açarı fəlsəfə də öz ilkin və sadə başlanğıcını atalar sözlərindən almışdır.

Məhz buna görədir ki, qədim dövrlərdən başlamış zəmanəmizə qədər filosoflar həmişə canlı məxəz kimi atalar sözü və məsəllərə müraciət etmişlər. Bu zəka və söz sənətinin daim təzə-tər, belə dərin təsir gücünə malik olması, başlıca olaraq onların böyük həyat həqiqətlərini, əxlaqi-mənəvi tərbiyə motivlərini yığcam, hikmətli şəkildə ifadə etməsindədir. Qərinələrlə öncə yaranan, müdriklik süzgəcindən keçərək həyata əbədi vəsiqə alan, zəmanəmizə qədər gəlib çıxan, İraq–türkman folklorunun aparıcı janrlarından olan atalar sözləri və məsəllər indi də öz əhəmiyyətini itirmir, böyük hikmət və tərbiyəedici təsir gücünü saxlayır, xalqın tarixini, mənəvi-psixoloji təkamül yolunu öz ziyası ilə işıqlandırır.

TAPMACALAR

Tapmacalar Kərkük dolaylarında xoyratlar, xalq havaları, atalar sözləri, lətifələr və nağıllar kimi geniş yayılmışdır.

İraqlı folklorşünaslar xalq ədəbiyyatının bu janrına dair xüsusi tədqiqat aparmasalar da, bəzi əsərlərində ötəri də olsa, onlara toxunmuş, xeyli nümunələr vermişlər (255, 167–175; 117, 136–138; 201, 55, 95).

Tədqiqatçı Aydın Kərkük isə üç yüzdən artıq tapmacanı toplayaraq ayrıca kitabça halında çap etmişdir (58).

Türkdilli xalqlar arasında bilməcə (türk), topışmek (özbək), matal (türkmən) və s. adlarla tanınan tapmacalar Kərkük dolaylarında da Azərbaycanda olduğu kimi tapmaca adı ilə tanınır. Aydın Kərkük bu münasibətlə tapmaca sözünün etimologiyasına toxunaraq qeyd edir: «Kərkükdə bilməcəyə tapmaq sözünün fel kökündən törəmiş tapmaca deyirlər» (201, 55).

Əslində, elə bilməcə də beləcə, yəni bilmək fel kökündən yaranmışdır.

Həyatın kitabsız, radiosuz, kino və teatrsız keçən bir dövründə «upuzun gecələrin əzici və üzücü yalqızlığını çəkməkdənsə, hər gecə bir qonşunun evində toplaşaraq çox yo-

rucu bir günün səfasını sürmək qədər gözəl heç bir şey təsvir olunmaz» (58, 10).

Doğrudan da, xalq boş vaxtını mənalı keçirmək üçün müxtəlif vasitələr düşünmüşdür ki, tapmacalar da, şübhəsiz, bu qüvvətli arzunun nəticəsi kimi meydana gəlmişdir. Xalq onlara əyləncə vasitəsi kimi baxsa da, zaman keçdikcə tapmacalar ağlı, zəkanı inkişaf etdirmək, düşüncə və mühakiməni gücləndirmək kimi böyük bir amala xidmət göstərmişdir.

Tapmacalar iki və daha artıq şəxs arasında mükalimə şəklində meydana gəlir. Ona görə də H.Zeynallı göstərir ki, «tapmaca atalar sözü, bayatı və maniyə nisbətən daha çox kollektivlik xüsusiyyətinə malikdir», yəni tapmacalar məclislərdə, şənliklərdə, tapmaca gecələrində kollektiv tərəfindən yaradılmışdır (99, 10).

Nəyisə bilmək, hər hansı bir məchulu üzə çıxarmaq, yeniliyə can atmaq insan təbiətinə xas olan xüsusiyyətdir. Odur ki, tapmacalar şifahi xalq ədəbiyyatının bir janrı kimi hamının qəlbinə yatır. Elə indinin özündə belə, bir çox xalqlarda televiziya ilə tapmaca məclislərinin keçirilməsi böyük marağa səbəb olur.

Tapmaca məclislərində hərə öz biliyini, ağlını, zəkasını göstərməyə can atır. Tapmacanın açmasını daha tez tapana xüsusi ehtiram göstərilir, daha fəal iştirakçılara mükafat verilir.

Kərkük dolaylarında xüsusi nağılçılar olduğu kimi, tapmaca ustaları da olmuşdur. Bu baxımdan Sübhi Saatçının fikri diqqəti cəlb edir: «Kərkük yörəsində tapmaca qonusunda usta olan kimsələr vardır. Tapmacaları bunlar kimi ustalardan dinləmək çocuqlardan başqa, böyüklər üçün də ayrı bir zövq və həyəcan qaynağı sayılır» (201, 56).

Tapmacalar duzlu-məzəli dillə, qəribə bir əda ilə danışılır. Yaxın keçmişə qədər kənd yerlərində tapmacasız gecə keçməzdi. Kərkük dolaylarında ana və nənələr də uşaqlara çoxlu tapmaca öyrədirlər (117, 136). Hətta saylar da uşaqlara tapmacalar vasitəsilə öyrədilir. Tapmaca deməyə «Tap nədi, tapış nədi» – deyə başlayırlar. Tapmacanın açmasını tapa bilmə-

yəndə dinləyənlər düşünərək onun açmasına, yozulmasına kömək edə biləcək suallar verir, fikirlərindən keçəni dəqiqləşdirirlər:

Gözlə görülər, yoxsa görülməz?
Yeyilər, yoxsa yeyilməz?
Diridi, yoxsa ölüdü?
Suda yaşar, yoxsa havada?
Əllə tutular, yoxsa tutulmaz?
Havada uçar, yoxsa sürünər? və s.

Tapmacanı yoza bilməyəndə onu söyləyənə bir kənd və ya şəhər «bağışlayacaqlarını» vəd edir, açmasını intizarla gözlərlər. Tapmaca deyən onu açmasa, söz-söhbət başlar, tapmaca deyəni «sıxma-boğmaya» salarlar. Bu, uşaqlar arasında xüsusən böyük səs-küylə keçir. Beləliklə, tapmacalar uşaqların ağıl, zəka, düşüncə yarışına çevrilir, uşaq folklorunun mühüm hissəsini təşkil edir. Uşaqların zehninin, dərrakəsinin inkişafına təkan verir, onlarda bir tərəfdən tez qavrama, axtarıb tapma, iti hesablama, hazırcavablıq qabiliyyətini sürətləndirir, digər tərəfdən elmi təsəvvür yaradır.

Ümumiyyətlə, tapmacalar insana bilik verir, onu həyat və təbiətlə tanış edir. Bu xüsusiyyətinə görə tapmacalar şifahi xalq ədəbiyyatının başqa janrlarından fərqlənir. Ona görə ki, «materialı daha real və daha təbii olan» (202, 5) tapmacalar təbiət və həyatda nə görünürsə, onun üzərində qurulur, insanların cəmiyyət haqqındakı fikirləri, həyat təcrübəsi, təbiət üzərindəki müşahidələri bədii formada öz əksini tapır. Bu cəhətinə görə tapmacalar istər uşaq, istərsə də yaşlı olsun, hamının marağına səbəb olur.

Folklorşünas V.Xuluflunun «xalq fikrinin matematikası» adlandırdığı tapmacalar insanı əhatə edən real varlıqda, təbiətdə baş verən, onun həyat tərzi ilə bağlı hadisənin mahiyyətini dərk etməkdə böyük əhəmiyyətə malik olmaqla, xalq təfəkküründün inkişafında mühüm mərhələ təşkil etmişdir.

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da tapmacalar nağıllarla qaynayıb-qarışmış, şifahi xalq ədəbiyyatı-

nın bu geniş yayılmış janrının dəyər-qiymətini daha da artırmışdır. «Yəhərçi qızı», «Yola nərdivan ataq» və s. kimi nağılların konflikti öz həllini tapmacalar vasitəsi ilə tapmışdır. «Yola nərdivan ataq» nağılı, ümumiyyətlə, başdan-ayağa tapmacalar üzərində qurulmuşdur. Kərkük nağıllarında da gənclərin ağıl, zəka və dərrakəsini yoxlamaq üçün tapmacalardan məharətlə istifadə edilmişdir.

Dövlət və ailə-məişət məsələlərinin həllində də tapmacaların rolu az olmamışdır. «Palançı qızı», «Yola nərdivan ataq» nağıllarından göründüyü kimi gənclərin evlənməsində tapmaca sınaqları başlıca şərt sayılmışdır. «Yəhərçi qızı» nağılında padşah yəhərçinin qızını tapmacalarla imtahana çəkir, onun ağıl, dərrakə və düşüncəsinə heyran qalır. Padşaha layiq olduğunu yəqin edərək onunla evlənmək qərarına gəlir. Yəhərçinin qızı da öz növbəsində padşahı tapmacalarla sınaqdan keçirdikdən sonra ona ərə getməyə razılıq verir. Buna bənzər hadisəyə «Yola nərdivan ataq» nağılında da rast gəlinir.

Gənclərin ailə qurmasında bir çox oğlan və qızların özünə ömür-gün yoldaşı seçərkən, vara-pula, camala yox, ağıla, dərrakəyə üstünlük verməsi, tapmacalarla bir-birini imtahana çəkməsi, izdivacın başlıca şərtinin tapmaca sınağından uğurla çıxmaq olması, tapmacaların bir tərəfdən xalq arasında mühüm yer tutmasına dəlalət edirsə, digər tərəfdən də onların kortəbii simvolikadan şüurluluğa, müdrikliyə keçid mərhələsinin məhsulu olduğunu, zehnin, düşüncənin inkişafında böyük rol oynadığını təsdiqləyir.

H.Zeynallı atalar sözləri və bayatılardan sonra tapmacaların öz əhəmiyyətinə və yayılmasına görə şifahi xalq ədəbiyyatının janrları arasında üçüncü yeri tutduğunu göstərmişdir (114, 3).

Kərkük dolaylarında isə tapmacalar «yaşayan el ədəbiyyatının ən olqun örnəklərindən biri» (117, 136) hesab edilir.

Real həyatı əks etdirən İraq–türkman tapmacaları mövzu etibarı ilə müxtəlif olur. Burada həyatın bütün sahələrinə aid tapmacalara təsadüf edilir. Mövzuya görə onları musiqi alət-

ləri ilə bağlı tapmacalar, bəzək-düzəklə, oxumaq-yazmaqla, insan və onun bədən əzaları, geyim-kecimlə, silah və alətlərlə, toxuculuq və maldarlıqla, tikili və tikinti ilə, yemək-içməklə, heyvanlar və bitkilər aləmi ilə, kainatla, mücərrəd və təbii hadisələrlə, ev-eşik və yaşayışla, meyvələr, əkin-biçin, bağ və bostanla bağlı tapmacalar başlıqları altında qruplaşdırmaq olar (132). Mövzuların adından da göründüyü kimi, tapmacalar xalqın təbiət və cəmiyyət hadisələrinə münasibətini, məşğuliyyətini, həyata baxışını real, özünəməxsus bir şəkildə əks etdirir. Şəkli xüsusiyyətlərinə görə İraq–türkman tapmacaları Azərbaycan tapmacalarından fərqlənmir. Onlar da poetik quruluşuna görə nəsr və nəzm şəklində olurlar. Nəsr şəklində olan tapmacalar nisbətən azdır. Bunlar bir, iki, üç, dörd sətirli tapmacalardan ibarət olur.

Bircə misradan ibarət olanlar:

Mən gedərəm, o qalar. (İz)
Haqq bilər, xalq bilməz. (Əcəl)
Ağ odada sarı gəlin. (Lampa)
Yaşıl boylu, gümüş gərdənli. (Göy soğan)
Əlsiz-ayaqsız qapı açar. (Yel)
O nədir ki, qəlbdən çıxmaz. (Övlad)
Hər fikir altından çıxar. (Qələm) və s.

Burada daxili qafiyəli tapmacalara da çox təsadüf edilir:

Altın qantar, ət dartar. (Sırğa)
İçi dəmir, üstü xəmir. (Lüləkabab) və s.

Kərkük folklorunda nəsr şəklində iki, üç, dörd sətirli tapmacalar da vardır:

Dağdan-təpədən qar yağar,
Nənəm onu bişirər.
(Ələk, un)

Üç dənə gəldilər körpü başına;
Biri baxdı, basdı keçdi, biri baxdı keçdi,
Biri də nə baxdı, nə basdı, amma keçdi.
(Qucağında uşaq olan hamilə qadın)

Bir hovuz içində bir ilan,
Başında bir qırmızı quş.
Su bitər, ilan durar,
Quş ölər.
(Neft lampası)

Bununla belə, Kərkük tapmacaları arasında nəzm şəklində olanlar əksəriyyət təşkil edir. Onlar iki, üç, dörd, beş, altı, səkkiz misralı poetik parçalardan ibarət olurlar:

Qapqaradır hər yanı,
Hər gün dağlanır canı.
(Qazan)

Bu gün çərşənbədi,
Könlünə düşən nədi?
Odu yox, ocağı yox,
Kölgədə bişən nədi?
(Dələmə)

Ruhu yoxdu, almaz nəfəs,
Şəkli, cismi eyni qəfəs.
Əgri beli, uzun boyu,
Çox nəşəli verir bir səs.
Boş qarnına dolur hava
Məhzun səsi dərdə dava.
(Ud)

Çox dişi var, dişləməz,
Heç kimsəni incitməz,
Əllərdən yerə düşməz.
(Daraq)

Uzun-uzun yollardan
Bir əcaib quş gəlir.
Qırma badam dili var,
Hər nə desən xoş gəlir,
Gözlərindən yaş gəlir.
(Məktub)

Qarnı şişib, şəhərə düşüb,
Sanki dürdü yemək bişib.
Aləm ona qoşa gəlir,
Hamı birdən coşa gəlir.
Barmağı var yüz arşın,
Al-yaşıllı, sarışın.
Ağzına adam girər,
Həm oturar, həm durar.
(Minarəli məscid)

İraq–türkman folklorunda nəzm şəklində olan tapmacalar içərisində ən çox təsadüf edilən iki və dörd misralı olanlardır.

Misallardan göründüyü kimi, tapmacalarda vəzn və qafiyə hər vaxt gözlənilmir. Tədqiqatçı İ.Kolesnitskaya bu münasibətlə yazmışdır: «Tapmaca hecaların ardıcıllığına əsaslanan düzgün vəznli və qafiyəli şeirin nə olduğunu bilmir. Tapmacadakı şeir tonikdir» (297, 534).

Bu fikrə başqa tədqiqatçılarda da təsadüf edilir: «Xalq tapmacalarının əksəriyyəti onların ritmikliyindən asılı olmayaraq, şeir misralarına mütləq bölünməsini tələb etmir. Tapmacalar hər şeydən əvvəl, cümlənin və qafiyənin şəkil intonasiyası ilə möhkəmlənmiş bölgüsünü tələb edir» (291, 14).

Demək olar ki, bu xüsusiyyət bütün dünya xalqlarının tapmacalarına aiddir. Bununla belə, Azərbaycan və eləcə də İraq–türkman tapmacalarını başqa xalqların tapmacalarından fərqləndirən bir xüsusiyyət də vardır. Burada bayatılarla yaranmış çoxlu tapmacalara rast gəlinir. Bu dördlüklərdə poeziya qüvvətli, vəzn, qafiyə yerli-yerindədir. Onları formaca bayatılar-

dan fərqləndirmək olmur. Odur ki, onları lirik növün bir janrı kimi «bayatı-tapmacalar» adı altında nəzərdən keçirdik.

Kərkük tapmacalarının əksəriyyəti metafora şəklində qurulur. Məcaz tapmacanın canıdır. Məcazı duymaq tapmacanın açmasını dərk etmək deməkdir. Adətən açması tələb olunan əşya və onun məcazı müəyyən əlamətinə görə müqayisə olunur. Məsələn:

Toxumsuz bitər, aləmə yetər. (Toz)

Daşdandı, dəmirdəndi,
Mayası xəmirdəndi. (Dəyirman)

Ayaqları su içər,
Üstündən gələn keçər. (Körpü)

Yoxladım belindəkin,
Anladım könlündəkin (Kitab) və s.

İraq–türkman tapmacalarının əksəriyyəti bənzətmə, müqayisə, təşbih, təkrir və başqa bədii təsvir vasitələri ilə düzəlir. Burada fikrin mənası üstüörtülü olur, hadisə, məfhum və ya şeyin bir əlaməti və ya xüsusiyyəti dolayı yollarla söylənir, başqa cəhətləri gizli saxlanılır. Məsələn:

Yuxarıda qara-qara,
Yerə düşdü, para-para.
Əlimə aldım qan kimin,
Ağzıma qoydum, bal kimi.
(Xar tut)

Səpdim noxud,
Çıxdı söyüd.
Yarpağı tut,
Barı armud.
(Pambıq)

Göründüyü kimi, tapmacada təsvir edilən əşyanın, müqayisə edilən bir cəhəti, xasiyyəti, forması, məzmunu, keyfiyyəti fantastik müqayisələrlə oxşadılır. V.A.Vasilenko bu münasibətlə yazmışdır: «Tapmacada əşyaların məcazi təsviri çox geniş fantaziya üçün qeyri-məhdud imkan yaradır. Bu və ya digər anlayışı ən müxtəlif əşyalara keçirmək olar. Belə ki, insan gözləri tapmacada qardaş, quş, yumurta, kukla, alma, noxud, pul, ulduz və s. adlandırılır» (324, 141).

Kərkük dolaylarında da, Azərbaycanda olduğu kimi, sual şəklində qurulan tapmacalar çoxdur. Bu tapmacalar, adətən, çox sadə olub, insanın biliyini, ətraf aləm, təbiət, cəmiyyət, heyvanlar, bitkilər, kainat və s. haqqında məlumatını yoxlamaq üçün düzəldilir. Məsələn:

Tap nədi?
Quşlardan yumurta doğmaz, bala doğar.
(Yarasa)

Tap nədi?
Heyvanda dilsiz, ağacda kalsız.
(Balıq, əncir)

Daşdı, daş deyil?
Yumurta doğar, tavuq deyil,
Arpa yeyər, at deyil.
(Tısbağa)

Bir çox tapmacalar saylarla işlənir. Təbii ki, belə tapmacalar, hər şeydən əvvəl, uşaqlara sayları öyrətmək baxımından maraq doğurur. Lakin onların içində dərin fəlsəfi fikirləri əks etdirənlər də az deyildir. Məsələn:

Gələr bir-bir,
Gedər bir-bir;
Gələn gedər,
Gedən gəlməz,
Gəl bunu bil.
(Doğum, ölüm)

Beşdə quzu,
Onda toğlu;
İyirmidə aslan,
Otuzda qaplan. (İnsan)

Hav, hav, hav atar,
Çaxmaq daşı qa atar.
Səksən səkkiz dəyirman,
Doxsan doqquz hav atar. (İldırım)

Tədqiqatçılarımız, bayatılar kimi dörd misralı tapmacaların da 1-ci, 2-ci misralarının mənası olmadığı barədə fikir yürüdürlər (195). Deyirlər ki, guya 1-ci, 2-ci misraların bir çox hallarda tapmacaya dəxli olmur, məna üç və dördüncü misralarda verilir. Biz şübhə etmirik ki, zəif təfəkkür məhsulu olan belə tapmacalara təsadüf edilə bilər. Lakin belə naqisliyi, ümumiyyətlə, xalq yaradıcılığının bütöv bir janrının ayağına yazmaq doğru deyildir. İraq–türkman tapmacaları ilə bağlı aşağıdakı mülahizələr (bunlar, ümumiyyətlə, bütövlükdə Azərbaycan tapmacalarında özünü göstərir) dediklərimizə dayaq olur.

Bəzi İraq–türkman tapmacalarında məna 1-ci və 2-ci misrada daha güclü olur. Məsələn:

Evimizdə bir fatı var,
Qara, yumru altı var.
Əqillilər əqil tökər, bulallar,
Əqilsizlər düşünəllər, durallar.
(Neft lampası)

Kərkük dolaylarında açması özündə olan tapmacalara da təsadüf edilir:

Qan qırmızı, süd bəyaz.
Dəvə balasından böyük və s.

Elə tapmacalar var ki, Azərbaycanda olduğu kimi, hər misrası ayrıca tapmaca təşkil edir:

Tap nədi?

Dağda Düleyman. (İlan)
Suda Süleyman. (Balıq)
Obada Aslan. (Xoruz)
Yatar kövşə. (Qoyun)
Duzsuz bişər. (Süd)

İraq–türkman tapmacalarına xas olan bir xüsusiyyət də vardır. Bəzən tək bircə sözün dəyişməsi ilə yeni tapmaca yaranır. Məsələn:

Uzun-uzun uzanır,
Gəlin kimi bəzənir.
(Xurma ağacı)

Uzun-uzun uzanır,
Həftədə bir bəzənir.
(Camaşır ipi)

Uzun-uzun uzanır,
Hər ildə bir bəzənir.
(İlan)

Yeri gəlmişkən, demək lazımdır ki, İraq–türkman folklorunda ən çox variantı olan janr tapmacadır. Azərbaycan və İraq–türkman tapmacaları bu cəhətdən də fərqlənmirlər. Burada da xoruzla bağlı verdiyimiz nümunədə olduğu kimi hər tapmacanın bir neçə variantına rast gəlinir:

Dəlik-dəlik börkü var,
İstər olsun hamıya yar.

Qaranlıqdan qovğa çıxdı,
Uzun boylu koxa çıxdı.
Zamparalığı (şorgözlüyü) var,
İstər olsun hamıya yar.

Azan oxur, namaz qılmaz,
Arvad alır, nikah qılmaz.

Çağırdım həyətdən,
Səs verdi kənddən.
Dimdiyi sümükdən,
Saqqalı ətdən.

İraq–türkman tapmacaları arasında açması xurma, dombalan, qoz, saat, göz, sırğa, diş, ayaqqabı, yumurta, ildırım, Ay, Günəş, soğan və s. olan tapmacaların daha çox variantlarına təsadüf edilir. Azərbaycan tapmacalarında olduğu kimi, eyni tapmaca İraq–türkman folklorunda müxtəlif yerlərdə fərqli şəkildə deyilir. Məsələn, cöyüzlə əlaqədar tapmaca:

Kərkükdə:

Dağdan endi dingir-dingir,
Boynunda var halqa zincir.

Daquqda:

Dağdan endi dambır-dambır.
Çal başına, otu, gəmir.

Tuz Xurmatuda:

Dağdan endi gumur-gumur,
Qoy dişinə, qır, gəmir və s. (117, 138).

Həm Kərkük dolaylarında, həm Şimali Azərbaycanda, həm də Cənubi Azərbaycanda, demək olar ki, hərfi-hərfinə eyni olan onlarca tapmaca vardır:

Azan oxur, namaz qılmaz,
Arvad alar, nikah qılmaz. (Xoruz)

Yeddi dəlildi toxmaq,
Bunu bilməyən axmaq. (Baş)

Dəvə dolanı,
Gəzər obanı;
Altı qıçı var,
İki dabanı. (Tərəzi)

O yanı daş, bu yanı daş,
İçində var yüz əlli baş. (Hamam)

Üstü zəmi – biçərlər,
Altı bulaq – içərlər. (Qoyun)

Gecə səpdim noxudu,
Səhər gördüm yox idi. (Ulduzlar)

O yanı pərçim, bu yanı pərçim,
İçində var şah göyərçin. (Göz)

Burda vurdum qılıncı,
Hələbdə (Bağdadda) çıxdı ucu. (İldırım)

Əl əkər, dil biçər. (Yazı)

Şəkərə bənzər, dadı yox,
Havada uçar, qanadı yox. (Qar)
(132; 19; 187–215; 203; 248, 535–543; 66, 243).

Elə tapmacalar da var ki, çox cüzi fərqə rast gəlinir. Məsələn, dəyə, çadır mənasını verən tapmacaya Azərbaycanda:

Qara dəvə çökdü yerə,
Bağırsağın tökdü yerə –

şəklində (203, 19, 145), Kərkük dolaylarında:

Qara sıgır (cöngə) çökər yatar,
Bağırsağın tökər yatar –

şəklində işlənmişdir (132, 243).

Burada meyvələr, əkin-biçin, bəzək-düzəklə, din və dini ayinlərlə, müxtəlif əşyalar və təsərrüfat alətləri, kainat, mücərrəd və təbii hadisələrlə bağlı çoxlu tapmacalar vardır. Bu tapmacalar real varlığı əks etdirir.

Bəzi tədqiqatçılara görə, tapmacalar xalqın mifik inam və etiqadlarının inikasıdır. A.N.Afanasyevə görə, tapmacada xalq özünün qədim dünyagörüşünü ifadə edib (269, 25). F.İ.Buslayev isə təsdiq edir ki, tapmaca əsl xalq poeziyası kimi özünün ibtidai mifik xarakterini saxlamışdır (279, 33).

Rus alimlərinin bu fikrinə əsaslanan bəzi folklorşünasların əksər tapmacalarda mifik inam və etiqadların yaşadığı, Ayın, Günəşin, ulduzların, küləyin, yağışın və s. canlı və şüurlu olmaları barədə ibtidai insanların inamı və onların bu dünyagörüşünün tapmacalarda öz əksini tapması barədə fikrinə qarşı çıxmaq və mübahisə etmək olar (195, 10, 75, 115).

Demək lazımdır ki, bir çox dünya xalqlarının folklorunda, o cümlədən də Azərbaycan və eləcə də İraq–türkman folklorunda cansız əşyaların tapmacada canlı varlıq kimi, insan kimi göstərilməsi hallarına tez-tez təsadüf edilir. Məsələn:

Dayım oğlu İsmayıl,
Şapalağa daim mayıl.
Qulağı dəmirdəndi,
Köynəyi dəridəndi. (Dəf)

Biz biz idik,
Otuz iki qız idik,
İpək kimin süzüldük,
İnci kimin düzüldük. (Dişlər)

Dağdan gəlir, daşdan gəlir,
Saqqallı əmim gəlir. (Keçi) və s.

Bunu biz elə N.Seyidovun «Tapmacalar» kitabının son illərdə yaradılmış «Mətbuat və texnikaya aid tapmacalar» bölməsində də görürük (203, 195–202). Açması yazı, səhifə, gəmi,

parovoz, təyyarə, peyk, kitab və s. olan tapmacalar canlı insana, quşa, heyvana, bitkiyə və s. oxşadıldığına görə burada mifik təfəkkürün, animistik görüşlərin izlərini axtarmaq, təbii ki, yanlış olardı. V.A.Vasilenkonun yazdığı kimi, «əksər hallarda cansız əşyalar tapmacada canlı varlıqlar kimi, insan kimi göstərilirlər» (324, 147). Deməli, insanın təbiət və cəmiyyət hadisələri barədə düşüncəsi, həyat təcrübəsi, müşahidələri və s. nəticəsi kimi düzəldilən tapmacalar bu və ya digər hadisənin şairanə təsviridir.

Tapmacalar xalqın məişətinin müxtəlif sahələrini öyrənmək, bir çox məsələləri dürüstləşdirmək baxımından əhəmiyyətli mənbədir. Bizcə, tapmacalar vasitəsi ilə xalqın keçdiyi həyat yolunu atalar sözlərindəki kimi addım-addım izləmək, doğru nəticələrə gəlmək olar. Maldarlıqla, əkin-biçin, bağbostan, müxtəlif sənətlər, xalqın işlətdiyi əşyalar və təsərrüfat alətləri, onların yaranma tarixi və s. ilə bağlı tapmacalar onun keçdiyi tarixi mərhələlərdən xəbər verməklə bərabər, həyat tərzi, məişəti, dünyagörüşü, zövqü, insanlara, təbiətə münasibəti, məşğuliyyəti, təfəkkürü və s. barədə həyat vəsiqəsi, başqa xalqlar içində öz səsidir.

LƏTİFƏLƏR

İraq–türkman folklorunda xalqın məişətindən doğan duzlu-məzəli lətifələr çoxdur. Onların arasında dərin mənası və hikməti ilə insanları ovsunlayan, heç vaxt köhnəlməyən, əbədi təzə-tər olan Molla Nəsrəddin lətifələri həm kəmiyyət, həm də keyfiyyətcə fərqlənirlər.

Demək lazımdır ki, Molla Nəsrəddin lətifələri bir çox Şərq xalqlarının, xüsusən də türkdilli xalqların arasında geniş yayılmışdır. Hamı onları sevir və özününkü hesab edir. O cümlədən də İraq ərazisində yaşayan və azərbaycanca danışan türkmanlar.

Sadəlövhlükdən müdrikliyə qədər uzun bir yol keçmiş bu müdriki başqa Şərq və türkdilli xalqlardan fərqli olaraq Kərkük

dolaylarında Xoca Nasır (qazax), Nasriddin Afandi (özbək), Efendi (tacik), Hoca Nasredin (türk), Ependi (türk- mən), Nəsrəddin Oca (tatar), Nəsrəddin Əpəndi (uyğur), Nəsrəddin (fars) adı ilə deyil, Azərbaycanda olduğu kimi, Molla Nəsrəddin və ya sadəcə olaraq Molla adı ilə tanıyırlar. Molla Nəsrəddin lətifələri ilə bağlı ənənə İraq–türkman folklorunda da Azərbaycandakı ənənənin eynidir. Məsələn, H.Zeynallı göstərir ki, kim Molla Nəsrəddin məzhəkələrindən birini desə, ya üç, ya beş, ya yeddisini deməlidir. Yəni bir olmaz və cüt də olmaz (114, 146).

Kərkük dolaylarında bu misilsiz məzhəkəçi ilə bağlı hər şeyi məzhəkə halına salır, yeddi lətifə danışırlar. Bu baxımdan Şakir Sabir və İbrahim Daquqinin fikirləri maraq doğurur. Şakir Sabir yazır: «Bir də bu kimi ev oturuşlarında Molla Nəsrəddinin qısa hekayələri qonuşulurdu. Bir tək hekayə söyləyənə: «Üzərivə yeddi hekayə düşdü. Söyləyəcəksən. Söyləmiyənin nənəsi (anası) boşanır» – deyir və yeddi hekayə danışmasını istəyirlər» (184, 153).

Tədqiqatçı İbrahim Daquqinin də fikri folklorşünas Şakir Sabirin fikri ilə səsləşir: «Molla Nəsrəddindən kim bir lətifə danışsa, gərək yeddisini danışsın. Kim yeddisini danışmasa anasının ərsiz qalacağını uydurmuşlar» (117, 61).

Həqiqətdə isə İbrahim Daquqi və P.Əfəndiyevin göstərdikləri kimi, Molla Nəsrəddin lətifələrindən yeddi dənəsinin anladılması gecə söhbətlərini uzatmaq, ruhlara nəşə vermək və bu dadlı-duzlu söhbətləri daha da məzəli etmək üçün düşünülmüşdür (61, 111, 136).

Azərbaycanda olduğu kimi (154, 8), Kərkük dolaylarında da Molla Nəsrəddin lətifələrinə qulaq asanların hər birinin yeddi lətifə danışması arzu olunur. Bu adət lətifələrin bayatı, mahnı, atalar sözü, tapmaca və nağıllar kimi geniş yayılmasına gətirib çıxarmışdır.

Şərqdə Harun ər-Rəşidin vaxtından müstəqil janr kimi tanınan, sonralar yeni məzmun kəsb edərək daha da inkişaf edən lətifə janrının İraq–türkman folklorunda nə vaxt təşəkkül tap-

dığını dəqiq demək çətindir. Məlum olan odur ki, lətifələr şifahi xalq ədəbiyyatının müstəqil janr kimi Kərkük dolaylarında geniş yayılmışdır. Doğrudur, burada Kifr Əhməd və başqalarının adı ilə bağlı və eləcə də müəllifi bəlli olmayan lətifələrə də istənilən qədər təsadüf edilir. Bununla belə, dərin mənası, hikməti ilə adamı valeh edən, məclislər yaraşığı, dillər əzbəri, xalqın bədii dühasının məhsulu olan Molla Nəsrəddin lətifələri daha çoxdur. Bunun əsas səbəbi başqa türkdilli xalqlarda olduğu kimi, xalqın müxtəlif vaxtlarda, müxtəlif münasibətlərlə yaratmış olduğu bir çox lətifələri bu xalq filosofunun əhval-ruhiyyəsinə uyğunlaşdıraraq onun adına çıxması olmuşdur. Beləliklə, Molla Nəsrəddin lətifələri durmadan çoxalmış, Molla isə get-gedə məşhurlaşmışdır.

Akademik V.A.Qordlevski bu münasibətlə yazmışdır: «Nəsrəddin adına lətifələr gündən-günə çoxalır, zaman onların qarşısında acizdir» (266, 243).

V.A.Qordlevski eyni zamanda qeyd edir ki, XIX əsrin ortalarında mətbəə maşınlarında bir çox lətifələri Molla Nəsrəddin adına çap edərək, ona aid etmişlər. Molla Nəsrəddinin taleyi belə olmuşdur (290, 131).

Bütün Şərq aləmində indi də rövnəqini itirməyən, Qərb ölkələrində də dönə-dönə çap olunan hikmətli lətifələrin yaradıcısı, bu qeyri-adi, heyrətamiz müdrik kimdir?

Bəzi tədqiqatçılar Molla Nəsrəddinin tarixi şəxsiyyət olduğunu və hətta Teymurləngin təlxəyi olduğu fikrini irəli sürürlər. Bunu, Molla Nəsrəddin lətifələri arasında Teymurlənglə bağlı lətifələrin olması ilə əsaslandırmağa çalışırlar. «Teymurləngin tarixi» adlı kitabı yada salırlar. Doğrudan da, həmin kitabda göstərilir ki, Teymurləngin sarayında bir nəfər ağıllı, alim adam yaşamışdır. O, istirahət saatlarında hazırcavab zarafatları ilə öz zəhmli hökmdarını əyləndirərmiş (111, 141).

Bu fikir müəyyən qənaətə gəlməyə imkan verir. Məlumdur ki, insanlar özündən qat-qat güclü olan qüvvələrə sehr, əfsun, tilsim, sonralar isə sözün vasitəsi ilə təsir etməyə çalışmışlar. Bu, Qərb ölkələrində də belə olmuşdur. Kralları «qəzəb xəs-

təliyi»ndən müalicə etmək üçün istifadə edilən vasitələrdən biri də söz olmuşdur. Hikmətli kəlam, lətifə və başqa yollarla padşahların qəzəbini azaltmağa, onların könlünə rəhm salmağa cəhd edirdilər. Deməli, Molla Nəsrəddin kimi məzhəkəçilər həm də zərurət ucundan meydana gəlmişlər.

Bizcə, xalq tərəfindən yaradılan Molla Nəsrəddin surəti əsrlər boyu istirahət saatlarında gözlənilməz cavabları, zarafatları ilə öz zəhmli hökmdarlarını əyləndirən ağıllı, dərrakəli, müdrik adamların, təlxəklərin ümumiləşdirilmiş surətidir. Molla Nəsrəddinin fikirləri ətrafdakılara yarı hənək, yarı gerçək təlqin etdiyindən (152, 2) onun sözlərindən hökmdarlar da daxil olmaqla heç kim inciməzdi. Öz tədbiri, ağlı, zəkası, hazırcavablığı, həyat təcrübəsi, dünyagörüşü ilə saray əyanlarından, şəhər hakimlərindən, hətta Teymurləng kimi zalım hökmdarlardan yüksəkdə duran Molla Nəsrəddin çəkinmədən onların nöqsanlarını özünəməxsus bir əda ilə üzlərinə deyirdi, onları şiddətli tənqid atəşinə tuturdu.

Qeyd edək ki, Azərbaycanda lətifə janrının araşdırmaçısı Fərzəliyev Molla Nəsrəddinin tarixi şəxsiyyət olduğunu göstərən tədqiqatçılara qarşı çıxaraq yazmışdır: «Molla Nəsrəddini hər hansı bir tarixi şəxsiyyətlə bağlamaq, eyniləşdirmək olmaz. Ona görə ki, belə bir mülahizə, ümumiyyətlə, folklorşünaslıq elminin nəzəri prinsiplərinə uyğun gəlmir» (220, 49).

Eyni fikrə folklorşünas İ.Abbasovda da təsadüf edilir (259, 15).

Doğrudan da, şifahi xalq ədəbiyyatının əksər janrlarında olduğu kimi, lətifələrdə də müəllif və ya prototip axtarmaq o qədər də ağlabatan deyildir. Çünki folklor ümumxalq yaradıcılığıdır.

Deməli, Molla Nəsrəddin xalqın əsrlərdən bəri yaratdığı ümumiləşdirilmiş bədii surətdir.

Xalqın fikir süzgəcindən keçdikcə naməlum şəxsiyyətlərin yaratdığı lətifələri xalq sevdiyi qəhrəmanların, ağıllı məzhəkəçilərin ayağına yazmış, onları müsbət xüsusiyyətlərlə zənginləşdirmişdir. Akademik V.A.Qordlevskinin göstərdiyi kimi

«Xalq tərəfindən yaradılan, başqalarının hesabına tərcümeyihalı zənginləşən Nəsrəddinin taleyi məhz belə olmuşdur» (290, 131).

S.Koçyubinski bu misilsiz, qəribə adamın və filosofun dünya ədəbiyyatı obrazları cərgəsinə keçdiyini, onu uşaqdan tutmuş qocaya qədər, kəndlidən tutmuş filosofa qədər hamının tanıdığını və sevdiyini qeyd edir (265, 6).

Bu, eynilə Azərbaycan və İraq–türkman folklorunda da belədir. Bu baxımdan Firidun bəy Köçərlinin «Molla Nəsrəddin» adlı məqaləsi maraq doğurur. Firidun bəy qeyd edir ki, «Şərq xalqları, xüsusilə azərbaycanlılar öz danışıqlarını məsəllər, atalar sözləri və Şərqin müdrik məzhəkəçisi olan Molla Nəsrəddinin lətifələri ilə bəzəməyi sevirlər. Bu lətifələrdə o qədər səmimi bir yumor vardır ki, hamı onlarla maraqlanır və azərbaycanlılar arasında həmin lətifələri bilməyən və yeri gələndə bu və ya digər lətifəni danışmayan adam çox nadir tapılar» (138, 117).

Dərrakəli, qorxmaz, hazırcavab, zirək, tədbirli, zarafatcıl Molla Nəsrəddin İraq–türkman folklorunda da ağıl və fərasət nümunəsidir. Haqq, ədalət carçısı, kasıbların tərəfdarı olan Molla burada da xalqın sevimlisinə çevrilmişdir. Kərkük dolaylarında məşhur olan Molla Nəsrəddin lətifələrinin əksəriyyəti Azərbaycanda təsadüf edilən lətifələrin eynidir. Lakin bəzi fərqli olanlara da rast gəlinir. Bu, hər şeydən əvvəl, lətifələrin müxtəlif sənətkarlar tərəfindən, həm də müxtəlif şəraitdə yaradılaraq yayılması, zaman keçdikcə, Molla Nəsrəddinin əhval-ruhiyyəsinə uyğunlaşdırılması və onun adına çıxılması ilə izah olunmalıdır.

Görkəmli folklorşünas alim M.H.Təhmasibin Molla Nəsrəddinlə bağlı fikri dediklərimizi bir daha təsdiqləyir: «Xalq içərisində gəzən ən gözəl lətifələr, ən məzəli, duzlu məzhəkələr, ən kəskin, tutarlı cavablar həmişə onun adı ilə bağlıdır» (153, 15).

Şərq aləmində geniş yayılan, sevilə-sevilə oxunan Molla Nəsrəddin lətifələri müxtəlif ölkələrdə dəfələrlə çap edilmişdir.

Bir çoxları xalq müdrikliyinin timsalı sayılan Nəsrəddinə öz məhəbbətini müxtəlif film və kitablarda ifadə etmişlər. Təkcə Türkiyədə Molla Nəsrəddinlə bağlı 60-dan artıq kitab çap olunmuşdur (219, 85).

Molla Nəsrəddin lətifələrinin ən çox çap və tədqiq olunduğu ölkələrdən biri də Şimali Azərbaycandır. Ə.A.Müznib, M.H.Təhmasib, P.Əfəndiyev və xüsusən də T.Fərzəliyevin lətifələrin çapı və tədqiqi sahəsində gördüyü işlər təqdirəlayiqdir.

Təəssüf ki, bu təkrarolunmaz incilər Kərkük dolaylarında hələlik, demək olar ki, istər təcrübi, istərsə də nəzəri cəhətdən kifayət qədər öyrənilməmişdir. Doğrudur, ilk təşəbbüslər edilmişdir. Cabbar Qayacanın 1972-ci ildə Kərkükdə nəşr etdirdiyi «Bir az güləlim» kitabçasında Molla Nəsrəddinlə bağlı altı lətifə vardır. Bundan başqa Nicat Kövsəroğlu 1969-cu ildə Kərkükdə «Nəsrəddin Xoca» adlı 29 səhifəlik kitab çap etdirmişdir (167). Lakin əsərin girişindən və kitabiyyatından göründüyü kimi bu kitab Molla Nəsrəddin lətifələrinin İstanbul, Ankara, Qahirə nəşrlərinə əsasən hazırlanmışdır.

Məhz buna görə də İraqda işlədiyim altı il ərzində İraq–türkman folklorunun başqa janrlarına dair nümunələrlə bərabər, lətifələri də böyük məhəbbət və ehtiramla topladım. Onların çoxunu yerli əhalinin dediyi şəkildə lentə köçürdüm. Məlum oldu ki, burada Molla Nəsrəddinlə bağlı olmayan, lakin xalq arasında geniş yayılan lətifələr də çoxdur. Bunların əksəriyyəti ən çox müasir, daha doğrusu, son dövrlərdə yaranmış lətifələrdir. Məhz buna görə də onları «Molla Nəsrəddindən töhfələr» və «Mollanın nəvə-nəticələrindən töhfələr» başlıqları altında qruplaşdırdıq (133, 211–250).

İraq–türkman folklorunda müşahidə edilən Molla Nəsrəddin lətifələrinin mövzu dairəsi əhatəli, rəngarəngdir. Bu lətifələr məzmununa görə azacıq fərqlə M.H.Təhmasibin təsnifatına uyğun gəlir (153). Onları da «Molla evdə», «Molla və dövlət adamları», «Molla dostları arasında», «Molla və qazılar», «Molla və din xadimləri», «Molla elm və mədəniyyət aləmində», «Molla əllamələk edir», «Molla məsləhət verir»,

«Molla məsciddə», «Molla bazarda», «Molla və qonşuları» və s. bölməklə də qruplaşdırmaq olar.

İraq–türkman folklorunda da Molla Nəsrəddin inadkar eşşəyinin üstündə oturub sakit-sakit yol gedən, hər şeyə göz qoyan, ağıl süzgəcindən keçirən, doğru nəticəyə gələn, bədbinlikdən uzaq olan bir müdrikdir. O, həmişə xalqın içində olur. Hamı onun xatirini istəyir, bazarlarda, çayçı dükanlarında, məclislərdə onun ətrafında fırlanır, Molladan müdrik bir kəlam eşitmək təmənnasında olurlar. Molla da yaxşı bilir ki, onun sözünün qiyməti də, mənası da insanların içində olmasındadır. Odur ki, bəzən çağırılmadığı məclisə də qəsdən gedir, məclis sahiblərinə dərs verir: «Sizin qanacağınız çatmayıb, məni çağırmayıbsınız. Mənim qanacağıma nə gəlib ki, sizi saymayım» – deyir.

Molla Nəsrəddin lətifələri məzəli, duzlu, ibrətamiz, yığcam, tez mənimsənilən, ürəyəyatan olduğundan geniş yayılmış, xalqın məişətinə daxil olmuşdur. Bu baxımdan onlar folklorun bayatı, mahnı, atalar sözü, tapmaca janrlarından heç də geri qalmır. Hətta bir çox lətifələrdən çıxan nəticələr xalq arasında zərb-məsəl, atalar sözü kimi işlənir. Deməli, atalar sözü və zərb-məsəllərin inkişafında və yayılmasında lətifə janrının rolu az deyildir.

Eldən-elə, dildən-dilə gəzən, işləndikcə yığcamlaşan, bülurlaşan lətifələrdə Molla Nəsrəddinin bir çox kəlamları aforizmə çevrilmişlər. İndi İraq–türkman folklorunda bir çox atalar sözü və zərb-məsəllər bu müdrikin adı ilə bağlıdır. Məsələn: Paranı verən düdüyü çalar; Eyibsiz gözəl olmaz; Bahara bir söz deyən yox; Qürbət belimi qırdı; Məsələ haçalandı; Yorğan getdi, iş bitdi; Kişinin sözü bir olar; Eşələmə, qoxusu çıxar; Bu pişikdirsə, bəs ət hanı?; Əlinin xəmiri ilə kişi işinə qarışma və s. belələrindəndir.

Lətifələrdə çox vaxt fikir tək bircə cümlə ilə ifadə olunur. Əslində lətifə elə bu müdrik ifadəyə görə yadda qalır, çünki lətifənin canını elə bu ifadə təşkil edir.

Mövzu və ideya cəhətdən zəngin və rəngarəng olan lətifələrdə xalqın həyat tərzi, dünyagörüşü, ailə, əxlaq və s. haq-

qında fikirləri qabarıq şəkildə özünü göstərir. Lətifələrin ifşa və tənqid hədəfi haqsızlıq, ədalətsizlik, istismar, zülm, ətalət, əsarət, zorakılıq, rüşvətxorluq, yaltaqlıq, ikiüzlülük, xəstəlik, hiyləgərlik, tamahkarlıq, qəddarlıq, paxıllıq, fırıldaqçılıq, şöhrətpərəstlik, hərislik, acgözlük, cahillik, avamlıq, axmaqlıq, tənbəllik, qorxaqlıq, boşboğazlıq, nadanlıq, itaətkarlıq, yalançılıq, mənsəbpərəstlik, tüfeylilik, lovğalıq və s. kimi mənfi əxlaqi keyfiyyətlərdir.

Folklorşünas T.Fərzəliyev lətifələri mövzu və ideya cəhətdən üç yerə bölmüşdür. Birinci, mütləqiyyət üsul-idarəsinin və hakim sinif nümayəndələrinin əxlaq və mənəviyyatını tənqid və ifşa edən lətifələr; ikinci, mövhumat – xurafat əleyhinə olan lətifələr; üçüncü, ictimai həyatda baş verən nöqsanların tənqidi və yaxud ailə-məişət tərbiyə və s. məsələlərə toxunan lətifələr (220, 52).

Bu bölgünü heç bir qeyd-şərtsiz İraq–türkman lətifələrinə də aid etmək olar. Kərkük dolaylarında da Molla Nəsrəddin lətifələri gündəlik həyatla sıx əlaqədə olur və hər bir münasibətdə onlardan istifadə etmək yerinə düşür. «Öz özlüyündə çox canlı, narın və çox nagəhani nəticələr ilə bitən şeylər olmasındadır ki, bunları eşidənlər gülməkdən «çatlayacaq» dərəcəyə gələ bilirlər» (114, 143).

Adətən, çox ibrətamiz olan lətifələr arasında elə bir lətifə tapmaq olmaz ki, orada müəyyən əxlaqi, əqli, ictimai fikir verilməmiş olsun. Molla Nəsrəddin bəzən zahirdə çətin nəzərə çarpan mənəvi nöqsanları məharətlə üzə çıxarır.

Mütləqiyyət üsul-idarəsinin və hakim sinif nümayəndələrinin əxlaq və mənəviyyatını tənqid və ifşa edən lətifələrdən danışarkən ilk olaraq göz önünə Teymurlənglə bağlı olan «Nöyzənbillah», «Millətin ricası», «Mollanın mükafatı», «Allahın işi nədi» və s. gəlir.

Bu lətifələrdə xalq kütlələrinin hüquq və mənliyini tapdalayan, xalqı daim itaətdə durmağa, boyun əyməyə məcbur edən, onu təhqir etməkdən çəkinməyən, həddini aşan şöhrətpərəst, ədalətsiz, zalım hökmdarlar tənqid atəşinə tutulur.

Lətifələrdə tez-tez rast gəldiyimiz obrazlardan biri də qazıdır. İraq–türkman lətifələrində qazılar nadan, rüşvətxor, yalan danışan, tərəfkeş, dostbaz, ədalətsiz və haqsız işlər görən surət kimi səciyyələnir. Məsələn:

«Məsələ haçalandı», «Eşşəyin qazı oldu», «Mollanın sınağı», «Get haqqımı al», «Könlümü incəldib də üzməyin» və s.

Təkcə «Məsələ haçalandı» lətifəsində qazının ədalətsiz, haqsız, yalan danışan, tərəfkeş, nadan olduğu aydın görünür. Molla qazı olarkən bir nəfər içəri girərək davasını anlatmağa başlamış.

– Qazı əfəndi, bir əlac qıl. İnək, hər halda sizin olacaq, inəyinizin qarnını buynuzlayaraq öldürmüşdür. Buna cəza lazım gəlirmi?

– Nə cəza? Heyvana qarşı qan davası açacaq deyilik ki?

– Qazı əfəndi, yanlış anlatdım. Bizim inək sizinkini öldürmüşdür.

– Necə? Qazının inəyini sizin inək nə cürətlə öldürə bilər?

Molla katibinə:

– Məsələ haçalandı. O rəfdəki qara qapaqlı kitabı ver, bir baxım, nə cəza verməliyik.

Azərbaycan folklorunda olduğu kimi, İraq–türkman folklorunda da Molla Nəsrəddin rəhmdil, sadəlövh, ağıllı, bilikli, tədbirli, gözüaçıqdır. Kasıb və yoxsulların havadarı olan bu müdrik yeri gələndə nöqsan, yalan, qorxaqlıq və nadanlıqlarına görə onları cəzalandırmaqdan da çəkinmir.

Bunu «Millətin ricası», «Allahı başımıza çıxarıblar», «Azacıq aşağıya gəliz», «Ha zamana qədər sizə yol göstərim» və s. lətifələrdə tam çılpaqlığı ilə görmək olur. Məsələn, «Millətin ricası» lətifəsindən aydın olur ki, Teymurləngin bir fili varmış. Qapalı yerdə saxlanmayan bu fil bir bəla olub, keçibmiş xalqın boynuna. Tükanları dağıdır, zəmiləri xarabazara çevirirdi. Uşaq-böyük qabağına kim çıxsa ayaqlayardı. Teymurləngə şikayət edən olsa, boynunu vurdurardı. Camaat qorxudan bir yana çıxa bilmirdi. Bır gün çayxanada yenə də fildən danışırdılar. Belə qərara gəldilər ki, elliklə Teymurləngin

yanına şikayətə getsinlər. Deyirlər ki, hamı getsə, heç nə etməz, hamının boynunu vurdursa, rəiyyəti kim olar. Xahiş etdilər ki, Molla bir ağsaqqal kimi qabağa düşüb onlarla getsin. Molla düşür qabağa. Yolda bir-bir, iki-bir hamı aradan çıxır. Saraya çatanda Molla görür ki, tək qalıb. Çox acığı tutur. Lakin geri dönə bilmir. Teymurləng onu görmüşdü. Teymurləngə deyir ki, millətin bir ricası var, deyirlər ki, fil tək darıxır, onu iki etsin.

Bu lətifədə bir tərəfdən Teymurləngin xalqa etdiyi zülm göstərilirsə, digər tərəfdən Mollanın çətin vəziyyətdən böyük məharətlə çıxdığının, qorxaqları layiqincə cəzalandırdığının şahidi oluruq.

Molla Nəsrəddin lətifələri arasında didaktik-əxlaqi nəticə ilə bitən lətifələr də çoxdur.

«Baş süfrədə əvvəlcə yer alardım», «Başqalarının evini niyə yıxırsan», «Mollanın kədəri», «Eyibsiz gözəl olmaz», «On bir toyuğun bir xoruzu», «Eşşəklə məsləhətləşim», «Paranı verən düdüyü çalar» və s. bu qəbildəndir. «Baş süfrədə əvvəlcə yer alardım» lətifəsi daha səciyyəvidir. Lətifədə göstərilir ki, Molla bir gün bir məclisə köhnə paltarda gedir. Nə ona ehtiram göstərən, nə yer göstərən olur. Hələ bu az imiş kimi, hər gələn ondan başa keçir. Mollanın acığından dişləri bağırsağını kəsər, gizlincə məclisi tərk edər, gedib təzə paltar və kürk geyib yenidən məclisə dönər. Hamı ona ehtiram edər, baş süfrədə yer göstərər. Mollanın qabağına cürbəcür yeməklər qoyarlar:

– Buyur Molla, süfrəyə əl uzat. O ətdən ye. – və s. deyərlər.

Molla yeməz, kürkünün ətəyini yeməyə uzadıb:

– Buyur ye, hörmət sənədi, mənə olsa idi, baş süfrədə əvvəlcə yer alardım, – deyir və yer üzünün əşrəfi olan insana paltara görə qiymət qoyan adamları lağa qoyur.

Bir çox lətifələr dindarlıq, mövhumat, dini bayramlar, namaz, oruc və s. kor-koranə etiqada qarşı yönəldilmişdir. «Sol ayağının əbdəsti yoxdu», «Bu il altmış oldu», «Başqalarının evini niyə yıxırsan», «Keşgə hər gün bayram olaydı», «Günah işim yox», «Mutlu günün unudulmaz xatirəsi», «Yeni

evlənmişlərsə pozulur» və başqa lətifələrdə mənasız yerə özünə əzab-əziyyət verən avam və dindarlara istehza edilir, çox incə yumorla tənqid hədəfinə çevrilirlər.

Bu baxımdan çox yığcam olan «Yeni evlənmişlərsə pozulur» və «Tanrı müsafiri» daha səciyyəvidir.

Bir gün Molladan sorarlar:

– Orucluqda bir adam arvadını öpərsə, oruc pozulurmu?

Molla:

– Yeni evlənmişlərsə pozulur. İkinci illəridirsə bilmərəm – demişdir.

«Tanrı müsafiri» adlı lətifədə isə deyilir: «Bir gün yoldan keçənin biri Mollanın qapısını döymüş və tanrı müsafiriyəm demiş.

Molla:

– Yanlış gəlibsən, oğlum. Onun evi bu deyil, odu! – deyərək məscidi göstərmiş.

Göründüyü kimi xalq İraq kimi din mərkəzində belə yeri gəldikcə müəyyən vasitələrlə avam, dindar adamları tənqid edir və onları islah etməyə çalışır.

Burada tərki-dünyalıq fəlsəfəsi pərdəsi altında xalqı soyan hakim siniflər, tüfeylilər və s-də Molla Nəsrəddinin nəzərindən yayınmır. Bu baxımdan, «Axır zamandı, paltarı neynirsiz» maraq doğurur. Məlum olur ki, Mollanın bir quzusu varmış. Bir gün arxadaşları fikirləşirlər ki, necə etsinlər, quzunu Mollaya kəsdirsinlər. Çox götür-qoy edirlər və nəhayət, Mollanın yanına gəlirlər ki, sabah axır zamandı, quzunu kəs yeyək.

Harda kəsək quzunu? Çəmənlikdə, çayın kənarında. Nə isə quzunu kəsirlər. Molla quzunu bişirməkdə olsun, onlar da çayda çimməkdə. Deyib-gülür, Mollanı aldatdıqlarına sevinir, sabah bazarda aləm olacaq – deyə düşünürlər.

Molla da onda Molla olmaz ki, onlara bir dərs verməsin. Odur ki, arxadaşlarının paltarlarını yığıb qazanın altına tökür. Arxadaşları çimib çıxanda görürlər ki, paltarları yoxdur.

– Molla, hanı bizim paltarlar?

Molla:

– Vallah qoydum qazanın altına quzu bişsin. Sabah axır zamandı, paltarı neynirsiz? – deyir.

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da ailə-məişət, tərbiyə mövzularında olan lətifələr üstünlük təşkil edir. Bu lətifələrdə ərlə arvad arasındakı münasibətlər, hüquq bərabərsizliyi, məişət nöqsanları, yaramaz tərbiyə üsulları, insanların avamlığı, pintiliyi, səliqəsizliyi tənqid edilir. «Evdəki parıltı», «Ağlı başında olan evlənər?», «Şey-meylərin yerini nənəndən sor», «Qürbət belimi qırdı», «Sənin kimi uğursuz sağ qalıb», «Əcəba, başından gedən nə imiş», «Sən bir az üzə bilirsən?», «Molla ölüm ayağında», «Kimə mavi muncuq vermişəmsə, onu çox sevirəm», «Qızım hamiladi», «Mütləq erkək», «Eşşəyin yemini sən verəcəksən», «Demədin qapıya müğayət ol?», «Ölmüş adamı necə bilərsən» «Ət nə oldu», «Keçinməyə könlüm yox» və başqa lətifələrdə Molla bəzən qayğıkeş ata, gözəl ailə başçısı, bəzən də arvad və uşaqlarının düşməni, onları mənən şikəst edən daşürəkli nadana çevrilir. Şübhəsiz, hər iki tip lətifələr insanlara təsir etmək, onları tərbiyələndirmək məqsədi daşıyır. Əslində, Molla Nəsrəddin lətifələrinin təsir qüvvəsi də elə bundadır.

Lətifələrin adlarından göründüyü kimi, ailə-məişət məsələlərinə həsr olunan lətifələrin mövzu dairəsi çox rəngarəngdir. Burada avam, miskin qadınlara həsr olunmuş lətifələrdən başlamış hiyləgərlik, var-dövlət naminə izdivac, İslam aləmində vaxtilə geniş yayılmış çoxarvadlılıq və s. ilə bağlı lətifələrə hər addımbaşı təsadüf edilir.

Dar düşüncəli, avam, miskin qadınların islahına həsr olunmuş lətifələr arasında «Ölmüş adamı necə bilirsən» və «Əcəba başından gedən nə imiş?» xüsusilə seçilirlər. Birinci lətifədə nəql edilir ki, Molla bir gün arvad alır. Arvadının ağlını yoxlamaq üçün soruşur:

– Ölmüş adamı necə bilərsən?

– Özünnən sorcam, – deyə arvad cavab verir.

İkinci lətifədə isə Molla Nəsrəddinə xəbər verirlər ki, arvadı bazar yolunda yıxılıb, ağlı başından gedib. Evə aparıb-

lar. Bir həkim tapıb tez evə getməsi məsləhətdir. Molla isə fikrə dalır.

– Molla, nə düşünürsünüz? – sualına Molla təmkinlə cavab verir: «Arvadımın, əslində, əvvəldən ağlı yoxdu, düşünürəm, əcəba onun başından gedən nə imiş?»

Başqa qrup lətifələrdə isə çoxarvadlılıq məsxərəyə qoyulur. «Sən bir az üzə bilirsən» lətifəsində deyilir ki, bir gün Mollanın hər iki arvadı onun yanına gəlib hansını daha çox istədiyini sorurlar. Müşkül vəziyyətdə qalan Molla:

– İkinizi də sevirəm, – deyərək sözlərini kəsmək istəmişsə də, bir şey çıxmamış.

Kiçik arvadı:

– Molla, əgər dənizdə üzsək, allah eləməmiş, qayıq çevrilsə, suya düşsək, hansımızı əvvəl xilas edərsən? – deməklə Mollanı çıxılmaz vəziyyətdə qoydu. Molla çox fikirləşəndən sonra üzünü əski arvadına çevirdi və dedi:

– Zənn edirəm sən bir az üzə bilirsən, deyilmi?

«Kimə mavi muncuq vermişəmsə, onu çox sevirəm» lətifəsində də çoxarvadlılıq məsələsindən və bununla əlaqədar evdə yaranan söz-söhbət və narahatçılıqlardan söhbət gedir: «Mollanın iki arvadı vardı. Tez-tez «Molla məni daha çox istəyir» – deyə dava edirdilər. Evdə qulaq dincliyi tapmayan Molla düşünür ki, nə etsin? Bazara gedir. İki mavi muncuq alır. Evə gəlib arvadlarının hər birinə:

– Al, bunu saxla. Ortağına bir şey söyləmə – demiş. Bir müddət sonra qadınlar yenə qovğa salırlar.

– Hansımızı daha çox sevirsən, Molla? – deyə təkidlə soruşurlar.

– Bir şərtlə deyərəm. Bir daha qovğa etməyəsiniz. Kimə mavi muncuq vermişəmsə, onu çox sevirəm, – deyir».

Maraqlıdır ki, xalq arasında indinin özündə belə bu lətifə ilə bağlı aşağıdakı beytlər məşhurdur:

Gögcə muncuq kimdədi,
Mənim könlüm ondadı (149, 100).

Molla mənfi xasiyyətli, deyingən, heç nəyin üstündə davadalaş salan, amansız qadınlara da qarşı çıxır və onları biabır etməkdən çəkinmir. Bu baxımdan «Evdəki partıltı» incə yumoru ilə seçilir: «Bir gün Molla evdən çıxarkən qonşusu:

– Molla, dünən axşam sizin evdən söz-söhbət, gurultu səsləri gəlirdi.

– Bizim Koroğlu ilə bir az ağız qovğası etdik. Arvad darıldı. Kürkümə bir təpik vurdu. O da pilləkəndən düşüb bir az səs saldı:

– Amma dedin ha! Kürk də bu qədər səs salar?

Molla:

– Sus, canım. Niyə adamı bu qədər zora salırsan. Ola bilsin kürkün içində mən də olmuşam, – deyir».

Lətifələrdə var-dövlətə görə evlənən, müəyyən məqsədlə ailə quran, öz mənfəətindən başqa bir şey düşünməyən adamlar ələ salınır, gülüş hədəfinə çevrilir. Belə lətifələr insanı düşünməyə, nəticə çıxarmağa məcbur edir. «Eyibsiz gözəl olmaz» bu qəbildən olan lətifələrdəndir: «Günlərin birində Mollanın arvadı çox varlı ailədən qız tapır ki, oğlunu evləndirsinlər. Qız dedikcə kifir olur. Molla bilir ki, oğlu qızı bəyənməyəcək. Arvadını başa salır ki, oğlu bir şey sorsa, nə desin. Oğlan qızı görüncə beyni qızar. Gələr nənəsini məzəmmət edər.

– Oğlum, qızın eybi nədir?

– Dili laldır.

– Əyidi. Evdə baş-beynimizi ağrıtmaz.

– Bəs gözlərinə nə deyirsən? Biri kor, biri də çaşdır.

– Eybimizi görməz, oğlum!

– Topallığına nə deyirsən?

– Qapı-qapı gəzməz.

Oğlan çox darılar. Bəs keçəlliyi? Buna nə bəhanə tapacaqsan?

Arvad bilməz nə desin. Molla bunu deməmişdi. O biri hücrədən söhbətə qulaq asan Molla:

– Arvad, niyə lal olubsan. Desən, gözəl eyibsiz olmaz. Hər gözəldə bir eyib olar, – deyir.

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da qızı ərə verərkən onu tərifləmək adəti Molla Nəsrəddin lətifələrində pislənir və lağa qoyulur. Bu, «Qızım hamilədi» lətifəsində öz əksini daha yaxşı tapmışdır: «Bir gün Mollanın qızına diləkçiliyə gəlirlər. Qızının diləkçiliyinə gələnlərə Molla deyir:

– Qızımın qarnında balası var.

Onlar da çıxıb evlərinə gedirlər.

Sonra arvadı Molla ilə dava edir.

Molla deyir:

– Mən nə bilim. Bazarda inəyi satanda dedim, boğazdı, qarnında balası var. Tez aldılar. Dedim, bəlkə, bunu da tez aldılar».

İraq–türkman folklorunda lətifələrin böyük bir əksəriyyətini «Molla və qonşuları» təşkil edir. Burada «Ha zamana qədər sizə yol göstərim», «Mollanın sınağı», «Eşşəklə məsləhətləşim», «Məktubunuz gəldi», «Doğmağa razısız, ölməyə razı deyilsiz?», «Xülyadan qoxu alırlar», «Sözümü tutmaz», «Eşşəyin anqırmasına inanırsan», «Qırx illik sirkə», «Əcəmi bülbül», «Yaş məsələsi deyil ki» və s. kimi dərin mənalı lətifələr vardır. «Eşşəklə məsləhətləşim» lətifəsini fərqləndirən də bu cəhətdir: «Bir gün qonşusu bazara getmək üçün Mollanın eşşəyini istəmiş.

– Bir az dur. Eşşəklə məsləhətləşim. Könlü olsa verərəm.

Molla içəri girmiş, az sonra çıxıb demiş:

– Eşşəyi razı sala bilmədim. Məlum oldu ki, onu əllərə verdiyim zaman həm eşşəyimin qulağına vurur, həm də arvadıma söyürlər».

Demək lazımdır ki, Kərkük dolaylarında həyatın elə bir sahəsi yoxdur ki, ona münasib ifşa və islahedici lətifə olmasın.

Avamlıq – «Ha zamana qədər sizə yol göstərim»; «Şeymeylərin yerini nənən bilir»; «Göz ağrısına əlac»; «Dəyənək ata-ata halva yedirdirlər»; «Kürkün içində olsaydım»; «Ayı da quyudan çıxardıq»; «Mollanın ovu» və s.; xəsislik – «Kimi yandırar, Allah bilir»; «Səni kimilərə möhtac olmamaq üçün»; «Bir şey yemədim» və s.; biclik – «Altı barmaqla yeyərdim»;

«On bir toyuğun bir xoruzu»; «Qürbət belimi qırdı»; «Sənin kimi uğursuz sağ qalıb»; «Hər kəsin malı başının altında gərək»; və s.; hiyləgərlik – «Doğmağına razısız, ölməyinə yox?»; «Hanı arvadım?»; «Molla ölüm ayağında olarkən»; «Mollanın sınağı» və s.; yekəxanalıq – «Dəyirman heyvanları»; «Səni dörd ayaqlı edə billəm»; «Mutlu günün unudulmaz xatirəsi»; «Onu heybə yapacaqdım»; «Keç igidim, keç» və s.; lovğalıq – «Öz ağlı ilə bildi»; «Gəl, ya mübarək»; «İstədiyim oldu» və s.; höcətlik – «Kişinin sözü bir olar»; «Bu bilər mən ha zaman ölləm»; «İnanmırsan get say» və s.; yalançılıq – «Keçinməyə könlüm yox»; «Fincançı qatırlarını hürkütməsən bir şey yox» və s.; nadanlıq – «Mollanın kədəri»; «Sən bəyəndin, mən doldurdum» və s.; tamahkarlıq – «Yuxuda qaçırılan fürsət»; «Mollanın mükafatı» və s.; əliəyrilik – «Yorğan getdi, iş bitdi»; «Ənsəmcə gəl»; «Sən gecə nə tapacaqsan»; «Utandığımdan gizləndim» və s. kimi mənfi keyfiyyətləri özünə rəva görən əcaib-qəraib insanlara qarşı Molla Nəsrəddin çəkinmədən, mərd-mərdanə mübarizə aparır, onların daxili aləmlərini məharətlə üzə çıxarır, ağlı, dərrakəsi, hikmətli kəlamları ilə insanları tutduqları pis yoldan, pis əməllərdən çəkindirməyə, tərbiyə etməyə çalışır.

Misal göstərilən lətifələrdən göründüyü kimi ağlı, düşüncəsi, fikri, zəkası, hazırcavablığı, hikməti ilə seçilən Molla Nəsrəddin bəzən İraq–türkman folklorunda da avam, sadəlövh, yüngül təbiətli, tez aldanan, gülünc vəziyyətə düşən, tərsinə iş tutan bir adam kimi təsvir edilir. Bununla da xalqı bir tərəfdən müdrikliyə, elmə, savada çağırırsa, digər tərəfdən də məharətlə avamlığı, mövhumat və geriliyi özünəməxsus rişxəndlə tənqid edir. Tarixən dinlə möhkəm bağlı olan İraqda xalq xurafatı və haqqı nahaqqa satan bəzi din xadimlərini hamının dostu və havadarı Molla Nəsrəddin vasitəsi ilə kəskin satira atəşinə tutur, əməllərinə gülür, hərəkətlərinə istehza edir.

Demək lazımdır ki, müəyyən əxlaqi və tərbiyəvi fikirləri təbliğ etdiyindən, qeyri-adi təsir gücünə malik olan lətifələrin məziyyəti eyni zamanda kəsərliliyində, yığcamlığında, hikmə-

tamiz və ibrətamiz olmasındadır. Burada az sözlə böyük məna ifadə etmək əsas şərtdir. «Bahara bir söz deyən yox»; «Müjdə»; «Səsi yarın çıxacaq»; «Sözümü tutmaz»; «İçində getməyin»; «Dəli-dolu axdığın üçün»; «Sabah olduğunu bilirsən»; «Bol vədə»; «Mütləq erkək»; «Ay alıb satmıram ki?»; «Hansı qiyamət»; «Cigər tərifnaməsi»; «İnsanlıq»; «Çöl quşları»; «Sığırın suçu»; «Onun üstü bizdən kirlidi»; «Siz məni nişin keçirə bilmirsiniz»; «Qırx illik sirkə»; «Namus məsələsi»; «Tutsa Mollanın kefinə bax» və başqa lətifələrdə hər şeydən əvvəl diqqəti cəlb edən bu cəhətdir. Misallardan göründüyü kimi, bu lətifələrin hər birində bir dünya məna vardır: «Dəli-dolu axdığım üçün» adlı lətifədə ibrətamiz həyati bir məsələyə toxunulur:

Molla bir yay günü yoldan keçirmiş, hava bürkü olduğundan susayır. Ağzına ağac çalınmış su borusu görür. Ağacı çıxarınca üstü tamam islanır.

– Ay səni, iştə belə dəli-dolu axdığın üçün ağzına paz çalmışlar! – deyir.

«Bahara bir söz deyən yox» adlı lətifədə isə ədalət, insaf, vicdan ön plana çəkilir, yaxşını pisdən ayırmaq ideyası irəli sürülür.

Bir gün Mollanın dostlarından biri:

– İnsanları anlamıram. Soyuq olunca qışdan, isti olunca yaydan şikayət edirlər.

Molla:

– Qardaşım, amma bahara bir söz deyən yox.

«Səsi yarın çıxacaq» adlı lətifədə isə görülən bəd əməllərin üstünün açılacağına, pis əməllərlə məşğul olanların əvvəl-axır xar olacaqlarına işarə edilir. Lakin xalq müdriki Molla Nəsrəddin bunu özünəməxsus, təkrarolunmaz bir tərzdə göstərir:

Bir gecə Molla oğlu ilə evinə gedərkən oğruların bir mağazanın qıfılını xırxaladıqlarını görür.

Oğlu:

– Baba, bunlar nə yapırlar?

Molla:

– Rübab çalıllar.

Oğlu:

– Heç səsi çıxmayır, – deyincə Molla:

– Oğlum, onun səsi yarın çıxacaq, – deyir.

Göründüyü kimi, bu lətifələrin hər birində mənalı gülüş vardır. Gülüş isə nikbinlik, mənəvi sağlamlıq deməkdir.

Məhz buna görə də şifahi xalq ədəbiyyatında tam bir fikri və ya əhvalatı çox təbii və mənalı gülüş üsulu ilə ifadə edən, yığcam süjet xətti olan əsərlər lətifə adlanır (232, 197). Lətifələrdə «xalq bədii istedadı, iti ağlı, döyüşkən ruhu, mənfiliklərə qarşı barışmaz münasibəti, sadə, canlı bir ifadə üsulu ilə öz əksini tapmışdır» (98, 36).

Lətifə janrının meyarı təzaddır. Təzadsız lətifə tapmaq çətindir. Lətifədə əvvəlcə bir şey, hadisə haqqında qısa məlumat verilir, ikinci hissədə qarşılaşdırma, müqayisə yolu ilə yaranan ziddiyyət və ya münaqişə barədə antitezis irəli sürülür, nəhayət, üçüncü hissədə nəticə əldə edilir (220, 102).

Belə bir quruluş prinsipinə, demək olar ki, əksər Kərkük lətifələrində də təsadüf edilir.

İraq–türkman lətifələrinə xas olan xüsusiyyətlərdən biri də, nağılların başlanğıcında olduğu kimi icra edilən hal və hərəkətin qabarıq şəkildə özünü göstərməsidir. Bu özünü əsasən zaman, məkan kateqoriyalarında və eləcə də subyekt məchulluğunda göstərir. Məsələn: «Bir gün Molla arxadaşları ilə hamama gedirdi», «Son vaxtlar arvadı Mollaya heç baxmırdı», «Günlərin birində Mollanın arvadı oğlu üçün varlı ailədən bir qız tapır», «Bir axşam Molla əllərini qaldırıb ucadan deyir», «Biri qaça-qaça gəlib», «Bir gün bir adam Mollanın qapısını döyür», «Bir nəfər eşşəyə minib gedirdi», «Gəvəzənin biri Mollaya sataşmaq üçün deyər», «Bir gecə Mollanın yuxusu qaçmışdı», «Ayrı bir axşam su çəkmək üçün Molla quyuya gedər», «Günlərin birində Molla qərib bir köyə gedirdi», «Bir gün Mollagilin məhəlləsində toydu», «Bir gün Molla oturmuşdu çayxanada», «Molla gəncliyində bir şəhərə getmişdi», «Səyahət vaxtı bir köyün imamına müsafir olan Mollaya ev sahibi», «Bir gün Molla qəssabdan cigər alır», «Bir qonşusu qaça-qaça Mollanın yanına gəlmiş» və s.

Mayasını həyat təcrübəsi, real həyat hadisələri, onun qanunauyğunluqları, ziddiyyətləri, insan xarakterləri, təzadlar təşkil edən lətifələr elə yığcam, elə lakonik olur ki, T.Fərzəliyevin qeyd etdiyi kimi, bu xüsusiyyət lətifədən nəinki bir cümlə, hətta bir kəlmə belə götürülməsinə imkan vermir. Onlardan bir detal, bir söz, bir məqam belə götürüldükdə onun əsas qayəsi pozulur. Əgər lətifədə bir əşyanın keyfiyyəti, məsələn: onun həcmi, rəngi, miqdarı, çəkisi, iyi, yaxud da subyektin – obrazın boyu, sir-sifəti, xasiyyəti, hərəkəti, davranışı, geyimi və s. göstərilirsə, bu o deməkdir ki, həmin əşya və ya detal sonluqda yumor, hikmətli kəlam və ya istehza, kinayə üçün zəruridir (220, 107, 108).

«Bə ət hanı», «Eşələmə, qoxusu çıxar» və s. lətifələr yuxarıda deyilənlərə əyani misal ola bilər. Məsələn, «Bə ət hanı» lətifəsində deyilir:

Molla işə getməzdən əvvəl üç hoqqa ət alıb axşama yemək bişirmək üçün arvadına verir. Qonşular Molla gəlincə əti bişirib yeyirlər. Axşamüstü arvadı Mollanın qabağına bişmiş lobya qoyur.

– Əti bişirməyə vaxt olmadı?

– Molla, əti pişik yedi.

Mollanın qafası qızır:

– Kirli-pasaxlı, pis-pinti arvad, üç hoqqa əti pişik necə yedi? – deyib Molla pişiyi tutur və tərəzidə çəkir. Pişik üç hoqqa gəlir.

Molla:

– İnsafsız qadın. Əgər bu ətdirsə, bə pişik hanı? Yox, əgər pişikdirsə, bə ət hanı? – deyir.

Demək lazımdır ki, rişxənd, istehza, kinayə, duzlu, məzəli, incə xalq yumoru Molla Nəsrəddin lətifələrinin ətini-qanını təşkil edir. Sanki lətifələr bu bədii təsvir vasitələri ilə qoşa yaranmışdır. Elə bir lətifə tapmaq çətindir ki, orada bu və ya digər bədii təsvir vasitəsinə təsadüf edilməsin. İstehza, kinayə, rişxənd, incə yumor lətifələrdə quru-quru tərifləmə, lağa qoyma, ələ salma, rüsvay etmə, yaxşıya pis, pisə yaxşı demə,

özünü qanmazlığa, görməzliyə, eşitməzliyə, saymazlığa, bilməzliyə vurma və s. yolu ilə düzəlir.

Dinlədikcə adamı mat qoyan, valeh edən bu məzəli, dadlı-duzlu lətifələrin predmeti insandır. Ümumiyyətlə, hər bir lətifədə, ən azı, iki, üç insan obrazına rast gəlinir. Xalq tərəfindən ümumiləşdirilən bu obrazlar cəmiyyətin müxtəlif təbəqələrini təmsil edir. Lətifələrdə surətlərin dili onların dünyagörüşlərinə, şüurlarına, ağıl və dərrakəsinə uyğun gəlməklə bərabər, onların hansı silkə, hansı təbəqəyə aid olduqlarını, sənətlərini, daxili aləmlərini, psixologiyalarını da parlaq şəkildə göstərir.

Canlı xalq dilinin bütün incəliklərini əhatə edən lətifələrə sözçülük, uzunçuluq yaddır. Təbiilik, yığcamlıq, oynaqlıq, şirinlik və s. lətifə janrının dilinin səciyyəvi xüsusiyyətidir. Şübhə yoxdur ki, lətifələrin belə geniş yayılmasında və sevilməsində bu cəhət az rol oynamamışdır.

İraq–türkman folklorunda lətifələrdə təsadüf edilən surətlərin hər birinin özünəməxsus danışıq tərzi və eləcə də fərdi xüsusiyyətləri vardır. Lakin onların içində Molla Nəsrəddin tamamilə fərqlənir. Xalq həyat təcrübəsini, müdrikliyini bu surətdə təcəssüm etdirmişdir. Öz müdrikliyi ilə əzəmətli olan, xalqın sevimlisinə çevrilən Molla Nəsrəddin insana xas ən gözəl xüsusiyyətləri özündə toplayan ağıllı, dərrakəli, həyatın keşməkeşlərini, istisini-soyuğunu görmüş, bərkdən-boşdan çıxmış, təmkinli, uzaqgörən, yaxşını pisdən, xeyiri şərdən ayırmağı bacaran, dünyanı düzgün dərk edən bir xalq müdrikidir.

Vicdanı təmiz olan bu müdrik üçün həyatda xeyirxahlıqdan ümdə heç nə yoxdur. Odur ki, qəddar, insafsız, vicdansız, ədalətsiz, rüşvətxor, ikiüzlü, yaltaq, nadan, cahil və s. adamlara qarşı mübarizə aparmaqdan çəkinmir. «Molla, dünyada ən axmaq kimdir?» soran birisinə «Sözün doğrusunu xalqın gözünə deyən» (152, 2) cavabını verməklə Molla atdığı addımın məsuliyyətini dərk etdiyini, bu yolda onu nələr gözlədiyini xüsusi qeyd etsə də, tutduğu yoldan dönmür. Köhnə dünya, onun törətdiyi ətalət, səfalət, cəhalət, istibdad, mövhumat, xurafat və s. onun əsas tənqid hədəfinə çevrilir.

Doğrudur, Molla avam və sadəlövh adamlara acıyır, onların gözünü açmağa çalışır. Xalqı elm, bilik, savad və tərəqqiyə, maarif və mədəniyyətə səsləyir. İnsanları ədalətli olmağa, bəd əməllərdən çəkinməyə çağırır. Gənclərin tərbiyəsinə xüsusi fikir verir. Onların əxlaqlı, əməksevər, namuslu, qeyrətli olmalarına diqqət yetirir.

İraq–türkman lətifələrində dünyanın əşrəfi hesab edilən insana xas olan bir çox xüsusiyyətlər öz əksini tapmışdır. Məlumdur ki, insanda hər şeyi duymaq, anlamaq, bilmək, sərbəst olmaq arzusu güclü olur. Dünyanı düzgün dərk etmək, həyata realist münasibət bəsləmək insan təbiətinin ayrılmaz hissəsinə çevrilir. Bu baxımdan, Molla Nəsrəddin lətifələri hər an onun köməyinə çatır, havadarı olur. Öz mayasını xalqdan alan bu yaradıcılıq aləmi hamının malı olduğundan, əsrdən-əsrə, nəsildən-nəslə, eldən-elə keçərək könüllərdə məskən salmış, ölməz ədəbi irsə çevrilmişdir. Bizcə, lətifələri xalqın iti ağlı, görən gözü, vuran nəbzi hesab etmək ədalətdən kənar olmazdı.

DASTANLAR

Azərbaycan folklor xəzinəsində aşıq yaradıcılığı, eləcə də dastanlar mühüm yer tutduğu halda, İraq–türkman folklorunda o qədər də geniş yayılmamışdır. Bu da səbəbsiz deyildir. Bizcə, bunun birinci səbəbini Səfəvilər hakimiyyətindən sonra Bağdadın və azərbaycanlılar yaşayan Kərkük dolaylarının Osmanlıların təsiri altına düşməsində axtarmaq lazımdır (348, 590). Bu, Azərbaycanda aşıq sənətinin, o cümlədən də dastan yaradıcılığının inkişaf etdiyi dövrə düşür. Dastan janrı isə hələ o vaxt Osmanlılar arasında yox dərəcəsində idi. Türkiyəli tədqiqatçı prof. P.N.Boratavın göstərdiyinə görə, dastanları Türkiyəyə Cənubi və Şimali Azərbaycandan azərbaycanlılar gətirərək XIX əsrin ortalarından 1928-ci ilə qədər İstanbulda 15-dən artıq dastanın çapına nail olmuşlar (339, 211; 340, 66).

Təsadüfi deyildir ki, Azərbaycanda güclü olan aşıq yaradıcılığının türk musiqi folkloruna dərin təsiri olmuş (347, 129; 236, 126), bunu xalq musiqisini yaxşı bilən türkiyəli Firad Qızıltuğ da etiraf etmişdir: «Azərbaycan xalq havaları türk musiqisinin əsasını təşkil edir. Sadəcə, biz bu çılpaq həqiqətin fərqinə varmamışıq» (144).

O da maraqlıdır ki, P.Boratav və Azərbaycan alimi İ.Abbasov görkəmli şərqşünas İ.Kunoşun fikrinə tərəfdar çıxaraq göstərirlər ki, ümumiyyətlə, dastanların vətəni Azərbaycandır (339, 3; 259, 4).

Folklorşünas Əta Tərzibaşı «Kərkük havaları» kitabında yazır: «Aşıqlar əskidən şəhərdən şəhərə gəzərək saz çalır, söz və nəğməsi özünün olan havalar oxuyardı. İndi Kərkükdə aşıq yoxdur. Əvvəllər vardı... İndi Kərkükə bağlı bəzi köy və qəsəbələrdə nadir olaraq təsadüf edilməkdədir» (208, 6–7).

Qəribədir ki, dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun XX əsrin əvvəlində Azərbaycan aşıq sənəti ilə bağlı dediyi sözlər İraq–türkman folklorunda tam əksini tapmışdır:

«Aşığın ictimai əhəmiyyətini lazımınca qiymətləndirmək iqtidarında olmayan köhnə cəmiyyət onun rəqibi sazəndələri müdafiə etmişdir; sazəndələrin «fəaliyyət dairəsi» təkcə şəhərləri deyil, varlı kəndləri də əhatə edərək, getdikcə genişlənmiş, aşıqlar isə ucqar və yoxsul kəndlərə çəkilməli olmuşlar. Nəticədə aşıq sənəti, demək olar ki, ölümə məhkum idi» (230, 204–205).

Bizcə, İraq–türkman folklorunda aşıq yaradıcılığının geniş yayılmamasının ikinci səbəbini bunda axtarmaq lazımdır. Şübhəsiz, buna görədir ki, Kərkük dolaylarında qoşma, gəraylı, təcnis kimi aşıq şeir formalarına az rast gəlinir.

Göründüyü kimi, Azərbaycanda aşıq sənəti, aşıq havaları çox geniş yayıldığı halda, İraq–türkman folklorunda bu janr unudulmaq dərəcəsinə gəlib çıxmışdır.

Demək lazımdır ki, vaxtilə bu, Azərbaycanda da belə olmuşdu. Təsadüfi deyil ki, XX əsrin əvvəlində tədqiqatçı Hənəfi Zeynallı ürək ağrısı ilə yazırdı: «Tarix boyu nə vaxtdan

bizdə aşıqların əfsanələr söylədiyini bundan sonra gənclər material toplamaqla və tarixləri araşdırmaqla təyin edəcəklər» (114, 125).

Sevindirici haldır ki, son illərdə, xüsusən də İraqlı tədqiqatçı Ə.Bəndəroğlunun Azərbaycana səfərlərindən sonra Kərkük dolaylarında aşıq yaradıcılığına, onun tədqiqinə maraq artmışdır. İraq türkmanlarının Bağdadda öz dillərində çıxan «Yurd» qəzetində tez-tez saz sənətinə, aşıq yaradıcılığına dair yazılar və nümunələr verilir. Tiləfərdə saz sənətini öyrənən dərnəyin fəaliyyəti bu baxımdan xüsusi əhəmiyyət kəsb edir (128[a]; 128[b]).

Azərbaycan aşıqlarından Abbas Tufarqanlı, Aşıq Ələsgər, Hüseyn Saraclı, Mikayıl Azaflı, Əkbər Cəfərov, Aşıq Ədalət, «Aşıq Pəri» qadın aşıqlar məclisinin üzvləri Narınc Xatın, Aşıq Ulduz, Dilarə və Gülarə Azaflı bacıları və başqalarının yaradıcılığından verilən nümunələr və sazla portretləri, şairlərimizin qoşmaları iraqlı saz həvəskarlarının böyük marağına səbəb olmuşdur (128[a]). Aşıq Ədalət və Gülarə Azaflı İraqa dəvət olunmuşlar. Şair Ə.Bəndəroğlu və Yılmaz yaradıcılığından nümunələr verilən aşıqlarımıza qoşmalar həsr edərək «Yurd» qəzetində çap etdirmişlər (128[a]).

Yuxarıda deyilənlərdən o qənaətə gəlmək olmaz ki, ümumiyyətlə, aşıq sənəti Kərkük dolaylarında yox dərəcəsindədir. Əta Tərzibaşı aşıq yaradıcılığının inkişafında xüsusi xidmətləri olan kərküklü qocaman Aşıq Abbasdan, Ərbilli Aşıq Məhəmməddən söz açır, Kərkük dolaylarında «Kərəm havası», «Divan-Urfa» kimi aşıq havalarının məşhur olduğunu qeyd edir (208, 36; 212, 261).

İraq–türkman folklorunu təmsil edən aşıq və dastanlardan bəhs edən İbrahim Daquqi isə yazır: «Kərkükdə Kor Abış (1911-ci ildə ölüb), Bəşirdə Xəlil Əhməd (1917-ci ildə ölüb), Daquqa bağlı İmam Zeynalabdin köyündə Qəmbər Əli (1906-cı ildə ölüb) kimi başqalarına aid dastanı, şeirləri nağıl və rəvayət edən, bəzi ravilər bulunmuşdur. Hətta Qəmbər Əli bu şeirləri oxurkən səsinin gözəlliyi və ədası səbəbilə sazına bülbüllər qonarmış» (117, 158, 171).

Bu yaxınlarda əbədiyyətə qovuşan Tiləfərli Aşıq Rza Əbu da çox məşhur olub. Toylar onsuz keçməzmiş. İndi onun şəyirdləri arasında Aşıq Sadiq Sazıgözəl böyük hörmətə malikdir. Onun çalıb-oxuduğu havaları tez-tez radio ilə səsləndirirlər. Aşıq Sadiq gözəl çaldığına və sazının çox bahalı şirmayı ilə tamam bəzədildiyinə görə «Sazigözəl» ləqəbini qazanıb. Həmin sazı o, 1976-cı ildə 1500 dinara - «Volqa» kimi bir minik maşınının qiymətinə almışdı (128[b]).

Təbii ki, belə aşıqları yetişdirən mühit olmuşdur. İraq–türkman folklorunda «Leyli və Məcnun», «Yusif və Züleyxa», «Fərhad və Şirin», «Arzu-Qəmbər» kimi nağıl-dastanlar, «Koroğlu» və «Əsli və Kərəm» kimi dastanlar vardır. Hazırda «Əsli və Kərəm» İraq türkmanlarında sazla çalınıb-oxunan yeganə dastandır. Radio ilə dəfələrlə səsləndirilən bu dastanı yalnız Tiləfər bölgəsində çalıb-oxuyurlar. Dastan çox məşhur olduğundan uşaqlara dastanın qəhrəmanlarının adını qoyurlar. Başqa dastanları isə əzbərdən bilən adamlar nəql edirlər. Nağıl-dastanlar Azərbaycan variantından o qədər də fərqlənmir. O ki qaldı «Koroğlu»ya, dastan İraq–türkman folklorunda belə başlayır:

Mən bir kor oğluyam dağlar gəzərəm,
Dağ sultanı yeldən qüvvət sezərəm.
Zalımların başlarını əzərəm,
Əcələ yap, usta, mənim sazımı. –

deyərək intiqam almağa tələsən qəhrəman, tüfəng icad edildikdən sonra məyus olur, «Mərdliyin pozulduğunu» bildirir:

Düşmən gəldi tabır-tabır düzüldü,
Allımıza qara yazı yazıldı.
Tifək icad oldu, mərdlik pozuldu,
Əgri qılınc qında parsian malıdır. –

deyir və tale ilə barışmalı olur:

Mən zalımlar düşməniyəm,
Zavallılar aslanıyam.
Taqdir beləysə razıyam,
Haqq belə yazmış yazımı. –

deyir (117, 160–162). Göründüyü kimi, dastanın sonu da Azərbaycan variantından o qədər fərqlənmir. Burada təəccüblü bir şey yoxdur.

S.Azbelovun haqlı olaraq göstərdiyi kimi qohum və ərazicə yaxın olan başqa-başqa xalqlarda qəhrəmanlıq dastanlarının hətta çox yaxın variantlarına belə təsadüf edilir (263, 201).

Kərkük dolaylarında «mərdliyin pozulduğundan» şikayətlənən Koroğlu, Azərbaycanda «mərdlik əldən getdi» deyə haray çəkir:

Axır əcəl gəldi yetdi, hay-haray!
Çəkdiyim qovğalar bitdi, hay-haray!
Tüfəng çıxdı, mərdlik getdi, hay-haray!
Mənmi qocalmışam, ya zəmanəmi? –

deyir.

Təbii ki, burada elə böyük bir fərqə rast gəlmək mümkün də deyildir. Bir çox başqa dastanlar kimi, «Koroğlu» da Türkiyəyə Azərbaycandan aparılmış, oradan isə İraq–türkman folkloruna keçmişdir.

Bunu iraqlı tədqiqatçılar Ə.Bəndəroğlu, İbrahim Daquqi və başqaları da təsdiq edirlər. Bununla belə, İraq–türkman folklorunda «Koroğlu» dastanı ilə bağlı hələ uşaqlıqdan adı hər azərbaycanlı üçün doğma olan Qırat, Dürat, Çənlibel barədə yeni fikir söyləməyə imkan vardır.

Məlumdur ki, atlara, bir qayda olaraq müəyyən bir nişanına və rənginə əsasən ad vermişlər. Bu, bədii ədəbiyyatda da öz əksini tapmışdır. Qaşqa, Səkil, Alapaça, Boz at adları belələrindəndir.

Bəs «qır» və «dür» at adlarını hansı nişanına əsasən vermişlər?

Folklorşünaslarımız «Qırat» sözünün real mənasına fikir vermədən, onun yalnız astral-mifik mənasından çıxış edərək Qıratın «qor at», «od at», «qara at» olduğu fikrinə gəlmişlər. Qırat, Dürat sözlərinin astral-mifik mənasına toxunmadan, onların Kərkük dialektində bu gün belə işlənən real əsasına arxalanaraq qıratın – zilqara və ağ rəngli at, dörü və ya doru atın – kəhər at, boz at olduğunu söyləyə bilərik. Xoşbəxtlikdən həmin sözlərin etimologiyasına dair son tədqiqatdan göründüyü kimi elə bu sözlərin astral–mifik mənası (99, 102–103) və «Koroğlu» dastanında verilən bir süjet də dediklərimizi təsdiqləyir.

Koroğlu tacir Əhmədi aldatmaq üçün yapıncısını və arxasınca da bir sərnic qatıq atır ki, tacir Əhməd onun Qırata – zil qara və ağ rəngli atına minib getdiyini güman etsin. Belə də olur. Tacir Əhməd aldanır.

Qıratın qara və ağ rəngli olmasını Kərkük dolaylarında geniş yayılan «Alma alı, min dörü, bəslə qırı, sat yağızı» məsəlinə dair folklorşünas Məhəmməd Xurşidin gəldiyi nəticə maraq doğurur: «Bu söz əskilərin atseverlərin ögüdüdür. Al rəngli atı alma, çünki rəğbətsizdir. Dörü ata min, çünki təhlükəsizdir. Bəyaz rəngli qır atı bəslə, çünki dəgərli və bəgənilən bir atdır (149, 89).

Dürat məsələsinə gəldikdə isə deməliyik ki, dür at – kəhər at, boz at mənasında əksər türkdilli xalqlarda doru, toru at kimi, Azərbaycan dilində dor at kimi işlənmişdir (13, 207). Dür atın Boz at olmasını «Kitabi-Dədə Qorqud»dan götürdüyümüz, «Koroğlu» süjeti ilə səsləşən maraqlı fakt da təsdiqləyir:

«Bayböyrəgin oğlıyçun bir dəniz qulunı – boz ayğır aldılar» (136, 52).

Açması gecə-gündüz olan Azərbaycan tapmacasında da Qır atla bərabər, elə Boz at işlədildiyinin şahidi oluruq:

Qır at qovar, Boz at qaçar.
Boz at qovar, Qır at qaçar (203, 46).

Onu da demək lazımdır ki, əksər tədqiqatçılar Koroğlunun tarixi şəxsiyyət olduğunu göstərirlər (161, 25–27; 222, 12–13). Belə olan halda, təbii ki, Qırat və Dürat sözlərinin astral-mifik mənasından daha çox, onların real əsasına arxalanmaq daha ağlabatan, daha məntiqi olardı.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycan dilinin Qazax, Tovuz, Salyan, Cəbrayıl və s. dialekt və şivələrində işlənən «dör-dəm» – at kimi qaçmaq sözünün də «dor» sözündən götürüldüyünü söyləmək olar.

Çənlibel sözünün etimologiyasına gəldikdə isə deməliyik ki, folklorşünaslarımız bu sözü «çənlə örtülü dağ beli», «danın söküldüyü bel» kimi izah etmişlər.

Lakin tarixdən məlumdur ki, xalq qəhrəmanları, adətən, zülmkarlara, istismarçılara, hakimlərə qarşı mübarizə aparmaq üçün dəstəsini yığıb, ətrafı meşəli dağlarda məskən salmışlar. Koroğlu da belə etmişdir. Bunu XVIII əsrin əvvəlində Təbriz və Azərbaycanın başqa yerlərindən toplanaraq «Nəğmələr» adı altında verilən folklor materiallarından da görürük. «Nəğmələr» kitabında Koroğlu barədə maraqlı məlumat vardır: «O, bir çox atlıların başında duraraq yollarda ağalıq edərmiş. Bəzən keçən tacirləri soyar, bəzən də onlardan razılıqla pul alarmış... Orada böyük bir meşə var, indi Soğanlı adlanır. Orada o, bir qala da tikdirmişdir ki, Koroğlu qalası adlanır» (111, 30).

Deyilənlərə Kərkük dialektində işlənən «çəm» və «çəm ağacı» sözləri də söykək olur. Kərkük dolaylarında bu gün belə meşə sözü əvəzinə «çəm» işlənir. Bundan başqa, bu dialektdə böyük ağaclara «çəm ağacı» – meşə ağacı deyirlər. Beləliklə, Çənlibelin «Çəmlibel» – meşəli bel, ətrafı meşəli dağ olduğu fikrini söyləmək olar.

«Çənlibel»in etimologiyasından söz açan M.Seyidov bu sözün bəzi türk xalqlarında ağacla bağlı yarandığını təsdiqləyir (191, 270).

«Koroğlu» dastanından danışarkən H.Zeynallı «Çamlıca», «Çamlı dağ» terminlərini işlədir və şeir də verir. Aşağı-

dakı bu bir-iki parça... «Çamlı dağ»ın mühüm rolundan bəhs olunduğunu da göstərə biləcəkdir (114, 233).

Tədqiqatçının misal gətirdiyi beş bəndlik şeirdən verdiyimiz nümunədən göründüyü kimi, Çənlibel deyəndə ətrafı meşəli dağ nəzərdə tutulur:

Meşədən enərkən Çamlı dağından,
Çəkinməyin həramıdan, yağıdan.
Səflər pozan, düşmənləri dağıdan,
Öndəki düşməndən xəbərdar olsun.

Onu da deyək ki, Türkiyədə də çap olunan «Koroğlu» dastanlarında «Çənlibel» əvəzinə «Çamlıbel» gedir (170, 35).

Professor D.Əliyevanın üzə çıxardığı və dastanın 28 qolunu – boyunu əhatə edən, tədqiqatçılar üçün böyük əhəmiyyət kəsb edən qədim əlyazma nüsxəsində də «Çamlıbel» işlənir (102).

İraq–türkman folklorunda şöhrət qazanmış dastanlardan biri də «Arzu-Qəmbər»dir.

Bu dastan xalq məişətini, onun inam və etiqadlarını, mərasimlərini, adət-ənənələrini parlaq şəkildə əks etdirmək baxımından böyük əhəmiyyət kəsb edir.

Dastanı kərküklü folklorşünas Əta Tərzibaşı yaşlı bir qadının dilindən lentə köçürərək çapa hazırlamışdır. Tədqiqatçı bu münasibətlə yazır: «Dil baxımından məktəb-filan təsiri altında qalmayan sayın yaşlı xanımın qonuşma dilinə heç toxunmadan hekayəni kəlmə-kəlmə, cümlə-cümlə təsbit (lentə yazdım) etdim. Bu, yerli ağız üçün günün ən gözəl örnəgidir» (40, 3).

Yəqin buna görədir ki, bu dastan tez bir zamanda İraq (1964), İran (1967) və Türkiyədə (1971) çap olundu (41, 5).

Dastan Bakıda da tərəfimizdən təkrar-təkrar çap olunmuşdur (28[a]; 41; 133).

Təəssüf ki, Azərbaycanda dastanın Bakı, Şamaxı, Gəncə, Naxçıvan, Qarayazı və s. variantları olsa da, işıq üzü görməmişlər (181).

«Arzu-Qəmbər» xalq nağılları ilə bağlı olan dastanlardandır. Bu məsələ ilə əlaqədar V.Belinskinin fikri maraq doğurur. O, qeyd edir ki, Kiril Danilovun kitabında yer alan bütün dastanların nağıl variantı da olmuşdur (276, 46).

«Arzu-Qəmbər»i səciyyələndirən cəhətlərdən biri də odur ki, bu əsər nağılla dastan arasında keçid təşkil edir, daha doğrusu, nağıl–dastandır.

«Arzu-Qəmbər»in nağılla dastan arasında keçid təşkil etdiyini onun müqəddiməsindən də görmək olur. Dastanın müqəddiməsi nağıl pişrovu ilə başlayır:

Hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərlik edir, əski hamam içində.

Var idi, yox idi, iki qardaş var idi və s.

O da maraqlıdır ki, Kərkük folklorunda elə nağıl da, dastan da, «matal» sözü ilə ifadə olunur.

«Arzu-Qəmbər»in nağılla dastan arasında keçid təşkil etdiyini, nağıldan yarandığını göstərən cəhətlərdən biri də odur ki, bu dastan bəzi nağıllar kimi (262, 360), yalnız qadınlar tərəfindən və həm də qadın məclislərində danışılır.

Dastanın Azərbaycan variantları və eləcə də «Yaxşı və Aşıq» dastanında olduğu kimi, Kərkük variantı da bayatılar üzərində qurulmuşdur. Professor M.H.Təhmasibin təbirincə desək, Azərbaycan folkloru bu janrda, bu formada da İraq–türkman folkloru ilə şərikdir.

Bununla belə, qeyd etmək lazımdır ki, «Arzu-Qəmbər»in Kərkük variantı dastanın Azərbaycan variantlarından və eləcə də «Yaxşı və Aşıq» dastanından fərqli olaraq aşağıdakı nağıl pişrovu ilə başlayır: «Hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərlik edir əski hamam içində. Var idi, yox idi, iki qardaş var idi».

«Arzu-Qəmbər» dastanının Azərbaycan və eləcə də Kərkük variantında aşiq–məşuqun hiss və həyəcanının poetik ifadəsini bayatı şəklində tapması folklorşünas A.Nəbiyevin

haqlı olaraq göstərdiyi kimi belə bir ehtimal doğurur ki, dastan yaradıcılığında qoşma və gəraylı şəkillərindən hələ çox-çox əvvəl bayatıdan istifadə yolu ilə dastanlar yaranmışdır (30, 94).

«Arzu-Qəmbər» dastanına, onun qəhrəmanlarına həm İraq–türkman, həm də Azərbaycan bayatılarında təsadüf etməyimiz isə onun xalq arasında sevildiyinə dəlalət edir:

Arzular gedər;
Qəmbər-Arzular gedər.
Bəsləmə yad ördəgin,
Vətən arzular gedər.
(Kərkük bayatısı)

Bu gələn Qəmbər ola,
Müşk ilə əmbər ola.
Səni mənə yetirən,
Bəlkə, Peyğəmbər ola.
(Azərbaycan bayatısı)

Demək lazımdır ki, dastanın Kərkük variantında hadisələrin gedişi həyatiliyi ilə seçilir. Çox təbii və sadə dildə iki gəncin nakam məhəbbətindən danışılır. Dastanda yer alan 29 bayatının hamısı yerli yerində işlənməklə, onun məzmununu dərinləşdirir və təsir gücünü artırır. Doğrudur, dastan «Şəhri və Məhri», «Əzətinli Əmrah» və s. Azərbaycan dastanlarında olduğu kimi övladsızlıq barədəki ənənəvi süjetlə, doğma qardaşların uşaqları olacaq təqdirdə, oğlan və qız olsalar, onları bir-birilə evləndirəcəkləri barədə əhd-peymanla başlayır. Lakin bəzi dastanlarımızdan fərqli olaraq, dastanın Kərkük variantında «qondarma» hadisələrə, deyək ki, «Şəhri və Mehri»nin valideynlərinin dördünün də bircə balıq tərəfindən bircə dəfəyə udulması və 15–16 yaşlı gənclərin «yetim» qalmaları və s. rast gəlinmir. Əksinə, «Arzu-Qəmbər»in Kərkük variantında böyük həyat həqiqəti vardır. Belə ki, Qəmbərin

ata-anası vəfat edəndən sonra əmisi onu öz evinə gətirir, Arzu ilə birgə onu mədrəsəyə qoyur. Qardaşı ilə kəsdiyi şərti, əhdi-peymanı unutmur. Lakin Qəmbərin əmisi arvadı gözünün ağı-qarası olan yeganə qızını kimsəsiz, yetim bir oğlana vermək istəmir. Qızını varlı-hallı, arxalı bir gəncə vermək arzusu ilə yaşayır. Hər şey də buradan başlayır. Arzu ilə Qəmbəri məktəbdən çıxarırlar. Əmi arvadı bir-birini dərin məhəbbətlə sevən gənclərin görüşməsinə hər vasitə ilə mane olur. Gündüzlər Qəmbəri qoyun-quzunu otarmaq üçün örüşə göndərir, axşamlar isə qızına göz qoyur ki, Qəmbərlə görüşməsinlər. Ümumiyyətlə, Arzunun Qəmbərlə görüşməsini qəti qadağan edir. Bunu «bilərzik» əhvalatından aydın görmək olur.

Arzunu bulağa suya göndərən ana dönə-dönə tapşırır ki, Qəmbərlə görüşməsin. Bulaqdan su götürüb tez evə gəlsin. Arzu bulaq üstündə bilərziyini çıxarıb əl-üzünü yuyanda Qəmbərin ona tərəf gəldiyini görür. Anasının qorxusundan tələsik su qabını götürüb evə qaçır. Anası təkidlə Qəmbərlə görüşüb-görüşmədiyini soruşur. Arzu and içir, aman edir ki, Qəmbərlə görüşməyib. Hətta tələsdiyindən bilərziyi unudub bulaq başında qoyduğunu deyir. Anaya belə gəlir ki, Arzu bilərziyini bulaq başında bilərəkdən qoyub ki, Qəmbərlə görüşməyə bəhanəsi olsun. Odur ki, Arzunu əldən düşənə qədər döyür. Bir-birinin dərdindən dəli-divanə olan Arzu ilə Qəmbəri bu yoldan döndərmək üçün bütün vasitələrə əl atır, hər şeydən əvvəl, məsələni sülh yolu ilə həll etmək üçün öz südünü dələməyə qatır ki, Qəmbər yesin, Arzu ilə bacı-qardaş olsunlar.

Arzu bayatı ilə məsələnin nə yerdə olduğunu ona anladır:

Hey hatıbdı, hatıbdı,
Qoyun-quzu yatıbdı.
Qəmbər, dələmə yemə
Nənəm südün qatıbdı.

Burada xalq arasında dərin kök salan, yaşayan, hamı tərəfindən riayət olunan həyat həqiqətindən söhbət gedir.

Bu baxımdan folklorşünas S.Paşayevin fikri maraq doğurur: «İndinin özündə belə iki bacıdan ya biri öldükdə, yaxud döşündə süd olmadıqda başqa uşaq onun uşağını əmizdirərsə, uşaqlar böyüdükdə onların evlənməsinə razı olmurlar. Çünki o uşaqlar artıq xalaoğlu, xalaqızı yox, bacı-qardaş sayılır. Hətta yad bir ana da, hər hansı bir uşağı əmizdirdikdə, döş verdikdə həmin uşaq onun övladları ilə o gündən bacı-qardaş olur. Bir sözlə, süd bu işdə həlledici rol oynayır» (181, 16).

Görünür, keçmişdə də çox yaxın qohumların evlənməsi ciddi narahatlıqlara, məsələn, uşaqların qeyri-normal olmasına və s. gətirib çıxarırmış ki, hər vasitə ilə bunun qarşısını almağa çalışırlarmış.

Təsadüfi deyildir ki, professor Musa Adilov yazmışdır: «Ərəb əhatəsində yaşayan azərbaycanlılar (İraq türkmanları) heç cür öz ənənəvi adətlərindən əl çəkə bilmirlər. Dastanda əmiqızı ilə əmioğlunun evlənməsi baş tutmur ki, bu məsələnin tarixi-etnoqrafik baxımdan prinsipial əhəmiyyəti vardır. Əmiqızı-əmioğlunun evlənməsi əslində ərəb xalqı üçün səciyyəvidir. Bizim folklorumuz üçün, mən deyərdim səciyyəvi cəhət qəhrəmanın yad qızı (oğlu) ilə evlənməsidir. Qəhrəmanlara yuxuda «buta» verilməsi deyilənləri təsdiqləyən faktlardan ola bilər» (8). Bu motivin «Arzu-Qəmbər» dastanında yer alması təbiidir. Çünki hər bir dastan öz dinləyicisinə müəyyən əxlaqi keyfiyyətlər aşılamağa, onu nədənsə çəkindirməyə çalışır.

Maraqlı cəhət odur ki, «Arzu-Qəmbər» dastanının Azərbaycan variantlarında rast gəlinən bu və ya başqa süjetlərə, motivlərə bütövlükdə dastanın Kərkük variantında təsadüf edilmir. Bununla belə, S.Paşayevin dastanın Bakı variantının Kərkük variantına daha yaxın və kamil olduğunu qeyd etməsi inandırıcıdır (181, 15). Əgər Bakı variantı kamil olmasa idi, əsrin əvvəlində Bakıda boya-başa çatmış yazıçı Seyid Hüseyn «Arzu-Qəmbər»i məşhur dastanlarımızla yanaşı tutub yazmazdı: «Məlum olduğu üzrə, bizim olduqca zəngin el ədəbiyyatımız var. «Aşıq Kərəm», «Koroğlu», «Qərib», «Tahir və Zöhrə», «Arzu və Qəmbər» kimi hekayətlər el ədəbiyyatımı-

zın məhsulu olduğundan tarixi ədəbiyyatımızın ilk səhifələrini onlardan başlamalıyıq» (199).

Doğrudan da, «Arzu-Qəmbər»in Bakı və Kərkük variantları çox yaxındır. Hər iki variantda Arzunun anası yeməkdə Qəmbərə zəhər vermək istəyir. Arzu şeirlə, sözlə Qəmbəri məsələdən hali edir. Hər iki variantda bilərzik əhvalatı və bilərziklə bağlı dastanın bədii cəhətdən ən gözəl hisələrindən olan Arzu ilə Qəmbərin bayatılaşması səhnəsi vardır. Bakı variantında da Arzunu bəy evinə apararkən atın cilovunu Qəmbərin tutmasına və Arzunun onun dabanını əzdirməsi səhnəsinə təsadüf edilir.

Kərkük variantında olduğu kimi, dastanın Bakı variantında da Qəmbər şahın yanına şikayətə gedərək ondan imdad diləyir ki, sevgilisinə qovuşmaqda ona kömək etsin. Şah qoşun göndərir ki, Arzunu alıb Qəmbərə versinlər. Lakin hər iki variantda küpəgirən qarı hiylə işlədərək işləri korlayır.

Tədqiqatçı S.Paşayev göstərir ki, dastanın Bakı variantı yeganə variantdır ki, Arzunu vermək istədikləri oğlanın adı məlumdur – Küləboy (181, 15).

Bu sözə dastanın Kərkük variantında da rast gəlinir. Lakin orada küləboy – bəstəboy, gödək mənasında işlənmişdir:

Tat oğlu küləcə boy,
Etdin xan Arzuma toy.
Kərəsin mən almışam,
Ayranın başıva qoy! (41, 26)

Dastanın Kərkük, Gəncə və Naxçıvan variantlarında da oxşar cəhətlər vardır. Hər üç variantda əmiuşağı olan Arzu ilə Qəmbər, «Tahir və Zöhrə», «Leyli və Məcnun» «Əzətinli Əmrah» və s. dastanlarımızda olduğu kimi, mədrəsədə sevişirlər və s.

Ümumiyyətlə, demək lazımdır ki, «Arzu-Qəmbər»in Kərkük variantında ayrı-ayrı məhəbbət dastanlarımızda yer alan süjetlər, motivlər, hadisələr öz əksini inandırıcı şəkildə tapmış-

dır. «Qurbani», «Abbas-Gülgəz», «Əsli və Kərəm» və s. kimi gözəl məhəbbət dastanlarımızda olduğu kimi «Arzu-Qəmbər» dastanında da qəhrəmanın sağ aşiq – haqq aşığı olub-olmadığı yoxlanılır. Qəmbər sağ aşiq olduğu üçün imtahandan çıxmaqla bərabər, onda qeyri-adi bir keyfiyyət də üzə çıxır. Nə desə yerinə yetir, bütün qarğışları həyata keçir. Qəmbərin sağ aşiq olduğunu bildiklərindən «Mahmud və Ağcaquş» dastanında olduğu kimi (30, 163) Arzunu bəy evinə aparmazdan əvvəl heç kim Arzunu bəzətməyə, onu geyindirməyə cəsarət etmir.

Bu fakt bir daha «Arzu-Qəmbər»in çox qədim olduğuna dəlalət edir. Ta qədim zamanlardan nağıllar və «Kitabi-Dədə Qorqud» boylarından göründüyü kimi, insanlar qarğışlardan çəkinir, qarğış tutacağına inanırdılar.

O da maraqlıdır ki, dastanda yer alan bütün qarğışlar bayatı üstündədir.

Qəmbərin sağ aşiq – haqq aşığı olduğunu göstərən və «Arzu-Qəmbər» kimi iki gəncin nakam məhəbbətindən söz açan «Yaxşı və Aşıq» dastanında yer alan süjet də maraq doğurur.

Arzuya və eləcə də Yaxşıya evlənmək istəyən gənclər yıxılıb ölür. Hər ikisi bayatılar üstündə qurulan «Arzu-Qəmbər» və «Yaxşı və Aşıq» dastanlarını birləşdirən, başqa dastanlardan fərqləndirən bir cəhət də vardır. Hər iki dastanın məzmunundan da görünür ki, Arzu da, Yaxşı da sevgililəri kimi, sağ aşiq olduqlarından hər şey onlara əvvəlcədən agah olur.

«Arzu-Qəmbər»i başqa dastanlarımızla birləşdirən, doğmalaşdıran oxşar cəhətlər çoxdur. Bu dastanda da aşiqlər dara düşəndə Xıdır İlyası köməyə çağırırlar, Qəmbər çayda boğularkən Arzunun Xıdır İlyasdan imdad diləməsi səhnəsi bu baxımdan səciyyəvidir:

Qərəz eləsən, qərəz,
Yar, əlmizdən düşdü saz.
Qəmbəri şat apardı,
Yetiş ya Xıdır İlyaz.

«Arzu-Qəmbər» və «Əsli-Kərəm» dastanlarında saf, ülvi məhəbbət daşa dəyir. Gənclər sevgililərinə qovuşa bilmir, vüsala yetmir, məhv olurlar. Kərkük dolaylarında «qara sevgi dastanı» adlandırılan (117, 52) hər iki dastanda gənclərin qəbirləri arasından qaratikan çıxır, axirətdə də onları qovuşmağa qoymur. Hər iki dastanda qaratikanı kəsirlər, yenidən göyərir (109, 75; 40, 32; 41, 31).

Göründüyü kimi, «Arzu-Qəmbər» Azərbaycan dastanları ilə qırılmaz tellərlə bağlıdır.

Doğrudur, Əta Tərzibaşı Azərbaycan folkloru ilə tanış olmamışdan əvvəl «Arzu-Qəmbər»in oğuz qrupuna mənsub başqa türkdilli xalqlarda nağıl kimi kərküklülər arasında isə bayatılarla işləndiyinə görə dastanlaşaraq qadın məclislərində söyləndiyini və başqa ölkələrdə olan variantlardan tamamilə fərqləndiyini göstərmişdir.

Görkəmli folklorşünas M.H.Təhmasib Kərkük bayatılarına həsr etdiyi məqaləsində iraqlı tədqiqatçının fikrinə haqlı etiraz etmişdir: «Görünür, cənab Əta Tərzibaşı bu sətirləri yazdığı zaman azəri bayatıları və «Arzu-Qəmbər»in Azərbaycan variantı ilə lazımi qədər tanış deyilmiş. Bu dastan bizdə də var. O, bayatılar üzərində qurulmuşdur. Beləliklə, biz bu formada da Kərküklə şərikik» (215, 203).

Demək lazımdır ki, tədqiqatçı İbrahim Daquqi də «Arzu-Qəmbər»i İraq–türkman folkloruna aid edərək yazır: «Adətlərdən, dastanda keçən olaylardan anladıldığına görə, «Arzu ilə Qəmbər» bir türkman dastanıdır. Meydana gəlişi XVI və XVII yüzilliklərdə Ağqoyunlu, yaxud Qaraqoyunlu Türkman dövlətləri zamanında İraqda tamamlanmışdır... Bu mənzumədə əda və nəğmə olaraq türkman xarakteri vardır. Ötə yandan qəhrəmanların isimləri, türklərin və azərbaycanlıların qullanmadığı isimlərdəndir. Bu isimlər, qızlara və oğlanlara çox verilən sevimli türkman isimlərindəndir» (117, 164).

Tədqiqatçının bu mülahizələrinə ciddi etiraz etmək olar. Hər şeydən əvvəl, demək lazımdır ki, Qaraqoyunlu (1420–1463) və Ağqoyunlu (1468–1502) dövlətlərinin hakimiyyəti döv-

ründə Azərbaycan və eləcə də İraq türkmanları bir bayraq altında birləşirdilər (22, 103–104; 23, 54-55; 15, 221; 120, 81; 121, 62; 350, 3; 141, 97, 172).

Başqa bir tərəfdən də Arzu və Qəmbər Azərbaycanda geniş yayılmış adlardandır.

Məhz buna görə də, on ildən çox Azərbaycanda işləyən, Dövlət Universitetini Bakıda bitirərək dissertasiya müdafiə edən, Azərbaycan ədəbiyyatını, eləcə də folklorunu yaxşı bilən kərküklü tədqiqatçı Sinan Səid də İbrahim Daquqi ilə razılaşmır. Sinan Səid bu münasibətlə yazır: «Müəllif «Arzu-Qəmbər» əsərinin İraqda yarandığını və ancaq türkman ədəbiyyatına məxsus olduğunu sübut etməyə cəhd edir. Bu xüsusda bəzi əsassız fərziyyələrə dayanır» (197, 7).

Yeri gəlmişkən, qeyd edək ki, İbrahim Daquqi «Arzu-Qəmbər»in Daquq qəsəbəsində mövcud olan başqa bir variantından da söhbət açır. Bu variantda dastanın Şamaxı variantında olduğu kimi, Arzu ilə Qəmbərin heç bir qohumluğu yoxdur. Bu variantda da Şamaxı və Gəncə variantlarında olduğu kimi dastan xoşbəxt sonluqla bitir.

Bu variantda göstərilir ki, Arzunu toy edib bəy evinə apararkən Qəmbər:

Hey gedənlər, gedənlər,
Əyləncə, toy edənlər,
Kərəsin mən almışam,
Ayranıydan gedənlər –

bayatısını demiş və bəyin adamları Arzunu ləkəli hesab edərək atası evinə qaytarmışlar. Beləliklə, Qəmbər Arzu ilə evlənmişdir. İbrahim Daquqi bunun zəif bir rəvayət olduğunu göstərir (117, 106) və Əta Tərzibaşının çap etdirdiyi variantın kamil olduğunu qeyd edir.

Doğrudur, dastanın Əta Tərzibaşının çap etdirdiyi variantında da buna bənzər bayatıya təsadüf edilir. Lakin bayatını Qəmbər yandığından deyir. Arzunu Tatın oğluna gəlin aparanda Qəmbər qarğış edir, sağ aşiq olduğuna görə heç kim

atın başını tutub gəlini apara bilmir. Hamı Qəmbərdən xahiş edir ki, atın başını o çəkib aparsın. Qəmbər razılıq versə də hirsindən, hiddətindən gözü yolu görmür, at dabanını ayaqlayır. Qəmbərin dabanından qan fışqırır. Ayaqqabıları qanla dolur. Üzünü Arzuya tutub deyir:

Hannan sevgilim, hannan,
Məhəbbətin çıxmaz cannan.
Dizgününü çəkərək tut,
Dabanım doldu qannan.

Arzu deyir:

Hannan Qəmbərim, hannan,
Məhəbbətin çıxmaz cannan.
Dabanından gələn qan
Gəlsin mənim gözümnən.

Sağ aşiq olduğuna görə Arzunun gözündən yaş yerinə qan gəlməyə başladı.

«Tat buna qızdı Qayınbaba bir qəmçi aldı əlinə, verdi Qəmbəri qəmçi önünə. Belə vurdu, belə vurdu, etdi özünü leş.

Döndü Qəmbər yandığından dedi:

Tat oğlu, Güləcə boy,
Etdin xan Arzuma toy,
Kərəsin mən almışam,
Ayranın başıva qoy.

Arzu qəhərləndi. Bu əmim oğlu məni çox sevərdi. İndi bu məxluqun içində mənə böhtan atdı. Dedi:

Hə eylədin, eylədin,
Altunu pul eylədin.
Sən mənə dəyməmişdin,
Nişin böhtan eylədin?

Aldı Qəmbər:

Hə eylədim, eylədim,
Altunu pul eylədim.
Hamsı ağac zorunnan
Sənə böhtan eylədim (40, 23–25).

Onu da demək vacibdir ki, 1991-ci ilin noyabrında iraqlı tədqiqatçı-alim Əbdüllətif Bəndəroğlu «Arzu-Qəmbər»in Tuz Xurmatu variantını Nizami adına Ədəbiyyat İnstitutuna təqdim etmək üçün Bağdaddan Bakıya gətirdi. Ədəbi əlaqələrimiz yolunda bu variantın böyük əhəmiyyəti vardır.

Hər şeydən əvvəl, maraq doğuran cəhət odur ki, əsərin bu variantında hadisələr Araz çayı sahilində cərəyan edir. Həyatın əzab-əziyyətlərinə dözməyən Qəmbər özünü Araz çayına atır. Arzu üzünü göylərə tutub kömək diləyir:

Quruyasan, ey Araz,
Əlimizdən düşdü saz.
Qəmbəri çay apardı,
Yetiş, ey Xıdır İlyaz.

Dastanın Tuz Xurmatu variantında dördlüklərin – bayatıların sayı 31-dir. Bundan əlavə, bu variantda iki misralıq şeir parçalarına da təsadüf edilir. Məsələn:

Qəmbər:

Kəsmə gözləriy mənnən,
Ayrılmaz ruhum sənnən.

Arzu:

Gözlərim ha səndədi
Səniy eşqiy məndədi və s.

Onu da qeyd edim ki, bədii cəhətdən daha kamil olan bu variant məzmunca dastanın Kərkük variantından fərqlənmir.

Bu dastan başqa türkdilli xalqların folklorunda da özünü göstərir. Tədqiqatçı S.Paşayev «Arzu-Qəmbər»in 1974-cü və 1975-ci illərdə toplanmış və 1980-ci ildə Daşkənddə Cəfər Bəkirovun çap etdirdiyi iki variantından söz açır (181, 16). Bu variantlarda Arzu və Qəmbərin heç bir qohumluq əlaqəsi yoxdur. Birinci variantda təkcə bir bayatı, neçə-neçə gəraylı, qoşma, qıfılbənd-deyişmələr vardır. İkinci variantda bayatıların sayı çox olsa da, qoşmalar, qıfılbənd-deyişmələr, yeni süjet və motivlərin əlavə olunması göstərir ki, bu variantlar sonralar yaranmışlar. Beləliklə, onlar qadın yaradıcılığından çıxaraq, daha geniş miqyas almış və aşıq-baxşı yaradıcılığına daxil olmuşlar.

O ki qaldı «Arzu-Qəmbər» dastanının Azərbaycan və Kərkük variantlarına, çəkinmədən demək olar ki, bu dastan, Kərkük folkloru da daxil olmaqla, Azərbaycanın malıdır.

NƏTİCƏ

İraq–türkman folklorunun sistemli monoqrafik tədqiqi ilə bağlı əsərin ayrı-ayrı fəsillərində irəli sürülən fikir və müddəalar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

– İraqın şimalında, əsasən, Kərkük vilayətində toplu halda yaşayan, sayı iki milyon yarıma çatan (358[a]; 8; 362, 36, 53) bu elatın dili Azərbaycan dilindən fərqlənmir.

– Kərkük folkloru Azərbaycan folklorunun qüdrətli qoludur.

– İraq–türkman folklorunun tədqiqi tarixi keçmişimizin, dil tariximizin, estetik fikir tariximizin, xalq poeziyamızın, dialektologiyamızın və eləcə də folklorumuzun tam və əhatəli öyrənilməsi yolunda misilsiz əhəmiyyətə malikdir. Ona görə ki, şifahi xalq ədəbiyyatı, ümumiyyətlə, xalqın tarixi inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət-ənənəsini və s. əks etdirən, onun bəşər tarixində məxsusi yerini göstərən müstəsna dəyərə malik tükənməz xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, mərasimlərə, inam və etiqadlara, adət-ənənələrə, hətta hafizələrdən silinmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf edilir.

İraq–türkman folklorşünaslığının tarixində XX əsrin ikinci yarısı mühüm mərhələ təşkil edir. Xoyrat və manilər, xalq havaları, atalar sözü və məsəllər, tapmacalar, ilkin janr nümunələri bu vaxt toplanaraq çap edilmişdir. Görülən işlər, özlüyündə böyük elmi və əməli əhəmiyyəti olan folklor nümunələrini toplama və nəşretmə çərçivəsində qalmamış, ayrı-ayrı janrların tədqiqi yolunda da müəyyən işlər görülmüşdür. Bu sahədə fəaliyyət göstərən tədqiqatçılar arasında Əta Tərzibaşının xidmətləri xüsusi qeyd edilməlidir. Əta Tərzibaşı öz şəxsi nümunəsi və yardımı ilə Kərkük dolaylarında böyük bir folklorşünaslar nəslinin yetişməsinə təkan vermişdir.

Əta Tərzibaşı, Şakir Sabir Zabit, Məhəmməd Xurşid, İbrahim Daquqi, Əbdüllətif Bəndəroğlu, İhsan Vəsfi, Sübhi Saatçı, Mahir Naqib, Mövlud Taha Qayaçı və başqaları indi

İraqın hüdudları xaricində də tanınır və İraq–türkman folklorunu layiqincə təmsil edirlər.

Bununla belə, qeyd edilməlidir ki, hələ müstəqil bir elm sahəsi səviyyəsinə yüksəlməyən İraq–türkman folklorşünaslığının qarşısında xalq sənətinin müxtəlif sahələri ilə bağlı problemləri həll etmək kimi çox çətin və şərəfli vəzifə durur.

Təqdim olunan monoqrafiya İraq–türkman folklorunun tədqiqi yolunda atılan addımlardan biridir. Əsərdə kamil sənət abidəsi olan İraq–türkman folklorunun mövcud janr və növləri araşdırılmış, son illərə qədər qədərincə fikir verilməyən ilkin janrlara və xalq mərasim və nəğmələrinə başqa janrlar kimi, xüsusi diqqət yetirilmişdir. Nəzərə alınmışdır ki, insanların real həyat hadisələrinə inam və etiqadlarının bir növ bədii əksi olan ilkin janrlar və eləcə də xalq mərasimləri qədim adət-ənənələrin, xalqın düşüncə tərzinin, həyata baxış və münasibətinin, etik, estetik, etnoqrafik görüşlərinin, mərasimlərinin sistemli şəkildə izlənməsində, eləcə də yaranışı və keçdiyi qatlarda nə kimi keyfiyyət dəyişikliklərinə uğradığını aydınlaşdırmaqda böyük dəyər və elmi əhəmiyyət kəsb edir.

Xalq mərasim və nəğmələrindən mövsüm, toy və yas mərasim və nəğmələri xüsusilə diqqət mərkəzində olmuşdur. Toy və yas mərasim və nəğmələrinin müxtəlif anlarına, psixoloji və səciyyəvi cəhətlərinə həsr olunan sazlamaq və nəğmələr, bir tərəfdən xalqın bədii təfəkkürünü, rəngarəng adət-ənənələrini əhatəli əks etdirmək baxımından, digər tərəfdən də İraq–türkman folklor musiqisi ilə bağlı poetik mətnlərin tədqiqi baxımından diqqəti cəlb etmişdir. Nəzərə alınmışdır ki, mərasimdən kənarda nəğmə məna kəsb etmədiyi kimi, mərasim də nəğməsiz öz ənənəvi mahiyyətindən məhrum olur.

İraq–türkman folklorunda xoyrat və maniləri, xalq havalarını, beşik nəğmələrini, bayatı-tapmacaları əhatə edən, yüksək bədii təfəkkürün məhsulu olan növün heyrətamiz poetik gücü və zənginliyi əsərdə öz tədqiqini lazımınca tapmışdır.

Məlumdur ki, xalq poeziyasının məzmunu xalq həyatının məzmunu ilə müəyyən olunur. Harada ki, xalq poeziyasının

məzmunu yoxsuldur, deməli, orada xalq həyatının özü də yoxsuldur və əksinə, xalq poeziyasının məzmunu zəngin olan xalqlarda xalq həyatının özü də zəngin olur. Bu baxımdan, musiqi ilə xalq poeziyasının vəhdətindən yaranan, əsl ilham məhsulu olan bu incilər, onu yaradanların nə qədər incə və zərif zövqə, bəşəri hislərə, duyumlara malik olduqlarına dəlalət edir və bir daha təsdiq edir ki, ümumiyyətlə, xalqın şifahi ədəbiyyatının zənginliyi, onun ifadə etdiyi fəlsəfi dərinlik, müdriklik, xalqın ənənəvi dühasını, yüksək düşüncə qabiliyyətini, təfəkkür və təxəyyülünün inkişaf səviyyəsini göstərən ən ümdə amillərdəndir.

Epik növə daxil olan atalar sözü və məsəllər, nağıllar, tapmacalar və lətifələr də, hər şeydən əvvəl bu baxımdan fərqlənir. Çox geniş yayılmış bu mükəmməl janrların hər birinin özünəməxsus səciyyəvi xüsusiyyətləri və böyük elmi əhəmiyyəti vardır. Təsadüfi deyildir ki, tədqiqatçılar yorulmadan bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Atalar sözü və məsəllərlə bağlı gətirdiyimiz misal, bu və ya digər dərəcədə bütün janrlara aid edilə bilər. Məsələn, tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözü və məsəlləri unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi incilər mənbəyi baxımından qiymətləndirir. Filosof atalar sözü və məsəllər vasitəsi ilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi və dialektoloq isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etmək işində əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır. Göründüyü kimi, atalar sözləri və məsəllər, eləcə də İraq–türkman folklorunun bütün başqa janrları nəinki xalqın dünyagörüşü və təfəkkürünü ifadə etmək baxımından, həm də xalqın keçmişi barədə bir növ tarixi sənədə çevrilmək baxımından böyük əhəmiyyət kəsb edir. Əsərin hər səhifəsində bu təkzibolunmaz həqiqəti duymaq mümkündür.

İraqla əlaqələrin bərpa olunduğu bir dövrdə, fürsətdən istifadə edərək Kərkük dolaylarında məskən salan bu elatın folklorunu araşdırmağa səy göstərdim. Bunu, böyük folklorşünas alimimiz M.H.Təhmasibin təbirincə desək, milli mədəniyyət tariximizi əhatəli və tam öyrənmək yolunda baş- lanmış ümumxalq cidd-cəhdi tələb edirdi. Bu tələbə iqtidarım və imkanım daxilində cavab verməyə çalışdım.

Minnətdarlıq hissi ilə yada salmaq olar ki, 1962-ci ildə İraqa ilk səfərim ərəfəsində xalq şairləri Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadənin İraq türkmanları ilə bağlı maraqlı yazılarını oxumuş, mərhum akademik M.Şirəliyevin Kərkük dialekti və folkloru barədə dəyərli məsləhətlərini dinləmişdim. O vaxtdan məndə Kərkük dialekti və folkloruna maraq oyanmışdı. Sonralar bu maraq məcrasını dəyişərək məhəbbətə çevrildi. Nəticədə Kərkük dialektinə həsr olunmuş namizədlik dissertasiyası, neçə-neçə məqalə və kitablar, o cümlədən də üzərində illərlə işlədiyim bu monoqrafiya meydana gəldi. Elmi işin hər səhifəsi arxasında İraqda keçirdiyim altı ilin acılı-şirinli anları, artıq əbədiyyətə qovuşan, eləcə də yaşayıb-yaradan tədqiqatçılar durur. Onların hamısını ehtiramla anır və bəzən öz-özümə fikirləşirəm: «Məni İraq-türkman folkloruna, onu yaradıb-yaşadanlara belə dərindən bağlayan nədir?» Göz önünə ilk olaraq Azərbaycan İraq-türkman folkloruna xalqın dərin məhəbbəti və doğmalıq hissi gəlir. Özüm üçün bir daha «kəşf» edirəm ki, doğmasını sevməmək mümkün olmadığı kimi, onu unutmaq, ona yad münasibət bəsləmək də mümkün deyildir. Başqa bir tərəfdən də düşünürəm: parçalanmağa məruz qalmış xalqın ellikcə yaratdığı sərvət üçün bağlı qapılar, keçilməz yollar yoxdur. Həqiqətən də, nə kəsilən yollar, nə illər mənəvi ayrılığa gətirib çıxara bilməmiş, qismətimizə düşən cismani ayrılıq olmuşdur. Bu, gün kimi aydın həqiqət monoqrafiyanın hər səhifəsində özünü aşkar hiss etdirir və əsrlər arxasından haray çəkən bu mənəvi birliyin əbədiyyət nəğməsini oxuyur.

QAYNAQLAR

Azərbaycanca

1. Abdullayev Bəhlul. Yusif Vəzir Çəmənzəminli və folklor. Nam. dis., Bakı, 1974

2. Abdullayev Bəhlul. Haqqın səsi. Bakı, «Azərnəşr», 1989

3. Abdullayev Cəlal. Səməd Vurğun və folklor. Nam. dis., Bakı, 1962

4. Abdullayev Cəlal. Səməd Vurğunun sənət dünyası. Bakı, «Yazıçı», 1986

5. Adilov Musa. Niyə belə deyirik. Bakı, «Gənclik», 1973

6. Adilov Musa. Xalq şeirinin ritmi haqqında.// Azərbaycan folklorşünaslığı məsələləri məcmuəsi. Bakı, 1983

7. Adilov Musa, Yusifov Gəray. Sabit söz birləşmələri. Bakı, «Maarif», 1991

8. Adilov Musa. İraq-türkman folkloru. «Ədəbiyyat» qəzeti, 1 may 1992

9. Adnan Asəfoğlu. Qarabağı üsulundan bilgilər. Bağdad, «Yurd» qəzeti, 17 mart 1989

10. Azərbaycan tapmacaları (toplayanı və tərtib edəni Hənəfi Zeynallı). Bakı, 1928

11. «Azərbaycanı öyrənmə yolu» məcmuəsi, № 1, Bakı, 1928

12. «Azərbaycanı öyrənmə yolu» məcmuəsi, sayı 4-5, Bakı, 1930

13. Azərbaycan türk xalq şivələri. I cild, 1-ci hissə, Bakı, 1930

14. Azərbaycan nağılları, I cild, Bakı, 1960

15. Azərbaycan tarixi, I cild, Bakı, 1961

16. Azərbaycan xalq dastanları, I cild, Bakı, «Azərnəşr», 1961

17. Azərbaycan nağılları, V cild, Bakı, «Azərnəşr», 1964

18. Azərbaycan folkloru antologiyası (toplayanı və tərtib edəni Əhliman Axundov), I kitab, Bakı, «Elm», 1968

19. Azərbaycan folkloru antologiyası (toplayanı və tərtib edəni Əhliman Axundov), II kitab, Bakı, «Elm», 1968

20. Azərbaycan nağılları (tərtib edəni Əhliman Axundov), II cild, Bakı, 1970

21. Azərbaycan nağılları, Bakı, «Azərnəşr», 1976
22. Azərbaycan Sovet Ensiklopediyası, I cild, Bakı, 1976
23. Azərbaycan Sovet Ensiklopediyası, II cild, Bakı, 1978
24. Azərbaycan Sovet Ensiklopediyası, III cild, Bakı, 1979
25. Azərbaycan Sovet Ensiklopediyası, IV cild, Bakı, 1960
26. Azərbaycan Sovet Ensiklopediyası, X cild, Bakı, 1987
27. Azərbaycan tarixi üzrə qaynaqlar. ADU-nun nəşriyyatı, 1989
28. Azərbaycan məhəbbət dastanları, Bakı, 1979
28a. Azərbaycan folklor antologiyası (tərtib edənlər: Q.Paşayev, Ə.Bəndəroğlu), İraq-türkman cildi, Bakı, «Elm», 1999
29. Azərbaycan xalq musiqisi, Bakı, «Elm», 1981
30. Azərbaycan xalq dastanları, Bakı, 1983
31. Azərbaycan bayatıları. (tərtib edənlər: Bəhlul Abdullayev, Elxan Məmmədov, Qızılgül Babazadə), Bakı, «Elm», 1984
32. Azərbaycan xalq mahnı və təsnifləri (tərtib edəni Qafar Namazəliyev), Bakı, «İşıq», 1985
33. Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar, Bakı, «Yazıçı», 1985
34. Arazam Kürə bəndəm (tərtib edəni Bəhlul Abdullayev), Bakı, 1988
35. Araslı Həmid. XIII–XVI əsrlərdə Azərbaycan ədəbiyyatı, Bakı, 1948
36. Araslı Həmid. XVII–XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı, Dok. dis., Bakı, 1954
37. Araslı Həmid. XVII–XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. ADU nəşri, Bakı, 1956
38. Araslı Həmid. Böyük Azərbaycan şairi Füzuli, Bakı, 1958
39. Arvad ağısı, mahnı, haxışta, sevgi, laylay, qayınana-gəlin sözləri (toplayanı Mirzə Abbaszadə), Bakı, 1918
40. «Arzu-Qəmbər» dastanı (toplayanı və tərtib edəni Əta Tərzibaşı), Bağdad, 1964
41. «Arzu-Qəmbər» dastanı (tərtib edəni Qəzənfər Paşayev), Bakı, «Gənclik», 1971
42. Atalar sözü (toplayanı və tərtib edəni Hənəfi Zeynallı), Bakı, 1926
43. Atalar sözü (toplayanı və tərtib edəni Ə.Hüseynzadə), Bakı,

1949

44. Atalar sözü (toplayanı Əbülqasım Hüseynzadə), Bakı, «Yazıçı», 1981

45. Aşıq Ələsgər. Bakı, «Yazıçı», 1988

46. Aşıq Pəri məclisi. Aşıqlar. El şairləri, Bakı, «Yazıçı», 1991

47. Aşıq Şəmşir. Şeirlər. Bakı, «Yazıçı», 1980

48. Aşıq Şəmşir. Şeirlər, Bakı, «Yazıçı», 1984

49. Aşıq şeirindən seçmələr (tərtib edənlər Hüseyn Arif, Mürsəl Həkimov), Bakı, «Gənclik», 1984

50. Bayatılar (çapa hazırlayan: Azərbaycan Ədəbiyyatı Cəmiyyəti), Bakı, 1925

51. Bayatılar (tərtib edəni M.H.Təhmasib), Bakı, 1943

52. Bayatılar (tərtib edəni M.Fərzanə), Tehran, 1965 (hicri, 1344)

53. Bayatılar (tərtib edəni Asya Məmmədova), Bakı, «Elm», 1977

54. Bayatılar (tərtib edəni Vaqif Vəliyev), Bakı, «Yazıçı», 1985

55. Bayatı, qoşma, təcnis. Bakı, 1988

56. Bayatılar, xoyratlar (tərtib edənlər: Bəndəroğlu Əli, Ziya M.), Bağdad, 1989

57. Belinski V.Q. Seçilmiş məqalələri, Bakı, «Uşaqgəncnəşr», 1948

58. Bilməcələr (toplayanı və tərtib edəni Aydın Kərkük), İraq, Kərkük, 1972

59. Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti, Bakı, «Elm», 1985

60. Vahabzadə Bəxtiyar. O qədər uzaq, bu qədər yaxın. Bax: Gəlin açıq danışaq. Bakı, «Azərnəşr», 1988

61. Vəliyev Vaqif. Azərbaycan şifahi xalq ədəbiyyatının janrları. Dok. dis., Bakı, 1972

62. Vəliyev Vaqif. Folklor nümunələri. ADU-nun Elmi Əsərləri. Dil və Ədəbiyyat seriyası, № 1, 1977

63. Vəliyev Vaqif. Qaynar söz çeşməsi. Bakı, «Yazıçı», 1981

64. Vəliyev Vaqif. Azərbaycan folkloru. Bakı, «Maarif», 1985

65. Vəliyev Vaqif Poetik incilər. «Ədəbiyyat və incəsənət» qəz., 25 yanvar, 1985

66. Vəliyev Kamil. Elin yaddaşı, dilin yaddaşı, Bakı, «Gənclik», 1987

67. Vəliyev Həmid. Azərbaycan folkloru gürcü mənbələrində,

Bakı, «Yazıçı», 1984

68. Vəfalı Ayaz. Füzuli öyrədir, Bakı, «Gənclik», 1977

69. Vəfalı Ayaz. Sənətkar və xalq, Bakı, «Gənclik», 1983

70. Qarayev Yaşar. Folklorumuzun tarixi. Bax: Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, «Yazıçı», 1990

71. «Qardaşlıq» jurnalı, İraq, Bağdad, 1961–1976

72. «Qardaşlıq», № 2, 1961

73. «Qardaşlıq», № 4, 1962

74. «Qardaşlıq», № 5, 1962

75. «Qardaşlıq», № 11, 1962

76. «Qardaşlıq», № 5, 1963

77. «Qardaşlıq», № 5, 1967

77a. «Qardaşlıq», № 8, İstanbul, 2000

78. Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, «Maarif», 1965

79. Qasımzadə Qasım. Ömrün əbədiləşən illəri. «Ulduz» jurnalı, 1986, № 6; «Altı il Dəclə-Fərat sahillərində», Bakı, «Yazıçı», 1987, s. 222–229

80. Qasım Sarı Kəhiyə. İraq-türkman ədəbiyyatında xoyrat, Bağdad, 1992

81. Qasımov H.M. Azərbaycan şifahi xalq ədəbiyyatında bayatının mövqeyi. Nam. dis., Bakı, 1949–1954

82. Qafarov R.O. Azərbaycan uşaq folkloru. Nam. dis., Bakı, 1988

83. Qafesoğlu İbrahim. «Türkman» adı, mənası və mahiyyəti. «Qardaşlıq» dərgisi, № 7-8, Bağdad, 1967

84. Qorki Maksim, Ədəbiyyat haqqında, Bakı, 1950

85. Quliyev Mərkəz. Süleyman Rəhimov və folklor. Nam. dis., Bakı, 1980

86. Quluzadə Mirzağa. Füzulinin lirikası, Bakı, 1965

87. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin inkişaf yolları, Bakı, 1958

88. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı, 1967

89. Dəmirçizadə Ə.M. Azəri ədəbi dili tarixi, Bakı, 1967

90. Elçin. Mən səndən ayrılmazdım. Bax: «Ədəbiyyat və incəsənət»

qəzeti, Bakı, 30 yanvar 1987

91. Əbdül Vahid Kuzəçioğlu. Kuzəçioğlunun xoyrat və bəstələri, İraq, Kərkük, 1966

92. Əbdüllətif Bəndəroğlu. İraq-türkman ədəbiyyatı yolunda bir addım. İraq, Bağdad, 1962

93. Əbdüllətif Bəndəroğlu. Ata sözlərimiz. Araşdırma, incələmə və qarşılaşdırma, İraq, Bağdad, 1988

94. Əbdüllətif Bəndəroğlu. Altı il Dəclə-Fərat sahillərində,

«Yurd» qəzeti, Bağdad, 16, 23, 30 mart, 11 may 1988 nömrələri

95. Əbdüllətif Bəndəroğlu. İraq-türkman ədəbiyyatı tarixinə bir baxış, II cild, Bağdad, 1989

96. Əbdüllətif Bəndəroğlu. Şah əsər. //«İraq-türkman folkloru» kitabı. Bakı, «Yazıçı», 1992

96a. Əbdüllətif Bəndəroğlu. Xoyrat-bayatı. «Ədəbiyyat qəzeti», 13 mart l992

97. Ədəbiyyat məcmuəsi, XI cild, 1957

98. Ədəbiyyatşünaslıq terminləri lüğəti (tərtib edəni Əziz Mirəhmədov), Bakı, «Azərnəşr», 1957

99. Əzizov E.İ. «Qırat» və «Dürat» sözlərinin etimologiyası.// Türk dillərinin leksik-morfoloji quruluşu, ADU-nun Elmi Əsərlərinin tematik məcmuəsi, Bakı, 1981

100. Əlizadə Hümmət. Aşıqlar, Bakı, «Azərnəşr». 1938

101. Əlizadə Zinyət. Azərbaycan atalar sözlərinin həyatı, Bakı, «Yazıçı», 1985

102. Əliyeva Dilarə. «Koroğlu»nun yeni variantı. «Ədəbiyyat qəzeti», 24 iyul 1992

103. Əliyev M.İ. Azərbaycan xalq poeziyasının forma və şəkilləri. Nam. dis., Bakı, 1976

104. Əliyev Y.M. Azərbaycan sovet folklorşünaslığının inkişafı. Nam. dis., Bakı, 1990

105. Əliyev O.S. Azərbaycan sehrli nağıllarının ideya-bədii xüsusiyyətləri. Nam. dis., Bakı, 1988

106. Əliyev R. Azərbaycan şifahi xalq yaradıcılığında ateizm motivləri, Bakı, «Azərnəşr», 1973

107. Əli Saləddin. Azərbaycan şeiri və folklor. Bakı, «Elm», 1982

107a. Əmani. Əsərləri (tərtib edəni Əlyar Səfərli), Bakı, «Yazıçı», 1983

108. Əmin Abid. Türk xalqları ədəbiyyatında «Mani» növü və Azərbaycan bayatılarının xüsusiyyəti. «Azərbaycanı öyrənmə yolu» jurnalı, sayı 4–5, Bakı, 1930

109. Əsli və Kərəm. Bakı, «Uşaqgəncnəşr», 1960

110. Əfəndiyev Paşa. Azərbaycan folklorşünaslığının tarixi. Dok. dis., Bakı, 1973

111. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, «Maarif», 1981

112. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı (yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci nəşri), Bakı, «Maarif», 1992

113. Əhməd Otraqçı oğlu. Bakı radiosundan türkman folkloru haqqında verilişlər. «İraq» qəzeti, Kərkük, 11 iyun 1966-cı il

114. Zeynallı Hənəfi. Seçilmiş əsərləri, Bakı, «Yazıçı», 1983

115. Zeynalov Fərhad. Əbdüllətif Bəndəroğlu və İraq-türkman dilinin tədqiqi. // Ə.Bəndəroğlu. «İraq-türkman dili», II nəşri, Bağdad, 1989

116. Zeynalov Ə.M. Azərbaycan bayatıları Qafqaz regionunda. Nam. dis., Bakı, 1991

117. İbrahim Daquqi. İraq türkmanları. Dilləri, tarixləri və ədəbiyyatları, Ankara, 1970

118. İbrahimov İdris. Azərbaycan atalar sözü və məsəlləri. Nam. dis., Bakı, 1949

119. İbrahimov İdris. Atalar sözü və məsəllər. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, Bakı, 1961

120. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər, Bakı, 1958

121. İbrahimov C. Ağqoyunlu dövlətinin tarixinə dair oçerklər. V.İ.Lenin adına APİ-nin Elmi Əsərləri. XXVI cild, Bakı, 1963

122. İraq türkmanlar ağzında atalar sözləri (toplayanı və tərtib edəni Şakir Sabir Zabit), İraq, Bağdad, 1962

123. İraq-Kərkük bayatıları (tərtib edəni Qəzənfər Paşayev), Bakı,

«Yazıçı», 1984

124. İraq-Kərkük atalar sözləri (toplayanı və tərtib edəni Qəzənfər Paşayev), Bakı, «Azərnəşr», 1978

125. İsazadə Ə., Məmmədov N. Azərbaycan xalq mahnıları və oyun havaları, Bakı, «Elm», 1984

126. İsmayılzadə R. Azərbaycan xalq mahnıları. // Azərbaycan xalq musiqisi. Oçerklər, Bakı, «Elm», 1981

127. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin janrları, Bakı, «İşıq», 1984

128. İhsan Vəsfi. İraq türklərində deyimlər və ata sözləri. İstanbul, 1985

128a. «Yurd» qəzeti, İraq, Bağdad, 23.III.89, 27.VI.89, 5.X.89, 16.IV.92 <http://16.IV.92>, 7.V.92, 2.VII.92

128b. «Yurd» qəzeti, 23.VII.92

129. Kərkük bayatıları (tərtib edənlər: Rəsul Rza, Qəzənfər Paşayev), Bakı, «Azərnəşr», 1968

130. Kərkük mahnıları (tərtib edəni Qəzənfər Paşayev), Bakı, «Gənclik», 1973

131. Kərkük müntəxəb xoyratları (toplayanı və tərtib edəni Molla Sabir), İraq, Bağdad, I qisim, 1951; II qisim, 1953; III qisim, 1954

132. Kərkük tapmacaları (toplayanı və tərtib edəni Qəzənfər Paşayev), Bakı, «Gənclik», 1984

133. Kərkük folkloru antologiyası (toplayanı və tərtib edəni Qəzənfər Paşayev), Bakı, «Azərnəşr», 1987, təkrar nəşr 1990

134. Kərkük xoyratları və maniləri (toplayanı və tərtib edəni Mehmet Həbib Sevimli), İstanbul, 1950

135. Kərkük xoyratları (toplayanı və tərtib edəni Osman Məzlum), Bağdad, 1951

136. «Kitabı-Dədə Qorqud» (tərtib edənlər: Fərhad Zeynalov, Samət Əlizadə), Bakı, «Yazıçı», 1988

137. Köçərli Firidun bəy. Sayaçı sözləri. SMOMPK, 41-ci buraxılış, 1910

138. Köçərli Firidun bəy. Seçilmiş əsərləri. Azərbaycan SSR EA-nın nəşriyyatı, Bakı, 1963

139. Köçərli Firidun bəy. Balalara hədiyyə. Bakı, «Gənclik», 1972

140. Laçınlı Ağa. Bayatılar və musiqi. «Ulduz» jurnalı, № 2, 1975

141. Mahmudov Yaqub. Səyyahlar. Kəşflər. Azərbaycan. Bakı, «Gənclik», 1985

142. Məmməd Arif. Bədii dil və üslub.// Ədəbiyyat məcmuəsi, Bakı, 1946

143. Məmməd Arif. Azərbaycan xalq teatrı. // Ədəbiyyat məcmuəsi. Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, I cild, Bakı, 1946

144. Məmməd İsmayıl. Bir ay sazla baş-başa. «Ədəbiyyat qəzeti», № 1, 1992

145. Məmmədov Ə. Şah Təhmasibin Azərbaycan dilində bir məktubu, ADU-nun Elmi Əsərləri, Dil və Ədəbiyyat seriyası, № 6, 1964

146. Məmmədov A.S. Azərbaycan poeziyasının xalq musiqisi ilə əlaqəsi. Dok. dis., Bakı, 1972

147. Məmməd Mehdi Bayat. Xoyratlarımız haqqında bir açıqlama. // İraq-türkmən ədəbiyyatında xoyrat, Bağdad, 1992

148. Məhəmməd Xurşid. Kərkük bayatıları. «Qardaşlıq» jurnalı, Bağdad, 1969, № 11–12

149. Məhəmməd Xurşid. Əski sözlər bağçası, Bağdad, 1989

150. Mirzəzadə Hadi. İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr. ADU-nun Elmi Əsərləri. İctimai elmlər seriyası, № 4, Bakı, 1961

151. Mirzəzadə Hadi. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962

152. Molla Nəsrəddin lətifələri (toplayanı və tərtib edəni Əli Abbas Müznib), Bakı, «Azərnəşr», 1927

153. Molla Nəsrəddin lətifələri (tərtib edəni Məmmədhüseyn Təhmasib), Azərbaycan SSR EA-nın nəşriyyatı, Bakı, 1965

154. Molla Nəsrəddin lətifələri (tərtib edəni Məmmədhüseyn Təhmasib), Bakı, «Yazıçı», 1978

155. Molla Cümə. Şeirlər, Bakı, «Azərnəşr», 1966

156. Mövlud Taha Qayaçı. «Arzu-Qəmbər»in yeni çapı. «Qardaşlıq» jurnalı, Bağdad, 1972, № 10–11

157. Nağıllar. Bakı, «Azərnəşr», 1965

158. Namazov Qara. Azərbaycan aşıq sənəti, Bakı, «Yazıçı», 1984

159. Namazov Qara. Azərbaycan uşaq ədəbiyyatı, Bakı, «Maarif», 1984

160. Nəbiyev Azad. Azərbaycan-özbək folklor əlaqələri, Bakı, «Yazıçı», 1978

161. Nəbiyev Azad. «Koroğlu» dastanında Koroğlu surəti (Azərbaycan və özbək materialları əsasında), Nam. dis., Bakı, 1971

162. Nəbiyev Azad. Azərbaycan folklorunun janrları. I hissə, Bakı, ADU-nun nəşriyyatı, 1983

162a. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı, Bakı, 2002

163. Nəbiyev Azad. Kərkük dünyası. «Kommunist» qəzeti, 20 may 1987

164. Nəbiyev Azad. El nəğmələri, xalq oyunları, Bakı, «Azərnəşr», 1986

165. Nəbiyev Azad. Durna gözlü bulaqlardan. // Nəğmələr. İnanclar. Alqışlar (toplayanı və tərtib edəni Azad Nəbiyev), Bakı, «Yazıçı», 1986

166. Nəsimi İmadəddin. İraq Divanı (tərtib edəni Qəzənfər Paşayev), Bakı, «Yazıçı», 1987

167. Nicat Kövsəroğlu. Nəsrəddin Xoca, İraq, Kərkük, 1969

168. Odunçunun qızı (toplayanı və tərtib edənləri Əhməd Quşçu oğlu və Behcət Qəmgin), Kərkük, 1971

169. Orucov Ə.Ə. Azərbaycan dilinin filoloji izahlı lüğətinin nəzəri əsasları, Bakı, 1965

170. Orxan Oral. Üç dastan, Ankara, 1972

171. Osman Məzlum. Xoyratlar, Bağdad, 1975

172. Paşayev Qəzənfər. İraq azərbaycanlıları. «Elm və həyat» jurnalı, 1967, № 4

173. Paşayev Qəzənfər. Kərkük şairləri. «Ulduz» jurnalı, 1968, № 7

174. Paşayev Qəzənfər. Kərkük dialektinin fonetikası, nam. dis., Bakı, 1969

175. Paşayev Qəzənfər. Kərkük azəriləri. Atalar sözləri. «Azərbaycan» jurnalı, № 2, Bakı, 1969

176. Paşayev Qəzənfər. İraq-Kərkük xoyratları. «Kitablar alə-

mində» jurnalı, Bakı, 1983, № 2

177. Paşayev Qəzənfər. Altı il Dəclə-Fərat sahillərində, Bakı, «Yazıçı», 1985, təkrarnəşr 1987

178. Paşayev Qəzənfər. Folklorumuzun qüdrətli qolu. // Kərkük folkloru antologiyası, Bakı, «Azərnəşr», 1987

179. Paşayev Qəzənfər. Folklorumuzda yerini tutmamış janr. // Azərbaycan folklorunun aktual problemləri. Bakı, BDU, 1991

180. Paşayev Qəzənfər. İraq-türkman folkloru. Monoqrafiya, Bakı, «Yazıçı», 1992, 215 səh.

180a. Paşayev Qəzənfər. İraq-türkman folkloru. Monoqrafiya, İstanbul, 1998, 320 səh.

181. Paşayev Sədnik. Çoxvariantlı «Arzu-Qəmbər» dastanı və xalq əfsanələri, «Elm və həyat» jurnalı, № 12, Bakı, 1987

182. Rejioğlu Əbdülhəkim. Şeir toplumun olmalı. «Qardaşlıq», № 1–2, Bağdad, 1963

183. Rəsul Rza. Uzaq ellərin yaxın töhfələri. // Kərkük bayatıları. Bakı, «Azərnəşr», 1968

184. Rəsul Rza. Seçilmiş əsərləri, V cild, Bakı, «Yazıçı», 1983

185. Rzaquluzadə Mikayıl. Atalar sözü və məsəllər. // Atalar sözü (toplayanı Əbdülkərim Hüseynzadə), Bakı, «Azərnəşr», 1949

186. Rza Dəmirçi. Gələcək nüfuz sayımı və İraq türkmanları. «Qardaşlıq» jurnalı, № 6, Bağdad, 1970

187. Rzazadə M. XVIII əsr Azərbaycan ədəbi dili tarixinə aid materiallar, Bakı, 1961

188. Salman Mümtaz. Aşıq Abdulla, Bakı, «Azərnəşr», 1927

189. Salman Mümtaz. Azərbaycan ədəbiyyatı qaynaqları. Bakı, «Yazıçı», 1986

190. Seyidov Mirəli. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, «Yazıçı», 1983

191. Seyidov Mirəli. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, «Yazıçı», 1989

192. Seyidov Mirəli. Yaz bayramı, Bakı, «Gənclik», 1990

193. Seyidov Nurəddin. Azərbaycan nağılları haqqında. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, Azərb.SSR

EA-nın nəşriyyatı, Bakı, 1961

194. Seyidov Nurəddin. Azərbaycan nağıllarının bədii xüsusiyyətlərinə dair bəzi qeydlər. // Tədqiqlər, II kitab, Bakı, 1966

195. Seyidov Nurəddin. Azərbaycan tapmacalarına dair. // Tədqiqlər, Bakı, 1968

196. Seyidov Nurəddin. Tapmacaların bəzi xüsusiyyətlərinə dair. // Tədqiqlər, IV kitab, Bakı, 1973

197. Sinan Səid Əbdülqadir. İraqda türk mətbuatı və ədəbi məsələlər. Nam. dis., Bakı, 1969

197a. Sinan Səid. Azərbaycandan gələn qardaş səsi. «Ədəbiyyat və incəsənət» qəzeti, 19 aprel 1969

198. Sehrli sünbüllər (toplayanı Azad Nəbiyev), Bakı, «Gənclik», 1990

199. «Son xəbərlər» qəzeti, № 15, Bakı, 1915

200. Sula Benet. Necə yaşayasan, yüzü haqlayasan (ingilis dilindən tərcümə edən Qəzənfər Paşayev), Bakı, «Yazıçı», 1989

201. Sübhi Saatçı. Kərkük çocuq folkloru, İstanbul, 1984

201a. Sübhi Saatçı. İraq Türkmanları. İstanbul, 2003

20lb. Sübhi Saatçı. Kərkükdən dərlənən olay türküləri. İstanbul, 1992

202. Tapmacalar (toplayanı və tərtib edəni Vəli Xuluflu), Bakı, 1928

203. Tapmacalar (toplayanı və tərtib edəni Nurəddin Seyidov), Bakı, «Elm», 1971

204. Tahirbəyov Bayram. Atalar sözünün təsnif və təqdim edilməsi haqqında. // Atalar sözü (toplayanı Ə.Hüseynzadə), Bakı, «Yazıçı», 1981

205. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, I cild, Bağdad, 1955

206. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, II cild. Kərkük, 1956

207. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, III cild, Kərkük, 1957

208. Tərzibaşı Əta. Kərkük havaları, Bağdad, 1962

209. Tərzibaşı Əta. Kərkük əskilər sözü, Bağdad, 1962

210. Tərzibaşı Əta. Yazı dili, qonuşma dili. «Qardaşlıq» dərgisi, Bağdad, 1962

211. Tərzibaşı Əta. Kərkük şairləri, I cild, Bağdad, 1963

212. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, İstanbul, 1975

213. Təhmasib Məmmədhüseyn. Azərbaycan nağıllarında Keçəl. «Revolyusiya və kultura» jurnalı, № 1–2, Bakı, 1939

214. Təhmasib M.H. Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri, Nam. dis., Bakı, 1945

215. Təhmasib M.H. Uzaq ellərin yaxın töhfələri haqqında. «Azərbaycan» jurnalı, № 2, 1969

216. Təhmasib M.H. Ara uzaq, ürək yaxın. «Ədəbiyyat və incəsənət» qəzeti, 18 mart 1972

217. Toy və halay mahnıları (tərtib edəni B.Şahsoylu), Bakı, «Gənclik», 1980

218. «Ulduz» jurnalı, № 12, 1975

219. Fərzəliyev Təhmasib. Nəsrəddin adı ilə bağlı lətifələrin nəşri və tədqiqi. // Tədqiqlər, II kitab, Bakı, «Elm», 1966

220. Fərzəliyev Təhmasib. Azərbaycan xalq lətifələri, Bakı, «Elm», 1971

221. Fərzəliyev Təhmasib. Azərbaycan folklorunda xalq dram və oyun tamaşaları. // Tədqiqlər, VII kitab, Bakı, «Elm», 1987

222. Fərhadov F. «Koroğlu» eposunun Zaqafqaziya versiyası. Dok. dissertasiyasının avtoreferatı, Bakı, 1968

223. Firdovsi. Şahnamə (tərcümə edəni Mübariz Əlizadə), Bakı, «Yazıçı», 1986

224. Xalq ədəbiyyatı, I cild, Bakı, «Elm», 1981

225. Xalisboyli T. Nizami Gəncəvi və Azərbaycan folkloru. Dok. dis., Bakı, 1991

226. Xobotyev K. Layla valı. «Kommunist» qəzeti, Bakı, 9 fevral 1989

227. Xuluflu Vəli. El aşıqları, Bakı, 1927

228. Haqverdiyev Ə. Seçilmiş əsərləri, II cild, Bakı, 1957

229. Hatəmi M. Xalq yaradıcılığında atəşpərəstliyin inikası. Nam. dis., Bakı, 1971

230. Hacıbəyov Üzeyir. Seçilmiş əsərləri, Bakı, «Yazıçı», 1985

231. Hacıbəyov Üzeyir, Maqomayev Müslüm. Azərbaycan el nəğmələri, 2-ci nəşri, Bakı, 1985

232. Hacıyev Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi, Bakı, «Azərnəşr», 1958

233. Hacıyeva Maarifə. Folklor və müasir poetik proses. Bakı, «Yazıçı», 1991

234. Haşim Nahid. İraq türkləri. «Türk yurdu» məcmuəsi, Ankara, 1919 (hicri 1339)

235. Həkimov Mürsəl. Folklordan çöl materialları toplusu üzrə (bayatılar) metodik iş. Bakı, 1982

236. Həkimov Mürsəl. Azərbaycan aşıq ədəbiyyatı. Bakı, «Yazıçı», 1983

237. Həkimov Mürsəl. Xalq mövsümləri və aşıq sənəti. // Tədqiqlər, IV kitab, Bakı, «Elm», 1973

238. Həkimov Mürsəl. Bayatılar, Bakı, 1991

239. Həsənova Lalə. Azərbaycan satirik məişət nəğmələri, Bakı, «Yazıçı», 1989

240. Həşimov Ə.H. Azərbaycan şifahi xalq ədəbiyyatında tərbiyəvi fikirlər. Bakı, «Uşaqgəncnəşr», 1958

240a. Hidayət Kamal Bayatlı. İraq–türkman türkcəsi. Ankara, 1996

241. Hikmətli sözlər (tərtib edəni Həsən Qasımov), Bakı, «Uşaqgəncnəşr», 1961

242. Homer. İliada (tərcümə edəni Mikayıl Rzaquluzadə), Bakı, Azərnəşr, 1978

243. Hüseyn Arif Hüseynzadə. Ömür gözləsə, Bakı, «Gənclik», 1978

244. Hüseynov Tofiq. Ön söz. // Çəmənzəminli Y.V. Qızlar bulağı. Qan içində, Bakı, «Yazıçı», 1987

245. Çəmənzəminli Y.V. Qızlar bulağı. Qan içində. Bakı, «Yazıçı», 1987

246. Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, «Yazıçı», 1990

247. Cavanşir M.C. Qarabağ tarixi, Bakı, 1959

247a. Qarabağnamələr. Bakı, «Yazıçı», 1969

248. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, II cild, Bakı, «Elm», 1983

249. Cəfərzadə Əzizə. Bir daha xoş gördük, İraq! «Bakı» qəzeti, 25 iyul 1985

250. Cəfərzadə Əzizə. Bayatı düşüncələrim. «Azərbaycan türk kultur dərgisi», sayı 266, Ankara, 1989

251. Cəfərov Məmmədcəfər. Azərbaycan şeirində sənətkarlıq, ənənə və novatorluq məsələsi. «Azərbaycan» jurnalı, № 11, 1955

252. Cəfərov Məmmədcəfər. Füzuli düşünür, Bakı, 1959

253. Cəfərov Səlim. Müasir Azərbaycan dilinin leksikası, Bakı, 1958

254. Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi, Bakı, 1950

255. Şakir Sabir Zabit. Kərkükdə ictimai həyat. İraq, Bağdad, 1962

256. Şərifli M. «Eldəgəz» haqqında. V.İ.Lenin adına APİ-nin Elmi Əsərləri, 1946, №1

257. Şirvani Y.Z. İbn Mühənna və onun lüğəti haqqında bəzi qeydlər. ADU-nun Elmi Əsərləri, №3, 1966.

258. İsmayıl Şıxlı. Dəli Kür. Bakı, «Yazıçı», 1983

Rusca

259. Аббасов И.И. Азербайджанские дастаны в армянских источниках и проблемы их исследования. Автореф. Док. дисс. Баку, 1986

260. Адилов Муса. Система повторов в азербайджанском языке. Док. дисс. Баку, 1967

261. Азадовский М.К. Литература и фольклор. Очерки и этюды. Л., Гослитиздат, 1938

262. Азадовский М.К. Русские сказочники. // Русская фольклористика, М., 1965

263. Азбелев С.Н. Историзм былин и специфика фольклора. Л., «Наука», 1982

264. Алиев А.А. Художественные особенности азербайджанских баяты. Канд. дисс. Баку, 1980

265. Анекдоты о Ходже Насреддине и Ахмет Ахае. Крым. АССР,

Государственное изд-во, 1937

266. Анекдоты о Ходже Насреддине. Изд-во Восточной лит-ры, М., 1957

267. Аникин В.П. Народная мудрость. // Пословицы и поговорки народов Востока. Изд-во Восточной лит-ры, М., 1961

268. Аникин В.П. Русские народные пословицы, поговорки, загадки и детский фольклор. М., 1957

269. Афанасьев А.Н. Политическое воззрение славян на природу. Опыт сравнительного изучения славянских преданий и верований в связи с мифическими сказаниями других родственных народов. Том I, М., 1865

270. Базанов В.Г. Причитания русского севера в записях 1942-1945 годов. //Русская фольклористика. М., 1965

271. Байрам-Алибеков Т. Праздник Новруз. «Каспий», 1913, №57

272. Баскаков Н.А. Тюркские языки. М., 1960

273. Бахлул Абдулла. Азербайджанский обрядовый фольклор и его поэтика. Баку, Элм, 1990

274. Белинский В.Г. Стихотворения М.Лермонтова. Избранное. Изд-во Московский рабочий, М., 1954

275. Белинский В.Г. Статьи о народной поэзии. // Русская фольклористика. М., 1965

276. Большая Советская Энциклопедия. Т. I, М., 1970

277. Виноградов Г.Е. Народная педагогика. Изд. Вост. СПб.

278. Отд. Русского Географического Общества, 1926

279. Буслаев Ф.И. Исторические очерки. Том I, СПб., 1981

280. Гербстман А.И. Русский фольклор. Том XI, Изд-во АН СССР, М.-Л., 1968

281. Гордлевский В.А. Ходжа Насреддин.// Анекдоты о Ходже Насреддине. М., 1957

282. Гордлевский В.А. Из истории Османской пословицы и поговорки.// Избранные сочинения, т. II, ИВЛХ, М., 1961

283. Горький М. Материалы и исследования. Т.I, Изд-во АН СССР, 1934

284. Горький М. О литературе. М., 1953

285. Горький А.М. Советская литература. // Русская фольк-

лористика, М., 1965

286. Гош Мхитар. Албанская хроника, Баку, 1960

287. Грубер Р.И. Всеобщая история музыки. Т. I, М., 1960

288. Даль В.И. Толковый словарь. Т. III, 1912

289. Даль В.И. Пословицы русского народа. М., 1957

290. Живая старина, год XX, 1911, СПб., 1912, № 1-4

291. Загадки. Изд-во Наука, Л., 1968

292. Захиди А.И. Слова тюркского происхождения в современном арабском языке. Автореф. канд. дисс., Баку, 1967

293. Календарные обычаи и обряды в странах зарубежной Европы. М., 1977

294. Капица О.И. Детский фольклор. Л., 1928

295. Караев К.А. Статьи. Письма. Воспоминания. М., 1978

296. Квятовский А. Поэтический словарь. М., 1966

297. Колесницкая И.М. Загадки. Русское народное поэтическое творчество. Том II, Изд-во АН СССР, М.-Л., 1955

298. Короглы Х.Г. Огузский героический эпос. М., Наука, 1976

299. Кравцов Н.И. Проблемы славянского фольклора. «Наука», М., 1972

300. Кравцов Н.И. Система жанров русского фольклора. // Проблемы славянского фольклора. М., 1972

301. Лазутин С.Г. Поэтика русского фольклора. М., 1981

302. Ленин В.И. О литературе и искусстве. М., 1967

303. Литвин Э.С. К вопросу о детском фольклоре. // Русский фольклор. Л., 1958

304. Малов С.Е. Памятники древнетюркской письменности. М.-Л., 1951

305. Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991

306. Мелетинский Е.М. «Низкий» герой волшебной сказки. // Герои волшебной сказки. Изд. Восточной лит-ры, М., 1958

307. Мелиоранский П.М. Араб. филолог о турецком языке. С.-Петербург, 1890

308. Мельников М.Н. Русский детский фольклор Сибири. Ново-

сибирск, 1971

309. Ментсшешвили А.М. Ирак в годы английского мандата. М., 1969

310. Мифы народов мира. Том I, М., 1980

311. Музаффаров Р. Татарские народные пословицы. Канд. дисс., Казань, 1959

312. Наджип Э.Н. Кыпчакско-огузский литературный язык мамлюкского Египта XIV века. Автореф. док. дисс., М., 1965

313. Онисайская И.М. Структура пословиц и образованных от них фразеологических оборотов. Канд. дисс., Ленинград, 1961

314. Ончуков Н.Е. Сказки и сказочники на Севере. // Русская фольклористика, М., 1965

315. Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XX вв., Ленинград, 1949

316. Померанцева Э.В. О русском фольклоре. М., 1977

317. Пропп В.Я. Жанровый состав русского фольклора. // Русская литература, 1964, № 4

318. Пропп В.Я. Принципы классификации фольклорных жанров. «Советская этнография», 1964, № 4

319. Пропп В.Я. Фольклор и действительность. Вах: Русская фольклористика, М., 1965

320. Пропп В.Я. Фольклор и действительность, М., 1976

321. Пословицы и поговорки народов Востока. Москва, 1961

322. Путилов Б.Н. Миф-обряд-песня Новой Гвинеи. М., «Наука», 1980

323. Радлов В.В. Опыт словаря тюркских наречий. Том II, часть 2, 1963

324. Русское народное поэтическое творчество. Изд-во «Высшая школа», М., 1969

325. Русский фольклор. Т И, Л., 1957

326. Рыбнякова М.А. Русские пословицы и поговорки. Москва, 1961

327. Рыбнякова М.А. Содержание и форма пословицы и поговорки. // Русская фольклористика, М., 1965

328. Советский энциклопедический словарь. М., 1980; 1983

329. Томашевский В.В. Стилистика и стихосложение. М., Учпедгиз, 1959

330. Тарасенкова Е.Ф. Жанровое своеобразие русских сказок. Русский фольклор. Материалы и исследования. Изд-во АН СССР. М.-Л., 1957

331. Фархадова С.Т. Обрядовая музыка Азербайджана. Баку, «Элм», 1991

332. Чернышевский Н.Г. Песни разных народов. // Русская фольклористика, М., 1965

333. Шахнович М.И. Первобытная мифология и философия. Л., 1971

334. Ширалиев М.Ш. О диалектной основе азербайджанского национального литературного языка. Труды Института Литературы и Языка им. Низами. Том II, Баку, 1953

335. Шенгели Г. Техника стиха. Изд-во «Художественная литература», М., 1960

336. Штокмар М. Стихотворная форма русских пословиц, поговорок, загадок, прибауток. Журнал «Звезда Востока», № 11,1965

337. Щербак А.М. Грамматический очерк языка тюркских текстов X-XIII вв. из Восточного Туркестана. М.-Л., 1961

Başqa dillərdə

338. Bəndəroğlu Əbdüllətif. Türkmanlar inqilabi İraqda (ərəbcə), Bağdad, 1972

339. Boratav P.N. Xalq hekayələri və xalq hekayəçiliyi (türkcə), Ankara, 1946

340. Boratav P.N. Türk xalq ədəbiyyatı 100 soruda (türkcə), İstanbul, 1969

341. «Qardaş Ədəbiyyatlar» dərgisi (türkcə), Ərzurum, 1985, № 10

342. Qarrıyev B.A. Türkmen matalları (türkməncə), Aşxabad, 1962

343. Edmondz S.C. Kürdlər, türklər, ərəblər (ingiliscə), London, 1957

344. Əhməd Cavad. Çırpınırdı Qara dəniz (türkcə), Ankara, 1990

345. İbn-əl-Əsir. Ümumi tarix (ərəbcə). Qahirə, 1312 hicri

346. İsa Özqan, Qəzənfər Paşayev. Kərkük folkloru antologiyası (türkcə), «Türk kulturu» dərgisi, sayı 298, Ankara, 1988

347. İslam Ensiklopediyası (türkcə), II cild, İstanbul, 1979

348. İslam Ensiklopediyası (türkcə), VI cild, İstanbul, 1979

349. Lonqriq Stefan Hemsli. Müasir İraqın dörd əsri (ingiliscə), Oksford, 1925

350. Mahir Naqib. Kərkük xalq musiqisinin təsnif və təhlili (türkcə), Ankara, 1991

351. Menqes Karl Heynrix. Türk dilləri və türk xalqları (ingiliscə), Almaniya, Veysbaden, 1968

352. Mustafa Cavad. İraqda türklərin tarixi (ərəbcə). «Əl-Dəlil» dərgisi, № 2,1946; № 5, 1947

353. Sadəttin Buluç. Kərkük xoyrat və manilərində başlıca ağız özəllikləri (türkcə), Türk dil Qurumu yayınlarından. Sayı 270, 1966

354. Sübhi Saatçı. Kərkük tapmacaları. «Füzuli» dərgisi, sayı 4-5, Ankara, 1985

355. Təbəri. Ümumi tarix (ərəbcə), VI cild, Qahirə.

356. Fazil Hüseyn. Mosul problemi (ərəbcə). Bağdad, 1955

356a. Hidayət Kamal Bayatlı. İraq-türkmən türkcəsi. Ankara, 1996

357. Hürmüzlü Erşad. İraq türkləri (türkcə), İstanbul, 1991

358. Hüseynova Z. Uzbek topişkemleri (özbəkcə). UzSSR FAN, Taşkent, 1966

358a. Cəlal Ərtuq. Türkiyədə və dünyada İhsan Doğramacı fenomeni (türkcə), Ankara, 1996

359. Cəfəroğlu Əhməd. Türkmanlar (türkcə), «Türk kulturu» dərgisı, № 20, 1964

360. Şakir Sabir Zabit. İraqda türkmanların tarixi vardır (ərəbcə). Bağdad, 1957

361. Şakir Sabir Zabit. İraq və İran arasında əlaqə və sərhəd məsələləri (ərəbcə), Bağdad, 1964

362. Ziyad Köprülü. İnsan haqları açısından İraq türkləri (türkcə), Ankara, 1992

QƏZƏNFƏR PAŞAYEV

BORCUMUZDUR
BU EHTİRAM

Bakı – «Ozan» – 2010

Elmi redaktoru: **Bəkir Nəbiyev,**
AMEA-nın həqiqi üzvü

Rəyçi və ön sözün müəllifi: **Nizaməddin Şəmsizadə,**
filologiya elmləri doktoru, professor

Paşayev Qəzənfər
Borcumuzdur bu ehtiram.
Bakı, «Ozan», 2010, 240 səh.

Kitabda filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin ünsiyyətdə olduğu, əksəriyyəti ilə illər boyu dostluq etdiyi, dünyasını dəyişmiş dəyərli insanlar haqqında fikirləri, düşüncələri yer alır. O insanlar ki, örnək olan əməlləri və müdrik kəlamları ilə bizimlədir.

«Borcumuzdur bu ehtiram» xalq tərəfindən sevilən, unudulmaz insanların xatirəsinə bir töhfədir.

P $\frac{\textbf{4702060200}}{\textbf{On - 047 - 10}}$ **2010**

Təkmilləşdirilmiş nəşr
«Ozan» nəşriyyatı - 2010

Ölüm sevinməsin qoy, ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada,
Sevərək yaşayanlar, sevilərək ölənlər…

Səməd Vurğun

UNUDULMAZLAR HAQQINDA UVERTÜRA

İnsan dünyasını dəyişdikdən sonra ömrünü həyatda qalanların xatirəsində davam etdirir. Bunun üçün ölməzdən əvvəl insana ölməzlik gətirən işlər, əməllər, ad-san qazanmalısan. Ən azı səni sevənlərin bir xatirəsinə layiq olmalısan. Xatirələr Allahın əmri ilə dünyasını dəyişənlərin həyatda sağ qalanlar üçün qoyub getdiyi ömür kitabı, yaddaşnamələrdir. Xatirəni yaratmaq da, yaşatmaq da çətindir. Xatirəni şəxsiyyətlər yaradır və yaşadır. Dəqiq desək, xatirəni yaratmaq üçün də, yaşatmaq üçün də Şəxsiyyət olmaq lazımdır. Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev ədəbi-ictimai mühitdə sayılıb-seçilən, nüfuzu və yeri olan, həm müasirlərinə, həm də dünyasını dəyişmiş unudulmazlara yüksək qədrşünaslıq bildirən belə şəxsiyyətlərdən biridir. «Borcumuzdur bu ehtiram» bir çox ziyalıların, o cümlədən də mənim qədirbilən dostum Qəzənfər müəllimin həyatı ilə bağlı şəxsiyyətlərə ləyaqətli ehtiramının elmi-publisistik ifadəsidir. Q.Paşayev təkcə özü üçün yox, başqaları üçün də yaşamağı bacaran açıqürəkli, səmimi və səxavətli bir insandır. «Borcumuzdur bu ehtiram» kitabına başda Ulu Öndər, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev olmaqla iyirmi beş ziyalı – dövlət xadimi, alim, müəllim, yazıçı və şair haqqında portret oçerklər toplanıb. H.Əliyevə həsr olunmuş «Xilaskar» oçerki bu fenomenal şəxsiyyətə dərin sevgi və hörmətlə yazılıb. Müəllif nümunəvi ştrixlərlə bu dahi insanın milli və bəşəri keyfiyyətlərini müəyyənləşdirməyə çalışır. Kitaba daxil olan bütün oçerklər böyük səmimiyyətlə yazılıb, hər biri şirin layla kimi, nurlu elegiya kimi oxunur. Böyük şəxsiyyətlər haqqında yazmaq tarixin özü haqqında yazmaq qədər çətindir. Çünki böyük sənətkarlar, liderlər, filosoflar tarixin həm yaradıcıları, həm də dayaqları-

dır. Q.Paşayevin yazısını oxuyanda bir daha dərk edirəm ki, Səməd Vurğun bütöv bir poeziya epoxasının, poeziya tarixinin özüdür. Yaxud R.Rza oçerkindən bir daha anlaşılır: R.Rza çoxəsrlik Azərbaycan fəlsəfi poeziyasının duru bir bulağıdır. O, poeziyamızdan, fəlsəfi poeziyadan poetik fəlsəfəyə gəlib.

Mütəxəssislərə məlumdur ki, bu iki epoxal şəxsiyyət XX əsr Azərbaycan şeirinin əsas təmayüllərinə başçılıq ediblər. S.Vurğun (M.Müşfiqlə birlikdə) lirik-romantik, R.Rza isə fəlsəfi-intellektual poeziya təmayülünün baneyi-karı olmuşlar.

XX əsrin böyük türk alimi, fenomenal insan, bütöv şəxsiyyət İhsan Doğramacıya həsr olunmuş yazı canlı portretini yaratmaqla bahəm, həm də Qəzənfər müəllimin könül yelkənlərini açıb türkçülük ümmanında üzdüyündən xəbər verir.

Başlıcası isə müəllif hər bir şəxsiyyət haqqında yazarkən onun xatirəsini əbədiləşdirən əsas xüsusiyyəti qabardır, təqdimatda ön plana çıxarır. Məsələn, AMEA-nın müxbir üzvü Abbas Zamanov «Abbas müəllimi anarkən», akademik Məmmədağa Şirəliyev «Türkologiya elmimizin patriarxı», görkəmli jurnalist Nəsir İmanquliyev «Nəcabətli adam», AMEA-nın müxbir üzvü Yaşar Qarayev «Ədəbiyyatşünaslıq elmimizin iftixarı», xalq yazıçısı Əzizə Cəfərzadə «Son şəkil», şair Qasım Qasımzadə «Həlim xasiyyətli, dağ vüqarlı» və s. kimi adlarla anılır.

Bu kitaba daxil olan yazılar müxtəlif illərdə qələmə alınsa da, onların hamısını qəmli bir «…ölümündən sonra» fəryadı birləşdirir. Böyük iqtisadçı və filosof K.Marksın belə bir məşhur fikri var: «Ölüm ölənlər üçün yox, qalanlar üçün faciədir». Müəllif bax, məhz bu faciələrin bir insanın, dostun, yoldaşın – Qəzənfər Paşayevin qəlbində doğurduğu kədərli və işıqlı məqamları qələmə alıb. Kitabda bu kədərli və işıqlı məqamların fokusunda XX əsr Azərbaycan ədəbiyyatının parlaq simaları Nigar Rəfibəylinin, Hüseyn Arifin, Tofiq Bayramın, Fərman

Kərimzadənin, İsi Məlikzadənin, Vilayət Rüstəmzadənin, Vladimir Qafarovun, Rasim Kərimlinin obrazları aydın görünür.

Qəzənfər Paşayev hələ XX əsrin 70-ci illərində, totalitar sovet rejiminin gəlhagəl vaxtı «Altı il Dəclə-Fərat sahillərində» kitabı ilə əhalisinin çoxu qan qardaşlarımızdan ibarət olan İraqı Azərbaycana gətirdi, fantastik tirajla çap olunmuş bu əsəri o zaman Azərbaycanda oxumamış adam qalmadı. Onun böyük türkçü və azərbaycançı, xalq şairi Rəsul Rza ilə birlikdə çap etdirdiyi «Kərkük bayatıları» (1968), «Kərkük mahnıları» (1978), «Kərkük tapmacaları» (1984), «Kərkük folkloru antologiyası» (1987)… nəhayət, «İraq-Kərkük folkloru» (1992), «İraq-türkman folkloru» (1995, Bağdad, 1998, İstanbul, 2008, Tehran), «Kərkük dialektinin fonetikası» (2003), «Kərkük folklorunun janrları» (2003), «Nəsimi haqqında araşdırmalar» kimi fundamental elmi monoqrafiyaları Qəzənfər Paşayevi dünyada şərqşünas və folklorşünas kimi tanıtmış əsərlərdir. Bu kitabında da həssas və diqqətli alim Əbdüllətif Bəndəroğlu, Sinan Səid, müğənni Əbdülvahid Kuzəçioğlu haqqında qələmə aldığı kövrək oçerklərlə başı bəlalı İraqa, onun müharibəyə düçar olmuş xalqına, bu elin ədəbiyyat və sənətinə məhəbbətini ifadə edir. Bizim İraqa, onun mərd xalqına olan sevgimizi korşalmağa qoymur.

«Borcumuzdur bu ehtiram» kitabında el ağsaqqalı Tofiq Bağırova, kimyaçı alim, professor Rafiq Ələkbərova həsr olunmuş mənalı oçerklər də yer alıb. Q.Paşayev aşıq sənətinin yuva bağladığı Tovuzda dünyaya gəlib, onun beşiyini də saz yırğalayıb, laylası ilahidən enib sazın simlərindən süzülüb qəlbinə dolub. Qüdrətli aşıq sənətimizə, saza-sözə məhəbbət folklorçu alimin bu kitaba daxil etdiyi Mikayıl Azaflıya, onun dünyadan vaxtsız köçmüş nəğməkar qızı Dilarə Azaflıya, Aşıq Əkbər Cəfərova həsr olunmuş yazılarının da leytmotivini, başlıca qayəsini təşkil edir. Bu oçerklərdə aşıq sənətindən, «Yanıq

Kərəm»dən süzülüb-düzülüb gələn bir həsrət, bir yanğı var. Qəzənfər müəllimin ürəyindən od alan bu yanğı hər bir oxucunun qəlbində yuva bağlayacaq. 78 yaşında heç bir xəstəlik görmədən dünyasını dəyişmiş atam Şəmsəddin deyərdi: «Ölüm allah əmridir!» və sonra Aşıq Alının bu bəndini deyərdi:

Ölüm haqdı, çıxmaq olmaz əmrdən,
İpək tora həlqə salma dəmirdən.
Aydı-gündü gəlir, gedir ömürdən,
Tələsirik, görən yaza nə qaldı?

Qəzənfər Paşayevin kitabı ömrünü xalq, millət, elm, mədəniyyət və dövlət yolunda fədakarlıqlara həsr edib, bu dünyadan ləyaqətlə köçənlərə həsr olunub. Və bu dəyərli kitabın bir məziyyəti də ondadır ki, kitabın müəllifi bu dünyada qalib gedənlər haqqında yazmağa mənəvi haqqı olan insandır.

Rəhmətlik xalq şairi Cabir Novruz deyirdi:

Sağlığında qiymət verin insanlara,
Sağlığında yaxşılara yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara.

Qəzənfər Paşayev həm sağlığında, həm də yoxluğunda insanlara qiymət verməyi bacaran xeyirxah Allah bəndəsidir. Onda şamanlara məxsus bir tizfəhmlik, sufilərə xas bir dünya tamahsızlığı var.

Xalq şairi Fikrət Qocanın bir şeiri var. Məzmunu belədir: Baba ilə nəvə bir ağsaqqalı dəfn edib, qəbiristanlıqdan evə qayıdırlar. Nəvə soruşur:

– Baba, ölən kişilər hara gedir?

Baba deyir:

– Oğul, ölən kişiləri gələcək günlərin bünövrəsinə qoyuruq. Qəzənfər Paşayevin «Borcumuzdur bu ehtiram» kitabının

qəhrəmanları da bu xalqın, ulu millətin, bu dövlətin müstəqil Azərbaycanın gələcək, daha gözəl günlərinin bünövrəsinə qoyduğu ağırtaxtalı kişilər, vətənə, millətə öz tələbi, ən nəcib duyğuları ilə xidmət etmiş ziyalı və zadəgan xanımlardır.

Bu kitabda adı keçən insanların hər biri övladlara, nəsillərə tükənməz örnəkdir. İllər keçəcək, Qəzənfər Paşayevin kitabı öz qəhrəmanları ilə birlikdə yeni nəsillər üçün mənalı bir dərsliyə, şəxsiyyətlər haqqında ensiklopediyaya çevriləcək, üzərindəki imzanı nəsillərin yaddaşına həkk edəcək.

Nizaməddin Şəmsizadə
filologiya elmləri doktoru, professor

XİLASKAR*

Xalqa bir bəla, faciə üz verəndə Böyük Yaradan onu xilas etmək üçün tarixi şəxsiyyətlər, xilaskarlar göndərir. Onlar ilahi qüdrət və nurla göndərilir, xalqın yoluna işıq saçır, qurtuluş yolunu göstərirlər. Heydər Əliyev belə şəxsiyyətlərdən idi. O, böyük siyasətçi idi. Siyasət isə elektrik cərəyanına bənzəyir. Hər ikisində bircə səhv, bircə diqqətsizlik ağır nəticələr verir. Otuz ildən artıq Azərbaycana rəhbərlik edən Heydər Əliyevin daxili və xarici siyasətdə nəzərə çarpacaq bir səhvə yol verməməsi onun dahiliyinə dəlalət edir. Heydər Əliyev Azərbaycan reallığında böyük hadisə, bir epoxadır. Heydər Əliyev bir fenomen idi. Onu sahilsiz bir ümmana bənzətmək olar. Azərbaycan xalqı qarşısında Heydər Əliyevin xidmətləri ölçüyəgəlməzdir.

Onun bütün xidmətlərini bir yana qoysaq, təkcə XX əsrin 90-cı illərində xalqı vətəndaş qarşıdurmasından, dövləti parçalanmaqdan xilas etməsi böyük tarixi hadisə idi.

---

* Bax: «Vəfa» jurnalı, xüsusi buraxılış, 2004, s.39.

Mənə qalırsa, onun ən böyük xidməti bir çox Afrika və Asiya ölkələrində baş verən daxili çaxnaşmalar, çevrilişlər nəticəsində dövlətin dayaqlarının laxladılması, oyuncaq dövlətə çevrilməsi kimi çox qorxulu halın Azərbaycanda baş verməsinin qarşısını müdrikliklə alması olmuşdur. Heydər Əliyevi ən uca dağ zirvəsinə bənzətmək olar. Aralandıqca onun möhtəşəmliyini hamı görəcək. Bununla bağlı çox ciddi bir məsələyə də toxunmaq istərdim. Bəzi istisnalarla Heydər Əliyev haqqında tələm-tələsik yazılmış kitablar meydana gəlib. Onun haqqında fundamental əsərlər, tədqiqat işləri təfəkkür sahibi olan tədqiqatçılarını gözləyir. Heydər Əliyev yaradıcı adamlara, elmimizə, ədəbiyyatımıza, incəsənətimizə, ümumiyyətlə, mədəniyyətimizə böyük qayğı göstərirdi. Özü yaradıcı adam idi. Müsahiblərinə çox maraq və diqqətlə qulaq asardı.

Yaxşı yadımdadır, 2000-ci ildə Lökbatanda cənab İlham Əliyevin təşəbbüsü ilə Qarabağ şəhid ailələri və əlilləri üçün tikilmiş ilk binanın açılışında çıxışımı necə diqqətlə dinləyirdi.

Nədənsə, Heydər Əliyev deyəndə mənim gözlərimin önünə Atatürk, Atatürk deyəndə Heydər Əliyev gəlir. Onların gördüyü tarixi işlərin miqyasında da, özlərində də, gözlərində də bir oxşarlıq vardı.

Heydər Əliyev itkisi xalqımız üçün böyük itkidir. Nə edəsən ki, öndərimizin də çox sevdiyi Səməd Vurğunun dediyi kimi, «sehrli bir aləm olan, bir yandan boşalıb, bir yandan dolan» fani dünyanın öz qanunları vardır. Təsəllini onda tapırıq ki, dövlətçiliyimiz Heydər Əliyevin sayəsində möhkəm özül üzərində bərqərar olub. Qatar sürət götürüb. Sükan arxasında Heydər Əliyevin irsini və kursunu ləyaqətlə davam etdirən layiqli oğlu, Prezidentimiz İlham Əliyev durur.

Burada bir arzumu da bildirmək istərdim. Şübhə yoxdur ki, qədirbilən xalqımız böyük insan Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün təkliflər irəli sürəcəkdir. Mən bir ziyalı kimi arzu edərdim ki, Dağüstü parkın ən yüksək yerində onun əzəmətli heykəli ucaldılsın. Bu, hamımızın ürəyindən olardı.

Allah xilaskarımıza rəhmət eləsin!

SƏMƏD VURĞUNUN DÜNYA ŞÖHRƏTİ*



Səməd Vurğun öz xalqının oyanışına, milli dirçəlişinə xidmət edibdir. S.Vurğun o vaxt bizim hamımız üçün nümunə – xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlilikdə nümunə idi.

Heydər Əliyev

Böyük sənətkarlar, xüsusən də S.Vurğun kimi nadir istedadlar üçün zaman və məkan anlayışı yoxdur. Dünya durduqca zaman belə istedadları yaşadır və aləmə tanıdır. Mən bunu 1983-cü ilin iyun-avqust aylarında ABŞ-ın Arizona universitetində ədəbiyyatçı professorlar Sesil Robinson və Ciin Faustun biz sovet pedaqoqları ilə ilk tanışlıq, daha doğrusu yoxlama söhbətinə dəvət olunanda bir daha dərindən duydum. Prof. Robinson Azərbaycandan olduğumu biləndə ya qəsdən məni yoxlamaq üçün, ya da ədəbiyyatçı olduğundan ingiliscə şeir oxudu və soruşdu: Bu kimin şeiridir?

Sualına cavab vermək əvəzinə şeiri azərbaycanca oxudum:

O, kürsüyə sinə gərdi. Danışmadı, susdu bir dəm.
Çatıb qara qaşlarını fikrə getdi o bir anlıq.

---

* Bax: «Azərbaycan gəncləri» qəz., 20.05.1966; «Altı il Dəclə-Fərat sahillərində», Bakı, 1985, səh. 74–75; «Ədəbiyyat qəzeti», 18.09.2009

Şeirin bir kupletini qurtaranda prof. Ciin Faust (o, on ilə qədər Türkiyədə – İncirlikdə işləmişdi. Türk dilini gözəl bilirdi) dedi: «Prof. Robinson, Dr. Paşayev Sizin dediyiniz şeirin tərcüməsini türkcə əzbərdən deyir».

Üzr istəyib, hörmətli professorun dediyinə düzəliş etdim: «Mən poemanı yazıldığı Azərbaycan dilində oxuyuram».

Səməd Vurğun mənim başımı nəinki sovet alimlərinin, eləcə də Amerika alimlərinin yanında uca etdi. Bu dəfə mən sual verdim:

– Professor, «Zəncinin arzuları» poemasını haradan oxuyub və əzbərləyibsiniz?

O, şairimizin «Azərbaycan» şeirindən də bir parça əzbər dedi və əlavə etdi:

– Bizim kitabxanada ingiliscə «Azərbaycan poeziyası antologiyası» vardır. Orada şairin «Azərbaycan» şeirilə bərabər, «Moskva», «Zəncinin arzuları» poemasından parça, «Karl Marksın məzarı önündə», «London qarısı», «Ananın öyüdü» və «Reystax» şeirləri də vardır. Çox yaxşı şeirlərdir. Mən təəssüflə bildirdim ki, həmin şeirlər arasında dünya poeziya inciləri sırasında duran «Mən tələsmirəm», «Tək məzar» və «Şair, nə tez qocaldın sən» yer almayıb.

Mən özümlə ABŞ-a apardığım, 1973-cü ildə Moskvada ingiliscə çıxan, çox böyük həcmli «Azərbaycan ədəbiyyatı antologiyası» kitabının bir nüsxəsini prof. Robinsona, bir nüsxəsini prof. Fausta (və sonralar bir nüsxəsini Arizona universitetinin kitabxanasına) verdim.

Səhərisi gün Arizona Universitetinin beşmərtəbəli kitabxanasında «Azərbaycanşünaslıq» bölməsinin olduğunu ayırd etdim və sevindim. Özüm üçün bir daha «kəşf» etdim ki, ədəbi əlaqələr üçün heç bir sərhəd yoxdur, o cümlədən də S.Vurğun kimi dahilər üçün.

S.Vurğunu İngiltərədə də yaxşı tanıyırlar. Biz bir saatdan artıqdır ki, şairin ev muzeyi ilə tanış oluruq. Burada şairin hələ 1947-ci ildə Londonda çap olunmuş əsərlərinə də rast gəlinir.

Səməd Vurğunun məzarı önündə
Soldan: Şairin qızı Aybəniz Vəkilova və
Qəzənfər Paşayev

Səməd Vurğunu bütün ölkələrdə tanıyırlar. Lui Araqon elə belə deməmişdir: «Səməd Vurğun müasir dünya və Sovet ədəbiyyatının iftixarıdır».

Təəssüf ki, bu həqiqi qiymətə baxmayaraq, zaman-zaman Azərbaycanın əbədiyaşar şairi Səməd Vurğuna həsəd aparanlar, ara-sıra bostanına daş atanlar da olmuşdur. Onların arasında şairin oğlu Vaqif Səmədoğlunu görmək ağırdır. Bir neçə il bundan öncə tək bircə sayı çıxan «Ruh» qəzetində oxuyanda və 2011-ci ilin avqust ayının sonlarında Vaqif Səmədoğlunun müqayisəyə gəlməyən müqayisəsini eşidəndə qulağıma inanmadım. Məlum oldu ki, o, Səməd Vurğunu XIX əsrin, özünü, Ramiz Rövşəni və Vaqif Bayatlını XX əsrin şairi hesab edir. Hər üç şairin yaradıcılığına hörmətim var. Lakin Vaqif Səmədoğlunun ağlasığmayan mühakiməsi ilə razılaşmaq ağaqara demək olardı.

Zaman göstərir ki, Səməd Vurğun bugünün və sabahın şairidir. O, 60 ilə yaxındır ki, dünyasını dəyişib. Lakin elə gün az olur ki, kütləvi informasiya vasitələrində sevimli şairimizdən söz açılmasın. Qələm sahiblərinə məsləhətim budur ki, xalqın qəlbində əbədi məskən salan, bütün xalqın mənəvi dəyərinə çevrilən Səməd Vurğun kimi şəxsiyyətlərdən danışanda sözlərinin fərqinə varsınlar, yoxsa gözdən düşərlər...

Şairimizi İraqda da tanıyır və sevirlər. Xüsusən də ölkənin şimalında yaşayan, sayı iki milyondan çox olan, böyük Füzulimizin nəvə-nəticələri – İraqda yaşayan və indi türkman adlandırılan azərbaycanlılar.

Təbii ki, onlar Azərbaycan ədəbiyyatına, Azərbaycan musiqisinə, ümumiyyətlə, Azərbaycan mədəniyyətinə böyük maraq göstərirlər. Təkcə onu demək kifayətdir ki, «Azərbaycan», «Füzuli» və «Çağdaş Azərbaycan» şeirindən seçmələr» son bir neçə ildə İraqda çap olunmuşdur. Onların ədəbi jurnalları «Qardaşlıq»da Səməd Vurğun yaradıcılığına geniş yer verilir. Yadımdadır 1973-cü ildə «Qardaşlıq» jurnalında (may–iyun nömrəsində) Qabilin Nəsimi poeması haqqında yazımı çap etdirəndə S.Vurğun haqqında yazmağımı xahiş etdilər. Jurnalın iyul-avqust nömrəsində vüqarımız, fəxrimiz S.Vurğun haqqında geniş yazı verildi və «Azərbaycan» şeiri çap olundu.

Səməd Vurğuna onlarda da böyük məhəbbət olduğunu hələ 1964-66-cı illərdə İraqa ikinci səfərimdən bilirdim. 1966-cı il aprelin 1-də axşamüstü Kərkükdə «Qızıl Arslan» mehmanxanasında oturub söhbət edirdik. Toplaşanlar arasında məşhur müğənni Əbdülvahid Kuzəçi oğlu, Böyük Hafiz oğlu Nurəddin, Mövlud Taha Qayaçı, Əhməd Otraqçı oğlu və başqaları vardı. Söhbət ədəbiyyatdan, musiqidən düşdü. Hafiz oğlu Nurəddin dedi: «Biz Azərbaycan musiqisini, Azərbaycan ədəbiyyatını çox sevirix. Əli Əkbər Sabir və Səməd Vurğunu əzbər billix. Hər vaxt Baku radiosunu dinnirix. Çünki dilimiz birdi. Heç fərq etməz. Bəzi şivə fərqləri var».

Doğrusu, elə güman etdim ki, Kərküklü qardaşım mənim könlümü xoş etmək üçün belə deyir. Tezliklə səhvimi başa düşdüm. Onlar xorla S.Vurğunun «Azərbaycan» və «Gülə-gülə» mahnılarını bizdə olduğu kimi, sonra isə «Gülə-gülə»ni məni valeh edən başqa tərzdə oxudular. Məlum oldu ki, Ə.Kuzəçi oğlu şeirə musiqi bəstələmiş və həmin ildə, yəni 1966-cı ildə çıxan «Kuzəçi oğlunun Xoyrat və bəstələri» kitabına (səh.52) daxil etmişdir. Yeri gəlmişkən, Kuzəçi oğlunun bu mahnısını sonralar türk müğənniləri də oxumağa başladılar. Elə oradaca mahnını lentə aldım. Əziz xatirə kimi saxla-

dığım lenti və «Qardaşlıq» jurnalının S.Vurğundan bəhs edən nömrəsini şairin Ev muzeyinə təqdim edirəm.

Şeirdə bir-iki xırda dəyişiklik olduğunu qeyd etdim «Dedim bizə dost olaydın» – əvəzinə «Dedim mənə yar olaydın», axırıncı bənddə:

Gəldi tərlan ömrümüzün
Səhər vaxtı gülə-gülə əvəzinə
Gəldi bahar ömrümüzün
Səhər vaxtı gülə-gülə – oxudunuz dedim.

Hiss etdim ki, şeiri əzbər bildiyimə təəccübləndilər. Mən mahnını onlarla oxumadığıma görə güman ediblərmiş ki, şeiri əzbər bilmirəm. Zarafatla dedim:

– Baba (bu, onlarda müraciət formasıdır), S.Vurğun sizin şairdir, yoxsa bizim?!

– Fərqi yox, baba. O, həm sizin, həm də bizimdir – Əhməd Otraqçı oğlu dedi və S.Vurğuna həsr etdiyi şeiri avazla oxudu:

Bu sular durğun-durğun,
Mən səni gördüm yorğun.
Kərkükdən salam olsun,
Tək şair Səməd Vurğun.

Əhməd Otraqçı oğlu şeiri S.Vurğunun ona bağışladığım «Seçilmiş əsərləri»ndəki ağsaçlı, yorğun-yorğun baxan şəkilinin təsiri altında yazmışdı.

Həmin görüşdən bir ay sonra vətənə döndüm və həmin görüşün təsiri altında mətbuatda ilk dəfə olaraq «Könüldən könülə yollar görünür» adlı məqalə yazdım. «Azərbaycan gəncləri» qəzetinin xüsusi səhifəsində Səməd Vurğuna həsr etdiyim ilk məqaləm çap olundu (20 may, 1966). Sevinir və fəxr edirəm ki, xalqımın Səməd Vurğun kimi şair oğlu var.

İKİ ZİRVƏDƏN BİRİ*

Keçən əsrin 50-ci illərinin ikinci yarısı idi. Elmə, təhsilə, ədəbiyyata, musiqiyə sözlə deyilməyəcək bir yanğı, həvəs vardı. İnsanlar böyük intizarla bazar gününü gözləyər, radioda bir saatlıq muğamat konsertinə qulaq asardılar. Biz tələbələrin günü, demək olar ki, kitabxanalarda keçərdi. Tez-tez yazıçı və şairlərdən söz açar, mübahisələr edərdik. Mübahisəmiz ən çox da iki şair ətrafında olardı. Kimi S.Vurğuna, kimi isə R.Rzaya üstünlük verərdi. Qızğın mübahisələrimiz bəzən münaqişəyə səbəb olardı.

Bəs niyə məhz çağdaşımız olan bu iki şair haqqında fikir yürüdürdük? Sonralar başa düşdüm ki, mübahisəmiz ümummilli liderimiz Heydər Əliyevin göstərdiyi kimi, Azərbaycan sovet poeziyasının baniləri olan iki zirvə, poeziyamızın iki görkəmli siması ətrafında gedirmiş. Bunu Rəsul Rzanın S.Vurğunu Nəsimi, Füzuli, Vaqif və Sabirdən sonra Azərbaycanın ən görkəmli şairi kimi qiymətləndirməsində və Rəsul Rza ilə bağlı «Məlik Cövdət Andayın «Sovetlər Birliyi gəzisi» yol qeydlərindən də görmək olur:

Moskvaya vardığımız gün sormuşdum:

– Sovetlər Birliyinin indi ən məşhur şairi kimdir?

Bir az düşündükdən sonra:

– Rəsul Rza – demişdilər.

---

* Bax: «Kommunist» qəz., 18.05.1990; Rəsul Rza. «Ağlayan çox, gülən hanı?» kitabı, «Gənclik», 2007, səh. 5–14 (tərtib edəni prof. Q.Paşayev); «Azərbaycan» qəz., 20.02.2009

Rəsul Rzanın məzarı önündə
Soldan: Q.Paşayev, Ə.Bəndəroğlu və A.Vəfalı, 2007

Mənsə Yevtuşenkonun, Voznesenskinin adının çəkiləcəyini sanmışdım.

– Başqa?

– Rəsul Həmzət.

– O kim?

– Dağıstanlı bir ozan.

Romançıları soruşaq dedim:

– Ən məşhur romançınız?

– Çingiz Aytmatov.

Bizcə, bu şərhə, bəyana sığmayan, qürur hissi doğuran bir etirafdır. Bu etiraf ətrafında fikir yürütmək, həyatı boyu əksər məqamlarda birinci olan Rəsul müəllim haqqında yazmaq şirnikləndirici görünsə də asan iş deyil.

Sovet dönəmində – Sovetlər İttifaqında yaşayan türkdilli xalqların milli şüurunun oyanışında misilsiz xidmətlər göstərən görkəmli türk şairi Nazim Hikmətin «hikmət dolu şeirləri ilə filosof, böyük fikir və zəka şairi» adlandırdığı Rəsul Rza-

nın istər poeziyasında, istərsə də publisistikasında fikirlər o qədər dərin, təsirli, mənalı və təzədir ki, onun cazibəsindən çıxıb meydan açmaq həqiqətdən də çətindir. Özgə bir yöndən də istər ölkə daxilində, istərsə də onun hüdudları xaricində, sadalayanda adları 3–4 səhifəyə sığmayan elm, sənət bahadırlarının Rəsul Rzaya həsr olunan çoxsaylı məqalə və monoqrafiyaları, doktorluq və namizədlik dissertasiyaları, ithafları göz önünə gəlir. Tərəddüd içində qovrulur, yazdıqlarım ona layiq olacaqmı? – deyə düşünürsən.

Bir də kim bilmir ki, vətən qarşısında xidmətlərinə görə əməkdar incəsənt xadimi, Azərbaycanın Xalq şairi, SSRİ Dövlət mükafatı lauratı, Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri adlara layiq görülən şair, müxtəlif illərdə Azərbaycan Dövlət Filarmoniyasının müdiri, Azərbaycan Sovet Yazıçılar İttifaqının sədri, Azərbaycan SSR Kinematoqrafiya naziri, ağır zəhmət tələb edən, hadisə olan ilk Ensiklopediyamızın ilk baş redaktoru və s. kimi məsul vəzifələrdə çalışmış, xalq məhəbbəti, nüfuz qazanmışdı.

Azərbaycanda sərbəst şeirin əsasını qoyan, onun carçısı və hamisi, «Sərbəst şeir məktəbi»nin banisi də Rəsul Rza olmuşdur.

Suriyada Nəsiminin qəbrini aşkar edən və ilk ziyarət edən, İraqda Füzulinin qəbrini ilk ziyarət edən (B.Vahabzadə və Q.Qasımzadə ilə birgə), onlar haqqında yeni söz deyən, Füzulinin ölməz «Leyli və Məcnun»unu, təkrarolunmaz qəzəllərini dili dilindən, dərdi dərdindən, sevinci, arzusu, həsrəti onunla bir olan doğma xalqının – azərbaycanlıların; yəni İraq türkmanlarının əhatəsində, onlar və bizlər üçün yazdığından ilk dəfə söz açan da Rəsul Rza olmuşdur.

Lakin şairin titanik zəhmət bahasına əldə etdiyi uğurları, şan-şöhrəti artıqca ona həsəd aparanların, qibtə edənlərin də sayı artırdı. Rəsul Rzanın poeziyamıza yeni ab-hava gətirməsi, «Sərbəst şeir məktəbi» yaratması çoxlarının ürəyinə yat-

mır, şairi ruhdan salmağa çalışırdılar. O, isə bədxahlarının arzusuna xilaf çıxaraq gecəni gündüzə qatıb işləyirdi. Həqiqət naminə deyək ki, şairi dəstəkləyənlər də az deyildi. Poeziya məsələlərində güzəştə getməyən, həmişə həqiqətin tərəfində olan Bəxtiyar Vahabzadə belələrindən idi:

Ey Rəsul, sən haqlısan,
Çünki sən öz əsrinə
Daha artıq bağlısan.
Sənət gülüstanına
Qədəm basandan bəri,
O köhnə ölçüləri
Cəsarətlə sən atdın.
«Məna, məna» – demədən,
Sən mənalar yaratdın!

ÖMRÜM SƏNSİZ OLMASIN*

Həyatının bir çox illərində, xüsusən də repressiya illərində Rəsul Rzanın ən zəif yeri – müdafiəsi çətin olan yeri repressiyaya məruz qalmış bir nəslin qızı ilə evlənməsi idi. Şair repressiyanın şiddətlənən çağında – 1937-ci ilin fevralında evlənmişdi. Çətinliklərə baxmayaraq, bu ona başucalığı gətirmiş, ictimaiyyət arasında onun qorxmazlığı, cəsarəti, mərdliyi barədə fikir formalaşmışdı.

Bu baxımdan, şairin ömür-gün yoldaşı, Nigar xanımın repressiyaya məruz qalmış başqa bir nəslin nümayəndəsi Nəzakət xanım Ağazadəyə ünvanladığı şeiri səciyyəvidir:

---

* Əli – Prof. Nəzakət xanım Ağazadənin həyat yoldaşı AMEA-nın müxbir üzvü Əliheydər Orucov nəzərdə tutulur.

… Nə ata çörəyi yedik,
nə gördük qardaş sovqatı…
Qamçıladı bizi acı-acı
Sərt üzlü yetimlik həyatı…
…Ömrün çətin yollarında
bizə yar oldu, Əli , Rəsul.
Onlar açıq ürəkli,
qaynar məhəbbətli
gənclər idi.
O zamanlar bizimlə
ünsiyyət bağlamaq
Sadə sevgi deyil,
böyük hünər idi.

Rəsul Rzanın mərdliyi, hünəri Nigar xanımın böyük ehtiramına səbəb olmuş, əbədi məhəbbətinə və sədaqətinə təkan vermiş, onun hisləri ölməz poeziya misralarına çevrilmişdi:

Sən olmasan, baharın,
yazın ətri olmazdı.
Sən olmasan bir dünya
Sevinc belə çox azdı.
Baharın çiçəkləri
açıb solmasın sənsiz.
Ömrüm sənsiz olmasın,
şerim olmasın sənsiz.

Kim bilir, bəlkə də, Nigar xanımın ailəyə bəxş etdiyi bu böyük məhəbbəti, vəfası və sədaqəti Rəsul Rzaya daha da qol-qanad vermiş, şairin böyük arzularla yaşamasına və yaratmasına gətirib çıxarmışdır.

AXTARIŞLAR

Rəsul Rzanın bütün fəaliyyəti, o cümlədən də Nəsimi ilə bağlı gördüyü işlər bir örnəkdir. Şairin Nəsiminin qəbrini axtarması, üzə çıxarması yolunda xidmətləri nəsimişünas alim Əliəjdər Seyidzadənin şairə ünvanladığı bir məktubdan aydın görünür. Şairin oğlu, hörmətli Anar müəllimdən əldə etdiyimiz məktubda alim yazır:

«Çox hörmətli Rəsul Rza yoldaş,

Mən bilirəm ki, siz mənsiz də «Bakı» qəzetini oxuyursunuz. Ancaq mən hər halda özümə borc bilirəm ki, Nəsimi haqqında nə yerdə, nə yazsam, sizə ondan bir nüsxə təqdim edim. «Ədəbiyyat qəzeti»nə də bir şey vermək istəyirəm. Elmi məzuniyyətdən qayıtdım. Nəsimi haqqında Qərbi Avropa dillərində XVI əsrdə çap olunmuş üç kitab mənə məlum idi. Məzuniyyətdə daha üç kitab tapmışam. Onlardan ikisi yenə də XVI əsrdə Qərbi Avropa dillərində çap olunmuşdur. Hamısında qəbir məsələsi var. Üçüncüsü isə rus dünya səyyahı Fedoseyevdir. Bu müəllifdə qəbir məsələsi ayrıca qeyd edilməyir, lakin rəssam çəkən şəkildə «qələ» (qala – Q.P.) vardır və qəbirlər də göstərilmişdir…»

Lakin bu faktlar Rəsul müəllimə hələlik ümid və gümandan daha çox nigarançılıq gətirirdi. Hələbə yola düşməzdən əvvəl akademik Həmid Araslı ona ürək-dirək verərək: «Nəsiminin qəbri Hələbdə olmalıdır. Siz yəqin onu görəcəksiniz» – demişdi.

Şair ürəyində fikirləşmişdi ki, kafirlikdə suçlu bilinən Nəsimini hansı cəsarətlə dəfn edib saxlaya bilərdilər. On dörd gün Suriyanı eninə-uzununa gəzib, nəhayət ki, Hələbə gəlib çıxmışdılar. Şair həyatının ən unudulmaz səhifəsi kimi Hələb qubernatoru ilə görüşü belə xatırlayır: «Qubernator bizi qarşıladı, yer göstərdi, oturduq. O da oturdu. İlk tanışlıqdan sonra sual-cavab başladı. Sualların əksəriyyəti bu əyalətin iqtisadiyyatına aid idi. Nəhayət, qubernatora müraciətlə dedim:

– Hörmətinizə görə sağ olun! İcazə versəniz sizdən bir xahiş edərdim.

– Buyursunlar!

– XIV əsrin ikinci yarısında bu Hələb şəhərində bizim həmyerlimiz bir şair yaşayıb. Onun anadan olmasının 600 illiyi Sovetlər İttifaqında geniş bayram ediləcəkdir. Bu bayram YUNESKO xətti ilə bütün dünyada da təntənə ilə keçirilməli bir bayramdır. Əgər hörmətli qubernator İmadəddin Nəsimi adlı bir Azərbaycan şairi haqqında, onun qəbri, nəsli, əsərləri haqqında bir məlumat almaqda bizə mümkün olan köməyi göstərərsə, ona çox minnətdar olarıq.

Qubernator bir anlıq fikrə getdi, sonra öz köməkçilərindən birini çağırdı, ona nə isə dedi… 15–20 dəqiqə sonra xəbər gətirdilər ki, Nəsiminin qəbri Hələbdədir. İstəsəniz onu indicə ziyarət edə bilərsiniz. Bu xəbərdən qubernator özü də məmnun idi. Bizim isə uçmağa qanadımız yox idi».

Nəsiminin qəbrini ziyarət etdikdən sonra Rəsul müəllim birbaşa Hələb kitabxanasına getmiş, elm aləmi üçün çox gərəkli məlumat əldə etmişdi. «Hələb tarixinə dair materiallar» kitabının VII cildinin 144-cü səhifəsində yazılmışdır:

«820 hicri (1417 miladi). Bu ildə Hələb şəhərində yaşamış mürtəd Nəsimi öldürülmüşdür. O, hürufilərin şeyxi idi. Hələbdə yaşamış bu şeyxin tərəfdarları çox idi. Onun təriqət tərəfdarlarının artdığını görən Sultan (Misir sultanı Müəyyəd – Q.P.) əmr edir ki, onun boynu vurulsun, dərisi soyulsun və dar ağacından asılsın».

Bu fakt şairin müasirləri İbn Həcər əl-Əsləqani (1372–1449), Şəmsəddin Səxavi (1427–1497), Müvəffəqəddin Əhməd ibn İbrahim əl-Hələbi (XV əsr) və başqalarının əsərlərində də yer alıb.

Nəsiminin çağdaşı İbn Həcər əl-Əsləqani (1372–1449) «Ənba əl-ğumr biənba əl-ümr» – «Həyat oğulları haqqında dolğun bilgi» əsərində xüsusi vurğulamışdır: «Onun başını kəsib dərisini soydular və cəsədini çarmıxa çəkdilər».

Göründüyü kimi, Nəsiminin diri-diri dərisinin soyulduğunu iddia edənlər yanılırdılar.

Tarixi faktlara arxalanaraq Nəsiminin diri-diri dərisinin soyulmadığı fikrini də Azərbaycanda ilk olaraq Rəsul Rza söyləmişdir.

ŞAİRİN DUYĞULARININ İZİ İLƏ

Rəsul Rza Hələbə 1968-ci ilin noyabr ayında getmişdi. Biz də taledən gələn qismətdir ki, şairdən düz qırx il sonra Hələbə 2008-ci ilin noyabrında getmişdik. Fərq onda idi ki, Rəsul müəllim şairin qəbrini tapmaq ümidi ilə böyük istək və nigarançılıqla getmişdi. Biz isə onun izi ilə Nəsiminin qəbrini ziyarətə getmişdik. Onu da deyim ki, Rəsul Rzanın dahi şairimizin qəbrini üzə çıxarması təkcə Azərbaycanda deyil, Sovet İttifaqı ölkələri və Türkiyədə də rezonans doğurmuşdu.

Bu baxımdan, rus yazarı Sergey Borodinin şairə ünvanladığı məktubu maraq doğurur:

Əzizim Rəsul!

Keçən həftə mən Hələbdə Nəsiminin qəbri üstünə getmişdim və orda bu gözəl şairin məzarına sizin qoyduğunuz əklili gördüm. Nəsimi nəslindən olan şeyx həm əklili, həm də sizin ora gəlişiniz haqqında söhbətləri ən əziz bir xatirə kimi hifz eləyir. Bunu sizə böyük fərəh hissi ilə çatdırıram, çünki sələflər haqqında xoş xatirə xələflər haqqında xatirələri də möhkəmləndirir.

Teymurləngin Azərbaycana hücumu haqqında romanımın bir neçə səhifəsini həsr etdiyim şairin türbəsi önündə sizin adınızla bax beləcə rastlaşdım.

Ən xoş arzularla...

Sergey Borodin

Bağdad, 16 iyun, 1972

Rəsul Rzanın üzə çıxartdığı Nəsiminin əlyazma nüsxəsi, şairin qəbrinin, məqbərəsinin, məqbərənin həyətinin, Nəsimi küçəsinin 1968-ci ilin noyabrında Mürsəl Nəcəfov tərəfindən çəkilmiş rəsmləri, Rəsul Rzanın «Cahana sığmayan şairin qərib məzarı», «Böyük şair haqqında qeydlər», «Nəsiminin bir beyti haqqında» kimi məqalələri bu gün belə əhəmiyyətini itirməyən bir çox mətləblərdən söz açır.

Şairin 971 hicri (1564-cü il miladi) ilində əlyazmasının üzünü köçürüb bitirmiş katibin Nəsimini «Danışanların ən mahiri, bilik sahiblərinin və həqiqət axtaranların öndə gedəni» adlandırması göstərir ki, Nəsimi bəlağətli nitqi olan natiq, alim və məslək mücahidi olmuşdur. Rəsul Rzanın «Cahana sığmayan şairin qərib məzarı» məqaləsində möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüsü və göstərişi ilə şairin məzarının və ətrafının abadlaşdırılması ilə məşğul olan memar və bərpaçıların köməyinə çatacaq bir çox məqamlar vardır.

Rəsul Rzanın Nəsiminin qəbrini ziyarətindən keçən bu qırx il ərzində şairin qəbrinin üstü götürülüb, həyətdə indi çarhovuz görünmür və s. kimi bir çox dəyişikliklər vardır.

Şairin məqaləsində alimlərimizin izinə düşəcək məqamlar da az deyildir. Məsələn, şairin Nəsimi məqbərəsinin baxıcısı Hikmət Nəsimi ilə söhbəti, bəlkə də, illər boyu tədqiqatçıların axtardığı, lakin tapmaqda aciz olduqları cavablara bir aydınlıq gətirə bilər. Hikmət Nəsimidən soruşanda ki, şairin əlyazmalarından, kitablarından bir şey qalıbmı? O, atasından eşitdiyi bir məsələdən söz açıb. Məlum olub ki, 1968-ci ildən 60-70-il əvvəl Nəsiminin bir çox əlyazma və kitablarını kimlərsə Türkiyəyə aparıblar.

Dövrü ilə müxalifətdə olan, «ağalar-qullar dünyası»nın əksliklərinə qarşı çıxan Nəsiminin aqibəti işkəncəli ölüm olan qismət payı barədə, mənə qalırsa, ən təsirli məqalə Rəsul Rzanın «Cahana sığmayan şairin qərib məzarı» yazısıdır.

Şairin Nəsimi yaradıcılığı ilə bağlı dediyi «Bu möhtəşəm ədəbi-elmi abidənin gözəl, dəqiq, maraqlı və uzunömürlü ya-

ranmasında bir kərpic qoyanın da, yüz kərpic qoyanın da zəhməti hörmət və təqdirlə yad edilməlidir» kəlamı isə əslində, tarixi şəxsiyyətlərimizin yaradıcılığı ilə məşğul olan gənc tədqiqatçılara şairin vəsiyyəti və xeyir-duası kimi qiymət kəsb edir.

Rəsul Rza dünyanın bir çox ölkələrində olub. Hələ 1961-ci ildə Yuqoslaviyaya səfəri zamanı yazdığı «İnsan» şeirində göstərirdi: «İyirmi dörd ölkə gəzdim». Sovet sisteminin sərt qanunları yumşalmağa başlayandan sonra daha çox ölkələrdə olmuş (bizcə, Türkiyəni də ilk ziyarət edən Rəsul Rza olmuşdur), azərbaycanlı oxucuların səhih məlumata möhtac olduğu bir dövrdə yol qeydlərini yazmışdır. Lakin onun hər biri bir ömrə bərabər barlı-bəhrəli iki səfəri – Suriya və İraqa ziyarəti heç bir səfərlə müqayisəyə gəlməz. O, bu ölkələrə Azərbaycanın iki dahi şairinin – Nəsimi və Füzulinin görüşünə getmişdi.

FÜZULİNİ YETİRƏN MÜHİT

Rəsul Rza Füzulinin görüşünə daha əvvəl, 1959-cu ildə getmişdi. Kərbəlada dahi Füzulini ziyarət etdikdən sonra anlaşılmaz sevinc və duyğularla Kərkükdə Füzulinin nəvə-nəticələri ilə görüşmüşdür. Həqiqət naminə deyək ki, əsasən Kərkük vilayətində toplu halda yaşayan sayı 3 milyona yaxın türkmanları – azərbaycanlıları bizə ilk olaraq tanıdan da Rəsul Rza olmuşdur.

İraq–Türkman folklorunun heyrətamiz gücə malik, ölməz sənət əsərləri səviyyəsinə yüksələn xoyratları (bayatıları) şairə dərin təsir bağışlamış, nəticədə bütün Azərbaycanı, o cümlədən də Kərkük Türkman elini heyran edən, həyəcansız oxumaq mümkün olmayan «Uzaq ellərin yaxın töhfələri» adlı çox sanballı, dissertasiya səviyyəli əsəri meydana gəlmişdir. Əsərdə şairin hiss və həyəcanı təsvir olunan hissə xüsusilə təsirlidir: «Kərküklü tanışlarımız Həsən İzzət və Məhəmməd Xurşid bizi şəhərlə tanış etdilər. Bir kitab mağazasına girdik…

Qoca dükançı qəfəsdən götürüb mənə verdiyi kitabları – «Kərkük xoyrat və maniləri»nin üçcildliyini vərəqlədikcə daxili bir həyəcandan boğazım qəhərlənir, ürəyim quş kimi çırpınır, sinəmdən çıxmaq istəyirdi».

Rəsul Rzanın hissi, həyəcanı vətənə dönəndən sonra da öz axarına düşməmişdi. Görkəmli türk şairi Nazim Hikmət şairin sevinc dolu ovqatını müşahidə edərək yazırdı: «Ötən il Rəsul Rza İraqa getmişdi. Qayıdanda əlində bir kitab gördüm. Elə bil şair əlində öz ürəyini aparırdı. Azərbaycancaya çox, lap çox yaxın olan bu şeirlər İraq türkmanlarının xoyratları idi».

Xüsusi qeyd etməliyəm ki, Rəsul müəllimlə birgə hazırladığımız «Kərkük bayatıları» (Bakı, Azərnəşr, 1968) kitabı Bakıda çap olunana qədər Azərbaycanda bir çoxları bayatını vaxtı keçmiş janr hesab edirdilər. Xoşbəxtlikdən xoyratların Bakıda çapından sonra birdən-birə bayatılara münasibət tamamilə dəyişdi. Azərbaycanda sərbəst şeir məktəbinin yaradıcısı olan Rəsul Rza özü də xoyrat janrının vurğunlarından birinə, bəlkə də birincisinə çevrilmişdi. Xoyrat və manilərlə ilgili hələ 1961-ci ildə «Uzaq ellərin yaxın töhfələri» və «Aşıq Yanıqlı bayatıları» (1964) əsərləri yazan şair, 1980-ci ildə «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri» şeirlər toplusunu çap etdirdi. Bir daha təsdiq etdi ki, xalq yaradıcılığının, hətta ən qədim növü belə yeni dövrün fikrini ifadə etməkdə çox münasib forma olur.

Təsadüfi deyil ki, Rəsul Rza yazırdı: «Bugünkü sərbəst şeir, şübhəsiz, «Dədə Qorqud» dastanı, nağıllarımız, folklor nümunələrimizlə ilişkilidir».

Yaradıcılığının daha da müdrikləşdiyi, məşhur «Rənglər» silsiləsini yazdığı bir dövrdə və sonralar şairin bayatı janrına müraciəti bir daha təsdiq edir ki, ənənə Rəsul Rza kimi əsl sənətkarlar üçün təməldir. Büdrəməmək, yıxılmamaq üçün söykənəcəkdir, arxadır, xalqa bağlılıqdır. Şair haqqında zərgər dəqiqliyi ilə deyilmiş fikrin tutumuna fikir verin: «Şifahi xalq yaradıcılığı Rəsul Rza üçün elə ədəbi çeşmədir ki, oradan po-

eziyanın arteriya damarları ilə yeni obrazların həyatverici qanı axıb gəlir».

Şübhəsiz buna görədir ki, Rəsul Rzanın adı keçən hər üç əsəri nəinki Azərbaycanda, eləcə də İraq türkmanları arasında böyük əks-səda doğurdu, hadisəyə çevrildi.

Xüsusən də qüdrətli qələmin məhsulu, poetik sözün əsl nümunəsi olan «Uzaq ellərin yaxın töhfələri» əsəri.

Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, görkəmli folklorşünas alim Əta Tərzibaşı «Qardaşlıq» dərgisində böyük həcmli, dərin mənalı məqalə ilə çıxış etdi. Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, dəfələrlə ölkəmizi ziyarət edən, oxucularla «Ədəbiyyat qəzeti»ndə dərc edilən çox maraqlı «Dayı Mehdi» hekayəsi ilə tanış olan Mövlud Taha Qayaçı Rəsul müəllimə məktub ünvanladı: «Dəyərli ağabəyim, «Uzaq ellərin yaxın töhfələri» başlıqlı yazınızı oxurkən «Bir dərdlinin dərmanın o dərdə düşəndən sor» xoyratını xatırladım. Biz soydaşlarınıza göstərdiyiniz iyi duyğularınız üçün sizə bilməm minnətdarlığımızı nasıl bildirim?

Ağabəyim, rus hərfləri ilə türkcə oxumağı bu dəyərli yazınız sayəsində öyrəndiyimi bildirməliyəm. Könül dilər ki, daha böyük fayda vermək üçün onu yeni türk hərfləri ilə basdırasınız».

İllər keçdi, Mövlud Taha Qayaçının bir vaxt bizə əlçatmaz görünən arzusu yerinə yetdi – sovet sistemi çökdü, Azərbaycanda latın qrafikasına keçildi.

«Uzaq ellərin yaxın töhfələri», «Aşıq Yanıqlı bayatıları» və «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri» həm Azərbaycanda, həm də İraqda latın qrafikası ilə qədərincə çap olundu. Təəssüf ki, Rəsul müəllim bunları görmədi.

Yeri gəlmişkən, Dr. Ə.Bəndəroğlu ilə Rəsul Rzanın Kərkükdə çap etdirdiyimiz «Ağlayan çox, gülən hanı?» (Kərkük, 2007, 182 s.) kitabına «Uzaq ellərin yaxın töhfələri», «Aşıq Yanıqlı bayatıları» və «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri» şeirlər silsiləsini də daxil etdik. Elə kitabın

adı da şairin kərküklü qıza həsr etdiyi 8 bəndlik «Ağlama, gözəl, ağlama» şeirindən götürülmüşdür:

Ağlayan çox, gülən hanı?
Göz yaşını silən hanı?
Matəm tutub bu dünyanı
Ağlama, gözəl, ağlama!

Ölümünə bir il qalmış «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri» əsərini yazan (1980) Rəsul Rza sanki İraqın, xüsusən də Kərkükün bu gününü təsvir edib. Güman ki, şairlərdə olan hissiyyatla, duyumla gələcəkdə baş vercəkləri görmək qabiliyyətinə görədir ki, onları yer üzündə peyğəmbərlərin nümayəndələri hesab edirlər. Rəsul Rzanın timsalında bunu aydınca görürük. «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri» deyilənlərə dayaq olur:

Kərkükün baş qalası,
Divarı daş qalası.
Ölü ana yanında
Tökür qan-yaş balası.
Bağdaddan karvan gəlir,
Dərdli, pərişan gəlir.
Kimlər qurban kəsilib –
Sularım al-qan gəlir?

Atlarım,
İlxı-ilxı atlarım.
Bir çətin günə düşdüm
Ağladı xoyratlarım.
Bağdad qızıl, gümüşdü,
Bağdada yanğın düşdü.
Belə qara günləri
Bağdad haçaq görmüşdü?

Görülən işlər bəhrəsini verməyə başladı. Dostu İhsan Doğramacının xahişi ilə «Qardaşlıq» dərgisinə müsahibə verən öndərimiz Heydər Əliyev bəyan etdi:

«Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır» (Bax: «Qardaşlıq» dərgisi, №8, İstanbul, 2002, s. 4).

Ehtimal etmək olar ki, ümummilli liderimiz bu müsahibəni verəndə Rəsul Rza və bizim tədqiqatlarımızdan xəbərdar olmuşdur.

BAX, O BELƏ ŞAİR İDİ

Rəsul Rza İraqda, xüsusən də Kərkük ellərində çox sevilən şairlərdəndir. Təsadüfi deyildir ki, kərküklü müğənni və bəstəkar Əbdülvahid Küräçi oğlu şairin «Beşik nəğməsi» şeirinə nəğmə bəstələmiş, Həsən İzzət Çardaxlı isə həmin şeirə «Layla» adlı ayrıca məqalə həsr etmişdir:

– Layla məhəbbət bağçasından dərilən bir dəstə güldür. Solmaz, inciməz, incitməz.

Layla açılmayan tilsimli qapıları açan anaxtardır!

Sadəcə analar əlində cocuqları uyutmaq üçün sehrdir.

Layla cocuqla ana arasında qıldan incə, poladdan qüvvətli bağdır, gözlə görülməz, əl ilə tutulmaz, barmaqların ucu hiss eləməz bir bağ!

Əzəldən bəri axan bir sevgi qaynağıdır, qurumaz, axdıqca axar!..

Laylanı Rəsul Rza yazmışdır. O, 1910-cu ildə Azərbaycanın Göyçay rayonunda doğulmuşdur. İlk təhsilini Göyçayda almışdır. İlk şeiri 1927-ci ildə basılmışdır. Qırxdan artıq kitab yazmışdır. Kitablarının bir çoxu yabançı dillərə çevrilmişdir. Ərəbcəyə çevrilən xeyli şeiri vardır.

Bir çox önəmli vəzifələr görmüş, Azərbaycan Sovet Ensiklopediyasının Baş redaktoru olmuşdur. İraq və daha başqa ərəb ölkələrini ziyarət etmişdir. Sovetlər Birliyinin yüksək fikirli şairlərindən biri sayılır (Bax: «Yurd» qəzeti, 6.III.87).

Rəsul Rza dünyanın bir çox ölkələrində tanınan, kitabları və şeirləri çap olunan şairlərdəndir. Məsələn, Kanadada ən çox sevilən, şeirləri və bukletləri dönə-dönə çap olunan şairdir. Azərbaycanda çoxları bilmir ki, indi xalq mahnısı kimi tanınan nəğmələrin çoxunun sözləri Rəsul Rzaya məxsusdur.

Şairin poeziya nümunələrinə Tofiq Quliyev, Emin Sabitoğlu, Ələkbər Tağıyev, Süleyman Ələsgərov, Rauf Hacıyev, Polad Bülbüloğlu, Əbdülvahid Küräçioğlu və b. insanı valeh edən neçə-neçə mahnılar bəstələmişlər. Onların arasında «Üzüyümün qaşı firuzədəndir», «Ala gözlü yar», «Gilavar», «Axşam görüşləri», «Bəlkə, yarım gələr oldu», «Əhdimizə inan yar», «İnsaf da yaxşı şeydir» kimi Azərbaycan radiosunun qızıl fondunda yer alan unudulmaz mahnılar vardır.

Rəsul Rza şəxsiyyəti, ecazkar və heyrətamiz poeziyası o qədər güclü olmuşdur ki, istər doğma vətəndə, istərsə də onun hüdudlarından kənarda şairə neçə-neçə özünə layiq şeirlər həsr olunmuşdur və bu şeirlər şairin şəxsiyyətinə və poeziyasına bir güzgü tutur və şairin daha yaxşı tanınmasına, sevilməsinə və ehtiram göstərilməsinə kömək edir. Aleksey Markovun «Əzizim Rəsul» adlı şeirindən verdiyimiz sətirlərdə olduğu kimi:

Təravətli, odlu şerin
Yarıb keçir sərt illəri.
Köks ötürüb bir vaxt yəqin,
Deyəcəklər: «Rəsul Rza –
Bu ilhama qadir idi.
Bax, o belə şair idi!»

Və nəhayət, Rəsul Rzanın məhsuldar yaradıcılıq yolunu izlədikcə ixtiyarsız düşünürsən ki, istər sağlığında, istərsə də qoyub getdiyi irsi ilə əsl şairlər həmişə xalqın görən gözü, döyünən ürəyi, vuran nəbzi məqamında dururlar.

SAĞLIĞINDA HEYKƏLLƏRİ UCALDILAN FENOMEN İNSAN

Türk dünyasının iftixarlarından biri – İhsan Doğramacının anadan olmasının 93-cü il şənliklərində ailəlikcə iştirak etmək üçün dəvət alanda xəyal məni ağuşuna alıb bir neçə il əvvələ – 1995-ci ilə apardı. Prezidentimiz Heydər Əliyevin təşəbbüsü ilə İhsan Doğramacının 80 illik yubileyi dövlət səviyyəsində keçiriləcəkdi. Burada xüsusi qeyd etməliyəm ki, bu iki tarixi şəxsiyyətə xas olan qurub-yaratmaq eşqi, iti ağıl, zəka, təfəkkür, pərəstiş ediləcək müdriklik onları dahilər mərtəbəsinə yüksəltmiş, dostluqlarına zəmin yaratmışdı. Bu əbədi dostluğun ilk töhfəsini 1994-cü il noyabr ayının 1-də öndərimiz Heydər Əliyevin başçılığı ilə, onun təyyarəsində Türkiyəyə – Füzulinin 500 illik yubileyinə gedəndə görmüşdük. Bütün təşkilati işləri və məsrəfləri prof. İhsan Doğramacı öz üzərinə götürmüşdü.

Buna qədər elm və səhiyyə sahəsində nailiyyətlərinə görə Xocamız Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü və N.Nərimanov adına Tibb Universitetinin fəxri doktoru seçilmişdi. Bu böyük alim haqqında Azərbaycanda ictimaiyyətin bildikləri bu qədər idi.

Lakin gün kimi aydın idi ki, Azərbaycana böyük bir şəxsiyyət, özü də Azərbaycanla bağlı bir şəxsiyyət gəlir, əks-təqdirdə öndərimiz bu işə rəvac verməzdi.

Bax: «Azərbaycan» qəzeti, 01.08.2008

Türk aləminin görkəmli simalarından biri, İraq türkmanlarının güvənc yeri İhsan Doğramacının Azərbaycana gəlişini böyük intizarla, ürək çırpıntıları ilə gözləyənlərdən biri də mən idim. Buna səbəb vardı. Nizami adına Ədəbiyyat İnstitutunun İçərişəhərdə yerləşən «Folklor Elm Mərkəzi»ndə yaratdığım «İraq–türkman Ədəbiyyatı və Mədəniyyəti» muzeyini İhsan Doğramacı açacaqdı. O, nümayəndə heyəti ilə birgə muzeyin açılışına gəldi. O gün ömrümün ən şirin anlarını yaşadım…

Bilərəkdən tətil vaxtına salınan ad günü şənliklərinə dəvətnamədə Azərbaycanda yaxşı tanınan, gözəl şairə Nəsrin Ərbil təmənna etmişdi ki, mümkün olsa bir azərbaycanlı qadın müğənninin on gün çəkəcək şənliklərdə iştirakını təmin edim. Nəsrin xanımın təmənnası məni təəccübləndirmədi. Xocamızın İraq türkman musiqisi ilə eyni kökdən olan Azərbaycan xalq musiqisini ürəkdən sevdiyini hamı yaxşı bilir. Sərvər Quliyev başda olmaqla 20 nəfərdən çox azərbaycanlı musiqiçinin akustik cəhətdən Türkiyədə ən yaxşı Konsert salonu olan

Professor İhsan Doğramacı, professor Qəzənfər Paşayev, Polad Bülbüloğlu və Hüseyn Kürdoğlu «İraq–türkman ocağı»nda. Bakı, 1995

Bilkənt Universitetində işləməsi, xalq artisti Arif Məlikovun İhsan bəyə simfoniya həsr etməsi çox mətləblərdən söz açır.

Müğənni məsələsini mümkün olan bir iş kimi məmnuniyyətlə qəbul etdim. Eyni zamanda bu dahi şəxsiyyəti soydaşlarımıza daha yaxından tanıtmaq üçün vicdan borcu amacı ilə bu məqaləni yazmaq qərarına gəldim. Məqaləni yazarkən Doğramacının gənclik dostu, uzun müddət Türkiyədə Parlamentin üzvü və Səhiyyə naziri olmuş, İhsan Doğramacıya kitab həsr etməyə mənəvi haqqı olan, bilik səviyyəsinə görə buna səlahiyyəti çatan prof. Cəlal Ərtuqun «Türkiyədə və dünyada İhsan Doğramacı fenomeni» (Ankara, 1996) və alimin əmək fəaliyyətinin 65 illiyinə həsr olunan «Qəlbində uşaqlar, beynində gənclər» (Ankara, 2003, ingiliscə) kitablarından qədərincə bəhrələndim.

Ömrünün 94-cü ilini yaşayan İhsan Doğramacı 1915-ci il aprel ayının 3-də İraqın Türkman şəhəri Ərbildə çox zəngin Doğramacızadələr ailəsində anadan olmuşdur. Əli Paşa Doğramacızadənin beş övladının ən böyüyü İhsan idi. İlk təhsilini Ərbildə türkcə alan İhsan bəy orta təhsilini Beyrutda Amerika Universitetinə bağlı Beynəlmiləl Kollecdə tamamlayıb (1932). Sonra isə İstanbul Universitetinin Tibb fakültəsini bitirib (1938). 1942-ci ildə Bağdadda Amerika Qız Kollecinin məzunu, adlı-sanlı ailədən olan Aysər xanımla evlənib. Üç övladları vardır: Şərmin, Əli, Osman. Aysər xanımla ailə qurduqdan sonra o, ABŞ-da Harvard və Vaşinqton Universitetlərinə bağlı xəstəxanalarda pediatriya üzrə assistent və aspirant olmuşdur. 1947-ci ildə Türkiyəyə qayıdaraq Ankara Universitetinin Tibb fakültəsinin Uşaq Sağlamlığı və Xəstəlikləri bölümündə müəllim işləyib. Bizim fikrimizcə, ABŞ-da keçən beş il İhsan Doğramacının həyatında dönüş, istiqamətverici, bəlkə də, təkanverici illər olub. 1949-cu ildə dosent, 1954-cü ildə professor seçilib. Lakin bu uğurlarla kifayətlənməyib.

Bəzi həmkarları onu xəyalpərəst adlandırırdılar. Çünki o, tez-tez gələcəkdə tibbin vəziyyətindən, Universitetlərdə müasirləşmədən söz açır, yeni-yeni fikirlər irəli sürərdi. Bu, Harvard Universitetində işlədiyi və biliyini təkmilləşdirdiyi zaman qazanılmış təcrübə və təhsilə əsaslanırdı. Alimin «Yeni Dünya»dan gətirdiyi yeni ideyalar onun qarşısında geniş üfüqlər açırdı. 1954-cü il aprelin 3-də «İhsan Doğramacı Vəqfi» yaradılmış (fikir verin Doğramacının anadan olan günü), eyni zamanda «Hacəttəpə Uşaq Sağlamlığı İnstitutu Vəqfi», «Hacət-təpə Tibb Mərkəzi Vəqfi» və «Hacəttəpə Universiteti Vəqfi» qurulmuşdur.

Bundan əlavə, Doğramacı «Uşaq Sağlamlığı Klinikası və İnstitutu» adında bir bölümün yaradılmasını ortaya qoymuşdu. ABŞ, İngiltərə və başqa ölkələrdə «Uşaq Sağlamlığı» bölümünün olduğuna dair zəruri sənədləri toplayıb Səhiyyə

nazirliyinə təqdim etmişdi. Səhiyyə naziri bu işə baxmaq üçün Komissiya yaratmış və layihə komissiyada səsçoxluğu ilə qəbul olunmuşdu. Bu qərarla Hacəttəpə Uşaq Sağlamlığı Klinikası və İnstitutunun gələcəkdə Hacəttəpə Tibb fakültəsinin və sonda Hacəttəpə Universitetinin təməli qoyulmuş oldu.

14 iyul 1954-cü ildə Uşaq Sağlamlığı İnstitutunun təməli atılır. Doğramacı ikinci bir mühüm işə başlayır. Həyata keçirəcəyi reformalara uyğun olaraq qabiliyyətli gəncləri seçib öz hesabına ABŞ-ın məşhur universitetlərinə oxumağa göndərir (Yuxarıda demişdik ki, İhsan Doğramacı zəngin bir ailədə anadan olmuşdur. Atası Əli Paşa Ərbilin Bələdiyyə başqanı olmaqla ingilislərin idarə etdiyi Neft şirkətində xeyli payı vardı). Eyni zamanda Xaricdən gənc mütəxəssisləri işə dəvət edir.

Uşaq Sağlamlığı İnstitutuna hüquqi şəxs səlahiyyəti alan İhsan Doğramacı bundan lazımınca yararlanır və Türkiyədə ilk dəfə olaraq 1961-ci ildə Fizioterapiya və Reabilitasiya, Tibbi Texnologiya, Dietik Nurisyon (qida) ali məktəblərini və Tibb Bacıları məktəbini açır.

İndi Hacəttəpə Uşaq Sağlamlıq İnstitutu və Xəstəxanası İhsan Doğramacının adını daşıyır. 1994-cü ildən altımərtəbəli bu möhtəşəm binanın önündə onun əzəmətli heykəli ucalır.

İhsan Doğramacı Hacəttəpə Universitetini, xüsusən də Hacəttəpə Tibb fakültəsini qurduqdan sonra mütəxəssislərin fikrincə, tibbi təhsildə əlliillik bir sıçrayışa nail olmuşdu.

1960-cı ildə Hollandiyanın «Aldemeen Dagblad» və «De Teleqraf» qəzetlərində «Tibbdə reforma həyata keçirən türk» başlıqlı məqalədə yazırdılar ki, biz Türkiyəyə iqtisadiyyatı dirçəltmək üçün Jan Tenbergeri göndərdik, indi isə Türkiyə bizə tibb sahəsində məsləhət görmək üçün prof. İhsan Doğramacını göndərdi.

1966-cı ildə İngiltərə Kral Cəmiyyətinin çox nüfuzlu mütəxəssislərdən ibarət nümayəndə heyəti Hacəttəpə Tibb fakül-

təsinin tədris işləri ilə tanışlıqdan sonra komissiyanın sədri, London Universitetinin Tibb fakültəsinin dekanı Ser Briyan Vindeyer «Participant Journal»də yayımlanan yazısında göstərmişdir: «İngiltərədə həyata keçirmək istədiyimiz təhsil sistemi Hacəttəpədə həyata keçirilməkdə olan sistemin eyni olacaqdır».

Komissiyanın üzvü, Qlazqo Universitetinin Tibb fakültəsinin dekanı Çarlz Mənn Fleminq isə yazmışdır: «Hacəttəpədə nail olunan səviyyə inanılmayacaq bir müvəffəqiyyətdir».

Deyirlər, Universitet yaratmaq bəxt, bacarıq və qabiliyyət tələb edir. Böyük yaradan bütün bunların hamısını İhsan Doğramacıya əta etmişdir. Və o, yaradanın bu payından qədərincə bəhrələnmişdir.

İhsan Doğramacının həyatda amalı, həqiqətən də, Türkiyənin təhsil sistemini müasirləşdirmək və bunun sayəsində Türkiyəni istər texnoloji, istərsə də başqa cəhətdən inkişaf etmiş qabaqcıl ölkələr sırasında görmək olmuşdur. Xocamız İslam dinini və müqəddəs kitabımız Qurani-Kərimi əla bilir. Peyğəmbərimizin kəlamlarından da xəbərdardır: «Altmış il ibadət qılmaqdan, bir gün elm öyrənmək daha savabdır». İhsan Doğramacı nəinki öyrənir, eləcə də başqalarını bacardığı şəkildə öyrədir. O bütün dünyada tanınan və görkəmli elm adamı, reformator və yenilikçi kimi etiraf edilən bir şəxsiyyətdir. Akademik Əhliman Əmiraslanov çox mətləbləri ifadə edən bircə cümlə ilə bu dahi şəxsiyyətin qət etdiyi, enişli-yoxuşlu yola nəzər salaraq qətiyyətlə deyir: «Bu gün dünyada səhiyyə və təhsil sahəsində elə bir zirvə yoxdur ki, onu İhsan Doğramacı fəth etməmiş olsun, elə bir mükafat yoxdur ki, almamış olsun».

Türk, ingilis, fransız, ərəb, fars, alman dillərini mükəmməl bilən İhsan Doğramacı planetimizin heç bir ölkəsində çətinlik çəkmədən sərbəst hərəkət edir, insanlarla təmasda ola bilir.

N.Nərimanov adına Tibb Universiteti və Bakı Dövlət Universiteti də daxil olmaqla dünyanın bir çox universitetlərinin:

Helsinki (Finlandiya), Qlazqo (Şotlandiya), Qahirə, Ayn Şəms (Misir), Tokio, Soka (Yaponiya), Santo Dominqo (Dominikan), Nebraska (ABŞ) və s. fəxri doktorudur.

Hindistan, Azərbaycan və s. Elmlər Akademiyalarının fəxri üzvüdür.

Bir çox məşhur şəxsiyyətlərlə öz ölkələrində görüşmüşdür.

Azərbaycan Prezidenti Heydər Əliyev, sonralar isə Prezident İlham Əliyev, Həbəşistan İmperatoru Haile Selasiys, Argentina prezidenti İ.Peron, Çili prezidenti Eduardo Frei və Pinoçet, Dominikan prezidenti De Jaquin Balaquer, Fransa prezidenti Jak Şirak, Hassan bin Tallat, II Papa İoann Pavel, Şimali Kipr prezidenti Rauf Dənkdaş, futbolçu – Pele, ABŞ kosmonavtları Nil Armstrong, Edvin Aldrin, Mishael Solins və başqaları ilə görüşləri.

İhsan Doğramacı, eləcə də Ankarada: Konrad Adenauer, Çarlz de Qoll, Corc Buş, Marqaret Tetçer, Hüsnü Mübarək, Fransis Mitteran, Mario Soares, Mixail Qorboçov, Haşimi Rəfsəncanı, yeni müstəqilliklərini qazanmış Türk Dövlət başçıları, bir çox Nobel mükafatı laureatları ilə görüşmüş, adı çəkilənlərin çoxunun şərəfinə evində ziyafət vermişdir.

İhsan Doğramacının anadan olmasının 80 illik yubileyi Misir, İngiltərə və ABŞ-da arzuolunan səviyyədə qeyd olundu. Türkiyə və Azərbaycanda isə dövlət səviyyəsində təntənəli şəkildə keçirildi. Opera və Balet teatrında keçirilən təntənəli yığıncaqda prezident Heydər Əliyev yubilyarın əməyini yüksək qiymətləndirmişdir: «Elmdə, mədəniyyətdə, səhiyyədə, ictimai və siyasi fəaliyyətdə ən yüksək zirvələrə çatdınız. Bunlar sizin şəxsi müvəffəqiyyətlərinizdir. Eyni zamanda bunlar türk xalqı üçün, Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün böyük bir iftixar qaynağıdır. Sizin bu həyat yolunuzda, yaradıcılığınızla və nail olduğunuz bu böyük işlərlə biz fəxr edirik. Fəxr edirik ona görə ki, belə böyük soydaşımız var və bu soydaşımız bütün türk millətinə məxsusdur… Fəxr edirik ki,

belə böyük bir insan Azərbaycana məxsusdur, belə bir insan bizim ana torpağımız Azərbaycana mənsubdur…

Bu gün sizin 80 yaşınızı qeyd edərkən bir xüsusa da toxunmaq istəyirəm. Sizi hər yerdə sevirlər, Türkiyədə sevirlər, Avropada sevirlər, Amerikada sevirlər. Sizi sevirlər ona görə ki, siz fədakarlığınızla dünya mədəniyyətinə, zəkanızla dünya elminə xidmət göstərirsiniz».

Bundan sonra Prezident Heydər Əliyevin təlimatı ilə prof. Ömər Eldarov İhsan Doğramacının heykəlini düzəltdi və 2002-ci ilin iyun ayında Bilkənt Universitetində heykəlin açılışı oldu.

Heydər Əliyev özünə məxsus təmkinlə mərasim iştirakçılarını haldan-hala salan, heyran edən nitq söylədi: «Mən şəxsən insanların sağlığında onlara heykəl ucaldılmasının əleyhinəyəm. Ancaq hər kuralın (qaydanın) bir istisnası vardır. İştə bu istisna İhsan Doğramacının yaşadığı bir zamanda heykəlinin qoyulmasıdır. Və bu istisna qərarını mən verdim və heykəlin açılışı üçün bu an Ankaradayam. Bu heykəl Türkiyə ilə Azərbaycanın bir millət, iki dövlət olaraq sarsılmaz dostluğunun bir simvoludur».

Yeri gəlmişkən, deyim ki, bu iki dahi şəxsiyyət arasındakı dostluq bu gün də öz bəhrəsini verir. İhsan Doğramacı öndərimizə həsr etdiyi bir məqaləsində bəyan edir: «Heydər Əliyevin dostu olmaq mənim üçün bir sevinc və iftixar qaynağıdır».

İhsan Doğramacı bir fenomendir – desək yanılmarıq. O, Türkiyədə heç kəsin qazanmadığı «Xoca bəy» ləqəbini qazanıb. Heç kəs ona «Sayın rektor», «Sayın başqan» demir. Ona çox şirin səslənən «Xoca bəy» deyə müraciət edirlər. Yerinə və zamanına görə ona başqa ləqəblər də vermişlər: «Abidə insan», «Olay insan», «Kompyuter insan», «Xəyallarını gerçəkləşdirən insan», «Dövlət kimi adam», «Ölkəmizin üz ağı», «Özünü təhsilə həsr edən insan», «Universitetlər quran insan», «Fenomen insan» və s. kimi ləqəblər ona olan heyranlığı, yaxşı mənada, həsədi əks etdirir.

İhsan Doğramacı dünyanın 224 ölkəsinin hədəfi daim qədirşünaslıq olan orden, medal və nişanlarına layiq görülmüşdür. Bu təltiflər arasında Azərbaycanın yüksək istiqlal ordeni və Türkiyənin ən yüksək «Dövlətə üstün Xidmət» medalı da vardır. Dövlətə xidmətə görə Türkiyədə Doğramacı bu medala layiq görülən 4-cü şəxsdir.

Lakin buna qədər İhsan Doğramacının keçdiyi yol heç də həmişə hamar olmamışdır. Bu yenilməz, olmazı olur hala gətirə bilən, mənfiləri müsbət edə bilən qeyri-adi insan maneələrlə də qarşılaşmış, Şərq aləminə məxsus həsəd, qısqanclıq, paxıllıqla üzləşmişdir. Ankara Universitetinin rektoru olanda da, 1967-ci ildən fəaliyyətə başlayan, hər yöndən Qərb Universitetlərinə bərabər olan Hacəttəpə Universitetinin rektoru olandan da onu gözügötürməyənlər olmuş, özəl Hacəttəpə Universitetinin ya bağlanmasını, ya da dövlətin hesabına keçməsinə nail olan qüvvələr baş qaldırmışdı. Lakin özəl Hacəttəpə Universitetini qapamağa çalışanlar yaxşı bilirdilər ki, ABŞ-da dövlət büdcənin 33 faizə qədərini belə universitetlərə yardım edir.

İhsan Doğramacının gördüyü işin miqyasını dərk edənlər də az deyildi. Əhməd Emin Yılman «Gördüklərim və keçirdiklərim» adlı kitabında yazırdı: «Türkiyədə iqtidarı ələ keçirənlərə son bir tövsiyəm var. Mənəm-mənəmliyə və qudurğanlığa özünüzü təslim etməyin… Yaxşı niyyətlərlə işə başlayın. Keçdiyimiz yollara baxanda, kənd institutlarının yıxılmasından içim göynəyir. Bunlar 20 il də vəzifəyə davam etsəydilər, bu gün çox inkişaf etmiş bir Türkiyə olacaqdıq. Böyük maarifçi-tərbiyəçi Tonquçun qədrini bilmədik. Bu gün də başqa böyük bir tərbiyəçi-maarifçinin, yaradıcı professor İhsan Doğramacının, onun meydana gətirdiyi o alovlanan Hacəttəpə ocağının qədrini bilmirik. O, indi bu ocağı yıxmağı özünə vətəndaşlıq borcu bilənlərlə qarşı-qarşıyadır.

Çətin Əmeç isə «Hürriyyət» qəzetində yazırdı: «İnsaf, vicdan, şərəf kimi müsbət keyfiyyətlərdən uzaq olan bir çox in-

sanlar tikmələri bir yana dursun, indi yıxmağı özlərinə şərəf borcu hesab edirlər».

Bununla belə, güclü maliyyə imkanlarına malik, haqsızlıqlara boyun əyməyən Doğramacı inciyərək ölkəni tərk edir.

1975-ci ildə Fransa Nazirlər Kabinetinin qərarı və Fransa prezidentinin razılığı ilə Paris Universitetinə professor təyin edilir. Bu hadisə onun Avropada necə bir nüfuzlu alim, şəxsiyyət olmasına dəlalət edirdi. 1981-ci ildə hərbi çevrilişdən sonra israrla İhsan Doğramacının vətənə dönməsini xahiş edirlər.

Deyirlər, dahilər zamanında dərk olunmurlar. Bəlkə də, bu dahi şəxsiyyətə hərdən qeyri-obyektiv münasibət bununla bağlı olmuşdur, bilmirəm. Bir onu bilirəm ki, İhsan Doğramacının sayəsində 1982-ci ildə universitetlərin sayı 19-dan 27-ə və bu gün 57-yə çatmışdır. Doğramacının həm Qərbi, həm də Şərqi öz varlığında birləşdirməsi, ehtiva etməsi, yaratdığı universitetlərdə də öz əksini tapmışdır.

Bəzi elm adamlarının qənaəti belədir ki, reformatçı, yenilikçi Doğramacının dəyəri özündən sonra daha ətraflı şəkildə dərk ediləcəkdir. Bu qənaət bizi tam qane etmir. İhsan Doğramacı dünyanın dörd bir yanında ayaq üstə alqışlarla qarşılanır. Haqqında neçə-neçə kitablar yazılıb. «Uşaqlar qəlbində, gənclər beynində» adlı kitab (Ankara, 2003) alimin dünya səhiyyəsinə xidmətinin 65 illiyinə həsr olunub. Kitab türk ingilis, fransız, rus, alman, polyak dillərində çıxıb. Kitabı «Dünya Sağlamlıq Təşkilatı»nın (Cenevrə nümayəndəsi) Tomris Turmen və «Beynəlxalq Pediatriya Cəmiyyəti»nin (Boston) nümayəndəsi Ceyn Şaller hazırlamışlar. Kitabda dünyanın bir çox görkəmli şəxsiyyətlərinin, o cümlədən Heydər Əliyev, Süleyman Dəmirəl, Kofi Anan, Hikmət Çətin, Vecdi Könülün məqalələri yer alır. Öndərimiz Heydər Əliyevin «Türk dünyasının iftixarı» məqaləsi İhsan Doğramacıya xüsusi ehtiramla yazılmışdır. Şinasi Özsoylunun «İhsan Doğ-

ramacı ilə 40 il» (Ankara, 1995), Muvaffak Akmanın «Yaşantımda Hacəttəpə və sonrası» (Ankara, 1995) və Cəlal Ərtuqun haqqında əvvəldə danışdığımız kitabları İhsan Doğramacının bir insan, alim, təşkilatçı kimi məziyyətlərini açıb göstərmək baxımından maraq doğurur. Təbii ki, İhsan Doğramacının özünün də bir görkəmli alim kimi müxtəlif dillərdə təkrar-təkrar çap olunan monoqrafiyaları, çoxsaylı məqalələri vardır. Onun «Uşaqlara qayğı» kitabı Türkiyədə üç dəfə kütləvi tirajla çap edilmiş, anaların stolüstü kitabına çevrilmişdir. Dünya şöhrətli alim uzun illər ABŞ, İngilətərə, Almaniya və İsveçrədə çıxan tibbi jurnalların redaktoru olmuşdur.

İhsan Doğramacının təşəbbüsü ilə bizim üçün çox əziz olan bir kitab da işıq üzü görmüşdür. Öndərimiz Heydər Əliyevə həsr olunan bu kitab «Böyük dövlət adamı» adlanır. Həddən artıq nəfis şəkildə tərtib və nəşr edilən kitab öndərimizə dərin məhəbbət və xüsusi ehtiramla yazılmışdır. Kitabda İhsan Doğramacının məqaləsi ilə yanaşı, Heydər Əliyevi «Yeni böyük Atatürk» adlandıran Süleyman Dəmirəl, Hikmət Çətin, Mehmet Nuri Yılmaz, Namik Kamal Zeybək, Yüksel Bozər, Əli Doğramacı, Məmməd Əliyev, Nizami Cəfərov kimi görkəmli siyasi, ictimai və elm xadimlərinin maraqlı məqalələri yer alır.

Bir aysberqə bənzər İhsan Doğramacı haqqında düşüncələrimi sona verərkən yaddaşıma müdriklərdən eşitdiyim «Dünya vaxtı ciddi işlərə sərf edənlər, saatların yox, dəqiqələrin belə qədrini bilənlərindir» və «Tarix qurub-yaradanları yaşadır» kəlamları gəldi. Xocamızın gördüyü möhtəşəm işlərə sanki işıq tutan bu kəlamların işığında aydınca gördüm ki, Türk dünyasının tarixdə qalacaq görkəmli şəxsiyyətləri sırasında İhsan Doğramacının məxsusi yeri vardır.

O, XALQIN ÜMİD VƏ GÜVƏNC YERİ İDİ*



Əbədiyyətə qovuşmuş örnək insanlardan söz düşəndə göz önünə ilk gələnlərdən biri də təkcə otaylı-butaylı Azərbaycanda deyil, Türkiyədə də xalqın sevimlisinə çevrilən, sahilsiz ümmana bənzər poeziyası ilə qəlblərdə məskən salan Bəxtiyar Vahabzadə olur. Bəxtiyar Vahabzadə «Gülüstan», «Ana dili», «Şəbi hicran», «Muğam», «Özümüzü kəsən qılınc», «Dar ağacı», «Şəhidlər» kimi şeir, poema, povest və pyesləri, eləcə də kəskin və obyektiv məqalələri ilə insanları manqurta çevirməyə çalışan sovet rejiminin qanlı-qadalı illərində xalqın gözünü açmağa nail olan qorxmaz şair, cəsarətli alim idi.

Qanlı iyirmi yanvar, azadlıq hərəkatı və erməni təcavüzü dövründə Bəxtiyar müəllim ölməz poeziyası və çıxışları ilə xalqın, xüsusən də gənclərin ümid və güvənc yerinə çevrilmişdi.

Bəxtiyar müəllimi ilk dəfə 1957-ci ildə Xarici Dillər İnstitutunun 1-ci kursunda oxuyanda bir təsadüf nəticəsində görmüşdüm. Soyuq bir payız günü «Azərbaycan» kino-teatrında filmə baxmağa getmişdim. O vaxt kino-teatrlarda filmlərin nümayişindən əvvəl yarım saatlıq konsert verirdilər. Televiziya evlərə hələ ayaq açmamışdı. Odur ki, insanlar axın-axın kino-teatrlara gedir, həm konsertə qulaq asır, həm də filmə baxırdılar. Bazar günü olduğundan kassanın qabağında böyük növbə vardı. İki boylu-buxunlu cavan oğlan növbəsiz

* Bax: «Ədəbiyyat qəzeti», 12.02.2010

bilet almaq istədi. Adamlar, xüsusən də qadınlar narazılıqlarını bildirdilər. Lakin hamı çəkinə-çəkinə danışırdı. Bu səbəbsiz deyildi. O vaxt Bakının «Dağlı məhəlləsi» adlanan hissəsində yaşayan gənc oğlanların bir çoxu heç nədən çəkinmir, yerli-yersiz bıçağa əl atırdılar. Buna baxmayaraq, məndən xeyli arxada növbə tutmuş bir nəfər həmin gənclərə yaxınlaşaraq növbə tutmalarını məsləhət gördü. Hətta qırmızı rəngli bir sənəd çıxararaq onlara göstərdi və dedi: «Bu sənədlə mənim növbəsiz bilet almağa səlahiyyətim var. Bununla belə mən növbədə dururam. Siz də növbə tutun».

Gənclər ehtiramla növbə tutdular. Səbəbi müxtəlif ola bilərdi. Ola bilsin ki, ya onun əlindəki sənəddən çəkindilər, ya da onu tanımışdılar. Mənsə onun cəsarətinə heyran olmuşdum. Pıçıltı ilə növbədə duranlar deyirdilər ki, o, şair Bəxtiyar Vahabzadədir. Şairin əynində qaragül yaxalıqlı palto, başında qaragül papaq vardı. Ömrümdə insana belə gözəl yaraşan palto və papaq görməmişdim.

Səhərisi gün İnstitutumuzun yaxınlığında, Səməd Vurğun küçəsindəki kitab mağazasına girərək Bəxtiyar Vahabzadə-

dən bir şey olub-olmadığını soruşdum. Sən demə şairin «Ceyran» adlı şeirlər kitabı təzəcə çapdan çıxıbmış. Kitabı aldım və instituta gələnə qədər «Bu dünyada» şeirini əzbərlədim. Tənəffüs vaxtı şeiri əzbərdən dedim və kitabı tələbə yoldaşlarıma göstərdim. Aşağıdakı bəndi yenidən deməyimi xahiş etdilər.

Saatı olmayan tez saat alır,
Qızıldan-gümüşdən ona bağ salır.
Ancaq düşünmür ki, ömrü azalır,
Saat səslənəndə hər bu dünyada.

Tələbə yoldaşlarımdan gələcəyin gözəl alimi, şairi və tərcüməçisi Ənvər Rza, Akif Həsənov, Vaqif Qafarov və başqaları dərs qurtaran kimi həmin mağazaya gedərək «Ceyran» kitabını aldılar. Səhv etmirəmsə tələbə yoldaşım, indi tanınmış şair Mətləb Misir (Qasımov) də onların arasında idi.

Bəxtiyar müəllimin poeziyasına məhəbbət məndə və tələbə yoldaşlarımda «Ceyran»la başladı. Bəxtiyar Vahabzadə mənə dərs deməyib. Lakin ADU-nun filologiya fakültəsinin tələbələri: Nəsib Ələkbərli, Zirəddin Xasiyev, İlyas Qurbanov və başqaları deyirdilər ki, Bəxtiyar Vahabzadə əsl müəllim, böyük alimdir. Xüsusən də Füzulinin tədrisində əvəzsiz olduğunu vurğulayırdılar. Etiraf edim ki, Bəxtiyar müəllimin «Xalq şairi Səməd Vurğun» və «Səməd Vurğun» monoqrafiyalarını oxuyandan və 70-ci illərdə sevimli müəllimim İsmixan Rəhimovun tələbələr və müəllimlər üçün təşkil etdiyi, S.Vurğuna həsr olunan «Xüsusi kurs»da Bəxtiyar müəllimin məruzələrini dinlədikdən sonra S.Vurğunu daha yaxşı dərk etdim. Onu da deyim ki, gənclikdə Rəsul Rzanın poeziyamıza gətirdiyi yeniliyi, sərbəst şeirin dəyərini də o qədər yaxşı dərk etmirdim. Bəxtiyar müəllimin Rəsul Rzaya həsr etdiyi şeiri sanki məni ayıltdı.

Ey Rəsul, sən haqlısan,
Çünki sən öz əsrinə
Daha artıq bağlısan.
Sənət gülüstanına
Qədəm basandan bəri,
O köhnə ölçüləri
Cəsarətlə sən atdın.
«Məna, məna» – demədən,
Sən mənalar yaratdın.

Bəxtiyar müəllim 1959-cu ildə Rəsul Rza və Qasım Qasımzadə ilə İraqda yaşayan soydaşlarımızı və Füzulinin qəbrini ziyarət edən ilk azərbaycanlıdır. Əbdüllətif Bəndəroğlu və başqaları ilə dostluğu da buradan başlamışdı. Bəndəroğlunun «Yazıçı» nəşriyyatı tərəfindən çap olunan «Qərənfil», eləcə də mənim tərtib etdiyim «Göylər unutmuşdu yağacağını» kitabına ön söz yazmışdı. Bəndəroğlu isə şairin «Seçilmiş şeirləri»ni Mədəniyyət və İnformasiya Nazirliyinin xətti ilə Bağdadda yayınlamışdı. Bəndəroğlu Bəxtiyar müəllimi gözəl şair və şəxsiyyət kimi yüksək qiymətləndirirdi. Hər dəfə Bakıya gələndə Ayaz Vəfalı və mənimlə hamıdan əvvəl Bəxtiyar müəllimi ziyarət edərdi.

1972-ci ilin noyabrında İraqa üçüncü səfərim ərəfəsində Bəxtiyar müəllimə telefon açdım. Ünvanımı götürdü ki, axşamüstü bizə gəlsin. Əziyyət olmasın deyə mən onlara getmək istədim.

Belə çıxır ki, qonaqpərvər deyilsən – dedi və saat 5-də bizdə olacağını bildirdi.

Evimizdə toy-bayram idi. Bəxtiyar müəllimin yaradıcılığını əzbər bilən kiçik qardaşım Ələsgər müəllim də bizdə idi. O, filologiya fakültəsini bitirərək kənddə müəllim işləyirdi. Bəxtiyar müəllim deyilən vaxt QAZ-24 markalı qara «Volqa» avtomobilində gəldi. Bu markalı maşınlar təzə-təzə istehsal olunurdu. Məhəllənin uşaqları maşının başına toplaşmışdılar.

Hamı bildi ki, bizə gələn Bəxtiyar müəllimdir. Sevinir və qürur hissi keçirirdim. «Şəbi hicran», «Gülüstan» poemalarını və bəzi seçmə şeirlərini gətirmişdi ki, Ə.Bəndəroğluna çatdırım. Ələsgər müəllim Bəxtiyar müəllimin şeirlərindən demək istəyəndə qoymadı. Əvvəlcə başqa şairlərin şeirlərindən deməsini arzu etdi. Ələsgər müəllim S.Vurğundan, M.Arazdan, T.Bayramdan şeirlər dedi. S.Vurğunun «Muğam» poemasını əzbərdən söylədi. Bəxtiyar müəllim ürəkdən «Sağ ol!» – dedi və stoldan qalxaraq divanda əyləşdi. İndi mənim şeirlərimdən de. Ancaq tələsmə – dedi. Ələsgər müəllim başladı, nə başladı. Bəxtiyar müəllim gözlərini yumub qulaq asırdı. Bir də gördük gözlərindən yaş axır.

– Bizi xalqa sevdirən sizlərsiniz. Bizi yaşadan sizlərsiniz. Buna görə «Sağ ol!» demək azdır – dedi.

Mən qohumum Sabir Xasiyevin mənə bağışladığı şairin «Etiraf», «Şəbi hicran» kitablarını gətirərək mənə ünvanladığı avtoqrafı ucadan oxudum: «Mamaoğlu (bibi oğlu deməkdir), oxu Bəxtiyarı, bəxtiyar ol, sən. Bəxtiyar xalqın görən gözü, döyünən ürəyi, vuran nəbzidir».

Bəxtiyar müəllim muncuq kimi gözəl xətlə yazılmış avtoqrafa nəzər saldı və dedi:

– Sən də razı olmurdun sizə gəlim. Bu isti ocaqda mənim də yerim varmış.

Dördüncü mikrorayonda doqquz mərtəbəli binada yaşayırdıq. Həyətə enəndə gördük ki, binanın sakinləri ellikcə həyətə toplaşıb sevimli şairini gözləyir.

Böyük canlanma vardı. Şairi evinə dəvət edən kim, şeirini deyən kim, əlini öpmək istəyən kim, «Allah bizim ömrümüzdən kəsib sənə versin!» – deyə dua edən kim.

Bəxtiyar müəllim özünü itirmişdi. Bircə onu deyə bildi ki, bu gün bir ömür yaşadım. Bundan sonra Bəxtiyar müəllimlə aramızda çox səmimi bir münasibət yarandı. «Altı il Dəclə-Fərat sahillərində», «İraq-Kərkük bayatıları», A.Dümanın «Qafqaz səfəri», «Nəsiminin İraq Divanı», Amerika alimi,

prof. Sula Benetin Qafqaz xalqlarının həyatından bəhs edən «Necə yaşayasan yüzü haqlayasan» və s. kitabları avtoqrafla şairə təqdim edəndə oxuyur və telefonda fikrini bildirirdi.

1987-ci ildə «Azərnəşr» böyük tirajla «Kərkük folkloru antologiyası» kitabımı buraxmışdı. Bir gün Bəxtiyar müəllim telefon açdı və dedi ki, kitab haqqında rəy yazıb. Bəzi məqamların dəqiqliyinə əmin olmaq üçün məni evinə dəvət etdi. (Bu fakt özü Bəxtiyar müəllimin böyüklüyündən xəbər verirdi.) Onda Bəxtiyar müəllim Hüsü Hacıyev (indiki Azərbaycan) küçəsindəki «Yazıçılar evi»ndə yaşayırdı.

Baxmayaraq ki, neçə-neçə kitablarım çıxmışdı, mətbuatda rəylər çap olunmuşdu, sevincimin həddi-hüdudu yox idi. Xalq şairi, akademik, otaylı-butaylı Azərbaycanın sevimlisi Bəxtiyar Vahabzadə özü mənim haqqımda yazmışdı. Qaça-qaça 5-ci mərtəbəyə qalxanda az qaldı nəfəsim kəsilsin. Sonralar «Ədəbiyyat və incəsənət» qəzetində (22.05.1987) və «Gəlin açıq danışaq» kitabında («Azərnəşr», 1988, s.147–152) çap olunan «O qədər uzaq, bu qədər yaxın» məqaləsini Bəxtiyar müəllim geniş ürəklə, İraqda yaşayan soydaşlarımıza aşkar məhəbbətlə yazmışdı. Şair yazını oxuduqca gözlərimdən yaş axırdı. Zəhmətimə böyük qiymət verilmişdi. Sevimli şairimizin bizdən ayrıldığı birinci il dönümündə qələmə aldığım, mənim üçün vacib olan bu hadisəni nə yaxşı ki, sağlığında «Taledən gələn qismət» adlı məqaləmdə işıqlandırmışdım (Bax: «Bu sevda ölüncədi», Bakı, «Oskar», 2001, s. 375). Şairin haqqımda ürək sözünü ağ kağıza köçürən əlini öpmək istədim. Bəxtiyar müəllim əlini çəkdi, mənalı-mənalı üzümə baxdı və gözləmədiyim haldı dedi: «Qardaşım, vətənə, xalqa xidmət böyük xoşbəxtlikdir. Sən artıq bu xoşbəxtliyi qazanmısan. Səni təbrik edirəm!»

Aradan illər keçsə də Bəxtiyar müəllimin səmimiyyətlə dediyi sözləri xatırlayır və indi daha yaxşı başa düşürəm. Onu da yaxşı dərk edirəm ki, mənə qismət olan bu xoşbəxtliyi Bəxtiyar Vahabzadə, Rəsul Rza, Abbas Zamanov kimi örnək adamlardan, xalqımıza üzağlığı gətirən şəxsiyyətlərdən əxz etmişəm.

ABBAS MÜƏLLİMİ ANARKƏN *

Yaşca aramızda böyük fərq olmasına baxmayaraq, uzun illər boyu dostluq və şəxsiyyətinə pərəstiş etdiyim Abbas Zamanov haqqında yazmaq istəyəndə hər dəfə tərəddüd etmişəm. Düşünmüşəm ki, birdən yazdıqlarım ona layiq olmaz.

«Ədəbiyyat qəzeti»ndə Ataxan Paşayevin «Əzizimiz, müəllimimiz» məqaləsini oxuyanda xəyal məni qanadları üstünə alıb neçə-neçə illər öncəyə, Abbas müəllimli günlərə apardı. Çoxdan uzaq düşdüyüm xoş və əvəzolunmaz duyğular yaşadım.

1966-cı ilin baharının gözəl çağı idi. İraqda dörd il tərcüməçi işləyib vətənə dönmüşdüm. Jurnalist Hacı Hacıyevin radioda təşkil etdiyi «Qitədən qitəyə» verilişində hər bazar günü İraqdan bir saatlıq silsilə verilişlərlə çıxış edirdim. Əsasən də Füzulinin nəvə-nəticələrindən – İraqda yaşayan azəri türklərindən söz açırdım. Elə həmin vaxt «Azərbaycan gəncləri» və «Ədəbiyyat və incəsənət» qəzetlərində məqalələrim də dərc olunmuşdu.

Bir gün «Ədəbiyyat və incəsənət» qəzetinin şöbə müdiri Ayaz Vəfalı dedi ki, Abbas müəllim «əlində çıraq» səni axtarır. Məqalən xoşuna gəlib. Bizim tələbəlik illərində Elmlər Akademiyasında S.Vurğunun xatirə gecəsində Naxçıvanın Ermənistana ilhaq edilməsi ilə bağlı Moskva və Yerevanda

* Bax: «Müasirləri Abbas Zamanov haqqında», tərtibçi İsa Həbibbəyli, Bakı, «Çinar-çap» nəşriyyatı, 2003, səh.119–130

planlar hazırlandığı barədə cürətli çıxışından sonra bütün tələbələrin gözündə milli qəhrəmana çevrilən bu qorxmaz insanı şəxsən tanımırdım.

Abbas müəllimlə Nizami adına Ədəbiyyat Muzeyinin binasında görüşdük. Maraqlı keçən görüşdə aramızda ata-oğul münasibəti yarandı və bu münasibət Abbas müəllim dünyasını dəyişənə kimi davam etdi.

Abbas müəllim məni Rəsul Rza, Qasım Qasımzadə, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Anar, Elçin, Pənah Xəlilov, Əjdər Xanbabayev, Yaşar Qarayev, Araz Dadaşzadə, Əlövsət Abdullayev kimi xalq qarşısında xidmətləri olan insanlarla tanış və yaxın etmişdi. Elə bu kifayət idi ki, ömrüm boyu ona minnətdarlıq hissi ilə yaşayım.

Onun qəlbi xeyirxahlıq hissi ilə döyünürdü. Təmizlik, paklıq onun ən başlıca amalı idi. Evində haram tikənin nə olduğunu bilməzdilər. Tanrı onu nəfsi tox yaratmışdı.

Bir dəfə professor Yaşar Qarayev evində «Varlıq» jurnalının baş redaktoru Cavad Heyət, onun Amerikadan qonaq gəlmiş qardaşı Firuz bəy, professor Nurəddin Rzayev və mənim iştirakımla bir ziyafət təşkil etmişdi. Uzun illər Akademiyanın Nizami adına Ədəbiyyat İnstitutuna rəhbərlik edən Yaşar müəllimin evi də özü kimi çox sadə, təmtəraqdan uzaq idi. Nurəddin müəllim üzünü amerikalı qonağa tutaraq xüsusi vurğuladı ki, Yaşar müəllimin evini elə belə də təsəvvür edirdi. Yaşar müəllim mənəviyyatca sağlam ziyalılarımızdandır.

Nurəddin müəllim danışdıqca, nədənsə, gözümün önündə halallıq mücəssiməsi olan Abbas müəllimin həddindən artıq

sadə, lakin hər gün neçə-neçə ziyalının, alimin, aspirantın, tələbənin, əcnəbi ölkələrdən gələn qonaqların xoş məramla ziyarət etdiyi, könülsüz tərk etdiyi, məbədə dönmüş evi canlanırdı. Altmışıncı illərin ortalarından başlayaraq Abbas müəllim dünyasını dəyişdiyi 1993-cü ilin baharına kimi hər həftə iki-üç dəfə bu evdə olardım. İlk vaxtlar bu gediş-gəliş adi ehtiyacdan doğurdu. Buna səbəb, bəlkə də, şəxsi maşınımın olması idi. Çünki o vaxtlar maşın az idi. Sonralar isə bu gediş-gəliş mənəvi ehtiyaca çevrilmişdi.

Yolda, işdə, xeyirdə-şərdə kefini soruşanda «Şikayət etməyə əsas yoxdur» – deyən Abbas müəllimin çəkilməz dərdi vardı. Oğlu Firuz sağalmaz bəlaya – əsəb xəstəliyinə tutulmuşdu. Abbas müəllim əlindən gələni edirdi. Onun xahişi ilə mən də başqaları kimi İraqdan, ABŞ-dan, İngiltərədən bizdə tapılmayan bahalı dərmanlar gətirmişdim. Abbas müəllim: «Dərmandan pay olmaz» – deyər, pulunu verməmiş dərmanları götürməzdi.

Firuz Maştağada ruhi xəstəliklər xəstəxanasında yatırdı. Abbas müəllim həmin xəstəxanada işləyən bir qadınla danışmışdı. Qadın hər gün Firuz üçün ev yeməkləri hazırlayırdı. Bununla belə, hər bazar günü Firuza baş çəkməyə gedəndə Asya xanım onun xoşladığı ləziz yeməklərdən bişirib aparar, nazını çəkə-çəkə Firuzu yedirdərdi. Adətən, onun yanına Abbas müəllim, Asya xanım və Fuadla gedərdi. Hər hansı bir səbəbdənsə Asya xanım onun dalınca getməyəndə Firuz yemək yeməz, təkidlə deyərdi: «Mamam xəstələnib. Məni evə aparın». Bəzən Firuz, Abbas müəllim və qardaşı Fuadla mübahisə edər, qanqaralıq salardı. Lakin Asya xanımın sözü onun üçün qanun idi. Onu da deyim ki, Fuad və Firuz bunu duyar və hər dəfə dönə-dönə Abbas müəllimə deyərdi: «Papa, mənim yanıma anam və Qəzənfərlə gəl!». Əslində, Abbas müəllim belə də edərdi. İstəmirdi dərdini çox adam bilsin. Eşidib-bilən olanda, Abbas müəllim təklifə görə təşəkkür edər və deyərdi: «Bu

məsələ artıq həll olunub. Qəzənfərlə gedəcəyik». Yalnız professorlar Əlyar Səfərli və Şamil Qurbanov təkid edəndə onlarla gedərdilər. Xəstəxanadan dönəndə Abbas müəllimin halı pozular, dərindən ah çəkər, Yaradandan gileylənərdi. Tez-tez təkrar edərdi: «Ey Fələk, çərxin dönsün. Mənə çox zülmlər etdin».

Abbas müəllimin belə deməyə haqqı vardı: uşaq evində böyüməsi, həyat yoldaşı Rəfiqə xanımın öz atasına görə sürgün edilməsi, müharibədə keçirdiyi ağır günlər, Firuzun xəstəliyi, siyasi səbəbə görə partiyadan və işdən çıxarılması və s. onun qismətinə düşən, çoxlarının sinə gərə bilməyəcəyi ağır imtahan, həyatın sınağı idi.

Qeyri-adi insan idi Abbas müəllim. Özünün qayğıya, köməyə böyük ehtiyacı olduğu halda, çalışıb hamıya kömək əli uzadardı. Deyirlər, göz yaşının nə demək olduğunu əvvəllər ağlamış adam və yetim yanağı bilər. Bəlkə də, vaxtında göstərilmiş köməyin, qayğının mənasını dərindən duyduğuna görə Abbas müəllim belə qayğıkeş olmuşdu. Axı, Abbas müəllim insanlığın və elmin bu zirvəsinə çatınca uşaq evindən başlayan uzun və məşəqqətli bir yol keçmişdi.

Abbas müəllimi bir şəxsiyyət kimi fərqləndirən cəhətlər çox idi. Onlardan biri və mühümü onun prinsipiallığı və obyektivliyi idi. Sözü adamın üzünə şax deyərdi. Heç vaxt kiminsə qarasına danışmazdı. Adamın yaxşı işlərini isə üzünə deməzdi. Başqalarının yanında tərifləyərdi. Hünərli, mərdanə, eyni zamanda humanist idi. İnadkarlıq, mübarizlik, əqidəsindən dönməzlik elə bil elm və vətən fədaisi olan Abbas müəllimin boyuna biçilmişdi. İndi kiçik görünən, lakin o vaxtlar böyük mətləblərdən söz açan iki-üç faktı oxucuların nəzərinə çatdırmaq istərdim. Abbas müəllim Atatürkün şəklini çoxaltdırıb ziyalılar arasında yayırdı. Xətrini istədiyi bəzi adamlara isə şəkli böyütdürüb çərçivəyə saldırar və hədiyyə edərdi. Belə bir hədiyyə bacım oğlu Bəxtiyara və mənə də qismət oldu.

Hansı yollasa Türkiyədən Azərbaycanın görkəmli şəxsiyyətlərinə həsr olunmuş kitabı əldə etmişdi. Kitabda vətənin

müstəqilliyi uğrunda ruslarla müharibə aparan və buna görə düşmən hesab edilən Cavad xan haqqında yazı və Cavad xanın yeganə şəkli də verilmişdi. Azərbaycanın Rusiyaya ilhaq olunmasının 150 illiyi dövründə Abbas müəllim və dostu Tofiq Bağırov Cavad xanın şəklini çoxaltdırıb xalq arasında yayırdı.

Sovet dövlətinin qılıncının dalı da, qabağı da kəsdiyi dövrdə, təhlükəsizlik orqanlarının Abbas müəllim kimi «qara siyahıya» düşmüş adamları xüsusi nəzarətdə saxladığı bir vaxtda dəfələrlə mənimlə Novxanı kəndində M.Ə.Rəsulzadənin qohumlarını axtarmağa getmişdi. Mənə dönə-dönə tapşırardı ki, bu barədə kimsəyə danışmayım.

Doxsanıncı illərin əvvəllərində ömrü boyu görmək həsrətilə yaşadığı Türkiyəyə getməyə icazə almışdı. Qaranlıq düşəndə Novxanıya getdik. Rəsulzadənin qohumları Abbas müəllimi doğma adam kimi qarşıladılar. Abbas müəllim bir torba torpaq və xeyli qərənfil götürdü. Az sonra Azərbaycan televiziyası ilə göstərilən verilişdə Rəsulzadənin qəbri üstündə Abbas müəllimin diz çökərək hönkürtü ilə göz yaşı tökdüyünün və göz yaşlarının qəbrin üstünə səpələnən vətən torpağı və qərənfillərlə qarışdığının çoxları şahidi oldu.

Abbas müəllim siyasətçi deyildi və bu işləri onun keçmişə – kökə bağlılığı kimi də izah etmək olardı. Əslində, bunlar daha böyük amala – milli şüurun oyanışına xidmət edirdi. Abbas müəllimin həyat və yaradıcılığında bu qırmızı xətt kimi keçirdi.

Abbas müəllim siyasətçilərə, dövlət xadimlərinə xalqa göstərdiyi xidmətə görə qiymət verirdi. Bu onun vətənpərvərliyindən irəli gəlirdi. Məlumdur ki, son otuz ildə Bakıda çoxlu gözoxşayan, qədim Şərq və müasir Qərb memarlıq üslubunu birləşdirən binalar tikilib. Bu binaların yanından keçəndə mütləq deyərdi: «Bunu Heydər Əliyev tikdirib». Bir dəfə Moskva prospektində ayaqqabı fabrikinin yanından keçəndə maşını saxlatdırdı. Binanın fasadına baxaraq: «Halal olsun Heydər

Əliyevə! Bunu da o tikdirib. Qəzənfər, o, böyük şəxsiyyətdir. Nə yaxşı ki, bunu sən də duyur və qiymətləndirirsən» – dedi.

Əqidə dostum Abbas müəllimin belə düşünməyə əsası vardı. 1972-ci ildən M.F.Axundov adına APİ-də kafedra müdiri işləyirdim. 1989-cu ildə məni, az sonra isə qardaşım Ələsgər müəllimi məktəb direktorluğundan çıxartdılar. Bakı Dövlət Universitetinə keçdim. İngilis dilindən dərs deyirdim. Ağır vaxtlar idi. Bir gün tarix fakültəsinin tələbələri siyasətdən suallar verdilər. Mən də vicdanımın səsi ilə suallara düşündüyüm kimi cavab verdim. Dedim ki, Heydər Əliyev ölkəyə rəhbərlik etsə, xalq bəladan qurtaracaq. Ölkə nicat tapacaq. Azərbaycan parçalanmayacaq. Bir dövlət kimi dünya xəritəsindən silinməyəcək. Çünki Heydər Əliyev nadir şəxsiyyətdir. Nadir şəxsiyyətləri isə tarix az-az yaradır ki, xalqın ağır günündə ona nicat yolunu göstərsin. Gözləmədiyim halda tələbələr həftələrlə dərsimi boykot etdilər. Mən «partokrat müəllim», «Heydər Əliyevin adamı» adını qazandım.

Abbas müəllim mənə təsəlli verərək: «Qəzənfər, dünyada əcaib-qəraib işlər çox olur. Ürəyinə salma. Kişinin başına iş gələr. Dığalara görə mənim başıma nələr gəldiyini yaxşı bilirsən. Sənin üstünlüyün ondadır ki, başına gələnlər böyük bir kişi, böyük bir şəxsiyyət haqqında həqiqəti dediyinə görə gəlib. Sən bununla fəxr etməlisən» – deyirdi.

Həyat hər şeyi öz yerinə qoyandan sonra dərsimi boykot edən, məni təhqir etməkdən çəkinməyən tələbələr həqiqəti dərk etdilər. Məndən üzr istədilər. Mənim haqlı olduğumu təsdiq etdilər. Abbas müəllim deyən kimi də oldu: dediyim sözlərə görə qürur hissi keçirtdim.

Mən Abbas müəllim qədər həssas, qayğıkeş, uşaqları çox sevən az adam görmüşəm. Həftədə ən azı bir dəfə bizə gələr, oğlum Murada oyuncaqlar alıb gətirərdi. Murad isə bütün oğlan uşaqları kimi bir-iki saata oyuncaqların axırına çıxardı. Abbas müəllim zəng edib Muradla danışanda Murad adəti

üzrə: «Abbas baba, tank qırıldı. Özü qırıldı» – deyirdi. Səhərisi gün Abbas müəllim yeni oyuncaqlar alıb gətirərdi. Muradı danışdırardı. Qəhqəhə çəkib gülər və deyərdi: «Ə… Qəzənfər, bu qurumsaq bizi sarıyıb. Deyir ki, tank qırıldı. Tank da özü qırılar?» Ən maraqlısı odur ki, oğlum əsl babasının Abbas müəllim, ya Mikayıl müəllim olduğunu qarışdırardı. Soruşanda deyərdi: «Abbas baba babadı». Heç şübhəsiz buna görədir ki, vaxtaşırı Fəxri xiyabana Abbas müəllimin, elmi rəhbərim akademik M.Şirəliyev, Q.Qasımzadə, Ə.Orucov, A.Dadaşzadə və başqalarının ziyarətinə oğlum mənimlə birlikdə gedir. Abbas babasının qəbrinin üstünə təzə-tər qərənfilləri özü qoyur.

Abbas müəllimin xalq qarşısında, ədəbiyyatımız qarşısında xidmətləri böyükdür. Mən onun ədəbi əlaqələr sahəsindəki xidmətlərini xüsusi qeyd etmək istərdim. Qətiyyən o fikirdə deyiləm ki, başqa ziyalılarımız bu sahədə az iş görmüşlər. Əsla yox. Lakin Abbas müəllimin nəvəsi gənc tədqiqatçı Gülgün Rzayevanın çox doğru olaraq qeyd etdiyi kimi, Abbas müəllim bu işi daha ardıcıl, daha sistemli, daha məqsədyönlü şəkildə həyata keçirirdi.

İstər Şərq, istərsə də Qərb aləmində olsun, Abbas müəllimin ədəbi əlaqələr sahəsindəki gərgin əməyi əvəzsizdir. Həftədə bir dəfə maaşı hesabına aldığı kitabları mənim maşınıma doldurub ya «Dostluq Cəmiyyəti»nə, ya «Vətən Cəmiyyətinə» ya da BDU-nun kitabxana müdiri Sara xanımın yanına aparardıq. Kitablar xarici ölkələrə göndərilirdi. Həmin ölkələr arasında o vaxtlar Sovet dövlətinin qatı düşmən gözü ilə baxdığı Türkiyə xüsusilə fərqlənirdi. Təsadüfi deyildir ki, indi Ərzurum Universitetində «Abbas Zamanov bağış kitablığı» kitabxanası vardır.

Abbas müəllim İraqda yaşayan soydaşlarımızla da sıx əlaqə saxlayırdı. Əta Tərzibaşı, Əbdüllətif Bəndəroğlu, Əli Bəndəroğlu, Sinan Səid, Bahəddin Salehi, Məhəmməd Xurşid və bir çox başqalarına kitablar göndərərdi. Bağdadda çıxan

«Qardaşlıq» jurnalı və «Yurd» qəzetində M.P.Vaqif, M.Ə.Sabir, N.Nərimanov, C.Məmmədquluzadə, M.S.Ordubadi, M.İbrahimov, M.Arif və başqalarına dair maraqlı yazılarla çıxış edirdi. Yaradıcı adamlarla daim məktublaşırdı. Məni də məcbur edirdi ki, əcnəbi ölkələrdə yaşayan ziyalılar və alimlərlə heç olmazsa məktublar vasitəsilə sıx əlaqə saxlayım. Mən «Altı il Dəclə-Fərat sahillərində» kitabımdakı «Məktublar» bölməsinə görə Abbas müəllimə minnətdaram. Açığını deyim ki, bu məktublaşmalardan sonra dərindən dərk etdim ki, ədəbi prosesdə məktubların rolu ölçüyəgəlməzdir.

Şərq aləmi və ədəbi əlaqələr sahəsində Abbas müəllimin maraqlanmadığı bir şey yox idi. Hər dəfə İraqa gedib-gələndə Abbas müəllimin qarşısında «ağır» imtahan verməli olurdum. Saatlarla İraqda yaşayan soydaşlarımızın folkloru, adət-ənənəsi, həyat tərzi, ləhcəsi, görkəmli adamları barədə sual-cavab etməkdən doymazdı.

Bakıda «İraq-Türkman ocağı» yaratmaq fikrimi çox bəyənmişdi. Təəssüf ki, İçərişəhərdə Akademiyanın Ədəbiyyat İnstitutunun «Folklor Elm Mərkəzi»ndə, sonra isə Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində yaratdığım «İraq-Türkman» ədəbiyyatı və mədəniyyəti daimi ekspozisiyasını görmədi.

Abbas müəllim çox ciddi və özünə qarşı həddindən artıq tələbkar idi. Görkəmli alim və ədəbiyyatçı kimi hamı tərəfindən birmənalı qəbul olunduğuna baxmayaraq, qələmindən çıxan hər sözün, hər cümlənin üstündə əsərdi. Şah İsmayıl Xətainin Britaniya Muzeyi kitabxanasında professor Turxan Gənceyi tərəfindən aşkar olunmuş əlyazması və İraqda yaşayan soydaşlarımızla bağlı birgə çap etdirdiyimiz məqalələri yazarkən bunun dönə-dönə şahidi oldum.

Abbas müəllim axşamlar gəzməyi çox sevirdi. Ziyalılar yığışıb axşam gəzintisinə bir yerdə çıxar, görkəmli şəxsiyyətlərin başına gəlmiş maraqlı və qəribə əhvalatları yada salar, məzəli

lətifələr danışar, deyib-gülərdilər. Bəzən də xalqın taleyüklü problemlərindən söz açardılar. Buna adi gəzinti kimi baxmaq olmazdı. Bu gəzintilər açılmamış kitablar idi. Burada hər şey mənim üçün yeni idi. Bir dəfə ədəbiyyatımızı, tariximizi, ümumiyyətlə, mədəniyyətimizi yaxşı bilən və qiymətləndirən Tofiq Bağırovun Abbas müəllimlə Rəsul Rza haqqında maraqlı söhbətinin şahidi oldum. Tofiq müəllim S.Vurğunun xatirə gecəsindəki çıxışından sonra Abbas müəllimin işdən və partiyadan çıxarıldığını və onun keçirdiyi iztirablı anları yada saldı. Hərə Abbas müəllimə bir cür təsəlli verirmiş. Rəsul Rza isə elə Mərkəzi Komitənin binasında «Ay Abbas, fikir eləmə. Bir vaxt gələcək buna qəhrəmanlıq kimi baxacaqlar. Asya xanıma da de ki, sabah bozbaşın suyunu bir stəkan artıq eləsin. Nahara sizə gələcəyəm».

Burada iki cəhət adamı heyran edir, heyrətə gətirir. Birincisi şairin uzaqgörənliyi, ikincisi isə onun mərdliyi. Axı, o vaxtlar siyasi motivlə partiyadan və işdən çıxarılmış, «ləkələnmiş» adamla nəinki oturub-durmağa, hətta ona salam verməyə heç kəs cürət etməzdi.

Abbas müəllim dostluqda möhkəm, etibarlı və sədaqətli idi. Yaxın olduğu adamlarla ailəvi dostluq edərdi. Avtoqrafla kitablarını bağışlayanda «Dostum filankəsə və ailəsinə» yazardı.

Abbas müəllim tez-tez dostlarını yada salardı. Xüsusən də Rəsul Rza, Cəfər Cəfərov və Əlyar Qarabağlıdan danışmaqdan doymazdı. Dünyasını dəyişmiş dostlarının ailələri ilə əlaqəni kəsməzdi. Dostlarının övlad, nəvə və qohumlarına kömək etməkdən usanmazdı. Kiminə ali məktəbə girməkdə, kiminə aspiranturaya daxil olmaqda, kiminə işlə təmin olunmaqda yardımçı olar, kiminsə işi düzələndə sevinərdi.

Səmimiyyətlə deyirəm, bəlkə də, akademik M.Şirəliyev və Abbas müəllim olmasaydı, doktorluq dissertasiyasını müdafiə etməzdim. Tərcümə yaradıcılığı məni elmi işdən ayırmışdı. Elə

bil hər ikisi sözləşib eyni fikri ifadə edirdilər: «Qəzənfər, o mövzunu səndən başqa kimsə işləyə bilməz. Doktorluğunu müdafiə et, nigarançılığımıza son qoyulsun. Dünyamızı rahat dəyişək».

Abbas müəllimin ölümündən az əvvəl qarlı-çovğunlu bir qış günü müdafiədən evə qayıdan kimi Abbas müəllim zəng edib zəif səslə məni təbrik etdi. Artıq yatağa düşmüşdü. İraq səfirinin müdafiədə iştirak edib-etmədiyini, çıxış edib-etmədiyini, daha kimlərin çıxış etdiyini soruşdu. Professor Zinyət Əlizadə və professor Vaqif Vəliyevin müdafiəyə xəstəxanadan çıxıb gəldiklərini eşidəndə onlara təşəkkürünü bildirdi. Rəyinin oxunub-oxunmadığını soruşdu. Bir səhifəlik ürəkdən gələn rəy vermişdi. Əli qələm tutmadığından diktə etmiş, rəyi gəlini Elmira xanım yazmışdı.

Onu da deyim ki, 1969-cu ildə mən namizədlik dissertasiyası müdafiə edəndə Abbas müəllim dərin elmi və alovlu bir çıxış etmişdi. İndi isə tale elə gətirmişdi ki, doktorluq müdafiəsində iştirak edə bilmədi. Səhərisi gün Abbas müəllimə baş çəkməyə getdim. Qonşusu İbrahim kişini çağırtdırdı. Gəlini Elmira xanımdan xahiş etdi ki, saxladığı «Şirvan» konyakını gətirsin. Badələrə bir az konyak süzdürdü. Məni təbrik edib, İbrahim kişinin etirazına baxmayaraq, azca konyak içdi, üzünü İbrahim kişiyə tutub: «İbrahim, sən Allah şahidsən ki, əhd eləmişdim. Şükürlər olsun ki, arzum yerinə yetdi» – dedi.

Xeyirə-şərə, xüsusən də qonaqlıqlara mənimlə gedərdi. Deyirdi ki, səninlə məclislərə gedəndə Asya xanım nigaran qalmır. Bilir ki, sən maşın sürəndə içki içmirsən. Məni rahatca evə gətirəcəksən.

Abbas müəllimin getdiyi məclislər bir xüsusiyyəti ilə seçilirdi. Doğrudur, bu məclislərdə də yemək-içmək bol olardı. Lakin insan burada ən çox mənəvi qida alar, mənən zənginləşərdi. Bir axşam «Qarabağ» restoranında Türkiyədən gəlmiş yüksək səviyyəli qonaqların şəninə qeyri-rəsmi ziyafət düzəl-

dilmişdi. Abbas müəllimi adəti üzrə başda əyləşdirdilər. Həmin məclisdə şahidi oldum ki, ixtisasca riyaziyyatçı olan akademik Fərəməz Maqsudov poeziyamızı dərindən bilir, sevir və başqalarına da sevdirə bilirmiş. Onu da özüm üçün «kəşf» etdim ki, yazıçı Fərman Kərimzadə qeyri-adi ölçülü, maraqlı şeirlər yazırmış. Abbas müəllimin sayəsində məclislərdə olur, çox şey öyrənirdim.

Bir dəfə hüzür yerində idik. Həmyaşları ilə xatirələr danışır, dünyasını dəyişmiş dostlarını yada salır, özlərini çox sərbəst aparırdılar. Məni söhbətə qoşmaq cəhdi bir fayda vermirdi. Evə qayıdanda dedi ki, bir də sənlə hüzür yerinə getməyəcəyəm. Yemək yemirsən, çay içmirsən. Bir kəlmə danışmırsan. Gedib son borcumuzu yerinə yetirdik. Daha nə etməli idik? Ölüynən ölməzlər ki?

Abbas müəllimin bir xüsusiyyəti də vardı. Dünyasını dəyişmiş bəzi insanları son mənzilə yola salanda deyərdi: «Sağ ol, a filankəs». Mənasını soruşanda deyərdi ki, o ölməyib, o bizimlədir. Yaxşı adamlar ölmürlər. Necə ki, biz varıq onlar bizim qəlbimizdə yaşayacaqlar.

Deyilənlər həqiqət idi. Qəbri nurla dolsun, Abbas müəllim bir həyat məktəbi idi. Onunla birgə olduğum hər gün onun yeni-yeni keyfiyyətlərini üzə çıxarırdım.

Bir dəfə «Bakı Soveti» metrosunun yanından keçib gedirdik. Birdən Abbas müəllim maşını saxlatdırdı. Ramiz Mehdiyev səki ilə gedirdi. Təzəcə vəzifədən kənarlaşdırılıb Akademiyaya işə göndərilmişdi. Abbas müəllim təkidlə onu maşına dəvət etdi ki, evinə aparaq. Ramiz müəllim naəlac qalıb maşına mindi. Abbas müəllim maşını öz evinə sürdürdü. Ramiz müəllim nə qədər etiraz etsə də, Abbas müəllim sözündən dönmədi. Evdə bir saatdan çox Ramiz müəllimlə dünyanın gedişatından söhbət açdı. «Vəzifə can sağlığı deyil ki, itirəndə tapmayasan. Su gələn arxdan bir də gələr» deyərək Ramiz müəllimin sağlığına badə də qaldırdı.

Abbas müəllim imkanı daxilində hamıya diqqət və qayğı göstərərdi. Kərküklü ziyalı Bahəddin Salehi ağ qan xəstəliyinə tutulmuş oğlu Əhmədi nicat üçün İraqdan Azərbaycana gətirmişdi. Müalicə xeyli davam etdiyindən ailənin pulu tükənmişdi. Abbas müəllimin tutduğu siyahı əsasında hər gün bir nəfər Bahəddinin ailəsinin bazarlığını edirdi.

Abbas müəllim çox ailəcanlı idi. Nəvələri Aygün və Aytəni həm çox istəyir, həm də taleləri onu narahat edirdi. Buna səbəb vardı. Həyat elə gətirmişdi ki, oğlu Fuad yeni ailə qurmuş, qızlar isə anaları Elmira xanımla qalmışdı. Abbas müəllim hər həftə bazarlıq edib nəvələrinə baş çəkərdi. Yazılmamış qanun halını almışdı, gərək qızlar da həftədə bir-iki dəfə Asya xanımla Abbas müəllimə baş çəkəydilər. Abbas müəllim nəvələri ilə zarafatlaşar, dərd-qəmini unudardı. Görüm çantanızda nə qədər pulunuz var deyib, çantalarına pul da qoyardı. Hər iki nəvəsinin ali təhsil almasında rolu böyük idi. Aygün BDU-nu, Aytən isə N.Nərimanov adına Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirdi. Aygün bu yaxınlarda ədəbiyyatdan namizədlik dissertasiyası müdafiə edəcək.

Bilənlər bilir ki, Abbas müəllimin keçmiş Lenin prospektində «Ştab Armii» deyilən yerdə ikiotaqlı (təzə mənzilə köçəndə bu evi oğlu Fuada vermişdi), N.Nərimanov heykəlinin yanında isə üçotaqlı iki mənzili vardı. Sağlığında hər iki mənzili Aygün və Aytənin adına keçirtdirmişdi. Abbas müəllimin ruhu şad olsun. İndi Aygün və Aytən həmin mənzillərdə ailələri ilə yaşayır və hər mənzildə Abbas müəllimin iki xoşbəxt nəticəsi böyüyür. Yeri gəlmişkən, Abbas müəllim mənzilləri nəvələrinin adına rəsmiləşdirəndə nə Asya xanım, nə də Fuad etiraz etdilər.

Abbas müəllim çox əliaçıq adam idi. Xəstə olduğu son üçdörd ay ərzində Universitetindən maaşını mən alıb gətirərdim. Mənə müəyyən məbləğ pul verib həmişə yardım etdiyi kasıb kişiyə göndərərdi. «Qəzənfər, apar bunu ona ver. Savabdır. Gözü yoldadır».

Lakin bu əliaçıqlıqla bərabər, kiməsə bir kitab verməzdi. Bir dəfə dənizkənarı parkda gəzərkən üzünü uzun illər dostluq etdiyi Tofiq Bağırova tutaraq dedi: «Ay Tofiq, yadındadırmı, bir dəfə Əhməd Cəfəroğlunun Türkiyədə çap olunan «Azərbaycan yurd bilgisi» toplusunu sənə göstərmişdim. Toplu yoxa çıxıb. Bəlkə, səndədir. (Sən demə, toplunu Tofiq müəllimə oxumağa veribmiş.) Tofiq müəllim gülə-gülə dedi ki, axı, toplunu özün mənə bağışladın. Abbas müəllim: «Canım üçün yalan deyirsən. Mən heç kimə kitab bağışlayan deyiləm» – dedi və toplunu geri istədi. Bir dəfə də Ayaz Vəfalı ilə evinə getmişdik. Adətən, Abbas müəllimin stolunun üstündə bir qalaq kitab olardı. Ayaz Vəfalı kitablardan birini götürdü ki, göydə axtarırdı, yerdə əlinə düşdü. İkigünlüyə kitabı Abbas müəllimdən istədi. Abbas müəllim: «O dəfə iki günlüyə apardığın kitabı iki aya zornan aldım» – dedi. Ayaz müəllim söz verdi ki, bir də belə şey olmaz. Oturub çay içdik. Söhbət etdik. Salamatlaşıb ayrılanda: «Ayaz, o kitabı yerinə qoy, sonra çıx» – dedi.

Rəhmətlik sözü elə tərzdə deyərdi ki, sözündən adam inciməzdi.

Lakin bir gün Abbas müəllimin masasının üstündə «Çırpınırdın, Qara dəniz» adlı kitab gördüm. Çox sevinirdim. İllərdən bəri axtardığım bir düyünlü məsələnin izinə düşmüşdüm. Belə ki, tədqiqatçı Əta Tərzibaşı «Kərküк xoyratları və maniləri» kitabında kərküklü müğənni Siddiq Bəndə Qafurun bir azəri şairinin «Çırpınırdın, Qara dəniz» adlı şeirinə bəstələnmiş mahnını oxuduğuna görə başına çox bəlalar gəldiyindən söz açmışdı. Şeir Əhməd Cavadın imiş. Kitabı vərəqlədikcə gördüm ki, şair kərküklülərə bir qoşma da həsr edibmiş. Abbas müəllim özü də sevincək oldu və kitabı mənə bağışladı. Sonralar öyrəndim ki, 1914-cü ildə yazılmış «Çırpınırdın, Qara dəniz» şeirinə bəstələnmiş marş Türkiyənin ali məktəblərində səsləndirilir.

Bir gün akademik Bəkir Nəbiyev ömrünü mühacirətdə – Türkiyədə keçirən Almas İldırımdan söz açmışdı. Onun haqqında kitabını çapa hazırlayırdı. Mən də Türkiyə ilə bağlı «Çırpınırdın, Qara dəniz» əhvalatını danışdım. Aradan xeyli keçdi. Bir axşam ordu stadionuna gəzintiyə çıxmışdıq. Adətən, Abbas müəllim, akademik Bəkir Nəbiyev, professor Əlövsət Abdullayev və mən birgə gəzərdik. Söhbət əsnasında Bəkir müəllim özünəməxsus şirin ləhcə ilə dedi: «Abbas müəllim, eşitdim Qəzənfərə kitab bağışlayıbsınız. Belə güman edirəm ki, biz də bu təmənnada ola bilərik». Abbas müəllimin ucadan gülməyi vardı. Gülə-gülə dedi: «Mirzə Bəkir, bu fikirdən vaz keç. Bir səhvdir olub. Bir daha eşitməzsən ki, Abbas müəllim kiməsə kitab bağışlayıb».

Əslində, Abbas müəllim bunun əvəzini çıxmışdı. Bağdadda çıxan «Qardaşlıq» jurnalının Məhəmməd Xurşidin «M.Ə.Sabir və uşaq şeiri» məqaləsi dərc olunan nömrəsini məndən alıb qaytarmırdı. İki-üç dəfə yadına salmışdım. Bir dəfə də gəlini Elmira xanımdan xahiş etdim ki, bu məsələni Abbas müəllimin yadına salsın. Abbas müəllim yarızarafat, yarıciddi dedi: «Sən kişilərin işinə qarışma». Məsələ mənə aydın oldu.

Abbas müəllimin vəfatından sonra onun kitab və jurnallarını Ədəbiyyat və İncəsənət Arxivinə vermək üçün hazırlayanda «Qardaşlıq» jurnalının həmin nömrəsini də siyahıya saldıq.

Abbas müəllim kitabların üstündə əsərdi. Bir də görərdin əsəbiliklə qışqırdı: «Dünən filan kitabı bu kitabların yanına qoymuşdum. Kitab yoxa çıxıb. Asya, kitabı kim apardı?» Asya xanım özünə xas təmkin və astalıqla gələr, həmin kitabı başqa kitabların arasından tapar, sakitcə Abbas müəllimə verərdi. Araya ani, lakin üzücü bir sükut çökərdi. Asya xanım qayıdıb mətbəxə çatmamış Abbas müəllim ucadan: «Asya xanım (yalnız bir məsələ barədə günahkar olanda «Asya xanım» ifadəsini işlədərdi) bu kitab məsələsi nə böyük problem

oldu ki, bizə çay vermirsən? Bəyəm səni məhkəməyə, prokuraturaya verdik» – deyərdi. Asya xanım gülə-gülə çay gətirər, beləcə gərginlik aradan götürülərdi.

Təbiətcə çox sərt olan Abbas müəllim Asya xanımla münasibətdə çox həlim idi. Asya xanımı həddən artıq çox istəyirdi. Asya xanım evdə olmayanda özünə yer tapmazdı. Asya xanım «Leç-komissiyanın xəstəxanası»nda keçinəndə məni evə göndərdilər ki, cənazəni gətirənə kimi Abbas müəllimi məsələdən hali edim. O vaxtlar o özü də həmin xəstəxanadan təzəcə çıxmışdı. Məni görən kimi «Qəzənfər, nə olub, gözümə birtəhər dəyirsən» – deyə soruşdu. Abbas müəllimi qucaqlayıb üzündən öpəndə özümü saxlaya bilməyib ağladım. İşin nə yerdə olduğunu özü anladı. «Məni həyətə çıxarın, onu özüm qarşılayım, özüm heç, Firuzun axırı necə olacaq Asyasız. O da çox yaşamaz» – dedi və dərindən ah çəkdi.

Abbas müəllim deyən kimi də oldu. Çox keçmədi Abbas müəllim də, Firuz da dünyalarını dəyişdilər.

Lakin Abbas müəllimin gördüyü tarixi işlər, əməllər onu ölümsüz etmişdir. O, nəinki dost və tanışlarının, mübaliğəsiz demək olar ki, bütün ziyalıların qəlbində yaşayır və yaşayacaqdır.

Adını isə 13 yaşlı nəvəsi Abbas Fuad oğlu yaşadır.

ƏDƏBİYYATŞÜNASLIQ ELMİMİZİN İFTİXARI*

Yaşından asılı olmayaraq elminə, mədəniyyətinə, mənəviyyatına qibtə etdiyim, özümə müəllim hesab etdiyim şəxsiyyətlər barədə düşünəndə göz önünə ilk olaraq dostluğundan doyunca kam ala bilmədiyim prof. Yaşar Qarayev gəlir.

Böyük yaradan Yaşar Qarayevə titanik zəka və onu tükənməyə qoymayan heyrətamiz enerji bəxş etmişdi. Novator tədqiqatçı və novator tənqidçi olan Yaşar Qarayev XX əsr Azərbaycan ədəbiyyatşünaslığının və tənqidinin memarlarından biridir – desək səhv etmərik. O, ədəbiyyatşünaslığımıza və tənqidimizə yeni təfəkkür və orijinal üslub gətirən, elmi səviyyəsi ilə seçilən bənzərsiz alimlərimizdən idi. Yaşar Qarayev ədəbiyyatımızın hansı dövründən yazır-yazsın, söz açdığı yazarın yaradıcılığına yüksək peşəkarlıqla yeni elmi baxış gətirən, bədii-estetik fikir tarixində, ədəbi düşüncə və tənqidin inkişafında misilsiz xidmətlər göstərən alimlərimizdəndir. Ədəbi tənqid də ədəbi kompasa bənzəyir, burada da əqrəb həmişə eyni qütbü – həqiqət qütbünü nişan verir – deyən alimin sözləri hədəfə necə də sərrast dəyir.

Onun möhtəşəm əsərlərini oxuduqca elə təsəvvür yaranır ki, Tanrı onu seçilmişlərindən etmiş, ilahi vergi ilə şərəfləndirərək bu dünyaya ədəbiyyatşünaslıq elmimiz yolunda mühüm missiyaları yerinə yetirmək üçün göndərmişdi.

---

* Bax: «Ədəbiyyat qəzeti», 16.03.2007

Vicdanlı peşəkar yaradıcı fəaliyyəti və elmi ona heç bir vəzifə, rütbə, dərəcə, var-dövlətlə əldə edilməyən həqiqi ehtiram, nüfuz qazandırmışdı.

Fəaliyyətə ədəbiyyat elmimizin beşiyi Nizami adına Ədəbiyyat İnstitutunda başlayan Yaşar Qarayev ömrünün sonuna qədər burada çalışmış, laborantlıqdan institutun direktoru vəzifəsinə qədər yüksəlmiş, bu elm ocağına baş ucalığı gətirmiş, onu şərəfləndirmişdi. Təkcə bu faktın özü onun bir şəxsiyyət kimi bütövlüyünə dəlalət edir.

Yaşar müəllimin Ədəbiyyat İnstitutuna rəhbərliyi Sovet sisteminin dağıldığı və keçid dövrünün ağrılı-acılı, mənəvi dəyərlərin tapdalandığı vaxta təsadüf edirdi. Azərbaycan xalqı böyük imtahan qarşısında, təlatümlər içində yaşayırdı. Qarabağ hadisələri, ölkədaxili çəkişmələr, bir çox sahələrdə olduğu kimi, elmimizdə də durğunluğa, laqeydliyə gətirib çıxarmışdı. Belə ağır vaxtda ədəbiyyat aləmində ən nüfuzlu, ən mötəbər alimlər sırasında duran Yaşar Qarayev öz əzmkarlığı, fədakarlığı, böyük alim səlahiyyəti ilə çoxlarına nümunə oldu. Lakin bu izsiz keçmədi. Əvvəlcə infarkt, sonra isə əlacı olmayan xəstəlik ona tuş gəldi. Bununla belə, bizə qalırsa, alimin yaradıcılığının ən məhsuldar dövrü elə bu zaman kəsiyinə düşür. Ümumiyyətlə, Yaşar Qarayevin müxtəlif dillərdə 38 monoqrafiyası və kitabı, 470 məqaləsi çap olunub. Onun rəhbərliyi ilə 35 nəfər müdafiə edərək elmlər namizədi, 7 nəfər elmlər doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Görkəmli alimlərimizdən Məmməd Arif, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Bəxtiyar Vahabzadə, Ağamusa Axundov, Azad Mirzəcanzadə, Mehdi Məmmədov, Anar, Elçin, Qabil, Azadə Rüstəmova, İsa Həbibbəyli, Teymur Bünyadov, Həmid Nitqi, Məmmədəli Fərzanə, Əbdüllətif Bəndəroğlu, Yavuz Akpinar, Nizami Cəfərov, Kamal Abdulla, Tofiq Məlikli, Şamil Salmanov, Şirindil Alışanov, Gülrux Əlibəyli, Məhərrəm

Qasımlı, Sələhəddin Xəlilov, Nizaməddin Şəmsizadə və bir çox başqaları Yaşar müəllimin yaradıcılığına sanballı məqalələr həsr etmişlər. Onların sayı 170-i keçir.

Bu böyük alimə həcmcə kiçik olsa da, üç monoqrafik əsər həsr olunub: Tehran Əlişanoğlu. «Yaşar Qarayev. Şəxsiyyəti və ömür yolu» (redaktor Q.Paşayev). Qurban Bayramov və Jalə Qurbanqızı. «Yaşar Qarayev: Milli yaddaş təlimi – Azərbaycançılıq». Vüsalə Süleymanova. «Yaşar Qarayev meyarları».

Bizə belə gəlir ki, sahilsiz ümmana bənzəyən, təfəkkürü, bilik dairəsi, səviyyəsi bambaşqa olan Yaşar Qarayevin yaradıcılığına dair bu əsərlər onun irsinin tədqiqi sahəsində olsa-olsa başlanğıcdır.

Yaşar Qarayev ədəbiyyat elmində məxsusi yeri olan, ucalığı, əzəməti ilə seçilən, milli ruhda böyüyən, fəqət beynəlmiləlçi alim idi. Cəfər Cabbarlının yazarlarla bağlı söylədiyi «Ədiblərin fikri əsrləri qabaqlamaqdır» kəlamı ədəbiyyatşünaslıq sahəsində sanki Yaşar Qarayevin boyuna biçilmişdi. O, ədəbi prosesdə stixiyalı gedişatı ilk dərk edənlərdən, ədəbi-bədii hərəkatı istiqamətləndirənlərdən – öncüllərdən olmuşdur. Yaşar Qarayev istər klassik ədəbi irsə, istər müasir ədəbi

irsə, istərsə də ədəbi tənqidə münasibətdə 60-cılar nəslinin ən parlaq nümayəndəsi olmuş, prof. Ağamusa Axundovun qeyd etdiyi kimi, ortaqsız və rəqibsiz mövqeyini ahıl yaşlarında da bütövlüklə saxlaya bilmişdir.

Yaşar Qarayev nəinki ölkəmizdə, hətta onun sərhədlərindən çox-çox uzaqlarda, beynəlxalq aləmdə tanınan, etiraf edilən alimlərimizdəndir. Bunu hamıdan əvvəl duyan akad. Bəkir Nəbiyev xüsusi vurğulayır ki, Yaşar Qarayev bu mərtəbəyə ədəbiyyat nəzəriyyəsi sahəsindəki əsərləri ədəbiyyatşünaslıq elminin nailiyyətləri cərgəsinə çıxdıqdan sonra yüksəlmişdi.

Aydın məsələdir ki, bu mərtəbəyə ensiklopedik biliyə, analitik təfəkkürə, kəskin məntiqə, yaradıcılığa özünü fəda etmək qüdrətinə malik tədqiqatçılar yüksəlir və orada bərqərar olurlar. Tale bu mərtəbəni Yaşar Qarayevə qismət etmişdi.

Akad. B.Vahabzadənin göstərdiyi kimi, Yaşar Qarayevi məşğul edən problemlər miqyaslı və möhtəşəm idi: intibah, maarifçilik, realizm, romantizm, sosialist realizmi, inqilabi romantika, faciə, komediya, lirika, satira və s.

O, qələmini hansı sahədə çalır-çalsın, orada heyrətamiz sevgiyə gətirib çıxaran bir laləzar yaradırdı. Maraqlıdır ki, o, Anarın qeyd etdiyi kimi, hər şeyə tənqidçi və mütəfəkkir olaraq yetişdiyi dövrün baxış nöqtəsindən nəzər salırdı.

Yaşar Qarayevi ədəbiyyatımızın filosofu adlandıran prof. Nizami Cəfərov tərəddüd etmədən etiraf edir ki, istər təfəkkürünün səviyyəsinə, istərsə də qələminin miqyasına görə həmkarları onunla müqayisəyə çətin gəlirlər.

Prof. Şirməmməd Hüseynov tək bircə cümlədə Yaşar Qarayev qələminin miqyasını və səviyyəsini açıb göstərə bilmişdir: «Yaşarın istedadı, təxəyyülü və təfəkkürü qələmə aldığı, haqqında fikir və söz dediyi böyük şəxsiyyətlərin, mütəfəkkirlərin səviyyəsinə uyğun olduğu üçün tutarlı, elmi və ehtiraslı olur».

Alim adını daşımaq asan iş deyil. Alimlər öz qələmi, sözü və şəxsiyyəti ilə həmişə xalqın diqqət mərkəzində olurlar. Elə-

ləri var ki, haqqında söz deyəndə ifrata varmaqdan, oxucu və tədqiqatçıların məzəmmət yeri olmaqdan çəkinirsən. Sözü ehtiyatla seçirsən. Elələri də var ki, haqqında ən mötəbər sözləri belə deməkdən çəkinmirsən. Bilirsən ki, elm aləmində etiraf olunan, böyük nüfuz sahibi olan bu alimlər hər cür tərifə və təqdirə layiqdirlər. Analitik təfəkkür sahibi Yaşar Qarayev belə xoşbəxt alimlərdəndir. Bu onun müəllimləri, həmkarları, dostları və tələbələrinin fikirlərində də açıq-aydın özünü büruzə verir. İkicə misalla kifayətlənəcəm.

«Yaşar Qarayev Azərbaycan ədəbi-estetik fikrini ən yüksək meyarlar ilə qiymətləndirməyi, təhlil etməyi bacaran, buna elmi-nəzəri gücü, mərifəti çatan, milli sədləri aşaraq sənəti bəşəri dəyərlərlə ölçüb-biçən, kamilliyi ilə seçilən, heyrət doğuran şəxsiyyətlərimizdəndir» (Kamal Talıbzadə).

M.Fərzanə: «Onun geniş sahəli elmi-analitik yaradıcılıq qüdrəti, ortaya çıxardığı sanballı tənqidi əsərlər və hamıdan əvvəl bu böyük alim və nəzəriyyəçidə olan ədəb-ərkan, kamal, təvazökarlıq, işbilərlik və səssiz çalışqanlıq məni heyrətləndirirdi...»

Əslində, bu təkcə Fərzanəni deyil, ixtisasından asılı olmayaraq Yaşar Qarayev qələminə, istedadına az-çox bələd olan bütün elm adamlarını heyrətləndirirdi.

Son dövrlərdə Yaşar Qarayevi keşməkeşli dünyamızın gedişatı, bəşəri problemlər daha çox düşündürürdü. Onun gəldiyi gözlənilməz nəticələr, apardığı müqayisələr insanı yaxşı mənada heyrətə gətirir: «Son iki əsrdə dünya fəlsəfi və əxlaqi tərəqqisində Şərq öz fəal, ənənəvi mənəvi təsir və cazibə sehrini itirdi. Durğunluq, sxolastik dövr başlandı. Zamana, planetə, öz fərdi iradəsini və hökmünü Qərb tək diktə etməyə başladı. İslamın gerçəkləşdirməkdə ətalətli olduğu idealları və ideyaları Qərb gerçəkləşdirərək gücləndi».

Milli soykökə bağlılığa münasibətdə Yaşar Qarayev müqayisəyəgəlməzdir: «Dünyada heç nə əcdadın uyuduğu

məzar qədər, bir də əcdad məzarını bətnində bəsləyən torpaq qədər müqəddəs olmur».

Yaşar Qarayev Azərbaycan xalqının soykökü məsələsində nəinki dilçiləri, tarixçiləri, etnoqrafları, toponimistləri, hətta türkoloqları belə mat qoyan bir həqiqəti açıqlamışdır. O, Azərbaycan xalqının soykökünü bilərəkdən, müəyyən məqsədlərlə qarışdıranların, başqalarının dəyirmanına su tökənlərin, adı ehtiramla çəkilən görkəmli alimlərimizə qara yaxanların, sapı özümüzdən olan, kəsib yox etməyə meyilli üzdəniraq tədqiqatçıların fikirlərini tutarlı, təkzibolunmaz dəlil-sübutlarla alt-üst etmişdir:

«Hətta milli şərqşünaslıqda və türkologiyada da yevropasentrist təmayül-elmilik və mötəbərlik əlaməti sayılmış hər cür sağlam-millətçi təşəbbüs isə pataloji, psixi baxımdan naqislik, qeyri-kamillik, metodoloji baxımdan isə diletantlıq kimi qarşılanmışdır. Bu ona səbəb olmuşdur ki, yalnız qeyri-türk (Avropa, rus, çin, hind, hətta erməni) mənbələr və konsepsiyalar, türkün tarixinə və taleyinə münasibətdə yeganə doğru meyarlar və doktrinalar kimi məqbul hesab edilmişdir».

Açığını deyim ki, Yaşar Qarayev haqqında yazmaq qərarına gələndə təkcə onun folklorşünaslıq fəaliyyətindən, bu sahədə səmərəli işlərindən söz açmaq istəyirdim. Lakin görkəmli alimin çoxvüsətli stixiyası məni ağuşuna alıb bu məcraya yönəltdi.

Etiraf edim ki, Yaşar müəllimlə məni yaxın edən, hər şeydən əvvəl, folklor olmuşdur.

Həyatının və yaradıcılığının son dövrlərində o, özünün dəqiq işlətdiyi obrazlı ifadələrlə desək, hikmətdən, sözdən təməl və daş qoyan, əzəli, ədəbi, vahid mənəvi məkan hissinin, şüurun stixiyasında, əsatirdə və bayatıda, nağılda və dastanda yaşadan, xalqın bütövlüyünü, soyunu, əslini, zatını inamda, düşüncədə, mənəviyyatda parçalanmaqdan qoruyan folklor barədə, onun nəzəri məsələləri, istiqamətləri barədə bir-birin-

dən sanballı məqalələr yazmışdı. Mülahizə və düşüncələrini ehtiva edən çox böyük həcmli «İki əsr və iki era ayrıcında», «Folklorumuzun tarixi», «Milli folklorun toplanması, tədqiqi və nəşri – milli intibahın şərti və zəminidir», «Prototip – şəkilidir, yaxud nəfəsdə zümzümə, tələffüzdə rəqs – Şəki şivəsi», «Göyçəyə qayıdan yol folklordan keçir», «Bayatıdan – xoyratdan başlayan yollar və illər» belələrindəndir.

Yaşar Qarayevin Şəki və Göyçə folkloruna həsr etdiyi möhtəşəm məqalələri istər-istəməz mənim yadıma Mehdi Hüseynin Məmməd Hüseyn Təhmasibin tərtibində «Bayatılar», Elçinin Bəhlul Abdullanın tərtibində «Arazam Kürə bəndəm» kitabına, Rəsul Rza və Bəxtiyar Vahabzadənin böyük səxavət və məftunluqla Kərkük xoyratlarına və folkloruna həsr etdikləri məqalələri salır.

Folklorla bağlı Yaşar Qarayevin miqyaslı elmi-təşkilati işləri, mühüm müddəaları özünün yaratdığı «Folklor Elm Mərkəzin»də, sonralar isə «Folklor İnstitutu»nda uğurla həyata keçirilməyə başladı. Başqa ölkələrdə olduğu kimi, orada da vahid milli arxiv, çoxsaylı nümunələri əhatə edən vahid kartoteka yaradıldı. «Azərbaycan folkloru antologiyası»nın Naxçıvan, Göyçə, Şəki, Şəki-Zaqatala, Şirvan, İraq–türkman, Qarabağ, Qaraqoyunlu və başqa cildləri çap olundu. İndi fundamental folklor abidələri, yüz cildlik «Azərbaycan folkloru külliyyatı»nın və «Azərbaycan folkloru atlası»nın çapına hazırlıq gedir. Bütün bunlar birbaşa Yaşar Qarayevin adı ilə bağlıdır. Yaşar müəllim Azərbaycan folkloru atlasını mənəviyyat xəritəmiz adlandırır və xəritəmiz yalnız folklorda dəyişməyib deyirdi. O, Azərbaycan folklorunun yayılma arealının hər bir məntəqəsinin məziyyətlərindən söz açır: «Göyçəni dastansız, Şuşanı bayatısız, Kərkükü xoyratsız, Şəkini lətifəsiz təsəvvür etmək qeyri-mümkündür» – hökmünü verirdi.

Şəki lətifələrindən danışarkən heç kimin ağlına gəlməyən bir tərzdə onların məziyyətlərini açıqlayırdı: «Hətta ən adi

mətn də tələffüzdə, nitqdə bu şivəyə köklənəndə ondan pıqqıltı, qaqqıltı, şaqqanaq səsi gəlir. Lətifə qəhqəhəsi Şəkinin şöhrət və sərvətidir... Şəki lətifələrini «anlamağın zövqü», «qanmağın nəşəsi» adlandırmaq olar» – deyə maraqlı qənaətə gəlmişdi.

Kərkük folkloruna böyük maraq göstərən Yaşar Qarayev kərküklü alim, prof. Subhi Saatçı ilə birgə «Türkiyə dışında türk ədəbiyyatları antologiyası» silsiləsindən İraq-türkman cildini hazırlayaraq çap etdirmişdir (Ankara, 1997, 464 səh.) Qeyd edək ki, kitabda folklora dair hissələr bizim Bakıda çap etdirdiyimiz «Kərkük folkloru antologiyası»ndan götürülmüş və məxəz kimi göstərilmişdir. Sonralar Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə keçirilən «İraq–türkman Ədəbiyyatı və Mədəniyyəti» ocağının «Folklor Elm mərkəzində» yaradılmasının ideyasını da Yaşar Qarayev vermişdi.

Ədəbiyyat İnstitutunda İraq-türkman folkloruna dair beynəlxalq konfransın keçirilməsinin təşəbbüskarı da o idi.

Ə.Bəndəroğlu ilə birgə tərtib etdiyimiz və Ədəbiyyat İnstitutunun «Folklor Elm Mərkəzi»nin nəşr etdiyi «Azərbaycan folkloru antologiyası», İraq–türkman cildi (Bakı, 1999, 468 səh.) kitabının işıq üzü görməsi də onun adı ilə bağlıdır. Redaktoru olduğu həmin kitabın adını da özü qoymuşdu. Kitabın 40 səhifədən artıq «Bitib-tükənməyən incilər xəzinəsi» adlı giriş məqaləsini ciddi şəkildə redaktə etdi. Təəssüflə deməliyəm ki, məqalənin hər sətrində dəst-xətti aydınca görünsə də, israrıma baxmayaraq, adının həmmüəllif kimi getməsinə razı olmadı.

Artıq xəstəlik onu üstələsə də, akad. Bəkir Nəbiyev və Ayaz Vəfalı ilə mənim İstanbulda Kərkük vəqfinin çap etdiyi «İraq–türkman folkloru» kitabımın təqdimat mərasiminə getdi və insanlarla dolu möhtəşəm salonda Kərkük folkloruna dair maraqlı mülahizələr irəli sürdü. Bütün bunları sadalamaqda məqsədim Yaşar müəllimin folklora olan vurğunluğunu xüsusi vurğulamaqdır.

Həyatının son aylarında deyirdi ki, sağalan kimi Kərbəlada Füzuli babamızı, Kərkükdə onun nəvə-nəticələrini, kötücələrini bir daha ziyarət edərik. Dəfələrlə Ə.Bəndəroğlunun «Ədəbiyyat qəzeti»ndə Yaşar müəllimin 60 illik yubileyi münasibətilə çap olunan yazısını yada salırdı. Güman ki, bu da Kərküklə, folklorla bağlı olduğuna görə idi. Ə.Bəndəroğlu yazırdı:

«Qardaşım Yaşar! Bizi bir-birimizə bağlayan böyük xalq mirasımız vardır. Tək bir dilin bu mirasına bizdə xoyrat, sizdə bayatı deyirlər. Bu xoyrat və bayatılarla öz-özümüzü ovundurduq, dərdimizi, qəmimizi yüngülləşdirmək istədik, yaşamaq üçün mücadiləni davam etdirərək ömür keçirdik:

Yaşar könlüm;
Qəm içər, yaşar könlüm.
Dostların arzusuyla
Çırpınar, yaşar könlüm.
Bağdadda bir ah çəkər,
Bakıda yaşar könlüm».

Məlumdur ki, Yaşar müəllim fikir adamı idi. Obrazlı şəkildə fikrini elə ifadə edirdi ki, sanki mənsur şeir oxuyur. Lakin son vaxtlar onda əvvəllər müşahidə etmədiyim bir ovqatın şahidi oldum. Bu artıq onun ümidsizliyə qapıldığı dövrə təsadüf edirdi. Hərdən astadan dərin fəlsəfi şeir və bayatılar deyərdi. Xüsusən də aşağıdakı bayatını qəribə tərzdə deyər, acı təbəssümlə fikrə dalardı.

Keşdi ömrüm,
Gör necə keşdi ömrüm.
Harayladım dönmədi,
Elə bil heşdi ömrüm.

Yaşar Qarayev ömürlərə bərabər, mənalı bir ömür yaşadı. Vaxt sərvətdir deyərək yazıb-yaratdı, ədəbi ölməzlik qazandı.

SON ŞƏKİL*

Bayatı, layla və oxşamalarımızdan danışanda ecazkar rübaba dönən, qəlbləri təlatümə gətirən, keçmişimiz, məişətimiz, adət-ənənələrimizdən danışanda bəlağətli nitqi ilə insanı məftun edən, analar anası kimi tanıdığımız Əzizə xanımın ölüm xəbəri bir çoxları kimi, mənim də qəlbimi sızıldatdı.

«Fatma xanım Kəminə», Könül çırpıntıları», «Azərbaycanın aşıq və şair qadınları», «Şirvanın üç şairi» və s. kimi əsərləri ilə elmi ictimaiyyətin rəğbətini qazanan Əzizə xanım «Aləmdə səsim var mənim», «Bakı–1501», «Cəlaliyyə», «Sənsən ümidim», «Zərrintac», «Gülüstandan öncə», «Vətənə qayıt», «Eldən-elə», «Bəla» kimi bir-birindən maraqlı romanları ilə həm gənclərin, həm də yaşlı nəslin sevimlisinə çevrilmişdi. Bu əsərlər ona bir yazıçı kimi böyük şan-şöhrət, ad-san qazandırmışdı. Lakin sadəliyi və təvazökarlığı ilə seçilən müdrik ağbirçəyimiz ad-sana, şan-şöhrətə münasibətdə çoxlarımızdan fərqlənirdi. O, bunu son qərarı ilə də təsdiq etdi. Öz alın təri, zəhməti ilə qazandığı, layiq görüldüyü «Xalq yazıçısı» adı, «Xalqlar dostluğu», «Şöhrət» ordenləri və s. kimi təltiflər imkan verirdi ki, Fəxri xiyabanda dəfn olunsun. Lakin ata-anaya tükənməz məhəbbəti onu bu imtiyazlardan könüllü olaraq imtina etməyə sövq etdi. Son qərarı belə oldu: «Məni ata-anamın yanında basdırarsınız».

İstər saysız-hesabsız çıxışlarında, istərsə də yazılarında Əzizə xanım həmişə dinləyici və oxucularına böyüklərə, xüsu-

* Bax: «Ədəbiyyat qəzeti», 12.09.2003. s. 2.

sən də ata-anaya hörmətdən söz açar, anasından öyrəndiklərini məhəbbət və ehtiramla yaddaş süzgəcindən keçirərdi. Əzizə xanımın son qərarı onun sözü ilə əməlinin düz gəldiyini göstərir. Bu onun bir şəxsiyyət kimi bütövlüyünə, son anda da şan-şöhrətə uymamağına dəlalət edir. Belə adamlar həyatda az da olsa, olmuş və olacaq. Uzun illər İngiltərəyə rəhbərlik edən V.Çörçil də Londonda rəsmən ən şərafətli sayılan yerdə deyil, Oksford şəhəri yaxınlığında, doğma Blenim kəndində, ata-anasının ayaq ucunda basdırılmağı vəsiyyət etmişdi. İndi ölkəyə gələn əcnəbilər də daxil olmaqla, hamı onu ziyarət edir. Yeri gəlmişkən, V.Şekspirin də qəbri Stratfordda ziyarətgaha çevrilib. Bu, mənə belə bir qənaətə gəlməyə imkan verir deyim ki, sağlığında xalqın hörmət və ehtiramını qazanmış adam dünyasını dəyişəndə harada basdırılsa, orada fəxri bir guşə yaranır. Onu onsuz da ziyarət edəcəklər. Böyük alim, pedaqoq və görkəmli yazıçımız Əzizə xanım ümumxalq məhəbbəti qazanmışdı. Buna görə də şübhə etmirəm ki, Əzizə xanımın əvvəllər Şamaxıya, inzibati ərazi bölgüsünə görə, indi Hacıqabula baxan Tağılı kəndində qəbri ziyarətgaha çevriləcək. Bu işdə məktəblilərin rolu böyük olacaq. Ona görə ki, Əzizə xanım məktəblilərin təhsilinə böyük qayğı göstərirdi. Tağılı kəndində vaxtilə kitablarından aldığı qonorar və məvacibi hesabına orta məktəb binası tikdirmişdi. (İndi məktəb Əzizə xanımın adını daşıyır – Q.P.) Əzizə xanım çox nəcabətli bir insan idi. O, Cəfərzadələr nəslinin güvənc yeri olmuş, onların görkəmli alim, yazıçı və s. kimi yetişməsində az əmək çəkməmişdir.

Əzizə xanım millətin ağrıları ilə yaşayan, mənsəbpərəstlikdən, şan-şöhrətdən uzaq, ictimaiyyət tərəfindən etiraf edilən gözəl ziyalımız idi. Az adam inanar ki, Əzizə xanım hətta 80 illik yubileyinin keçirilməyinə belə razılıq vermirdi.

Bizi bir-birimizə bağlayan tellər çox idi. Əzizə xanım da İraqda olmuş, sayları iki milyon yarımı keçən soydaşlarımızla təmasda olmuş, vətənə döndükdən sonra onların adət-ənənəsi, məişəti və folkloruna dair maraqlı məqalələr yazmışdı.

Son vaxtlar İraqda baş verən hadisələr onu çox narahat edirdi. Tez-tez telefon açır, ya da evinə dəvət edir və soydaşlarımızın taleyi ilə maraqlanırdı. Kərküklülər barədə söhbət etməkdən doymazdı. Bir dəfə isə arzu etdi ki, onu N.Gəncəvi adına Azəbaycan Ədəbiyyatı Muzeyində yaratdığım «İraq-Türkman Ədəbiyyatı və Mədəniyyəti» ekspozisiya zalına baxmağa aparım. Xəstə idi. Üçüncü mərtəbəyə çıxmaq ona çətin olardı. Odur ki, tərəddüd etdim. Lakin təkid etdi. Sən demə, başqa fikri də varmış. Kərkükdən gətirdiyi xatirə əşyalarını muzeyə hədiyyə etdi. Təəssüratını isə xatirə dəftərinə yazdı.

Əzizə xanım həddən artıq xeyirxah, təmənnasız və qərəzsiz adam idi. Bəlkə, bu onun haradasa folklorşünas olmağı ilə bağlı idi. Təsadüfi deyildir ki, V.Belinski bu münasibətlə yazırdı: «Böyük zəhmət və fədakarlıqla xalq ədəbiyyatının qiymətli gövhərlərini toplayan və onları unudulub tələf olmaqdan qoruyan adamlar təvazökar, xeyirxah, təmənnasız və qərəzsiz olurlar».

Mən bütün vəziyyətlərdə Əzizə xanımı Belinskinin dediyi kimi görmüşdüm. Doktorluq müdafiəmdə əziyyət və məsuliyyəti boynuna götürərək birinci opponentim olmuşdu. Kitablarım haqda mətbuatda müsbət rəylər yazmışdı.

Yəqin bütün bunları nəzərə alaraq sözümü yerə salmadı. Milli Elmlər Akademiyamızın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Yazıçılar Birliyi ilə birgə yubiley mərasimi keçirməsinə etiraz etmədi. Respublikanın ədəbi ictimaiyyətinin, görkəmli ədəbiyyatşünas alimlərin əksəriyyətinin iştirak və çıxış etdiyi, Əzizə xanımın bir alim, pedaqoq və yazıçı kimi fəaliyyətini yüksək qiymətləndirdiyi məclisdə Əzizə xanım yenə kərküklüləri yada saldı. Kərküklü alim Əta Tərzibaşıdan eşitdiyi lətifəni söyləyərək hamını güldürdü. O, ümumiyyətlə, yumoru çox sevərdi. Bəzən əsl mətləbi yumor vasitəsilə çatdırardı. Bugünkü kimi yadımdadır. Əzizə xanıma «Xalq yazıçısı» adı veriləndə televiziya

müxbiri onu təbrik edərək nə hislər keçirdiyini soruşanda, Əzizə xanım əhvalını pozmadan dedi ki, 1979-cu ildə ölümündən bir az əvvəl Əbülhəsənə «Xalq yazıçısı» adı vermişdilər. Yığıncaq keçiriləcəkdi. Məni də rəyasət heyətinə dəvət etmişdilər. Pərdə arxasında Mərkəzi Komitədən gələcək vəzifəli şəxsləri gözləyirdik. Əbülhəsən o yana, bu yana gedir, elə hey deyirdi: «Gecdir, gecdir».

Əzizə xanımın 80 illik yubileyi tədbirində «Ədəbiyyat qəzeti»nin fotoqrafı Dilavər onun ayrıca şəklini çəkmişdi. Şəkil çox xoşuna gəldi. Mənə dedi ki, mənim heç vaxt belə ürəyim istəyən şəklim olmayıb. Bu şəkil o qədər xoşuma gəlir ki, bundan sonra bir də şəkil çəkdirməyəcəyəm. Sonra isə yarızarafat əlavə etdi: «Qoy elə bu gözəllikdə də qalım».

Heç ağlıma gəlməzdi ki, tez bir zamanda Əzizə xanım dünyasını dəyişəcək, ona vida sözü yazmalı olacam və həmin şəkildən belə bir məqamda istifadə edəcəm.

Gözəl insan, böyük alim, yazıçı və pedaqoq, filologiya elmləri doktoru, professor Əzizə xanım Cəfərzadənin əziz xatirəsi mənim yaddaşımda son şəkildə olduğu kimi qalacaq.

NƏCABƏTLİ ADAM*

Nəsir müəllim deyəndə ilk olaraq göz önünə «Bakı» qəzeti, «Bakı» qəzeti deyəndə Nəsir müəllim gəlir. Bu heç də təsadüfi deyildir. «Bakı» axşam qəzetinin yaradıcısı Nəsir müəllim, sözün həqiqi mənasında, bu mətbu orqanı çox mötəbər qəzetlər səviyyəsinə qaldırmış, oxucuların sevimli qəzetinə çevirmişdi. Keçən əsrin 50-ci illərinin sonu idi. O vaxt mən Dillər İnstitutunun İngilis-Azərbaycan dilləri fakültəsində oxuyurdum. İnsanlarda elmə, biliyə, ədəbiyyata qəribə bir ehtiras vardı. «Bakı» qəzetində Həsən Seyidbəylinin «Cəbhədən cəbhəyə» povesti çap olunurdu. Qəzet axşamüstü çıxdığından adamlar onun növbəti sayını əldə etmək üçün saat 5-dən qəzet köşklərinin qabağında növbə tuturdular. Azərbaycan ədəbiyyatına yeni ab-hava gətirən bu əsərə böyük maraq, «Bakı» qəzetinə böyük tələbat vardı. Həmin vaxt mən Lenin və Sabir adına kitabxanalarda gənc yazarlar üçün təşkil olunmuş dərnəklərə gedirdim. Kitabxanalar bir-birinə çox yaxın olduğundan hər iki dərnəyə gözəl şairimiz Tofiq Mütəllimov rəhbərlik edirdi.

Qərara alınmışdı ki, «Cəbhədən cəbhəyə» əsərini müzakirə edək. Əsərin məziyyətləri, səciyyəvi xüsusiyyətləri və s. barədə məruzə mənə həvalə olunmuşdu. Yığıncağa Həsən Seyidbəylinin özünün də gələcəyi gözlənilirdi. Odur ki, Tofiq müəllim məni «Bakı» qəzeti redaksiyasına göndərmişdi ki, əlavə mə-

* Bax: Mətbuatımızın klassiki. Bakı, 2006, s. 252–253

lumat toplayım. Qəzetin «Ədəbiyyat» şöbəsində nasir Qeybulla Rəsulov və ulduz kimi parlayan gənc şair Cabir Novruz işləyirdi. Təkcə bu fakt Nəsir müəllimin əməkdaşları necə seçməsini və bunun nəticəsində böyük uğurlar qazanmasını şərtləndirən amillərdir.

Maraqlıdır ki, o vaxt «Bakı» qəzetində «İlin ən yaxşı hekayəsi» adı altında gənc yazarlar arasında müsabiqə keçirilirdi. Nəsir müəllimlə şəxsən ilk dəfə bu vaxt tanış olmuşdum. Dərnəkdə oxuduğum «Ürəkdə məşəl» adlı hekayəmin süjeti ilə üst-üstə düşən bir hekayə müəllifi müsabiqədə birinci yeri tutmuşdu. Mənim xahişim ilə komissiya yaradılmışdı. Bir gün dedilər ki, qəzetin redaktoru Nəsir İmanquliyev səni çağırır. Suçlu adamlar kimi qorxa-qorxa Nəsir müəllimin iş otağına girəndə qalxıb əl verdi və əyləşməyə yer göstərdi. Mənimlə çox mehriban davrandı. Dedi ki, oğlum, dünyanın bir-birindən çox uzaq guşələrində bir də görürsən ki, eyni vaxtda kəşflər edirlər. Süjeti uyğun gələn əsərlərə də çox təsadüf edilir. Bununla belə deməliyəm ki, o, (həmin adam indi də yaşayır. Odur ki, adını çəkmək istəmirəm) sənin hekayəndən bəhrələnib. Eşitmişəm Mürşüd Dadaşov onun haqqında felyeton yazmaq fikrindədir. Təsəvvür edə bilmirəm bu işin axırı necə ola bilər. Gəncdir, hətta özünə qəsd də edə bilər. Sən bu məsələni özünə dərd eləmə. İngilis dilindən Azərbaycan dilinə birbaşa tərcümələr yoxdur. Məsləhət görürəm qələmini bu sahədə sınayasan. Mənə sizin institutdan məlumat verdilər ki, sən Abdulla Şaiqin «Məktub yetişmədi» və Cəfər Cabbarlının «Firuzə» hekayələrini ingilis dilinə tərcümə edərək müsabiqədə 2-ci yeri tutmusan. Bu məni sevindirdi. Sən tərcümə işinə fikir ver.

Vaxt keçdi. İraqda altı il tərcüməçi işləyərkən orada yaşayan azərbaycanlıların ləhcəsini və folklorunu tədqiq etməyə başladım. «Bakı» qəzetində vaxtaşırı məqalələrim çıxmağa başladı. Sonralar ABŞ-da ixtisasartırma kurslarında olarkən

Azərbaycan dilinə dair çoxlu tədqiqatların şahidi oldum. «Bakı» qəzetində «ABŞ-da Azərbaycan dilinə dair araşdırmalar» adlı məqalə ilə çıxış etdim. «Ədəbiyyat qəzeti»ndə xeyli sayda yazılarım çıxdı. Bir gün dedilər ki, Nəsir müəllim səni görmək istəyir. Çox sevindim. Elə güman edirdim ki, məni çoxdan unudub. Amerika həyat tərzi, mətbuat, təhsil və s-dən danışdıq. Tərcümələrimlə maraqlandı. «Ədəbiyyat və incəsənət» qəzetində çıxan «Böyük maraq» məqaləm xoşuna gəlmişdi. Yenə də ingilis dilindən Azərbaycan dilinə birbaşa tərcümənin əhəmiyyətindən söz açdı. Onun mehribanlığı, sadəliyi, xeyirxahlığı məni heyran etmişdi.

Aradan illər keçsə də, Nəsir müəllimin məsləhətləri yadımdan çıxmır. Bədii tərcümə sahəsində qazandıqlarıma görə o nəcabətli insana minnətdaram.

Deyirlər nəcabətli adam hər yerdə doğulmur. Ancaq belə müdrik harada doğulursa, orada bütöv bir xoşbəxt nəsil çiçəklənir. Heykəlini yaddaşlarımızda əbədiləşdirən, elmlə əbədilik qazanan görkəmli şərqşünas alim, filologiya elmləri doktoru prof. Aida xanım İmanquliyeva, müasir ədəbiyyatımızı layiqincə təmsil edən, görkəmli yazıçı və alim Mir Cəlal müəllimin davamçısı Nərgiz xanım Paşayeva, mədəniyyətimizi, mənəvi dəyərlərimizi, dövlətçiliyimizi xaricdə və vətənimizdə ləyaqətlə təmsil edən, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın həyat və fəaliyyəti bu müdrik kəlamın doğruluğundan və böyük mətləblərdən söz açır.

HƏLİM XASİYYƏTLİ, DAĞ VÜQARLI... *



Deyirlər yaradıcı adam yüksək dəyərlər xəzinəsidir. Gözəl şair və ədəbiyyatşünas alim Qasım Qasımzadəni anarkən ilk olaraq gözlərim önünə onun bu keyfiyyətləri gəlir. Həlim xasiyyətli, dağ vüqarlı Qasım müəllim nə qədər sadə, təvazökar, eyni zamanda nə qədər də savadlı idi. Xalq danışıq dilini incəlikləri ilə bilir, bir şair kimi dilimizin lüğət tərkibinin zənginləşməsində müstəsna xidmətlər göstərirdi. Ürəklərə məlhəm kimi yayılan şeirlərini oxuduqca, istər-istəməz fikirləşirsən ki, müharibələrin qəhrəmanları olduğu kimi, dillərin də qəhrəmanları var. Onlar yazıçı və şairlərdir.

Şairin həyatının müəyyən dövrü İraqla bağlı olmuşdur. Kəsilən yollar açılandandan sonra Füzulinin qəbrini ziyarət edən ilk ziyalılarımız Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadə olmuşdur. Oğlu Fəxrəddin İraqda ərəb dili üzrə tərcüməçi işləmişdir. Şairin İraqdakı soydaşlarımız arasında çoxlu dostları vardır. Q.Qasımzadəni İraq, İran və Türkiyədə yaxşı tanıyır, əsərlərini sevir və yüksək qiymətləndirirlər. Yaxşı yadımdadır, 1973-cü ilin sentyabrında İraqda yaşayan soydaşlarımızın mədəniyyət mərkəzi «Qardaşlıq»da mənimlə görüş keçirirdilər. Xahiş etmişdilər ki, onlara Azərbaycan şairlərinin şeirlərindən oxuyum. Onu da deyim ki, gənclikdə mənim bir şakərim (hobbim) vardı. Xoşuma gələn şeirləri qəzetlərdən kəsib yığırdım. Həmin görüşdə bu mənim çox köməyimə gəldi.

---

* Bax: «Ədəbiyyat qəzeti», 20.06.2003. s. 2.

«Altı il Dəclə-Fərat sahillərində» bu barədə geniş danışmışam. Qasım müəllimlə bağlı yazmışam: «Ədəbiyyat və incəsənət» qəzetinin oraya apardığım nüsxəsindən (1967) Q.Qasımzadənin «İnsan min il yaşardı» şeirini təkrar oxumağımı xahiş etdilər. Məclisdə əksər şairlərimizdən şeirlər oxudum. Nədənsə, yalnız M.Ə.Sabirin «Əzrayılın istefası», və Q.Qasımzadənin «İnsan min il yaşardı» şeirlərini təkrar oxumağı arzu etdilər.

Qasım müəllim çox xeyirxah, insanpərvər adam idi. Bir dəfə Ə.Bəndəroğlu ilə Nəsiminin İraq «Divan» nüsxəsi ətrafında qalmaqala səbəb olan mübahisəmiz düşmüşdü. Münasibətlərimizin doğru məcraya düşməsində prof. Abbas Zamanov, Anar və Ayaz Vəfalı ilə bərabər, Qasım müəllim də çox zəhmət çəkdi. Onlar bunu ədəbi əlaqələrimizin pozulmaması naminə edirdilər. Qasım müəllim həddən artıq səliqə-sahmanlı, qarşısındakına qiymət verən, ehtiram göstərən bütöv şəxsiyyət, sözün həqiqi mənasında, ali bir insan idi.

Bir dəfə Ə.Bəndəroğlu Bakıya gəlmişdi. Qasım müəllim hər dəfə olduğu kimi, bu dəfə də bizi qonaq çağırmışdı. Yay olmasına baxmayaraq, evinin dəhlizinə və qonaq otağına xalçalar döşətmişdi. Nahardan sonra xeyli söhbət etdik. Qasım müəllim İraqda yaşayan soydaşlarımız – kərküklülər barədə, dostları Məhəmməd Xurşud, Həsən İzzət, Əta Tərzibaşı və başqaları barədə suallar verirdi. Onun Hüsü Hacıyev küçəsində, Yazıçılar evindəki mənzilini tərk edəndə, Təzə Pirdən azan səsi eşidildi. Hər üçümüz həm təəccübləndik, həm də sevindik. Sovetlər yenicə dağılmışdı. 73 il fasilədən sonra birinci dəfə idi ki, Bakıda azan səsi eşidilirdi. Bəlkə də, bu bir təsadüf idi. Mənə qalırsa, bu, təsadüfdən daha çox Qasım müəllimin evinin müqəddəsliyinə dəlalət edirdi. Bu gün belə həmin azan səsi Qasım müəllimin evinin müqəddəsliyi ilə bağlı düşüncələrimdə həmahəng səslənir. Təqribən bir saatdan sonra Bəndəroğlunun yadına düşdü ki, əl çantası Qasım müəllimgildə qalıb. Qasım müəllimlə telefon əlaqəsi yarada bilmədik. Qapının

Q.Paşayev şairin məzarı önündə

zəngini basanda qapını özü açdı. Özünü itirən kimi oldu. Xalçalar yığılmışdı. Gileyləndi. Mən isə pərtliyi aradan qaldırmaq üçün dedim ki, elə-belə yaxşı oldu. Qoy qonağımız özü şahid olsun ki, xalçalar ona hörmət əlaməti olaraq döşənmişdi.

İraqda yaşayan soydaşlarımıza xüsusi məhəbbəti vardı. Mənim doktorluq müdafiəm ərəfəsində Moskvaya səfəri vardı. Biləndə ki, lap yaxın günlərdə müdafiə edəcəyəm, səfərini təxirə saldı. Müdafiəmdə çıxış etdi.

«Altı il Dəclə-Fərat sahillərində» kitabım çap olunanda «Ulduz» jurnalında çox maraqlı – «Ömrün əbədiləşən illəri» adlı ürəyinin hərarəti ilə yazılmış geniş məqalə çap etdirdi. Qasım müəllim genişürəkli adam idi. XX əsrin 50-ci illərində Kərkükdə cəmisi 26 sayı çıxan «Bəşir» qəzetinin komplektini və oğlu Fəxrəddinin İraqdan gətirdiyi materialları mənə bağışlamışdı. İndi onlar AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində yaratdığım «İraq–türkman ədəbiyyatı və mədəniyyəti» daimi ekspozisiya zalının ən yaxşı eksponatlarındandır. Qasım müəllim ömrünün 70-ci baharını ağır xəstəliklə qarşıladı. Baxmayaraq ki, oğulları Nəriman və Xansuvar onu əcnəbi ölkələrə də apardılar. Əlac tapılmadı. Təsəllini hərə əlindən gələni etməkdə tapırdı. Görkəmli ədəbiyyatşünas alimimiz Şamil Salmanovun «Ədəbiyyat qəzeti»ndə Qasım müəllimin yaradıcılıq yoluna işıq salan sanballı məqaləsi dərc olunmuşdu («İlhamlı yaradıcılıq yolu», 9 iyul 1993-cü il). Bu vaxt şair Yevlax rayonunun Malbinəsi kən-

dində, gözəl bağ-bağatlı evlərində qalırdı (Anası Arəstə xanım orada yaşayırdı). «Ədəbiyyat qəzeti»nin o zaman baş redaktor müavini işləyən Ayaz Vəfalı, oğlu İftixar və mən səhər tezdən qəzetdən bir neçə nüsxə götürüb Qasım müəllimə baş çəkməyə getdik. Bağ-bağat, həyət-bacanın və evin səliqə-sahmanı bizi heyrətə gətirmişdi. Xeyli keçəndən sonra Qasım müəllim bizi Aynabənddə qarşıladı. Qara kostyum, ağ köynək geyinmişdi. İstəmirmiş ki, onu yataqda görək. Gəlişimizə çox sevinirdi. Həmin gün səhər tezdən oğlu Nəriman Yevlaxa uçan təyyarə ilə bizdən əvvəl gəlmiş, məqaləni ona çatdırmış və oxumuşdu. Məqaləni çox bəyənmişdi. Doğrudan da, genişürəklə yazılmış məqalə Qasım müəllimə layiq idi.

Bizim gəlişimiz münasibətilə toğlu kəsməyə göstəriş verdi. Ayaz müəllimin etirazı fayda vermədi. Aynabənddə kənd yerinə xas olmayan stol açılmışdı. Stolun üstünə şöhrətli restoranlarda olduğu kimi kraxmallı ağ süfrələr salınmış, gözəl boşqablar, çəngəllər, bıçaqlar düzülmüşdü. Qasım müəllim səliqəli geyimdə stolun başında əyləşmişdi. «Buralarda duzlaq çox olduğundan, erkək əti çox dadlı olur – dedi. Doğrudan da, toğlu ətindən çəkilmiş, qoxusu ətrafı bürüyən kabab həddən artıq dadlı idi. Lakin Qasım müəllim bir tikə də yeyə bilmədi. Bu, Qasım müəllimlə son görüşümüz oldu. Həmin görüşdən xatirə qalan stol ətrafındakı söhbətimizi İftixarın diktafona yazması və birgə çəkdirdiyimiz şəkillər oldu.

Qasım müəllim mənim yaddaşımda beləcə səliqə-sahmanlı, sınmaz qaldı. Hər dəfə güzarım Fəxri xiyabana düşəndə və Qasım müəllimin vüqarlı abidəsi önünə qərənfillər düzəndə müdriklərin yaratdığı bayatı:

Qızıl gül olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm –
Heç biri olmayaydı –

qəlbimə hakim kəsilir.

BAĞDADDAN AĞIR XƏBƏR *



Son vaxtlar İraqdan gələn ağır, qəmli-ələmli xəbərlərin sayı-hesabı yoxdur. Bu xəbərlər arasında dostumuz, qardaşımız Sinan Səidin ölüm xəbəri bizi sarsıtdı. Yaradıcılığının çiçəkləndiyi vaxt əbədiyyətə qovuşan Sinan Səid haqqında düşünərkən göz önünə ilk olaraq İraq-Azərbaycan ədəbi, mədəni və elmi əlaqələri gəlir. Bu sahədə Sinan Səidin xidmətləri böyükdür.

1959-cu ildə dövlətlərarası müqaviləyə əsasən Bakıya gələn Sinan Səid 1970-ci ilə qədər Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsinin ərəb verilişləri şöbəsində işləmiş, ömürlük həyatını Azərbaycanla bağlamışdı. Bakıda həmkarı Raidə xanımla evlənmiş, oğlu Ümid və qızı Nanə Bakıda anadan olmuşdur.

Həmişə böyük əməksevərliyi ilə seçilən Sinan Səid Azərbaycanda vaxtını səmərəli keçirmiş, 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmiş, 1969-cu ildə akademik H.Araslının rəhbərliyi altında «İraq türkman mətbuatı və ədəbi məsələlər» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Əsərin «Füzuli və mətbuat» bölməsi xüsusilə diqqəti cəlb edir. Yaxşı yadımdadır, müdafiə vaxtı xalq şairi Rəsul Rza, professorlardan M.Quluzadə, Abbas Zamanov və başqaları öz çıxışlarında bu bölmənin dissertasiya daxilində dissertasiya olduğunu qeyd etdilər.

---

* Bax: «Ədəbiyyat qəzeti», 2 avqust 1991, səh 5.

Sinan Səidin Azərbaycanla bağlı arzuları çox idi. Dönə-dönə məktublarında dissertasiyasından söz açır, onun çapını arzu edirdi. Təəssüf ki, bir nüsxəsi yazı masamın üstündə olan, hər gün vərəqlədiyim, hər dəfə də sanbalını və əhəmiyyətini daha dərindən duyduğum həmin əsərin çapı iqtidarım xaricində olub. Sinan Səidin bu qiymətli əsəri klassik ədəbiyyatımızın, ümumiyyətlə, tariximizin kölgəli qalan bəzi cəhətlərini işıqlandırmaqda alimlərimiz üçün gərəkli ola bilərdi. Ən başlıcası isə odur ki, Sinan Səidin bu əsəri bir daha təsdiq edir ki, müəyyən ictimai-siyasi səbəblər üzündən ayrı düşsək də, bu ayrılıq cismani olmuş, nə folklorumuz, nə adət-ənənələrimiz, nə həyat tərzimiz, nə də dilimiz arasında elə bir fərq yoxdur. Eləcə də musiqimiz. Yeri gəlmişkən, qeyd edim ki, Sinan Səid Azərbaycan xalqının qəlbində həzin Kərkük mahnılarının ifaçısı kimi də qalacaqdır. Onun neçə-neçə illər öncə müğənnimiz Nərminə Məmmədova ilə lentə yazdırdığı mahnılar tez-tez Azərbaycan radiosunda səslənir.

Sinan Səid Azərbaycan – Ərəb Şərqi ədəbi əlaqələri yolunda çox iş görmüşdür. A.Dadaşzadənin «M.P.Vaqif» monoqrafiyası və şairin seçilmiş şeirlərini, M.C.Cəfərovun «M.Ə.Sabir», «C.Məmmədquluzadə» monoqrafiyalarını, Azərbaycan şairlərinin Asiya-Afrika xalqlarının mübarizəsinə həsr olunmuş «Dost əlləri» adlı şeirlər toplusunu, «Azərbaycanın tarixi abidələri» silsiləsindən «Qız qalası», «İçərişəhər», «Şirvanşahlar sarayı» və s. ərəb dilinə Sinan Səid çevirmişdir. S.Rəhimovun «Ata və oğul» povestini və bir sıra hekayələrini də Moskvanın «Proqres» nəşriyyatı Sinan Səidin tərcüməsində çap etmişdir.

Azərbaycan radiosunda ərəb dili üzrə mütəxəssislərin yetişməsində çox əmək sərf edən Sinan Səid, 60-cı illərdə Azərbaycanda orta məktəb üçün yazılmış «Ərəb dili» dərsliyinin də müəlliflərindən biri olmuşdur.

Yeri gəlmişkən, deyim ki, Sinan Səid «Ədəbiyyat qəzeti»-nin də yaxın dostu idi. Qəzetin səhifələrində tez-tez məqalə,

hekayə və tərcümələri, həmçinin özü haqqında yazılar dərc edilərdi.

1970-ci ildə vətənə dönən Sinan Səid Bağdad Universitetinin jurnalistika fakültəsində dərs deməyə başlamış, 1975–1980, 1983–1987-ci illər arası həmin fakültənin dekanı olmuşdur. Bununla belə, Sinan Səid Azərbaycan ədəbiyyatının ərəb dilinə tərcüməsi, çapı və təbliği sahəsindəki səmərəli fəaliyyətini davam etdirirdi. Azərbaycan şairlərinin şeirlərini ərəb dilinə çevirərək «Ərəb ellərinə Azərbaycan nəğmələri» adlı kitabı Bağdad oxucularına təqdim etmişdi.

Neçə il idi ki, Sinan Səid Bağdad radiosunda apardığı «Yeddi gündə bir» adlı verilişində Azərbaycan mədəniyyətinə geniş yer verirdi. Bu təbiidir. Bir Şərq məsəlində deyilir: «Bir gün duz-çörək kəsdiyin yerə qırx il salam ver». Sinan Səid düz on bir il Azərbaycanda duz-çörək, düz çörək kəsib. Ömrü boyu ona qiymət verib. Bunu biz onun «Ərəb ellərinə Azərbaycan nəğmələri» kitabına yazdığı giriş məqaləsindən də görürük: «Xəzər dənizi sahilində eyni ilə İraq türkmanlarının dilində danışan xalq məskən salmışdır. Bu, Azərbaycan xalqıdır. Azərbaycan ölkəsi nefti, pambığı, üzümü, kürüsü, zəfəranı, qonaqpərvərliyi və s. ilə məşhurdur. Məndən onların ən çox nəyi sevdiklərini soruşsalar, düşünmədən deyərdim: Vətənlərini, milli irslərini, Füzuli Bağdadini, muğamatı, qonaqları və o cümlədən də ərəbləri. Mən azərbaycanlıların ərəblərə olan ehtiram və məhəbbətini onların gündəlik həyatında, ərəb filmləri göstərilən zaman kinoteatrların önündəki izdihamda, Azərbaycan müğənnilərinin ərəb mahnılarını həvəslə ifa etmələrində, bəstəkar Fikrət Əmirov və Elmira Nəzirovanın «Ərəb mövzusunda konsertində, gənclərin ərəb dilini öyrənmə meyilində görürəm. İraqa gəlincə, onun Azərbaycan xalqının ürəyində xüsusi bir yeri vardır. Bu da, təbii ki, möhkəm tarixi əlaqələrdən doğmuşdur… Bəlkə də, bu yaxınlıq ona görədir ki, İraqda yaşayan türkmanlarla azərbaycanlılar

qanbirdirlər». Adətən, az danışan, məktub yazmağı xoşlamayan Sinan Səid 1989-cu ilin ikinci yarısında, demək olar ki, hər ay iki-üç məktub yazardı. Elə bil ürəyinə nəsə dammışdı. Neyləmək olar? İraq-Küveyt münaqişəsində yeganə nəvəsini itirən Sinan Səid münaqişədən az sonra özü də vaxtsız dünyadan köçdü.

Sinan Səiddən aldığımız son məktublardan birini oxuduqca, hiss edirsən ki, Bakıya gəlmək, dost-tanışlarla görüşmək arzusu ilə yaşayırdı:

«Əziz qardaşım Qəzənfər, sevgi və hörmətimi qəbul edin. 5 iyun 1989-cu il tarixli məktubunuzu aldım. Dostanə həsrətlərinizə görə təşəkkür edirəm. Məni hər zaman yad etməyiniz təsadüfi deyil, vəfadarlığınızın ifadəsidir. Buna əminəm və bu məni ürəkdən sevindirir. Mənim Azərbaycanda qaldığım on bir ildə qazandığım sərvət sizin kimi əziz və mehriban dost və insanların məhəbbət və hörmətidir. Siz məni görüşlərinizdə və yaxın dostlarla evlərinizdə, yaxud iş mühitində yad edirsiniz. Mən isə özümü hər zaman Bakıda sizinlə təsəvvür edirəm. Görək gələcək aylarda uzun illərin ayrılığından sonra, nəhayət, Bakıya gəlmək mənə qismət olacaqmı?

İşlərim çoxdur. Seçilmiş Azərbaycan hekayələrinin tərcüməsi, Rəsul Rzanın 50 şeirinin çapa hazırlanması, Anarın «Telefon», sizin «Altı il Dəclə-Fərat sahillərində» kitabınızın tərcüməsi. Əbdüllətif Bəndəroğlu ilə görüşdüm. Sənin kitabın barədə onu deyə billəm ki, Allah qoysa, tərcüməsini ilin sonuna qədər başa çatdırmağa çalışacağam. Bəndəroğlu ilə kitabının nəşri barədə də danışdıq. Görürsünüz ki, işlər çoxdur. Rəhmətlik Rəsul Rza gözəl deyib:

Nə qədər iş var, görməli,
Nə qədər söz var, deməli
Vaxt var ikən».

Təəssüf ki, vaxt və əcəl imkan vermədi ki, xalqımızın dostu, İraq-Azərbaycan ədəbi, mədəni, elmi əlaqələri yolunda yorulmadan çalışan qardaşımız, dostumuz Sinan Səid səmərəli fəaliyyətini davam etdirsin. Cismani ayrılıq Sinan Səidlə bir daha təmasda olmağı qeyri-mümkün etdi. Təsəllimizi onda tapırıq ki, Sinan Səid öz boy-buxunu, təmkini, xoş rəftarı, təvazökarlığı, mədəniyyəti, ziyalılığı ilə onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

Və bir də Sinan haqqında bu vida sözlərimi onun özünün belə hallarda təsəlli üçün Yəhya Kamaldan dediyi bir beytlə bitirsəm, mən elə bilirəm dostumuzun ruhu şad olar:

Biçarə könüllər, nə gedən son
gəmidir bu,
Hicranlı həyatın nə də son
matəmidir bu.

ÖMRÜM SƏNSİZ OLMASIN*

Doxsan illik yubileyi ərəfəsində Nigar xanımın kitablarını yenidən vərəqlədikcə Füzulinin 500 illik yubileyində (Ankara, 2.11.1994) Türkiyənin o vaxtkı prezidenti Süleyman Dəmirəlin yüksək dəyərlər xəzinəsi olan yaradıcı adamlar barədə dediyi sözlər fikrimdən keçirdi: «Müharibələrin qəhrəmanları, orduların sərkərdələri olduğu kimi, dillərin də qəhrəmanları, sərkərdələri olur. Onlar yazıçı və şairlərdir».

Bu sözlərdə böyük həqiqət, hikmət vardır. Bircə misalla kifayətlənəcəyəm. Dünya dillərinin inkişaf mərhələlərinin tədqiqində bədii əsərlər ən mötəbər mənbə kimi götürülür. Deməli, burada qadın poeziyamızın ənənələrini yaşadan, inkişaf etdirən, Azərbaycan ədəbiyyatı tarixində layiqli yeri olan, xalqımızın zərif duyğulu şairə qızı Nigar xanımın da payı vardır. Bu gün poeziyamızı Nigar xanımsız təsəvvür etmək çətindir. Nigar xanımın poeziyası həmişəyaşardır. O, fikir aydınlığı, deyim tərzi, özünəməxsusluğu ilə seçilir.

Nə yaxşı ki, yaradıcı adamların yubileylərini keçirirlər. Nigar xanımın poeziyasını yenidən nəzərdən keçirəndə özüm üçün bir daha kəşf etdim ki, poeziya insanın hər yaş dövründə bir cür anlaşılır, duyulur, dərk edilir. Bu imiş poeziyanın ölməzliyi. Bu imiş onun möcüzəsi. Bu imiş onun həmişəyaşarlığı. Onu da bir daha dərk etdim ki, lirik əsər bütöv, fikir kamilliyindən ibarət olan bir aləmdir. Onun daxilində

* Bax: «Ədəbiyyat qəzeti», 24.07.2009

olan doğruluğa, saflığa görə oxuyur və sevirik. Tam səmimiyyətlə deyə bilərik ki, Nigar xanımın poeziyası doğruluğa, saflığa səsləyən təkrarsız poeziyadır. Təsadüfi deyildir ki, onun yaradıcılığına Səməd Vurğun, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Mirzə İbrahimov, Abbas Zamanov, Mirvarid Dilbazi və Rəsul Rza daxil olmaqla bir çox görkəmli qələm sahibləri yüksək qiymət vermişlər. Nigar xanıma həsr olunan saysız-hesabsız şeirlər, onun təsiri altında yazılan poeziya nümunələri şairin böyük nüfuzundan xəbər verir. Baxmayaraq ki, zamanında repressiyaya məruz qalmış nəslin nümayəndəsi olan Nigar xanıma daş atanlar az deyildi. Lakin o, təzyiqlərə mətanətlə sinə gərirdi. Nə yaxşı ki, onun tale yolunda Rəsul Rza dayanmışdı. Həyatdan, quruluşdan küskün, ürəyi nisgilli Nigar xanıma o vaxt arxa olmaq qəhrəmanlığa bərabər idi. Rəsul müəllim sovet rejiminin qəddarlığı tüğyan elədiyi 1937-ci ilin fevralında, hətta Nigar xanımla ailə həyatı qurmaqdan belə çəkinmədi. Şairin

bu addımı ona başucalığı gətirmiş, ictimaiyyət arasında onun qorxmazlığı, cəsarəti, mərdliyi barədə fikir formalaşmışdı. Bu, Nigar xanımın böyük ehtiramına, tükənməz məhəbbətinə səbəb olmuş, duyğuları, hisləri ölməz poeziya misralarına çevrilmişdi:

Sən olmasan baharın,
yazın ətri olmazdı.
Sən olmasan bir dünya
sevinc belə çox azdı.
Baharın çiçəkləri
açıb solmasın sənsiz.
Ömrüm sənsiz olmasın,
şeirim olmasın sənsiz.

Nigar xanım bu sətirləri yazanda sanki şair fəhmi ilə duymuşdu ki, elə belə də olacaq. Ayrılığa dözməyən şairə Rəsul müəllimdən cəmi üç ay sonra 1981-ci il iyulun 9-da dünyasını dəyişdi.

Nigar xanımın qapısına daş atanlar, Bəxtiyar Vahabzadə demiş, nə murada yetdi, nə kama çatdı. Onlardan toz izi qədər də bir şey qalmadı. Şairimiz isə gözəl poeziyası, ziyalılığı, mədəniyyəti və şəxsiyyətinin aliliyi ilə xalqın sevimlisinə çevrildi.

HÜSEYN ARİF DÜNYASI*



Mən o xoşbəxt insanlardanam ki, uzun illər Hüseyn Arifl ə təmasda olmuşam. Ailəvi yaxınlıq, dostluq səviyyəsində münasibətlərimiz vardı. Şəxsi münasibətlərimizin möhkəm təməli keçən əsrin 70-ci illərinin əvvəlində qoyulmuşdu. Dillər İnstitutunda işləyirdim. Sevimli müəllimim İsmixan Rəhimovun təşəbbüsü ilə ölməz şairimiz Səməd Vurğuna həsr olunmuş «Səməd Vurğun» xüsusi kursu təşkil olunmuşdu. Bu kursu Bəxtiyar Vahabzadə və Hüseyn Hüseynzadə aparırdı. Səməd Vurğuna vurğunluğum elə o vaxtdan hər iki şairə məhəbbətimi alovlandırdı. Yadımdadır, mühazirədən sonra biz – bir qrup Səməd Vurğun pərəstişkarı şairi evinə qədər ötürərdik. İncə qəlbli, incə ruhlu şairlə şəxsi münasibətlərim həmin illərdən başlayıb. Ölümünə altı ay qalmış mənə «Qocaldım» adlı şeir həsr etmişdi. Həmin şeir şairin 80 illik yubileyi münasibəti ilə f.e.n. Gülzar İbrahim qızı ilə hazırladığım və çap etdirdiyim «Hüseyn Arif – 80» (Bakınəşr, 2004, 64 s.) adlı portret kitabda çap olunub.

Onu da deyim ki, Hüseyn Arif hələ «Aşıqlar Birliyi»ni yaratmamışdan çox-çox əvvəl də xalq yaradıcılığını az-çox sevən, folklorla məşğul olan adamları özü tapır, onlarla münasibətdə olurdu.

Şairlə şirin münasibətlərimə folklorla məşğul olmağım da təsir etmişdi.

---

* Bax: «Ədəbiyyat qəzeti», 24.07.2009

Hüseyn Arif bəzən sadəlövhlük həddini keçən qədər sadə idi. Lakin bu sadəliyin arxasında müdriklik dərəcəsinə çatan güclü bir məntiq, mənəviyyat vardı.

Onun köklə, adət-ənənələrlə bağlı özünəməxsus düşüncə tərzi vardı. Fikir verin, Böyük Vətən müharibəsi vaxtı Konstantin Simonovun «Gözlə məni» adlı, sonralar məşhur olan şeiri çıxmışdı. Ondan artıq şairimizin Azərbaycan dilinə tərcümə etdiyi həmin şeirdə cəbhədə olan rus əsgərinin hiss-həyəcanı təsvir edilir. Həyat yoldaşına yazır ki, oddan-alovdan keçəcəm, ölməyəcəm, gələcəm. Gözlə məni. Rus düşüncə tərzi üçün məqbul sayılan bu fikri Hüseyn Arif qəbul etmir:

Mən yazmadım: – gələcəyəm,
Gözlə, yar məni.
Gözlə! – desəm, gözləyənə,
Qınayar məni. –

deyə bəyan edir. Əslində, Hüseyn Arifin belə düşünməyə haqqı vardı. Mən doğma kəndimizdə «qara kağız» alsa da, yenə də ərinin yolunu gözləyən neçə-neçə qadın görmüşəm.

Hüseyn Arifi çox vaxt təbiət şairi kimi təqdim edirlər. Bizə qalırsa, Hüseyn Arifin təbiət təsvirinə həsr olunan şeirlərində belə Şərq müdrikliyi, fəlsəfi düşüncələr qırmızı xətt kimi keçir:

Palıd səssiz qalxıb, səssiz boy atır,
Söyüd dirçəlməmiş özünü dartır.
Gölməçə harayı qulaq batırır,
Ümman dilə gəlib: Mən varam! – demir.

Bu misralarda təbiət təsviri arxasında dərin fəlsəfi fikrin yer aldığı göz qabağındadır.

Elə ki, balalar gəlir dünyaya –
O gündən hey ölçüb, biçir analar.
Mahnı da oxuyur, şeir də deyir,
Bəstəkar analar, şair analar.

Şairin «Analar» şeirində qəribə bir mənzərənin şahidi oluruq. Yalnız Şərq qadınlarına məxsus hadisələr cərəyan edir burada. Ana həyatını övladına verməyə, onun xoşbəxtliyi naminə, hətta öz xoşbəxtliyindən belə keçməyə hazırdır. Qərb aləmində isə hərə öz ömür payını özü üçün yaşayır.

Prof. Məhərrəm Qasımlı Hüseyn Arif poeziyasında üç cəhətin – təbiilik, səmimilik və müdrikliyin bərqərar olduğunu xüsusi vurğulayır. Bu, həqiqətən də, belədir:

Haranı bəyənib seçəsi olsam,
Oraya, ey sənəm, sən mənimlə get.
Bir gün bu dünyadan köçəsi olsam,
Tək onda demərəm sən mənimlə get.

Bu misralarda təbiilik, səmimilik və müdriklik ali məqamda durur və şairə ehtiram və məhəbbət qazandırır.

Şairin «Sən mənimlə get», «Mən inanmadım», «Qonşu qız», «Dedim–dedi», «Xatırla məni», «Şeir deyilmi?», «Mən sülhə səs verirəm», «Könül deyir yaşa hələ», «Söylə yadındamı?», «Dinə bilmədim» kimi nəğməyə çevrilmiş şeirləri dillər əzbəri olmuşdur. Mən hələ aşıqların dillərindən düşməyən «Sən niyə qocaldın, ay Mirzə dayı» və toylarımıza xüsusi rövnəq gətirən «Meşəbəyi»ni demirəm.

Hüseyn Arifin poetik düşüncə tərzi, xalq ruhundan gələn hikməti, poeziyasının qüdrəti oxucunu haldan-hala salır, heyrətləndirir:

Ağrıyanda özü doyar özündən,
Yaş süzülər, qəm ələnər gözündən.
Uşaq kimi uşağın da sözündən,
Tez tutulub, tez darılar qocalar.

Hüseyn Arif xalq arasında da, yaradıcı adamlar arasında da ən çox sevilən şairlərdəndir. Vəfatından 20 ilə yaxın vaxt

keçsə də, bu günün özündə belə elə bir məclis olmaz ki, «Qağa»dan (Hüseyn Arifdən) söhbət düşməsin, onunla bağlı lətifələr məclisin yaraşığına çevrilməsin. Yeri gəlmişkən, lətifələr müdrik adamlar haqqında yaranır. O adam ki, həmişə Hüseyn Arif kimi xalq arasında olur, xalqla nəfəs alır, prof. Nizami Cəfərovun doğru olaraq qeyd etdiyi kimi, müdrik olmaya bilməz.

Hüseyn Ariflə bağlı yaranmış düşündürücü, duzlu-məzəli lətifələrin sayı-hesabı yoxdur. Maraqlıdır ki, onunla bağlı lətifələr bəzən öz-özünə yaranırdı.

Bir gün «Azərnəşr»in binasında 2-ci mərtəbədə xeyli adam söhbət edirdik. Bir də gördük şair redaktor işlədiyi «Gənclik» nəşriyyatından aşağı enir (nəşriyyat 3-cü mərtəbədə idi). Şair «Azərnəşr»də şöbə müdiri işləyən Mustafa İsgəndərzadəyə xitabən dedi:

– A Mustafa, nə var, nə yox?

– Hər şey yaxşıdır, ay qağa.

– Elqızı neynir? (Söhbət Mustafanın həyat yoldaşı Mənzərə xanımdan gedirdi.)

– Əlini öpür, ay qağa, yaxşıdı.

– İşləyirmi?

– Bəli, işləyir.

– İşləsə yaxşıdı, qoy işləsin – deyərək çıxıb getdi. Yarım saatdan sonra kefi kök geri qayıtdı. Mustafa ilə həmin dialoq yenidən başlandı. Söhbət Mənzərə xanımın üstünə gələndə Mustafa necə deyərlər, valı dəyişdi.

– Elqızı işləyirmi?

– Yox, ay qağa, işləmir.

– Qadın işləməsə yaxşıdır – deyib çıxıb getdi.

Bəlkə də, bu, qarşısındakının fikrinə hörmət əlaməti idi, bilmirəm. Bir onu bilirəm ki, Qağa bənzərsiz, təkrarsız adam idi.

Bir dəfə dedim: «Qağa, səni yaman bəzəyir, haqqında lətifələr düzəldirlər».

Şair kefini pozmadan gülümsədi və məni mat qoyan cavab verdi: «Onlarda o baş hardadı, özüm düzəldirəm». Gözlərim önündə Molla Nəsrəddinə bənzər bir müdrik canlandı.

Bəzi lətifələrdə, hətta şairin «Meşəbəyi» şeirində, şair əməlli-başlı içki içən kimi təqdim olunur. Mən isə şairin əlli, yüz qramdan artıq içki içdiyini görməmişəm. Bu miqdar sanki ona şeirə, sənətə, insanlara məhəbbətini alovlandırmaq üçün lazım idi. Belə hallarda onsuz da mülayim xasiyyətli şair ipəyə dönərdi. Kefi kök, damağı çağ olardı. Ana təbiətdən, güldən, çiçəkdən, çəməndən söz açardı. Şairin belə anlarının birində soruşdum ki, qağa, gülə, çiçəyə, çəmənə şeirlər də qoşubsan, onların hansını daha çox sevirsən? Şairin cavabı yenə də məni mat qoydu: «Çəməni-çiçəyi çox sevirəm. Qızıl gülə həsəd aparıram. Onun bülbül kimi aşiqi – Məcnunu var».

Hüseyn Ariflə bağlı bir məqamı da diqqətə çatdırmaq istərdim. İlahi vergili şairlərdə gələcəklərini, olacaqları görmək qabiliyyəti olub. Şeirlərində bunu bəyan edən M.Lermontov və Səməd Vurğun belələrindəndir. Hüseyn Arif də şair fəhmi ilə olacağı bəyan edib:

Sevirəm Tiflisi, sevirəm, ancaq,
Öləndə Qazaxdan götürün məni.

Şair Barat Vüsalın dediyinə görə, 1992-ci ildə şair Ağstafada dünyasını dəyişəndə orada məscid olmadığına görə onu Qazax məscidindən götürüblər.

Fəxri xiyabanda halalca yeri olsa da, Xalq şairi Hüseyn Arif vəsiyyətinə əsasən Ağstafada oğlu Arifin yanında dəfn olunmuşdur.

Təbiətdən gələn müdrikliklə şair yaxşı bilirdi ki, sağlığında xalqın məhəbbətini qazanmış adam dünyasını dəyişəndə harada dəfn olunsa, orada fəxri bir guşə yaranır. Onu onsuz da ziyarət edəcəklər. Hüseyn Arif ümumxalq məhəbbəti qazanan, sevilən, qəbri ziyarət edilən həmişəyaşar şairimizdir.

ÖYÜNMƏYƏ HAQQI OLAN ŞAİR*

Sağlığında onun haqqında yazmaq mənə qismət olmadı. Lakin vaxtaşırı kitablarını vərəqlədikcə, ürəyimə yatan, zövqümü oxşayan şeirlərini təkrar-təkrar oxuduqca bir daha dərk etdim ki, şairlik Allah vergisidir. İlahi qüdrətdən nur alan əsl şairlər poeziyanın ecazkar gücü ilə ürəklərə yol tapır, qəlblərdə məskunlaşırlar. Belə şairlərdən biri də Tofiq Bayramdır.

Tofiq Bayram (Tofiq Qulam oğlu Bayramov) 1934-cü il dekabrın 16-da Bakının Əmircan kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunda (1954–1959) təhsil alıb. Elə qəbul imtahanı zamanı şairliyini təsdiqləyib. Məsələ burasındadır ki, o vaxtlar dil-ədəbiyyat fənnindən imtahan verəndə üçüncü sual, adətən, cümlə təhlili olardı. O, cümləni təhlil etmək, mübtəda, xəbər və ikinci dərəcəli üzvləri göstərmək əvəzinə vərəqdə yazır:

İnlədi qəlbimdə incə bir səda,
Burda nə xəbər var, nə də mübtəda.

Bütün müəllimlər yığışır və gənc şairin təbini alqışlayırlar. Tofiq Bayram, doğrudan da, tezliklə şair kimi tanınır və institutu qurtardığı 1959-cu ildə Yazıçılar İttifaqına üzv qəbul edilir.

---

* Bax: «Ədəbiyyat qəzeti», 17.12.2004; «Tofiq Bayram – 70», 2005, s. 3–14. Q.Paşayev kitabı f.e.n. Gülzar İbrahimqızı ilə birgə hazırlayaraq öz hesabına çap etdirmişdir (red).

Əmək fəaliyyətinə «Azərbaycan müəllimi» qəzetində şöbə müdiri (1959–1960) kimi başlayan Tofiq Bayram sonralar Azərbaycan Dövlət Televiziya və Radio verilişləri komitəsində (1960–1961), M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında (1961–1964), «Ulduz» jurnalında (1964–1968), «Ədəbiyyat və İncəsənət» qəzetində (1968–1978) və «Yazıçı» nəşriyyatında müxtəlif vəzifələrdə çalışmışdır.

Şair çox gənc ikən məşhurlaşmışdı. Bunu özü də etiraf edirdi:

İyirmi dörd yaşlı bir cavan idim...
…Şairəm deyəndə lovğalanırdım.

Doğrudur, yaradıcı adam özündən razı olmasa, yazıb-yarada bilməz. Lakin şair yaşa dolduqca vədəsindən əvvəl məşhurlaşmağın, vaxtından əvvəl çiçək açan ağac kimi az bəhrə verdiyini, xeyirdən çox ziyan gətirdiyini, arxayınçılığa, özünə aludəçiliyə gətirib çıxardığını dərk edərək yazmışdı:

Dərd olur vədəsiz şöhrətə yetmək,
Kirayə verilən bir otaq kimi.
Özgə paltarında görüşə getmək,
Özgə ürəyilə yaşamaq kimi.

Məhz bu daxili həssaslıq və qorxu hissi onu gecə-gündüz yazıb-yaratmağa sövq etmiş, biri-birinin ardınca neçə-neçə kitablar çap etdirmiş, poeziya həvəskarlarının sevimli şairlərindən birinə çevrilmişdi. Onun müxtəlif illərdə yazdığı «Ana təbəssümü» (1961), «Mənim şair xalqım» (1963), «Azərbaycan dünya gəzir» (1965), «İnamım, əqidəm» (1969), «Gərək elə yanım» (1971), «Azərbaycan deyəndə» (1974), «Əsrin oyunu» (1979), «Könlümdə yaşayanlar» (1980), «Məsləkim, silahım» (1984), «Ay gecikən məhəbbətim» (1987) və s. kitablar və eləcə də şairin ölümündən sonra çap olunan

«Torpağın altı da mənə vətəndir» (1998) və «Səkkizliklər» (2004) kitabları əl-əl gəzmiş, şairin hər kitabı çıxanda hadisəyə çevrilmişdi. Bu baxımdan Tofiq Bayramı xoşbəxt taleli şairlərdən hesab etmək olar.

Şairin qırx dörd yaşı olanda «Ucuzlaşmış kitablar mağazasında» adlı düşündürücü bir şeir yazmışdı. Həmin şeirində şair kitabları mağazalarda yığılıb qalan talesiz yazarların bəxtinə acıyır, öz taleyi də belə olarsa «kor olsun taleyin gözü» – deyirdi:

Burda satıcılar qaşqabaqlıdır,
Burda alıcılar seyrək görünür.
Yazıq kitabların dili bağlıdır,
Onları dindirən tək-tək görünür.

Dükandan çıxıram, səssiz, ahəstə,
Fikrimdə öz qayğım, öz acılarım…
Deyirəm, ay mənim oxucularım,
Gəlməyin, gəlməyin qəbrimin üstə.

Bir gün ucuzlaşsa şeir kitabım,
Gəlin qəmli-qəmli, bax, bu dükana.
Gəlin o kitabı axtarın, tapın,
Mənim qəbrim bilib ağlayın ona!

Tofiq Bayram bu hissi yaşamış, dərindən duymuş, ağıl süzgəcindən keçirmişdi. Şairin gəldiyi qənaət şəksizdir:

Təyyarə səmasız, gəmi dənizsiz,
Şeir oxucusuz yaşaya bilməz.

Tofiq Bayramın bir çox şeirlərinə musiqi bəstələnib. «Cavanlığım», «Vağzalı çalınır, anam ağlayır», «Ay gecikən məhəbbətim» və bu kimi qızıl fondda yer alan mahnılar isə onu Azərbaycanda hər evin, hər toyun sevimlisinə çevirmişdir.

Tofiq Bayramın əksər şeirlərində fikir o qədər aydın, inandırıcı və emosionaldır ki, oxucu şairin hiss və həyəcanlarına şərik olur, onu zehnində, duyğu və düşüncələr aləmində yaşadır:

Duvağa bürünüb yola düşürsən,
Qonşular telinə çiçək bağlayır.
Ay bacım, sən haldan-hala düşürsən
«Vağzalı» çalınır, anam ağlayır.

Və ya:

Qartal idim birdən birə,
Zirvələrdən endim yerə.
Bəlkə, uzaq bir xatirə,
Bir xəyaldır cavanlığım.

Tofiq Bayram poeziyası mövzu, forma və məzmun cəhətdən çox zəngin və rəngarəngdir. Bununla bağlı bir məsələni xüsusi qeyd etmək istərdik. Aşıq məktəbləri, aşıq mühitləri olduğu kimi, poeziya məktəbləri, poeziya mühitləri də ola bilər. Adətən, Azərbaycanın Şərq bölgəsində əruz vəzni üstünlük təşkil edir. Şərq bölgəsinin nümayəndəsi Tofiq Bayramda bunun əksini görürük. Şairin yaradıcılığında heca vəzni qırmızı xətt kimi keçir:

Gördüm ilqarını, vüqarını mən,
Qartal tək başına qonalı, dağlar.
Əyilib su içdim qaynar döşündən,
Oldum körpə kimi analı, dağlar.

Şairin 50 yaşı tamam olanda çap etdirdiyi «Məsləkim, silahım» (1984) kitabına yazdığı böyük həcmli «Müəllifdən» adlanan giriş məqaləsində özü bir çox məsələlərə, o cümlədən də yuxarıda söhbət açdığımız məsələyə tam aydınlıq gətirmişdir:

«Müharibənin ən ağır dövründə – 1941-ci ilin axırlarında Ağstafaya yola düşdük. Həmin rayonun birinci katibi Mehdixan Vəkilov (Səməd Vurğunun böyük qardaşı) atamın yaxın dostu idi. Mehdixan müəllim onu ət hazırlığı idarəsinə müdir vəzifəsinə təyin eləmişdi. Biz köçlü-külfətli, böyük çətinliklə, …Ağstafaya çatdıq …Atam Bakıda olduğu kimi, Ağstafada da şeir-sənət adamları ilə yaxından dostluq edir, tez-tez onları evimizə qonaq çağırırdı. Mən həmin vaxtlar Aşıq Əsəd, Aşıq Mirzə (Tovuz aşıqları – Q.P.) kimi qüdrətli el sənətkarlarının sazına, sözünə saatlarla qulaq asmışam. Xalq poeziyasının sehrkar sədaları beynimə, hafizəmə həkk olunub. Ağstafanın bağ-bağatlı gözəl təbiəti, Dilcan dərəsinin füsunkar mənzərələri, lilparlı bulaqların zərif pıçıltıları, «şairlər vətəni» Qazax camaatının danışığındakı dil zənginliyi, ləhcə gözəlliyi, dinlədiyim nağıl və dastanların poetik cazibəsi, məna qüdrəti maqnit kimi məni özünə cəzb edirdi».

Yeri gəlmişkən, qeyd edək ki, Tofiq Bayramın şeirləri Səməd Vurğunun çox xoşuna gəlib və haqqında deyib: «Bu gəncin dili səlis, misraları ləngərlidir».

Qürur hissi ilə deyə bilərik ki, Səməd Vurğun yaradıcı gənclərlə bağlı söylədiyi bütün fikirlərində olduğu kimi, Tofiq Bayram barədə dediklərində də yanılmamışdı.

Doğrudan da, şairin dili səlis, saf, şirin və cazibəlidir. Görkəmli alman alimi Leybnisin dərin mənalı, təcrübədə təsdiqini tapmış müdrik kəlamı vardır: «Mənə mükəmməl dil verin, sizə mükəmməl mədəniyyət verim».

Göründüyü kimi, Tofiq Bayram dilimizə, ədəbiyyatımıza, bütövlükdə mədəniyyətimizə eyni dərəcədə layiqli xidmət göstərmişdir.

Özünün göstərdiyi kimi, şairlik haqqını gec alan Tofiq Bayram həyat təcrübəsindən gələn müdriklik çağına qədəm qoyduğu bir dövrdə dünyasını dəyişdi. Biz bu barədə söhbət açmaq fikrindən uzağıq. Burada bir onu demək istəyirik ki, bütün zamanlarda əsl sənətkarların yolu daşlı-kəsəkli, enişli-

yoxuşlu olmuşdur. Hətta hamı tərəfindən etiraf edildikləri halda belə onlara həsəd aparan, bostanlarına daş atan, ilhamlarına mane olmağa çalışanlar az olmamışdır. Lakin həqiqi sənətkarlar öz bədxahlarının istəyinə xilaf çıxaraq coşqunluqla yazıb-yaratmağa davam etmişlər. Tofiq Bayram istisna təşkil etmir. Həyatın keşməkeşləri, riyakarlıq, yalan, böhtan ayaq açıb yeriməsəydi, şair ömrü kəm olmazdı. Şair Qasım Qasımzadə demiş, «İnsan min il yaşardı», şair qocalmazdı:

Bir eşqin quludur, bir həqiqətin,
Şairə yalanla barışmaq çətin.
Əzabla doğulan şeirin, sənətin,
Yolu hamar olsa, şair qocalmaz.

Xüsusi vurğulamağa dəyər ki, şairin bu mövzuda yaddaşlara həkk olunmağa layiq neçə-neçə şeiri vardır:

Gəncliyi havayı itən bir ömrün,
Əzablı, mənasız qocalığı var.

Ümumiyyətlə, Tofiq Bayram poeziyası ibrətamizliyi, rəvanlığı, eləcə də məzmun və mündəricə etibarı ilə bir-birinə bənzəməyən, fəqət poeziya baxımından yüksək meyarlara cavab verə bilən, insanı düşündürən bir poeziyadır:

Bir adam didərgin düşsə vətəndən,
Qürbət əzabına qəlbi dağlanar.
Yurduna can atar son nəfəsəcən,
Qəbri də vətənsiz od tutub yanar.

və ya:

Bir qəmi düşəndə mühasirəyə,
Ya özü-özünü batırmalıdır.
Ya dor ağacından təsliməm deyə,
O, hökmən ağ bayraq qaldırmalıdır.

Tofiq Bayram yaradıcılığında «Ana» mövzusu aparıcı yerlərdən birini tutur. Şair analara böyük ehtiram və şükranlıqla neçə-neçə dərin mənalı şeirlər həsr edib: «Analıq haqqı», «Şair arvadına», «Ana sevinci, ana qəzəbi», «Ay gecikən məhəbbətim», «Vağzalı çalınır, anam ağlayır», «Qadın ürəyi», «Qadınlar və analar haqqında qəsidə» və s. kimi biri-birindən gözəl şeirlərdə real həyat həqiqətləri bariz şəkildə əks etdirilir:

Yüz il dayansam da
Qulluğunda mən,
Ay ana, bir günlük
Haqqın ödənməz!

Demək yerinə düşərdi ki, şairin «Vağzalı çalınır, anam ağlayır» və «Qadın ürəyi» şeirlərini vaxtilə İraqa aparmış və soydaşlarımız olan kərküklülərin «Qardaşlıq» dərgisində toplantı vaxtı ədəbiyyatçılara oxumuşduq. Hətta bu barədə «Altı il Dəclə-Fərat sahillərində» kitabında yazmışdıq. «… Tofiq Bayramdan «Qadın ürəyi» və «Vağzalı çalınır, anam ağlayır» şeirlərini oxudum. Çox maraqla dinlədilər». Ondan sonra iraqlı soydaşlarımız Tofiq Bayram yaradıcılığı ilə ciddi maraqlanmağa başladılar. Kərküklü folklorşünas və yazıçı dostum, bu ilin noyabr ayının 25–30 arası Bakıda qonağım olan Mövlud Taha Qayacı ilə «Altı il Dəclə-Fərat sahillərində» kitabımda çap etdiyim məktublaşmalarım deyilənlərə sübutdur. «…Şair Tofiq Bayramın şeirlərini və şəklini göndərirəm. Rica edirəm həmin şeirlərdən xoşuna gələn olsa, «Qardaşlıq»da çap etdir».

Mövlud Taha 4.11.1972-ci il tarixli cavab məktubunda yazmışdı: «Qardaşım, göndərdiyiniz on nüsxə «Arzu-Qəmbər»dən yalnız iki nüsxə çatmışdır. Şair Tofiq Bayramın nə şəklini, nə də şeirlərini aldım».

Yeri gəlmişkən, qeyd edim ki, 1972-ci ilin 2 dekabrında İraqa növbəti ezamiyyətə əksər şairlərimizin, o cümlədən də

Tofiq Bayramın şeirlərindən seçmələri özümlə apardım. Bütün bunları sadalamaqda məqsədim odur ki, şairi iraqlı soydaşlarımız da tanıyır və yaradıcılığını qiymətləndirirlər.

Tofiq Bayram Azərbaycanı tarixdə yaşadan, onun ilham mənbəyinə çevrilmiş korifeylərimizdən: N.Gəncəvinin, Füzulinin, M.F.Axundovun, M.Ə.Sabirin, Ü.Hacıbəyovun, S.Vurğunun, Rəsul Rzanın, S.Bəhlulzadənin, Maestro Niyazinin və bir çox başqa dəyərli sənətkarlarımızın ədəbi portretlərini elə ustalıqla canlandırmışdır ki, oxucu ilə bu böyük dühalar arasında sanki ədəbi bir dialoq yaranmışdır. Bu şeir-sənət dühaları şairin həyat və yaradıcılığına elə dərin təsir etmişdir ki, onun forma, mövzu, məzmun və dil baxımından cilalanmış əsərlərini oxuduqca valehedici bir mənzərənin şahidi olursan: təvazökarlıq, yenə də təvazökarlıq:

İndi nə Vurğun var, nə Rəsul Rza,
Düşmüşük dahilik iddiasına.

Bunu şairin çağdaşlarına münasibətində də görmək mümkündür. Şairin Məmməd Araza həsr etdiyi şeirində olduğu kimi:

Yox, yox, sənin yerin məndən ucadır,
Mən bu həqiqəti söyləyim gərək.

Burada bir məsələdən də söz açmaq yerinə düşərdi. XX əsrdə ədəbiyyatımızda geniş yer alan dostluq şarjları təəssüf ki, indi unudulmağa üz tutub. Etiraf edirəm ki, məşhur «Kirpi» jurnalını ən çox dostluq şarjlarına görə sevirdim. Yeri gəlmişkən, dostum, filologiya elmləri doktoru Kamil Ramazanovun vəsiyyəti ilə qızı Rəna xanım bu jurnalın 40 illik komplektini mənə bağışladı. Mən isə öz növbəmdə onu Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə hədiyyə etdim.

Onu da deyim ki, keçən əsrin 2-ci yarısında xalq şairi Bəxtiyar Vahabzadə barədə, məncə «Kommunist» qəzetində oxuduğum dostluq şarjının ləzzəti hələ də damağımdan getməyib:

Qatlayıb dizinin altına qoyar,
Alim Bəxtiyarı, şair Bəxtiyar.

Dostluq şarjları Tofiq Bayram yaradıcılığında da əhəmiyyətli yer tuturdu. Duzlu-məzəli şarjlarına görə o, qələm dostlarının xüsusi hörmət və ehtiramını qazanmışdı. Onun Anar, Nəbi Xəzri, Hüseyn Arif, Səyavuş Aslan, İsi Məlikzadə, Sabir Əhmədov, Oqtay Kazımov və Musa Yaquba həsr etdiyi şarjların ideya məğzini, xoşməramlı niyyət, həddindən ziyadə səmimiyyət, lakoniklik, nikbinlik, zarafatyana sataşma təşkil edir. Həm də bu şarjlar ünvanlandığı qələm və sənət sahiblərinin fərdi xüsusiyyətlərinə uyğun gəlməklə, hədəfə dəqiq dəyməsi ilə fərqlənir:

Hüseyn Arif:

Aşıqlar evini mən yaratmışam,
Elə ki, anıram çölü-çəməni,
Necə danışmayım özüm barədə?
O günü səfərə, yola hazıram.
Müdirəm, rəhbərəm o idarədə,
Aşıqlar Bakıda axtarsın məni,
Bu yolda can qoyub, saç ağartmışam,
Qazaxda saz çalıb, şeir yazıram.

İsi Məlikzadə:

Adıma yazdılar qırmızı diplom,
Oldu ixtisasım qaz mühəndisi.
Elə bil çiynimdən boru asdılar,
Dedim, ilişmisən, vayındır, İsi.

Zavodda, mədəndə girlənib bir az,
«Kövrək qanadlar»la endim həyata.
Bəxtimdən hardasa fantan vurdu qaz,
Məni diyirlədi ədəbiyyata.

Anar:

Filmimlə pyesim verib səs-səsə,
Roman yazmağa da xoşum var, xoşum.
Tənqid güldən ağır mənə söz desə,
Fikrim var, hirslənib şeir də qoşum.

Tofiq Bayram dünya xalqlarının poeziyasını yüksək peşəkarlıqla Azərbaycan dilinə çevirən ən sərişteli sənətkarlardan biri kimi də tanınır. Bədii kamilliyi ilə seçilən həmin tərcümələri oxuyanda onların sanki azərbaycanca yazıldığını, şairin öz təxəyyülünün bəhrəsi olduğunu güman edirsən:

Nəğməmi, sözümü yayın hər yana:
Vurğunam Bakıya, Azərbaycana!
Bu yerlər köksümün başında gəzər,
Qəlbimdə çırpınar dəli Kür, Xəzər.
Yüz ölkə dolansam, yüz diyar görsəm
Əsri başdan-başa laləzar görsəm,
Bu doğma yerləri mən unutmaram,
O çörəyi, duzu ucuz tutmaram.

(Leonid Xaustov– rus şairi)

və ya:

Qoy şirin yuxuna girsin gecələr,
Sənin ürəyincə olan bir həyat.
Ləkəli deyilsə vicdanın əgər,
Sən arxayın yat!

(Qaysın Quliyev– Kabardin–balkar şairi)

Şairin uğurlu tərcüməsində Azərbaycan oxucuları A.Tvardovskinin «Üfüqlərdən-üfüqlərə» (1966) və «Ürəkdən ürəyə» (1975), Rəsul Həmzətovun «Durnalar» (1973) və «Dostları qoruyun» (1989) şeir kitabları, Puşkinin «Mosart və Salyeri», Tvardovskinin «Yaddaşın hökmü», Anna Axmatovanın «Rekviyem» poemaları, ispan dramaturqu Lope de Veqanın «Hiyləgər məşuqə» əsəri ilə tanış olmaq imkanı əldə etmişdir. Şair eləcə də Y.Yevtuşenko, İ.Abaşidze, Q.Quliyev, L.Xaustov, M.Posxişvili, T.Çiladze, V.Konstantinova və başqalarının bu gün də şüur və qəlblərə sirayət edən poeziya nümunələrini yüksək bədii səviyyədə tərcümə edərək Azərbaycan oxucularına töhfə etmişdir.

Tofiq Bayramın tərcümə sahəsindəki uğurları, hər şeydən əvvəl, onunla şərtlənir ki, şair Azərbaycan dilinə həqiqi sənət əsərlərini seçib çevirmişdir.

Etiraf etməliyik ki, şairin tərcümə fəaliyyəti ədəbi əlaqələr yolunda əlahiddə xidmətdir.

O, keçmiş sovet məkanında yaxşı tanınan şairlərdən idi. Bu baxımdan görkəmli rus şairi Andrey Voznesenskinin fikri maraq doğurur: «Mən dünyanın heç yerində Tofiq Bayram qədər auditoriya tərəfindən hərarət və xüsusi məhəbbətlə qarşılanan şair görməmişəm».

Tofiq Bayram yaradıcılığı ilə yaxından tanışlıq belə qənaətə gəlməyə imkan verir ki, şairin forma, üslub, məzmun və ideya baxımından biri-birindən fərqlənən, bütövlükdə poetik təfəkkürün bəhrəsi olan əsərləri bir ortaq nöqtədə doğma xalqına, vətəninə qeyrətli bir oğul kimi xidmət etmək anlamında birləşir:

Vətən mənim bu günüm,
Sabahkı toy-düyünüm.
Haqqım var ki, öyünüm,
Azərbaycan deyəndə.
Ürəklərdə döyünüm,

Azərbaycan deyəndə…
Mən Vətənə Füzuli,
Abbas Səhhət deyirəm.
Mən Vətənə Sabiri
Doğan qeyrət deyirəm.
Mən Vətənə Üzeyir,
Müşfiq, Səməd deyirəm.
Günəş kimi müqəddəs
Bir həqiqət deyirəm
Azərbaycan deyəndə.

Tofiq Bayramın xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, Əməkdar incəsənət xadimi (1984), Dövlət mükafatı laureatı (1988) kimi fəxri adlara layiq görülmüşdür. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Əmircan kəndində istirahət parkına onun adı verilmiş və parkda şairin əzəmətli büstü qoyulmuşdur. Parkın açılışında şəxsən iştirak edən, ədəbiyyatımızın böyük qayğıkeşi Heydər Əliyev şairin yaradıcılığına yüksək qiymət vermişdir.

Mənalı ömür yaşayan Tofiq Bayram 1991-ci il aprel ayının 18-də dünyasını dəyişdi və Əmircan kənd qəbiristanlığında dəfn edildi. Nə edəsən ki, «bir yandan boşalıb, bir yandan dolan dünya»mızın keçilməz qanunları vardır. Tofiq Bayramın yoxluğunu ürək ağrısı ilə qeyd etsək də, təsəllini onda tapırıq ki, şairin ölməz poeziyası yaşayır və tam əminliklə deyə bilərik ki, ədəbiyyatımızda layiqli yeri olan sənətkarın poetik irsi gələcək nəsillərin də qəlbində yaşayacaqdır.

FƏRMAN KƏRİMZADƏ*



Fərman Kərimzadə ilə eyni ildə, o, ilk bahar dönəmində, mən son bahar dönəmində anadan olmuşuq. Lakin o, Bakıya məndən iki il əvvəl gəldiyinə görə düşüncə tərzi və mühakimələrində üstün idi. Ümumiyyətlə, o, xarici görünüşü və danışığı ilə köhnə kişiləri andırırdı. Bununla da möhtəşəm idi. Fərman və Əlibala Hacızadə ilə Lenin adına kitabxanada gənclər üçün təşkil olunmuş yaradıcılıq dərnəyində tanış olmuşdum. Dərnəyin rəhbəri, şair Tofiq Mütəllimov onlardan xahiş edirdi ki, hərdən dərnəyə gəlsinlər. Bu vaxt artıq onların hekayələri çap olunurdu. 1961-ci ildə isə hər ikisinin eyni vaxtda kitabı çıxdı. Bundan sonra onun «Ömrümüz günümüz» (1963), «Heykəl dilə gəlir» (1965), «Qarlı aşırım» (1971) kimi bir-birindən maraqlı əsərləri çıxdı və bir yazıçı kimi ona şöhrət gətirdi. Onu da deyim ki, məni Fərmanla indi haqq dünyada olan dostum, gözəl ədəbiyyatşünas alim İsrail Mustafayev tanış etmişdi. «Qarlı aşırım» əsasında çəkilmiş «Axırıncı aşırım» filminin baxışına (premyerasına) birgə getmişdik. Filmin böyük uğur qazanacağını əvvəlcədən duyduq və onu ürəkdən təbrik etdik. O isə narazı idi. «Axırıncı aşırım»a baxanda gördük ki, bəyi o, müsbət obraz kimi, yəni həyatda necə olmuşdusa eləcə göstərmək istəyirmiş. Məlumdur ki, Kərbəlayı və Abbasqulu ağa obrazlarını o, həyatdan götürüb. O da məlumdur ki, İsmayıl Şıxlının «Dəli

* Bax: «Ədəbiyyat qəzeti», 24.07.2009

Kür» romanı əsasında çəkilən eyniadlı filmdə Cahandar ağadan sonra sovet dönəmində bəyi müsbət qəhrəman kimi verən ikinci yazıçımız Fərman Kərimzadə olmuşdur.

Fərman mütaliəni çox sevirdi. Hərtərəfli biliyə malik idi. Lakin onun biliyi ensiklopedik bilikdən fərqlənirdi. O, hər şeyi real həyatla vəhdətdə qəbul edirdi. Bunun mən Əlibayramlının Vladimovka kəndinə mənim maşınımda İsrail Mustafayevin istədiyi Həsən kişinin qızı Nellinin diləkçiliyinə gedib-gələndə şahidi olmuşdum. Onu da deyim ki, İsrailin toyunu Montində edəndə şair Qabil tamada, Fərman isə onun müavini idi. Fərman çox danışmağı sevməzdi. Ona görə də yaxınları belə onunla bağlı bəzi məqamları bilməzdilər. 1988-ci ilin sonları idi. Türkiyədən yüksək səviyyəli qonaqlar gəlmişdilər. «Qarabağ» restoranında onlara qonaqlıq verirdilər. Mən ora Abbas Zamanovla getmişdim. Məclisi akademik Fərəməz Maqsudov aparırdı. Mən orda ilk dəfə gördüm ki, Fərəməz müəllim həm türk, həm də Azərbaycan poeziyasını demək olar ki, əzbər bilir. Sabir Rüstəmxanlının təpədən-dırnağa azərbaycançı olduğunu bilirdim. Lakin gördüm ki, o, eyni dərəcədə türkçüdür. O da məlum oldu ki, Fərman Kərimzadə qeyri-adi şeirlər yazırmış. Həmin şeirlərdə dərin hüzn, qüssə, kədər qırmızı xətt kimi keçirdi.

Onu da deyim ki, «Qarlı aşırım»dan sonra Fərman düz 11 il susdu. Hərə bir şey deyirdi. Lakin lap yaxın adamlar bilirdi ki, o, tarixi roman üzərində işləyir. Gecə-gündüz mütaliə edir, material toplayır. 1982-ci ildə «Xudafərin körpüsü» şimşək kimi çaxdı, ildırım sürətilə bütün evlərə, ailələrə mehman oldu. Bir il sonra kitabın II hissəsi çıxdı. 1988-ci ildə isə 300 səhifəlik «Çaldıran döyüşü» romanı 65 min tirajla işıq üzü gördü və elə bil Fərman gözə gəldi. Nəzər tutdu onu. Lakin Fərmanın yaxın dostları yaxşı bilir ki, onun dərdi el-oba dərdi idi. Qarabağ dərdi idi. Az adam bilir ki, Fərman Kərimzadə Ermənistandan – öz ana torpaqlarından, ata yurdlarından

qaçmağa məcbur olaraq Azərbaycana gələn qohum-əqrəbasını qarşılayarkən onların ağır vəziyyətini görmüş, ürəyi dözməmiş, əbədi dayanmışdı. O, qələminin və ağlının ən kəsərli vaxtı anadan olduğu mart ayında, ilk baharda, Novruz bayramına üç gün qalmış dünyasını dəyişdi.

Nə edəsən, həyat keşməkeşli və anlaşılmazdır. Təsəllini onda tapırıq ki, onu əbədiyaşar edən tarixi romanları, povest və hekayələri vardır.

NƏSRİMİZDƏ İSİ MƏLİKZADƏ NƏFƏSİ*

Ədəbiyyata XX əsrin 60-cı illərində gələn, 60-cılar nəsli kimi tanınan yeni nəslin əsərlərində mövzu, real həyat probleminin qoyuluşu və bədii həlli məsələsi Azərbaycan ədəbiyyatının çox maraqlı və uğurlu mərhələsini təşkil edir. Həmin dövrün istedadlı qələm sahiblərindən biri də İsi Məlikzadədir.

İsi Məlikzadə 1934-cü il may ayının 1-də Quzey Azərbaycanın Ağcabədi rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Neft Akademiyası) neft-mədən fakültəsinə daxil olmuş (1952) və həmin institutu bitirmişdir (1957). Tələbəlikdən qələmini bədii yaradıcılıqda sınamış və uğur qazanmışdı. İsi Məlikzadə həmin illəri belə xatırlayır: «Cavan vaxtlarımda gündüzlər istehsalatda çalışırdım, gecələr isə yuxuma haram qatıb, gözümün toyşu gedənəcən hekayə yazırdım. Yazdıqlarımın keyfiyyətindən razı idim. Say artdıqca özümə inamım da artırdı».

Sonralar bədii yaradıcılığa olan həvəsi onu ixtisasından uzaqlaşdırıb ədəbiyyatın geniş üfüqlü qoynuna atdı. Şair Tofiq Bayram ona dostluq şarjı həsr etdi:

---

* «Vəfa» jurnalı, №4, 2004, s. 20–21, «İsi Məlikzadə –70», «Bakı nəşriyyatı», 2004, s. 3–5; (Gülzar İbrahimqızı ilə şərikli). Q.Paşayev kitabı öz vəsaiti hesabına çap etdirmişdir (red).

Adıma yazdılar qırmızı diplom,
Oldu ixtisasım qaz mühəndisi.
Elə bil çiynimdən boru asdılar,
Dedim ilişmisən vayındır, İsi.

Ədibin bir sıra kiçik həcmli hekayələri dərhal oxucu rəğbəti qazandı. Bu hekayələrin əsas məğzi real həyatdan gəlirdi. Lakoniklik, az sözlə böyük məna ifadə etmək ədibin yazı manerasına xas olan başlıca cəhət idi.

İsi Məlikzadə əsərlərinin mayası həyatdan, torpaqdan, xalqdan, milli kökə, ənənəyə bağlılıqdan irəli gəlir. XX əsrin 70–90-cı illəri İsi Məlikzadə yaradıcılığının ən məhsuldar dövrünü təşkil edir. Bu illərdə yazdığı çoxsaylı hekayə, povest və romanları geniş ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdı.

İsi Məlikzadə «Ulduz», «Azərbaycan» ədəbi-bədii jurnallarında, Azərbaycan Dövlət Nəşriyyatında, «Azərbaycanfilm» kinostudiyasında və s. işləmişdir. İlk hekayəsi 1960-cı ildə, ilk kitabı – «Həsrətin sonu» 1964-cü ildə çap olunub. Uzun illər ərzində «Vəfa», «Bünövrə», «Kürsü», «Möhlət», «Özgə anası», «Oyanmış xatirələr», «Haram tikə», «İki günün qonağı», «Kövrək qanadlar», «Evin kişisi», «Qaranquş yuvası», «Günəş harada gecələyir», «Gümüşgöl əfsanəsi», «Küçələrə su səpmişəm», «Yaşıl gecə», «Görüş», «Dədə palıd», «Günəşli payız», «Qırmızı yağış», «Alovlu qış» və b. kitabları nəşr olunmuşdur.

Ədibin «Molodaya Qvardiya», «Sovetskiy pisatel» kimi nüfuzlu nəşriyyatlarda rus dilində ondan artıq kitabı nəşr olunmuşdur. Moskvada fransız dilində çıxan «Azərbaycan nəsri antologiyası»nda İsi Məlikzadənin bədii yaradıcılığına yüksək qiymət verilmiş, ədibin «Oğul» hekayəsi çap olunmuşdur.

İsi Məlikzadənin Respublika teatrlarının səhnəsində «Gəl qohum olaq», «Sağlıq olsun», «Hərənin öz ulduzu», «Məndən nigaran qalmayın» pyesləri tamaşaya qoyulmuşdur.

Uzun illər «Azərbaycanfilm» kinostudiyasında baş redaktor işləyən ədibin ssenariləri əsasında çəkilmiş «Qatarda», «Gümüşgöl əfsanəsi», «Pəncərə», «Ağ atlı oğlan», «Kişi sözü», «Cehiz güzgüsü», «Güllələnmə təxirə salınır», «Hacı Qara», «Papaq», «Evin kişisi», «Evlənmək istəyirəm», «Qoca palıdın nağılı» kimi qısa metrajlı bədii və sənədli filmlər böyük ekranda öz geniş təcəssümünü tapmış və tamaşaçı rəğbətini qazanmışdır.

Xüsusən də, yazıçının «Qatarda» əsəri cəmiyyətdə baş verən haqsızlıqlara qarşı güclü etiraz, üsyan, haray olmaq baxımından fərqlənir. Sovet sisteminin qılıncının dalı da, qabağı da kəsdiyi bir dövrdə onun eybəcərliklərini tam çılpaqlığı ilə açıb göstərən, kəskin tənqid atəşinə tutan «Qatarda» əsəri ədəbiyyatımızda hadisədir. Xalq arasında çox sevilən bu əsərin şöhrətini Yaşar Nuri, Həsən Əbluc kimi görkəmli səhnə ustalarının bənzərsiz oyunu daha da artırmışdır.

Bir qələm əhli olaraq, İsi Məlikzadə özünü bədii yaradıcılıqda tam təsdiq etmiş, oxucu və tamaşaçı kütləsinin sonsuz məhəbbətini qazanmışdır. Təəssüf ki, o yaradıcılığının çiçəkləndiyi bir dövrdə, Azərbaycan xalqının tale yüklü Qarabağ məsələsində Xudu Məmmədov (Qarabağa dair iclasda), Hafiz Baxış (Qarabağa dair iclasda), Fərman Kərimzadə, Mikayıl Azaflı, Hamlet Xanızadə, Eldar Baxış, Famil Mehdi, Şahmar Əkbərzadə və başqaları kimi, İsi Məlikzadə də sarsıntı keçirdi və 1995-ci ildə dünyasını dəyişdi. Təsəllini onda tapırıq ki, İsi Məlikzadənin əsərləri bu gün də səhnədən düşmür, həmişəki məhəbbətlə oxunur, xatirəsi layiqincə yad edilir.

Təkcə onu demək kifayətdir ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2004-cü ildə latın qrafikası ilə əsərlərinin çapı nəzərdə tutulan yazıçıların siyahısında İsi Məlikzadənin də adı vardır.

«BİR DƏ GÖRÜRSƏN Kİ, AÇILAN SOLUR…»*



Onunla həmyaş idik. Hər ikimizin uşaqlığı II Dünya Müharibəsi dövrünə düşmüşdü. Müharibə «xeyirxahlığını» bizlərdən də əsirgəməmişdi. Şəkərin, şirniyyatın nə olduğunu bilməmişdik. Uşaqlıqdan bizə qalan acı xatirələr olmuşdu. Bizi bir-birimizə bağlayan tellər folklorla başlayırdı. O da folkloru, adət-ənənələrimizi, etnoqrafiyanı çox sevirdi, mən də. O, Xızı rayonunun Tudar kəndində anadan olsa da (30.XI.1937), dünyasını dəyişdiyi günə qədər (25.03.2006) ölkəmizin paytaxtı Bakıda, əsasən Sovetski deyilən «dağlı məhəlləsi»ndə yaşamışdı. Mən ömrünü folklorumuza həsr edən, onu bütün vücudu ilə sevən, təbliğ edən, milyonlarla adama sevdirən, ümumxalq məhəbbəti qazanan Əmirhüseyn Məcidovun bu keyfiyyətinə, şifahi xalq ədəbiyyatını dərindən bilməyinə pərəstiş edənlərdən olmuşam. İncəsənət Universitetində əldə etdiyi biliyin sayəsində o, Azərbaycan Televiziyasına millilik gətirənlərin sırasında idi. Əmirhüseyn Məcidov Azərbaycan televiziyasında görkəmli rejissor Arif Babayevin yanında rejissor köməkçisi kimi işə başlamışdı (1963). Arif Babayev «Zirvə», «Arşın mal alan», «Sehrli xalat» filmlərini çəkəndə də onun köməkçisi olub. 1967-ci ildən başlayaraq ömrünün 35 ilini bağladığı AzTV-də sərbəst verilişlər hazırlamışdı. «Səhər görüşləri»nin ilk doqquz sayı daxil olmaqla «Evrika», «Sağlamlıq», «Odlar diyarı», «Şimşək», «Ədəbi üfüqlər», «Səadət» qadın klubu, «Kitab köşkü», «Klassik irsimizdən» kimi bir-

* Bax: «Ədəbiyyat qəzeti», 12.05.2006. s.5.

birindən maraqlı, böyük tərbiyəvi, elmi və mədəni əhəmiyyəti olan, xalqın qan yaddaşını oyadan verilişlər onun təxəyyülünün məhsulu olub.

Mən dostum Əmirhüseyn Məcidovun «Klassik irsimizdən», «Sətirlərdə döyünən ürək», «Zirvələr» rubrikaları altında silsilə ədəbi verilişlərinə həmişə bu müstəvidən baxmışam. Mənə belə gəlir ki, ədəbiyyatımızın ən uğurlu təbliği yolu televiziya verilişləri, televiziya tamaşalarıdır. Teatrlarda tamaşalara yüzlərlə adam baxırsa, televiziyada onları minlərlə, milyonlarla adam izləyir və ədəbiyyatın aşıladığı sonsuz ümmana bənzəyən mənəvi dəyərləri əxz edir. Bu verilişlər sözün həqiqi mənasında musiqili tamaşa olub, tamaşaçılara bədii zövq vermək baxımından da seçilirdi. Məhsəti xanım, Heyran xanım, Natəvan, Nəbati, Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif və başqalarına həsr olunmuş musiqili teletamaşalar ədəbi kökümüzə, özünüdərkə qayıdış yolunda atılan gərəkli addımlar idi. O, müasir yazarlarımızın yaradıcılığına da böyük ehtirasla yanaşırdı. Xalq şairi B.Vahabzadə, N.Xəzri,

C.Novruz, N.Həsənzadə və başqalarının yaradıcılığına yadda qalan verilişlər həsr etmişdi. O, hansı yeni bir verilişə girişirdisə, uğur qazanırdı. Çünki peşəni mükəmməl bilən sənət fədaisi idi. Yaz yağışından sonra göbələk kimi artan, tele və radio kanallarda baş alıb gedən, insanı darıxdıran mənasız tele-şou, proqram və «yeni proyektlər»dən usananda Azərbaycan televiziyasının gəl-gəl deyən vaxtları və mütləq Əmirhüseyn müəllimin verilişləri, xüsusən də 70-ci illərdə «Klassik irsimizdən», 80-ci illərdə «Ozan» və 90-cı illərdə «Durna teli» göz önünə gəlir. Lakin tərəddüd etmədən deyə bilərik ki, onun şah əsəri memarı olduğu «Ozan» olmuşdur. «Ozan» və «Durna teli» kimi ümumxalq rəğbəti qazanan verilişlərin həm müəllifi, həm də rejissoru Əmirhüseyn Məcidov özü idi. O, həqiqətən, sənətinin vurğunu, bilicisi və fədaisi idi.

«Ozan» Əmirhüseyn Məcidovun fəaliyyətində qırmızı xətt kimi keçir. Özünün etirafına görə o vaxtlar Mərkəzi Komitənin katibi olan Həsən Həsənov xalq yaradıcılığına dair bir veriliş hazırlamağı məsləhət görübmüş. Elə «Ozan» adını da o özü təklif edibmiş. «Ozan» hay-küysüz, sakit bir tərzdə təqdim olunurdu. Hətta aparıcını belə veriliş boyu görmək mümkün deyildi. Onu yalnız verilişin əvvəlində tamaşaçıları salamlayarkən və sonda görmək olurdu. Bu, belə böyük həcmli veriliş üçün yenilik idi. Əmirhüseyn müəllim xalqa demək istədiklərini folklorun dili ilə, həm də çox uğurla çatdırırdı. Əsas məqsəd indiki verilişlərdən fərqli olaraq, özlərini göstərmək deyil, tamaşaçıya lazımi mətləbləri sözlə çatdırmaq idi. «Ozan»ın təqdimat musiqisinin özü bir tapıntı idi: Ü.Hacıbəyovun «Koroğlu» operasının uvertürası. «Ozan»ın cəmisi yeddi nömrəsi efirə çıxandan sonra, onu Dövlət mükafatına təqdim etmişdilər. Elə bu faktın özü çox mətləblərdən xəbər verir. Əmirhüseyn müəllim «Ozan»a neçə-neçə gənc müğənni, aktyor, sənət adamını cəlb etmişdi. Onlar «Ozan»ı, «Ozan» isə onları xalqa tanıdırdı. Onların arasında Xarici Dillər İnstitutunda

üç il ingilis dilindən dərs dediyim, cazibəli səsi və diksiyası ilə seçilən tələbəm Mürsəl Ağamirzəyev və İncəsənət Universitetində təhsil alan Nadir Hüseynov da var idi.

Əmirhüseyn Məcidov «Ozan»a materialı xalqdan toplayırdı. Odur ki, Azərbaycanda getmədiyi oba, tanımadığı kənd və söz sərrafı yox idi. Əmirhüseyn müəllim istirahət nədir, bilməzdi. Rahatlığını işləməkdə tapırdı. Sözün həqiqi mənasında, istedadlı rejissor idi. Bundan əlavə folklordan ilahi bir müdriklik də əxz etmişdi.

Rejissor ekranda, demək olar ki, görünmür. Professor İlham Rəhimlinin göstərdiyi kimi: «Görünən onun istedadının, estetik zövqünün, dünya duyumunun, həyat görüşlərinin bədii təcəssümüdür. Onun dəyəri və dəyərsizliyi ilə rejissorun sənətinə qiymət verilir».

Ədalət naminə deyək ki, XX əsrin 70-ci illərindən başlamış indiyə kimi görkəmli alimlər, sənət adamları, qələm sahibləri onun sənətinə yüksək qiymət vermişlər. Professorlar İlham Rəhimli, İsmayıl Məmmədov, Xanlar Qurbanov, Aydın Dadaşov, eləcə də Nahid Hacızadə, Ağalar Mirzə, Müşfiq Cabiroğlu, Tamara Mütəllimzadə, Xəyalə Hüseynli, Yavər Hüseynov, Salman Babayev və başqalarının yazıları bu qəbildəndir.

Gün kimi aydın bir həqiqətdir ki, bu sənət adamlarının yolu hamar olmur. Ağrılı-acılı, tələtümlü, enişli-yoxuşlu olur. Daim onu qabarmalar və çəkilmələr izləyir. Sarsıntılar da keçirir. Bu vaxt onu sənətinə vurğunluq xilas edir. Əmirhüseyn müəllim də sarsıntıya məruz qalmışdı. Lakin o, acısı heç vaxt səngiməyən zərbəni sənətdə deyil, Çernobıl faciəsindən almışdı. Oğlu Elşən Çernobılda sağalmaz xəstəliyə mübtəla oldu. Əlac tapılmadı, 24 yaşında dünyasını dəyişdi. Əmirhüseyn müəllim az qaldı dəyanətini itirsin. İnciməyəcəyinə inanaraq onunla açıq söhbət etdim. Yeganə oğlunu itirmiş şairimiz Hüseyn Arifin sarsıntılarını, qələmə sarılaraq ağır vəziy-

yətdən çıxmaq istədiyini göz önünə gətirdik. Bundan sonra Əmirhüseyn müəllim «Elşən» təxəllüsü götürərək qəmli ədəbi əsərlər, pyeslər, hekayələr, şeirlər yazmağa başladı. Folklordan, görkəmli elm və sənət adamlarından, yazarlarımızın həyat və yaradıcılığından bəhs edən beş sanballı kitab çap etdirdi.

Xalq arasında övladın öz atasının yolu ilə getməsi, sənətini davam etdirməsi həmişə yaxşı hal kimi qarşılanıb. Təskinlik olsun deyə rahatlıqla deyə bilərəm ki, Əmirhüseyn müəllimin 35 il çalışdığı Azərbaycan Dövlət Televiziyasında onu əvəz edən oğlu İman atasının sənətini davam etdirir *.

Əmirhüseyn müəllim İraqda yaşayan dili dilimizdən, adət-ənənəsi, həyat tərzi, folkloru, musiqisi eyni olan, əsasən Kərkük mahalında toplu halda yaşayan bacı-qardaşlarımızın folklorunun və xalq musiqisinin təbliğinə də misilsiz xidmətlər göstərirdi. Təəssüf ki, dostumun haqqında keçmiş zamanda yazmaq məcburiyyətindəyəm.

Nə edəsən ki, həyatın sərt və dəyişməz qanunları, ömrün yarpaq tökən çağı var. Belə anlarda insanları ovunduran, təsəlli verən müdrik kəlamlar olur:

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin, bir torpaq olur:
Bir yandan boşalır, bir yandan dolur –
Sirrini verməyir sirdaşa dünya…

* Hazırda İman «Space» telekanalında redaksiya müdiri vəzifəsində çalışır.

O, MÜDRİKLİK ZİRVƏSİNDƏ BƏRQƏRAR OLMUŞDU*



Dərin mənalı söhbətlərini, müdrik kəlamlarını neçə vaxtdan bəri dəftərə köçürdüyüm Tofiq müəllim haqqında sağlığında cürət edib ürək sözlərimi deyə bilmədiyimə təəssüflənirəm. Açığını deyim ki, qorxurdum ona layiq olmaz, bəyənməz. Təsəllimi onda tapıram ki, saralmış vərəqlər xəyalən məni Tofiq müəllimli günlərə aparır, xatirələr kino lenti kimi göz önündən keçir. Tofiq müəllim canlı həyat və müdriklik məktəbi idi. Dünyaya, həyata bizim çoxlarımızın görə bilmədiyi mütəfəkkir gözü ilə baxır, güclü məntiqi ümumiləşdirmələri ilə seçilirdi. Xeyirdə, şərdə hamı onun başına toplaşır, onunla təmasda olmağa, insana mənəvi zövq verən söhbətlərinə qulaq asmağa can atırdı. Nə gizlədim, əvvəllər bunu onun yüksək vəzifələrdə işləməsi ilə bağlayırdım. Lakin sonralar, onun məntiqi və məna dolu söhbətlərini dinləmək mənə də nəsib olduqdan sonra, səhvimi başa düşdüm.

Bütün dünyada məşhur «Şərq müdrikliyi» ifadəsi vardır. Bu, sağlam düşüncəli, müdrik ağsaqqalların həyat təcrübəsinin nəticəsi kimi meydana gəlmişdir. Tofiq Məsim oğlu Bağırov belə müdriklərin davamçılarından idi – desək, səhv etmərik. Bu, təkcə bizim deyil, onu yaxından tanıyanların əksəriyyətinin qənaətidir. Nə yaxşı ki, belələrini Yaradan xalqa bəxş eyləyir. Onunla təmasda olduqca, müdrik kəlamlarına qulaq

---

* Bax: Xanlar Bayramov, Zakir Sadatlı. Onu Gəncə böyütmüşdü. Bakı, «Nurlan», 2004. s. 201–207.

asdıqca sanki xalqımızın tarixi, ədəbiyyatı, ümumiyyətlə, mədəniyyəti vərəq-vərəq göz önündən keçir, indiyə qədər sənə qaranlıq qalan bir çox mətləblər, məqamlar aydınlaşırdı. O, tariximizə tarixçilərin həsəd aparacağı səviyyədə bələd idi. Eləcə də elmin başqa sahələrinə, xüsusən də elmi ədəbiyyata, ensiklopedik ədəbiyyata. Klassik və müasir ədəbiyyatımızı gözəl bilirdi. Azərbaycan ədəbiyyatında elə bir önəmli hadisə, elə bir həqiqi ədəbi imza tapmaq çətin idi ki, Tofiq müəllim ondan xəbərsiz olsun, ona obyektiv qiymət verə bilməsin. XX əsrin 20-ci illərindən yaradıcılığa başlayan yazarlarımızın hamısının avtoqrafla hədiyyəsi Tofiq müəllimin 7000-dən artıq nadir kitabı əhatə edən kitabxanasının xüsusi rəflərini bəzəyir. Yeri gəlmişkən, Tofiq müəllimin kitabxanasında bir saz və eləcə də Cavad xan, Şeyx Şamil, Atatürk və Səməd Vurğunun portretləri asılıb. Soruşanda: «Saz milli rəmzimizdir. Savadını nəzərə alaraq, bu şəxsiyyətlər barədə sənə məlumat verməyə ehtiyac duymuram, Səməd Vurğundan başqa. Tiflisdə Dəmiryol İnstitutunu bitirdikdən sonra, məni Mahaçkalaya işə göndərmişdilər. Azərbaycana qayıtmağıma görə ona minnətdaram» – demişdi.

Tofiq müəllim böyük ziyalı idi. Ziyalı kim hesab olunur? – sualına bir dəfə belə cavab vermişdi: «Ziyalı təkcə savadlı olmaq demək deyildir. Sözsüz, ziyalı yüksək intellekt sahibi olmalıdır. Eyni zamanda yüksək mənəviyyatlı, eqoizmdən kənar, təvazökar, ədalətli, millətin ağrıları ilə yaşayan, mənsəbpərəstlikdən uzaq, yaltaqlığa, ikiüzlülüyə nifrət edən, bir sözlə yüksək intellektli, qüsursuz adamı ziyalı adlandırmaq olar. Ziyalı ictimaiyyət tərəfindən etiraf olunar».

Deyirlər nəcabətli adam hər yerdə doğulmur. Ancaq belə müdrik harada doğulursa, orada bütöv bir xoşbəxt nəsil çiçəklənir. Tofiq müəllim öz xeyirxahlığı, ləyaqəti və nəcabəti ilə buna tam nail olmuşdu.

Böyük şərqşünas və islamşünas alimimiz, dünyanın bir çox Elmlər Akademiyalarının üzvü, prof. Vasim Məmmədəliyevlə bağlı yazdığım: «Elmi, təfəkkürü, fitri istedadı ilə seçilən şəx-

siyyətlərlə uzun müddət oturub-duranda, təmasda olanda çox vaxt onlar adiləşirlər. Lakin Vasim müəllimlə yaxın olduqca qəribə bir mənzərə ilə qarşılaşırsan. O, gündən-günə insanın qəlbində və gözündə ucalır, əzəmətli dağa dönür» (Bax: «Vasim Məmmədəliyev zirvəsi» kitabı, 2002, s.118) – sözlərini tərəddüd etmədən Tofiq müəllimə də aid etmək olardı.

Tofiq müəllim, milli hislərlə yaşayan və bunu əməllərində yaşadan, milli ziyalı mövqeyindən çıxış edən bir insan idi. Danışarkən hislərə, emosiyaya yol verməzdi.

Nədən danışsa, həyati təcrübəsinə arxalanır və gəldiyi nəticə ilə insanı heyran edirdi.

Bir dəfə söhbət Fəxri xiyabandan düşmüşdü. Hərə bir şey deyirdi. Tofiq müəllim dedi: «Sağlığında ehtiram qazanmış adam dünyasını dəyişəndə harada basdırılsa, orada fəxri bir guşə yaranır. Onu onsuz da ziyarət edəcəklər. Fəxri xiyabanda isə xalqın mədəniyyəti və tarixini yaradan ən ləyaqətli övladları dəfn olunmalıdır».

Hamı onun sözünü təsdiq etdi. Qəribədir ki, onun bütün fikirləri, demək olar ki, qeyd-şərtsiz qəbul olunurdu. Bu, müdriklik nişanəsi idi.

… İnsan arzu ilə yaşayır. Lakin bir yaş dövrü gəlir, insan bu günlə yaşayır. Vaxt keçdikcə, insan keçmişi ilə yaşayır. Mən indi keçmişimlə yaşayıram. Keçdiyim həyat yoluna nəzər salanda heç bir nigarançılıq görmürəm. Yaxşı ad qoyub gedirəm ki, bu da üç oğluma kömək olacaq. Onu da deyim ki, Yaradanın işinə qarışmaq olmazmış. Adam qocalıb əldən düşəndə ona birinci arvadı həyan olur. Özü də qadın kişidən ən azı 8–10 yaş kiçik olmalıdır. Sonra qız gəlir, sonra bacı. Gənclikdə dalbadal oğlanlarım olduqca fəxr edirdim. Deyirdim: «Nə yaxşı qız olmadı». Yaşlı vaxtımda nə böyük səhv etdiyimi anladım. Dərk etdim ki, Yaradanın işinə qarışmaq, onun qoyduğu qanunlarda nöqsan, ədalətsizlik axtarmaq nəinki ağılsızlıq, həm də böyük günahdır. Bir şey də var ki, dini məsələləri elmi yolla izah etmək lazımdır, yoxsa mövhumata gətirib çıxarır – deyirdi.

Məqamdan istifadə edərək dedim ki, yaşınız çoxalıb. Yenə bir təskinlikdir. İmkanınız da vardır. Niyə müqəddəs yerləri ziyarət etmirsiniz?

– Ziyarət gərək ziyarət olsun, yoxsa bəziləri kimi turist sifətilə müqəddəs yerlərə gedib özümü pis vəziyyətdə qoya bilmərəm. Müqəddəs yerlərə getsəm gərək islamın bütün göstərişlərini yerinə yetirəm. Yaşlı adam olduğumdan indiyə qədər etmədiyim bir işi görə bilmərəm. Odur ki, hesab edirəm ki, hərəkətim riyakarlıq olardı.

Hər şeyə ağıl, sağlam düşüncə və məntiqlə yanaşan Tofiq müəllim «gözünün işığı» olsan belə, heç vaxt mühakimələrində tərəfkeşlik etməzdi. Bir dəfə söhbət siyasətdən düşmüşdü. Söhbət zamanı onun nə qədər dəqiq, qərəzsiz və vicdanlı olduğunu bir daha kəşf etdim. Tofiq müəllim deyirdi: «Siyasət odla oynamağa bənzəyir. Onu elektrik cərəyanına bənzətmək olar. Hər ikisində bircə səhv, bircə diqqətsizlik ölümə bərabərdir. Qarabağ məsələsində bəziləri prezidenti qətiyyətsizlikdə təqsirləndirirlər. Bələləri dövlət siyasətindən xəbərsiz adamlardır. Qarabağ məsələsi o vaxt həll olunacaq ki, onu ortaya atanlar öz məqsədlərinə çatsınlar. Prezidentimiz çalışır ki, bu məsələdən az ziyanla çıxaq».

Tofiq müəllimin kitabxanasında 1943-cü ilə qədər oxuduğu kitablardan seçmələr verilmiş 78 səhifəni əhatə edən dəftərlər vardır. Məktəbli dəftərlərinin saralmış vərəqləri nələrdən xəbər vermir. O, özü belə deyirdi: «Bu dəftərlər mənim həyatımın artıq vərəqlənmiş səhifələridir. Dəftərləri vərəqlədikcə acılı-şirinli gənclik illərim göz önündən keçir. O vaxt arzularla yaşayırdım. İndi isə həyata keçib-keçməyən uğur və uğursuzluqlarımı göz önünə gətirirəm. Anlayıram ki, insan həyatı dərindən dərk etdikcə aktiv fəaliyyətə həvəs azalır. Özü də bu hər yaşda ola bilər. Bir də həyatın sonunun fəlsəfi mənası da vardır. İnsan həvəsdən düşdükcə fəaliyyətdən də düşür, həyata münasibət sənə rahatlıq vermir».

Tofiq müəllimin müəyyən fikir, düşüncə və qənaətlərini bir söz belə dəyişmədən oxuculara təqdim etməyi münasib saydım.

• Həyatda ən böyük var-dövlət ləyaqətdir. Ləyaqətli adamlar başqalarından vicdanları ilə seçilirlər. Ümumiyyətlə, insanda yaxşı nə varsa vicdanın məhsuludur. Vicdanla görülən iş insana şərəf gətirir. Vicdan insanın daxilində olan ədalət məhkəməsidir. Ləyaqət və vicdan insanın peykidir. Hər şeyi xərcləmək olar, qazanırsan xərcləmək üçün. Ləyaqət və vicdan da həyatda qazanılır. Lakin onu ömür boyu toplamalı və xərcləməməlisən. Ləyaqət və vicdan paylanmaz.

• Düşmənçilik heç bir tərəfə xeyir vermir. Hətta qalib tərəf özü də qazanmır. Çalış düşmən qazanma. Düşməni dost eləməyə çalış. Pis adama qarşı düşmənçilik etmə. Onun düşməni daxilindədir. O, öz-özünü əzəl-axır məhv edəcək.

• Hamı ilə söhbət etmək olar. Mübahisəni isə intellekti olan adamla etmək olar. Mübahisə höcətləşmə yolu ilə olmamalıdır.

• Şöhrət dalınca qaçma. Sən onu olduğu qədər qəbul et. Arxasınca düşsən o səni uçuruma aparacaqdır. Eləcə də vəzifə.

• Qohumlar gəlib-getməlidirlər. Uşaqlar kiçiklikdən bir yerdə olmasalar mehribançılıq yaranmaz. Uşaqların gələcəyini nəzərə alın. Yoxsa Avropadakı kimi fərdi olacaqlar.

• Qohumluqda qudalıqdan şirini olmaz. Hər iki tərəf bir-birinə dünyada yaxşı nə varsa hər şeyi arzulayır. Çünki bir-birləri ilə qırılmaz tellərlə bağlı və asılı olurlar.

• Bu günün ləzzəti ilə yaşamaq olmaz. Əgər sən qayğıdan qaçırsansa, demək sən yaşamırsan. Qayğıdan kənar həyat yoxdur. Qayğı zəncirvari prosesdir. Hər yaş dövrünün öz qayğısı var. Hoppanıb keçmək olmaz. Onda ardıcıllıq pozular. Qayğı arzu ilə nisbətdə götürülür. Qayğı realdır, arzu xəyaldır. Qayğı arzuya çatmaq üçün vasitədir.

• Tamah, nəfs yıxmayan evi heç nə yıxa bilməz. Var-dövlət artıdqca bəzi adamlarda iştah da böyüyür. Tamahın qarşısını almaq və normal yaşamaq üçün gərək onun ağzına qıfıl vurub açarını dənizə atasan. İnsan nəfsinin toxluğu, mənəvi paklıq, əxlaqi saflıq dünyada ən böyük var-dövlətdir.

Həyatda kitablardan, maraq dairəmi genişləndirməkdən və biliyimi artırmaqdan doymamışam. Di gəl ki, çox oxuduqca, çox bildikcə, dərk eləyirəm ki, az bilirəm. Bununla belə, kitablar mənə o qədər doğmalaşıb ki, əslində onlara övlad münasibəti bəsləyirəm. Ədəbi tənqidlə çox maraqlanıram. Odur ki, «Ədəbiyyat qəzeti»ni 1935-ci ildən yığıram. Açıq deyək ki, son vaxtlar tənqidimiz qənaətbəxş deyil. Tənqidçilər əsasən yazarların əsərlərinin arxasınca gedir, onlara yarınmaq üçün yazırlar. Bir sözlə, tənqid xatirinə yazırlar.

• Biznes qumar kimi bir şeydir. Alışdın, aralana bilmirsən. Həmişə gəlib birdən kəsiləndə, baxmayaraq ki, ömrünün axırına qədər yeməyə-içməyə hər şeyi var, insan qəribə hislər keçirir. Elə hey qazanmaq istəyir. Düşünmür ki, qumarda olduğu kimi, biznesdə də hər vaxt udmaq, qazanmaq olmur.

• Ev üçün, ailə üçün böyük xoşbəxtlik ondadır ki, qadın pak süd əmmiş olur. Etibarlı, mərifətli olur. Evinin, uşaqlarının əsiri olur.

• Nigarançılıq hissi keçirirəm. Müstəqillik əldə etdikdən sonra milli şüur artmaq əvəzinə get-gedə azalır. İnsanlarda var-dövlətə hərislik hissi artıb. Bu, milli şüura əngəl törədir. Milli şüur olmayan yerdə isə laqeydlik baş alıb gedir. Vətən məfhumu mənasız bir şeyə çevrilir. Biganəlik meydan sulayan yerdə vətənpərvərlikdən danışmaq olmur. İnsanın günü harada xoş keçir, ora onun üçün vətən olur. Gənclərin Azərbaycanı axın-axın tərk etməsi bununla bağlıdır.

***

Tofiq müəllim möhkəm iradəli və dəyanətli adam idi. Əhdini pozan, sözünü dəyişdirən deyildi. İllərlə öncə Respublika Üzümçülük Komitəsinin sədri işləyən Yunis Rzayev Tofiq müəllimin nəvəsi Elgün dünyaya gələndə 20 butulka şampan şərabı göndərmişdi. Tofiq müəllim Elgünün toyunda açacağını elan edərək, onları özü bağ evinin həyətində torpağa basdırmışdı. Təəssüf ki, Elgünün toyunu görmədi.

Son vaxtlar həyat Tofiq müəllimi də ağır imtahana çəkmişdi. Bir yandan gözünün nurunu itirməsi, həyat yoldaşı Qəmər xanımın dünyasını dəyişməsi, əlli ildən artıq dostluq etdiyi İdris Əsgərovun həyat yoldaşını və oğlunu itirməsi Tofiq müəllimin dəyanətini pozmuşdu. Ən böyük narahatçılıq dövrümüz başlayıb – deyirdi. Dərd-ələmini poeziya dili ilə izhar etməyə başlamışdı:

Müsibətimiz də, dərdimiz də bir,
Ürək nə dayanır, nə də dincəlir.
Vaxtlımı-vaxtsızmı, bu dünyaya biz,
Gəlmişik, tək onu bir Allah bilir.

Son günlərini yaşayırdı. Həmişəki kimi ədəbiyyatdan, poeziyadan, söz düşmüşdü. Səməd Vurğunun başdan-ayağa əzbər bildiyi «Vaqif» dramından böyük bir parçanı avazla əzbərdən dedi. Sonra isə «Komsomol poeması»ndan Dünya ilə bağlı dörd bəndi qəhər boğa-boğa deyəndə gözlərindən yaş gəldi. Bu, möcüzə idi. Deyirlər, gözünün nurunu itirmiş adamın gözündən yaş gəlməz. Lakin Tofiq müəllimin oğlu Adil və mən bunun şahidi olduq.

Tofiq müəllim dərindən ah çəkdi. Bu, onunla son görüşümüz idi. Ürəyi boşalandan sonra, yenidən sözə başladı:

– Mən xəyallarla yaşayan adam deyiləm. Reallıqla hesablaşan adamam. Bilirəm ki, sabahım bundan da ağır olacaq. O biri gün daha ağır olacaq. Uşaqlara demişəm, dünyamı dəyişəndə baş daşıma özüm duyub yazdığım aşağıdakı sadə sətirləri yazdırsınlar:

Dağ çayıtək axıb getdim
Şimşək olub, çaxıb getdim.
Dünya qədim, dünya gözəl
Pəncərədən baxıb getdim.

Beləcə bir nurlu, müdrik ziyalımız da bu fani dünyanı tərk edib getdi.

AZƏRBAYCANIN QOCA QARTALI*

Aşıq sənətindən, aşıq yaradıcılığından söz düşəndə göz önünə ilk gələnlərdən biri də böyük coşqunluqla yazıb-yaradan, yaradıb-yaşadan, aşıq sənətini inkişaf etdirən, sağlığında klassikləşən ustad aşıq Mikayıl Azaflı olur. Azaflı Mikayıl (21.03.1924 – 12.10.1990) təkcə aşıq sənətini kamil bilməyi ilə deyil, eləcə də coşqun şairlik təbinə malik olmağı, saz çalmağı, məclis aparmağı ilə də fərqlənirdi.

Azaflının öz sənət aləmi, öz dünyası vardı. Bu dünya ulu qaynaqlardan su içib müdriklik zirvəsinə yüksəlmişdi. Onun «İnsan, dünya və zaman» silsiləsindən olan poetik inciləri sənətkarın görüb müşahidə etdiklərini bir güzgü kimi əks etdirdiyindəndir ki, onları sevməmək, əzbərləməmək olmur.

Azaflı aşıq poeziyasının bütün şəkillərində əsl sənət nümunələri yaradan, klassik aşıq ənənələrini layiqincə davam etdirən sənətkarlardandır. Onun yaratdığı «Azaflı dübeyti», «Azaflı gözəlləməsi», «Azaflı divanisi», «Azaflı dünyası», «Azaflı gəraylısı» və başqa saz havaları dillər əzbəri olmuşdur. Onu da qeyd edək ki, Azaflının yaratdığı aşıq havaları nəinki aşıqların, hətta müğənnilərin belə repertuarından düşmür. Bu havaların hər birinin öz ritmi, ahəngi, gözəlliyi, öz aləmi vardır.

Azaflının sənətkarlığı o qədər güclü olmuşdur ki, bütün ailəsinə də dərin təsir etmişdir. On bir övlad olan bu böyük ai-

---

* Bax: «Ədəbiyyat qəzeti», 12.03.2004.

ədə saz çalıb-oxumayan yoxdur. Oğlu Hakim, nəvəsi Roman və qızı Gülarə onun yolu ilə gedərək ömürlərini bu ulu sənətə həsr etmişlər. Azaflının qızlarından Dilarə, Minayə və Marala isə atasından şairlik keçmişdir.

Adətən, ilahi vergi verilən insanların həyat yolu ağrılı-acılı, əzab-əziyyətli, keşməkeşli olub. Azaflı Mikayılın da həyatı əzab-əziyyət içində keçib. Bir yaşında olarkən atasını itirməsi, əmisinin himayəsində böyüməsi, ata-ana nəvazişinə həsrət qalması onu zəmanədən küsdürmüş, böyüdükcə həyatda qarşılaşdığı haqsızlıqlar onu daha da barışmaz etmişdi. Sovet sisteminin eybəcərliklərini çəkinmədən, tam çılpaqlığı ilə açıb göstərməsi, kəskin tənqid atəşinə tutması aşığı həbsxanaya gətirib çıxarmışdı. Guya «oğurluqda və evində silah saxlamaqda təqsirli bilinib» damğası ilə sənətkar dörd il (1961–1964) azadlıqdan məhrum edilmişdi. Lakin həbsxana həyatı sənətkara bir universitetdə qazanılacaq qədər təcrübə qazandırmışdı. Onu daha da mətinləşdirmişdi. Onun zindan həyatını təsvir edən «Ağarmayın ay saçlarım, amandı», «Bülbül», «O mənəm», «Deyəmmərəm», «Bənzər», «Sən demə», «Döndü körpələrin qana yaşları» kimi qoşmaları aşıq hələ zindandaykən dillər əzbəri olmuşdu. Azaflı azadlığa çıxdıqdan sonra da sovet quruluşunu qamçılamaqdan çəkinmirdi. Öz tutumu, dərin mənası ilə qalaq-qalaq kitablara sığmayan tale yüklü dərdlərimizi, xalqımıza üz vermiş bəlaları, görün aşıq ikicə misrada necə məharətlə ifadə etmişdir:

Qoca Azaflıyam, dilim var, lalam,
Təbrizdə qardaşım, Sibirdə balam.

Bütün bunlara görədir ki, Azaflı poeziyası xalq arasında geniş yayılsa da, XX əsrin 80-ci illərinin sonlarına qədər mətbuat üzünə həsrət qalmışdı.

Azaflı yaradıcılığının klassik aşıq poeziyası ilə müasir aşıq poeziyası arasında qüvvətli bir keçid, bir körpü təşkil etdiyini

Mikayıl Azaflını son mənzilə yola salarkən

qeyd etsək yanılmarıq. Yəqin Azaflını Vətənimizin hüdudlarından kənarda yaxşı tanımalarının bir sirri də bundadır.

Aşıq sənəti ağır zəhmət tələb edən sənətdir. Saz adi çalğı aləti deyil və saz havalarını nota köçürmək də sözsüz ki, çox çətindir. Saz böyük bir orkestri andırır. Aşıqlara qulaq asanda ingilis alimi Raskın böyük dəqiqliklə dediyi sözlər diqqəti çəkir: «Əsl incəsənət nümunəsi onda yaranır ki, insanın beyni də, əli də, qəlbi də eyni vaxtda vurur». Bu isə klassik aşıq sənətini dərindən bilən, həyatını bu ulu sənətə həsr edən, xalqın istək və arzuları ilə yaşaya-yaşaya saç ağardan Azaflı kimi ustad aşıqlara qismət olur.

Azaflı yaradıcılığının ana xəttini prof. Camal Mustafayevin doğru olaraq göstərdiyi kimi, fəlsəfi fikirlər təşkil edir. Onun elə bir şeiri yoxdur ki, orada həyat fəlsəfəsi özünü bariz şəkildə göstərməsin:

A bəxtəvər, qocalmadın,
Girdin dondan dona dünya.
Nə bir şaha baş əyirsən,
Nə sultana, xana dünya –

deyən Azaflı qədimdən zəmanəmizə qədər dünyada baş verən hadisələrdən poeziyanın füsunkar dili ilə söz açır, oxucunu haldan-hala salır.

İnsanın amalı və mənəvi qüdrəti Azaflının ilham mənbəyi olmuş, onu riqqətə gətirmişdir. Bu poetik aləm el duyğuları, xalq ruhu ilə qaynayıb qarışır, insanları pis əməldən, bədxahlıqdan çəkinməyə səsləyir, onlara nəciblik, müdriklik, sədaqət, mərhəmət, məhəbbət, xeyirxahlıq kimi hislər aşılayır.

Azaflının şeir bağçasında hər kəs öz zövqünə uyğun misralar, şeirlər tapa bilər. Çünki bu poeziya klassik poeziya üstündə köklənən, xalqın özündən gələn təbii bir poeziyadır.

Azaflı müdrik sənətkar olmaqla bərabər, həm də qəlbi xeyirxahlıqla döyünən imanlı bir insan, seçilən şəxsiyyət idi. Adətən, sənətkarlar arasında bir-birinə qısqanclıqla yanaşanlara rast gəlmək olur. Mikayıl Azaflı bu cəhətdən də xüsusi fərqlənirdi. O, nəinki hansısa aşığı tənqid etməz, əksinə onda yaxşı xüsusiyyətləri üzə çıxarmağa səy göstərər: «Hər sənətkarın özgə bir gözəlliyi vardır» – deyərdi.

Ürək genişliyi, sənətə və sənətkara məhəbbətlə yanaşması ona böyük hörmət və ehtiram qazandırmışdı. Aşıqlığa meyil göstərən gənclər onun yanında şəyird olmaq istəyirdilər. Sənətkarın çoxlu sayda şəyirdinin olması, neçə-neçə tanınmış aşıq yetişdirməsi də elə bununla bağlıdır. Bu, aşıq üçün ən böyük xidmət hesab olunur. Çünki sənəti yaşatmağın ən ümdə yolu budur.

Azaflının xidmətlərindən danışarkən onun rəhbərliyi ilə Tovuz Aşıq məktəbinin adlı-sanlı nümayəndələri tərəfindən «Koroğlu» dastanının dörd qolunun vala köçürülməsini qeyd etməmək olmaz: «Koroğlunun Dərbənd səfəri» (Mikayıl

Azaflı), «Durna teli» (Əkbər Cəfərov), «Toqat səfəri» (Mahmud Məmmədov), «Koroğlu və Bolubəy» (Əlixan Niftalıyev).

Aşıqların IV Qurultayında (mart, 1984) sənətkara böyük ehtiram göstərilərək çıxış etmək təklif olunmuşdu. Azaflı məruzə səviyyəli çıxışında çoxillik təcrübəsindən istifadə edərək aşıq sənətinin incəliklərindən, çatışmazlıqlardan, qarşıda duran vəzifələrdən söz açdı. Onun irad və tövsiyələri minnətdarlıqla nəzərə alındı. Qurultayda Azaflının aşıq sənətinin inkişafında göstərdiyi fədakarlıq və xidmətləri xüsusi qeyd edildi. O, Aşıqlar Birliyinin sədr müavini seçildi. 1989-cu il Novruz bayramı şənliklərində xalqımızın müdrik qəhrəmanı Dədə Qorqud obrazı ona həvalə olundu. Həmin ilin may ayında sənətkar «Əməkdar mədəniyyət işçisi» fəxri adına layiq görüldü.

Lakin Azərbaycan xalqının tale yüklü Qarabağ dərdi, Qanlı Yanvar hadisələri Xudu Məmmədov, Fərman Kərimzadə, Eldar Baxış, Şahmar Əkbərzadə, İsi Məlikzadə kimi onu da sarsıtdı. Ürəyi tab gətirmədi. İnfarkt keçirdi və 1990-cı ilin oktyabrında altmış altı yaşında dünyasını dəyişdi.

Ölümündən sonra Tovuz şəhərində bir küçəyə aşığın adı verildi və Azaflı kəndində oxuduğu məktəbin önündə büstü qoyuldu.

Mart ayının 21-də sənətkarın anadan olan günüdür. «Mənim dünyam» adlı şeirində:

Mən ölsəm də yaşa səni,
Mənim dünyam, mənim dünyam –

deyən aşığın anadan olmasının 80 ili tamam olur. Əminliklə deyə bilərik ki, Azaflı dünyası yaşayır və ulu aşıq sənəti yaşadıqca onun Qoca Qartalı bu sənətin nəhəngləri sırasında zirvədə duracaqdır.

«NATİQLƏR YETİŞİR, ŞAİRLƏR DOĞULURLAR»*



Vladimir Qafarov yadıma düşəndə qədim romalıların – natiqlər yetişir, şairlər doğulurlar – sözlərini xatırlayıram. Bu fikirlərin hər ikisini Qafarova aid etmək olar. O, yaradıcılığa şair kimi başlamış və gözəl şeirlər müəllifidir. Amma gözəl şair olmaqla yanaşı, həm də böyük tərcüməçi, eyni zamanda öz fikirlərini, sözlərini ustalıqla, incəliklə çatdıran natiq idi. Bunun üçün isə təkcə şair kimi doğulmaq azdır. Həm də yetişmək lazımdır. Mən də tərcümə ilə məşğul olmuşam. Bədii tərcümədə dil bilmək hələ heç nə demir. Bu çox azdır. Tərcüməçi müraciət etdiyi müəllifin üslubunu, yaşadığı dövrü, onun özünəməxsus xüsusiyyətlərini, mənsub olduğu xalqın adət-ənənəsini bilməlidir. Bunun üçün isə elmə yiyələnmək, yetişmək lazımdır.

V.Qafarov Azərbaycan dilindən onlarla müəlliflə yanaşı, folklorumuzu da rus dilinə çevirmişdir. Mən folklora yaxın bir adamam, «İraq-türkman folkloru» kitabının müəllifiyəm, eyni zamanda ingilis dilindən bədii tərcümə kitablarım var. Folklorun tərcüməsinin nə olduğunu, onun ağırlığını, çətinliyini başa düşürəm. O, folklorun tərcüməsi kimi çətin bir işin məsuliyyətini öhdəsinə götürmüşdü. Bu, Qafarovun vətənpərvərliyindən, xalqına sevgisindən irəli gəlirdi. Bu sevginin, zəhmətin nəticəsi idi ki, onun tərcüməsində Azərbaycan bayatıları Rusiyada, eləcə də indiki MDB məkanında böyük şöhrət qazanmışdı. Bu tərcümə vasitəsilə Şərqi Avropa ölkələri də

* Bax: «Ədəbiyyat qəzeti», 3.06.2005, s. 4.

Azərbaycan folkloru ilə tanış olurdular. O tərcümə etdiyi hər bayatının orijinalını necə də saxlamışdı! Onun qələmindən çıxan hər bayatı bir tabloya, bitmiş böyük bir əsərə bənzəyir. Onları oxuyanda elə bil Səttar Bəhlulzadənin, Tahir Salahovun əsərlərinə baxırsan. «Rus dilində Azərbaycan bayatıları kitabı» onun tərcüməsində əl-əl gəzirdi. Azərbaycan xalqının adət-ənənəsini, tarixini bilmədən belə tərcüməyə nail olmaq çətindir. Bunların fövqündə isə onun xalqına məhəbbəti dayanmışdı. Allah da ona böyük qabiliyyət vermişdi. O, qabiliyyətini el yolunda xərclədi.

Vladimir Qafarovla – bu böyük sənətkarla birgə işləmək mənə də nəsib olub. O, mənim «Kərkük folklorunun janrları» kitabımı rus dilinə tərcümə edib. Onunla bu kitab üzərində işləyəndə nə qədər zəhmətkeş, vicdanlı qələm sahibi olduğunu gördüm. Həddindən artıq təvazökar, sadə, eyni zamanda inadkardı. İnsanlara qayğı göstərmək, onlarla təmasda olmaq onun iliyindən, qanından gəlirdi. O tərcümə etdiyi əsərin həmmüəllifi səviyyəsinə qalxırdı. Bir əyani misal deyim: «Mən bu yay Moskvaya getmişdim. Orada Qafarovun tərcüməsində «Kərkük folklorunun janrları» kitabımı dostlarıma payladım. Onlar kitabı oxuyub – folklorda nə böyük hikmət var, – deyirdilər. Sonra əlavə edirdilər ki, elə bil bu folklor ruscadır».

Qafarov etdiyi tərcümələrdən heç bir maddi maraq güdmürdü. Yeganə məqsədi rus dili vasitəsilə Azərbaycan xalqının böyüklüyünü göstərmək idi. Ona görə də klassik Azərbaycan ədəbiyyatını çevirməyi üstün tuturdu. Klassik ədəbiyyata müraciət, eyni zamanda onun yüksək zövqünün, elminin təzahürü idi. Klassik ədəbiyyat zərdir, incidir. Onun qədrini isə Qafarov kimi zərgərlər bilər. Onun ədəbiyyatımıza və sənətinə belə vicdanlı münasibəti Qafarova böyük nüfuz, şöhrət gətirmişdi. Baxmayaraq ki, o özü heç vaxt şöhrət haqqında düşünmürdü.

Mən onun tələbələri arasında çox olmuşam. Tələbələri onu necə də sevirdilər, hörmət edirdilər, ehtiram göstərirdilər. Bu, həm də onun sənətinə, şəxsiyyətinə ehtiram idi, onun mə-

dəniyyətinə, biliyinə ehtiram idi. Ən başlıcası isə xalqa göstərdiyi xidmətə ehtiram idi.

O, həddən artıq mehriban və ciddi bir qələm sahibi idi. Biz onunla Azərbaycan Dövlət Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universitetində) bir yerdə işləyirdik. Mən kafedra müdiri idim, o isə tərcümədən dərs deyirdi. Tələbələr başqa müəllimlərin mühazirəsini buraxıb onun dərslərinə – mühazirələrinə, seminarlarına gəlirdilər. Tələbə isə barometrdir. Müəllimə belə münasibət onun yaxşı pedaqoq olmağından xəbər verir.

Təəssüf ki, Vladimir Qafarov kimi adamlar elmi ad almaq üçün çalışmayırlar. Belə yaradıcı şəxsiyyətlərin elmi işin xırdalıqlarını görməyə hövsələsi çatmır. Nəticədə onların əmək haqqı digər alimlərin əmək haqqından az olur. Vladimir Qafarov da Qulam Məmmədli, Əli Fəhmi kimi elmi dərəcə almağa həvəs göstərmədi. O, tərcümə elmimizə təmənnasız xidmət göstərdi.

Vaxtilə belə məsələlərə ədalətli münasibət olub. Mirzə İbrahimov, Səməd Vurğun doktorluq işi müdafiə etmədən akademik seçiliblər. Onlar dilin, ədəbiyyatın akademikləri idilər. Xaricdə Vladimir Qafarov kimi klassik ədəbiyyat üzərində işləyən adamlara asanlıqla doktorluq elmi dərəcəsi verərdilər. İndi müstəqil ölkə olmuşuq. Müstəqilliyimizdən istifadə edib, çox işlər görməliyik. Mən ədəbiyyat üzrə ixtisaslaşdırılmış Doktorluq Müdafiə Şurasının üzvü kimi bu ədalətsizliyi aradan qaldırmağa çalışıram. Bu sahədə artıq təcrübəmiz var.

Böyük şəxsiyyətlərin çox zaman müəyyən həyati tələblərə belə ehtiyacları olur. Onlar çox zaman bu çətinlikləri büruzə vermirlər. Vladimir Qafarovda çox böyük bir qürur, mənlik vardı. Onunla ünsiyyətdə olanlar ondan nəsə öyrənirdilər. Bizim yaşımız arasında o qədər böyük fərq yox idi. Amma onun yanında mən özümü kiçik kimi aparırdım. Onu tanıyanların əksəriyyəti ona ustad, müəllim deyərdilər.

Vladimir Qafarov kimi vətənpərvər şair az görmüşəm. O, təpədən dırnağa kimi milli idi. Bununla belə millətçi deyildi, beynəlmiləlçi idi. Bu da onu başqalarından fərqləndirirdi.

Mən bir dost kimi onların evində çox olmuşam. Sadə, mehriban ailəsi vardı. Bir-birimizin xətrini çox istəyirdik. O, klassik şairlərin əsərlərini sifarişsiz, filansız rus dilinə tərcümə etmişdi. O istəyirdi mən bu yazıçıların əsərlərini nəşr etdirim. Etdirmək istəyirdim də. Mən ona söz verdim. Təəssüf ki, vaxtsız ölüm onu bizdən tez ayırdı. Bu işimiz yarımçıq qaldı. O, vəfat edəndən sonra düşündüm ki, o, öz orijinal şeir kitablarının nəşrinə kömək üçün heç kimdən xahiş etmədi. Amma folklorumuzu, klassik ədəbiyyatımızı tanıtmaq üçün əlindən gələni əsirgəmədi, hətta lazım gələndə minnətçi düşürdü.

1993-cü ildə doktorluq işi müdafiə edəndə avtoreferatımı rus dilinə Vladimir Qafarov tərcümə etmişdi. Müdafiədən sonra evimdə xudmani bir məclis düzəltmişdik. İraqın səfiri də o məclisdə iştirak edirdi. Vladimir Qafarov məclisdə sanballı elmi söhbətlər, məntiqi çıxışlar etdi. Məclis qurtarandan sonra milliyyətcə türkman olan İraqın səfiri Fərrux Salman Davud Vladimir Qafarova işarə edərək dedi ki, siz – yaradıcılıqla məşğul olan insanlar, nə xoşbəxt adamlarsınız. Biz diplomatların işi sizə baxanda çox çətindir. Bax, əsl insan belə olmalıdır. Vladimir Qafarov ömrünü gör necə ürək açıqlığı ilə keçirir. Düşündüyü kimi danışır.

O məclisdə Qafarov şeirlər də dedi. Mənə bir ünvan yazmışdı. O ünvanı ən əziz bir xatirə kimi saxlayıram. Ünvanı Vladimir Qafarov özü yazıb, altına da imza atıb. Hazırda həmin ünvan Nizami adına Ədəbiyyat Muzeyindədir. Mən arxivimi ora təhvil vermişəm.

Nə qədər ki, ədəbiyyatımız, folklorumuz, poeziyamız var, Vladimir Qafarov da yaşayacaq. Özü də təkcə onu tanıyanların deyil, bütün xalqın xatirəsində. Gördüyü işlərilə, etdiyi tərcümələrilə, yazdığı şeirlərilə. O, bir şair kimi gəmidə dünyaya gəldi. Bir pedaqoq, alim kimi, tərcüməçi kimi yetişdi. Onun doğulduğu gəmi çoxdan sıradan çıxıb. Amma Qafarovun şeir, sənət gəmisi nəsillərdən-nəsillərə yol gedir.

HEYİF SƏNƏ, BƏNDƏROĞLU*



Fevral ayının 3-də səhər saat səkkiz radələrində uzun bir telefon zəngi gəldi. Danışan Azərbaycan ədəbiyyatının böyük dostu, görkəmli şair, publisist, dilçi, ədəbiyyatşünas, folklorçu, tərcüməçi Dr.Əbdüllətif Bəndəroğlunun oğlu Okan idi. Ammandan danışırdı. Ağlaya-ağlaya: «Əmican, babam qeyb oldu. Allahın rəhmətinə getdi. Vəsiyyət etmişdi. Cənazəni Bağdada, oradan isə doğma Tuz Xurmatuya aparacağıq. Orada göməcəyik». Okan boğula-boğula danışırdı. Qəhər bizi də boğdu.

İnanmaq olmur ki, hər il iki-üç dəfə günlərlə bir yerdə olduğumuz, deyib-güldüyümüz, İraqın düşdüyü ağır bəladan söhbət açdığımız qardaşımız Bəndəroğlu ilə bir daha görüşməyəcəyik.

Bəndəroğlu Azərbaycanı çox sevir, onu doğma vətəni hesab edirdi. Hər il heç olmazsa bir-iki dəfə ölkəmizə gəlməsə dura bilməzdi. Bağdad-Bakı arasındakı məsafə həsrət-vüsal yollarına çevrilmişdi. Bakısız darıxıram, – deyərdi. Hələ 1961-ci ildə Bakını görməmişdən əvvəl –

Röyada gördüm bir yer,
Dedilər bu Bakıdır –

misraları ilə başlayan «Bakıya həsrətlərim» şeirini yazmışdı. Sonralar Azərbaycana gəliş-gediş «Qız qalası»,

---

* Bax: «Ədəbiyyat qəzeti», 8.02.2008, s. 3. (Məqalə akademik Vasim Məmmədəliyevlə birgə yazılmışdır.)

«M.F.Axundova», «Bir azəri gözəlinə», «Mən Bağdadda, yar Bakıda» kimi xalq şairi Bəxtiyar Vahabzadənin yüksək qiymətləndirdiyi poeziya nümunələri və «Qərənfil» poeması meydana gəldi.

Danılmaz həqiqətdir ki, onun Azərbaycana sevgisi sahilsiz ümmana bənzəyirdi. Lap bu yaxınlarda – dekabr ayının 8-də Rəşid Behbudov adına Mahnı Teatrında, bütün ərəb ölkələrinin, o cümlədən də İraqın səfiri kərküklü soydaşımız Ərşad Ömər İsmayılın iştirak etdiyi «Kərkük gecəsi»ndə o da olmalı idi. Telefonla dedi ki, ən böyük arzularından biri yerinə yetir. Namərd xəstəlik, ürək çatışmazlığı imkan vermir ki, iştirak edim. Ərşad bəyə də, sizə də teleqram göndərmişəm. Xahiş edirəm, onu gecədə oxuyasınız. İraqın səfirinin istəyilə onu biz səsləndirdik: «Kərkük gecəsinin Bakıda düzənlənməsi iraqlı türkmanlarla azərbaycanlı qardaşlarımız arasında olan kök-qan və dil birliyinin bir simvoludur. Gecəyə qatılanları ürəkdən salamlayarkən bütün qardaş Azərbaycan xalqına xoşbəxtlik və sağlıq arzulayıram.

Aramızdakı qardaşlıq və dostluq tellərinin möhkəmlənməsi ilə nəsillərimizin gələcəyi daha artıq aydınlaşacaq və türk dünyasında daha fazla irəliyə doğru addım olacaq.

Hər iki xalqın bağçalarını çiçəkləndirən və güllərə su verən əllər var olsun.

Sizlərə sevgimi bu bayatımla bildirirəm:

Yaşar könlüm,
Çırpınar, yaşar könlüm.
Bağdadda bir ah çəkər,
Bakıda yaşar könlüm.

İşdə bu bir həqiqətdir. Sağ olun, sağlıqla qalın.

Qardaşınız Əbdüllətif Bəndəroğlu
İraq, 8 dekabr 2007-ci il»

Həqiqətən də, onun Azərbaycana, Azərbaycan ədəbiyyatına, ümumiyyətlə, mədəniyyətimizə, incəsənətimizə sevgisi sonsuz idi. Səddam rejiminin amansızlıqlarından belə çəkinmədən illərlə ədəbiyyatımızı İraqda qədərincə təbliğ və tədqiq etmişdir. 1970-ci ildən çıxan və ilk gündən 2003-cü ildə məlum səbəblər üzündən fəaliyyətini dayandırdığı «Yurd» qəzetinin baş redaktoru olan Bəndəroğlu qəzetin, eləcə də «Birlik səsi» dərgisinin elə bir sayı olmazdı ki, Azərbaycanla bağlı maraqlı yazılar verməsin. Hələ biz onun Bağdadda böyük tirajla Mədəniyyət Nazirliyi nəzdində «Türkman mədəniyyət müdirliyi»nin xətti ilə buraxdığı kitabları demirik. Bəzi kitabların adını sadalamaqla onun gördüyü xidmətin miqyasını oxucuların nəzərinə çatdırmaq istəyirik. «Çağdaş Azərbaycan şeirindən seçmələr» (1974, 222 s.), «Azərbaycan şeiri» (1987, 270 s.), Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin hər biri 142 səhifədən ibarət olan seçilmiş şeirlər topluları (1989), «Azərbaycan hekayələri» (1991, 253 s.), Kamil Vəliyevin «Xalqın sözü»

(1991, 123 s.), Elçinin hekayələri (1996, 147 s.), Q.Paşayevin «İraq–türkman folkloru» (1995) və «Altı il Dəclə-Fərat sahillərində» kitabı ərəb dilində.

1994-cü ildə İraqda Füzulinin 500 illik yubileyini keçirən Dövlət komissiyasının sədr müavini kimi Əbdüllətif Bəndəroğlunun çəkdiyi böyük zəhməti Azərbaycan nümayəndə heyətinin bütün üzvləri bu gün də minnətdarlıq hissi ilə xatırlayırlar.

Bəndəroğlunun Azərbaycana hər gəlişi yeni əsərlərlə nəticələnir, ədəbiyyatımızın İraqda təbliğinə təkan verirdi. 2007-ci ildə Azərbaycanı iki dəfə ziyarət edən Bəndəroğlu İraqa döndükdən sonra, özünün təsis etdiyi «Yurd» dərgisinin son üç sayında Azərbaycanla bağlı verdiyi yazıların miqyası adamı heyrətə gətirir Şəhriyar və Rəsul Rzanın şeirləri və onlar haqqında yazılar, Bəkir Nəbiyevin ədəbiyyatşünaslıq elmimizin inkişafında xaricdə yaşayan alimlərimizin rolundan bəhs edən geniş məqaləsi, Bəndəroğlunun Nizami Gəncəvi və Elçinə, Esmira Fuadın Bəxtiyar Vahabzadəyə həsr etdiyi məqalələri, Sabir Nəbioğlunun Səməd Behrəngi və Mehriban Ələkbərzadənin Tehranda nəşr olunan kitabına həsr etdiyi yazıları, Əli Rza Xələflinin «Azərbaycan ədəbiyyatı və Bəndəroğlu» yazısı, Bəhlul Abdullanın Q.Paşayevə həsr etdiyi «Kərkük pərvanəsi» məqaləsi, Oqtay Rzanın şeirləri, «Ədəbiyyat qəzeti»ndə Bəndəroğlunun baş redaktorla keçirdiyi müsahibə, V.Məmmədəliyev və Q.Məmmədəliyevanın «Mövlanə Cəlaləddin Ruminin məsnəviləri» mövzusunda məqalələri, Q.Paşayevin «Kərkük folklorşünasları», «Nəsiminin həyat və yaradıcılığına yeni baxış» və Şeyxülislam Hacı Allahşükür Paşazadəyə həsr etdiyi məqalələri və s.

Yorulmaq bilmirdi. Gecə-gündüz işləyirdi. Sanki ürəyinə nəsə dammışdı. Təkcə 2007-ci ildə kürəkəni Cəlal Poladın ərəb dilinə tərcümə etdiyi «Kitabi-Dədə Qorqud» eposunu redaktə edərək İraqda çap etdirdi. Həmin ilin iyul ayında Ba-

kıya gəlmişdi. Rəsul Rzanın şeirlər toplusunu hazırlayaraq «Ağlayan çox, gülən hanı?» adı altında böyük tirajla geniş giriş məqaləsi ilə çap etdirdik. (Kərkük, 2007, 182 s.)

Noyabr ayında yenidən Bakıya gəldi. Elçinin «Əsli və Kərəm» qara sevgi dastanının motivləri əsasında yazılmış «Mahmud və Məryəm» romanını geniş giriş məqaləsi ilə çapa hazırladıq. Bu əsər üzərində dayanmağımız təsadüfi deyildi. Nəzərə aldıq ki, «Əsli və Kərəm» Kərkük dolaylarında sazla çalınıb-oxunan yeganə dastandır (Tiləfər bölgəsində). Beləliklə, «Mahmud və Məryəm» Kərkükdə işıq üzü gördü (2007, 215 s.).

Növbədə Hüseyn Kürdoğlunun bayatıları və Ayaz Vəfalının şeirlər toplusu idi. Nə edəsən, həyatın öz yazılmamış qanunları, keşməkeşləri varmış. Açılan solarmış, gül açılmamış bağban gedərmiş. Son vaxtlar ürəyi onu çox incidirdi. Həkimlər cərrahiyyə əməliyyatı aparmaqdan çəkinərdilər. İllərcə öncə böyrəyinin biri fəaliyyətdən düşdüyünə görə həkimlər kəsib atmışdılar. Ürəyinin əlacını Azərbaycanda axtarırdı. Güvənc və pənah yeri ölkəmiz idi. Şübhəsiz, onun çox sevdiyi bayatısında dilə gətirdiyi –

Bağdadda bir ah çəkər,
Bakıda yaşar könlüm.

misraları bu amacı açıqlayır.

Son ziyarəti zamanı onu görkəmli cərrah, «Kaspar» xəstəxanasının baş həkimi, professor Gerasim Rüstəmovun yanına apardıq. Baş həkim göstəriş verdi, onu diqqətlə analiz etdilər. Analizlərə baxandan sonra professor qəti şəkildə bildirdi ki, cərrahiyyə əməliyyatı barədə düşünməsin.

– Sizin yalnız bir böyrəyiniz var. Narkoz verəndə o fəaliyyətdən düşəcək. Dözün, Allah verən ömür payını yaşayın. Sonralar Almaniya və Fransada da azərbaycanlı həkimin sözləri öz təsdiqini tapdı. Lakin Ammanda hansısa həkimlər onun saqqızını oğurlamışdılar...

O, Bakıya gələndə əziz qonaq kimi hamı onu evinə dəvət edərdi. Lakin o, yalnız bizlərin – Bəxtiyar Vahabzadənin, Vasim Məmmədəliyevin, Ayaz Vəfalının, sağlıqlarında Qasım Qasımzadə, Yaşar Qarayev və Nəbi Xəzrinin bir qutu İraq xurması ilə evini ziyarət edərdi. Hər dəfə Azərbaycana gələndə, ilk növbədə Fəxri xiyabana gedər, görkəmli yazıçı, ədəbiyyatşünas alimlərimizi ziyarət edərdi. Son vaxtlar, demək olar ki, ildə iki-üç dəfə gələr, əvvəlcə öndərimiz Heydər Əliyevi ziyarət edərdi. Həqiqətən də, öndərimizi həddən artıq çox istəyirdi. Hətta sonbeşiyinə öndərimizin adını vermişdi. Deyirdi ki, onlarla iraqlı soydaşlarımızın Azərbaycanda ali təhsil alması, bəzisinin alim kimi yetişməsi onun bizlərə olan ehtiramının nəticəsidir. Oğlum Heydərin Bakı Dövlət Universitetinə qəbul olunması, 5 il pulsuz oxuyacağı, yataqxana və təqaüdlə təmin ediləcəyi birbaşa böyük şəxsiyyət Heydər Əliyevin göstərişi ilə olmuşdur. Qardaşım Əli və həyat yoldaşının Bakıda təhsil alması da eləcə. Azərbaycanda təhsillə bağlı adamlar yaxşı bilirlər ki, Bəndəroğlu kərküklülərin ölkəmizdə oxumasına nə qədər qayğı göstərirdi. Heç təsadüfi deyil ki, bu yaxınlarda Naxçıvan Dövlət Universitetinin rektoru akademik İsa Həbibbəyli bizimlə Ə.Bəndəroğluna sifariş göndərdi ki, 2007-ci ilin sentyabr ayında universitetimizə iki nəfər türkman göndərsin, istədikləri fakültədə oxusunlar.

Xəbəri eşidəndə ilk sözü bu oldu: «İndi dərindən duydum ki, azad və müstəqilsiniz. Bu xoşbəxtliyi Allah sizə çox görməsin».

Əbdüllətif Bəndəroğlu İraqda və Türkiyədə olduğu kimi, Azərbaycanda da böyük nüfuza malik idi.

Onun Bakı Dövlət Universitetinin fəxri doktoru, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, «Ədəbiyyat qəzeti»nin redaksiya şurasının üzvü, Nizami adına Ədəbiyyat İnstitutunun elmi şurasının üzvü olması, həyat və yaradıcılığına dissertasiya həsr edilməsi çox mətləblərdən söz açır.

Azərbaycanda bir şair, tərcüməçi, tədqiqatçı alim, dilçi, jurnalist, folklorçu kimi tanınması, Azərbaycan Sovet Ensiklopediyasında yer alması (IV, s.126), Bakıda mötəbər nəşriyyatlarda Bəxtiyar Vahabzadə və bizim giriş məqalələrimizlə dörd kitabının nəşr olunması, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində «İraq Türkman ədəbiyyatı və mədəniyyəti» daimi ekspozisiyasında yer alması, orada onun 28 bədii və monoqrafik əsərlərinin sərgilənməsi hər şeydən əvvəl, onun misilsiz xidmətlərindən xəbər verir.

Əziz Əbdüllətif, sənə söz vermişdik ki, ömrünün 71-ci baharını bayram etmək üçün anadan olduğun 1 apreldə akademik Bəkir Nəbiyev, Ayaz Vəfalı, Şirindil Alışanov və biz region naziri işlədiyin Ərbil şəhərinə gələcəyik. Əlimizdə sənin yubileyinə həsr olunmuş xüsusi buraxılış, çapını çox gözlədiyin, üçümüzün hazırladığımız «Azərbaycanca-ərəbcə lüğət»in çapa gedəcək variantını gətirəcəydik. Arzumuzu gözümüzdə qoydun. Lakin söz veririk, lüğəti əziz xatirənə həsr edəcəyik. Haqqında isə monoqrafiya yazacağıq. Rahat uyu. Səni heç vaxt unutmayacağıq. Heyif sənə, Bəndəroğlu!

BÖYÜK NƏĞMƏKAR DA KÖÇDÜ DÜNYADAN

Başının üstündən qara buludlar heç vaxt əskik olmayan İraqdan hər dəfə ağır xəbərlər gələndə ürəyim sızıldayır. Xüsusən də dost itkisi barədə xəbərlər məni göynədir, sanki qəlbimdən bir sap qopur. Son zamanlar qismətimə Sinan Səid, Məhəmməd İzzət Xəttat, Rəmzi Köprülü, Əhməd Otraqçı oğlu kimi dostların itkisi düşüb. Ömrün yarpaq tökən dövrü başlayıb. Belə tezliklə məşhur müğənni Əbdülvahid Kuzəçioğlu və Əbdüllətif Bəndəroğlunu itirəcəyimiz ağlıma belə gəlmirdi. Mart ayında Seyfəddin Çaxmaqçı, may ayında isə qardaşı oğlu Şəmsəddin Kuzəçi Kərkükdən telefon açaraq məni onunla danışdırmışdı. Yaşı səksəni keçsə də səsi gümrah idi. Bəlkə də, bu onun müğənniliyindən irəli gəlirdi, bilmirəm. Təəssüf ki, iyul ayının əvvəlində xəbər gəldi ki, 2007-ci il iyunun 29-da İraq türkmanlarının ən görkəmli müğənnisi Əbdülvahid Kuzəçioğlu dünyasını dəyişib.

Əbdülvahid 1925-ci idə Kərkükün Çay məhəlləsində anadan olmuşdur. Məlahətli və güclü səsi olan Əbdülvahid İraq türkmanlarının yetişdirdiyi böyük müğənnidir. Şərq ölkələrinin əksəriyyətində məşhur olan bu müğənni İraq–türkman mahnılarını aləmə tanıdan sənət elçisi adına layiq görülmüşdür.

Saf səsi və özünəməxsus üslubu olan Əbdülvahid «Rast» muğamının «Bəsiri», «Hicaz» muğamının «Muçala», «Segah» muğamının «Müxalif» xoyrat üsullarını elə məlahətlə oxuyurdu ki, müğənnilər bu gün də onun ovsunu altından çıxa

bimirlər. Belə gözəl əda və üsulla oxumağa xalq arasında «Əbdülvahid ağzı» deyirlər.

1952-ci ildə İngiltərəyə, 1956, 1958 və 1963-cü illərdə Türkiyəyə gedərək London, Ankara və İstanbul radiolarında ilk olaraq Kərkük mahnılarını və muğamlarını oxumuş, onları vala və lentə köçürtmüşdü. Türk müğənniləri onun mahnılarını «Kərkük havaları» adı altında indi də oxuyurlar.

1958-ci ildə Bağdad radiosunun türkmanca bölümü açılanda da efirdə ilk səslənən Kuzəçioğlunun mahnıları oldu.

Əbdülvahidlə İraqa 1-ci səfərim zamanı tanış olmuşdum. Bu barədə «Altı il Dəclə-Fərat sahillərində» («Yazıçı», 1985, s.74; 79) kitabında ətraflı yazmışam: «…1966-cı il aprelin 1-də axşamüstü Kərkükdə «Qızıl Arslan» mehmanxanasında oturub söhbət edirdik. Toplaşanlar arasında məşhur müğənni Əbdülvahid Kuzəçioğlu, Böyük Hafiz oğlu Molla Nurəddin, Məhəmməd İzzət Xəttat, Mövlud Taha Qayaçı, Əhməd Otraqçı oğlu, Rəmzi Köprülü və başqaları vardı. Söhbət musiqidən, ədəbiyyatdan düşmüşdü. Molla Nurəddin dedi: «Biz Azərbaycan musiqisini, Azərbaycan ədəbiyyatını çox sevərik. Hər vaxt Azərbaycan radiosunu dinlərik. Çünki dilimiz birdi. Heç fərq etməz. Bəzi şivə fərqləri var».

Onun dediklərini lentə yazdım. Nədənsə ürəyimə gəldi ki, bəlkə, könlünü xoş etmək üçün belə deyir. Tezliklə səhvimi başa düşdüm. Onlar xorla S.Vurğunun «Gülə-gülə» şeirinə yazılmış mahnını məni valeh edən bir tərzdə ifa etdilər. Məlum oldu ki, Ə.Kuzəçioğlu şeirə musiqi bəstələmiş, elə həmin ildə çıxan «Kuzəçioğlunun xoyrat və bəstələri» (Kərkük, 1966) kitabına daxil etmişdir.

... Səhərisi gün axşam Əbdülvahid Kuzəçioğlunun və bələdiyyə idarəsinin məsul işçilərinin qonağı oldum. Kuzəçioğlu oxuduğu bütün mahnıların lentini və «Kuzəçioğlunun xoyrat və bəstələri» kitabını mənə hədiyyə etdi. Kitabı vərəqlədikcə qəlbim dağa döndü. Bir çox mahnıların Azərbaycan xalq

mahnısı olduğu və ya şairlərimizin sözlərinə bəstələdiyi göstərilirdi: «Ollam boyuna qurban», «Ay qız mənə bax, bax», «Layla balam, a layla» (sözləri Rəsul Rzanındır), «Vəfasız», «Gülə-gülə», «Samovar almışam, silənim yoxdu» və s. Bəziləri isə «Əski mahnılar» adı altında çap olunub: «Yeri, yeri, yeri, küsmüşəm səndən», «Bu xal nə xaldı», «Evlərinin önü yonca», «Gözələ bax, gözələ» və s. Bu mahnılar həm onlarda, həm də bizdə qədimdən ifa olunmuşdur.

Onu da deyim ki, Əbdülvahidin ifa etdiyi:

Ay qız tovuz kimi sən,
Nə gözəl bəzənmisən –

ilə başlayan mahnını onun kimi məlahətli səslə oxuyana təsadüf etməmişəm.

İraqdan vətənə dönəndən sonra hər həftə bazar günləri Azərbaycan radiosunda bir saatlıq «Qitədən-qitəyə» proqramında Kərkük folklorundan, Kərkük musiqisindən söz açır, Kuzəçioğlunun mahnılarını səsləndirirdim. Odur ki, elə o vaxtdan Azərbaycanda müğənninin mahnılarına böyük məhəbbət vardı. Xanəndələrimiz toylarda və konsertlərdə onun mahnılarını oxuyurdular. Onun məlahətli səsi və mahnıları müğənnilərimizi də ovsunlamışdı.

Azərbaycan incəsənət və elm xadimləri, yazıçı və şairləri 1994-cü ildə Füzulinin 500 illik yubiley günlərində Kərkükdə verilən möhtəşəm konsertdə bir daha Kuzəçioğlunun səsinin şahidi oldular. 70 yaşlı müğənni əsasına söykənə-söykənə səhnəyə çıxdı. Azərbaycan müğənnilərinə qibtə ilə dedi: «Sizin zəngin, rəngarəng musiqi alətləriniz gəncliyimdə məndə olsaydı, dünyanı çevirərdim». Sonra isə oxudu və hərarətlə qarşılandı. Çıxışını bu bayatını oxumaqla tamamladı:

Minaya dəyər;
Zülfün minayə dəyər.
İl var bir günə dəyməz,
Bu axşam min aya dəyər.

Müğənni «gün var» əvəzinə «bu axşam» deməklə həmin axşamın yaddaşlardan silinməyəcəyini və tədbirin möhtəşəmliyini nəzərdə tuturdu.

Müğənni ilə hərdən telefonla əlaqə saxlasam da, ondan sonra onunla bir daha görüş qismət olmadı. Doğrudur, 2001-ci ilin may ayında akademik Bəkir Nəbiyev, prof. İsrafil İsrafilov, elmlər namizədləri Ağalar Mirzə, Sirus Abbasbəyli və oğlum Muradla Bağdada gedəcəyimi eşidəndə çox sevindi və mütləq Bağdada gələrək bizimlə görüşəcəyini söylədi.

Onu da deyim ki, müğənninin Nizami adına Ədəbiyyat Muzeyində yaratdığım «İraq–türkman Ədəbiyyatı və Mədəniyyəti daimi ekspozisiyasında yer alan portreti çox xoşuna gəlirdi. Odur ki, Kuzəçioğlunun rəssam Nazim Rəhmanzadəyə çəkdirdiyim yeni portretini də götürərək müğənni ilə görüşmək arzusu ilə Bağdada yola düşdük. Təəssüf ki, xəstəliyi ilə bağlı nə o, Bağdada gələ bildi, nə biz Kərkükə gedə bildik. Təsəllini onda tapıram ki, Bağdadda «Qardaşlıq» ocağında nümayəndə heyətimizlə görüşdə və konsertdə müğənniyə çatdırmaq üçün portretini klubun rəhbərliyinə çatdırdıq. Müğənni Əkrəm Tuzlu isə yalnız Kuzəçioğlunun mahnılarını oxumaqla müğənniyə və bizə ehtiramını göstərdi.

İraq kimi iqlim şəraiti ağır olan, siyasi durumu dözülməz olan bir ölkədə uzun ömür sürmək hər adama qismət olmur. Kuzəçioğlu uzun və mənalı ömür yaşadı və dünyasını dəyişdiyi günə qədər xalq arasında qazandığı hörmət, izzət, vicdan, ləyaqət və məhəbbəti qorudu, xərcləmədi.

AYRILIĞA DÖZMƏK OLMUR*



İlləri-illərə calayıb çox yaşamaq hünər deyil. Hünər mənalı yaşamaq, gələcək nəsillərə gərəkli olan nəsə qoyub getməkdir. Bu baxımdan Rasim Kərimli (01.05.1932–24.06.1996) xoşbəxt taleli insanlardandır – desək həqiqətdən kənar olmaz. Rasim Kərimli Yaradandan verilən ömür payında istedadlı bir şair kimi birbirindən maraqlı və oxunaqlı kitablar qoyub getdi.

Cəmi beş yaş fərqlə bir kənddə boya-başa çatdığım şairin yoxluğunu ürək ağrısı ilə xatırlayıram. Təsəllini onda tapıram ki, şairin «Dostluq ilk sözümdür» («Gənclik», 1969), «Şəfqət bulağım» («Gənclik», 1975), «Dünya mərdlər dünyasıdır» («Gənclik», 1979), «Biləydin kaş» (Gənclik», 1983), «İntizarda qoyma məni» («Yazıçı», 1991) kitablarını vərəqlədikcə ölümün nə olduğunu bilmədiyimiz illər göz önünə gəlir.

Rasim Kərimli xalq ruhunda yazan, xalqın qəlbinə asanlıqla yol tapan, sevilən şairlərdən idi. Böyük Yaradan bu sahədə ondan kəramətini əsirgəməmişdi. Uşaqlıqdan saz, zurna-balaban çalan, Bakı Dövlət Universitetində oxuyarkən qarmon və pianino çalmağı öyrənən Rasim Kərimli Universitetin bədii özfəaliyyət dərnəyinin ən fəal üzvlərindən biri idi. Hələ orta məktəbdə oxuyarkən şeir yazan Rasim bu vaxt artıq Respublika mətbuatında çap olunurdu. Burada xüsusi

---

* Bax: «Ədəbiyyat qəzeti», 19.05.2009; Rasim Kərimli, «Dözmək olmur ayrılığa», Bakı, «Nurlan», 2009, s. 3–8.

vurğulamalıyam ki, Tovuz rayonunun Düzqırıxlı kəndindən görkəmli alimlər, Sosialist Əməyi Qəhrəmanları, təsərrüfat rəhbərləri, milli məclisin üzvü və ictimai xadimlər çox çıxıb. Lakin o, bu kənddən çıxan və xalq tərəfindən etiraf edilən, Yazıçılar Birliyinə üzv qəbul edilən yeganə şairdir.

Rasim Kərimli Dövlət Universitetinin filologiya fakültəsində təhsil almış (1951–1956), bir il Ağsu rayonunda müəllim işlədikdən sonra, Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunda elmi işçi vəzifəsində çalışmış (1957–1969), lakin bədii yaradıcılıq elmi yaradıcılığa üstün gəlmişdi. Sanki Süleyman Rüstəmin Bəxtiyar Vahabzadəyə həsr etdiyi:

Qatlayıb dizinin altına qoyar,
Alim Bəxtiyarı, şair Bəxtiyar. –

dostluq şarjı elə Rasim Kərimliyə də aid idi. Tezliklə o, M.F.Axundov adına Dillər İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasına müəllim keçdi. Bu vaxt Rasim artıq tanınmış şair idi. Odur ki, onun bizim instituta gəlməsi toy-bayram kimi qarşılandı və ömrünün axırına qədər bu təhsil ocağında dərs dedi. Rasimin dərsləri o qədər maraqlı keçirdi ki, müəllimlər və başqa kurs tələbələri də onun dərsinə gəlirdilər. Bununla belə, bədii yaradıcılıq onun üçün hər şey idi. Rasimin yaradıcılığında, xüsusən də onun gəraylı və qoşmalarında Vaqif, Vurğun, Osman Sarıvəlli, Hüseyn Arif ruhu açıqca görünürdü. Şairin əsərlərinin xalq ruhuna son dərəcə yaxın olması, onların asanlıqla əzbərlənməsinə və xalq arasında yayılmasına şərait yaradırdı. Bu təsadüfi deyildir. Uşaqlıqdan qonşuları Aşıq Nağının yanında aşıq havalarını və el şairlərinin şeirlərini əzbər öyrənməsi onun gələcək yaradıcılığına əhəmiyyətli dərəcədə təsir göstərmişdi. Bu təsir o qədər güclü olmuşdur ki, həyatı boyu saz-söz adamlarının cazibəsindən kənara çıxa bilməmişdi. Keçən əsrin 60–70-ci illərində

aşıqlar şəhərə müəyyən münasibətlə gəlirdilər. Və mütləq qatardan səhər-səhər düşən kimi Rasim Kərimlinin evinə gələrdilər. Təkcə ona görə yox ki, şair dəmiryol vağzalının lap yaxınlığında, indiki S.Rəhimov adına küçədə yaşayırdı. Bir də ona görə ki, Rasimin dostları idilər. Ona baş çəkməyi özlərinə borc bilirdilər. Mikayıl Azaflı, Əkbər, İmran, Xanlar, Əlixan, Əli, Hüseyn Saraclı, Əmrah, Kamandar və başqaları onun daimi qonağı, ürək və yaradıcılıq dostları idilər. Şairin həyat yoldaşı Zəminə xanımın obrazlı şəkildə dediyi kimi, evləri hələ o vaxtlar mövcud olmayan Aşıqlar Birliyinin filialı idi. (Aşıqlar Birliyi 1982-ci ildə yaranıb.) Maraqlısı budur ki, həmin günlərdə Rasimgildə saz-söz məclisləri təşkil olunardı. Həmin məclislərdə xalq şairləri Osman Sarıvəllini, Hüseyn Arifi, İlyas Tapdığı, Zəlimxan Yaqubu, prof. Camal Mustafayevi, prof. Bəşir Əhmədovu, Vilayət və İbadət Rüstəmzadələri, Vəli Musaoğlunu və bir çox başqalarını dəfələrlə görmüşdüm.

Kim bilir, bəlkə də, mənim folklorçu kimi yetişməyimdə bu məclislərin də rolu böyük olub. Bir neçə musiqi alətlərimizdə gözəl çalan Rasim Kərimli milli musiqimizin bilicilərindən idi.

Həm buna, həm də şeirlərinə görə musiqiçilər və müğənnilərin əksəriyyəti onunla dostluq edirdi. Habil Əliyev, Əlibaba Məmmədov, Teymur Mustafayev, Arif Babayev, Mayis Salmanov, Mayis Məmmədov və başqaları şairə xüsusi ehtiram göstərirdilər. Elə bir konsert (Dövlət tədbirləri daxil olmaqla), elə bir şənlik, elə bir toy olmazdı ki, Rasim Kərimlinin sözlərinə yazılmış mahnılar oxunmasın. Şairin «Səndən savayı», «Biləydin kaş», «Bir qız bir oğlanındır», «Qurban olum», «Sənsiz», «Min yaşasın», «Axtarar səni», Zümrüd Məmmədova və Təhmurazın oxuduğu çox maraqlı, dərin mənalı «Deyişmə» və başqa şeirlərinə bəstələnmiş mahnılar dillər əzbəri olmuşdu.

Şairin yaradıcılıq diapazonu geniş idi. Onun poetik irsini aşağıdakı kimi qruplaşdırmaq olar. «Gəraylılar», «Qoşmalar», «İthaflar», «Satirik şeirlər», «Təmsillər», «Dördlüklər», «Poemalar». Minnətdarlıq hissi ilə uzun illər Azərbaycan Elmlər Akademiyasında Rasim Kərimli ilə bir şöbədə çalışan filologiya elmləri namizədi Seyfi Behbudov və alimin qızı Gülnarə Behbudovanın şairin yaradıcılığına həsr etdikləri «Rasim Kərimli poeziyası» («Nurlan», 2002, 56 səh.) kitabını yada salmaq istərdim. Tədqiqatçılar şairin yaradıcılığını «Lirik şeirlər» və «Satirik şeirlər» başlıqları altında təhlil etmiş və şairin poeziyasını yüksək qiymətləndirmişlər.

Şairin istər lirik, istər satirik, istərsə də ictimai-siyasi, fəlsəfi şeirlərində fikirləri aydın və qəlbəyatandır:

Məftunu olmayıb könlüm heç kəsin,
Ay xumar baxışlım, səndən savayı.
Sığındım eşqinə, bir pay görmədim,
Dumandan savayı, çəndən savayı.

Qaytar eşq havası çalan günləri,
Ağlımı başımdan alan günləri.
Ömürdən saymıram qalan günləri,
Oduna yandığım gündən savayı–

şairin səmimi etirafı, lirikanın gözəl nümunəsidir.

Rasim Kərimlinin həyat yolu keşməkeşli olub. Ömür-gün yoldaşından ayrılandan sonra çox peşmançılıq çəkib. Bu, şairin yaradıcılığında qırmızı xətt kimi keçib:

Səni itirdiyim gündən, ay mələk,
Dünyada hər şeyi itirmişəm mən –

deyə taleyindən şikayətlənib. Qadını evin çırağı adlandırıb.

Heç əskik olmasın evin çırağı,
O, qəlbə dayaqdır, o ömrə keşik.
Çəkmişəm qəhrini çıraqsızlığın
Çıraqsız qalmasın, bir ev, bir eşik –

arzusu ilə yaşayıb.

Rasim Kərimlinin şeirlərinin cövhərini qeyri-adi təsvirlər, həyat həqiqətləri, fəlsəfi fikirlər təşkil edir. Şairin poeziyası oxucunu haldan-hala salır, düşüncələrə qərq edir:

Bildirir aləmə qış öz dadını,
Sulara buzlarla yazır adını.
Kürklülər dördnala çapır atını,
Kürksüzlər qəlbində ildırım çaxır,
Arana qar yağır, dağa qar yağır.

Piylənmək gör necə haraya çatır,
Ayılar dünyadan bixəbər yatır.
Alçacıq yuvalar qar altda batır,
Dərd varmı yuvasız qalmaqdan ağır,
Arana qar yağır, dağa qar yağır.

Rasim Kərimli yaradıcılığında satirik şeirlər əhəmiyyətli yer tutur. Şairin satirik şeirləri bədii boyaların canlılığı, deyim

tərzinin rəngarəngliyi, ifşa obyektinin reallığı ilə seçilir. «Olmur», «Verilmədi», «Nə var ki…», «Millət» şeirlərindən verilən misralar deyilənlərə dayaq olur.

Qanmazlar bir kökə salır adamı,
Əllicə yaşı da haqlamaq olmur.

Qarğa qarıldadı, mükafat aldı
Biçarə bülbülə söz verilmədi.

Baldırını dişləməsə öz itin,
Özgə itdən qorunmağa nə var ki?

Toplayan arılar, yığan arılar
Ayılar nırx qoyur balına, millət. və s.

Şairin nəzirələri məna dərinliyinə, axıcılığına görə xüsusilə fərqlənir. Xalq şairi Məmməd Arazın «Salamat qal» şeirinə Rasim Kərimlinin yazdığı nəzirəsi deyilənlərə əyani sübutdur:

Əzəldən belədir işi dünyanın,
Şamaman dərildi, tağ, salamat qal.

Rasim Kərimlinin ithafları tədqiqata layiq böyük bir bölmədir. Burada xalq qarşısında şəksiz xidmətləri olan İmadəddin Nəsimi, M.Füzuli, M.Ə.Sabir, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, İsmayıl Şıxlı, Zəlimxan Yaqub, Rübabə Muradova, Zeynəb Xanlarova, Şahnaz Haşımova, tarzən Ramiz Quliyev, professorlar Qoşqar Əhmədov, Həbib Şirinov, Bəşir Əhmədov, Camal Mustafayev və başqalarından söz açılır.

Aşıq Ədalət və Habil Əliyevə həsr olunmuş «Elə çaldın» və «Kaman dindi» poemaları kitabın sanbalını artırır. İlhamla, məhəbbətlə yazılmış bu poemalar, ümumiyyətlə, saz-

söz sənətinə töhfə olmaq baxımından əhəmiyyət kəsb edir və maraqla oxunur.

İthaflarda şair tərənnüm etdiyi şəxsiyyətlərin obrazını ustalıqla yaratmış, onların daxili aləmini, yaradıcılıqda tutduqları mövqelərini açıb göstərə bilmişdir.

Rasim Kərimlinin «Şeir bağçasının bağbanı şair» misrasını oxuyan kimi söhbətin Səməd Vurğundan getdiyini duyursan. Və ya:

Vətənin dağları, düzü kimisən,
Saflıqda çeşmələr gözü kimisən
Elə təbiətin özü kimisən,
Bağından, bağçandan gül ətri gəlir.

misralarını oxuyanda gözlərimiz önündə dağ vüqarlı, saflıq, paklıq, ziyalılıq rəmzi olan İsmayıl Şıxlı canlanır.

Sözümə son verərkən onu da deməliyəm ki, şairin «Dözmək olmur ayrılığa» kitabı ilə şeirsevərlərin görüşü təkcə bulaq kimi dupduru, qəlbə rahatlıq gətirən poetik incilərlə görüş deyil, eyni zamanda Rasimli günlərə qayıdışdır.

Bu qayıdışı, bu təkrarsız görüşü gerçəkləşdirən Millət vəkili Qənirə Ələsgər qızı Paşayevaya minnətdarıq.

«Dözmək olmur ayrılığa» kitabı təsəlli və şairin ölməzliyi yolunda ucaldılan abidədir – desək, səhv etmərik.

XATİRƏYƏ DÖNƏN ÖMÜR



Fani dünyanı ömrünün çiçəkləndiyi dövrdə tərk edib əbədiyyətə qovuşan alim ziyalılarımızdan söz düşəndə gözümün önünə ilk gələn Rafiq müəllim olur. Onun bir çox məziyyətləri, insani keyfiyyətləri onu mənim qəlbimdə əbədiyaşar etmişdir. Ümumiyyətlə, yaxşı adamlar cismani cəhətdən bizdən ayrılsalar da, mənən bir neçə nəsil dəyişənə qədər onun dost və tanışlarının, qohum-əqrəbasının, övlad və nəvə-nəticələrinin qəlbində yaşayırlar. Rafiq müəllim nəcibliyi, əməyi- zəhməti, xeyirxahlığı, mədəniyyəti, ziyalılığı və elmi ilə yaddaşlarda yaşamaq səlahiyyətini hələ sağlığında qazanmışdı. Yaxşı qohum, təmənnasız dost, nümunəvi ailə başçısı kimi Rafiq müəllim böyük hörmət, ehtiram sahibi idi. O, Ələkbərovlar nəslinin ağsaqqalı və yolgöstərəni idi. Rafiq müəllim bir alim kimi böyük nüfuza malik idi. Kimya elmi sahəsində sayılıb-seçilən alimlərdən idi. *

Professor Rafiq Ələkbərov uzun illər boyu indiki Azərbaycan Pedaqoji Universitetində Kimya kafedrasının müdiri vəzifəsində çalışmış, onlarla elmlər doktoru və elmlər namizədlərinin yetişməsində böyük zəhməti olmuşdur.

Həm həmkar kimi, həm də xalam qızının əri kimi onunla 40 ildən artıq dostluq və qohumluq münasibətində olmuşam. Onun müdrik kəlamlarından, şirin söhbətlərindən doymaq olmurdu.

---

* Bax: Rafiq Ələkbərov – «Ürəklərdə yaşayan insan». Məqalələr toplusu, Bakı, «Ziya-Nurlan» nəş., 2008, səh. 50–52.

Ən böyük arzusu hər üç övladına: Azad, Fuad və Gültəkinə mükəmməl təhsil vermək idi. Bilənlər bilir ki, Rafiq müəllimin övladları necə də savadlı, mədəni və əxlaqlıdırlar. Azadla Gültəkin yüksək ixtisaslı həkim, Fuad isə hüquqşünasdır. Gültəkinin tibb elmləri namizədi olduğunu da qeyd etmək yerinə düşər və bu, Rafiq müəllimin ruhuna rahatlıq gətirər.

Onu da deyim ki, Rafiq müəllim təhsilə çox yüksək qiymət verirdi. Xalam qızlarının hamısının ali təhsil almasında Rafiq müəllimin danılmaz xidməti vardır. İlahiyyətə o qədər də qapanmasa da, dəfələrlə Məhəmməd Peyğəmbərin elmlə bağlı kəlamlarını misal çəkməsinin şahidi olmuşdum: «Altmış il ibadətlə məşğul olmaqdansa, bircə gün elmlə məşğul olmaq daha savabdır».

Yadımdadır, bir dəfə qədim Çin mütəfəkkiri Konfusinin maraqlı bir kəlamını yada saldı: «Elm, bilik elə bir həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir» və əlavə etdi ki, elmlə məşğul olsaq, Allah qoysa XXI əsrin bir rübünü yaşaya biləcəyik: «Mən ürəyimin qədrini bilmədim, heç olmasa sən ürəyini qoru», – dedi.

«Deyəsən ürəyim mənimlə yoldaşlıq eləməkdən bezib», elə danışırdı ki, sanki, ürəyinə nəsə dammışdı.

Bəli, ürək belədir, şad xəbəri də, bəd xəbəri də insana məqamında çatdırır.

Etibarlı qohum, gözəl insan, əla ziyalı, böyük alim Rafiq müəllimin yoxluğu bu gün də yada düşəndə qəlbimi sızladır. Təsəllimiz biz qohumlara baş ucalığı gətirən övladları və soy adını yaşadacaq nəvələrin yetişməsidir. Bu məqamda 50 yaşında dünyasını dəyişmiş Səməd Vurğunun ilahidən gələn misraları yada düşür:

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya.

HƏR BİR DƏRDDƏN BETƏR AYRILIQ...*



Ayrılıq əlacı olmayan dərdə bənzəyirmiş. Xüsusən də ömrün payız çağında ağrısı-acısı adamı göynədirmiş. Vaxtaşırı albomlarda şəkillərimizə baxıram. Ani olaraq yoxluğunu unudur, şirin xatirələrə dalıram. Sanki şəkillər danışır. Qırx ildən artıq zaman kəsiyində gördüyümüz işlər, qarşılaşdığımız çətinliklər, xüsusən, sənə mane olmaq, sındırmaq istəyən bədxahlarının arzusuna xilaf çıxaraq gecə-gündüz yorulmaq bilmədən işləməyin gözlərimin önünə gəlir.

Qardaşım Bəndəroğlu, elə vaxt olmaz ki, Bəkir Nəbiyev, Vasim Məmmədəliyev, Ayaz Vəfalı, İsrafil İsrafilov, İmamverdi Həmidov, Şirindil Alışanov, Tahir Əliyev və başqa dostlarla görüşəndə səni yada salmayaq. Lap bu yaxınlarda (noyabr, 2008) akad. Bəkir Nəbiyev, akademiyamızın müxbir üzvü Teymur Kərimli, şərqşünas Səadət Şıxıyeva və mən Suriyanın Hələb şəhərinə «Beynəlxalq Nəsimi konfransı»na getmişdik. Yerin görünürdü. Təsəllini onda tapıram ki, Nəsiminin İraq divan nüsxəsindən, onu sənin üzə çıxarmağından, kitab buraxdığından, müştərək işimizdən söz saldım.

Məlumdur ki, vaxtilə Şam və Hələb şəhərləri arasında Qara Türkman xanlığı olub. İndi də Hələb ətrafında çoxlu türkman kəndləri vardır. Onlar da bizim kimi danışır və həsrətlə yaşayırlar. Hələbdə olanda gecə keçənədək bizdən ayrılmırdılar.

Qardaşım, sən hər dəfə Bakıya gələndə «Ədəbiyyat qəzeti» redaksiyasında görüşər, dərdləşərdik. Bir qəzet səhifəsinə sığ-

---

* Bax: «Ədəbiyyat qəzeti», 30.01.2009; «Kredo» qəzeti, 7.02.2009.

mayan son müsahibələrinin birində çox mətləblərdən söz açdın. Çox həyəcanla danışırdın. Deyirdin ki, otuz beş ildən bəri Ayaz müəllim, sən və mən dostluq, qan qardaşlığı naminə mübarizə aparmışıq. Bu yolda yorulmuşuq...

Ayaz Vəfalının «Amma bu xoş yorğunluqdur» müdaxiləsinə: «Doğrudur, bu yorğunluq nə qədər çoxalırsa, o qədər insana səadət gətirir, nə qədər çoxalırsa, o qədər bizim gələcək nəsillərimiz üçün, nəvələrimiz üçün böyük qapılar açır. Bu qapıları biz açdıq, bu qapıların qapanmamasını istəyirik. Qapılar necə qapanacaq, necə qapanmayacaq? İndi mənim bütün qorxum odur ki, otuz beş il boyunca yapdığımız, vəfa etdiyimiz o işlər yarımçıq qalsın. Qorxuram ki, o qapılar ki, biz açdıq, o qapılar qapadılsın. Qorxum budur ki, İraq–türkmanları öz əsillərini, öz soydaşlarını unutsun. Səbəb budur. Mənim qorxum bundadır», – dedin.

Həyəcanını elə bil indi-indi başa düşürəm. Şair fəhmi ilə dediyin sözlərdə nə qədər böyük həqiqət varmış.

Ancaq heç şübhə yoxdur ki, gənclərimiz bu vacib vəzifəni layiqincə davam etdirəcək və estafeti növbəti nəsillərə ötürəcəklər. Gərək onlar dostluq, qardaşlıq əlaqələrimizin qapılarının bağlanmasına imkan verməsinlər.

Qardaşım, yoxluğunla dostumuz Ayaz Vəfalının doğru olaraq qeyd etdiyi kimi, Azərbaycan-İraq-türkman ədəbi əlaqələr tarixinin çox əlamətdar bir mərhələsi yekunlaşmış oldu.

Elə bir mərhələ ki, dil və qan birliyimiz təkzibolunmaz faktlarla sübuta yetirildi. Canından artıq sevdiyin, sonbeşiyinə adını qoyduğun ulu öndərimiz Heydər Əliyev bəyan etdi: «Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır» (Qardaşlıq dərgisi. İstanbul, 2000, N4).

Bu çox məhsuldar mərhələdə Bağdadda və Kərkükdə «Çağdaş Azərbaycan şeirindən seçmələr» (1974, 222 s.), «Azərbaycan şeiri» (1987, 270 s.), Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin hər biri 142 səhifədən ibarət olan şeirlər toplusu

(1989), «Azərbaycan hekayələri» (1991, 253 s.), Kamil Vəliyevin «Xalqın sözü» (1991, 123 s.), Elçinin hekayələri (1996, 147 s.), mənim «İraq–türkman folkloru» (1995, 160 s.) və «Altı il Dəclə-Fərat sahillərində» (1996, 168 s., ərəbcə) kitabımı Bağdadda dövlət hesabına İraq Mədəniyyət Nazirliyi xətti ilə, Rəsul Rzanın «Ağlayan çox, gülən hanı?» (Kərkük, 2007, 182 s.) və Elçinin «Mahmud və Məryəm» (Kərkük, 2007, 216 s.) romanını öz hesabına çap etdirdin.

Qardaşım, iki dahi şairimizə – Nəsimi və Füzuliyə monoqrafiyalar həsr etdin. 1973-cü ilin 13 sentyabrında Bakıda Nəsiminin 600 illiyinə həsr olunmuş yubiley şənliklərində iştirak etdin və təntənəli yığıncaqda yaralı yerin dil məsələsinə də toxundun: «Nəsimi xalq dilini çox gözəl bilirdi. Öz poetik yaradıcılığında xalq dilinin ən qiymətli xəzinəsindən geniş və sərbəst istifadə edirdi. Bu isə doğma xalqın mədəniyyətinin inkişafına böyük kömək olmuşdur…» («Ədəbiyyat və incəsənət» qəzeti, 22 sentyabr 1973-cü il).

Yubileydə azərbaycanca danışan yeganə natiq sən oldun. Bu, böyük dövlət xadimi, dilimizin təəssübkeşi Heydər Əliyevin diqqətindən yayınmadı. Həmin gün axşam ziyafətdən sonra demişdi: «Sağ ol, Bəndəroğlu, öz doğma dilimizdə danışdın!»

Xidmətlərin böyük idi. Azərbaycan-İraq ədəbi əlaqələri sahəsində bir institutun görə biləcəyi işi gördün. Minnətdarlıq hissi ilə İraqda Füzulinin 500 illik yubiley şənliklərində (13–26 sentyabr 1994) təşkilat komitəsinin sədr müavini kimi Səddam rejiminin türkmanlara qarşı tüğyan edən basqıları dövründə gördüyün işlər əvəzsiz idi.

«Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyində öndərimiz Heydər Əliyevə söz vermişdin ki, «Dədə Qorqud»u ərəb dilinə çevirərək çap etdirəcəksən. Ömrünün son ilində bu vədini də yerinə yetirdin. 2007-ci ilin iyun ayında Bakıya gələndə kürəkənin Cəlal Poladın tərcüməsində ərəbcə nəfis şəkildə çap etdirdiyin «Dədə-Qorqud dastanları» (Bağdad, 2007, 264 s.)

kitabını gətirdin. Kəskin ürək ağrılarından əziyyət çəksən də, öndərimizə verdiyin sözü yerinə yetirdiyinə görə sevinirdin. Sanki sevincini bölməyə gəlmişdin. 2007-ci ilin noyabrında yenidən Bakıya gəldin. Ürəyinin əlacını Azərbaycanda axtarırdın. Nə edəsən ki, bəzən xəstəlik qarşısında həkimlər də aciz qalırlar.

Son dəfə gələndə Bakıda aparılan tikinti-abadlıq işləri səni heyran etmişdi: göydələn binalar, yeraltı keçidlər, körpülər, yeni metro stansiyaları, Heydər Əliyev adına Respublika Sarayının, Milli bankın yanındakı, Səməd Vurğun küçəsindəki keçidlər xüsusilə xoşuna gəldi.

Həmişə olduğu kimi, Fəxri xiyabana getdik. Öncə ulu öndərimizi ziyarət etdik. İcazə alıb öndərimizə ucaldılmış abidənin yanında şəkil çəkdirdik. Sonra isə Səməd Vurğun, Rəsul Rza, Abbas Zamanov, Qasım Qasımzadə, Araz Dadaşzadə, Yaşar Qarayev, Nəbi Xəzri və Qabili ziyarət etdik. Onların məzarı başında şəkil çəkdirdin. «Yadigar qalsın», – dedin. Bakıdan çox kədərli getdin. Onda nazir vəzifəsində çalışırdın. İşini sahmana salıb yenidən Bakıya dönmək fikrin vardı. Hətta pasportunun surətini üç yerdə çıxartdırdın ki, şəklin aydın çıxsın. Mənə verdin ki, Azərbaycan Xarici İşlər Nazirliyindən viza üçün icazə istəyəndə problem yaranmasın.

Təəssüf ki, ortaq bayatımızda deyilənlər yerini aldı:

Qızıl gül olmayaydı,
Saralıb-solmayaydı.
Ölüm Allahın əmri,
Ayrılıq olmayaydı.

Ayrılıq qaçılmaz oldu. Bu ayrılıq Azərbaycanda səni tanıyanların hamısını sarsıtdı. Neçə illərdən bəri üzvü olduğun Azərbaycan Yazıçılar Birliyi, Nizami adına Ədəbiyyat İnstitutu, xalq yazıçısı Elçin, xalq şairi, akademik Bəxtiyar Vahabzadə ailənə, doğmalarına və səni tanıyanlara başsağlığı ünvanladılar. Biz dostların – akad. Vasim Məmmədəliyev, Ayaz Vəfalı və mən isə haqqında yazılarla çıxış etdik. Bəxtiyar Vahabzadə sənin «Qərənfil» (Bakı, 1977) kitabına yazdığı «Ön söz»ü «Ədəbiyyat qəzeti»ndə ixtisarla yenidən çap etdirdi. Şərqşünas alim Cavanşir Xıdırov isə «İnqilabi İraqda türkmanlar» (Bağdad, 1973) adlı ərəbcə çıxan kitabını azərbaycancaya çevirərək keçən bir il ərzində «Kredo» qəzetində dərc etdirdi.

Aprel ayında yubileyinə hazırlaşırdıq. Üzvü olduğun Yazıçılar Birliyinin sədri Anar müəllim sənin haqqında xüsusi buraxılış hazırlamağı Ayaz Vəfalıya və mənə məsləhət görmüşdü. Fevralın 2-də (2008) acı xəbərin gəldi. Arzumuzu gözümüzdə qoydun.

Unudulmaz qardaşım, Azərbaycanda hamı bilir ki, sən Azərbaycanı doğma vətənin hesab edir və ürəkdən sevirdin. Bizdə də səni doğma qardaş hesab edir, sənə böyük ehtiram göstərirdilər. Bakıya gəlişlərində o zaman Dövlət müşaviri işləyən Hidayət Orucov, Baş nazirin müavini Elçin Əfəndiyev, Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə, Yazıçılar Birliyinin sədri Anar və başqalarının qapısı üzünə açıq olurdu.

Hər şey bitdi. Gözümüzü yolda qoydun. Həsrət-vüsal yolları sona yetdi. Təəssüflər olsun ki, yubileylərimizdə intizarla gözlədiyimiz, böyük mətləblərdən söz açan təbrik məktublarına, teleqramlarına bundan sonra həsrət qalacağıq. Nə yaxşı ki, göndərdiyin təbriklər kitablarımızda yadigar qalıb. 2009-cu ildə çapdan çıxan «Akademik Bəkir Nəbiyev» kitabında təbrikini oxudum. Xəyal məni qanadları üstünə alıb birgə keçirdiyimiz xoşbəxt günlərə apardı:

«Doğum gününüz – 75 illik yubileyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm. Sevincinizi bölmək üçün yanınızda olsaydım, şərəf sayardım. Otuz illik dostluğumuz və qardaşlığımız dövründə xoşbəxt anlarımız çox olub. Ortaq şairimiz Nəsiminin 600 illik, «Dədə Qorqud»un 1300 illik yubileylərini Bakıda, Füzulinin 500 illik yubileyini Bağdadda birgə keçirdiyimiz, professorlar Yaşar Qarayev, Vasim Məmmədəliyev, Qəzənfər Paşayev və Ayaz Vəfalı ilə evimizə gəlməyiniz, birgə Kərkük şəhərinə getməyimiz, İraq Mədəniyyət və Məlumat nazirləri ilə görüşlərimiz həyatımın unudulmaz anlarıdır. Buna görə Yaradana və sizlərə minnətdaram…» Ə.Bəndəroğlu, Bağdad; 16.06.2005.

İndi sənin kimi haqq dünyada olan görkəmli ədəbiyyatşünas alimimiz Yaşar Qarayevin 60 illik yubileyinə göndərdiyin, «Ədəbiyyat qəzeti»ndə çap olunan məktub və bayatı hamımızın ürəyini kövrəltmişdi. Bayatı sənin Yaşar müəllimə, ələlxüsus da Azərbaycana olan məhəbbətindən söz açırdı:

Yaşar könlüm,
Qəm içər, yaşar könlüm.
Dostların arzusuyla
Çırpınar, yaşar könlüm.
Bağdadda bir ah çəkər,
Bakıda yaşar könlüm.

Belə bir bayatını qəlbində illərlə Azərbaycana məhəbbət bəsləyərək ilahi sevgiyə çevirən, ürəyi həsrətlə döyünən bir adam yaza bilərdi. O, sən idin. Təsəllini onda tapırıq ki, o ülvi məhəbbəti özünlə aparmadın, bizlərə ərməğan qoyub getdin. Onun istisində isinir, sənin ruhuna dualar edirik. Rahat yat, qardaşım. Nə qədər ki, biz varıq, nə qədər ki, ədəbi əlaqələrimiz var, sən varsan, sən bizimləsən. Səni heç vaxt unutmayan qardaşın Qəzənfər.

BİLMƏZ İDİM AYRILIQ VAR…*

Hörmətli Ayaz müəllim! Martın 5-də bir il olacaq ki, ömrünü folklorumuzun, xüsusən də aşıq sənətinin təbliği və tədqiqinə həsr edən, Azərbaycan televiziyasında bir-birindən maraqlı verilişləri ilə tamaşaçıların rəğbətini qazanan Ağalar Mirzə haqq dünyasına qovuşub. Onunla keçən əsrin 80-ci illərinin lap əvvəlindən tanış və dost olmuşdum. Kərkük folkloru ilə bağlı məni tez-tez «Bulaq» verilişinə dəvət edirdilər. Ağalar gənc olsa da, Səməndər Rzayev və Məhluqə xanım Sadıqovanın daha da məşhur etdiyi, dinləyicilərin intizarla gözlədiyi «Bulaq» verilişinin aparıcı simalarından idi. Folklorumuza dərin məhəbbəti açıqca duyulurdu. V.Belinskinin doğru olaraq göstərdiyi kimi, ürəyi folklorla döyünən adamlar, adətən, təvazökar, xeyirxah, qərəzsiz, fədakar olurlar. Ağaları bu keyfiyyətlər fərqləndirirdi. Onun bu keyfiyyətləri televiziyanın rəhbərliyinin diqqətindən yayınmadı. Tezliklə onu «Ədəbiyyat və xalq yaradıcılığı redaksiyası»na keçirdilər. Televiziyada ad-san qazanan, təcrübəli Nahid Hacızadə, Firudin Ağayev və Əmirhüseyn Məcidovun yanında məktəb keçdi. Folklorumuzun gözəl bilicisi və araşdırıcısına çevrildi. Hətta «Xaltanlı Tağının yaradıcılıq yolu» mövzusunda namizədlik dissertasiyası müdafiə etdi.

---

* Bax: «Ədəbiyyat qəzeti», 6.03.2009.



Ağaların yol yoldaşlığı bambaşqa idi. Akademik Bəkir Nəbiyev, prof. İsrafil İsrafilov, t.e.n. Sirus Abbasbəyli, Ağalar Mirzə və oğlum Muradla İran və İraqı başdan-başa gəzdiyimiz yaxşı yadımdadır. Ağalar bir an belə boş dayanmazdı. Bəlkə də, bu televiziyadan gəlmə vərdiş idi, bilmirəm. Kazımiyyədə İmam Kazımla yanaşı uyuyan dahi Azərbaycan alimi Nəsirəddin Tusinin qəbrini pul hesabına min əzabəziyyətlə çəkəndə də (icazə vermirdilər), Harun ər-Rəşidin azərbaycanlı zövcəsi Zibeydə xatunun qəbrini və məqbərəsini çəkəndə də, İraqda Babili, İranda Bisutun dağını lentə alanda da, Təbrizdə Şəhriyarın, Ərdəbildə Şah İsmayıl Xətainin məqbərəsini lentə alanda da necə sevindiyi indi də gözlərimin önündədir. Vətənə dönəndən sonra televiziyada maraqlı bir veriliş təşkil etdi. Ağalar gecə-gündüz işləyirdi. Elə bil ürəyinə nəsə dammışdı, çox tələsirdi. Təəssüf ki, bir çox arzuları yerinə yetmədi. Onlardan biri – bəlkə də, ən böyüyü doktorluq dissertasiyası ilə bağlı idi.

«Şirvan aşıq məktəbi» adlı doktorluq dissertasiyası yazmışdı. Əsər BDU-nun «Folklor» kafedrasında müzakirə olunmuş, tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilmiş və müsbət rəylə müdafiəsinə icazə üçün Ali Attestasiya Komissiyasına göndərilmişdi. Qəfil ölüm hər şeyi yarımçıq qoydu. Müdafiəsində deyəcəyimiz ürək sözlərimiz də ürəyimizdə qaldı. Ağalar Mirzənin doktorluq dissertasiyasına rəsmi rəy vermişdim. Həm təsəlli olsun deyə, həm də aramızdan çox erkən gedən qələm dostumuzun ruhuna ehtiram əlaməti olaraq həmin rəyi çap etməyinizi xahiş edirəm. Qoy ruhu şad olsun*.

* Qəzetin 6.03.2009-cu il tarixli sayında «Şirvan aşıq məktəbi»nə dair rəyimi dərc edən qəzetin redaktoru Ayaz Vəfalıya təşəkkür edirəm.

YAXŞILAR ÖLMÜR*

Vilayətlə eyni ildə, qanlı-qadalı 1937-ci ilin avqust ayında anadan olmuşduq. Məndən cəmisi 15 gün böyük idi. İnstituta eyni ildə – 1957-ci ildə daxil olmuşduq. O, Rus Dili və Ədəbiyyatı İnstitutuna, mən isə Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə. Lakin tezliklə institutlarımız birləşdirildi və dostluğumuzun təməli də elə o vaxtdan qoyuldu. Mən yazı-pozu ilə məşğul olurdum, o isə yaxşı şeirlər yazırdı. Mətbuatda hələ 1956-cı ildən şeirləri çap olunurdu. Odur ki, onu Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutuna göndərdilər. Aradan çox sular axdı. Dörd il İraqda tərcüməçi işləyərək vətənə döndüm (1966). Əliboş gəlməmişdim. İraqda yaşayan indi sayı iki milyonu keçən soydaşlarımızın folklor nümunələrini, xüsusən də xoyratlarını (bayatılarını) toplayıb böyük kargüzarlıq dəftərlərinə köçürərək gətirmişdim. Vilayətlə «Azərnəşr»də görüşdük. 1965-ci ildən «Azərnəşr»də tərcüməçi-redaktor işləyirdi. O, artıq əməlli-başlı məşhurlaşmışdı. Vilayət Rüstəmzadə adını ehtiyatla çəkirdilər. «Azərnəşr»də yeddi tərcümə kitabı və özünün «Oxu bülbülüm» şeirlər kitabı çıxmışdı. Hal-əhval tutandan sonra dedi: «Qəzi (mənə elmlər doktoru, professor olandan sonra da, dünyasını dəyişdiyi günə qədər Qəzi deyərdi), bilirsən nə var? Rəsul Rza 5 çap vərəqi həcmində «Kərkük bayatıları» kitabını plana saldırıb. Ustadın (Rəsul Rzaya ustad deyə

* Bax: «Ədəbiyyat qəzeti», 05.02.2010.

müraciət edərdi) yanına gedib, xahiş etmək lazımdır ki, sənin gətirdiyin bayatıları əlavə etməklə kitab ikinizin tərtibində çıxsın. Ağlım bir şey kəsmədi. Sən qarışma – dedi. Rəsul müəllimə zəng etdi. Səhərisi gün saat 12-də Rəsul Rzanın kabinetində olduq. O vaxt Rəsul müəllim Azərbaycanın ilk ensiklopediyasının ilk baş redaktoru idi. Ensiklopediya indi Heydər Əliyev Fondu ucaldılan yerdə köhnə bir binada yerləşirdi. Rəsul müəllim hər biri 150–250 səhifə arası olan dəftərlərimi vərəqlədikdən sonra təqribən yarım saat mənimlə söhbət etdi. «Azərnəşr»in direktoru Qılman Musayevə (İlkinə) zəng etdi və məni onun yanına göndərdi. «Kərkük bayatıları» 1968-ci ildə ikimizin adına çıxdı və Vilayətin ağıllı məsləhətinin nəticəsi olaraq mən də məşhurlaşdım. Təkcə «Kərkük bayatıları»na görə deyil, həm də adımın Rəsul Rzanın şərəfli adı ilə yanaşı getdiyinə görə.

Dost olanda da adamın Vilayət kimi dostu ola. Vilayət çox mərdanə, həm də ərkyanə adam idi. Hamıya o qədər yaxşılıq, o qədər xeyirxahlıq etmişdi ki, hamı onun ərkini qəbul edirdi.

Sevinirəm ki, cavanlıq dövrümüzdə dostumun yaxşılığından çıxa bildim. Dillər İnstitutunda xarici dillər üzrə məsul katibin müavini vəzifəsində qəbulda qalmışdım. Bir axşam Moskvadan telefon açdı ki, Səməd Vurğunun dostu Hidayət Bayramovun qızı Günəş Bayramova alman dili şöbəsinə girir. Ona kömək et. Günəş lələşinin nişanlısıdır – deyə əlavə etdi. Bacardığım köməyi etdim. Əslində, Günəşin köməyə ehtiyacı da yox idi. Qəbul imtahanında gözlənilməz hadisələr çox olur. Odur ki, nəzarətdə saxladım. Günəş yüksək qiymətlərlə instituta qəbul olundu. Bu münasibətlə məşhur neftçi Akif Cəfərovun atası Mədət müəllimin 4 saylı xəstəxana ilə üzbəüz S.Vurğun küçəsindəki evində Hidayət Bayramov qonaqlıq verdi. Məclisi Osman Sarıvəlli aparırdı. Vilayətlə mənim sağlığıma badə qaldırdılar. Lakin Vilayətlə qohumluq barədə

söhbət getmədi. Aradan bir-iki ay keçəndən sonra Vilayət Moskvadan gəldi. Xoş-beşdən sonra dedi: «Qəzi, sənə bir müqəddəs yalan demişəm, ərkyana zarafat etmişəm. Gərək məni bağışlayasan. Mənim nişanlım İsmayıl Dağıstanlının qızı Natelladır. Qorxdum Günəş instituta girə bilməyə, Səməd Vurğunun yadigarı Hidayət qağa pisikə».

Vilayət bir dost kimi gözümdə daha da yüksəldi. O, 1968–1971-ci illər arası yenidən Moskvaya gedərək M.V.Lomonosov adına Moskva Dövlət Universitetində filologiya fakültəsində aspirant oldu. Moskvadan böyük əlaqələrlə, dərin bilik və dünyagörüşü ilə döndü. Tərcümə fəaliyyətini davam etdirdi. A.Blok, N.Nekrasov, R.Həmzətov, A.Vlasov kimi məşhur şair və yazıçıların əsərlərini səlis və rəvan dillə tərcümə edərək Azərbaycan oxucularına ərməğan etdi. Vilayət məni neçə-neçə dəyərli insanlarla tanış və dost etdi. Onlardan biri də bacanağı Əfqan idi. Əfqanla dostluğumuz indi də davam edir. Onunla olanda Vilayət yada düşür. Vilayətin söhbətlərindən doymaq olmurdu. Heç vaxt da özünü təkrar etməzdi. Yazıçıların, şairlərin həyatından maraqlı epizodları olduğu kimi danışardı. Bir dəfə söhbət Hüseyn Arifdən düşmüşdü. Dedi ki, bəzi adamlara elə gəlir ki, Hüseyn Arif sadəlövhdür. İnanma. Qağa məntiqli adamdır. Biz aspirant olanda Moskvaya gəlmişdi. Yaxşı bir qonaqlıq verdi. Ayrılanda cibimə bir 50-lik basdı. Dedim: «Qağa, eşitdiyimə görə Səməd Vurğun sənin cibinə 100-lük basarmış».

«Kəs səsini» – dedi. «Nə sən Hüseyn Arif ola bilərsən, nə də mən Səməd Vurğun».

Vilayətlə oturub-durmaq, dostluq taledən gələn qismət idi. Həsəd aparılacaq gözəl xasiyyəti vardı. Bir dəfə də olsun kiminsə qiybətini qırdığını, kiminsə arxasınca danışdığını, kiməsə həsəd apardığını görmədim. Əksinə, hamının uğuruna sevinərdi. Lakin özünə qarşı laqeyd idi. Nə qədər çalışdıq, hazır dissertasiya işini müdafiə etmədi ki, etmədi. Dərindən

duyurdu ki, elmi səviyyəsi bir çox müdafiə etmişlərdən yüksəkdir. Təsəllini onda tapırıq ki, qızı Aytən atasının yolunu davam etdirdi və AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda əyani aspiranturanı bitirərək «Müasir Azərbaycan ədəbiyyatında milli xarakterlər» mövzusunda hələ Vilayətin sağlığında – 1996-cı ildə namizədlik dissertasiyası müdafiə etdi.

Akademiyamızın müxbir üzvü, prof. Abbas Zamanov dünyasını dəyişmiş bəzi dəyərli insanları son mənzilə yola salanda deyərdi: «Sağ ol, a filankəs». Mənasını soruşanda deyərdi ki, o ölməyib, o bizimlədir. Yaxşı adamlar ölmürlər. Onlar neçə ki, biz varıq, bizim qəlbimizdə yaşayırlar.

Abbas müəllimə haqq qazandırmamaq olmur. Vilayət duzlu-məzəli söhbətləri, müdrik kəlamları ilə həmişə bizimlədir.

SON GÖRÜŞ



Keçən əsrin ortaları və ikinci yarısı ədəbiyyatımızın çiçəklənən, gəl-gəl deyən dövrü idi. Güman ki, bu zamanla bağlı idi. «Şeytan əməli» televiziya evlərə yeni-yeni ayaq açırdı. Demək olar ki, əksər evlərdə kiçik kitabxanalar vardı. Adamlar kitablara var-dövlət kimi baxır, onlarla fəxr edirdilər. Məclislərdə əsas mövzu yazarlarımızın əsərləri olardı. Bir dəfə söhbət Əlfi Qasımov və onun «Adilənin taleyi» romanından düşmüşdü. Yazıçının əsəri barədə ürəkdən danışırdılar. «Adilənin taleyi» romanı 1964-cü ildə çap olunmuşdu. İnstitutu bitirib tərcüməçi kimi xaricə göndərildiyimdən (1962–1966) nə əsəri oxumuşdum, nə də ictimaiyyətin əsər barədə rəyindən xəbərdar idim. Onu da deyim ki, o vaxtlar xalq arasında sevilən kitabları oxumamaq cahillik hesab olunurdu. Belə adamlara xor baxırdılar. Odur ki, yaşadığım evin yaxınlığındakı M.Əzizbəyov adına kitabxanadan «Adilənin taleyi»ni götürdüm və birnəfəsə oxudum. Əsər mənə böyük təsir etdi. Bir neçə gün sonra «Ədəbiyyat və incəsənət» qəzetində şöbə müdiri işləyən köhnə dostum İsrail Mustafayevlə redaksiyaya getmişdim. Yazıçılar İttifaqı tərcüməyə dair plenum keçirirdi. Mən də orijinal ilə bağlı «Biz hazır» adlı məqalə yazmışdım. Gözləmədiyim halda İsrail gülərüzlü bir nəfərə: «Əlfi müəllim, bu Qəzənfər Paşayevdir, İraqdan gəlib. Ədəbiyyatımızı çox sevir» – dedi. O vaxta qədər Əlfi müəllimlə şəxsən tanış deyildim. Əlfi müəllimin cavabı məni həm təəccübləndirdi, həm də sevindirdi: «Mən Qəzənfərlə artıq tanışam. Onun «Bağdad səfəri» məqaləsini qəzetinizdə oxumuşam. Onun haqqında fikrim müsbət-

dir. Deyirsən ədəbiyyatımızı çox sevir. Qoy onda desin görək Əlfi Qasımovdan nə oxuyub?» – ərkyana tərzdə dedi.

Nə yaxşı ki, «Adilənin taleyi»ni vaxtında oxumuşdum (taleyimdən çox razıyam. Heç vaxt məni darda qoymayıb). Əsər haqqında danışıb ürəyimi boşaldandan sonra Əlfi müəllim təbəssümlə dedi: «Cavan oğlan, bu dediklərini yaz və elə olduğu kimi qəzetdə çap etdir».

Əlfi müəllimin təbəssümündən və cümləni bitirəndən sonra gülməyindən elə başa düşdüm ki, zarafat edir. Mən də yarızarafat, yarıgerçək dedim ki, əsər haqqında məqalə yazmağa tövbə etmişəm. Tələbə olanda həcmcə çox da böyük olmayan, guya kənd həyatından bəhs edən «Şəfəq» romanını oxuyub şagird dəftərində tənqid yazdım və «Azərbaycan gəncləri» qəzetinə yollandım.

Romanda kənd həyatından əsər-əlamət yox idi. Hələ bu bir yana. Əsər başdansovdu qələmə alınmışdı, ürəkyanğısı ilə yazılmamışdı (müəllif dünyasını dəyişdiyindən burada adını çəkmək istəmirəm). Məni şöbə müdirinin yanına apardılar (illər keçəndən sonra bildim ki, şöbə müdiri sonralar görkəmli alim olacaq Bəkir Nəbiyev imiş). O, məsələdən hali olandan sonra dedi: «Get, tərifləməyi də öyrənəndən sonra gələrsən».

Əlfi müəllim əlini-əlinə vuraraq ucadan güldü və dedi: «Mənim əsərim barədə fikrin müsbət olduğuna, tərifləyinə görə çap edərlər».

«Əlfi müəllim, qorxuram bu dəfə də deyələr ki, get tənqid öyrən gəl» – dedim.

Əlfi müəllim yenə də güldü. Ciddi görkəm alaraq dedi: «Mən Nəşriyyat Komitəsində işləyirəm. Nə işin olsa çəkinmədən yanıma gəl. Xoşuma gəldin».

Sən demə Əlfi müəllimi «Nəşriyyatlar İdarəsi»nin rəisi kimi çox məsul vəzifəyə irəli çəkiblərmiş. Bir dəfə komitəyə getdim ki, görüm məni qarşılayacaqmı, necə qarşılayacaq?! (Çoxları vəzifəyə keçəndən sonra sözlərini də, özlərini də, tanış-bilişi, dostları da unudurlar.)

Məni illərlə tanıdığı, ünsiyyətdə olduğu adam kimi qarşıladı və «Nəşriyyat komitəsi»ndə işlədiyi 1983-cü ilə qədər çıxan bütün kitablarımın plana salınmasına təmənnasız kömək etdi. Qəribədir ki, o vaxtkı kişilərin, demək olar ki, hamısı tamahsız, təmənnasız, xeyirxah idilər. Yəqin buna görə də onlar mötəbər idilər. Heç şübhəsiz ki, indinin özündə belə onlardan söz düşəndə adlarının böyük ehtiramla çəkilməsi də bununla bağlıdır. Adı ehtiramla çəkilən kişilərdən biri də Əlfi Qasımovdur. Əlfi müəllimlə dünyasını dəyişdiyi 1985-ci ilə qədər dostluğa yaxın ziyalı münasibətində olduq.

Həyatının sonuna yaxın ürəyindən şikayətlənirdi. Hətta infarkt keçirmişdi. 5 saylı şəhər xəstəxanasının kardeologiya şöbəsində yatırdı. «Gənclik» nəşriyyatının baş redaktor müavini Hidayət Orucov və «Kitablar aləmi» jurnalının redaktoru Sabir Tanrıverdiyevlə yazın gəldiyini xəbər verən ilıq bir mart axşamı Əlfi müəllimə baş çəkməyə getdik. Bizi sevincək qarşıladı. Gülə-gülə dedi: «Həkimlər deyirlər ki, yemək olmaz, içmək olmaz, hətta çox sevinmək də olmaz. Belə də şey olar? Artıq özümü yaxşı hiss edirəm. Sabah həkimlərdən xahiş edəcəm məni evə buraxsınlar. Mütləq evə gələrsiniz. Qara qızın (həyat yoldaşı Rəhilə xanımı belə təqdim edirdi) mürəbbəli çayından içərik. Burada yoxdur, evdə təzəcə çıxan «Toy gecəsi» romanımı da sizə bağışlayaram. Ürəyimin odu ilə yazmışam. Görəsən tənqid necə qarşılayacaq? Sonra acı təbəssümlə: «Deyəsən, ürəyimi çox incitmişəm. O da məndən intiqam alır» – deyəndə tibb bacısının başı qapıda göründü. Bu o demək idi ki, vaxtdır. Əlfi müəllim tibb bacısının «olmaz» sözünə məhəl qoymadan bizi pilləkənlərin başına qədər ötürdü. Bizimlə öpüşüb ayrıldı. Kim bilərdi ki, bu son görüşümüzdür. Səhərisi gün ildırım sürəti ilə şəhərə xəbər yayıldı ki, yazıçı Əlfi Qasımov keçinib. Əlfi müəllim qələminin və ağlının iti vaxtında – 58 yaşında xatirəyə çevrildi. Təsəllimizi onda tapırıq ki, gözəl insan və gözəl yazıçı Əlfi Qasımov «Adilənin taleyi», «Məni qınamayın», «Könülsevən», «Toy gecəsi» və s. kimi roman və povestləri ilə əbədilik qazanmışdır.

O DA BAKI HƏSRƏTİLƏ YAŞAYIRDI*



İraq Türkman yazarlarından ikisi Azərbaycan nisgili ilə yaşayır, vətənimizə sevgi və məhəbbətlərini gizlətmirdilər.

Yaşar könlüm;
Çırpınar, yaşar könlüm.
Bağdadda bir ah çəkər
Bakıda yaşar könlüm.

deyən rəhmətlik Əbdüllətif Bəndəroğlunu ölkəmizdə tanımayan az adam tapılardı. Onun səmimiyyətinə inanmayan isə demək olar ki, yox idi.

Azərbaycanı öz vətəni hesab edən və buna mənəvi haqqı olan Mövlud Taha Qayaçı isə hislərini, isti münasibətini yazıları və məktubları vasitəsi ilə izhar edirdi. Onun xalq şairi Rəsul Rza, prof. Abbas Zamanov və bizə yazdığı məktublarını həyəcansız oxumaq olmurdu. Təəssüflə deməli oluram ki, ədəbiyyatımızın dostu, yazıçı və folklorşünas Mövlud Taha 7 mart 2011-ci il tarixdə, ömrünün 70-ci baharında əbədiyyətə qovuşdu. Təsəllini onda tapıram ki, 1966-cı ilin aprel ayından dostluq etdiyim, Bakıya həsrətlə yaşayan qardaşımın arzusu ürəyində qalmadı. İki dəfə onu Azərbaycana dəvət etdim. Yazıçılar Birliyində, Nizami adına Ədəbiyyat İnstitutunda, Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində, «Ədəbiyyat qəzeti»ndə yüksək səviyyəli görüşlər keçirdik. Oxucularımız onun yaradıcılığı ilə hələ keçən əsrdən «Ədəbiyyat və İncəsə-

* Bax: «Ədəbiyyat qəzeti», 06.05.2011

nət» qəzetində çap olunan (18.04.1980) maraqlı «Dayı Mehdi» hekayəsi vasitəsi ilə tanış olmuşdular.

Azərbaycanda yaradıcılığına yüksək qiymət verilən dostum Yazıçılar Birliyinin fəxri üzvü seçilmişdi. Yazıçılar Birliyinin sədri Anar müəllim üzvlük vəsiqəsini ona təqdim edəndə dostumun keçirdiyi sevinc və qürur hisləri indi də gözlərimin önündən getmir.

Mövlud Taha Qayaçı İraqda mənim yaradıcılığıma məqalə həsr edən ilk tədqiqatçıdır. (Bax: «Qardaşlıq» dərgisi, №10–11, Bağdat, 1972, s. 30–31)

Haqqımda son yazısı «Sevməmək olmur onu» oldu. (Bax: «Türkmanelı Ədəbiyyat və Sənət» dərgisi, sayı 30, Kərkük, Temmuz (iyul) 2010.)

Mövludla ən azı ildə bir dəfə görüşərdik. Türkiyədə Kayseri şəhərində Erciyes Universitetində və İstanbulda konfranslarda görüşlərimiz şirin xatirətək yaddaşımdan silinməyəcək. Həddən artıq zarafatcıl və həyatsevər dostumla son görüşüm keçən ilin may ayında baş tutdu. Görkəmli folklorşünas alim Əta Tərzibaşı və başqa dostları görmək amacı

ilə təyyarə ilə İraqın tamamilə təhlükəsiz olan şimal bölgəsinə – Ərbil şəhərinə gedərək oradan Kərkük şəhərinə yollandım. Kərkükün qırx km-də Altun Köprüdə Mövlud Taha, Bəndəroğlunun kürəkəni Cəlal Polad və başqaları dörd maşınla məni qarşıladılar, cəmi bir neçə ay əvvəl güclü partlayış olmuş restoranda çay və sərinlədici içkilər içərək birbaşa Əta Tərzibaşının evinə üz qoyduq. Orada xeyli ziyalı toplaşmışdı. Qəzet, dərgi, radio və televiziyadan gələnlər də az deyildi. Ya qismət, bir də nə vaxt görüşərik – deyərək şəkil çəkdirdik. Bu, Mövludla son görüşümüz və çəkdirdiyimiz son şəkil oldu.

YERİ GÖRÜNƏN VİCDANLI ALİM, YAXŞI DOST

Professor Xeyrulla Məmmədovla məni rəhmətlik Abbas Zamanov və Ayaz Vəfalı tanış və yaxın etmişdilər. Hər ikisi deyərdi ki, Xeyrulla müəllim ciddi insan və ciddi alimdir. Abbas müəllim onun xatirini həddən artıq çox istəyirdi. Bunun sirrini Abbas müəllim dünyasını dəyişəndən sonra bildim. Məlumdur ki, Abbas müəllim yaradıcı ömrünün əsas hissəsini M.Ə.Sabirə həsr etmişdi. Hətta lap qoca vaxtında da hər il Şamaxıya «Sabir poeziya günləri»nə gedərdi. Mütləq Xeyrulla müəllim də Abbas müəllimlə birlikdə olardı. Sonralar mən Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində şöbə müdiri işləyəndə, muzeyin direktoru, professor İsrafil İsrafilovun xeyirduası və şöbə əməkdaşlarının gərgin əməyi sayəsində tez-tez tanınmış yazıçı və şairlərlə görüşlər keçirir, dünyasını dəyişmiş görkəmli qələm sahiblərinin yubileylərini yüksək səviyyədə qeyd edərdik. Bu münasibətlə kitab-bukletlər buraxardıq. Tofiq Bayram – 70, İsi Məlikzadə – 70, Hüseyn Arif – 80 və s. belələrindən idi. Yaxşı yadımdadır Nigar Rəfibəylinin, Nazim Hikmətin, ingilis yazıçısı Ceyms Oldricin, Əzizə Cəfərzadənin və bir çox başqalarının da yubileylərini əla səviyyədə keçirdik.

Xeyrulla müəllim bəzən çıxış edər, ancaq necə çıxış edərdi! Bir dəfə mənə məsləhət gördü ki, M.Ə.Sabirin yaradıcılığına həsr olunmuş tədbir keçirək. Keçirdik də. Tədbirə çox adam gəlmişdi. O da yadımdadır ki, mən giriş sözümdə Sabirin ağır həyat keçirdiyini, hətta dolanmaq üçün sabun bişirib satdığını

dilə gətirəndə şair Qabil hirsləndi: «Onlar hamısı Sovetin propoqandası idi» – dedi. Mən Xeyrulla müəllimə baxdım. Başı ilə işarə etdi ki, cavab verməyim. Sonra Xeyrulla müəllimə söz verdim. Alimin Sabir haqqında necə maraqla, necə məhəbbətlə danışdığını zaman keçdiyinə görə təsvir etməkdə çətinlik çəkirəm. Lakin «kəşf etdim» ki, Abbas Zamanov Xeyrulla müəllimi niyə belə çox istəyirmiş.

Bu unudulmaz tədbirə qədər professor Xeyrulla Məmmədovla bir müddət Nizami adına Ədəbiyyat İnstitutunda Dissertasiya Şurasının (o vaxt Müdafiə Şurası adlanırdı) üzvü olmuşduq. Mən indiki kimi, Dissertasiya Şurasının həmsədri idim. Həmsədr olanda istəsəm də, istəməsəm də Şuranın üzvlərinin fəaliyyətinə ciddi nəzarət etməli olurdum. Görkəmli tənqidçi alim, akademik Kamal Talıbzadə Müdafiə Şurasının sədri idi. Lakin səhhətinə görə yığıncaqlarımıza az gəlirdi. Bütün ağırlıq mənim üzərimə düşürdü. Nə Dissertasiya Şurasının üzvlərinə, nə də opponentlərə gördükləri ağır işin müqabilində bir qəpik də pul vermirdilər. Odur ki, Dissertasiya Şurasının üzvlərini ciddi intizama dəvət etmək o qədər də asan deyildi. Yadıma gəlmir ki, Xeyrulla müəllim Müdafiə Şurasının işinə gecikəydi. Həddən artıq intizamlı, səliqə-sahmanlı, işə vicdanla yanaşan, tanınmış alim idi. Müdafiə Şurasında heç vaxt «çıxış xatirinə çıxış» etməzdi. Qoy bu sətirləri oxuyanlar məni qınamasınlar. Ona görə də «çıxış xatirinə çıxış» məsələsinə aydınlıq gətirirəm. Ali Attestasiya Komissiyasının Nizamnaməsində Dissertasiya Şurasının üzvlərinin fəallığına xüsusi diqqət yetirilir. Dissertanta bir neçə sual vermək, müdafiədə bir neçə nəfərin çıxış etməsi yazılmamış qanun kimi tələb olunurdu. Elə indinin özündə də belədir.

Xeyrulla müəllimin opponentliyi Müdafiə Şurasının üzvləri üçün toy-bayram olardı. Yığcam danışar, çox mətləbləri ortaya qoyardı. XIX əsrin sonu, XX əsrin birinci rübü üzrə cəsarət edib onunla mübahisəyə girişməkdən çəkinərdik. O döv-

rün tanınmış tədqiqatçısı və mötəbər söz sahibi professor Xeyrulla Məmmədov idi. Bunu alimlərimiz bilir və etiraf edirdilər. Müdafiə Şurasının yığıncaqlarında bəzən gözlənilməz münaqişələr baş verirdi. Belə olan halda güvəndiyim həmkarlarımın üzünə baxar, çıxış yolu axtarardım. Çox inandığım alimlərdən biri də Xeyrulla müəllim idi. Bir dəfə çox xoşagəlməz hadisə baş verdi. Mir Cəlal müəllimin nəvəsi, ədəbiyyatımızı yaxşı bilən, artıq əsl alim kimi tanınan Nərgiz Paşayeva Elçinin yaradıcılığından doktorluq dissertasiyasını müdafiə edirdi. Müdafiədə ölkəmizin hüdudlarından kənarda da yaxşı tanınan alimlər, Nərgiz xanımın yaxın qohumları, hətta atası Arif Paşayev və bacısı, görkəmli ictimai xadim, ölkəmizin birinci xanımı Mehriban Əliyeva da iştirak edirdi. Yığıncağı mən aparırdım. Nərgiz xanım çox məntiqli, bəlağətli nitq ilə dissertasiyanın məziyyətlərindən danışırdı. Birdən akademik Bəkir Nəbiyev Nərgiz xanıma müraciətlə dedi ki, monoqrafiyalarınızı oxumuşuq, Ali Attestasiya Komissiyasının Nizamnaməsi əsasında dissertasiyanızı İnstitutumuzda müzakirə edərək müdafiəyə buraxmışıq (Bəkir müəllim onda da, AMEA-nın Ədəbiyyat İnstitutuna rəhbərlik edirdi, elə indi də həmin ağır, lakin şərəfli vəzifəni layiqincə yerinə yetirir). Məncə, kifayətdir.

Sizdən sonra opponentləriniz olan görkəmli alimlərimiz, eləcə də Müdafiə Şurasının üzvləri, eləcə də qonaqlarımız bu dəyərli əsəriniz barədə ürək sözlərini deyəcəklər. Gözlənilmədən akademik Kamal Talıbzadə dedi: «Bəkir, qoy danışsın. Nərgiz xanım burada oturanların çoxuna ədəbiyyat elmindən dərs deyir». Nərgiz xanımın dissertasiyasında estetika məsələləri yer aldığına görə dissertasiya Şurasının tərkibinə əlavə olunmuş akademik Fuad Qasımzadə yerindən: «Mən Kamal müəlimin tərəfindəyəm» – dedi. Məsələ ciddiləşdi. Bəkir müəllim dedi ki, onda hər iki təklifi səsə qoyaq. Gözüm sol tərəfdə, 2-ci cərgədə, həmişəki yerində əyləşən Xeyrulla müəllimi aradı. Xeyrulla müəllim başını buladı. Sanki Allahdan qəlbimə nida

gəldi və dedim: «Sədr kimi belə hesab edirəm ki, buna ehtiyac yoxdur. Nərgiz xanımdan xahiş edirəm, müxtəsər danışsın. Etiraz edən yoxdur». «Xeyr» sədaları eşidildi. Müdafiəni yüksək səviyyədə başa vurduq. Səsvermədən sonra Xeyrulla müəllimə dərin minnətdarlığımı bildirdim. Səbəbini bilən olmadı. İndi açıqlayıram. Xeyrulla müəllim müdrik adam idi. Ən başlıcası isə vicdanlı alim, yaxşı dost idi. Yeri açıqca görünən dəyərli alimimiz təəssüf ki, sıralarımızı çox erkən tərk etdi. Təsəlli olan odur ki, sanballı əsərlər qoyub getdi.

O, TƏMƏNNASIZ İNSAN, DƏYƏRLİ DOST İDİ



Onun bu fani dünyanı tərk etdiyini eşidəndə inanmadım. Necə inanaydım ki, aramızda ondan sağlam cüssəli başqa bir dostumuz yox idi. İlboyu səhər-axşam Xəzərdə çimərdi. Xəzərlə bir-birinə o qədər dərin mehr salmışdılar, inanıram ki, Xəzər dənizi illərlə nəvazişlə qoynuna aldığı dostunun yolunu indi də gözləyir. Elə biz özümüz də. Hərdən fikirləşirəm ki, qapıdan girəcək, gur səsi ilə otağa dirilik gətirəcək, duzlu-məzəli, bəzən ciddi elmi söhbətləri ilə ovqatımıza ovqat gətirəcək. Gəldiyi kimi də gözlənilmədən, son dəfə olduğu kimi, çıxıb gedəcək. Axırıncı dəfə «Ədəbiyyat qəzeti» redaksiyasında görüşmüşdük. Rəhmətlik Əlibala Hacızadə və Gülhüseyn Hüseynoğlu da orada idi. Ağəddinin xahişi ilə şəkil də çəkdirdik. «Ölüm-itim dünyasıdı, qoy yadigar qalsın» – dedi. Çay içdik. Adətən, zarafatı sevməyən Ayaz Vəfalı ilə xeyli zarafatlaşdı. Birdən ayağa qalxdı: «Di salamat qalın. Qismət olsa görüşərik» – dedi və çıxıb getdi. O gedəndən sonra Ayaz Vəfalı ilə bir-birimizə baxdıq. İlk dəfə idi ki, Ağəddin bizimlə belə salamatlaşırdı. Hələ israrla birgə şəkil çəkdirməyimiz nə idi?

Deyirlər əməlisaleh adamlar ölümün yaxınlaşdığını duyurlar. Kəndimizdə Seyid Əli kişi vardı. Bir gün hamı ilə halallaşdı. Səhərisi gün eşitdik ki, Seyid Əli kişi dünyasını dəyişib. Mənim kiçik qardaşım Ələsgər müəllimə də belə bir ölüm qismət oldu.

Lakin Ağəddini belə tez itirəcəyimiz ağlıma da gəlməzdi. Nə edəsən həyatın öz qanunları vardır. Dahi Səməd Vurğun

«Dünya» adlı fəlsəfi şeirində göstərdiyi kimi «Bir də görürsən ki, açılan solur».

Ağəddin Mansurzadə ilə qələm dostluğumuz keçən əsrin 70-ci illərindən başlayıb. Bütün övladlarının toyunda iştirak etmişəm – desəm dostluğumuzun qələm dostluğu çərçivəsini yarıb keçdiyi aydın olar. Hər ikimiz 1997-ci ildə Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Elmi-Dini Şuranın üzvü olduqdan sonra münasibətlərimiz daha da dərinləşdi. Hacı Ağəddin inam və iman sahibi idi. Sadə, təvazökar, savadlı, ədəbiyyatımızı, ilahiyyatı dərindən bilən gözəl bir insan idi. Hamını özünə dost bilirdi. Həqiqətən də, hamı onun xatirini çox istəyirdi. Deyirlər insan yolda tanınar. Mən dəfələrlə Ağəddinlə Elmi-Dini Şuranın xətti ilə Ağdaş, Göyçay, Əlibayramlı, Mingəçevir, Lənkəran və Masallıda olarkən yuxarıda sadaladığım müsbət keyfiyyətləri onda gördüyümdən çəkinmədən sadaladım. Ağəddin kəsərli qələm sahibi idi. Qafqaz Müsəlmanları İdarəsinin xətti ilə buraxılan bütün kitabların redaktoru, tərtibçisi, bir sözlə çapına məsul şəxs Ağəddin

Mənsurzadə idi. Onun Şeyxülislam Allahşükür Paşazadəyə, eləcə də müəllimi-professor Nəsir İmanquliyevə həsr etdiyi «Nəsir İmanquliyev məktəbi» kitabları çox mətləblərdən xəbər verir. Hər şeydən əvvəl, onun danılmaz qələm sahibi olmağından, sözü hər şeydən uca tutmağından, hərtərəfli biliyindən, dünyagörüşündən söz açır. Hələ mən onun akademik Vasim Məmmədəliyevin 60 illik yubileyi münasibəti ilə çap olunan «Vasim Məmmədəliyev zirvəsi» adlı kitaba yazdığı ön sözü demirəm.

Onu da qeyd edim ki, Şeyxülislamın rəhbərliyi ilə Elmi-Dini Şuranın üzvlərindən akademik Vasim Məmmədəliyev, akademik Teymur Bünyadov, akademik Fuad Qasımzadə, professor İsrafil İsrafilov, Hacı Ağəddin və mən Cənub bölgəsinə getmişdik. Masallıda – Daşvənd mehmanxanasında qalırdıq. Ağəddin müəllimlə mən bir otağa düşmüşdük. Orada məlum oldu ki, Hacı Ağəddin təkcə yaxşı müsahib deyil, eyni zamanda poeziyamızı yaxşı bilən, qeyri-adi yaddaşı olan ziyalımızdır. Dediyim kimi, görkəmli alimlərimizin, din xadimlərimizin, ziyalılarımızın Vasim müəllimə həsr etdikləri məqalələri içinə alan «Vasim Məmmədəliyev zirvəsi» adlı kitaba Ağəddin böyük həcmli giriş məqaləsi yazmışdı. «Daşkənd» mehmanxanasında axşam məqaləni mənə oxumaq istədi. Vaxtın gec olduğunu bəhanə etdim. Əslində, çəkinirdim ki, nöqsan olsa deyərəm, o da məndən inciyər. Bu, qələm sahiblərinin çoxuna xas olan xüsusiyyətdir. Səhərisi axşam inadla, coşa-coşa həddən artıq böyük və sanballı məqaləni oxudu. Maraqlı bir yazı idi. Lakin məqalələr toplusundan ibarət kitab üçün çox böyük idi. Birinci iradım bu oldu. Ağəddin bu iradımı qəbul edəndə çəkinmədən məqalənin mətləbdən kənar yerlərinin ixtisarı barədə fikrimi bildirdim. Sonralar Ağəddinin redaktorluğu və tərtibi ilə çıxan kitabda onun ön sözünü oxudum və gördüm ki, sözümü yerə salmayıb. Təşəkkür edəndə təvazökarlıqla dedi ki, mən sənə təşəkkür etməliyəm ki, məqaləmin sanballı çıxmasında əməyin oldu.

Ağəddin təmənnasız adam idi. Elə ki, insan təmənnasız oldu, onda yalnız yaxşı keyfiyyətlər axtar. Məlum məsələdir ki, çoxları kitablara rəy yazanda çox vaxt müəllifin mövqeyini nəzərə alır və ya nəsə bir təmənna güdürlər. Ağəddin mənim «İraq-Kərkük bayatıları» kitabıma rəy yazanda biz şəxsən tanış deyildik. Bir-birimizi mətbuatdan tanıyırdıq. «Yaxın, uzaq bayatılar» məqaləsindən hasil etdiyim bu oldu ki, Ağəddin Mansurzadə həddən artıq səmimi, xeyirxah, alicənab və təmənnasız ziyalıdır. Sonralar da yaradıcılığıma səmimi məqalələr həsr etmişdi. Dostluğa çevrilən şəxsi tanışlıqdan sonra qənaətlərimdə yanılmadığım aydın oldu. Maraqlıdır ki, bu xüsusiyyətləri onun oğlanlarında, qardaşlarında, dayısı oğlu notarius Bəşirdə də gördüm. Onu da gördüm ki, bu həkimlər, hüquqşünaslar, şərqşünaslar nəslində hamı yazıb-yaradır, daha doğrusu, hamı ədəbiyyatla nəfəs alır. Qardaşları Zülfüqar və Fəxrəddin Ziya, oğlu Savalan neçə-neçə şeir kitablarının müəllifidirlər. Və mənə belə gəldi ki, bu işdə Ağəddinin şəxsi nümunəsi az rol oynamayıb. Ağəddin həyatsevər, qəlbi yaşamaq eşqi ilə döyünən, gözü tox, nəfsi tox, olana şükr edən, olmayana heyifsilənməyən dəyərli dost, qardaş idi. Əməlləri ilə ad-san qazanan bir insan idi. Ağəddin haqqında yazarkən gözləmədiyim halda bir Çin kəlamı qəlbimə hakim kəsildi: «Əmələ çevrilməyən bilik adama əzab verir». Şükürlər olsun ki, bu baxımdan Ağəddin xoşbəxt adam idi. Onun illərdən bəri çap olunan, ziyalılar və adi oxucular tərəfindən təqdir edilən 20-dən artıq kitabı, saysız-hesabsız elmi və publisistik məqalələri deyilənlərə dayaq olur. Yoxluğu qəlbimizi üşütsə də, təsəllini onda tapırıq ki, Ağəddin öz xeyirxah əməlləri, dəyərli əsərləri və duzlu-məzəli söhbətləri ilə həmişə bizimlədir.

GÖDƏK OLDU ÖMRÜN SƏNİN*...



Tələbə yoldaşım, dostum Ənvər Rzanın yenicə çapdan çıxmış «Kəlbəcərə gedən yollar» kitabını bacısı oğlu Qorxmaz mənə hədiyyə edəndə həm sevindim, həm də qəhərləndim. Sevindim ona görə ki, gözəl şair, tərcüməçi və alim Ənvər Rzanın sağlığında işıq üzü görməyən bir çox şeir, poema və ingilis dilindən birbaşa tərcümələri bu kitabda cəm olunub.

Qəhərlənməyim, qəm, qüssəkədərə batmağım beş il bir yerdə oxuduğum (1957–1962) məslək və qələm dostum Ənvəri çox tez itirməyimiz oldu. Biz Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olanda 100 nəfər idik. Onlardan iki nəfər şair – Ənvər Rza və Mətləb Misir (Qasımov), iki nəfər tərcüməçi – Ənvər Rza və mən, öz alim – Ənvər Rza, Fərman İsmayılov (fəlsəfə elmləri doktoru) və mən çıxdım. Ənvər Rza hər şeydə bizdən öndə idi. Bizdən əvvəl müdafiə etdi. C.Bayronun «Şərq poemaları» əsasında İngilis poeziyasının Azərbaycan dilinə tərcümə məsələləri mövzusunda namizədlik dissertasiyası yazmışdı. Bizdən əvvəl evləndi. Yaxşı yadımdadır toyu 3-cü mikrorayonda «Arzu» şadlıq evində oldu. Məclisi sevimli müəllimimiz İsmixan Rəhimov aparırdı. Ənvərin tələbə dostları adından təbrik üçün mənə söz verilmişdi. O da yadımdadır ki, Ənvərin «Yollar haçalanır» şeirini əzbərdən dedim. Üç bənddən ibarət olan şeirin son misraları belədir:

Bax: 525-ci qəzet, 08.01.11

Yollar birləşər də, haçalanar da,
Çalış məhəbbətin haçalanmasın.

Heyif o günlərdən. Yaradıcılığın möhtəşəm aldanışı bizi ağuşuna alıb öz dünyamızdan qoparmışdı. Ömrün yarpaq tökən çağı olduğu heç ağlımıza da gəlməzdi. Bilməz idik ayrılıq var, ölüm var. Heç bilmirəm niyə belə, gödək oldu ömrün sənin?

Ənvər bu fani dünyanı tərk edəndə hələ əlli yaşı tamam olmamışdı. Təsəllini onda tapırıq ki, tanınmış alim və şair kimi, ingilis poeziyasının Azərbaycan dilinə orijinaldan ilk tərcüməçisi kimi əbədiyaşar bir irs qoyub gedib.

«Kəlbəcərə gedən yollar» («Azərnəşr»- 2010, 412 səh.) kitabını vərəqlədikcə deyilənlərin şahidi olacaqsınız. Kitabın redaktoru, ömrünü kitabların hazırlanması və nəşri kimi nəcib bir işə həsr edən, «Azərnəşr»in baş redaktoru Əlövsət Ağalarov ona kövrək bir ön söz yazmış, Ənvərin boya-başa çatdığı Kəlbəcər ədəbi mühitini göz önünə gətirmiş, Aşıq Şəmşirdən, Məmməd Aslandan, Bəhməndən, Sücaətdən, Qəmkeş Allahverdidən söz açmış, kitabın poeziya pərəstişkarlarına layiqli ərməğan olduğunu xüsusi vurğulamışdır.

Onu da deyim ki, III–IV kurslarda oxuyanda İnstitutumuzda tələbələr arasında ingilis dilindən Azərbaycan dilinə və əksinə tərcümə üzrə müsabiqələr keçirilərdi. Poeziya üzrə Ənvər, nəsr üzrə indi professor olan Səyadulla Babayev və mən fərqlənərdik.

Ənvər həyatının sonuna kimi ingilis dilindən Azərbaycan dilinə tərcümədən ayrılmadı. «Kəlbəcərə gedən yollar» kitabının 333–409-cu səhifələri bütövlükdə ingilis poeziyasından edilmiş tərcümələrə ayrılmışdır. Burada V.Şekspirin «Bülbüllə söhbət», «Təmiz ad», «Məhəbbətin fəlsəfəsi», şairin sonetləri, C.Bayronun şeirləri, «Şilyon məhbusu» və «Mazepa» poemaları, R.Şellinin «Gecən xeyrə qalsın», «Şivən», «Solmuş bənövşə», «Yay və qış» şeirləri və «Anarxiya maskaradı» poeması,

Henri Lonqfellonun və Robert Bernsin adamı haldan-hala salan şeirləri yer alır. Maraqlıdır ki, biz institutda Bayronun «Şilyon məhbusu» poemasını keçənə qədər bilmirdik ki, insanın saçı dəhşətli qorxudan bir anda ağara bilərmiş. Görün Ənvər poemanın həmin hissəsini, daha doğrusu, başlanğıcını nə qədər gözəl tərcümə edib.

Saçım qırov kimi ağdır necə də,
Amma yaşdan deyil bu ağlıq, inan,
Nə də çallaşmayıb bircə gecədə
Qəfil vahimədən, qəfil qorxudan.
Ağır zəhmət deyil belimi əyən,
İnsanın qəddini iş əyə bilməz.
Qəmli sükunətdə pas atmışam mən,
Məhbəs salıb məni bu hala, məhbəs!

Ənvər Rzanın tərcüməsində bir ailənin başına gətirilən dəhşətlər ürəkağrısı ilə dilə gətirilir. İnsanın gözləri önündə Sovet dönəmində bütöv ailələrin başına gətirilən dəhşətlər canlanır:

Təkcə mən qalmışam altı qardaşdan,
Odda yandırdılar bir qardaşımı,
İkisi səhrada, əhdi-inamı
Qanla möhürləyib, sonra verdi can.
Üçümüz salındıq zülmət məhbəsə,
Yatdı qəlbimizdə dərd düyün-düyün,
Öldü qardaşlarım, qaldım mən isə,
Qaldım şəhidləri ağlamaq üçün.

Ənvər Rza ingilis poeziyasının incilərini milli koloriti saxlamaqla elə gözəl tərcümə edib ki, oxumaqla doymaq olmur. Hələ mən şairin öz poeziyasını demirəm.

Ənvər Rza səmimi insan idi: Onun səmimiyyəti poeziyasına da hopub. Ənvər poeziyası aşıq poeziyasından, el şairlərinin yaradıcılığından da qaynaqlandığı üçün Bəhmən və Məmməd Aslanın poeziyası kimi elin yaddaşında, aşıqların sazında yaşayır. Ənvərin poeziyası bulaq suyu kimi dumduru, şəffafdır.

Nə yaxşı ki, kitaba Ənvərin tələbəlik illərində yazdığı şeirləri də daxil edilib. Hələ birinci kursdan çoxumuz onun şeirlərini əzbər bilir, təqdir edirdik: «Kəklik», «Gözlərin», sonralar «Layla», «Dəlidağ», «Gizli dərd», «Bahar gəlir», «Murov» və s. Xüsusən də şairin «Gizli dərd» şeiri Əli Kərimin «Qaytar ana borcunu» şeiri kimi biz tələbələrin dillər əzbəri olmuşdu. Tələbə oğlan kənddə intizarla xəbər gözləyən sevgilisi ilə əlaqə saxlaya bilmir. Məlumdur ki, Sovet dönəmində 50–60-cı illərdə kəndlərlə yeganə əlaqə məktublaşma yolu ilə olurdu. Telefon filan yox idi. Dərd budur ki, o yazdığı məktubları sevgilisinə göndərə bilmir:

Od tutub alışıram,
Dərdin, qəmin əlindən.
Yanan şey tüstülənər
Tüstüsüz yanıram mən.

Sən məndəki dərdə bax,
Yazdığım məktublar da
Yığın-yığın, on-ondur,
Göndərə də bilmirəm
Qardaşı poçtalyondur.

Kitabın adını «Kəlbəcərə gedən yollar» qoyulması təsadüfi deyil. Şairin yollara həsr elədiyi neçə-neçə gözəl şeirləri vardır. «Kəlbəcərə gedən yollar» ayrıca məna daşıyır:

Min bulaqdan içib gedir,
Qayaları biçib gedir.
Ürəyimdən keçib gedir,
Kəlbəcərə gedən yollar.

Şair «Yollar» adlı başqa bir şeirində dünyada mövcud olan yollardan söz açır, ürəkdən ürəyə gedən yolu yada salır. Şair qələminə heyran olmamaq olmur:

Yol var ki, baş alıb min yoldan keçir,
Maral buynuzu tək atır qol-budaq.
Dolanıb gah dağdan, gah yaldan keçir,
Düzlərdə qəddini düzəldir, ancaq.

Şair sonda göylərdən enir və mətləbin üstünə gəlir. Bir qızın ürəyinə yol tapdığından danışır və deyir:

Bu yolun biri də tez düşə bari,
Onların evinə kaş bizim evdən.

Şairin hansı şeirini götürürsən götür orada bir yenilik, orijinallıq var. «Doğum evi» şeirinə diqqət vermək kifayətdir ki, onu alqışlayasan:

Qaçıb itgin düşübdür
Burdan kədər, qüssə, qəm –

deyən şair doğum evini sevincxana adlandırır.

Böyük bir poema təsiri bağışlayan «Tüstülər» şeiri insanı haldan-hala salır:

Uzaqdan tüstü qalxsa,
Müsafirlər, yolçular
Düşünərlər o yerdə
Ya şəhər var, ya kənd var.

Şair kənd evlərindən söz açır, xoşbəxt ailələri, firavan, abad evləri dilə gətirir.

Və birdən ovqatı dəyişir. Olub-keçənləri yada salır, qanlı qadalı müharibənin faciələrindən danışır:

Kəndimizdə ev də var -
Kəndimin kədəridir.
Kəndimizdə ev də var
Neçə ildən bəridir
Bacaları tüstüsüz,
Qapıları bağlıdır
Çalm-çarpaz dağlıdır.

Hərbin uğursuz yeli,
Üzərindən əsibdir,
Cəbhələrdə partlayan
Bombaların tüstüsü
Tüstüsünü kəsibdir...

Ənvər Rzanın yaradıcılığında bir məqam onu bir çoxlarından fərqləndirir. Şairlər tanıyıram uzun-uzadı, aşıq yaradıcılığında «Sicilləmə» adlandırılan şeirlər kimi şeirlər yazırlar, xalq arasında deyildiyi kimi, «çevir tatı, vur tatı», axırda da heç bir yeni fikir demirlər. Ənvər Rzada isə tamam başqa bir mənzərənin şahidi oluruq. Onun əksər şeirləri gözlənilməz, valehedici sonluqla bitir. Bunun bariz nümunəsinə «Sən deyən oldu, qonşu», «Gizli dərd», «Ölənlərim», «Ahın dağlara», «Zürək», «Gülüş otağı», «Yollar», «Vurğun», «Yaralı misralar», «Axı necə dinclik tapım», «Maralgöl», «Bu şəhərdə mənim üçün», «Cüyür», «Şeir yazıram», «İşə gedirəm» və s. Ənvərin bu və digər şeirlərini oxuyandan sonra bir daha özüm üçün «kəşf» etdim ki, şair olmağın zilləti, ağrısı-acısı xoşbəxtliyindən çox imiş. Aləmin dərdi, aləmi onun öz dərdinə çevrildiyindən şair olan bəndə ömrü boyu od-alov içində yanırmış.

Ənvərin poeziyasında təbiət təsviri çox güclüdür. Şairin kitabını vərəqlədikcə, təbiət təsvirləri ağlımı başımdan aldıqca, bir həqiqəti dərk elədim ki, dağlarda yayın əlvanlığını, qışın çılğınlığını görməyən şair, təbiəti, dağları təsvir edə bilməz.

Adətən, şairlər dağları, bulaqları, yaylaqları, çəmənləri tərənnüm edirlər. Ənvər Rzada da belə təkrarsız şeirlər çoxdur. Lakin dərənin gözəlliyini vəsf etmək hər şairə qismət olmur:

Mərcanı çiyələk, gül dərə-dərə,
Gəldim bir dərəyə, dərə nə dərə.

Ənvər Rzanın insanın ruhunu dilləndirən, nəşə verən neçə-neçə mahnısı vardır. «Gözlərəm səni», «Bircə sənsən, bircə mən», «Bəlkə, elə baharsan», «Gözlərinə göz dəyər» və s. belələrindəndir. Təsəvvür üçün aşağıdakı bəndə diqqət yetirmək bəs edər:

Dikilibdir təkcə sənə gözlərim,
Sanki baxır aya, günə gözlərim.
Vurulubdur gözlərinə gözlərim.
Məhəbbətin ilk sözünü göz deyər,
Elə baxma, gözlərinə göz dəyər.

Ənvər Rzanın həyatı barədə düşünərkən iki misrası qəlbinə hakim kəsildi:

Necə də bərk yatmışammış, ay haray!
Tay-tuş köçüb cərgəmizdən bir alay.

Təəssüf ki, şair özü də cərgəmizdən tez getdi.

Əllicə yaşı da haqlaya bilmədi. Sağalmaz xəstəliyə tutulduğunu biləndə yazmışdı:

Bel bükən bu xəbəri
Kaş yalana yozalar.

Bir bayatısında isə:

Tale yatıb, bəxt yatıb,
Dərdim yatmır oyaqdı –

deyən şair Moskvada onkoloji xəstəxanada son şeirini yazmışdı:

Yanğın düşmüş gur meşəyəm,
Çiliklənmiş bir şüşəyəm.
Boynubükük bənövşəyəm –
Gödək oldu ömrüm mənim.

İnsana qəm, qüssə, kədər, nisgil gətirən bu misralar həqiqətdən söz açır. Ənvərin yoxluğundan xəbər verir. Lakin bir həqiqət də var. Yaradıcı adamlar ölmürlər. Büyük həcmli, həddən artıq maraqlı «Kəlbəcərə gedən yollar» deyilənlərə dayaq olur.

MONOQRAFİK TƏDQİQATLARI:

1. «İraq–türkman folkloru». Bakı, 1992, 216 səh.;
2. «İraq–türkman folkloru». Bağdad, 1995, 160 səh;
3. «İrak–türkmen folkloru». İstanbul, 1998, 320 səh.;
4. «Kərkük dialektinin fonetikası». Bakı, 2003;
5. «Kərkük folklorunun janrları». Bakı, 2003, 316 səh.; Tehran, 2008, 314 səh.;
6. «İraq–türkman ləhcəsi». Bakı, 2004, 422 səh. (şərikli);
7. «Жанровыj состав Иракско-Төркменского фолғклора. Bakı, 2003, 128 səh.;
8. «Nəsimi haqqında araşdırmalar». Bakı, «Qarabağ», 2010, 168 səh.

MÜNDƏRİCAT

KƏRKÜK FOLKLORUNUN JANRLARI

Abidə bir əsər (prof. Mahir Naqib) 7
Giriş 12
I FƏSİL
Mərasim folkloru 32
İlkin janrlar 32
İnanclar 32
Yemindlər..... 44
Dualar və bəddualar (alqış və qarğışlar) 46
Fallar 58
Xalq mərasim və nəğmələri 60
Dini bayram və nəğmələr 71
Məişət mərasim və nəğmələri 73
Yas mərasim və nəğmələri 74
Toy mərasim və nəğmələri 80
II FƏSİL
Lirik növ 93
Xoyratlar və manilər 93
Xoryat üsulları.....138
Xalq türküləri 147
Beşik nəğmələri 158
Bayatı-tapmacalar 166
III FƏSİL
Epik növ 173
Nağıllar 173
Atalar sözləri və məsəllər 194
Tapmacalar 227
Lətifələr 241
Dastanlar 261
Nəticə 280
Qaynaqlar 284

BORCUMUZDUR BU EHTİRAM

Unudulmazlar haqqında uvertüra…….....306
Xilaskar.....311
Səməd Vurğunun dünya şöhrəti 314
İki zirvədən biri 319
Sağlığında heykəlləri ucaldılan fenomen insan.....334
O, xalqın ümid və güvənc yeri idi 345
Abbas müəllimi anarkən.....351
Ədəbiyyatşünaslıq elmimizin iftixarı.....366
Son şəkil.....375
Nəcabətli adam.....379
Həlim xasiyyətli, dağ vüqarlı.....382
Bağdaddan ağır xəbər.....386
Ömrüm sənsiz olmasın.....391
Hüseyn Arif dünyası.....394
Öyünməyə haqqı olan şair.....399
Fərman Kərimzadə.....411
Nəsrimizdə İsi Məlikzadə nəfəsi.....414
«Bir də görürsən ki, açılan solur…».....417
O, müdriklik zirvəsində bərqərar olmuşdu.....422
Azərbaycanın qoca qartalı.....429
«Natiqlər yetişir, şairlər doğulurlar».....434
Heyif sənə, Bəndəroğlu.....438
Böyük nəğməkar da köçdü dünyadan.....445
Ayrılığa dözmək olmur.....449
Xatirəyə dönən ömür.....456
Hər bir dərddən betər ayrılıq.....458
Bilməz idim ayrılıq var.....464
Yaxşılar ölmür.....467
Son görüş 471
O da Bakı həsrəti ilə yaşayırdı 474
Yeri görünən vicdanlı alim, yaxşı dost 477
O, təmənnasız insan, dəyərli dost idi 481
Gödək oldu ömrün sənin 485
Monoqrafik tədqiqatlar 493

Qəzənfər Paşayev
SEÇİLMİŞ ƏSƏRLƏRİ
III CİLD
Bakı, «Təhsil», 2012.

Bədii və texniki redaktoru: ***Abdulla Ələkbərov***
Kompyuter tərtibatçıları: ***Aqil Əmrahov, Mələk Cəlilova***
Korrektoru: ***Ülkər Şahmuradova***

Çapa imzalanmışdır 31.01.2012. Kağız formatı 60x90 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 31. Sifariş 120. Tiraj 300.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121^{A}
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: info@tahsilnp.com